

*Ötən 25 ilin 23 ili şanlı tarix illəridir. Bu gün Azərbaycan dünya miqyasında müasir, sürətlə inkişaf edən, gözəl, qonaqpərvər, ləyaqətli ölkə kimi tanınır.*

*İyirmi beş il böyük tarixdir. Biz artıq bütün dünyaya sübut etmişik ki, müstəqil həyat yaşaya bilərik, uğurla yaşaya bilərik. Bizim gözəlləşən şəhərlər, abadlaşan regionlar və dünyanın ən gözəl şəhərlərindən biri olan Bakı bunun əyani sübutudur.*

*Biz gələcəkdə bu yolla gedəcəyik, müstəqil siyasət aparacağıq. Xalqın iradəsi əsasında irəli gedəcəyik. Müstəqilliyimiz dönməzdir, əbədidir. Müstəqilliyimizin möhkəmlənməsində bütün Azərbaycan xalqına yeni uğurlar arzulayıram.*

*Yaşasın müstəqil Azərbaycan Respublikası*

ISSN 2309-1347

Azərbaycan Respublikasının Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyası

# DÖVLƏT İDARƏÇİLİYİ:
## NƏZƏRİYYƏ VƏ TƏCRÜBƏ

**2016**
**4 (56)**

**DÖVLƏT İDARƏÇİLİK AKADEMİYASI**
**BAKI – 2016**

*Demokratik cəmiyyətdə dövlət idarəçiliyinin, yerli özünüidarəetmənin nəzəriyyəsi və təcrübəsi üzrə tədqiqatlar*

**REDAKSİYA ŞURASI:** ***Ramiz Mehdiyev*** *(sədr)*

***Fatma Abdullazadə, Əli Həsənov, Fuad Ələsgərov, Akif Əlizadə, Məleykə Abbaszadə, Vahid Axundov, Fikrət Məmmədov, Əli Əhmədov, Urxan Ələkbərov***

**REDAKSİYA HEYƏTİ:** ***Urxan Ələkbərov***
*(redaktor)*

***Əlikram Abdullayev***
*(redaktor müavini)*

***Elman Nəsirov***
*(məsul katib)*

***Əli Nuriyev, Ədalət Muradov, Mehdi Abdullayev, Sevil Məmmədova, Fəxrəddin Nağıyev, Gülnarə Qurbanova, Etibar Nəcəfov, Elçin Əhmədov, Rəcəb Rəhimli, Firdovsiyyə Əhmədova, Ziyafət Həbibova***

*Elmi-nəzəri jurnal 2003-cü ildən nəşr olunur. İldə dörd dəfə çıxır.*

*Jurnal AAK-ın ictimai elmlər şöbəsinin ekspert şurası tərəfindən rəsmi qeydiyyatdan keçirilmiş və elmi nəşrlər siyahısına daxil edilmişdir.*

*Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə.*
*Elmi-nəzəri jurnal. 2016, №4(56).*
*Bakı, Dövlət İdarəçilik Akademiyasının (DİA) nəşri, 2016, 200 s.*

*© Dövlət İdarəçilik Akademiyası, 2016*

ISSN 2309-1347

The Academy of Public Administration
under the President of the Republic of Azerbaijan

# PUBLIC ADMINISTRATION:
## THEORY AND PRACTICE

2016
4 (56)

ACADEMY OF PUBLIC ADMINISTRATION

BAKU – 2016

*Research Dedicated to the Theory and Practice of Public Administration and Application of Decentralized Governance in Democratic Society*

**EDITORIAL COUNCIL:** ***Ramiz Mehdiyev*** *(chairman)*

***Fatma Abdullazade, Ali Hasanov, Fuad Alasgarov,***
***Akif Alizadeh, Maleyka Abbaszade, Vahid Akhundov,***
***Fikrat Mammadov, Ali Ahmadov, Urkhan Alakbarov***

**EDITORIAL BOARD**: ***Urkhan Alakbarov***
*(editor-in-chief)*

***Alikram Abdullayev***
*(deputy editor)*

***Elman Nasirov***
*(executive secretary)*

***Ali Nuriyev, Adalat Muradov, Mehdi Abdullayev, Sevil Mammadova,***
***Faxraddin Naghiyev, Gulnara Qurbanova, Etibar Najafov,***
***Elchin Ahmadov, Rajab Rahimli, Firdovsiyya Ahmadova, Ziyafet Habibova***

*Journal of Public Administration: theory and practice is published since 2003.*
*Quarterly.*

*The journal is officially registered at the Expert Council of the Department of Social Sciences of Supreme Attestation Commission (SAC) and is included in the register of national scientific publications.*

*Public Administration: theory and practice*
*Scientific and theoretical journal. 2016, №4(56)*
*Baku, Publication of Academy of Public Administration (APA), 2016, 200 p.*

*© Academy of Public Administration, 2016*

**17 OKTYABR 2016**

# AZƏRBAYCANIN DÖVLƏT MÜSTƏQİLLİYİNİN BƏRPASININ 25-ci İLDÖNÜMÜNƏ HƏSR OLUNMUŞ RƏSMİ QƏBULDA İLHAM ƏLİYEVİN NİTQİ

***Hörmətli xanımlar və cənablar!***

İyirmi beş il bundan əvvəl – 1991-ci il oktyabrın 18-də Azərbaycan Ali Soveti Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktını qəbul etmişdir. Beləliklə, Azərbaycan XX əsrdə ikinci dəfə müstəqilliyə qovuşurdu. 1918-ci ildə müsəlman aləmində ilk demokratik respublika Azərbaycanda qurulmuşdur. Haqlı olaraq fəxr edirik ki, biz müsəlman aləmində birinci idik. Bu dəfə – 1991-ci ildə isə Azərbaycan öz dövlət müstəqilliyini elan edən müttəfiq respublikalar arasında birincilər sırasında deyildi. Öz dövlət müstəqilliyini elan edən müttəfiq respublikalar arasında Azərbaycan sayca 13-cü idi. Bu, tarixdir. Biz tarixi bilməliyik, yaddan çıxarmamalıyıq. Hesab edirəm ki, Azərbaycan o vaxt öz dövlət müstəqilliyini daha əvvəl elan edə bilərdi. Bu qədər gözləmək lazım deyildi. Xüsusilə onu da yaddan çıxarmamalıyıq ki, Sovet İttifaqının özəyini təşkil edən Rusiya öz dövlət müstəqilliyini avqust ayında, bizdən iki ay əvvəl elan etmişdi.

Onu da qeyd etməliyəm ki, hələ 1990-cı ildə ulu öndər Heydər Əliyev müstəqillik yolunda çox önəmli və ciddi addımlar atmışdır. 20 Yanvar faciəsindən sonra o, birinci şəxs idi ki, sovet rəhbərliyini pislədi, Qanlı Yanvar faciəsini törədənlərə qarşı öz iradlarını irəli sürdü, onları ittiham etdi, sovet hökumətini, onun rəhbərinin fəaliyyətini pislədi. Sovet İttifaqı Kommunist Partiyasının sıralarını tərk etdi və bu, müstəqillik uğrunda birinci addımlar idi. Ondan sonra, artıq Naxçıvan Muxtar Respublikasının rəhbəri kimi 1990-cı ilin noyabr ayında Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adını dəyişdirərək, “Sovet Sosialist” sözlərini oradan çıxardı. Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı o vaxt Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvanın dövlət bayrağı kimi elan edilmişdir və Azərbaycan Ali Soveti qarşısında vəsatət qaldırılmışdır ki, burada da bu addım atılsın. Əfsuslar olsun ki, bunu etmədilər. 1991-ci ilin əvvəllərində Sovet İttifaqının saxlanılmasına dair Azərbaycanda referendum keçiriləndə Naxçıvanda Heydər Əliyevin təşəbbüsü ilə referendum keçirilməmişdir. Bütün bu addımlar müstəqillik yolunda atılan addımlardır. Digər tərəfdən bütün bu addımlar onu göstərir ki, ulu öndər Heydər Əliyev Azərbaycanın dövlət müstəqilliyinin təşəbbüskarıdır, onun banisidir.

Əfsuslar olsun ki, müstəqilliyimizin ilk illərində Heydər Əliyev hakimiyyətdə deyildi. Əgər olsaydı, biz böyük itkilərlə üzləşməzdik. Müstəqilliyimizin birinci dövrü faciəvi dövr idi. 1991–1993-cü illərdə Azərbaycan çox böyük problemlərlə, itkilərlə üzləşmişdir. Bu dövrü iki mərhələyə bölmək olar. Birinci mərhələ 1991-ci ilin oktyabr ayından 1992-ci ilin yay aylarına qədər olan dövrdür. Bu dövr itirilmiş imkanlar, itkilər dövrü idi. Ermənistan Azərbaycana qarşı təcavüzə başlamışdı, azərbaycanlılar Dağlıq Qarabağdan qovulurdular. 1992-ci ilin may ayında Şuşanın və Laçın rayonunun işğal altına düşməsi böyük itki, böyük faciə idi.

O illərdə dövlətçiliyin əsasları qurulmamışdı, ekstremist elementlərə qarşı ciddi mübarizə aparılmamışdı, nizami ordu yaradılmamışdı, cəmiyyətdə milli həmrəylik, milli birlik yox idi. Bütün bu amillərdən, xüsusilə Şuşanın və Laçın rayonunun işğal altına düşməsindən istifadə edərək, – halbuki bu rayonların işğal altına düşməsində bilavasitə AXC–Müsavat qruplaşmasının rolu vardı, – bu qruplaşma hakimiyyəti qanunsuz olaraq zəbt etmişdi və birinci dövrün ikinci dəhşətli mərhələsi başlamışdı.

1992-ci ilin yay aylarından 1993-cü ilin iyun ayına qədərki dövr biabırçılıq, rüsvayçılıq, fəlakət dövrü idi. Hakimiyyəti qanunsuz olaraq zəbt etmiş AXC–Müsavat qruplaşması ölkəmizi uçuruma aparırdı. Kəlbəcər rayonunun 1993-cü ilin aprel ayında işğal altına düşməsindən sonra Dağlıq Qarabağla Ermənistan arasında coğrafi əlaqə yaradıldı. Azərbaycanın daxilində gedən proseslər ölkəmizi çökdürürdü. İqtisadi böhran yaşanırdı, sənaye demək olar ki, iflic vəziyyətə düşmüşdü. O vaxtkı hakimiyyət ancaq öz maraqlarını təmin etmək üçün çalışırdı. O vaxt korrupsiya, rüşvətxorluq son həddə çatmışdı. Ölkəmizdə qanunsuz silahlı birləşmələr meydan oxuyurdu, Bakının küçələrində əlisilahlı adamlar dəstə-dəstə gəzirdi, insanları incidirdi. Baxmayaraq ki, Ermənistan ilə qanlı döyüşlər gedirdi AXC–Müsavat qruplaşması Azərbaycanda öz hakimiyyətini saxlamaq üçün vətəndaş müharibəsinə başlamışdı. Gəncə şəhəri onlar tərəfindən bombalanmışdı, qardaş qanı axıdılmışdı və bunun nəticəsində biz daha da böyük itkilərlə üzləşdik.

Cəmi bir il ərzində AXC–Müsavat qruplaşmasının yarıtmaz, xəyanətkar fəaliyyəti nəticəsində Azərbaycan öz dövlət müstəqilliyini itirmək ərəfəsində idi və tarix sanki təkrarlanırdı. 1918-ci ildə əldə edilmiş müstəqilliyi 1920-ci ildə itirdik – 2 il ərzində. Bu dəfə də 2 ildən sonra artıq buna çox yaxın idik. Əgər o vaxt xalqın tələbi ilə Heydər Əliyev hakimiyyətə gəlməsəydi, Azərbaycanın taleyi çox ağır, acınacaqlı ola bilərdi. Onu da qeyd etməliyəm ki, Heydər Əliyevi Naxçıvanda devirmək, o cümlədən silahlı desant göndərmək istəyən AXC–Müsavat qruplaşması özü də ağır vəziyyətə düşəndən sonra Heydər Əliyevə müraciət etdi, onu Bakıya dəvət etdi ki, onların canlarını qurtarsın. Naxçıvana üç dəfə təyyarə göndərmişdilər. Heydər Əliyev Bakıya gəlməklə, ilk növbədə, Azərbaycan xalqının iradəsinə öz hörmətini göstərdi. O, böyük dövlət adamı, vətənpərvər insan kimi o ağır anlarda Bakıya gəldi və ondan sonra Azərbaycanda inkişaf dövrü başlamışdır. 1993-cü il dönüş ili idi. İyun ayında Heydər Əliyev Ali Sovetin sədri seçilmişdir və vəziyyət yavaş-yavaş inkişafa doğru getməyə başlamışdır. İlk növbədə, qanunsuz silahlı birləşmələr tərk-silah edildi, ordu quruculuğunda ciddi addımlar atıldı, dövlətçiliyin əsasları qoyuldu, sabitlik təmin edildi. 1995-ci ildə müstəqil Azərbaycanın Konstitusiyası qəbul olundu. Ölkəmizdə çox ciddi siyasi islahatlar aparılmağa başlanmışdır. Onu da qeyd etməliyəm ki, əslində, müasir Azərbaycanda siyasi sistemin formalaşmasında Yeni Azərbaycan Partiyasının xüsusi yeri vardır.

1992-ci ildə Heydər Əliyevin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyası müxalifət partiyası kimi yaradılmışdır və siyasi mübarizə nümunəsini göstərmişdir. Azərbaycanda Heydər Əliyevin rəhbərliyi ilə aparılmış siyasi islahatlar demokratiyanın inkişafına, insan haqlarının qorunmasına hesablanmışdır. Azərbaycan o illərdə beynəlxalq təcriddən çıxa bilmişdir. Çünki ölkəmiz haqqında dünyada informasiya yox idi. Ermənistan erməni lobbisinin imkanlarından istifadə edərək bizə qarşı qarayaxma kampaniyası aparırdı. Bizim isə cavab vermək, reallığı dünya birliyinə çatdırmaq üçün imkanlarımız yox idi. Yəni beynəlxalq təcridə, informasiya mühasirəsinə son qoyuldu.

Azərbaycanda iqtisadi islahatlara start verildi və bazar iqtisadiyyatı prinsipləri bərqərar oldu. Xarici siyasət prioritetləri məhz o illərdə müəyyən edildi. Azərbaycan müasir dünyəvi dövlət kimi öz inkişafına başladı. Yəni məhz o illərdə ölkəmizin gələcəyi ilə bağlı strateji addımlar atılmışdır. Bu gün tarix göstərir ki, bu, yeganə düzgün yol idi.

Azərbaycan o vaxt çətin iqtisadi vəziyyətlə üzləşmişdi. Bizim sənayemiz demək olar ki, dağılmışdı, inflyasiya minlərlə faizlə ölçülürdü. Əlbəttə, belə vəziyyətdə xarici sərmayə olmadan ölkə iqtisadiyyatı inkişaf edə bilməzdi. İqtisadiyyat inkişaf edə bilməsə, təbii ki, ölkə müstəqil həyat sürə bilməzdi. Ona görə 1994-cü ildə Heydər Əliyevin təşəbbüsü ilə “Əsrin kontraktı” imzalanmışdır ki, artıq o vaxtdan 22 il ötür. Amma bu gün də “Əsrin kontraktı” ölkəmizin inkişafında, güclənməsində öz rolunu oynayır. Azərbaycan tarixdə ilk dəfə olaraq Xəzər dənizini xarici investorlara təqdim etdi.

Azərbaycana milyardlarla dollar həcmində investisiya qoyuldu və ölkəmiz inkişaf etməyə başladı. 1996-cı ildə "Şahdəniz" qaz yatağının işlənilməsi üzrə kontrakt imzalanmışdır. Bu gün həm Azərbaycanın, həm regionun və müəyyən dərəcədə Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında "Şahdəniz" yatağının xüsusi yeri var.

Azərbaycan 1993–2003-cü illərdə öz inkişaf və sabitlik dövrünü yaşayırdı. Bu, müstəqilliyimizin ikinci dövrü idi. Bir daha qayıdıram müstəqilliyimizin ilk illərinə. Əgər o vaxt Heydər Əliyev kimi dahi şəxsiyyət – millətə canı, qanı ilə bağlı olan insan hakimiyyətdə olsaydı, biz o bəlalarla üzləşməyəcəkdik. Ancaq tarix tarixdir. Biz tarixi dəyişdirə bilmərik. Bizim əsas vəzifəmiz ondan ibarətdir ki, ölkəmizi irəliyə aparaq, gücləndirək və müsbət meyillər əsasında inkişafı təmin edək.

Bu baxımdan 2003-cü il, hesab edirəm ki, müstəqil tariximiz üçün də xüsusi əhəmiyyət daşıyır. Çünki 2003-cü ildə ölkənin bundan sonra hansı yolla gedəcəyi haqqında Azərbaycan xalqı öz qərarını verdi: Heydər Əliyev siyasətimi davam edəcək, yoxsa ki, yenə Azərbaycan bəlalarla, fəlakətlərlə üzləşəcək?! Azərbaycan xalqı həmişə olduğu kimi, müdrikliyini göstərərək Heydər Əliyev siyasətinə öz səsini verdi. Onu da qeyd etməliyəm ki, 1993-cü ildə AXC–Müsavat qruplaşmasının iflasının əsas mənbəyi Azərbaycan xalqının iradəsi olmuşdur. Cəmi bir il xalq bunların yarıtmaz fəaliyyətinə dözə bilmişdir və Azərbaycan xalqı bu ləkəni tariximizdən yumaq üçün o hakimiyyətə son qoydu. O vaxtdan bu günə qədər o hakimiyyət tarixin zibilxanasındadır.

Qeyd etdiyim kimi, 2003-cü il seçim ili idi. Bugünkü Azərbaycan reallıqları onu göstərir ki, yenə də Azərbaycan xalqı düzgün seçim etmişdir. 2003-cü ildən bu günə qədər Azərbaycanda sürətli inkişaf dövrü yaşanır, Heydər Əliyev siyasəti davam etdirilir. Bu, müstəqilliyimizin üçüncü dövrüdür. Bu üçüncü dövr ikinci dövrün məntiqi davamıdır.

Bu illər ərzində Azərbaycan bütün istiqamətlər üzrə çox böyük uğurlara imza atdı. Bizim beynəlxalq əlaqələrimiz genişləndi. Azərbaycan dünya miqyasında böyük rəğbətə malik olan bir ölkədir. İkitərəfli əlaqələr inkişaf edir, biz dünyada daha çox dostlar qazanırıq. Üzv olduğumuz bütün təşkilatlarda bizim sözümüzün böyük çəkisi var. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli yolunda bizim prinsipial mövqeyimiz dəyişməz olaraq qalır. Bu mövqe daha çox beynəlxalq dəstək qazanır. Artıq dünya ictimaiyyəti bilir ki, reallıq nədən ibarətdir. Yəni bizim torpaqlarımız işğal altındadır. BMT Təhlükəsizlik Şurasının, digər təşkilatların qətnamələri icra edilmir. Dağlıq Qarabağ münaqişəsinin ədalətli, beynəlxalq hüquq əsasında həll edilməsi bizim prinsipial mövqeyimizdir. Bütün dünya Azərbaycanın ərazi bütövlüyünü tanıyır və dəstəkləyir.

Beynəlxalq münasibətlər istiqamətində bizim hörmətimizi əks etdirən tarixi hadisə bir neçə il bundan əvvəl baş vermişdir. Biz BMT Təhlükəsizlik Şurasına üzv seçildik. Bu hadisə təkcə ona görə önəmli deyil ki, biz dünyanın ali orqanına seçildik və orada iki dəfə sədrlik etdik. Ona görə önəmlidir ki, dünyanın 155 ölkəsi bizə səs verdi, özü də çox ağır mübarizə şəraitində. Bəzi qüvvələr bizə qarşı birləşmişdi və imkan verməк istəmirdilər ki, Azərbaycan seçilsin. Yəni biz o yerə böyük çətinliklə sahib olduq. Bu da daha bir göstəricidir. Yəni dünya birliyi deyəndə biz bütün ölkələri nəzərdə tuturuq. Dünya birliyi bu gün bizi dəstəkləyir.

Biz 2003-cü ildən bu günə qədər iqtisadi sahədə analoqu olmayan inkişaf dövrünü keçmişik və yaşayırıq. İqtisadiyyat üç dəfə artmışdır. Heç bir başqa ölkədə bu qısa müddət ərzində iqtisadiyyat üç dəfə artmayıb. Sənaye istehsalı da üç dəfə artmışdır. Biz yoxsulluğa son qoyduq. Təxminən 50 faiz səviyyəsində olan yoxsulluq 5 faizə düşüb. İşsizlik ilə çox ciddi mübarizə aparılır. İşsizlik çox aşağı səviyyədədir. Azərbaycan regionlarının inkişafına start verildi. Dövlət proqramları icra edilməyə başlamışdır və bunun nəticəsində bölgələrdə 1 milyon 300 mindən çox iş yeri yaradılmışdır. Bölgələr canlandı, şəhərlərimiz abadlaşdı, müasir infrastruktur layihələri icra edildi. Biz

elektrik enerjisini, qazı idxal edən ölkədən ixrac edən ölkəyə çevrildik. Azərbaycanda sosial məsələlərin həllinə çox böyük diqqət göstərilirdi və göstərilir. Maaşlar, pensiyalar son 13 il ərzində dəfələrlə artmışdır. Sosial infrastruktur layihələri icra edilir. Üç mindən çox məktəb, 600-dən çox tibb ocağı, bölgələrdə 40-dan çox İdman Olimpiya Mərkəzi tikilmişdir. Bütün bunlar son illər ərzində əldə edilmiş nailiyyətlərdir.

Biz texnoloji inkişafa doğru gedirik. Bu gün Azərbaycan kosmik klubun məhdud sayda üzvlərindən biridir. İki peykimiz var, üçüncü peyk də yaxın zamanlarda istifadəyə veriləcək.

Regional əməkdaşlıq məsələlərinin həllində Azərbaycan çox önəmli bir ölkəyə çevrilibdir. Bizim təşəbbüsümüzlə icra edilən böyük enerji layihələri son illər ərzində daha da geniş miqyasa çıxıb. Artıq bu, qitələrarası enerji layihələridir. Xüsusilə “Cənub” qaz dəhlizini qeyd etməliyəm.

Onu da qeyd etməliyəm ki, bu dəhliz 2006-cı ildə və 2007-ci ildə istifadəyə verilmiş Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin əsasında yaradılır. Əgər o kəmərlər yaradılmasaydı, “Cənub” qaz dəhlizi də yaradılmazdı. Bu gün dünyanın ən böyük enerji layihələrindən biri olan “Cənub” qaz dəhlizi uğurla icra edilir. Biz “Şahdəniz-2” layihəsinin icrasında artıq son mərhələyə yaxınlaşırıq. Layihənin icrası artıq 83 faiz təşkil edir. TANAP layihəsinin icrası təqribən 40 faizə yaxındır. Biz bu nəhəng enerji, iqtisadi layihəni uğurla icra edirik. Bu, bizə gələcəkdə çox böyük əlavə iqtisadi dividendlər gətirəcək. Biz zəngin qaz ehtiyatlarımızı etibarlı yollarla dünyanın ən böyük, bizim üçün ən yaxın bazarlarından biri olan Avropa bazarına çıxarırıq. Bizim enerji siyasətimiz dünya tərəfindən yüksək qiymətləndirilir. Biz beynəlxalq əməkdaşlıq formatını yaratmışıq və bu formatı genişləndiririk.

“Cənub” qaz dəhlizi tarixi layihədir. Bu, bizim uğurlu gələcək inkişafımızı müəyyən edəcək. Bununla bərabər, biz iqtisadiyyatımızın digər sektorlarının inkişafı ilə bağlı çox ciddi addımlar atırıq. Xüsusilə son müddət ərzində Azərbaycanda sənayenin, kənd təsərrüfatının inkişafı artır. Baxmayaraq ki, dünyanın iqtisadi böhranı davam edir, biz bu istiqamətdə də çox ciddi addımlar atmışıq. Əminəm ki, yaxın illərdə qeyri-neft sektorunun inkişafı daha da sürətlə gedəcək. Bu gün iqtisadiyyatımızın təxminən 70 faizi qeyri-neft sektorunda formalaşır. Biz indi ixracın şaxələndirilməsi ilə ciddi məşğuluq. Elə etməliyik ki, neftdən, qazdan asılılıq minimum səviyyəyə endirilsin.

Azərbaycanda idarəçilikdə ciddi islahatlar, xoşagəlməz hallara qarşı mübarizə aparılır. Korrupsiya, rüşvətxorluq bizim uğurlu inkişafımızı əngəlləyən əsas bəlalardır. Bu istiqamətdə də institusional tədbirlərin görülməsi öz gözəl nəticəsini verməkdədir. Biz artıq dünyaya intellektual məhsul təqdim edirik, hətta ixrac edirik. “ASAN xidmət” bizim məhsulumuzdur. Artıq bu xidmətə 12 milyon müraciət olmuşdur, 4 milyona yaxın insan bu imkanlardan istifadə edir və indi başqa ölkələrdə bu təcrübə öyrənilir. Biz gələcəkdə də dünya bazarlarına şaxələndirilmiş ixrac imkanlarımızı təqdim etməliyik. O cümlədən intellektual məhsulun ixracı xüsusi əhəmiyyət daşıyır.

Azərbaycan bu gün dünyada çox etibarlı tərəfdaş kimi tanınır. Çünki bizim iştirak etdiyimiz bütün layihələr əməkdaşlığa hesablanıb. Biz hesab edirik və həyat göstərir, düz hesab edirik ki, ölkələr arasındakı əməkdaşlıq bəzi problemləri aradan götürə bilər. Enerji siyasətimiz xoşniyyətlidir. Bundan heç vaxt hansısa başqa məqsəd üçün istifadə etməmişik. Bütün digər regional təşəbbüslər də əməkdaşlığa hesablanır, o cümlədən nəqliyyat sahəsində. Biz bu gün “Şərq-Qərb” dəhlizinin yaradılmasında fəal rol oynayırıq. Bakı-Tbilisi-Qars dəmiryolu yaxın aylarda istismara veriləcək. Beləliklə, biz özümüzü daha da gözəl imkanlarla təmin etmək üçün Avropanı Asiya ilə birləşdiririk. Çünki bu dəhliz bizə çox böyük iqtisadi mənfəət gətirəcək. Bu dəhlizdən keçən yüklərin həcmi on milyonlarla ton səviyyəsində olacaq. Bununla bərabər, biz “Şimal-Cənub” dəhlizini də yaradırıq. Yenə də təşəbbüs göstərmişik, yenə də regional əməkdaşlıq formatını təqdim etmişik və bu, artıq yaradılıb.

Bu da bizə əlavə on milyonlarla ton yük daşımaq imkanları verəcək.

Bax, budur neft amilindən asılılığı azaltmaq, qeyri-neft sektorunun inkişafı. Coğrafi vəziyyətimizdən istifadə edərək biz bu layihələri ortaya qoyuruq və onları icra edirik.

Qonşularla münasibətlər ən yüksək səviyyədədir. Heç bir problemimiz yoxdur. Belə də olmalıdır. Əgər hər bir ölkə bizim kimi qonşularla münasibətləri qura bilsəydi, dünyada heç bir müharibə baş verməzdi. Müharibələrin əsas səbəbi ondan ibarətdir ki, qonşular bir-biri ilə yola getmir. Yenə də deyirəm, əgər 1990-cı illərin əvvəllərində ulu öndər Heydər Əliyev hakimiyyətdə olsaydı, heç vaxt Ermənistan-Azərbaycan müharibəsi başlamazdı. Biz heç vaxt buna imkan verməzdik. Ancaq bu gün biz bu problemi həll etməliyik. Bunun həm diplomatik yolları var, həm digər yolları. Biz ordu quruculuğu istiqamətində çox böyük addımlar atmışıq. Bu gün beynəlxalq ekspertlər də qeyd edirlər ki, Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır. Biz bunu bilirdik, ancaq bu gün bunu bütün dünya bilir. Bu ilin aprelində təmas xəttində baş vermiş hadisələr Azərbaycan Ordusunun gücünü bir daha göstərdi. Bizim ordumuz əks-hücum əməliyyatı keçirərək Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsini işğalçılardan azad etdi. Orada indi Azərbaycan bayrağı dalğalanır. Bu, bizim gücümüzü göstərir. Biz gücümüzü bilirik, gücümüzə əminik və düşmənin istənilən hədəfini məhv edə bilərik. Sadəcə olaraq çalışırıq ki, məsələ sülh yolu ilə həll edilsin.

Azərbaycan son illər ərzində dünya miqyasında multikulturalizm mərkəzinə çevrilib. Ölkəmizdə keçirilən beynəlxalq tədbirlər, dünya forumları, sivilizasiyalararası, humanitar, mədəniyyətlərarası dialoq forumları bunu göstərir. Biz nəinki ölkə daxilində bu məsələləri lazımi səviyyədə tənzimləyirik, eyni zamanda bir çox ölkələr üçün yol göstəririk. Biz istəyirik ki, bu nümunədən istifadə etsinlər. Əgər etsələr yenə də gərginlik azalar. Çünki bir çox hallarda müharibələr dini və məzhəb zəminində aparılır. İndi yan-yörə, hər tərəf alovlanır, yanır. Azərbaycanda sabitlik hökm sürür, inkişaf dinamikası güclənir. Bizim ölkəmizdə yaşayan bütün xalqların nümayəndələri özlərini rahat hiss edirlər. Onlar hamısı bizim qardaşlarımızdır, dəyərli vətəndaşlarımızdır. Bu da bir nümunədir. Bu, böyük bir sərvətdir. Biz bu sərvəti qoruyuruq. Ümumiyyətlə, ölkəmizi bütün bəlalardan qoruyuruq. Heç kimin işinə qarışmırıq və qoymuruq ki, kimsə bizim işimizə qarışsın. Ancaq xoş niyyət göstəririk. Ancaq hər bir məsələ ilə, xüsusilə bizi maraqlandıran məsələ ilə bağlı prinsipial mövqeyimiz həmişə ifadə olunur. Bizim siyasətimiz güzəştsiz siyasətdir. Biz prinsipial məsələlərlə bağlı keç kimə güzəştə getməmişik və getməyəcəyik. Müstəqil, ləyaqətli siyasət aparırıq, öz gücümüzə, xalqın dəstəyinə güvənirik. Xalq da bizim siyasətimizə öz dəstəyini göstərir. Bu yaxınlarda – ötən ay keçirilmiş referendumda Azərbaycan xalqı bizim siyasətimizə öz dəstəyini bir daha ifadə etdi. Referendumun nəticələrinin əsas mahiyyəti bundan ibarətdir. Biz düzgün yoldayıq. Bu yol inkişaf yoludur, müstəqillik yoludur. Ötən 25 ilin 23 ili şanlı tarix illəridir. Bu gün Azərbaycan dünya miqyasında müasir, sürətlə inkişaf edən, gözəl, qonaqpərvər, ləyaqətli ölkə kimi tanınır.

İyirmi beş il böyük tarixdir. Biz artıq bütün dünyaya sübut etmişik ki, müstəqil həyat yaşaya bilərik, uğurla yaşaya bilərik. Bizim gözəlləşən şəhərlər, abadlaşan regionlar və dünyanın ən gözəl şəhərlərindən biri olan Bakı bunun əyani sübutudur.

Biz gələcəkdə bu yolla gedəcəyik, müstəqil siyasət aparacağıq. Xalqın iradəsi əsasında irəli gedəcəyik. Müstəqilliyimiz dönməzdir, əbədidir. Müstəqilliyimizin möhkəmlənməsində bütün Azərbaycan xalqına yeni uğurlar arzulayıram.

**YAŞASIN MÜSTƏQİL**
**AZƏRBAYCAN RESPUBLİKASI**

**ƏLİ HƏSƏNOV**
***Azərbaycan Respublikası Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi, tarix elmləri doktoru, professor***

# AZƏRBAYCANIN 25 İLLİK MÜSTƏQİLLİK TARİXİNİN QISA XARAKTERİSTİKASI: KEÇİLMİŞ YOL, MÖVCUD İMKANLAR VƏ PERSPEKTİVLƏR

Müstəqil Azərbaycan dövlətinin 25 illik tarixinin qlobal və regional dəyərini müəyyən edən ən başlıca amil bir dövlət olaraq onun tam formalaşması, özünü təmin edən milli iqtisadiyyata, maddi, mənəvi və insan resurslarına, daxili sabitliyə, milli-vətəndaş birliyinə, əhali tərəfindən dəstəklənən vahid inkişaf kursuna, güclü ordu və müdafiə potensialına və s. zəruri təsisatlara malik olması və bütün bunlara söykənərək müstəqil daxili və xarici siyasət yürütməsi hesab olunur.

1993-cü ildən başlayaraq başda Ümummilli Lider Heydər Əliyev olmaqla milli dövlətin iqtisadi, hüquqi və ideoloji əsaslarının, idarəçilik mexanizminin, milli inkişaf, daxili və xarici siyasət strategiyasının, təhlükəsizlik konsepsiyasının formalaşdırılması və həyata keçirilməsi prosesi bir tərəfdən Ermənistanla hərbi qarşıdurma, digər tərəfdənsə Azərbaycanı istiqamətləndirmək, onu təsir altında saxlamaq istəyən daxili və xarici güclərlə kəskin mübarizə şəraitində baş tutmuşdur. Prezident Heydər Əliyevin şəxsi nüfuzu, siyasi uzaqgörənliyi, böyük idarəçilik təcrübəsi sayəsində **1993-2003-cü illəri əhatə edən birinci on il ərzində** bütün milli resursları vahid məqsəd uğrunda səfərbər etmək və Azərbaycanın dövlət müstəqilliyini qoruyub saxlamaq, onu sabit inkişaf yoluna çıxarmaq, milli iradəyə əsaslanan müstəqil subyekt kimi beynəlxalq aləmlə sıx inteqrasiyasını təmin etmək mümkün olmuşdur. Bununla yanaşı etiraf olunmalıdır ki, hər bir dövlət kimi Azərbaycan da müstəqilliyinin ilkin mərhələsində xarici təhlükələrdən qorunmaq sahəsində özünümüdafiə sistemini dərhal formalaşdıra bilməmiş və müxtəlif daxili və xarici təhdidlərə qarşı təcili təxirəsalınmaz tədbirlər görmək məcburiyyətində qalmışdır. Bu mənada Azərbaycan ilk dövrlərdə məcburi qaydada ayrı-ayrı güc mərkəzləri arasında balans yaratmağa sövq edilsə də, nəticədə minimum güzəştlər hesabına maksimum dividendlər əldə etməyə, prinsipial məsələlərdə öz mövqeyini qoruyub saxlamağa və inkişaf etdirməyə nail ola bilmişdir. Bütün bunların nəticəsi olaraq Heydər Əliyev ən çətin şəraitdə həm Azərbaycanın yeni neft strategiyasını uğurla reallaşdırmağı bacarmış, həm də bu əsasda ölkənin gələcək dinamik inkişafının möhkəm təməlini qoymuşdur.

**2003-20013-cü illəri əhatə edən ikinci onillikdə** Azərbaycan oturuşmuş liberal iqtisadiyyata və böyük maliyyə resurslarına, güclü orduya malik, özünü tam təmin edən, heç kimdən asılı olmayan, sözünü cəsarətlə deyən, mövqeyinə və rəyinə regionda və dünyada hörmətlə yanaşılan və milli maraqlara əsaslanaraq tam müstəqil siyasət yürüdən ölkəyə çevrilmişdir. Məhz buna görə də bu gün Azərbaycan ciddi geosiyasi faktor kimi postsovet məkanının, Xəzər–Qara dəniz hövzəsi və Cənubi Qafqazın müasir geosiyasi, geoiqtisadi və hərbi-geostrateji xarakteristikasının müəyyənləşdirilməsinə mühüm təsir göstərir, habelə BMT, ATƏT, Avropa Şurası, İKT, Qoşulmama Hərəkatının fəal üzvü olaraq, eyni zamanda dünyanın güc mərkəzləri ilə yaxından əməkdaşlıq edərək qlobal siyasətdə özünün iştirak imkanlarını getdikcə genişləndirir.

Hazırda Azərbaycan Cənubi Qafqaz və keçmiş postsovet məkanının ümumi iqtisadi potensialındakı payına görə xarici aləmin diqqətini xüsusi cəlb edir. Cənubi Qafqazda, Avrasiya məkanında və dünyada Azərbaycanın mövcud və perspektiv geoiqtisadi potensialı – iqtisadi inkişaf resursları, malik olduğu maddi və insan ehtiyatları, bu sahələrdə ölkə rəhbərliyinin yürütdüyü praqmatik siyasət yüksək qiymətləndirilir. Cəmi 9 milyondan bir az çox əhalisi olmasına baxmayaraq, zəngin təbii, xüsusən enerji və karbohidrogen ehtiyatlarına, əlverişli iqlim və münbit torpağa, turizm imkanlarına, kənd təsərrüfatı və sənaye infrastrukturlarına və işlək əhaliyə malik olması onun iqtisadi perspektivlərini xüsusi cəlbedici edir.

Postsovet məkanının, Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazın müasir geosiyasi xarakteristikasını, region ölkələrinin inkişaf tendensiyalarını və geosiyasi inkişaf perspektivlərini qiymətləndirən əksər ekspertlər:

- əlverişli coğrafi, geosiyasi, geoiqtisadi, hərbi-geostrateji mövqelərini;
- yürütdüyü müstəqil daxili və xarici siyasətini;
- zəngin təbii ehtiyatlarını, maddi, mənəvi, əmək və insan resurslarını;
- Şərq-Qərb alternativ nəqliyyat-kommunikasiya, tranzit və enerji dəhlizlərinin yaradılması sahəsində yürütdüyü transmilli siyasəti və tutduğu düzgün mövqeyini;
- daxili ictimai-siyasi sabitliyi təmin etməsini, demokratik dövlət, vətəndaş cəmiyyəti, bazar iqtisadiyyatı quruculuğu prinsiplərini rəhbər tutmasını;
- son on ildə nail olduğu dinamik sosial-iqtisadi inkişafı və gələcək inkişaf potensialını nəzərə alaraq Azərbaycan Respublikasını bölgənin geosiyasi cəhətdən ən əhəmiyyətli və perspektivli ölkəsi hesab edirlər.

Mütəxəssislərin fikrinə görə, geosiyasi xarakteristikanın əsas dəyər ölçüləri kimi çıxış edən həmin amillər

ölkənin həm beynəlxalq aləm üçün tərəfdaşlıq dəyərini, həm də mövcud dinamik inkişafını şərtləndirmişdir.

Digər geosiyasi xarakteristikasına – ərazisinin ölçülərinə, sərhədlərinin vəziyyəti və qonşularla münasibətlərinə, maddi və mənəvi resurslarından yararlanma əmsalı və s. görə də Azərbaycan Cənubi Qafqazın ən böyük və ən perspektivli dövləti hesab olunur. Ərazisinin təbii və coğrafi resurslarına onun: 86,6 min kvadrat km. quru və 80 min kvadrat km. Xəzər dənizindəki milli sektoru; Avropa və Asiyanı birləşdirən əlverişli coğrafi, geosiyasi və geoiqtisadi vəziyyəti; avtomobil, dəmiryolu və su nəqliyyatı vasitəsilə Rusiya, Türkiyə, İran, Gürcüstan, Ermənistan, Orta Asiya və Qara dəniz bölgəsi ölkələri ilə nəqliyyat-kommunikasyia xətləri və s. daxildir.

Ölkənin geosiyasi dəyərinin artmasına və xarici ölkələrlə münasibətlərinin qurulmasına müsbət təsir göstərən əsas amillərdən biri onun əhəmiyyətli geosiyasi və coğrafi məkanda yerləşməsi hesab olunur. Ölkə dünyanın ən əhəmiyyətli regionlarından hesab olunan Avrasiyanın ortasında yerləşir, Xəzər–Qara dəniz hövzəsi və Cənubi Qafqazda gedən əsas proseslərin və transmilli maraqların mərkəzində dayanır.

Azərbaycan Gürcüstanla birlikdə, Xəzər–Qara dənizləri arasındakı mühüm əhəmiyyətli Kontinental geosiyasi məkanının; Türkmənistan və Qazaxıstanla birlikdə Avropa-Cənub-Şərqi Asiyanın; Rusiya və İranla birlikdə Şimal-Cənub dəhlizinin; Şərqlə-Qərb arasındakı əksər transmilli nəqliyyat-kommunikasiya layihələrinin; NATO və KTMT kimi hərbi-strateji bloklaşmaların təmas xəttində yerləşir və bu xarakteristikasına görə, həm Avropanın, həm Asiyanın, həm də bəhs olunan sahələr üzrə Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazın regional maraqlar mübarizəsində önəmli vəsilə kimi çıxış edir.

Mütəxəssislərin fikrinə görə, Xəzərətrafı ölkələr içərisində ən əhəmiyyətli geosiyasi, geoiqtisadi və hərbi-geostrateji mövqe məhz Azərbaycana məxsusdur. Düzdür, tədqiqatçılar regional əhatə dairəsi və bölgənin geosiyasi mühiti ilə bağlı bəzi məqamları nəzərə alaraq (Ermənistan, İran və Rusiyanın müəyyən məsələlərdə Azərbaycanla üst-üstə düşməyən maraqları və s. – *Ə.H.*) onun tam müstəqil siyasət yürütmək və beynəlxalq aləmlə milli maraqlara uyğun sərbəst hərəkət etmək imkanını qismən məhdud hesab edir və bu fonda Cənubi Qafqazda, ətraf regionlarda mövcud olan münaqişələrin bölgə dövlətləri arasında ən çox Azərbaycana mənfi təsir göstərdiyini və onun müstəqil siyasət kursunu təhdid edəcəyini proqnozlaşdırırlar. Onların fikrinə görə, milli və regional təhlükəsizlik, regional və beynəlxalq inteqrasıya və s. geosiyasi, geoiqtisadi və geostrateji məsələlərdə Azərbaycanın həm bölgə, həm də dünya ölkələri ilə üst-üstə düşən və düşməyən maraqları, fərqli fəaliyyət istiqamətləri mövcuddur ki, bu da rəsmi Bakının gələcək geosiyasi qərarlarına təsirsiz ötüşməyəcəkdir. Lakin nəzərə almaq lazımdır ki, qloballaşma dövrünün müasir çağırışları fonunda bütün ölkələr, o cümlədən dünyanın aparıcı dövlətləri qlobal və regional çərçivədə, müəyyən proseslərin və hadisələrin təsiri altında, habelə qarşılıqlı maraqlar kontekstində tez-tez öz siyasətlərinə müəyyən düzəlişlər edirlər. Təbii olaraq, Azərbaycan da öz milli maraqlarının təmin edilməsinə istiqamətlənmiş siyasi kursuna, əlverişli coğrafi mövqeyinə və kəsb etdiyi transmilli geosiyasi əhəmiyyətinə uyğun olaraq bu və ya digər gedişlər edir və bundan sonra da edəcəkdir.

Geoiqtisadi dəyərinə görə Prezident Heydər Əliyevin 1994-cü ildə əsasını qoyduğu yeni neft strategiyası və digər transmilli enerji-nəqliyyat-kommunikasiya layihələrin həyata keçirilməsi, sözün həqiqi mənasında, Azərbaycanı geoiqtisadi cəhətdən dünyanın aparıcı dövlətləri və şirkətləri üçün cəlbedici tərəfdaş etmişdir. Ölkənin əlverişli geoiqtisadi dəyəri həm də yalnız neft-qaz sektoru ilə məhdudlaşmamış, keçən illərdə yürüdülən düzgün iqtisadi inkişaf strategiyası ümumilikdə Azərbaycanı Avrasiyanın iqtisadi, siyasi və sosial-mənəvi cəhətdən dinamik inkişaf edən bir ölkəsinə, dövlətlərarası əlaqələrdə ciddi geosiyasi aktora çevrilmişdir. Bununla yanaşı, Azərbaycan həm də hövzənin neft-qaz resurslarından istifadənin düzgün strategiyasını müəyyənləşdirməklə, beynəlxalq aləmin daim artan enerji ehtiyacı ilə ölkənin milli maraqlarını uzlaşdırmaqla və bu əsasda etibarlı tərəfdaş kimi tanınmaqla, milli iqtisadi və maliyyə dividendlərini gücləndirməklə beynəlxalq dəyərini artırmış və xarici aləmlə münasibətlərini intensivləşdirmək imkanı qazandırmışdır. Bu amilə təkcə təbii resurs mənbəyi və geoiqtisadi anlamında yanaşmaq düzgün olmazdı. Ölkənin bəhs olunan üstünlüklərindən, xüsusən də neft və qaz amilindən bacarıqla istifadə etməklə, müasir dünyanın aparıcı dövlətləri və güc mərkəzlərinin diqqətini özünün digər milli problemlərinə cəlb etməsi Azərbaycanın müasir dövrdə əsas milli geosiyasi vəzifələrindən biri hesab olunur. Bu üstünlüyün və imicin qorunması və düzgün istifadə olunması gələcəkdə də Azərbaycanın geosiyasi addımlarının və vəzifələrinin əsas müvəffəqiyyətini təşkil etməlidir.

Hazırda Azərbaycan Xəzər dənizinin digər sahilində yerləşən Qazaxıstan və Türkmənistanla birlikdə üçüncü minillikdə Avropanın artan enerji tələbatının ödənilməsi və dünyada enerji təhlükəsizliyinin təminatı sahəsində "ən əlverişli, ümidverici və etibarlı alternativ tərəfdaş" hesab olunur. Dünyanın alternativ enerji mənbəyi hesab olunan Xəzər regionunda neft-qaz istehsalı ilə bağlı əsas risklərdən biri hasil olunan məhsulun dünya bazarlarına təhlükəsiz və sərbəst marşrutlarla çıxarılması ilə bağlıdır. Bu anlamda Azərbaycan özünün və tərəfdaşlarının hasil etdiyi neft-qaz məhsullarının xarici bazarlara çıxarılması, ixrac marşrutlarının şaxələndirilməsi (diversifikasiyası) məsələsində Xəzər ölkələri içərisində həm Qazaxıstandan, həm də Türkmənistandan əlverişli vəziyyətdədir. Onlarla müqayisədə

Azərbaycanın enerji ixracı riskləri çox aşağı səviyyədədir. 1994-cü ildə "Əsrin müqaviləsi" imzalandıqdan sonra Azərbaycan bölgənin karbohidrogen ehtiyatlarının alternativ yolla Avropaya nəqli marşrutunu müəyyənləşdirərək, planetar əhəmiyyətli, eyni zamanda çox məsuliyyətli və uzaqgörən strateji seçim etdi. Nəticədə Xəzərin neft və qaz ehtiyatlarının alternativ və müstəqil yolla Avropa ölkələrinə çatdırılmasının yeni marşrutunu dövriyyəyə buraxdı. Bu marşrut ilə yeni neft və qaz ixracı kəmərlərinin çəkilməsi növbəti bir amil olaraq Azərbaycanın regionda geosiyasi, geoiqtisadi nüfuzunu və tranzit dəyərini artırdı və Xəzər hövzəsinin, Mərkəzi Asiyanın enerji resurslarının Qərbə nəqli istiqamətində əsas tranzit ölkələrdən birinə – yeni transmilli yanacaq və nəqliyyat dəhlizlərinin dayağına çevirdi.

Xəzərin karbohidrogen ehtiyatlarının dünya bazarlarına çatdırılmasını nəzərdə tutan layihələrin reallaşması heç də asanlıqla başa gəlməyib, müxtəlif beynəlxalq, regional və yerli geosiyasi maraqların toqquşması ilə müşahidə olunubdur. Lakin Azərbaycanın tam müstəqil geosiyasi, geoiqtisadi və təhlükəsizlik siyasəti, prinsipial və qətiyyətli mövqeyi Asiya ilə Avropanı birləşdirən böyük enerji-nəqliyyat layihələrinin həyata keçirilməsini mümkün etdi. Hazırda Bakı-Tbilisi-Ceyhan, Bakı-Supsa, Bakı-Novorossiysk kimi illik gücü təxminən 70 milyon ton təşkil edən üç neft kəməri, Bakı-Tbilisi-Ərzurum, Bakı-Astara-İran və Bakı-Rusiya kimi illik gücü təxminən 30-40 milyard kub metr olan maye qaz kəmərlərinin mövcudluğu Azərbaycanın və tərəfdaşlarının enerji ixracı sahəsindəki geoiqtisadi risklərini, demək olar ki, sıfıra endirmişdir. Xəzər qazının Qara dənizin Gürcüstan limanlarına qədər kəmərlərlə, sonra isə sıxılaraq tankerlərlə Rumıniyaya, oradan da Avropa Birliyi ölkələrinə ixrac olunması haqqında dövlətlərarası sazişin imzalanması təkcə Azərbaycanın deyil, bütöv Xəzər hövzəsi ölkələrinin qaz ixracı ilə bağlı risklərini ciddi şəkildə azaltmış və geoiqtisadi etibarlılığını artırmışdır. Buna əlavə olaraq "Şahdəniz 2" layihəsinin reallaşdırılması ilə yeni kəmərlər – TANAP və TAP vasitəsilə böyük Azərbaycan qazının Avropa bazarına çıxarılması perspektivi bu etibarlılığı daha da möhkəmləndirmişdir.

Azərbaycan geosiyasi və geoiqtisadi baxımdan həm də Avrasiyanın giriş qapısı, Şərq-Qərb nəqliyyat-kommunikasiya və enerji dəhlizlərinin mərkəzi dövləti hesab olunur. Rusiyadan yan keçməklə Avropa və Asiya ölkələri arasında bağlayıcı körpü rolunu icra edən Trans-Qafqaz nəqliyyat-enerji dəhlizi (TRASEKA), strateji Bakı-Tbilisi-Qars dəmiryolu layihələrinin təşəbbüskarı, hərəkətverici qüvvəsi və əsas təminatçılarından biri məhz Azərbaycandır. Bundan başqa, Trans-Asiya nəqliyyat dəhlizində (Cənubi, Şərqi və Orta Asiya-İran-Azərbaycan-Rusiya və əksinə, İranın Fars körfəzi vasitəsilə bu ölkələri Avropa ilə birləşdirən nəqliyyat-kommunikasiya layihəsi – *Ə.H.*) əsas bağlayıcı ölkələrdən biri kimi çıxış etməsi Azərbaycanın mühüm tranzit əhəmiyyətini bir daha təsdiq edir. Dünyanın nəqliyyat-kommunikasiya əlaqələrində həlledici bir vasiləyə çevrilməsi Azərbaycanın son bir neçə ildə həm daxili, həm də regional və beynəlxalq yol-nəqliyyat infrastrukturlarının, o cümlədən Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri çərçivəsində çoxsaylı tranzit sistemlərinin müasir tələblərə uyğun yenidən qurulmasına təkan vermişdir. 2013-cü ildə ölkədə yeni nəhəng Gəmiqayırma zavodu istifadəyə verilmiş, Xəzər donanması müasir gəmilər hesabına gücləndirilmiş, yaxın bir neçə ildə isə yükötürmə gücü 20 milyon tona bərabər olan Beynəlxalq Dəniz Ticarəti Limanının tikintisinin başa çatdırılması nəzərdə tutulmuşdur. Paralel olaraq Heydər Əliyev adına Beynəlxalq Hava Limanında yenidənqurma işləri aparılmış, əlavə nəhəng terminallar istifadəyə verilmiş, regionlarda 5 yeni aeroport tikilmişdir. Ölkənin dəmiryolu infrastrukturunun müasirləşdirilməsi istiqamətində müvafiq tədbirlər həyata keçirilməyə başlamış, 2015-ci ildə isə Şərqlə Qərbi birləşdirəcək Bakı-Tbilisi-Qars dəmiryolunun istifadəyə verilməsi nəzərdə tutulmuşdur. Görülən bütün işlərin başlıca məqsədi Azərbaycanın regionun tranzit mərkəzi statusunu möhkəmləndirməklə yanaşı, həm də onun nəqliyyat-logistika mərkəzinə çevrilməsini təmin etməkdir. Bu isə onu deməyə əsas verir ki, Almaniya, Niderland, Böyük Britaniya, Çin, Cənubi Koreya, İran və digər ölkələrdə olduğu kimi, Azərbaycanda da Nəqliyyat Logistika Mərkəzinin yaradılacağı gün heç də uzaqda deyil.

Beləliklə, Avrasiyanın əsas tranzit ölkələrindən biri olaraq, Azərbaycan Şərq-Qərb ticarət, enerji-yanacaq və nəqliyyat-kommunikasiya əlaqələrinin mərkəzində dayanır. Bu mövqe getdikcə güclənir və ən əsası isə dünyanın əsas qloballaşma və regional inteqrasiya mərkəzləri (Avropa Birliyi, ABŞ, Yaponiya, Çin, Cənub-Şərqi Asiya ölkələri və b.) Azərbaycanı üçüncü minillikdə dünyanın həm alternativ enerji təminatçılarından biri hesab edir, həm də onun əsas tranzit ölkə mövqelərinin güclənməsində maraqlı olduqlarını nümayiş etdirir və bu işə ciddi səy göstərirlər. Azərbaycanın tranzit imkanları artdıqca, planetar geosiyasi dəyəri də yüksəlir ki, bu da onun xarici ölkələrlə geosiyasi tərəfdaşlığını şərtləndirən digər əsas amil hesab olunur.

Mütəxəssislərin fikrinə görə, region ölkələri içərisində öz geosiyasətini və geoiqtisadiyyatını, beynəlxalq əlaqələrini, reallaşdırdığı daxili və xarici layihələri və s. Xəzər dənizinin karbohidrogen məhsullarının istehsalı və satışı ilə ən sıx əlaqələndirən ölkə məhz Azərbaycandır. Azərbaycanın iqtisadi inkişafının əsasında da məhz xarici şirkətlərlə Xəzər dənizində müştərək kəşf və istehsal etdiyi neft-qaz ehtiyatlarının sərbəst istifadəsi amili dayanır. Bu strateji məhsul ölkənin dinamik daxili iqtisadi, sosial və mənəvi inkişafını şərtləndirməklə bərabər, həm də onu dünya geosiyasətində, xüsusən Avropa enerji sektorunda mühüm bir amilə çevirmiş və geoiqtisadi tərəfdaşlıq dəyərini yüksəltmişdir. Hazırda

ölkənin təsdiq olunmuş karbohidrogen ehtiyatları 4.6 milyard ton şərti yanacaq təşkil edir. Bunun 2 milyard tonu neft, 2,6 trln. kub metri isə (ümumilikdə ehtimal edilən karbohidrogen ehtiyatları isə 10 milyard ton şərti yanacaq) təbii qaz təşkil edir. Təkcə "Şahdəniz" yatağının ehtiyatı 1,2 trln. kubmetr, 2010-cu ildə kəşf olunmuş "Ümid" qaz yatağının ehtiyatı 250-300 mlrd. kubmetr, 2011-ci ildə kəşf olunmuş "Abşeron" yatağının ehtiyatı isə 350 mlrd. kubmetrdən artıq qaz-kondensat miqdarında qiymətləndirilir. Müstəqillik illərində neft sektoruna 48 milyarddan çox ABŞ dolları miqdarında xarici sərmayə qoyulmuş, 61 yeni neft yatağı istismara verilmiş və yaxud yararlı vəziyyətə gətirilmişdir.[4]

Hələ 2000-ci ilin əvvəllərində mütəxəssislər 2010-cu ildən etibarən Azərbaycanın Xəzərdə ildə təxminən 55 milyon ton neft və 20 milyard kub metr qaz çıxarmaq imkanı olacağını proqnozlaşdırırdılar. Dünya mütəxəssislərinin hesablamalarına və proqnozlara görə, XXI əsrdə Azərbaycan dünyanın enerji məhsullarına artan tələbatının nəzərəçarpacaq hissəsini (ildə təxminən 40–50 milyon ton neft və 25–30 milyard kubmetr qaz) verəcəkdir. Artıq 2006-cı ildə neft və qaz hasilatının həcmi bu proqnozların əsassız olmadığını təsdiq etdi. Dövlət Neft Şirkətinin rəsmi məlumatına əsasən, keçən illər üzrə Azərbaycanın neft və qaz hasilatının dinamikası aşağıdakı kimi olmuşdur.[14]

| | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 |
|---|---|---|---|---|---|---|---|---|
| Neft (mln. ton) | 32.273 | 42.604 | 44.527 | 50.419 | 53.050 | 45.625 | 43.390 | 43.484 |
| Qaz (mld. kub.m.) | 9.044 | 16.964 | 23.405 | 23.681 | 29.100 | 25.753 | 26.909 | 29.456 |

Göründüyü kimi, 2010-cu ildə Azərbaycanda həm neft, həm də qaz hasilatının həcmi ilə bağlı proqnozlar özünü doğrultmuşdur. Ölkədə 53 milyon tondan artıq neft, 29 milyard kubmetrdən artıq isə təbii qaz istehsal edilmişdir. Xəzər dənizində 2010-cu ildə ən çox neft və qaz Azərbaycana məxsus milli sektordan çıxarılmışdır. Sonrakı illərdə karbohidrogen ehtiyatların hasilatına korrektələr edilmiş, mövcud tələbat nəzərə alınaraq neft hasilatı stabil olaraq 43–45 milyon ton həcmində saxlanılmış, əsas diqqət isə qaz hasilatı sahəsində yeni layihələrin həyata keçirilməsinə yönəldilmişdir. Yaxın bir neçə ildə "Şahdəniz – 2" layihəsinin reallaşdırılması nəticəsində bu yataqdan hasil olunacaq qazın həcminin 9 milyard kubmetrdən 16 milyard kubmetrə çatdırılması planlaşdırılır. "Abşeron" qaz yatağından isə ildə 5 milyard kubmetr qaz hasil olunacağı gözlənilir. "Abşeron", "Ümid" və digər perspektivli qaz yataqlarının ehtiyatlarını da nəzərə almaqla yaxın gələcəkdə Azərbaycanda qaz hasilatının həcminin 45-50 milyard kubmetrə çatdırılacağı proqnozlaşdırılır.[11]

Neft və qaz istehsalı üzrə həyata keçirilən transmilli layihələrə yaradılan şəraitə görə, xarici partnyorlar bölgə ölkələri içərisində ən çox Azərbaycan və Qazaxıstandan razıdırlar və bu ölkələrin iqtisadi gələcəyinə də çox nikbin yanaşırlar. Hazırda Qərb ölkələri və ABŞ Azərbaycanı özlərinin enerji sahəsində ən sabit və etibarlı tərəfdaşlarından biri kimi dəyərləndirərək, ona dünya enerji bazarına çıxmaq üçün lazım olan bütün köməkliyi göstərirlər.[3] Bütün bunlar Azərbaycanın dünyada və regionda transmilli geoiqtisadi dəyərini artırır və əlverişli tərəfdaşa çevirir.

Azərbaycanın müstəqillik illərində davamlı olaraq müşahidə olunan sürətli sosial-iqtisadi inkişafı faktı da, mütəxəssislərin fikrinə görə, Cənubi Qafqaz ölkələri içərisində onun geoiqtisadi çəkisini getdikcə əhəmiyyətli dərəcədə yüksəldir. 1996-cı ildən başlayaraq Azərbaycanda ümumi daxili məhsul istehsalının orta hesabla hər il 10%-dən yuxarı artımı, inflyasiyanın nisbətən sabit saxlanması, əhalinin pul gəlirlərinin və yaşayış həddinin getdikcə yüksəlməsi, istehsalda qeyri-neft sektorunun və özəl sahənin payının artması, idxal-ixrac balansında ixracın üstünlüyünün təmin edilməsi və s. həyata keçirilən iqtisadi siyasətin səmərəli olmasını bilavasitə təsdiq edir. 1999-2001-ci illərdə ölkədə ÜDM-in orta illik artım sürəti 2,5 faiz, 2001-2004-cü illərdə isə 8-10% təşkil etmişdir. 1993-2004-cü illərdə Azərbaycan iqtisadiyyatına bütün mənbələr hesabına 22,6 milyard ABŞ dolları miqdarında sərmayə qoyulmuşdur ki, bunun da 17 milyardı xarici, 5,6 milyardı isə daxili sərmayə olmuşdur. Müstəqillik illərində ölkə iqtisadiyyatına yatırılmış sərmayələrin ümumi həcmi 2013-cu ildə 172.4 milyard dollara çatmış və 2007-ci ildən başlayaraq daxili sərmayələrin həcmi xarici sərmayələrin həcmini üstələməyə başlamışdır. 2004-2013-cü illərdə ölkə iqtisadiyyatına 150.2 milyard dollar investisiya qoyulmuş, onun da 54%-i daxili sərmayələr olmuşdur.[12]

Mütəxəssislər hesab edirlər ki, artıq 2005-ci ildən başlayaraq Azərbaycan öz iqtisadi və sosial inkişaf parametrlərinə görə nəinki təkcə bölgədə, həmçinin dünyada lider ölkəyə çevrilə bilmişdir. Məsələn, 2005-ci ildə ölkədə ÜDM istehsalı 27%, 2006-cı ildə isə 34% artaraq bölgənin və dünyanın ən yüksək göstəricisi olmuşdur.[8] Azərbaycanın sürətli iqtisadi inkişafı sonrakı illərdə də öz yüksək tempini saxlamış və ÜDM artımı müvafiq olaraq 2007-ci ildə 27%, 2008-ci ildə 11%, 2009-cu ildə 9,3% və 2010-cu ildə 5,7% təşkil etmişdir.[10] 2008-ci ildə başlayan ümumdünya iqtisadi böhran bir çox ölkələrin, hətta inkişaf etmiş Qərb dövlətlərinin iqtisadiyyatına ciddi zərbə vurduğu halda, Azərbaycan

iqtisadiyyatı öz dayanıqlığını qoruyub saxlamış, əhalinin yaşayış səviyyəsi yüksəlməkdə davam etmiş, mühüm investisiya layihələrinin həyata keçirilməsi belə dayandırılmamışdır. Əgər 2011-ci ildə ölkədə ÜDM artımı cəmi 0.1% olmuşdusa, 2012-ci ildə bu rəqəm 2.2%, 2013-cü ildə isə 5.8% təşkil etmişdir.[12] İqtisadi artım əsasən iqtisadiyyatın qeyri-neft sektorunun orta hesabla illik 10% yüksəlməsi hesabına əldə olunmuşdur.

Ümumilikdə, son 10 ildə Azərbaycanın inkişaf strategiyası xüsusi düşünülmüş, hərtərəfli əsaslandırılmış uzunmüddətli dövlət proqramları əsasında həyata keçirilmişdir. 2004-2013-cü illərdə Azərbaycanın sosial-iqtisadi, regional və ayrı-ayrı digər sahələrin inkişafını nəzərdə tutan çoxsaylı ünvanlı dövlət proqramları qəbul edilmiş və uğurla həyata keçirilmişdir. Bunun nəticəsində ölkə iqtisadiyyatı ümumilikdə 3.4 dəfə artmış, yoxsulluğun səviyyəsi 49 faizdən 5.5 faizə düşmüşdür. İşsizliyin səviyyəsi 4.8 faizə enmiş və bu göstəriciyə görə, Azərbaycan dünyanın bir sıra inkişaf etmiş ölkələrini də geridə qoymuşdur. Azərbaycanda müasir iqtisadi və sosial infrastruktur yaradılmış, respublikanın enerji təhlükəsizliyi tam, ərzaq təhlükəsizliyi isə əsasən təmin olunmuşdur. Son 10 ildə Azərbaycanın dövlət büdcəsi 17 dəfə artaraq 25 milyard dollara çatmış, 2013-cü ildə icmal büdcənin gəlirləri 29.5 milyard dollar təşkil etmişdir. 2003-cü ildə cəmi 800 milyon dollar təşkil edən strateji valyuta ehtiyatları 2013-cü ildə artıq 50 milyard dollara yüksəlmişdir. Əməkhaqları, pensiyalar, təqaüdlər ardıcıl şəkildə artırılmış və bu göstəriciyə görə Azərbaycan MDB məkanında öncül yerləri tutmuşdur. Minlərlə istehsal obyekti, nəhəng zavod və fabriklər, texnoparklar tikilmiş, 1.2 milyon yeni iş yeri yaradılmışdır. 2500 məktəb, yüzlərlə səhiyyə müəssisəsi, mədəniyyət, idman obyektləri tikilmişdir. Nəhəng infrastruktur layihələri reallaşdırılmış, regional inkişaf proqramları paytaxtla bölgələr arasında kəskin fərqin aradan qaldırılmasına ciddi təsir göstərmişdir. Regionlar da paytaxt kimi dinamik inkişaf etmiş, müasirləşmişdir.[9]

Son 10 ildə iqtisadi sahədə əldə olunmuş uğurlar nəticəsində Azərbaycan Cənubi Qafqaz regionunda lider mövqelərini daha da möhkəmləndirmişdir. Müqayisə üçün qeyd edək ki, 2013-ci ildə Azərbaycanda ÜDM istehsalı 71 mlrd. ABŞ dolları[15], müvafiq olaraq Gürcüstanda 16.1 mlrd. dollar[16], Ermənistanda isə 10,4 mlrd. dollar[17] təşkil etmişdir. Azərbaycanın Gürcüstan iqtisadiyyatının inkişafında oynadığı rolu da nəzərə alaraq, demək olar ki, bu gün ölkəmizin bölgənin ÜDM istehsalındakı payı 80%-dən çoxdur. Dünyanın bir çox nüfuzlu iqtisadi və maliyyə mərkəzləri, o cümlədən Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, Dünya İqtisadi Forumu, «Moodys», «Fitch Raitings», «Standard and Poors» nüfuzlu reytinq agentlikləri Azərbaycanın yüksək inkişaf tempi nümayiş etdirdiyini xüsusi vurğulayaraq, onun dünyada ən yüksək iqtisadi artıma malik olması faktını qeyd etmişlər. Davos İqtisadi Forumunun 2013-cü ilə dair hesabatında Azərbaycan "iqtisadiyyatın rəqabətə davamlılığı" əmsalına görə dünya ölkələri arasında 39-cu yeri tutmuşdur. ABŞ-ın «Heritage» Fondu və «Wall Street Journal» qəzetinin birgə hazırladığı «İqtisadi Azadlıq İndeksi – 2014» adlı hesabatda Azərbaycan dünyanın 186 ölkəsi arasında 81-ci yeri tutaraq iqtisadi cəhətdən "orta azad ölkələr" sırasına daxil olmuşdur. Beynəlxalq maliyyə mərkəzlərinin, o cümlədən Dünya Bankının, Beynəlxalq Valyuta Fondunun hesablamaları göstərir ki, qarşıdan gələn illərdə Azərbaycanda sürətli iqtisadi inkişaf tendensiyası davam edəcək ki, bu da müvafiq olaraq həm ölkənin beynəlxalq imicinə, həm də xarici geosiyasi aktorlarla tərəfdaşlıq münasibətlərinə müsbət təsir göstərəcəkdir.

Hazırda təbii səbəblərdən ümumi iqtisadi gücünə görə Rusiya, Ukrayna, Qazaxıstan və Belarus kimi iri dövlətlərdən nisbətən geridə qalsa da, Azərbaycan qalan digər postsovet respublikalardan həm iqtisadi kəmiyyət, həm də keyfiyyət göstəricilərinə görə irəlidədir. *Bölgədəki neft istehsalına, transmilli nəqliyyat-tranzit imkanlarına, xarici iqtisadi əlaqələrinin intensivliyinə, enerji resursları ixracının şaxələndirilməsinə, Qərbin Xəzərə hərbi-geostrateji çıxışının təmin edilməsi və hövzənin strateji hədəflərinə nəzarət imkanı yaratmasına və digər geoməkan üstünlüklərinə görə* isə Azərbaycan Qazaxıstan və Gürcüstanla birlikdə mütəxəssislər tərəfindən bölgənin ən əhəmiyyətli dövləti hesab olunur.

Bundan başqa, Azərbaycanın milli iqtisadiyyatı müstəqilliyinin ilk illərində tamamilə xarici kapitaldan və neft sənayesindən asılı idisə, son illərdə nisbət əsaslı şəkildə dəyişmiş, iqtisadi, sosial, infrastruktur və s. sahələrdə yerli kapital və qeyri-neft sektorunun payı üstün səviyyəyə yüksəlmişdir. Son illər Azərbaycan rəhbərliyi neft amilindən və xarici kapitaldan asılılığı kəskin şəkildə azaltmış, iqtisadi inkişafın yükünü qeyri-neft sektorunun üzərinə keçirmiş, əsas valyuta ehtiyatlarını da məhz bu sektorun yüksəlişinə istiqamətləndirərək, yerli istehsalın, xüsusən milli sənaye, emal və ərzaq istehsalı müəssisələrinin inkişafını təmin etmək üçün ciddi addımlar atmış ki, bu da ölkənin iqtisadi gələcəyi ilə bağlı əhalidə və mütəxəssislərdə nikbin əhvali-ruhiyyə yaratmışdır. Azərbaycanda yürüdülən məqsədyönlü siyasətin – neftdən gələn gəlirləri iqtisadiyyatın şaxələndirilməsinə və qeyri-neft sektorunun inkişafına yönəldilməsinin nəticəsi olaraq ÜDM-in strukturunda bu sahənin payı sürətlə artmışdır. Əgər 2010-cu ildə iqtisadiyyatda qeyri-neft sektorunun payı 44.4% təşkil edirdisə, 2013-cü ildə bu rəqəm artıq 56.6%-ə yüksəlmişdir. Hökumətin proqnozlarına əsasən, 2015-ci ildə qeyri-neft sektorunun ÜDM-də payı 61,7 faizə çatacaqdır.[13]

Azərbaycanın 2005-2013-cü illərdə strateji neft və qaz məhsullarının satışından əldə edilən gəlirlər hesabına ölkənin enerji, nəqliyyat, rabitə-informasiya sektorunun tam yeniləşdirilməsi və bu sahələr üzrə milli təhlükəsizliyin möhkəmləndirilməsi, sosial və iqtisadi infrastrukturun yenidən qurulması, iqtisadiyyatının

liberallaşdırılması və şaxələndirilməsi, qeyri-neft sektorunun inkişafına önəm verilməsi, ekoloji tarazlığın təmin edilməsi və s. hesab olunur.

2003-cü ildən başlayaraq regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının qəbulu və icrası respublikada yeni şərait yaradaraq, Azərbaycanın bütövlükdə əksər bölgələrinin hərtərəfli tərəqqisinə səbəb olmuş, mərkəzlə regionlar arasında iqtisadi-sosial fərqləri əsasən aradan qaldırmış, yaşayış məntəqələrinin simasını müasirləşdirmişdir. Respublikanın kommunal, yol-nəqliyyat, sosial, informasiya-kommunikasiya, ekologiya və digər sahələrin infrastrukturuna milyardlarla dollar investisiya qoyulmuşdur. Yeni iş yerlərinin açılması ölkədə işsizlik probleminin aradan qaldırılmasına mühüm təsir göstərmişdir.

Müstəqillik illərində Azərbaycanın kənd təsərrüfatı və ərzaq istehsalı sisteminə əsaslı investisiya yatırılmış, fermerlərə birbaşa dövlət dəstəyi göstərilmiş və bu sahənin inkişafına əsaslı təkan verilmişdir. Hazırda Azərbaycan əksər ərzaq məhsulları ilə özünü əsasən təmin edir. Əgər Sovet hakimiyyəti illərində Azərbaycan bəzi ərzaq məhsullarının istehlakında (ət, yağ, kartof, taxıl və s.) digər respublikalardan asılı vəziyyətdə idisə, müstəqillik dövründə bu balans daxili istehsal hesabına kəskin dəyişmişdir.

Göründüyü kimi, 2004-2013-cü illərdə həyata keçirilmiş məqsədyönlü siyasət nəticəsində ölkə iqtisadiyyatı şaxələndirilmiş və iqtisadi balansda qeyri-neft sektorunun üstünlüyü təmin edilmişdir. Bununla yanaşı, qarşıdan gələn dövrdə də iqtisadiyyatda enerji amili öz aktuallığını saxlayacaq. Hazırda Azərbaycanın xarici borclarının miqdarı ÜDM-in cəmi 8%-i həcmindədir ki, bu da dünyada ən yaxşı göstəricilərdən biri hesab olunur.

Mütəxəssislərin fikrinə görə, Xəzər regionunun hazırkı regional hərbi-geostrateji balansı Rusiyadan, geoiqtisadi və təbii enerji balansı Azərbaycan, Qazaxıstan və Türkmənistandan, nəqliyyat-kommunikasiya dəhlizləri Azərbaycan, Gürcüstan, Türkiyə və Rusiyadan asılıdır. Onların fikrinə görə, Rusiya, İran, Orta Asiya ölkələri, Azərbaycan, Türkiyə və Gürcüstanın, o cümlədən Qərb ölkələrinin iştirakı ilə formalaşan Xəzər hövzəsinin geosiyasi, geoiqtisadi və hərbi-geostrateji mühitinin gələcək taleyində isə Azərbaycanın mövqeyi kifayət qədər yüksəkdir. Bu ölkənin ayaq qoyduğu "geosiyasi tərəzi"nin gözü dərhal regionun əsas ağırlıq mərkəzinə çevrilir və regional münasibətlərin üstün istiqamətini təşkil edir.

Azərbaycanın artan enerji ixracı potensialını düzgün qiymətləndirən ABŞ və Avropa İttifaqı 2007-ci ildən başlayaraq Avropaya qaz ixracını nəzərdə tutan "Cənub Dəhlizi" çərçivəsində Nabucco qaz layihəsini geniş müzakirə mövzusuna çevirmişlər. Ehtimal edilirdi ki, bu layihənin tikintisi 2010-2011-ci illərdə başlayarsa, artıq 2014-2015-ci illərdə onun vasitəsilə təxminən ildə 25-30 milyard kubmetr Azərbaycan, Mərkəzi Asiya, hətta ola bilsin İran qazının Avropa bazarına ixracı mümkün olacaq və Avropa alternativ yanacaq mənbəyi əldə etməklə özünün enerji təhlükəsizliyi məsələsində Rusiyadan asılılığını xeyli azaldacaqdır. Ancaq Nabucco ətrafında aparılan uzun və səmərəsiz müzakirələr təsdiq etdi ki, bu layihənin əsas təşəbbüskarları real addımlar atmaq niyyətindən uzaqdırlar və əsas maliyyə yükünü hasilatçı ölkələrin üzərinə yönəltmək fikrindədirlər. Üstəlik, hasilatçı-tranzit-istehlakçı sxemi üzrə iştirakçıların maraqlarının uzlaşdırılmasında ziddiyyətli məqamlar özünü açıq şəkildə büruzə verirdi. Bütün bu qeyri-müəyyənliklərin nəticəsi olaraq, artıq 2012-ci ilin aprelində Macarıstanın MOL şirkəti, 2013-cü ilin martında isə Almaniyanın RWE şirkəti Nabucco layihəsini tərk etdilər. 2013-cü ilin mayında isə Avstriyanın OMV şirkəti rəsmi şəkildə layihənin bağlandığını bəyan etdi.[18]

2010-cu ildən başlayaraq Azərbaycan "Cənub dəhlizi" layihəsi ilə bağlı müzakirələrin perspektivsizliyini görərək təşəbbüsü öz əlinə aldı və növbəti dəfə liderlik keyfiyyətlərini ortaya qoydu. 2011-ci ildə Azərbaycan ilə Avropa İttifaqı arasında strateji enerji əməkdaşlığına dair memorandumun, 2012-ci ildə Türkiyə ilə Trans-Anadolu layihəsi üzrə sazişin imzalanması, 2013-cü ildə isə Trans-Adriatik layihənin əsas ixrac marşrutu kimi seçilməsi "Cənub dəhlizi"nə yeni nəfəs gətirdi. Nəticə etibarilə 2013-cü il dekabrın 17-də Bakıda "Şahdəniz-2" layihəsinə dair yekun investisiya qərarı qəbul edildi.[9] Azərbaycan öz təşəbbüsü və praktiki addımları ilə yeni transmilli enerji layihələrinin əsasını qoydu, "Cənub dəhlizi" layihəsini xilas etdi, eyni zamanda Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında daha fəal iştirak etmək imkanı qazandı.

Azərbaycanın geosiyasi xarakteristikasının əsas göstəricilərindən biri də onun zəngin insan resurslarına malik olması, ölkədaxili sabit daxili ictimai-siyasi, milli-etnik və dini vəziyyətin hökm sürməsi və dövlətin bütün bu sahələr üzərindəki nəzarət imkanları ilə sıx bağlıdır. Azərbaycanın insan resursları kəmiyyət və keyfiyyət baxımından digər Cənubi Qafqaz ölkələri ilə müqayisədə üstün və perspektivli görünür. Azərbaycanın ümumi *demoqrafik göstəriciləri* (əhalinin artım sürəti, gənclərin ümumi əhali arasında miqdarı və s.) müsbət istiqamətdə inkişaf edir. Ölkə əhalisinin sayı hazırda 9 milyondan artıqdır və artım balansı getdikcə müsbətə doğru dəyişir. Respublika üzrə hər kvadrat kilometrə, təxminən 96 nəfər düşür.

Keyfiyyət göstəricilərinə görə də ölkə əhalisi dünya standartlarına yaxındır. Əhalinin yaşayış səviyyəsi, təhsili, texniki və peşə hazırlığı, sağlamlıq və yaş meyarları, miqrasiya, urbanizasya göstəriciləri həm daxili inkişaf, həm də qlobal iqtisadi əlaqələr baxımından mütəxəssislər tərəfindən yetərli hesab olunur. Burada ən mühüm kriterilərdən biri kimi 2004-cü ildən başlayaraq və hazırda da davam edən sosial proqramlar nəticəsində əhalinin yaşayış səviyyəsinin sürətlə yüksəlməsini,

adekvat olaraq yoxsulluğun 10 dəfəyə yaxın azalmasını göstərmək olar. Hətta 2001-2013-cü illər ərzində Dövlət Neft Fondundan və digər mənbələrdən ayrılmış vəsait hesabına həyata keçirilmiş layihələr nəticəsində qaçqın və məcburi köçkünlərin arasında yoxsulluq səviyyəsi 2003-cü ildəki 75%-dən 2013-cü ildə 15%-ə enmişdir. Reallaşdırılan tədbirlərin miqyası isə çox genişdir – 2,5 milyon kvadrat metr sahəsi olan, bütün sosial-texniki infrastruktura malik 82 müasir qəsəbə salınmış, 40 min ailə 180 min nəfərədək qaçqın və məcburi köçkünün mənzil-məişət şəraiti yaxşılaşdırılmışdır. Son bir neçə ildə orta hesabla hər il 20 min nəfərdən çox məcburi köçkün yeni müasir mənzillərlə təmin olunur. Yeni salınmış yaşayış məntəqələrində 139 məktəb, 6 musiqi məktəbi, 51 uşaq bağçası, 55 tibb məntəqəsi, 45 mədəniyyət mərkəzi, 2 Olimpiya İdman Kompleksi tikilmiş, müasir tələblərə uyğun kommunal infrastruktur yaradılmışdır. Paralel şəkildə qaçqın və məcburi köçkünlərin məşğulluq probleminin həlli istiqamətində də səmərəli addımlar atılır.[19]

Hazırda bütün dünyada baş verən qloballaşma prosesləri Azərbaycan əhalisinin həm daxildəki yerdəyişmə hərəkətinə (urbanizasiya prosesinə), həm də ölkə xaricinə miqrasiyasına təkan vermişdir. Müstəqillik dövründə kənd əhalisinin təxminən bir milyona yaxını kortəbii qaydada kəndləri tərk edərək Bakı şəhərinə və ətraf qəsəbələrə köçmüş, bir o qədər də ölkə əhalisi xarici ölkələrə miqrasiya etmişdir. Bunların daha çoxu mövsümi işlər üçün xaricə gedənlər, az bir qismi isə öz yaşayış yerini daimi dəyişənlərdir. Şəhərlərdə və rayon mərkəzlərində yaşayan əhali arasında bazar iqtisadiyyatına keçidlə və SSRİ dövründə tikilmiş iri sənaye müəssisələrinin dağılması ilə bağlı müəyyən işsizlik mövcud olsa da, bu boşluq miqrasiya və yeni istehsal-kommersiya müəssisələrinin yaranması hesabına doldurulur.

Tədqiqatçılar ictimai-siyasi və sosial-mənəvi resursların milli maraqların təmin edilməsinə yönəldilməsi sahəsində Cənubi Qafqaz ölkələri içərisində ən balanslı geosiyasəti və effektli siyasi idarəçilik sistemini də Azərbaycana aid edirlər. Azərbaycanın siyasi hakimiyyəti 1993-2013-cu illər arasında ölkənin geosiyasi vəzifələri və inkişaf ehtiyaclarına uyğun fəaliyyət konsepsiyasını və strategiyasını, dövlətin daxili və xarici siyasətinin prioritetlərini, istiqamət və vəzifələrini düzgün müəyyənləşdirmiş, təqdirəlayiq daxili və xarici fəaliyyət prinsipləri nümayiş etdirmiş, ölkəni beynəlxalq, regional, çoxtərəfli və ikitərəfli münasibətlər sistemində fəal təmsil etmişdir. Hazırda Azərbaycanın geosiyasi idarəçilik sistemi ölkə Prezidentinin, onun Administrasiyasının, mərkəzi və yerli icra hakimiyyəti orqanlarının və digər strukturların vahid fəaliyyət koordinasiyası əsasında həyata keçirilir. Bu sistem ölkənin bütün daxili institusional, ərazi, təbii-coğrafi, əhali və digər geosiyasi resurslarının, xarici siyasət aktivlərinin səmərəli və effektiv istifadəsini, daxili və xarici siyasi-iqtisadi əlaqələrin koordinasiyasını təmin edir. Xüsusən ölkənin daxilində və beynəlxalq aləmdə, xarici təşkilatlarda, transmilli qurumlarda vahid siyasət üzrə təmsil olunma və təmsilçiliyin idarə edilməsi, beynəlxalq münasibətlər sistemində cərəyan edən proseslərin öyrənilməsi və müvafiq strategiyanın hazırlanması, müttəfiqlərlə, tərəfdaşlarla, rəqiblərlə və digər beynəlxalq aktorlarla əlaqələrin xarakterinin müəyyənləşdirilməsi və həyata keçirilməsi sahəsində bu əlaqələndirmə sisteminin mühüm əhəmiyyəti özünü göstərir.

Uğurlu geosiyasi idarəçiliyin nəticəsi olaraq ötən dövrdə Azərbaycanın xarici aləmlə səmərəli əməkdaşlığı yaranmış, qarşılıqlı maraqlara cavab verən çoxsaylı ortaq transmilli layihələr həyata keçirilmiş, dünya siyasətinə təsir gücü olan böyük dövlətlərlə, beynəlxalq və regional qurumlarla tərəfdaşlıq münasibətləri qurulmuş, ölkənin nüfuzlu xarici alyanslarda, hökumətlərarası və qeyri-hökumət təşkilatlarında iştirakı təmin edilmişdir.

İqtisadiyyatın qloballaşdığı yeni minillikdə Azərbaycan dünyanın universal və qlobal iqtisadi sisteminə müvəffəqiyyətlə inteqrasiya olunur, Avropa İttifaqı, Ümumdünya Ticarət Təşkilatı, Beynəlxalq Valyuta Fondu, Dünya Bankı və digər iqtisadi-maliyyə qurumları ilə hərtərəfli əməkdaşlıq edir. Təsadüfi deyil ki, bu qurumların dəstəyi və təqdimatı ilə, postsovet ölkələri içərisində ən çox xarici kapital da məhz Azərbaycan və Qazaxıstan iqtisadiyyatına yatırılıb. Hazırda adambaşına düşən xarici investisiyaların miqdarına görə Azərbaycan nəinki postsovet məkanının, həmçinin dünyanın lider ölkələrindən hesab olunur.

Keçən müddətdə Azərbaycanın regionda və dünyada nümayiş etdirdiyi balanslı geosiyasət, praqmatik xarici siyasət kursu, reallaşdırdığı uğurlu neft strategiyası, transmilli enerji və nəqliyyat-kommunikasiya siyasəti, həyata keçirdiyi regional və milli təhlükəsizlik strategiyası, Avropa Birliyi, NATO, ATƏT, MDB, İKT və b. beynəlxalq-regional qurumlarla yaratdığı tərəfdaşlıq münasibətləri, Avropa Şurasına və Qoşulmama Hərəkatına üzv qəbul olunması, əksər beynəlxalq konvensiyalara qoşulması və beynəlxalq aləm qarşısında götürdüyü öhdəliklərin icrası ölkənin xarici aləmlə geosiyasi, geoiqtisadi və hərbi-geostrateji tərəfdaşlıq münasibətlərinə müsbət təsir göstərən əsas amillər kimi çıxış etmişdir.

Müasir dünyada geoiqtisadi dəyər ölçüləri həm də mövcud ölkədə yürüdülən iqtisadi, siyasi, sosial, milli və s. siyasətin xarakteri və effektivliyi ilə ölçülür. Azərbaycan özünün müsbət və pozitiv iqtisadi inkişaf meyillərini – iqtisadiyyatının liberallaşdırılmasını, Qərblə iqtisadi əlaqələrini və bazar iqtisadiyyatı mexanizmlərini inkişaf etdirilməklə yanaşı, həm də ölkə daxilində sabit vətəndaş birliyinin yaradılması istiqamətində mühüm nailiyyətlər qazanmışdır. Ölkədə həyata keçirilən düzgün və fəal siyasət onun daxili ictimai-siyasi mühitini nəzərəçarpacaq dərəcədə modernləşdirmiş, dövlət və cəmiyyət həyatını demokratikləşdirmiş, sosial-mənəvi sahələri yeniləşdirmiş, vətəndaş cəmiyyəti təsisat-

larını formalaşdırmış və müasir dövrün tələblərinə uyğunlaşdırmışdır. Avropa dəyərlərinə, dünyəvi və hüquqi dövlət quruculuğu yoluna üstünlük verməsi, vətəndaşlarının təhsil, mədəni və intellektual səviyyəsini yüksəltməsi və s. amillər ölkənin dünyəvi geosiyasi əhəmiyyətini və planetar imicini xeyli artırmış və geosiyasi xarakteristikasına müsbət təsir göstərmişdir. Hazırda Azərbaycan öz ictimai-siyasi və sosial-mənəvi vəziyyəti, yekdil milli-dini-vətəndaş birliyi, tolerant daxili vəziyyəti və s. ilə Cənubi Qafqazın ən sabit və lider ölkəsi hesab olunur.

Azərbaycan Cənubi Qafqazda həm də xristianlıqla islamın sərhədlərinin bitdiyi və sivilizasiyaların qovuşduğu, müxtəlif millətlərin, dinlərin və mədəniyyətlərin bir arada inkişaf etdiyi, dini dözümlülüyün hökm sürdüyü coğrafi məkan olaraq, öz multikulturalist və tolerant cəmiyyəti, sabit ictimai mühiti ilə seçilir. Bu istiqamətdə ölkə rəhbərliyinin yürütdüyü ardıcıl siyasət ölkənin regionda geosiyasi nüfuzunu artırmaqla yanaşı, həm də Cənubi Qafqaz və Xəzər hövzəsində regional sabitlik və təhlükəsizliyin təmin olunmasına ciddi təsir göstərir. Bütün bunlar da Azərbaycanın xarici aləmlə geosiyasi tərəfdaşlığına müsbət təsir göstərən əsas amil hesab olunur.

Tədqiqatçılar Azərbaycanın üstün geosiyasi resursları sırasına, həmçinin azərbaycanlıların ölkədaxili və beynəlxalq aləmdə nümayiş etdirdiyi vətəndaş birliyini, hakimiyyətin siyasətinə xalqın etimadı və dəstəyini, milli maraqların və ölkədaxili sabitliyin qorunması üçün əhalinin, xüsusən ziyalıların nümayiş etdirdiyi güclü milli iradəni, vətəndaş əzmini və dövlətçilik təfəkkürünü və s. də aid edirlər. Müstəqilliyinin müəyyən mərhələlərində Azərbaycanın ictimai-siyasi və mənəvi resurslarının təsir gücünü azaltmaq, vətəndaş birliyini pozmaq, yürüdülən siyasətə etimadsızlıq yaratmaq istiqamətində həm xaricdən, həm də daxildən göstərilən bütün cəhdlərə baxmayaraq, bu gün Cənubi Qafqazın ən sabit ölkəsi Azərbaycandır. Tədqiqatçıların fikrinə görə, bölgədə ən sabit cəmiyyət, milli, etnik, dini icmalar arasında sülh və tolerantlıq mühiti də məhz Azərbaycanda hökm sürür. Bütün bunlar da öz növbəsində Azərbaycanın Cənubi Qafqazdakı geosiyasi liderliyindən xəbər verir və ölkənin daxili və xarici siyasətində mühüm amil kimi çıxış edir.

Hər bir dövlətin siyasi, iqtisadi və s. fəaliyyətinin ölçü meyarı, göstəriciləri və müvəffəqiyyəti həm də onun beynəlxalq nüfuzundan, geosiyasi imicindən, qazanılmış reputasiyasından, onu təmsil edən rəhbərlərin (yaxud rəhbər işçilərin) təsdiq olunmuş nüfuzundan, daxildə və beynəlxalq aləmdə nümayiş etdirdiyi fəaliyyətdən, xalqının mədəni və intellektual səviyyəsindən və s. asılıdır. Bu baxımdan Azərbaycan özünün regional imicinə, daxili ideoloji-mədəni resurslarına görə dünyada seçilən yerlərdən birini tutur. Bu yer bir tərəfdən keçmiş Azərbaycan prezidenti, dünyada nüfuzlu ictimai-siyasi və dövlət xadimi imici qazanmış Heydər Əliyevin uzun müddət ölkəni beynəlxalq aləmdə təmsil etməsi, müsəlman ölkələri içərisində Azərbaycanın daha çox Avropa dəyərlərinə, dünyəvi və hüquqi dövlət quruculuğu yoluna üstünlük verməsi, xalqın təhsil, mədəni və intellektual səviyyəsinin yüksək olması, dünyanın elm, mədəniyyət və incəsənət xəzinəsinə verdiyi qabaqcıl töhfələrlə, digər tərəfdənsə hazırda Prezident İlham Əliyevin yürütdüyü tam müstəqil və prinsipial xarici siyasət kursu ilə bağlıdır.

Dövlətlərin geosiyasi gücünün və beynəlxalq aləmə təsir imkanlarının əsas göstəriciləri həm də onun bütün dünyanın, ayrı-ayrı regionların ictimai-siyasi, iqtisadi, sosial, təhlükəsizlik mühitinə, beynəlxalq aləmin rəsmi və ictimai rəyinə təsir etmək imkanları, transmilli proseslərdə iştirakı və s. ilə ölçülür. Bu baxımdan Azərbaycanın dünya ölkələrinin alternativ enerji təminatı, transmilli enerji, nəqliyyat-kommunikasiya layihələrində iştirakı ilə yanaşı, həm də son illərdə digər planetar qlobal proseslərdə – beynəlxalq terrorizmə, narkoticarətə qarşı mübarizədə, dünya siyasətinin demokratik transformasiyasında, regional inteqrasiya və s. fəal iştirakı da onun bölgədəki geosiyasi gücünü və təsirini, beynəlxalq aləmdəki nüfuzunu, rolunu və dəyərini xeyli yüksəltmişdir. 2012-ci ildə 155 ölkənin dəstəyi ilə Azərbaycanın BMT Təhlükəsizlik Şurasına üzv seçilməsi və bu qurumun çərçivəsində səmərəli fəaliyyəti onun qlobal müstəvidə məqsədyönlü, prinsipial və aktiv fəaliyyətin məntiqi nəticəsi kimi izah oluna bilər. Azərbaycan BMT Təhlükəsizlik Şurasında iki illik fəaliyyəti ilə bir daha təsdiq etmişdir ki, bu ölkə qlobal təhlükəsizliyə, dünyada sabitliyin, sülhün və əmin-amanlığın bərqərar olmasına, sivilizasiyalararası və mədəniyyətlərarası dialoqun inkişafına töhfə vermək iqtidarındadır və bu işdə əlindən gələni edir. Bu müddət ərzində Azərbaycan BMT-nin üzv dövlətləri, qurumun rəhbər orqanları, digər beynəlxalq təsisatlarla sıx işbirliyi, sağlam əməkdaşlıq münasibətləri yaratmış və inkişaf etdirmişdir. BMT Təhlükəsizlik Şurası həm də Azərbaycan üçün öz həqiqətlərini dünya ictimaiyyətinə çatdırmaq, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli, beynəlxalq hüquq çərçivəsində həllini diqqətdə saxlamaq üçün bir vasitə olmuşdur.

Bundan başqa, Azərbaycan öz vətəndaş cəmiyyəti institutları, KİV-ləri və QHT-ləri vasitəsilə dünyanın qlobal ictimai və informasiya məkanında arzuolunan səviyyədə təmsil olunmasa da, ölkə daxilində qeyri-hökumət qurumlarına, mediaya yaratdığı sərbəst və azad mühitə, göstərdiyi maddi və mənəvi dəstəyə, dünyanın qlobal informasiya vasitələrinə, aparıcı xarici mətbuat orqanlarına və nümayəndəliklərinə yaratdığı əlverişli şəraitə və s. görə də dünyada vətəndaş cəmiyyəti və siyasi plüralizmin hökm sürdüyü bir dövlət imici qazana bilmişdir. Bu amil də ölkənin beynəlxalq imici və geosiyasi gücünə fəal təsir göstərir.

Azərbaycanın geosiyasi təsir və diplomatik resursları sırasına xarici ölkələrdə fəaliyyət göstərən diplo-

matik nümayəndəlikləri, dünyada yaşayan azərbaycanlıları və s. aid etmək olar. Azərbaycan bu resurslar vasitəsilə dünyanın siyasi, mədəni, diplomatik və s. həyatında iştirak edir və müvafiq sahələrdə öz geosiyasi maraqlarını təmin etməyə çalışır. Xarici siyasət resurslarının gücünə, xarici ölkələrdəki səfirliklərinin və diplomatlarının sayına görə də Azərbaycan əksər post-sovet və Cənubi Qafqaz ölkələrindən üstün mövqedədir. Azərbaycanın xarici ölkələrdə 85 diplomatik təsisatı – 57 səfirliyi, 5 daimi nümayəndəliyi, 9 baş konsulluğu, 7 fəxri konsulluğu və 7 təmsilçiliyi fəaliyyət göstərir ki, onlarda işləyən diplomat və xidmətçilərin sayı hazırda1000 nəfərə yaxındır.

Xaricdə yaşayan və ölkənin xarici siyasət resursu kimi dəyərləndirilən soydaşlara gəldikdə, Cənubi Azərbaycanda, Gürcüstan, Rusiya (Dərbənd vilayəti) və başqa ölkələrdəki tarixi vətənlərində yaşayan təxminən 30-35 milyon azərbaycanlı ilə yanaşı, dünyada yaşayan digər soydaşlar də ana Vətənlə əlaqələrini kəsməmiş (bunların sayı təxminən 2 milyona yaxındır) və Azərbaycan üçün potensial investisiya mənbəyi hesab olunurlar. Məhz ikincilər (uzaq xaricdə yaşayanlar) Azərbaycandakı yaxınları ilə mütəmadi əlaqə yaradır, onların maddi problemlərinin həllində iştirak edir, yaşadıqları ölkələrdə qazandığı pulların bir qismini öz doğma şəhər və rayonlarında müxtəlif işlərə yönəldirlər. Odur ki, bu qəbildən olan azərbaycanlılar Azərbaycanın həm daxili, həm də qlobal inkişafında, onun sabit və təhlükəsiz yaşamasında, problemlərinin həllində daha çox maraqlıdırlar. Bu da Azərbaycan dövlətinə yürütdüyü xarici siyasətdə həmin insanlardan öz əhali resursu kimi istifadə etmək imkanı yaradır.

Azərbaycanın planetar və regional geosiyasi təsirinə həlledici təsir göstərən əsas amillərdən biri də ölkənin mövcud hərbi-geostrateji potensialı, regional və beynəlxalq təhlükəsizlik blokları ilə münasibətləri və təhlükəsizlik siyasəti hesab olunur. Azərbaycan malik olduğu hərbi-geostrateji potensialına, bu sahədəki əsas göstəricilərinə və milli resurslarına görə də Cənubi Qafqazın lider dövləti hesab olunur. Baxmayaraq ki, ATƏT-in "Avropada adi Silahlı Qüvvələr haqqında" müqavilənin cinah sazişi ilə (bu müqavilə 15 may 1992-ci ildə Azərbaycanın o zamankı Müdafiə naziri R.Qazıyev tərəfindən Rusiyanın təzyiqi nəticəsində imzalanmışdır) Cənubi Qafqazda Azərbaycanın, Gürcüstan və Ermənistanın hərbi texnika kvotası bərabərləşdirilmiş və Azərbaycanın milli hüquqları açıq şəkildə pozulmuşdur. Həm ərazisinin həcmi, həm də əhalisinin sayı nəzərə alınmadan, o zaman Azərbaycana Gürcüstan və Ermənistanla bərabər miqdarda ağır hərbi texnika kvotası verilmişdir. Sazişə görə onların hər biri 220 tank, 220 zirehli döyüş maşını, 285 top və 100 hərbi təyyarə saxlaya bilərlər. Əgər ərazisinin həcmi və əhalisinin sayına müvafiq bölgü aparılsa idi (qalan bütün ATƏT üzvü olan dövlətlərdə bölgü məhz bu prinsiplərlə aparılıb), o zaman Azərbaycanın hərbi texnika və silah kvotası tank üzrə müvafiq olaraq 565, ZDM üzrə 860, top üzrə 566 ədəd və s. silahlar üzrə də indikindən üç dəfə çox olmalı idi.

Azərbaycanın əhalisinin sayına müvafiq olaraq, milli ordusunun say tərkibi, hərbi-texniki hazırlığı və silahlanma keyfiyyəti də həm Gürcüstandan, həm də Ermənistandan yüksəkdir. Bundan başqa, ordu quruculuğuna yönəltdiyi ümumi büdcə xərclərinə görə də Cənubi Qafqazın lider ölkəsi Azərbaycan hesab olunur. 2010-cu ildən başlayaraq Azərbaycanın dövlət büdcəsində hərbi xərclər üçün 3 milyard manatdan artıq vəsait nəzərdə tutulur. Bu, orta hesabla Ermənistanın dövlət büdcəsindən 1.5 dəfə çoxdur.

Avroatlantik təhlükəsizlik strukturlarına inteqrasiya xətti götürməsi Azərbaycanı dünyanın və regionun təhlükəsizlik maraqlarında ciddi bir aktora çevirmiş və transmilli hərbi-strateji maraqların mərkəzinə çıxarmışdır. 1994-cü ildə NATO-nun Sülh Naminə Tərəfdaşlıq Proqramına qoşulmaqla Azərbaycan özünün regional və milli təhlükəsizlik maraqlarını təmin edəcəyinə və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə nail olacağına çox ümid bəsləyirdi. Eyni zamanda bu proqrama qoşulmaqda Azərbaycanın əsas məqsədi həm də öz müstəqilliyinə və sərhədlərinin təhlükəsizliyinə əlavə zəmanət almaq, Xəzər dənizinin ona məxsus sektorunda həyata keçirdiyi neft-qaz layihələrinin və dünya bazarlarına çəkilən transmilli kəmərlərin təhlükəsizliyini təmin etməkdən ibarət idi.

NATO-ya, yaxud KTMT-yə üzvlük məsələsinə gəlincə, Azərbaycan Cənubi Qafqazda və Avrasiya məkanında bir-biri ilə toqquşan geosiyasi maraqların (əsasən Rusiya və ABŞ başda olmaqla NATO və KTMT-nin) mövcud olduğunu nəzərə alaraq, həmişə tarazlı siyasət aparmağa üstünlük vermişdir. Mütəxəssislər hesab edir ki, bu sahədə Azərbaycanın həyata keçirdiyi siyasət Cənubi Qafqazın mövcud reallığına tam adekvat idi. Çünki "Rusiya Bakını hərbi cəhətdən birbaşa nəzarətdə saxlaya bilməsə də, Ermənistanla müvafiq əməkdaşlığı gücləndirmək və rəsmi olaraq Dağlıq Qarabağ münaqişəsindəki davranışını Ermənistanın xeyrinə dəyişməklə Azərbaycanın milli təhlükəsizliyinə və hərbi-strateji maraqlarına ciddi təhlükə yarada bilərdi".[5]

Beləliklə, göründüyü kimi Azərbaycan təkcə Avropa Birliyinin enerji təminatı və təhlükəsizliyi baxımından və "Qonşuluq siyasəti"nin əsas fiqurantlarından biri kimi deyil, həm də dünyanın müxtəlif bölgələrində – Əfqanıstanda, İraqda, Balkanlarda və s. həyata keçirdiyi sülhyaratma proseslərində birbaşa iştirakı, NATO-nun qeyri-hərbi ehtiyatlarla təchizatı, təhlükəsiz hava dəhlizinin təqdim olunması və s. fəaliyyəti ilə də Qərbin etibarlı tərəfdaşı hesab olunur.[6]

Beləliklə, yuxarıda göstərilən amillər əsasında, hazırda Azərbaycanın əksər xarici və region ölkələri ilə yaxşı tərəfdaşlıq və əməkdaşlıq münasibətləri vardır. Azərbaycan ABŞ və Avropa Birliyi ilə yanaşı, Xəzər-Qara dəniz hövzəsi, Orta Asiya, Yaxın Şərq, 2012-ci ildə Qoşulmama Hərəkatına üzv olduqdan sonra isə bir sıra

Cənubi Amerika və Afrika ölkələri ilə yaxşı münasibətlər qurmuş və onlarla tərəfdaşlıq əlaqələrini inkişaf etdirir. Azərbaycan Qara-Xəzər dənizi hövzələri və Cənubi Qafqaz ölkələri içərisində geosiyasi və geoiqtisadi riskləri ən minimum olan və "etibarlı tərəfdaş" imici qazanmış ölkələr sırasında lider mövqelərdən birini tutur. Ətraf ölkələrdən onun yalnız işğalçı Ermənistanla Dağlıq Qarabağla bağlı münaqişəsi və problemləri mövcuddur. Xəzər hövzəsi ölkələri içərisində Türkmənistan və İranla Xəzər dənizindəki sektor bölgüsü və bəzi yataqların mənsubiyyəti ilə bağlı müəyyən problemlər yaşansa da, hazırda bu ölkələr arasında bütün digər sahələr üzrə dostluq və tərəfdaşlıq münasibətləri hökm sürür.

Azərbaycanın əlverişli coğrafi durumu, müstəqil siyasəti, iqtisadi potensialı, maddi və mənəvi resursları və digər amillər onu regional mərkəz statusuna yüksəltmiş və beləliklə, geosiyasi dəyərini daha da artırmışdır. Azərbaycan bölgədə iqtisadi, sosial, humanitar və digər sahələrdə reallaşdırılan bütün layihələrin əsas təşəbbüskarı və mərkəzi fiqurudur. Ekspertlər müstəqillik dövründə həyata keçirilmiş transmilli neft və qaz, nəqliyyat-kommunikasiya layihələrini, son 10 ildə ölkə iqtisadiyyatının dinamik inkişafını əsas gətirərək 2013-cü ilin aprelində Dünya İqtisadi Forumunun məhz Bakıda keçirilməsini dünya birliyinin Azərbaycanın iqtisadi gücünə verdiyi qiymət kimi səciyyələndirirlər. Bununla yanaşı, Azərbaycan Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun, Beynəlxalq Humanitar Forumunun təşəbbüskarı və təşkilatçısı kimi çıxış edərək həm də dünyada mədəniyyətlərarası və sivilizasiyalararası dialoqun güclənməsinə öz dəyərli töhfələrini verir. Təsadüfi deyil ki, bu gün ekspertlər Bakını "Humanitar Davos" adlandırırlar. Azərbaycan məscidin, kilsənin və sinaqoqun heç bir qısqanclıq, narahatlıq olmadan yan-yana fəaliyyət göstərdiyi, çoxsaylı milli və etnik azlıqların sülh və əmin-amanlıq şəraitində yaşadığı ən nadir tolerantlıq məkanı – multikulturalizm mərkəzi kimi bütün dünyada tanınır və qəbul edilir. 2012-ci ildə "Eurovision" mahnı müsabiqəsini, çoxsaylı beynəlxalq idman yarışlarını yüksək səviyyədə təşkil edən Azərbaycan artıq 2015-ci ildə I Avropa Oyunlarına da ev sahibliyi etdi.

Azərbaycanın xarici aləmlə tərəfdaşlıq münasibətlərinə mənfi təsir göstərən və geosiyasi dəyərini aşağı salan bəzi amillər də mövcuddur. Tədqiqatçılar bu sıraya ilk növbədə Ermənistanla münaqişənin və Dağlıq Qarabağ probleminin 20 ildən bəri həll olunmamasını aid edirlər. Ümumiyyətlə, müstəqilliyə qovuşduğu andan Azərbaycanın milli inkişafı yolunda rastlaşdığı ən mühüm problem də məhz Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi olmuşdur. Müstəqilliyin ilk illərində bu problem ölkənin bölgədə və dünyada kəsb etdiyi geosiyasi əhəmiyyəti ciddi surətdə azaldaraq, beynəlxalq investisiya qurumlarının ölkəyə davamlı kapital qoyuluşu siyasətinə uzun müddət ciddi mənfi təsir göstərmişdir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi həm də bütövlükdə regionun iqtisadi, siyasi tərəfdaşlıq mühitinə, sülhün və təhlükəsizliyin təmin olunmasına maneçilik törədən başlıca amildir. Bu münaqişə həmçinin regionda transmilli enerji, nəqliyyat və dəhliz infrastrukturlarının təhlükəsizliyinə təhdid yaradır. Mütəxəssislər hesab edirlər ki, münaqişənin həllində heç bir irəliləyişin olmaması bir tərəfdən Azərbaycan ictimaiyyətini antiqərb əhvali-ruhiyyəsində kökləyir, digər tərəfdən isə Avrasiyanın təhlükəsizlik sisteminə, tərəfdaşlıq mühitinə mənfi təsir edir.[7]

Azərbaycanın geosiyasi xarakteristikasına mənfi təsir göstərən amillər sırasına mütəxəssislər həm də ölkə daxilində iqtisadi inkişaf sahəsində sona çatdırılmamış bəzi milli layihələri – iqtisadi liberallaşma və özəl sektorun inkişafı prinsiplərinin dünya standartlarından qismən geri qalmasını, sərbəst iqtisadi, biznes və rəqabət mühitinin hələ də tam bərqərar olmamasını, ölkədaxili bəzi hüquqi, siyasi, iqtisadi və digər problemləri və s. aid edirlər. Bununla yanaşı hesab olunur ki, son illər vətəndaş cəmiyyəti və bazar iqtisadiyyatı quruculuğu sahəsində islahatların dərinləşdirilməsi, korrupsiyaya, inhisarçılığa, hüquq pozuntularına qarşı mübarizənin gücləndirilməsi, bu məqsədlə hüquqi, institusional, inzibati və digər tədbirlərin intensivləşdirilməsi mövcud problemlərin əsasən aradan qaldırılmasına artıq öz müsbət təsirini göstərir.

Azərbaycan iqtisadiyyatı müasir dünya miqyasında hələ ki, özünün enerji və xammal resursları, müəyyən qədər kənd təsərrüfatı və ərzaq məhsulları ilə təmsil olunur. Xarici kapital qoyuluşunun həcminə görə Azərbaycan ən qabaqcıl ölkələr sırasında olsa da, investisiyaların böyük bir qismi neft-qaz, enerji, nəqliyyat-kommunikasiya layihələrinə yönəldilmişdir. Əksər neft ölkələrində olduğu kimi, Azərbaycanın da mühüm iqtisadi göstəricilərinin və ümumiyyətlə, iqtisadiyyatının əsasını neft-qaz sənayesi, enerji resurslarının istehsalı və satışı təşkil edir. Hazırda ölkə büdcəsinin böyük qismini enerji resurslarının istehsalı və satışından gələn gəlirlər, yaxud bu sahədən daxil olan vergilər təşkil edir. Bununla yanaşı, qeyd olunmalıdır ki, son illər sənayeləşmə prosesinin sürətlənməsi, həm daxili bazarın ehtiyaclarının ödənilməsinə, həm də ixraca hesablanmış orta və böyük istehsal müəssisələrinin yaradılması, emal sektorunun güclənməsi, kənd təsərrüfatının inkişafı sahəsində atılmış mühüm addımlar, yeni torpaq sahələrinin dövriyyəyə buraxılması və iri fermer təsərrüfatlarının yaradılması, turizm, xidmət infrastrukturunun yenidən qurulması və inkişaf etdirilməsi, nəqliyyat infrastrukturunun müasir tələblərə uyğun yenidən qurulması, tikinti biznesinin inkişafı, yeni iş yerlərinin yaradılması, əhalinin məşğulluq səviyyəsinin yüksəlməsi və gəlirlərinin artması qeyri-neft sektorunun əsaslı şəkildə inkişafına və ÜDM-in formalaşmasında onun payının kəskin şəkildə artmasına şərait yaratmışdır. 2013-cü ilin statistikasına əsasən, 57.7 milyard manatlıq

ÜDM-in 24 milyard 35 milyon manatı neft sektorunda, 29 milyard 983 milyon manatı isə qeyri-neft sektorunda yaranmışdır. 3 milyard 690 milyon manat isə məhsula və xalis idxala tətbiq olunan vergilərdən əldə olunmuşdur. İl ərzində neft sektorunun inkişafı 101%, qeyri-neft sektorunun artımı isə 110% təşkil etmişdir.[20]

Xəzər dənizinin hüquqi statusunun həll edilməməsi, Trans Xəzər layihəsinə region dövlətlərinin fərqli yanaşması və digər problemlər həm Azərbaycanın, həm də digər bölgə ölkələrinin xarici aləmlə tərəfdaşlığına mənfi təsir göstərir.

Bir faktı da qeyd etmək lazımdır ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə, Cənubi Qafqaz, Xəzər-Qara dəniz hövzəsindəki regional qarşıdurmalara və bəzi ölkədaxili problemlərə görə bir çox maraqlı dairələr dünya investorlarına nə qədər Azərbaycanı əlverişsiz bir ölkə kimi təqdim etməyə çalışsalar da, malik olduğu zəngin enerji resursları, Xəzər hövzəsində yürütdüyü effektli neft-qaz siyasəti və reallaşdırdığı çoxsaylı transmilli layihələr onu bütün dünya üçün bir o qədər cəlbedici və arzuolunan tərəfdaşa çevirmişdir.

Beləliklə, ölkənin müasir geosiyasi xarakteristikası onu deməyə əsas verir ki, müstəqillik əldə edildikdən sonra tarix baxımından ötən qısa dövr ərzində Azərbaycan keçid dövrünü başa vurmuş, güclü regional geosiyasi amilə çevrilmiş, qlobal siyasətdə də öz sözü, rəyi və prinsipial mövqeyi ilə seçilən müstəqil dövlət kimi çıxış etməyə başlamışdır.

**Ədəbiyyat:**

1. “Azərbaycan” qəzeti, 25 yanvar 2004; 08 dekabr 2004; 17 yanvar 2009.
2. İki sahil qəzeti, 26 fevral 2010. №46.
3. “İki sahil” qəzeti, 20 sentyabr 2013-cü il, xüsusi buraxılış.
4. Fraytaq-Virminqhaus R. Azərbaycanın xarici və təhlükəsizlik siyasəti // “Azerbaijan Focus” jurnalı, №1, 2009, s. 107.
5. Petersen A. Azərbaycanın Avroatlantik baxışları //Azərbaycan focus, №2, yanvar-mart 2010. s.197.
6. Cohen M. The effect of oil revenues on transition economics: the case of Azerbaijan // “Geopolitics of energy” Journal, №6, June 2006.
7. AzərTAc, Bülleten – 17 yanvar 2014.
8. AzərTAc. Bülleten – 29 dekabr 2013.
9. http://www.economy.gov.az, Trend, 22 noyabr 2011.
10. Trend xəbər bülleteni – 14 may 2014, 14 iyul 2014.
11. http://www.socar.az
12. http://www.economy.gov.az/
13. http://www. kaspiy.az - 10 yanvar 2014.
14. http:// www. newsgeorgia.ru - 24 mart 2014.
15. http:// www. newsarmenia.ru - 31 may 2014.
16. Vikipediya.org - Nabucco.
17. http://www.stat.gov.az

**Али Гасанов**

***Помощник Президента Азербайджанской Республики по общественно-политическим вопросам, доктор исторических наук, профессор***

## КРАТКАЯ ХАРАКТЕРИСТИКА 25-ЛЕТНЕЙ ИСТОРИИ НЕЗАВИСИМОСТИ АЗЕРБАЙДЖАНА: ПРОЙДЕННЫЙ ПУТЬ, ВОЗМОЖНОСТИ И ПЕРСПЕКТИВЫ

### РЕЗЮМЕ

В статье исследована 25-летняя история независимости Азербайджанской Республики в контексте пройденного пути, имеющихся возможностей и перспектив, сделаны обобщенные выводы и даны прогнозы. Автор на основе конкретных фактов и аргументов по различным параметрам проанализировал процесс становления и развития современной Азербайджанской государственности под руководством Общенационального лидера Гейдара Алиева. При этом в статье на основе существенных фактов и глубокого научного анализа обосновывается успешное продолжение его политического курса Президентом Азербайджана Ильхамом Алиевым адекватно весьма ускоренно меняющимся мировым геополитическим реалиям.

**Ali Hasanov**

***Assistant of the President of Azerbaijan Republic on Public-Political Issues, Doctor of history, Professor***

## BRIEF OVERVIEW OF 25-YEAR HISTORY OF THE INDEPENDENCE OF AZERBAIJAN: THE TRAVERSED PATH, THE PAST PATH, OPPORTUNITIES AND PROSPECTS

### SUMMARY

The author of the article examines the 25-year history of independence of the Azerbaijan Republic in the context of traversed path, current opportunities and prospects, and made general conclusions and projections. Based on specific facts and arguments, the author carries out an in-depth analysis on formation and development of modern Azerbaijan statehood under the leadership of national leader Heydar Aliyev. Moreover, based on essential facts and detailed scientific analysis, the author substantiates the political course of the President Ilham Aliyev, initiated by the National Leader Heydar Aliyev, that rapidly changes as per world geopolitical realities.

**URXAN ƏLƏKBƏROV**
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik*

# İNNOVATİV İDARƏETMƏ SİYASƏTİ AZƏRBAYCAN RESPUBLİKASININ İQTİSADİ VƏ SOSİAL İNKİŞAFININ TƏMİNATÇISI KİMİ

Azərbaycan Respublikası 2016-cı ildə müstəqilliyinin bərpasının 25-ci ildönümünü qeyd edir. Ölkə Prezidenti İlham Əliyevin bu hadisəyə həsr olunmuş xüsusi sərəncamında və keçirilən rəsmi qəbuldakı çıxışında Azərbaycan Respublikasının qısa zaman kəsiyində qazandığı yüksək nəticələr barədə məlumatlar ölkə əhalisinin və dünya ictimaiyyətinin diqqətinə çatdırılmışdır. Bu uğurlar bir çox istiqamətlərdə, o cümlədən iqtisadiyyat və sosial sahə, daxili və xarici siyasətdə qeydə alınmışdır. Paytaxt Bakı, vətənin bütün guşələri, ümumiyyətlə, ölkə bütövlükdə inanılmaz dərəcədə dəyişmiş və müasirləşmişdir. Azərbaycanın dünyada və beynəlxalq təşkilatlarda nüfuzu artmış və daim yüksəlməkdədir (1,2).

Tarixi baxımdan 25 il çox qısa bir zamandır. Bu dövrdə Azərbaycan bir sıra çağırış və təzyiqlərlə üz-üzə qalıb. Ölkənin müstəqilliyin ilk illəri çox çətin bir şəraitdə keçib, parçalanmaq və müstəqilliyin itirilməsi təhlükəsi çox yüksək olub. Ulu öndər Heydər Əliyevin Azərbaycan xalqının tələbi və təkidi ilə ölkə rəhbərliyinə gətirilməsi bu risklərin aradan qaldırılmasını təmin edib, ölkənin hazırkı inkişafı üçün zəmin yaradıb.

Qeyd etmək lazımdır ki, müstəqilliyin bərpasından sonrakı bütün dövrlərdə ölkə Azərbaycan-Ermənistan, Dağlıq Qarabağ münaqişəsinin təsiri altında olub. Ölkə ərazisinin 20 faizinin işğal altında olması, bir milyona yaxın, yəni ölkə əhalisinin təxminən 13 faizinin, qaçqın və məcburi köçkünün olması ölkənin inkişafını əngəlləyən çox ciddi siyasi, iqtisadi və sosial amillər kimi çıxış ediblər. Bütün bunlara baxmayaraq, Ümummili Lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş və Prezident İlham Əliyevin uğurla inkişaf etdirdiyi innovativ idarəetmə texnologiyalarının nəzəri əsaslarının işlənilməsi, onların təcrübədə tətbiqi nəticəsində ölkə bu illərdə çox sürətlə inkişaf etmişdir. Bunun nəticəsi kimi bir sıra iqtisadi və sosial göstəricilərinə görə, bu gün müstəqilliyinin bərpasının 25-ci ildönümünü qeyd edən müasir Azərbaycan Respublikası yüz illik tarixi olan və dünya liderləri sayılan ölkələrlə rəqabət aparmaq iqtidarındadır. Bir çox beynəlxalq təşkilatların rəsmi hesabatları bunu sübut edir (3).




**Şəkil 1.** *Azərbaycan Respublikasının innovativ inkişaf strategiyasının əsas amilləri*

Azərbaycan Respublikasının tarixi baxımdan qısa bir müddətdə – 25 il ərzində qazandığı nailiyyətlərin əsasında dərin düşünülmüş strategiya, ilk növbədə ölkə Prezidenti İlham Əliyev tərəfindən tətbiq edilən innovativ idarəetmə texnologiyaları durur (Şəkil 1). Şəkildən göründüyü kimi, ölkənin innovativ inkişaf strategiyasının əsas və həlledici amili kimi insan potensialının formalaşdırılması çıxış edir. Dünya ölkələrinin inkişaf səviyyəsinin müqayisəli təhlili də göstərir ki, bilikli, bacarıqlı və yüksək sosial məsuliyyət daşıyıcısı olan insan inkişafın təmin olunması baxımından həlledici əhəmiyyət daşıyır. Ölkələrin tarixi nailiyyətlərinin və yaxud keçmişdə qazanılmış zəngin təcrübənin mövcudluğu, yaxud təbii ehtiyatların zənginliyi yalnız onları səmərəli idarə edən insan potensialının mövcudluğu şəraitində öz nəticəsini göstərə bilər. Uğurlu inkişafın əsas amili kimi insanın bilik və bacarıqları çıxış edir (4). Bu səbəbdən Azərbaycan Respublikasında kreativ millətin formalaşması inkişafın əsas amili sayılmalıdır (5).

Qeyd etmək lazımdır ki, ümummilli lider Heydər Əliyev hakimiyyətdə olduğu bütün dövrlərdə insan potensialının formalaşmasına böyük önəm verirdi və bu sahədə ardıcıl tədbirlər həyata keçirirdi. Müstəqilliyin bərpasının son onilliyində bu siyasət ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla inkişaf etdirilir. Prezident İlham Əliyevin "qara qızılın insan qızılına", yəni neft gəlirlərinin insan potensialının formalaşmasına, iqtisadiyyatın diversifikasiyasına yönəldilməsi konsepsiyası uğurla həyata keçirilməkdədir (6). Bu siyasətin həyata keçirilməsinin əsas strateji istiqamətləri kimi aşağıdakılar nəzərə alınmalıdır:

– *Təhsilin madii-texniki bazasının köklü surətdə yeniləşdirilməsi.* Müstəqilliyin hazırkı mərhələsində bu fəaliyyət çərçivəsində ölkədə yüzlərlə yeni müasir tədris ocaqları tikilmiş və ya köklü surətdə yenidən qurulmuşdur. Bu prosesdə dövlət strukturları ilə yanaşı, Heydər Əliyev Fondu, onun Prezidenti, UNESKO və ISESCO-nun xoşməramlı səfiri, millət vəkili Mehriban Əliyevanın fəaliyyəti xüsusi qeyd edilməlidir. Heydər Əliyev Fondunun "Yeniləşmiş Azərbaycana yeni məktəb" layihəsi bu fəaliyyətin nümunəsi kimi göstərilə bilər.

– *Təhsil və tədris proqramlarının yenilənməsi.* Təhsil müəssisələrinin yenilənməsi ilə yanaşı, tədris proqramlarının təkmilləşdirilməsi və müasirləşməsi prosesi həyata keçirilməkdədir. Bu sahədə milli siyasətin əsas istiqamətləri: (1) yeni ali, orta ixtisas və peşə məktəblərinin yaradılması; (2) yeni ixtisasların tədris proqramlarına daxil edilməsi (Davamlı inkişafın idarəedilməsi istiqamətlərinin bakalavr, magistr və doktor səviyyələrində dünyada ilk dəfə Azərbaycanda ixtisaslar nomenklaturasına daxil edilməsi bu istiqamətdəki fəaliyyətin nümunəsi kimi çıxış edə bilər); (3) tədris proqramlarının mütəmadi yenilənməsi və tədris texnologiyalarının təkmilləşdirilməsidir.

– *Sağlamlıq proqramlarının həyata keçirilməsi.* İnsan potensialının inkişafı sağlamlıq göstəricilərindən və bu sahədə həyata keçirilən siyasətdən asılıdır. Yeni müasir müalicə və profilaktika sahəsində ixtisaslaşmış tibb müəssisələrinin, idman obyektlərinin, o cümlədən olimpiya komplekslərinin bütün ölkə ərazisində inşası və fəaliyyəti bu siyasətin uğurlarının göstəricisi kimi qəbul edilə bilər.

– *Ümumdaxili məhsulun adambaşına artımı.* İnsan potensialının inkişafı üçün əhəmiyyətli olan iqtisadi göstəricilərin yüksəlməsi bu sahədə ölkədə ardıcıl siyasətin reallaşdırılmasından xəbər verir.

– *Dövlət qulluqçularının hazırlanması və ixtisaslarının artırılması.* Göstərilən istiqamətdə nailiyyətlərin qazanılması yalnız optimal idarəetmə sahəsində yüksək peşəkar kadrların hazırlanması şəraitində mümkündür. Bütün təhlil edilən dövrlərdə bu sahəyə böyük diqqət ayrılmışdır (7,8).

Müstəqilliyin yeni mərhələsində həyata keçirilən bu siyasət nəticəsində Azərbaycan Respublikasında İnsan İnkişafı Əmsalı daim artmaqdadır (Şəkil 2).




**Şəkil 2.** *İnsan İnkişafı Əmsalının artımı, 2000 – 2015. 1 – Azərbaycan Respublikası, 2 – dünya (orta), 3 – insan inkişafında yüksək nəticələr əldə etmiş ölkələr, orta (4).*

Şəkil 2-dən göründüyü kimi, son on beş ildə insan potensialının vəziyyətini səciyyələndirən İnsan İnkişafı Əmsalı həm Azərbaycanda, həm də dünyada və ölkəmizin də aid olduğu inkişafda yüksək nəticələr əldə etmiş ölkələr qrupunda artmaqdadır. Lakin qeyd edilməlidir ki, əgər Azərbaycanda 2000-ci il üçün bu göstərici dünyanın orta və eləcə də yüksək nəticələr əldə etmiş ölkələr qrupunun orta rəqəmindən aşağı idisə, hazırda Azərbaycanda İnsan İnkişafı

Əmsalı müqayisə edilən qruplar arasında ən yüksəkdir. Bu səbədən BMT-nin qiymətləndirmələrinə görə, Azərbaycan Respublikası 2010-cu ildən insan inkişafı sahəsində yüksək nəticələr əldə etmiş ölkələr qrupuna daxil olmuşdur (9).

Müstəqilliyin ilk illərindən başlayaraq, inkişaf strategiyası iqtisadi göstəricilərin yaxşılaşdırılmasına yönəldilmişdir. Bu strategiya eyni zamanda sosial göstəricilərin yaxşılaşdırılması sahəsində tədbirlərin gerçəkləşdirilməsi üçün şərait yaradırdı, təhlükəsizliyi təmin edirdi. Azərbaycan Respublikasında adambaşına ümumdaxili məhsul müstəqillik illərində sürətlə artmaqdadır (Şəkil 3).




**Şəkil 3.** *Azərbaycan Respublikası adambaşına ÜDM, ABŞ dolları x 1000, alıcılıq qabiliyyəti pariteti ilə (10).*

Şəkil 3-dən göründüyü kimi, Azərbaycan Respublikasında müstəqilliyin bərpasından sonra adambaşına gəlirlər artmaqdadır və bu, əhalinin sayının artımı şəraitində müşahidə olunur.




**Şəkil 4.** *Sürətlə inkişaf edən G 20 ölkələri və Azərbaycan Respublikası: adambaşına ÜDM-in artımı, dəfə (müqayisəli təhlil), 2003-2014 (3).*

Optimal idarəetmə texnologiyalarının tətbiqi nəticəsində ÜDM-in adambaşına artım tempinə görə Azərbaycan Respublikası dünya liderləri sırasındadır (Şəkil 4).

Dünya Bankının rəsmi hesabatlarına əsasən tərtib edilmiş Şəkil 4-də "böyük iyirmiliyə" daxil olan və adambaşına ÜDM-ni təhlil edilən dövrdə 1,5 dəfədən çox artıran ölkələrə aid məlumatlar təqdim edilmiş və bu ölkələrin göstəriciləri Azərbaycan Respublikasında əldə edilən nəticələrlə müqayisə edilmişdir. Şəkildən göründüyü kimi, bu ölkələr arasında təhlil edilən illər ərzində üç dəfədən çox adambaşına gəlirlərin artımı yalnız Çində və Azərbaycan Respublikasında müşahidə edilmişdir. Şübhəsiz ki, bu, çox yüksək nəticədir və onun qazanılmasında ölkə Prezidenti İlham Əliyevin həyata keçirdiyi innovativ və sürətli inkişaf strategiyası durur.

Müstəqilliyin bərpa olunduğu 25 ildə ölkənin inkişafında həm kəmiyyət, həm də keyfiyyət göstəricilərinin yüksəldilməsi müşahidə edilməkdədir. Bu gün Azərbaycan Respublikası dünya üçün prioritet kimi müəyyənləşdirilmiş istiqamətlərdə yüksək nailiyyətlər əldə edib və ölkənin bu sahədə qazandığı uğurlar beynəlxalq təşkilatlar və müstəqil ekspertlər tərəfindən hazırlanan hesabatlarda öz əksini tapıb (3). Məsələn, Birləşmiş Millətlər Təşkilatının 2015-ci il sentyabr ayının 16–30 tarixlərində Nyu-Yorkda keçirilən 70-ci Yubiley Sessiyasında bəşəriyyətin XXI əsrdə üzləşdiyi əsas problemlər müzakirə edilib və hazırkı dönəmdə onların qarşısının alınması üçün təcili tədbirlər müəyyənləşdirilib. İndiki nəsillərin rifahının yüksəldilməsini təmin edən və eyni zamanda gələcək nəsillərin tərəqqisi üçün şərait yaratmalı olan davamlı inkişafın XXI əsr və üçüncü minilliyin başlıca prioriteti olması faktı bir daha təsdiqlənib. Eyni zamanda Nyu-Yorkda BMT-nin təşəbbüsü ilə keçirilən Dünya sammiti də davamlı inkişafı üçüncü minilliyin başlıca prioriteti kimi müəyyənləşdirib və "Davamlı İnkişaf Sammiti" kimi tarixə düşüb. Bu ümumdünya forumlarının nəticəsi olaraq xüsusi sənəd – "Davamlı İnkişaf Məqsədləri" qəbul edilib. Sənəddə 2015–2030-cu illərdə bütövlükdə dünya və ayrı-ayrı dövlətlərin dünyanın inkişafı prosesinin davamlılığını təmin etmək və hazırda bəşəriyyətin üzləşdiyi çağırışlara cavab məqsədilə atacaqları addımlar də əksini tapıb. Ümumiyyətlə, bu sənəddə 2030-cu ilədək yoxsulluq və qeyri-bərabərliyin ləğvi, təbii ehtiyatlardan səmərəli istifadə və ətraf mühitin mühafizəsi kimi problemlərin həlli, bunun üçün insan potensialının formalaşdırılması və biliklərin, texnologiyaların intensiv ötürülməsinə dair və digər 17 məqsəd müəyyən edilib (7).

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası 25 ildə keçirilən innovativ inkişaf strategiyasına əsasən, 2015–2030-cu illər üçün BMT tərəfindən qlobal prioritet kimi planlaşdırılan hədəflərə yüksək səviyyədə hazırlıqlıdır. Ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulan və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin yaradıcılıqla inkişaf etdirdiyi uğurlu iqtisadi və sosial siyasət sayəsində "Davamlı İnkişaf məqsədləri"ndə yer alan və 2030-cu ilə kimi dünyada həlli planlaşdırılan bir çox məsələlər müəyyən dərəcədə bizim ölkəmizdə artıq yerinə yetirilib (3). BMT, Dünya Bankının dərc etdirdikləri məlumatlara görə, Azərbaycan Respublikası bir çox davamlı inkişaf göstəriciləri üzrə hazırda "böyük iyirmilik" (G 20) və "böyük yeddilik" (G 7) qruplarına üzv olan bir çox dövlətləri üstələyib. 2016-cı ilin dekabrında Dünya Bankının rəsmi saytında yerləşdirilən BMT və digər beynəlxalq qurumların sənədlərinin təhlili də bundan xəbər verir. Belə ki, davamlı inkişafın önəmli indikatoru bir enerji vahidinin istifadəsi hesabına istehsal olunmuş Ümumi Daxili Məhsulun (ölkə iqtisadiyyatında istehsal olunmuş məhsul və xidmətlərin) dəyəridir (4). Bu sahədə dövlət siyasətinin uğuru və innovativliyi beynəlxalq qurumlar tərəfindən işlənmiş metodika əsasında müxtəlif ölkələrdə 1000 ABŞ dolları dəyərində ÜDM-in, alıcılıq qabiliyyəti pariteti (AQP) nəzərə alınmaqla, istehsalına sərf edilən enerjinin həcminin ölçülməsi ilə müəyyən edilir. Bu ondan irəli gəlir ki, eyni həcmdə ÜDM istehsalı üçün daha az enerji sərfi səmərəli iqtisadiyyat üçün çox önəmlidir. Az enerji sərfi həmçinin gələcək nəsillərin maraqları çərçivəsində təbii ehtiyatların səmərəli istifadəsi deməkdir. Bu da özlüyündə davamlı inkişafın vacib şərtidir. Nəhayət, daha az enerji eyni zamanda lokal və qlobal ekologiya sahəsində bir sıra məsələlərin həllinə xidmət edir. Belə ki, atmosferə istixana qazlarının atılmasının qarşısının alınması vasitəsilə bəşəriyyət üçün aktual problem olan qlobal iqlim dəyişikliklərinə təsirləri azaldır. 2015-ci ilin sonunda Qlobal iqlim dəyişikliklərinə dair Paris Sammiti bu problemin aktuallığını bir daha təsdiqləyib (8).

İqtisadiyyatın idarəedilməsinin davamlı inkişaf məqsədlərinə uyğunluğunun beynəlxalq səviyyədə müqayisəli qiymətləndirməsi üçün enerji vahidi kimi bir kiloqram neftdə olan enerji miqdarı götürülür (3). Enerji müxtəlif mənşəli ola bilər: atom, istilik, hidro, günəş enerjisi və s. Lakin enerji səmərəliliyinin qiymətləndirilməsi zamanı ekvivalent kimi onun bir kiloqram neftdə olan miqdarından istifadə edilir. Bu ondan irəli gəlir ki, müəyyən zaman kəsiyində neftin qiyməti bütün dünyada eynidir. Ona görə də sözügedən ekvivalentin tətbiqi nəticəsində müxtəlif ölkələrdə sərfiyyat – məhsul nisbətinin beynəlxalq təhlilini aparmaq mümkün olur. Bir enerji vahidinin istifadəsi nəticəsində istehsal olunmuş ÜDM-in dəyəri, alıcılıq qabiliyyəti pariteti nəzərə alınmaqla, ABŞ dolları ilə müəyyən edilir. Bu fakt da özlüyündə müxtəlif ölkələrdə davamlı inkişaf proseslərinin planlaşdırılması və idarə edilməsi sahəsində əldə edilmiş nəticələrin müqayisəsinə yol açır (9).

Beynəlxalq statistikanın təhlilindən aydın olur ki, 2003-cü illə müqayisədə 2014-cü ildə (Dünya Bankının 2016-cı ilin dekabr ayında yaydığı ən son məlumatlardır) Azərbaycan Respublikasında innovativ idarəetmə texnologiyalarının tətbiqi nəticəsində ÜDM istehsalı

üçün enerji sərfi 2,8 dəfə azalıb. Beynəlxalq təşkilat tərəfindən dərc edilmiş bu məlumat ölkənin uğurlu inkişafından xəbər verir. Dünya Bankının hesabatlarına görə, 2001-ci ildə Azərbaycanda 1000 ABŞ dolları dəyərində ÜDM istehsalına 292,7 kq neftdəkinə ekvivalent enerji sərf edilirdi. Hazırda ölkədə analoji iqtisadi effektin əldə olunması üçün bundan 3,3 dəfə az, yəni 88,8 kq neftdəkinə ekvivalent enerji "xərclənir" (3). Dünyada müşahidə edilən tendensiyalar ilə müqayisə etdikdə aydın olur ki, 1994-ci ildə davamlı inkişafın vacib göstəricisi olan olan enerji səmərəliliyi Azərbaycan Respublikasında orta dünya göstəricisindən 2,9 dəfə aşağı idi. Azərbaycanın müstəqilliyinin 25 illiyinin hazırkı mərhələsində bu nisbət dəyişmişdir. Azərbaycanda 1000 ABŞ dolları dəyərində ümumdaxili məhsul istehsal etmək üçün 88,8 kq neftdə olan qədər enerji sərf edilir və bu, orta dünya göstəricisindən 1,4 dəfə azdır (Şəkil 5).




**Şəkil 5.** *Azərbaycan Respublikası (1) və dünyada (2, orta) 1000 ABŞ dolları dəyərində ÜDM istehsalı üçün enerji (1 kq neftdəki ekvivalenti) sərfiyyatı, alıcılıq qabiliyyəti pariteti nəzərə alınmaqla (3).*

Müstəqillik illərində Azərbaycan Respublikasında davamlı inkişaf naminə təbii ehtiyatların idarəedilməsi sahəsində qazanılmış nəticələr postsovet ölkələri, o cümlədən indi Avropa İttifaqına üzv olan keçmiş sovet respublikaları arasında ən yüksək göstəricidir (Şəkil 6). Dünya Bankının 2016-cı ilin noyabr ayında dərc olunan məlumatları əsasında tərtib olunan Şəkil 6-dan göründüyü kimi, bu qrupa daxil olan bütün ölkələrdə eyni iqtisadi effektə nail olmaq üçün Azərbaycandakından daha çox enerji sərf edilir. Göstərilən nailiyyət ölkədə dövlət idarəçiliyi sahəsində Prezident cənab İlham Əliyev tərəfindən gerçəkləşdirilən uğurlu siyasətin parlaq təcəssümüdür. Eyni zamanda bu, Azərbaycan Respublikasının ekoloji təhlükəsizliyin təmin olunması və qlobal iqlim dəyişmələrinə təsirlərin azaldılmasına dair beynəlxalq öhdəliklərinə məsuliyyətlə yanaşmasından xəbər verir. Daha az enerji sərfi həm də iqlim dəyişikliklərinə səbəb olan qazların atmosferə atılmasının azalması deməkdir.




**Şəkil 6.** *Postsovet ölkələri: 1000 ABŞ dolları dəyərində ÜDM istehsalı üçün enerji (1 kq neftdəki ekvivalenti) sərfiyyatı, alıcılıq qabiliyyəti pariteti nəzərə alınmaqla (3).*

ÜDM-in istehsalı üçün enerji sərfinin azaldılması əsasən yeni yüksək texnologiyaların tətbiqi və iqtisadi inkişaf proseslərinin idarəedilməsi sistemlərinin optimallaşdırılması hesabına mümkündür. Davamlı inkişafın bu tələbinin ödənilməsində Azərbaycanın dövlət siyasətinin uğuru həmçinin bu sahədə Xəzəryanı ölkələrdəki durumun müqayisəli təhlili ilə də təsdiqlənir. Aşağıdakı cədvəldə verilən təhlil nəticələrindən bəlli olur ki, Dünya Bankının məlumatlarına əsasən 2001-ci illə müqayisədə Azərbaycan Respublikasında enerji istifadəsi səmərəliliyinin artımı 329 faiz təşkil edib ki, bu, olduqca yüksək göstəricidir. Digər region ölkələrində dəyişikliklər ya çox gözəçarpan deyil, ya da ümumiyyətlə, yoxdur. Azərbaycandan sonra ən yüksək göstərici Türkmənistanda qeydə alınıb. Dünya Bankının hesabatlarına əsasən, Türkmənistanda enerji istifadəsi səmərəliliyi göstərilən zaman kəsiyində 169 faiz artıb. Buna baxmayaraq, Azərbaycanda enerji istifadəsi səmərəliliyi region ölkələri ilə müqayisədə bir neçə dəfə yüksəkdir.

**Cədvəl.** Azərbaycan Respublikası və digər Xəzəryanı ölkələr: 1000 ABŞ dolları dəyərində ÜDM istehsalı üçün enerji (1 kq neftdəki ekvivalenti) sərfiyyatı, alıcılıq qabiliyyəti pariteti (AQP) nəzərə alınmaqla (3).

| Ölkə | 1000 ABŞ dolları dəyərində ÜDM istehsalı üçün enerji (kq neftdəki ekvivalenti) sərfiyyatı | | 2001-ci illə müqayisədə enerji istifadəsi səmərəliliyinin artımı, % |
|---|---|---|---|
| | 01.01.2001-ci il üçün məlumatlar | 08.09.2016-cı il üçün məlumatlar | |
| Azərbaycan Respublikası | 290,2 | 88,8 | 329 |
| İran İslam Respublikası | 166,3 | 184,8 | – |
| Qazaxıstan | 210,7 | 213,0 | – |
| Rusiya Federasiyası | 250,8 | 216,2 | 120 |
| Türkmənistan | 620,9 | 369,7 | 168 |

Müstəqilliyinin 25 ili dövründə ölkəmizdə dövlət idarəçiliyi sahəsində uğurlu siyasət nəticəsində Azərbaycan Respublikasının uzunmüddətli tərəqqinin əsas şərti olan davamlı inkişafı hədəfləyən nailiyyətləri "böyük yeddilik" dövlətləri ilə müqayisə olunacaq səviyyədədir, bəzi hallarda isə onların göstəricilərindən üstündür. Şəkil 7-də Azərbaycan Respublikasının davamlı inkişaf göstəriciləri G 7 dövlətlərininkilərlə müqayisə və təhlil edilib. Təhlil 2016-cı il noyabr ayında Dünya Bankının yaydığı bilgilərə əsasən aparılıb. Şəkildən göründüyü kimi, Azərbaycan Respublikasının davamlı inkişafın qeyd olunan indikatoru üzrə göstəriciləri "böyük yeddilik" ölkələrinin orta göstəricisindən 15 faiz, həmçinin ABŞ, Kanada, Fransa və Yaponiya kimi dövlətlərinkindən yüksəkdir.




**Şəkil 7.** *1000 ABŞ dolları dəyərində ÜDM istehsalı üçün enerji (1 kq neftdəki ekvivalenti) sərfiyyatı, alıcılıq qabiliyyəti pariteti (AQP) nəzərə alınmaqla: G7 ölkələri və Azərbaycan Respublikası (3).*

Ehtimal oluna bilərdi ki, Azərbaycan Respublikasının davamlı inkişaf indikatorlarının bu qədər sürətli artımı ölkə iqtisadiyyatının özəllikləri, əsas etibarilə neft faktorundan qaynaqlanır. Bu halda digər neft və qaz ixrac edən ölkələrdə də analoji tendensiyalar izlənilməliydi. Şəkil 8-də bununla bağlı təhlilin nəticələri əksini tapıb.






**Şəkil 8.** *Azərbaycan Respublikası və digər neft və qaz ixrac edən ölkələr: 1000 ABŞ dolları dəyərində ÜDM istehsalı üçün enerji (1 kq neftdəki ekvivalenti) sərfiyyatı, alıcılıq qabiliyyəti pariteti (AQP) nəzərə alınmaqla. A – 1990, B– 2016 (5).*

Şəkil 8-də həm Neft İxrac edən Ölkələr Birliyinə (OPEC) üzv olan, həm də bu təşkilat çərçivəsində fəaliyyət göstərməyən dövlətləri xarakterizə edən göstəricilər əksini tapıb. Azərbaycan Respublikası davamlı inkişafın sözügedən göstəricisinə görə bu qrupda da liderdir. Beynəlxalq statistikaya əsasən, 1990-cı ildə Azərbaycan bu göstəriciyə görə, Meksika, Küveyt, Birləşmiş Ərəb Əmirlikləri, Venesuela, Qazaxıstandan xeyli geridə qalaraq sonuncu yerlərdən birini tuturdu (Şəkil 8 A). Son 10 ildə Azərbaycan Respublikası əhəmiyyətli dərəcədə irəliləyərək bu qrupun liderinə çevrilib (Şəkil 8 B). Qeyd etmək lazımdır ki, 3 il öncə sözügedən qrupun lideri statusuna Ekvador yiyələnmişdi. Xüsusi qeyd edilməlidir ki, neft amilinin iqtisadiyyatda payı müqayisə edilən ölkələr arasında fərqlidir. Onların arasında elə ölkələr mövcuddur ki, onlarda neft və qaz amilinin iqtisadiyyatdakı payı Azərbaycan Respublikasından daha yüksəkdir. Belə ölkələrə, məsələn, Küveyt, İran İslam Respublikası və digərləri aiddirlər (3). Lakin Azərbaycanda müstəqilliyin bərpa olunduğu dövrdə gerçəkləşdirilən innovativ inkişaf siyasəti ölkəni neft və qaz ixrac edən ölkələr sırasında davamlı inkişaf indikatoruna görə şərtsiz liderə çevirib. Bu isə o deməkdir ki, davamlı inkişaf cəmiyyətinə keçid prosesində ölkəmiz tərəfindən qazanılan mövqelər birbaşa karbohidrogen istehsalı və ixracı ilə bağlı deyil. Bu faktı təsdiqləyən başqa məlumatlar da var. Məsələn, 1000 ABŞ dollarlıq ÜDM istehsalı üçün (alıcılıq qabiliyyəti pariteti nəzərə alınmaqla) sərf olunan enerjinin dəyəri Azərbaycanda 32,8 ABŞ dolları təşkil edib. Kanadada bu rəqəm 62,6, Yaponiyada 36,1, Küveytdə 48, Rusiya Federasiyasında 79,9 ABŞ dollarına bərabər olub. Bu məlumatlar Dünya Bankının 18 noyabr 2016-cı il üçün hesabatlarına dayanaraq və neftin bir barrelinin qiymətinin 50 dollar olması şəraitində hesablanıb. Göründüyü kimi, bu indikatora görə də Azərbaycan Respublikası bir çox dövlətləri, o cümlədən G 7 ölkələrini üstələyib. Bu isə artıq təkcə iqtisadi deyil, eyni zamanda qlobal iqlim dəyişikliklərinə təsirlə bağlı problemlər və digər ekoloji və sosial məsələlərin uğurlu həlli deməkdir (10).

Artıq qeyd edildiyi kimi, Azərbaycan Respublikasının son onillikdə qazandığı nailiyyətlər Prezident cənab İlham Əliyevin tətbiq etdiyi unikal idarəetmə texnologiyalarının nəticəsidir. Dövlət inkişaf proqramlarının milli proqramlara transformasiyası, onların reallaşdırılmasında dövlət qurumları ilə yanaşı, vətəndaş cəmiyyətinin və özəl sektorun fəal iştirakı bu texnologiyaların vacib elementləridir.

Bu yanaşma, ilk növbədə, insan potensialının formalaşdırılması sahəsində önləyici siyasətə şamil edilə bilər. Bunu bir neçə məlumatlar sübut edə bilir. Məsələn, davamlı inkişaf sahəsində bilik və bacarıqların formalaşdırılmasının önəmini nəzərə alaraq, BMT və UNESCO 2005-2014-cü illəri qlobal miqyasda davamlı inkişaf üzrə tədris onilliyi elan edib. Bununla bağlı sənəd 2005-ci ilin martında Nyu-Yorkda BMT-nin Baş katibi Kofi Annan və UNESCO-nun Baş direktoru Koişiro Matsuura tərəfindən imzlalanıb (11). Ümummilli lider Heydər Əliyev tərəfindən təsdiqlənən təhsil konsepsiyasına görə, Azərbaycanda bu proses bundan

5 il öncə başladılıb. 2001-ci ildə davamlı insan inkişafı fənni orta ümumtəhsil məktəblərinin proqramına salınıb, 2003-cü ildə isə həmin fənn üzrə dünyada orta məktəblər üçün ilk dərslik işıq üzü görüb. Azərbaycanla bağlı bu informasiya BMT tərəfindən "innovativ ideya və fəaliyyət" kimi bütün dünyaya yayılıb (12).

Hazırda bu siyasət Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən 2003-cü ildə irəli sürülən "qara qızılın" "insan qızılına" transformasiyası konsepsiyası çərçivəsində uğurla inkişaf etdirilir. Məsələn, əgər 2001-ci ildə ölkəmizdə dünyada ilk dəfə olaraq orta ümumi təhsil səviyyəsində yeni davamlı insan inkişafı fənni tədris prosesinə daxil edilibsə, artıq 2015-ci ilin iyununda isə Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları ilə bakalavriatura, magistratura və doktorantura pillələrində ixtisaslar nomenklaturasına yeni – "davamlı inkişafın idarəedilməsi" ixtisası əlavə olunub (13). Bu proses davamlı inkişafı XXI əsr və üçüncü minilliyin prioriteti kimi müəyyənləşdirən 2015-ci il BMT Sessiyası və Dünya Sammitindən öncəyə təsadüf edir. Ali təhsilin hər üç səviyyəsində yeni ixtisasın tətbiqi Azərbaycanın dünya tendensiyalarını qabaqlayan növbəti təşəbbüsüdür.

Xüsusi vurğulamaq lazımdır ki, ölkənin innovativ tərəqqisinin əsası kimi insan potensialının formalaşdırılması konsepsiyasının reallaşdırılmasında Heydər Əliyev Fondunun rolu əvəzsizdir. Fondun gerçəkləşdirdiyi proqramlar, qurumun Prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın milli və beynəlxalq səviyyələrdə fəaliyyəti ölkənin innovativ tərəqqisinə və Azərbaycan Respublikasının layiqli imicinin formalaşdırılmasına qiymətsiz töhfədir.

Azərbaycan Respublikasının müstəqilliyinin yeni mərhələsində həyata keçirdiyi xarici və daxili siyasət əsasən ölkə vətəndaşlarının rifahının yüksəldilməsi və təhlükəsizliyinin təmininə yönəldilmişdir. Ölkə Prezidenti cənab İlham Əliyev daim vurğulayır ki, iqtisadi inkişaf məqsəd deyil, sosial problemlərin həlli və təhlükəsizliyin təmin olunması üçün vasitədir. 25 illik tarixi olan müstəqilliyin bərpasının ilk mərhələlərində ölkədə əsas sosial məqsəd kimi yoxsulluğun azaldılması məsələsi gündəmdə idi. Ölkədə uğurla həyata keçirilən siyasətin nəticəsi olaraq yoxsulluq ilə mübarizədə qısa bir zaman kəsiyində yüksək və səmərəli nəticələr əldə edilmişdir (Şəkil 9). Qeyd etmək lazımdır ki, hazırda da yoxsulluq bəşəriyyət qarşısında duran ən böyük problemlərdən, onun aradan qaldırılması isə ən aktual məsələlərdəndir. Təsadüfi deyil ki, yoxsulluğun ləğvi, kəskin qeyri-bərabərliyin aradan qaldırılması 2030-cu il üçün hədəflənən məqsədlər sırasındadır (14).




**Şəkil 9.** *Azərbaycan Respublikasında yoxsulluğun azalma dinamikası 2001–2015, əhalinin faizi (15).*

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasında yoxsulluğun səviyyəsi dünyada müşahidə edilən ən aşağı göstəricilərdəndir (4).

Beynəlxalq qurumların hesabatlarından bəlli olur ki, çox qısa zamanda Azərbaycan Respublikası yoxsulluğun azaldılması ilə yanaşı, digər sosial problemlərin həllində də xeyli irəliləyişə nail olub. Beynəlxalq standartlara uyğun olaraq, sosial siyasətin uğuru xüsusi indikatorlarla müəyyən edilir. Onların arasında ən çox yayılmışı və geniş tətbiq olunanları ölkənin sosial

siyasətini xarakterizə edən Cini göstəricisi və Kvintil gəlir göstəricisidir. Cini göstəricisi gəlirin bölgüsündə bərabərlik dərəcəsini miqdarca qiymətləndirməyə imkan verən statistik göstəricidir və 0-100 arası dəyişir. 0 – tam bərabər, 100 mütləq qeyri-bərabər bölgüdür. Dünyanın heç bir ölkəsində tam bərabərlik və ya tam qeyri-bərabərlik yoxdur. Bu da tam ədalətlidir. Belə ki, tam bərabərlik motivasiya etmir, qeyri-bərabərlik isə fərdi potensialın təkmilləşdirilməsini mənasızlaşdırır. Bu üzdən də ölkədə Cini göstəricisi nə qədər aşağıdırsa, həyata keçirilən sosial siyasət bir o qədər uğurlu hesab edilir. Şəkil 10-da Cini göstəricisinin Azərbaycan Respublikası və "böyük yeddilik" ölkələrində müqayisəli təhlili təqdim olunub.




**Şəkil 10.** *Azərbaycan Respublikasında yoxsulluğun azalma dinamikası 2001–2015, əhalinin faizi (15).*

Şəkil 10-da təqdim olunan məlumatlar bir daha vurğulamağa əsas verir ki, Azərbaycan Respublikasının sosial inkişaf göstəriciləri "böyük yeddilik" qrupunun orta göstəricilərindən və bu quruma üzv Kanada, İtaliya, Böyük Britaniya və ABŞ-dan yüksəkdir.

Azərbaycanın sosial siyasətinin uğurunun daha bir sübutu Kvintil təhlil nəticələridir (Şəkil 11). Kvintil təhlil əhalinin 20 % ən yüksək gəlirli təbəqəsinin orta gəlirləri ilə 20 % ən kasıb təbəqəsinin orta gəlirinin nisbəti əsasında aparılır. Göstəricinin aşağı olması beynəlxalq təşkilatlar tərəfindən ölkənin sosial siyasətinin uğuru kimi dəyərləndirilir.




**Şəkil 11.** *Müxtəlif ölkələrdə əhalinin gəlirlərinin bölünməsinin Kvintil təhlili (4).*

Şəkil 11-də təqdim olunan bilgilər Azərbaycan Respublikasında sosial siyasətin prioritet olmasından xəbər verir. Bu gün ölkəmiz Kvintil təhlil göstəricilərinə görə, bir sıra inkişaf etmiş ölkələri, o cümlədən "böyük yeddilik" və Avropa Birliyinə daxil olan dövlətləri üstələyir.

Azərbaycan Respublikası müstəqilliyini 25 il öncə bərpa edib. Ölkə müstəqilliyinin ilk illərini çox ağır durumda keçirib və bu gün də erməni silahlı qüvvələrinin aqressiyası, ərazilərinin 20 faizinin işğalı ilə bağlı olayların təsiri altındadır. Buna baxmayaraq, Azərbaycan Respublikası qısa dönəmdə innovativ davamlı inkişaf siyasəti reallaşdırmağa müvəffəq olub. Beynəlxalq qurumlar və müstəqil ekspertlərin sənədləri bu faktın aşkar təsdiqidir.

**Ədəbiyyat:**


1. İlham Əliyev. Azərbaycan Respublikasının 25 illiyinə həsr olunmuş sərəncam. http://fins.az/senedler/907953/musteqilliyin-25-illiyi-ile-bagli-serencam-tam-matn.html. 11 oktyabr 2016.
2. İlham Əliyev. Azərbaycan Respublikasının 25 illiyinə həsr olunan rəsmi qəbulda çıxışı. http://www.avropa.info/az/post/118888.html. 17 oktyabr 2016.
3. www.worldbank.org/indicator, 08.11.2016.
4. Human Development Report, 2015. UNDP, New York, 2015, 227 p.
5. Mekhtiyev R.E. Creative generation: future is today. Baku, SAM, 2012, July 5.
6. İlham Aliyev. Speech at the opening ceremony of the 5th Baku International Humanitarian Forum, September 29, 2016. (en.president.az/articles/21234).
7. http://www.un.org/sustainabledevelopment/sustainable-development-goals,
8. https://unfccc.int/resource/docs/2015/cop21/eng/109.pdf , November 15, 2016.
9. Алекперов У.К. Кадровая политика в целях устойчивого развития как приоритет государственной политики Азербайджанской Республики. Ж. «Проблемы Управления» (Минск) 2016, № 1 (58), с. 40–42.
10. Alakbarov U., Lawrence J.E.S. Towards Ecological Civilization: ideas from Azerbaijan. Journal of Human Resource and Sustainability Studies, 2015, **3**, 93-100. http://dx.doi.org/10.4236/jhrss.
11. UNİS/UNF, February 28, 2005.
12. http://hdr.undp.org/nhdr/impact, December 19, 2005.
13. Сборники законодательных актов Азербайджанской Республики. Издательство «Азербайджан», Баку, 2015, № 6, с. 1316 – 1317; № 8, с. 1779 – 1780.
14. Statistical Yearbook of Azerbaijan. State Statistical Committee of the Republic of Azerbaijan. Baku, 2016, 824 p.

**Açar sözlər:** *davamlı inkişaf, dövlət idarəçiliyi, səmərəli idarəetmə, ehtiyatların idarə edilməsi, enerji səmərəliliyi, insan inkişafı, Cini indeksi, Kvintil indeksi*

**Ключевые слова:** *устойчивое развитие, государственное управление, эффективное управление, управление ресурсами, энергоэффективность, человеческое развитие, Джини индекс, Квинтильный индекс*

**Key words:** *sustainable development, public administration, good governancy, resources management, energy efficiency, human development, Gini Index, Quintile Index*

**Урхан Алекперов**

***Ректор Академии Государственного Управления при Президенте Азербайджанской Республики, академик***

## ПОЛИТИКА ИННОВАТИВНОГО УПРАВЛЕНИЯ КАК ФАКТОР ЭКОНОМИЧЕСКИХ И СОЦИАЛЬНЫХ ДОСТИЖЕНИЙ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

### РЕЗЮМЕ

Статья посвящена 25-летию восстановления независимости Азербайджанской Республики и анализирует прогресс, который достигнут в столь короткий срок. Устойчивое развитие страны рассматривается как индикатор успешного государственного управления. Генеральная Ассамблея ООН и Всемирный Саммит, состоявшиеся в сентябре 2015 года, определили устойчивое развитие в качестве приоритета третьего тысячелетия. На этих форумах были приняты Цели Развития Тысячелетия на 2015-2030-е годы. Проводится анализ показателей устойчивого развития в Азербайджанской Республике в сравнении со странами бывшего Советского Союза (FSU), входящими в группу G7, а также странами, экспортирующими нефть и газ. Этот анализ основывается на данных Всемирного Банка, ООН, других международных организаций, опубликованных в июне 2016-го года. В качестве индикатора устойчивого развития использованы такие индикаторы, как энергия, затрачиваемая на производство ВВП стоимостью 1000 долларов США, индексы Джини и Квинтильный анализ. Показано, что индикаторы устойчивого развития Азербайджанской Республики выше всех стран ФСУ, основных экспортеров нефти и газа, а также средних показателей стран G7. Эти результаты достигнуты в основном в последнее десятилетие, как следствие эффективной государственной политики.

**Urkhan Alakbarov**

***Academician, prof., dr. , Rector of the Academy of Public Administration under the President of the Republic of Azerbaijan***

## INNOVATIVE GOVERNANCE POLICY AS FACTOR OF THE ECONOMIC AND SOCIAL ACHIEVEMENTS OF THE AZERBAIJAN REPUBLIC

### SUMMARY

This article is devoted to the 25th anniversary of the Republic of Azerbaijan and analyzes the progress that has been achieved during these years. Sustainable development of the country is considered as an indicator of successful governance. The UN General Assembly and the World Summit, held in September of 2015 identified the sustainable development as a key priority of the Third Millennium. The Sustainable Development Goals (SDGs) were adopted for years 2015-2030. This paper provides analyses of sustainable development indicators in the Republic of Azerbaijan in comparison with the FSU and G7 countries, as well as oil and gas exporting countries. The analyses are based on data published in June 2016 by World Bank, UN and other international institutions. The energy spent for production of the 1,000 USD GDP as well as the Gini and Quintile Indices are used as sustainable development indicators. It is shown that the sustainable development indicators in the Republic of Azerbaijan are higher than in FSU countries, oil and gas exporting countries, as well as the average indicators of the G7 countries. This has been achieved during last decade as the result of an effective state policy.

**İSMAYIL HACIYEV**

***AMEA Naxçıvan Bölməsinin sədri, akademik***

# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ SOSİAL-İQTİSADİ VƏ MƏDƏNİ İNKİŞAFI

## *(1991–2016-cı illər)*

Naxçıvan diyarı ölkəmiz üçün həmişə strateji əhəmiyyətli bir bölgə olub. Ümummilli lider Heydər Əliyevin düşünülmüş və uzaqgörən siyasətində də bu amil həmişə üstün yer tutub. Bəlkə də, bu mənada müdrik insan, unudulmaz dahi rəhbər, siyasi fəaliyyətinin ayrı-ayrı dövrlərində bu diyarın möhkəmlənməsinə və inkişafına xüsusi diqqət və qayğı göstərib.

Bununla belə, ötən əsrin 80-ci illərinin ikinci yarısından başlanan siyasi hadisələr Azərbaycanın, eləcə də Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatına və sosial-mədəni həyatına ağır zərbələr vurdu. Azərbaycan SSR-in sosial-iqtisadi həyatında baş verən geriləmələr Naxçıvanda da özünü göstərdi. 80-ci illərin sonu 90-cı illərin əvvəllərində muxtar respublikanın iqtisadiyyatı böhran vəziyyətinə düşdü. Muxtar respublikanın əsas sahələrinin inkişaf sürəti kəskin surətdə azaldı. 1989–1991-ci illərdə sənaye istehsalı 26,6 faiz, kənd təsərrüfatında məcmu məhsul 25,5 faiz, heyvandarlıqda isə 34 faiz azalmışdı. Nəticədə istehsal olunan milli gəlirin həcmi təqribən beş dəfə aşağı düşmüşdü (20, s.104). Muxtar respublikada ümumi məhsulun həcmi 1990-cı ildə 1985-ci illə müqayisədə 92,6 faiz olmuşdu (21, s.47). Muxtar respublikanın Ermənistan tərəfdən nəqliyyat və iqtisadi blokadaya alınması Naxçıvan iqtisadiyyatına ağır zərbə vurdu. Azərbaycan dəmiryolunun Qarçevan-Mehri hissəsinin işləməməsi, avtomobil yollarının bağlanması, Bakı və Azərbaycan rayonları, eləcə də ittifaq respublikaları ilə əlaqələrin kəsilməsinə, idarə, müəssisə, tikinti təşkilatlarının fəaliyyətinin dayanmasına səbəb olmuşdu. 1989-cu ilin birinci yarısında tək istehsal müəssisələri 1,1 mln. rubl az məhsul istehsal etmiş, tikinti təşkilatları 1,5 mln. rubl dəyərində məhsul ala bilməmişdi (2, s.22).

Dəmiryol nəqliyyatında vəziyyətin gərginləşməsi Naxçıvan MSSR-in iqtisadiyyatına ağır zərbə vurmaqla yanaşı, əhalinin mənəvi-psixoloji vəziyyətinə də təsir edir, onsuz da ağır olan ictimai-siyasi vəziyyətin daha da ağırlaşmasına səbəb olurdu.

Xalqımızın yenilməz oğlu, ulu öndər Heydər Əliyevin 1990-cı il iyulun 22-də Naxçıvana gəlməsi xalqın yaşamaq və Naxçıvanı xilas etmək ümidlərini artırdı. Naxçıvanlılar ümummilli lider Heydər Əliyevin gəlişini çox böyük sevinc və coşqu ilə qarşıladılar. Qüdrətli dövlət xadimi Heydər Əliyevin Naxçıvana qayıdışı ilə o, bu bölgəni və bütün Azərbaycanı real təhlükədən xilas etdi.

Dünya şöhrətli siyasətçinin Naxçıvanda olması və yaşaması Naxçıvan Muxtar Respublikasını Dağlıq Qarabağın aqibətinə düşməsinə imkan vermədi. Heydər Əliyev müdrikliyi, xalqa inamı, Heydər Əliyev – xalq birliyi Naxçıvanı xilas etdi.

Azərbaycanın, o cümlədən onun ayrılmaz tərkib hissəi olan Naxçıvan MSSR-in ərazi bütövlüyünün pozulması, ermənilərin muxtar respublika ərazisinə silahlı hücum etməsi, ölkə rəhbərlərinin tədbir görməməsi və Qarabağ münaqişəsinin həll olunmaması Naxçıvanda Xalq hərəkatının artmasına səbəb oldu. Ümummilli lider Heydər Əliyevin qeyd etdiyi kimi, **o illərdə, xüsusən 1990–1991-ci illərdə Naxçıvanda xalq hərəkatı çox güclü idi. Müstəqillik yolunda mübarizə aparan adamlar Naxçıvan əhalisinin, demək olar ki, əksəriyyətini təşkil edirdi.** “Naxçıvanın müstəqillik, milli-azadlıq əhvali-ruhiyyəsi bütün Azərbaycana təsir edirdi. Məhz bunların nəticəsində Naxçıvan çox ciddi addımlar atır və nəhayət, Azərbaycan Respublikasının dövlət müstəqilliyinin əldə edilməsində öz xidmətlərini göstərirdi” (22, s.45). Bu illərdə Heydər Əliyevin Naxçıvanda xalqın mübarizəsini azadlığa, müstəqillik qazanılmasına, dövlətçilik ənənələrinin bərpa və inkişaf etdirilməsinə yönəldilən fəaliyyəti olduqca mühüm rol oynamışdı.

Heydər Əliyevin tam yekdilliklə Azərbaycan SSR və Naxçıvan MSSR ali qanunverici orqanlarına üzv seçilməsi (14, s.45) ilə müstəqillik tariximizə doğru daha bir uğurlu addım atıldı. Naxçıvan MSSR Ali Sovetinin ilk sessiyasına Ulu Öndərin sədrlik etməsi bir sıra tarixi qərarların qəbul edilməsi ilə nəticələndi. 1990-cı il noyabrın 17–21-dəki sessiyasının qəbul etdiyi siyasi əhəmiyyətli qərarlar müstəqillik tariximizə qızıl hərflərlə yazıldı. Naxçıvan MSSR Ali Sovetinin birinci sessiyası “Naxçıvan MSSR-in adının dəyişdirilməsi haqqında”, “Naxçıvan MR Ali Dövlət hakimiyyəti orqanı haqqında”, “Naxçıvan Muxtar Respublikasının dövlət rəmzləri haqqında”, “1990-cı ilin yanvar ayında Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında” və başqa məsələlərlə bağlı tarixi qərarlar qəbul etdi (11, s.129–131, 148–150). Sessiyada Naxçıvan MSSR adından “Sovet”, “Sosialist” sözlərinin çıxarılması (18), Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli dövlət bayrağının bərpa edilməsi, onun Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul edilməsi ilə demokratik dəyişikliklər həyata keçirildi. Sovetlər birliyinin yaşadığı bir dövrdə

muxtar respublika Ali Sovetinin sessiyasında belə qərarların qəbul edilməsi böyük cəsarət və uzaqgörənlik tələb edirdi (11, s.153). Naxçıvan MR Ali Məclisinin 1991-ci il 14 yanvar, 7 mart, 14 mart, 26 avqust sessiyalarında da cəsarətli və tarixi əhəmiyyətli qərarlar qəbul edildi.

Ulu öndər Heydər Əliyevin 1991-ci il 3 sentyabrda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri seçilməsi Azərbaycan xalqının taleyində böyük siyasi əhəmiyyətə malik olan tarixi hadisə idi.

Böyük dövlət xadimi Heydər Əliyev Ali Məclisin sədri olduqdan sonra Naxçıvan MR Azərbaycanın ictimai-siyasi həyatında mühüm və əhəmiyyətli rol oynamağa başladı. Muxtar respublikada həyata keçirilən tədbirlər, demokratik dəyişikliklər, milli dövlətçiliklə bağlı qəbul edilən qərarlar Azərbaycanın müstəqilliyini möhkəmləndirmək yolunda məqsədyönlü fəaliyyət sahələri idi.

Heydər Əliyevin bütün fəaliyyəti muxtar respublikanın düşdüyü ağır vəziyyətdən çıxarılmasına, sərhəd kəndlərinin və muxtar respublikanın təhlükəsizliyinin təmin edilməsinə, əhalinin ərzaqla təmin edilməsinə, sosial vəziyyətinin yaxşılaşdırılmasına, iqtisadi islahatların həyata keçirilməsinə, Naxçıvandan rus qoşunlarının çıxarılması və milli ordunun formalaşdırılmasına, Naxçıvanın blokadadan çıxarılmasına və beynəlxalq əlaqələrinin yaradılmasına, Naxçıvanda qanunsuz silahlı dəstələrin ləğv edilməsinə, Naxçıvanın muxtariyyət statusunun ləğvinə çalışan qüvvələrin fəaliyyətlərinin qarşısının alınmasına və b. bir sıra həlli vacib məsələlərin həll edilməsinə yönəlmişdir. Qarşıya qoyulan bütün məsələlər Heydər Əliyev uzaqgörənliyi, cəsarət və qətiyyəti sayəsində həll edildi, Naxçıvan qorundu, düşmən əlinə keçməsinə imkan verilmədi. Ölkə Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, **naxçıvanlılar Heydər Əliyevi qorudular, Heydər Əliyev isə Naxçıvanı xilas etdi (5).**

Ulu öndər Heydər Əliyevinin müstəqil Azərbaycanda hakimiyyətə qayıdışı zərurəti reallığa çevriləndə o, 1990–1992-ci illərdə düşmən təcavüzündən və fəlakətlər girdabından xilas etdiyi Naxçıvanı özünün dövlətçilik məktəbinin yeni nəsil nümayəndəsinə etibar etdi. Və məhz bundan sonra Azərbaycanın xilası və inkişafı missiyasını həyata keçirməyə başlayan Ümummilli Liderin bilavasitə rəhbərliyi altında müstəqilliyin verdiyi real imkanların ümummilli mənafelər naminə səfərbər və istifadə edilməsi kimi mühüm tarixi mərhələ başlandı. Azərbaycan Respublikası öz yoluna – dövlətçiliyin təkamülünün, sosial-iqtisadi inkişafın, elmi-mədəni tərəqqinin Heydər Əliyev yoluna qədəm qoydu.

1995-ci ilin son ayında Vasif Talıbovun Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri seçilməsi ilə Naxçıvanda yeni siyasi şərait yarandı, gələcək uğurlu inkişafın əsası qoyuldu və qısa zamanda bu öz nəticələrini verməyə başladı. Çünki V.Talıbov Naxçıvan Muxtar Respublikasının problemlərini aydın görür və onun həlli yollarını bilirdi. Qısa müddət ərzində muxtar respublikanın həyatının bütün sahələrində əsl canlanma müşahidə olunmağa başlandı. Quruculuq və abadlıq işləri geniş vüsət aldı. Həm paytaxtın, həm də bütövlükdə, muxtar respublikanın bütün yaşayış məntəqələrinin yeni inkişaf konsepsiyasına uyğun qurulmasının zəruri əsasları təsis edildi.

Müstəqillik illəri, xüsusilə 1995–2016-cı illər sosial-iqtisadi inkişaf baxımından Naxçıvan Muxtar Respublikasının tarixində mühüm mərhələ təşkil edir.

Blokadada olmasına baxmayaraq, muxtar respublikanın daxili imkanlarından və ehtiyat mənbələrindən səmərəli istifadə olunmuş, 1995-ci ildən başlanan sabitləşmə, dönüş və inkişaf konsepsiyası iqtisadi və sosial müstəvidə yüksələn xətlə davam etdirilmiş, iqtisadiyyatda müsbət meyillər daha da möhkəmləndirilmişdir.

Muxtar respublikada inkişafın təmin olunmasında regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilmiş dövlət proqramlarının uğurlu icrası mühüm əhəmiyyət kəsb edir. Dövlət Proqramları sahibkarlıq fəaliyyətinin genişlənməsində, yeni müəssisələrin və iş yerlərinin yaradılmasında, irimiqyaslı infrastruktur layihələrinin həyata keçirilməsində, əhalinin rifah halının daha da yaxşılaşdırılmasında yeni imkanlar yaratmışdır.

Naxçıvan Muxtar Respublikasında ötən müddətdə həyata keçirilmiş iqtisadi islahatlar qısa dövr ərzində makroiqtisadi sabitliyin bərqərar olunmasını təmin etmiş, iqtisadiyyatın dinamik inkişafına təkan vermişdir.

İqtisadi və sosial sahədə bütün makroiqtisadi göstəricilərin yüksəlişi təmin edilmiş, Ümumi Daxili Məhsulun həcmi 1991-ci ilə nisbətən 137 dəfə artaraq 2500 milyon manatdan çox olmuşdur (5, 2017, 8 yanvar).

Muxtar respublika iqtisadiyyatında prioritet sahə kimi qəbul edilən sənaye aparıcı rola malikdir. Sənaye sahəsində həyata keçirilən islahatların başlıca məqsədi mövcud sənaye müəssisələrinin fəaliyyətinin bərpası və yenidən qurulmasından, təbii ehtiyatlardan və əmək resurslarından istifadə əsasında yeni müəssisələrin yaradılmasından, sənaye məhsullarının artan istehsalının təşkilindən, sənayenin dayanıqlı və davamlı inkişafını təmin etməkdən ibarət olmuşdur.

Sənayenin əsas inkişaf istiqamətlərini dövlət mülkiyyətində olan sənaye müəssisələrinin fəaliyyətinin bərpa edilməsi, rəqabətədavamlı və ixracyönümlü istehsal sahələrinin yaradılması, səmərəli kredit mexanizminin qurulması, muxtar respublika əhalisinin tələbatının yerli istehsal hesabına ödənilməsi təşkil etmişdir.

Muxtar respublika sənayesinin əsas hissəsini təşkil edən emal sənayesində çörəkbişirmə, şəkər, mineral su, spirtli içkilər, siqaret, pivə, plastik qapı və pəncərə, plastik su boruları, hörgü və döşəmə üçün kərpic, üzlük daş, sement, gips, gips lövhələr, əhəng, məsaməli beton, karbon qazı, metaləritmə və onlarla digər istehsal sahələri yaradılmışdır.

Mövcud resurslardan səmərəli istifadə etməklə hədəflərə yönələn məqsədli dövlət proqramlarının uğurlu icrası yüksək texnologiyalar əsasında mebel, maşınqa-

yırma, metallurgiya, kimya, mədənçıxarma, yüngül və yeyinti sənayesi, kənd təsərrüfatlı təyinatlı 858 istehsal və xidmət sahəsinin yaradılmasına şərait yaratmışdır (17, s.8).

Muxtar respublikada 90-cı illərin ortalarında 56, sonunda 163 (16, s.111), 2000–2005-ci illər ərzində 229 sənaye müəssisəsi fəaliyyət göstərmişdir. 2005-ci ildə sənaye məhsulunun həcmi 41,2 milyon manat olmuşdur (7, s.198). 2006-cı ildə 44 istehsal müəssisəsi fəaliyyətə başlamışdır. 2007-ci ildə 32, 2008-ci ildə isə 37 sənaye müəssisəsi məhsul istehsal etməyə başlamışdı. Nəticədə 164,5 milyon manatlıq sənaye məhsulu istehsal olunmuşdu. Əgər 1996-cı ilin əvvəlində muxtar respublikada 56 sənaye müəssisəsi mövcud idisə, 2010-cu ildə bu müəssisələrin sayı 423-ə çatmışdı. Burada çalışan işçilərin sayı 12855 nəfər olmuşdur (23, 2011, 29 yanvar).

2010-cu ildə muxtar respublikada ilk dəfə olaraq minik avtomobillərinin istehsalını həyata keçirən "Naxçıvan Avtomobil Zavodu" MMC fəaliyyətə başlamışdır. İllik istehsal gücü 5000 ədəd avtomobil olan zavodda 9 modeldə avtomobil istehsal olunur. Daha 2 modeldə avtomobil buraxılmasına hazırlıq işləri görülür. Fəaliyyətə başladığı dövrdən 1 yanvar 2016-cı il tarixədək 4598 avtomobil istehsal olunmuşdur (10, s.14).

2003-cü illə müqayisədə 2013-cü ildə sənaye məhsulunun həcmi 49 dəfə artmışdır. 2013-cü ildə sənaye 29 faizlik payla ÜDM-in tərkibində ilk yerə sahib olmuş, istehsalın həcmi 863 mln. manata çatmışdır. Bir il sonra isə 892 mln. manatlıq sənaye məhsulları istehsal edilmişdir (23, 2014, 28 dekabr). 2015-ci ildə isə 917 milyon manatlıq sənaye məhsulu istehsal edilmişdir ki, bu da 1995-ci ildəki göstəricidən 100,4 dəfə çoxdur.

2015-ci ildə sənaye müəssisələrinin sayı 439-a, orada işləyənlərin sayı 15752-ə çatmışdır (7, s.202). Sənayenin modernləşdirilməsini təmin etmək məqsədilə Naxçıvan MR Ali Məclisi Sədrinin 2013-cü il 6 iyun tarixli Fərmanı ilə "Sənaye parkları haqqında Əsasnamə" təsdiq olunmuşdur.

Müasir texnologiyalara əsaslanan yeni sənaye müəssisələrinin işə salınması daxili tələbatı yüksək keyfiyyətli məhsullarla təchiz etməklə yanaşı, onların ixrac potensialını da artırmışdır. Bu istiqamətdə görülən işlərin nəticəsidir ki, 2015-ci ildə 316797 min ABŞ dollarından artıq həcmdə sənaye məhsulu ixrac olunmuşdur (10, s.17).

2014-cü ildə ölkəmizdə "Sənaye ili" elan edilmişdir. Bundan sonra "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-ci illər üçün Dövlət Proqramı" qəbul olunmuş (14, 2015, 23 may), sənayenin modernləşdirilməsi və strukturunun təkmilləşdirilməsi, yüksək əlavə dəyər yaradan qabiliyyətli, elmtutumlu və innovativ istehsalın genişləndirilməsi yeni istehsal sahələri ilə bağlı ixtisaslı kadrların hazırlanması üçün tədbirlər görülmüşdür. "Sənaye ili" çərçivəsində 200-dək, o cümlədən 40-dan çox orta və iri müəssisə açılmışdır.

Naxçıvan Muxtar Respublikasında sənayeləşmənin həyata keçirilməsi ilə əlaqədar sənaye müəssisələrinin yaradılmasına və inkişafına xüsusi fikir verilmişdir. Yaradılan sənaye müəssisələri daxili bazar üçün məhsul istehsal etməklə yanaşı, ixrac yönümlü məhsulların istehsalını da gücləndirmişdir.

Xüsusilə son illərdə qurulan "Gəmiqaya" Şirkətlər Qrupunua aid müəssisələr, Naxçıvan Avtomobil Zavodu, "Badamlı" Mineral Sular Zavodu, "Cahan Holdinq" Kommersiya Şirkətlər İttifaqının müəssisələri, Kərpic Zavodu, Mebel Fabriki, "Dizayn" MMC-nin müəssisələri, "Şərab-2 Yeddilər Aqrar Sənaye Kompleksi" – MMC, "Sirab" Mineral Sular Zavodu, Metallurgiya Zavodu, Sement Zavodu ən yüksək standartlar səviyyəsində məhsul istehsal edirlər.

Azərbaycan Respublikasında yaranmış sabitlik, iqtisadi sahədə əldə olunmuş nailiyyətlər muxtar respublikada 1995-ci ildən başlayaraq tikinti-quraşdırma və abadlıq sahəsində də əsaslı işlər görməyə şərait yaratmışdır.

Muxtar respublikanın uzunmüddətli dövrdə dayanıqlı və tarazlı inkişafının təmin edilməsində investisiyaların cəlbi xüsusi rol oynayır. 2015-ci ildə əsas kapitala yönəldilən investisiyaların həcmi 1995-ci ildəki göstəricini 312 dəfə üstələyərək 951196 min manatdan çox olmuşdur (10, s.18).

Ümumiyyətlə, 1996-cı ildən 2016-cı ilin yanvarınadək muxtar respublikada iqtisadi və sosial sahələrdə 6696470 min manat həcmində investisiya yönəldilmişdir.

1996–2016-cı illərdə muxtar respublikada 278 inzibati bina, mənzil təsərrüfatı üzrə 48 obyekt, 56 nasos stansiyası, 292 subartezian quyusu, 100 körpü, 198 elm və təhsil müəssisəsi, 258 mədəniyyət müəssisəsi, 197 səhiyyə müəssisəsi, 25 idman obyekti, əlil, məcburi köçkün, qaçqın, şəhid ailələri, təbii fəlakətdən zərər çəkənlər və digər bu kimi kateqoriyalardan olan şəxslər üçün 480 fərdi ev, 820 istehsal və xidmət obyekti və digər obyektlər tikilmiş, 258 inzibati bina, mənzil təsərrüfatı üzrə 637 obyekt, 114 nasos stansiyası, 111 subartezian quyusu, 62 körpü, 158 elm və təhsil müəssisəsi, 163 mədəniyyət müəssisəsi, 56 səhiyyə müəssisəsi, 14 idman obyekti, əlil, məcburi köçkün və şəhid ailələri üçün 21 fərdi ev və digər obyektlər yenidən qurulmuşdur.

Muxtar respublikada yaşayış məntəqələrinin abadlaşdırılması, həmin yaşayış yerlərində səmərəli idarəetmənin və əhaliyə göstərilən xidmətlərin səviyyəsinin yüksəldilməsi istiqamətində ötən dövr ərzində 4 qəsəbə və 125 kənd mərkəzi istifadəyə verilmişdir (10, s.20).

Naxçıvan Muxtar Respublikasında **tikinti-quruculuq** və abadlıq işləri ildən-ilə genişlənir. Yüksək zövqlə, peşəkarlıqla, Şərq və Qərb memarlıq elementlərindən ustalıqla və yerli-yerində istifadə etməklə tikilən binalar, təmir olunan və yenidən qurulan inzibati və sosial obyektlər, salınan gülkarlıqlar, yaradılan səliqə-sahman böyük quruculuq və abadlıq işlərinin yüksək səviyyədə

görüldüyünü təsdiq edir. Bütün bu işlərə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov diqqət və həssaslıqla yanaşır, hər bir tikinti, quruculuq və abadlıq işlərinin ən yüksək səviyyədə, keyfiyyətlə aparılmasına nəzarət və rəhbərlik edir.

Ümummilli lider Heydər Əliyev 1999-cu ildə Naxçıvana səfər edərkən burada görülən işlərdən, həyata keçirilən tədbirlərdən razı qaldığını bildirmiş, bu işlərin aparılmasında təşkilati və rəhbər rolu oynayan Vasif Talıbovun işini xüsusi vurğulayaraq demişdir: **"Mən məmnuniyyətlə demək istərdim ki, son dörd il içərisində (1995–1999-cu illər) Naxçıvanda işlər lazımi səviyyədə gedir. Vasif Talıbovu bu vəzifəyə seçəndə mən onun çox xüsusiyyətlərini bilirdim. Amma o, çox gənc idi. Daxilən bir az fikirləşdim ki, gəncliyinə görə, bəlkə də, ağır, çətin olar. Ancaq bu dörd il müddətində o, sübut etdi ki, vətəninə, millətinə, xalqına sədaqətli olan adam yaşından asılı olmayaraq böyük işlər də görə bilər..." (13, s.271–272).**

Naxçıvan Muxtar Respublikasının 80 illik yubileyində ölkə Prezidenti cənab İlham Əliyev çıxışında Azərbaycanın qədim diyarı olan Naxçıvanın sürətlə inkişaf etməsini və inamla irəliləməsini fərəh hissi ilə qeyd etdi: **"Mən çox sevinirəm ki, Naxçıvanda gözəl quruculuq və abadlıq işləri aparılır. Blokada şəraitində yaşayan, Azərbaycanın əsas hissəsindən ayrı düşmüş Naxçıvan yaşayır, güclənir və irəliyə doğru inamla addımlayır. Fürsətdən istifadə edərək mən Naxçıvan rəhbərliyinə və şəxsən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbova görülən bütün işlərə görə öz dərin minnətdarlığımı bildirirəm" (4, s.).**

Son illərdə yeni və müasir bir Naxçıvan qurulmuş, quruculuq və abadlıq işləri muxtar respublikanın paytaxtı ilə yanaşı, ən ucqar kəndlərini də əhatə etmişdir.

Naxçıvan Muxtar Respublikasında tikinti-quruculuq və abadlıq işləri sənaye sahəsindən sonra inkişaf proqramının əhəmiyyətini əks etdirən mühüm göstəricilərdən biridir. 2000-2005-ci illər muxtar respublikanın tikinti həyatında bənzərsiz binaların, sosial və ictimai obyektlərin, elm, təhsil və mədəniyyət müəssisələrinin tikilməsi, yenidən qurulması və təmiri kimi xarakterizə edilir. 2006-2010-cu illərdə isə muxtar respublika böyük tikinti meydanına çevrilmişdir. Belə ki, 2006-cı ildə 757 obyekt, 2007-ci ildə isə 669 müxtəlif xarakterli obyektlər tikilib, yaxud əsaslı təmir və yenidənqurmadan sonra istifadəyə verilib. 1996–2010-cu illərdə 52 kənd, 3 qəsəbə mərkəzi tikilmişdir. Muxtar respublikada kənd və xidmət mərkəzlərinin tikintisinə diqqət artırılmış, 2011-ci ildə 15, 2012-ci ildə 14, 2013-cü ildə 20, 2014-cü ildə 8, 2015-ci ildə 9 kənd mərkəzi istifadəyə verilmişdir. 2011–2015-ci illərdə 64 xidmət mərkəzi kənd və qəsəbə sakinlərinin ixtiyarına verilmişdir.

Son illərdə muxtar respublikada aparılan tikinti, quruculuq və abadlıq işləri nəticəsində Naxçıvan şəhəri, rayon mərkəzləri, qəsəbə və kəndlər göz oxşayır, Şərq və Qərb memarlıq elementlərini özündə birləşdirən sosial obyektlər, inzibati binalar, yaşayış evləri diyara gözəllik verir, bu işi görənlərin əməyi yüksək qiymətləndirilir. Heydər Əliyev Sarayı, Naxçıvan Beynəlxalq Hava Limanı, "Duzdağ" və "Təbriz" mehmanxanaları, Diaqnostika-Müalicə Mərkəzi, Doğum Evi, Respublika Xəstəxanası, Naxçıvan Dövlət Universitetinin Beynəlxalq Əlaqələr və Xarici Dillər fakültəsinin yerləşdiyi korpus, Universitet Konservatoriyası, Elektron Kitabxana, Tələbə Evi, "Naxçıvan" Universitet şəhərciyi, Hüseyn Cavid türbəsi, Nuh peyğəmbərin türbəsi və yüzlərlə göz oxşayan sosial obyektlər, inzibati binalar, memarlıq abidələri tikilmiş, yüksək peşəkarlıqla təmir və bərpa edilmişdir. Xan Sarayı, Zaviyyə mədrəsə binası, Came məscidi, İmamzadə kompleksi, Buzxana, "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksi, Xanəgah abidəsi kompleksi, Gülüstan türbəsi, Möminə Xatın və Yusif Küsseyir oğlu türbələri, Xanlıqlar İmamzadəsi və onlarla tarix və mədəniyyət abidəsi restavrasiya olunmuş, 1200-dən artıq abidə qeydə alınmış, pasportlaşdırılmış və onlar üzərində tədqiqatlar aparılır. Bu gün Naxçıvanda tarixi-memarlıq abidələrində Şərq elementləri ilə müasirlik qovuşur, bu elementlər isə şəhərə xüsusi yaraşıq verir, onu daha da gözəlləşdirir.

Muxtar respublika əhalisinin rahatlığına və yaşayış şəraitinin yaxşılaşmasına xidmət edən kommunal-məişət sistemlərinin yaxşılaşdırılması istiqamətində görülən tədbirlərin tərkib hissəsi kimi içməli su və kanalizasiya sistemlərinin yenidən qurulması xüsusilə diqqətdə saxlanılmaqdadır. Ötən dövr ərzində muxtar respublikada mövcud kaptajlar, içməli su xətləri bərpa olunmuş, yeni kaptajlar tikilmiş və içməli su xətləri çəkilmişdir. Bu işlərin davamı kimi 2015-ci ildə Naxçıvan şəhərdaxili su və kanalizasiya şəbəkəsi istifadəyə verilmişdir. Culfa və Şahbuz şəhərlərinin, eləcə də ətraf kəndlərinin içməli su və kanalizasiya şəbəkəsində işlər tamamlanmışdır. 2017-ci il yanvar ayının 11-də Naxçıvana gələn cənab İlham Əliyev Culfa və Şahbuz rayonlarında qurulan bu sistemlərin açılışında iştirak etmişdir (23, 2017, 12 yanvar). 2003-cü ildə yaradılan Kəhrizlər İdarəsi muxtar respublikada 296 kəhrizi təmir etmiş və əhalinin istifadəsinə vermişdir (10, s.20).

Muxtar respublika iqtisadiyyatında **kənd təsərrüfatı** hər zaman öncül mövqeyini qorumuş, əhalinin ərzaq məhsullarına, emal müəssisələrinin isə xammala olan tələbatının ödənilməsindəki rolu, həmçinin əhali məşğulluğunun təmin olunmasındakı əhəmiyyəti nəzərə alınaraq bu sahənin inkişafı diqqət mərkəzində saxlanılmışdır.

Torpaq islahatlarının ilk dəfə ölkə üzrə Naxçıvanda həyata keçirilməsi, torpağın şəxsi mülkiyyətə verilməsi, kolxoz və sovxozların əmlakının özəlləşdirilməsi, burada digər sahələrlə müqayisədə kənd təsərrüfatında islahatların daha sürətlə aparılmasına imkan yaratmışdır.

Muxtar respublikada kənd təsərrüfatını inkişaf etdirmək üçün əkin sahələrinin strukturunda dəyişikliklər

edilmiş, əkin sahələri artırılmışdı. Belə ki, 1991-ci illə müqayisədə kənd təsərrüfatı bitkilərinin əkin sahəsi 25,1 min hektardan 61,4 min hektara, başqa sözlə 2,4 dəfə artsa da, məhsuldarlığın artırılması hesabına 2015-ci ildə ümumi məhsulun həcmi 13.885.900 manatdan 402992 min manata çatmış və ya 29 dəfə artmışdır (17, s.9).

Ümumilikdə 1991-ci illə müqayisədə taxıl istehsalı 3,5 dəfə artaraq 106,3 min tona, kartof istehsalı 112,5 dəfə artaraq 45 min tona, meyvə və giləmeyvə istehsalı 27,7 dəfə artaraq 66,5 min tona, tərəvəz məhsulları istehsalı 17,8 dəfə artaraq 82 min tona, bostan məhsulları istehsalı 34,5 dəfə artaraq 38 min tona çatmışdır (10, s.25).

Muxtar respublikada kənd təsərrüfatının əsas sahələrindən biri də **heyvandarlıqdır.** Daxili bazarda məhsul bolluğunun yaradılmasında, əhalinin keyfiyyətli heyvandarlıq məhsullarına olan tələbatının dolğun şəkildə ödənilməsində bu sahənin inkişaf etdirilməsinin vacibliyi aydındır. Muxtar respublikanın bütün təsərrüfat kateqoriyalarında iribuynuzlu və xırdabuynuzlu heyvanların baş sayının artırılması, onların cins tərkibinin yaxşılaşdırılmasına xüsusi əhəmiyyət verilmişdir. 1996-cı ildə qaramalın sayı 55,5 min baş, qoyun və keçilərin sayı 278,8 min baş olduğu halda, 2016-cı ildə bunlar müvafiq olaraq 109,4 min baş və 662,8 min baş olmuşdur.

Maldarlığın cins tərkibini yaxşılaşdırmaq məqsədilə muxtar respublikaya 1937 baş, o cümlədən 89 baş "Şvis", 535 baş "Simmental" və 1313 baş "Holştin-friz" cinsindən olan damazlıq boğaz düyələr gətirilərək lizinq yolu ilə sahibkarlara verilmişdir.

Ötən 25 il ərzində quşçuluq, balıqçılıq, arıçılıq və b. sahələr də inkişaf etdirilmişdir. Dövlət maliyyə dəstəyi ilə 230 heyvandarlıq, 64 ətlik və yumurtalıq istiqamətində quşçuluq, 95 arıçılıq, 14 balıqçılıq təsərrüfatı yaradılmışdır. 1996-cı ilə nisbətən 2016-cı ildə quşların sayı 6,7 dəfə artaraq 153345 başa çatdırılmışdır. Muxtar respublikada arı ailələrinin sayı 70396-ya çatmış, 1396 ton bal istehsal olunmuşdur (10, s.28).

Həyata keçirilən aqrar siyasətin səmərəli nəticəsi olaraq yerli istehsalın əhatə dairəsi genişləndirilmiş, daxili bazarda məhsul bolluğu yaradılmışdır. 2015-ci ildə muxtar respublikada 402991800 manatlıq kənd təsərrüfatı məhsulları istehsal olunmuşdur ki, bu da 1995-ci illə müqayisədə 10,4 dəfə çoxdur.

Kənd təsərrüfatı sahəsinin inkişafı ixracın da həcminə müsbət təsir göstərmiş və təkcə 2015-ci ildə muxtar respublikadan 97 mln ABŞ dollarından artıq həcmdə kənd təsərrüfatı məhsulları ixrac olunmuşdur.

Muxtar respublikanın sosial-iqtisadi inkişafının sürətlənməsində **nəqliyyat** və **rabitə** sahələrinin də xüsusi yeri vardır. Araz çayı boyunca Bakı-Yerevan dəmiryolu Naxçıvan Muxtar Respublikasında 190 km-dən artıqdır. Ermənistanın təcavüzkarlıq siyasəti nəticəsində vaxtilə ümumittifaq şəbəkəsinə daxil olan, muxtar respublikanı Azərbaycanla bağlayan dəmiryol xətti 1992-ci il aprelin 24-də tamamilə kəsilmişdir (16, s.126). Avtomobil yolları ilə də əlaqə pozulmuşdur. Həmin vaxtdan Naxçıvan Azərbaycandan təcrid olunmuş vəziyyətdə, blokada şəraitində yaşayır. Lakin buna baxmayaraq, muxtar respublikada dəmiryolu infrastrukturu qorunub saxlanılır və inkişaf etdirilir.

Muxtar respublika ərazisi daxilində dəmiryolu ilə yüklərin daşınması həyata keçirilməklə bərabər İran İslam Respublikası ilə Culfa dəmiryolu vasitəsilə iqtisadi əlaqələr davam etdirilir, yükdaşıma əməliyyatları həyata keçirilir. 2016-cı ilin sonunda isə Naxçıvan-Təbriz-Tehran-Məşhəd sərnişin qatarı istifadəyə verildi (23, 2016, 30 dekabr).

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2011-ci il 16 mart tarixli sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında dəmiryolu nəqliyyat sisteminin 2011–2015-ci illər üzrə inkişaf Proqramı" dəmiryolu nəqliyyatının inkişafına təkan vermişdir.

Naxçıvan Muxtar Respublikasının iqtisadi əlaqələrinin inkişaf etdirilməsində **hava nəqliyyatı** xüsusi əhəmiyyət kəsb edir. Naxçıvanda ilk hava limanı 1974-cü ildə tikilmişdi. O dövrdə hava limanı 1800 metrlik uçuş-enmə zolağına malik idi (3, s.183).

1992-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri vəzifəsində çalışan Ulu Öndər hava limanının uçuş-enmə zolağının yenidən qurulması təşəbbüsünü irəli sürmüş və bu iş qısa müddətdə həyata keçirilmiş, uzunluğu 3300 metr olan uçuş-enmə zolağı istifadəyə verilmişdir (9, s.65).

Ölkə Prezidenti İlham Əliyev Naxçıvan Muxtar Respublikasının 80 illiyinə həsr edilmiş təntənəli iclasda demişdir: **"Artıq Naxçıvanın bütün beynəlxalq standartlara cavab verən hava limanı vardır. Deməliyəm ki, bu hava limanı çox yüksək səviyyədə tikilmişdir. Mən dünyanın bir çox ölkələrində olmuşam və təbii ki, hava limanlarını görmüşəm. Ona görə də deyə bilərəm ki, Naxçıvan hava limanı çox yüksək səviyyədədir və bəlkə də, Avropada bir çox hava limanlarından daha keyfiyyətli və gözəldir" (4, s.125).**

Muxtar respublikada hava nəqliyyatının inkişafı istiqamətində yeni aerovağzal kompleksi tikilib istifadəyə verilmiş, Naxçıvan hava limanı beynəlxalq status qazanmışdır. Hava limanında yeni inzibati bina, əhaliyə göstərilən xidmətlərin səviyyəsini daha da yaxşılaşdırmaq məqsədilə "Şərq Terminalı", "Qərb Terminalı" istifadəyə verilmişdir.

Muxtar respublikada **avtomobil yollarının** salınması, körpülərin tikilməsi ilə bağlı əhəmiyyətli tədbirlər həyata keçirilmişdir. 1995-ci ildə cəmi 16 km asfalt yol çəkilmişdirsə, 2010-cu ildə bu 198,6 km-ə çatmışdır. Naxçıvan-Sədərək, Naxçıvan-Culfa, Naxçıvan-Batabat avtomobil yolları ən yüksək səviyyədə qurulmuşdur. Naxçıvan şəhərətrafı dairəvi yolu, Çeşməbasar-Boyəhməd yolu (57,6 km), Təzəkənd-Çalxanqala-Qıvraq yolu (39,2 km), Hacıvar-Vayxır-Sirab yolu (25,6 km), Şəkərəbad-Nehrəm-Araz yolu (13,2 km) və b. rahatlığı

ilə diqqəti cəlb edir. 2014-cü ildə 73 km, 2015-ci ildə 82 km, 2016-cı ildə isə 62 km yol salınmışdır.

Ümumiyyətlə, Naxçıvanda 1 beynəlxalq hava limanı, 5 avtovağzal kompleksi, 50 körpü, 791 km uzunluğunda yeni avtomobil yolları çəkilmişdir.

Naxçıvan Muxtar Respublikasının **rabitə** sisteminin rolu da xeyli artmışdır. 1995–2016-cı illərdə muxtar respublikada rabitənin inkişafı yüksək xətlə getmişdir. 1998-ci ildə Cənubi Koreyanın "DEU Telekom" şirkəti ilə bağlanmış müqaviləyə əsasən muxtar respublikada yaşayış məntəqələri telefonlaşdırılaraq abonentlər birbaşa Beynəlxalq Telefon rabitə şirkətinə çıxma imkanı əldə etmişlər. Telekommunikasiya sistemində aparılan yenidəqurma işlərinin nəticəsində 35 mindən yuxarı elektron tipli xətt və nömrə, eyni zamanda mobil telefon şəbəkəsi istifadəyə verilmişdir. Muxtar respublika üzrə fərdi kompüterlərin sayı 303 minə çatmış, internetdən istifadə edənlərin sayı 353 mindən çox olmuşdur (23, 2015, 16 may). Naxçıvanın özünün müstəqil "Naxtel" mobil rabitə sistemi mövcuddur və bunun vasitəsi ilə muxtar respublika ərazisinin 92 faizi simsiz internetlə təmin olunur. Muxtar respublikada aktiv-istifadə olunan mobil telefonların sayı hazırda 460 min ədəddən çoxdur. Muxtar respublikada 4-cü nəsil şəbəkə sistemi istehlakçıların istifadəsinə verilmişdir.

Naxçıvan Muxtar Respublikasının iqtisadi inkişafında **energetika** sisteminin özünəməxsus yeri vardır. 1991–1992-ci illərdə yaranmış çətin şəraitə baxmayaraq, ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə blokadada olan muxtar respublikanı elektrik enerjisi ilə təchiz etmək məqsədilə Türkiyədən 154 kilovatlıq və İrandan 132 kilovoltluq yüksək gərginlikli elektrik verilişi xətləri çəkildi (14, 2010, 20 oktyabr). Əhalini elektrik enerjisi ilə təmin etmək üçün kompleks tədbirlər həyata keçirilmiş, 2006-cı ilin dekabrında ümumi gücü 87 meqavat olan Naxçıvan Modul Elektrik Stansiyası, Heydər Əliyev Su Anbarı üzərində ümumi gücü 4,5 meqavat olan SES və 2010-cu ilin oktyabr ayında Ordubad rayonu ərazisində – Gilançay üzərində gücü 22 meqavat olan Biləv SES istifadəyə verilmişdir. Ümumi gücü 50 meqavat olan Qaz-Turbin ES-nin təbii qazla iş rejiminə keçirilməsindən sonra istismara verilməsi də bu istiqamətdə həyata keçirilən tədbirlərin tərkib hissəsidir. Arpaçay üzərində iki SES tikilmişdir. 20,5 meqavat gücündə olan Arpaçay SES 2013-cü ilin sentyabrında istifadəyə verilmişdir (23, 2003, 10 sentyabr). Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov Arpaçay SES-in açılışında çıxış edərək demişdir: **"Hər bir ölkə üçün elektrik enerjisi strateji sahə hesab edilir. Bu gün dünya ölkələrində ərzaq və enerji təhlükəsizliyi təmin olunan ölkələrin iqtisadiyyatı isə sabit və davamlı inkişaf edir. Azərbaycan Respublikasında da ərzaq və enerji təhlükəsizliyinin təmin olunması istiqamətində ardıcıl tədbirlər görülür. Ölkəmizin ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da bu sahələrin inkişafı diqqət mərkəzində saxlanılır. Muxtar respublikada yeni elektrik stansiyaları tikilir, əhalinin və iqtisadiyyatın enerjiyə olan tələbatı etibarlı şəkildə ödənilir. Artıq Naxçıvan elektrik enerjisi idxal edən muxtar respublikadan elektrik enerjisi ixrac edən muxtar respublikaya çevrilmişdir. Enerji təminatının yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlər bundan sonra da davam etdiriləcəkdir" (23, 2013, 10 sentyabr).**

2012-ci ildə Arpaçayın aşağı qolu üzərində 1,4 meqavat gücə malik su elektrik stansiyası da istismara verilmişdir.

1991-ci ilədək muxtar respublikada cəmi bir elektrik enerjisi istehsal edən müəssisə fəaliyyət göstərirdisə, keçən müddət ərzində bu sahədə aparılan məqsədyönlü islahatlar nəticəsində enerji istehsalı müəssisələrinin sayı 8-ə, ümumi gücü 237,4 meqavata çatdırılmışdır.

2017-ci il yanvarın 11-də Naxçıvana səfərə gələn ölkə Prezidenti İlham Əliyev Ordubad Su Elektrik Stansiyasının təməlqoyma mərasimində iştirak edib (23, 2017, 12 yanvar). İnşa ediləcək SES-in gücü 36 meqavat olacaq. Derivasiyatipli stansiya Araz çayı üzərində yerləşəcək. Stansiyada hər birinin gücü 12 meqavat olan 3 aqreqat quraşdırılacaq.

Muxtar respublikada ilk dəfə olaraq 20 meqavat gücündə Günəş Elektrik Stansiyası istifadəyə verilmişdir. Təkcə 2015-ci ildə 446 milyon kilovat saat elektrik enerjisi istehsal edilmişdir ki, bu da 1991-ci ildəki müvafiq göstəricidən 4,8 dəfə çoxdur (17, s.8).

Muxtar respublikaya Ermənistan ərazisi vasitəsi ilə 1991-ci ildə qaz verilməsi dayandırıldıqdan sonra əhalinin **qazla** təmin edilməsində problemlər yaranmışdı. Muxtar respublikanı vəziyyətdən çıxarmaq üçün 1992-ci il avqustun 24-də Naxçıvan MR Ali Məclisinin sədri Heydər Əliyev İran İslam Respublikasında səfərdə olarkən prezident Əli Əkbər Haşimi Rəfsəncani ilə görüşmüş, muxtar respublikanın qaz tələbatını təmin etmək barədə söhbətlər aparmış və razılıq əldə etmişdi. İran tərəfi Xoy-Culfa qaz kəmərinin tikintisini öz üzərinə götürmüşdü. Kəmərin çəkilişi bir qədər yubandığından İran İR Naxçıvan MR-ə ayda 100 ton maye qaz göndərirdi. 1998-ci ildə maye qazla qazlaşdırılmış mənzillərin sayı 46274-ə çatdırıldı. İlham Əliyevin bilavasitə himayə və qayğısı nəticəsində 2005-ci ildə İran İR-dən mübadilə yolu ilə Naxçıvan MR-ə təbii qaz kəmərinin çəkilişi oldu. Qısa müddət ərzində Culfa-Naxçıvan yüksək təzyiqli, Naxçıvan-Cəhri orta təzyiqli magistral, Naxçıvan şəhər orta təzyiqli dairəvi qaz kəmərinin çəkilişi başa çatdırıldı.

2005-ci il dekabrın 20-də İran prezidenti Mahmud Əhmədinejadın başçılığı ilə nümayəndə heyəti Naxçıvana gəldi. Dekabrın 20-də hər iki ölkənin prezidentləri Naxçıvan Muxtar Respublikasına İran ərazisi ilə təbii qazın verilməsi münasibətilə keçirilən mərasimdə iştirak etdilər.

Qısa müddər ərzində Naxçıvan qazlaşdırıldı, Culfa-Ordubad və Şahbuz-Sədərək ötürücü qaz kəmərinin

təmiri və bərpası tamamlandı. 2005-ci ildə 6770 mənzilə və 195 fərdi evə qaz çəkildi. 2011-ci ilin əvvəlinədək 220 yaşayış məntəqəsində 78157 mənzil qazlaşdırılmış, abunəçilərə pulsuz olaraq mətbəx sobaları verilmiş, qaz sayğacları quraşdırılmışdır. 2011-ci ilin sonunda isə ən ucqar dağ kəndləri də əhatə olunmaqla muxtar respublikanın bütün yaşayış məntəqələri qazlaşdırıldı (7, s.243), 83633 əhali abonenti və bütün təsərrüfat subyektləri mavi yanacaqla təmin olundu (17, s.8).

Muxtar respublikada **ekoloji vəziyyətin** daha da yaxşılaşdırılması istiqamətində işlər görülmüş, 16541 hektar sahədə meşəsalma və meşəbərpa işləri aparılmış, 10 milyona yaxın ağac və bəzək kolları əkilmişdir. Hazırda muxtar respublikanın ümumi ərazisinin 12 faizini yaşıllıqlar əhatə edir. 1990-cı ildə isə bu göstərici 0,6 faiz həddində olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin rəhbərliyi ilə görülən işlər, həyata keçirilən tədbirlər əhalinin **sosial** problemlərinin həll edilməsinə kömək etmişdir. Əhalinin işlə təminatı sahəsində əməli addımlar atılmağa başlanılmış, sənaye müəssisələrinin bərpası sayəsində minlərlə yeni iş yerləri açılmışdır. Əhalinin pul gəlirləri, işçilərin orta aylıq əməkhaqqı və müavinətlər durmadan artmışdır. 2015-ci ildə orta aylıq əməkhaqqının məbləği 399,5 manata çatmışdır. 1995-ci ildə bu göstərici 15,9 manat səviyyəsində idi. 1996–2016-cı illərdə muxtar respublikada 85861 yeni iş yeri açılmışdır ki, bunun da 59090-ı və ya 68,8 faizi daimi iş yerləridir.

Muxtar respublika sakinlərinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması, içməli su ilə təchizatı məsələsinə də xüsusi əhəmiyyət verilmişdir. Bu illərdə muxtar respublikanın əhalisi 75 min nəfər artmışdır. Hazırda Naxçıvan MR-in əhalisi 448 min nəfərdir (23, 2017, 8 yanvar).

Muxtar respublika əhalisinin sosial müdafiəsi və təminatına çəkilən xərclər 57,2 dəfə artmışdır. Əhalinin gəlirləri 9,5 dəfə, əməkhaqqı 9,5 dəfə yüksəlmişdir. Əhalinin banklardakı əmanətlərinin həcmi də artmışdır. 2016-cı ilin əvvəlinə muxtar respublikanın ərazisində fəaliyyət göstərən bank strukturlarında 8571,8 min manat həcmində əhali əmanəti mövcud olmuşdur ki, bu da bir il öncəki göstəricidən 26,6 faiz çoxdur (10, s.39).

Son illərdə inzibati, sosial və yaşayış binalarının təmirinə, yenidən qurulmasına, su, istilik və kanalizasiya sistemlərinin dəyişdirilməsinə və çəkilməsinə çox böyük diqqət yetirilir.

Naxçıvan Muxtar Respublikasının, onun şəhər, qəsəbə və kəndlərinin böyük əksəriyyətinin su sistemi tamamilə yenidən qurulmuş, əsaslı təmir işləri görülmüşdür. Şərur-Naxçıvan su kəməri bərpa edilmiş, Naxçıvan şəhərinə yeni su xətti çəkilmiş, Ordubad şəhərinin su xətti bərpa edilmişdir. 1993–2001-ci illərdə rayonlarda 32 su nasos stansiyası tikilmiş, çoxlu sayda subartezian quyuları qazılmışdır. Əhalinin içməli suya və suvarma suyuna tələbatını ödəmək üçün son illərdə 148 nasos stansiyası qurulmuş, 331 subartezian quyusu qazılmışdır. 2000–2005-ci illərdə Şərur, Babək, Ordubad, Culfa, Kəngərli və Şahbuz rayonunun 18 kəndinə su xətləri çəkilmiş, kəhrizlər bərpa edilmişdir. 2009-cu il ərzində 14 nasos stansiyası, 22 suabartezian quyusu və 22 kəhriz istifadəyə verilmişdir (7, s.254). Naxçıvan şəhərində Su anbarı və Sutəmizləyici Qurğular Kompleksi istifadəyə verilmiş, 2015-ci ilin əvvəlində Naxçıvan şəhərində 214 km məsafədə kanalizasiya və 224,4 km məsafədə içməli su xətləri çəkilmişdir (23, 2015, 22 yanvar). Ümumiyyətlə, 542 km məsafədə içməli su və 331 km məsafədə kanalizasiya xətləri çəkilmişdir.

Muxtar respublikada pensiyaçı və müharibə əlillərinin, şəhid və aztəminatlı ailələrin sosial müdafiəsinə diqqət xeyli artırılmışdır. 2000-ci ildə muxtar respublikada 52254 pensiyaçı var idi. Onlar hər cür diqqət və qayğı ilə əhatə olunmuş, aztəminatlı və sosial müdafiəyə ehtiyacı olan vətəndaşlara da qayğı göstərilmişdir. Əvvəlki illərdə olduğu kimi, 2009-cu ildə də müharibə və hərbi əlillərdən, veteranlardan 50 nəfərinə avtomobil, 152 nəfərə isə müxtəlif sanatoriya və pansionatlara göndəriş verilmişdir. 2009-cu ildə ailələrə 3447 min manatdan artıq ünvanlı dövlət sosial yardımı ödənilmişdir. Ünvanlı dövlət sosial yardımının verilməsinə başlanılmış, 2006-cı ildən 2013-cü ilin sonuna olan dövr ərzində muxtar respublikada hər bir nəfərə düşən aylıq gəlirləri ehtiyac meyarından aşağı olan ailələrə 22331 min manatdan çox ünvanlı dövlət sosial yardımı ödənilmişdir (9, s.101). 2014-cü ildə isə 34430 min manat olmuşdur. Ünvanlı dövlət sosial yardımı alanların sayı ümumi əhalinin 2,7 faizini təşkil etmişdir.

Müstəqillik illərində muxtar respublikada bütün sahələr öz dinamik yüksəlişi ilə diqqəti cəlb edir. Belə sahələrdən biri də **səhiyyə** sistemidir. Səhiyyə sisteminin yenidən qurulmasını, əhalinin sağlamlığının daha yaxşı təşkilini, bu sahədə yeni texnologiyaların tətbiqini və kadr potensialının hazırlanmasını özündə əks etdirən dövlət proqramları muxtar respublikada uğurla həyata keçirilir. Səhiyyənin inkişafı, insanların sağlamlığının qorunması ilk növbədə müasir tələblərə cavab verən, lazımi maddi-texniki imkanları və ixtisaslı həkimləri olan səhiyyə müəssisələrinin olmasıdır. Muxtar respublikada bu istiqamətdə ardıcıl tədbirlər görülmüş, müasir tibb mərkəzləri, xəstəxanalar, ambulatoriyalar, dispanserlər, feldşer-mama məntəqələri və digər xarakterli səhiyyə müəssisələri tikilmiş, yaxud yenidən qurulmuş və təmir olunmuşdur. 1995–2016-cı illərdə muxtar respublikada 232 səhiyyə obyekti tikilərək, yaxud yenidən qurularaq istifadəyə verilmişdir. Bu illərdə Naxçıvan Muxtar Respublikasında Duzdağ Fizioterapiya Mərkəzi, Doğum Mərkəzi, Diaqnostika-Müalicə Mərkəzi, Onkoloji Mərkəz, Əlillərin Bərpa Mərkəzi, Uşaq Bərpa Mərkəzi, Kardioloji Mərkəz, Yoluxucu Xəstəliklər Mərkəzi, Şərur, Babək, Ordubad, Culfa, Şahbuz, Kəngərli və Sədərək rayon Mərkəzi xəstəxanaları, Ə.Əliyev adına Naxçıvan MR Mərkəzi Uşaq Xəstəxanası, Akademik Zərifə Əliyeva adına Naxçıvan Şəhər Poliklinikası və ümumilikdə 180 səhiyyə obyektlərinin tikintisi, 52

səhiyyə obyektinin isə yenidən qurulması və ya əsaslı təmiri başa çatdırılıb (9, s. 255).

Naxçıvan səhiyyəsinin intensiv inkişaf dövrü kimi xarakterizə olunan 1995–2015-ci illərdə istifadəyə verilən səhiyyə müəssisələri bütün yaşayış məntəqələrini əhatə etmişdir. Ölkədə ilk dəfə olaraq pullu tibbi xidmətin məhz muxtar respublikada ləğv edilməsi, əhalinin sağlamlığının qorunması istiqamətində həyata keçirilən mühüm islahatlar öz faydasını verməkdədir.

Muxtar respublikanın tibb xidməti müəssisələrində 792 həkim, 2981 tibb işçisi çalışır. Əhalinin hər on min nəfərinə 104 xəstəxana çarpayısı, 20 həkim, 85 orta tibb işçisi düşür. Xəstəxana çarpayılarının 24,8 faizi kəndlərdə, 75,2 faizi şəhər və rayonların mərkəzlərindədir.

Ümumiyyətlə, muxtar respublikada səhiyyə sisteminin maddi-texniki bazasının möhkəmləndirilməsi və bu sahədə aparılan islahatlar əhalinin sağlamlığının etibarlı qorunmasına şərait yaratmışdır.

Xalqların və dövlətlərin sürətli inkişaf yolu **təhsildən** keçir. Təsadüfi deyildir ki, hələ vaxtı ilə ulu öndər Heydər Əliyev cəmiyyət həyatında təhsilin rolunu yüksək qiymətləndirərək demişdir ki, **təhsil millətin gələcəyidir**. Ölkə Prezidenti İlham Əliyev təhsilə **"Azərbaycanın gələcəyini müəyyən edən prioritet sahə"** kimi yüksək dəyər vermişdir. Təhsilə, onun inkişafına xüsusi əhəmiyyət verən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov demişdir: **"Təhsil elə səviyyədə olmalıdır ki, o, insanlara yeni texnologiyaları çevik mənimsəmək, əmək bazarında və şəxsi həyatda layiqli yer tutmaq, sağlam həyat tərzi, ətraf mühitə və cəmiyyətdə gedən proseslərə münasibətdə düzgün mövqe seçmək imkanı yaratsın".**

1990-cı illərin əvvəllərindən başlayaraq ümumtəhsil sahəsində müəyyən dəyişikliklər baş verdi, liseylər, gimnaziyalar, kolleclər yaradıldı.

Muxtar respublikada təhsilin məzmunca yeniləşdirilməsi və keyfiyyətə nail olunması, təhsil müəssisələrinin maddi-texniki və tədris bazasının möhkəmləndirilməsi, təhsil sahəsində müxtəlif proqramların həyata keçirilməsi istiqamətində fəal iş aparılmış və nəticədə zəngin biliyə, hərtərəfli intellektual səviyyəyə malik, fiziki və mənəvi cəhətdən sağlam gənclər yetişir.

Müstəqillik illərində çoxsaylı məktəblər, uşaq bağçaları tikilmiş, onların maddi-texniki bazaları möhkəmləndirilmişdir. 1995-2015-ci illərdə muxtar respublikada 40182 şagird yerlik 129 ümumtəhsil məktəbi tikilmiş, 34024 şagird yerlik 52 ümumtəhsil məktəbi, eləcə də 19 məktəbəqədər təhsil müəssisəsi, 23 uşaq musiqi məktəbi, 3 orta ixtisas təhsil müəssisəsi yenidən qurulmuş və ya əsaslı təmir olunmuşdur (23, 2015, 15 mart).

Bu gün nəinki Naxçıvan şəhərində, hətta ən ucqar dağ və sərhəd kəndlərində də müasir tədris avadanlıqları, sürətli internetə çıxışı olan kompüterlər, elektron lövhələr, zəngin fonda malik kitabxanalar və idman zalları ilə təmin olunmuş məktəb binaları tikilib istifadəyə verilir. 2016-cı ildə 3414 şagird yerlik 12 məktəb binası istifadəyə verilmişdir. Bundan başqa 380 yerlik Şərur şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseyin, Naxçıvan Dövlət Texniki Kollecin, Ordubad Texniki Peşə və Sürücülük Məktəbin və Naxçıvan şəhərindəki 640 şagird yerlik 3 nömrəli tam orta məktəbin binaları da yenidən qurularaq gənc nəslin istifadəsinə verilmişdir.

Təhsildə keyfiyyət dəyişiklikləri hər il artmaqda davam edir. Bunlar ali məktəblərə qəbulda və bu zaman yüksək bal toplayan abituriyentlərin sayında özünü göstərir. 2004-2005-ci tədris ilində 5409 nəfər məzun olmuş, bunlardan 3074-ü ali məktəblərə sənəd vermiş, 1024-ü qəbul olmuşdur (33,3 faizi). 2006-cı ildə 3312 abituriyentdən 1110-u (35 faizi), 2007-ci ildə 3099-dan 1183-ü (38 faizi) tələbə adını qazanmışdır. 2008-ci ildə ümumtəhsil məktəblərinin 4714 məzunundan 1270-i (35,6 faizi) ali məktəbə qəbul olmuşdur. 2009-cu ildə 4390 məzundan 3230-u ali məktəblərə sənəd vermiş və onlardan 1348-i (41 faizi) qəbul olmuşdur (1, s.161). 2010-cu ildə 4341 məzundan 1622-si (49 faizi) tələbə adına layiq görülmüşdür (23, 2010, 20 avqust). 2015-ci ildə 3331 məzundan 1582-si tələbə olmuşdur (9, 2015, 22 avqust). 2016-cı ildə 1737-si ali məktəblərin, 567-si orta ixtisas məktəblərinin tələbəsi adını qazanmışdır. Ali məktəblərə qəbul olunan məzunlardan 338-i imtahanlarda 500-dən çox bal toplamışdır. Yüksək nəticə əldə edərək tələbə adını qazananlardan 4-ü Prezident təqaüdünə layiq görülmüşdür (9, 2016, 8 yanvar).

Məktəbəqədər təhsil müəssisələrinin geniş şəbəkəsi qurulmuşdur. 2001–2013-cü illərdə 2260 yerlik 11 məktəbəqədər təhsil müəssisəsi tikilmişdir (19, s.10). Son illər 17 məktəbəqədər təhsil müəssisəsi istifadəyə verilmişdir.

Naxçıvan şəhərində Heydər Əliyev adına Hərbi Lisey, Naxçıvan Tibb Kolleci, Naxçıvan Musiqi Kolleci və Naxçıvan Dövlət Texniki Kolleci fəaliyyət göstərir. Ötən dövrdə Hərbi Liseyi bitirən 2161 kursantdan 2027-si ali hərbi məktəblərə qəbul olmuşdur (23, 2015, 18 iyun). Liseyin məzunlarından 1000-ə yaxını Azərbaycan Respublikası Silahlı Qüvvələrində zabit kimi xidmət edirlər. Hazırda liseydə 657 kursant təhsil alır. Orta ixtisas məktəblərində isə 1642 tələbə, 218 müəllim təhsilə və tədris prosesinə cəlb olunmuşdur (23, 2015, 15 mart).

Son 25 ildə muxtar respublikada **ali təhsil** müəssisələrinin həyatında da ciddi dəyişikliklər baş vermişdir. 1967-ci ildən filial kimi yaranan, 1972-ci ildən müstəqil ali təhsil müəssisəsinə, 1990-cı ildən universitetə çevrilən Naxçıvan Dövlət Universiteti 2002-ci ildən yüksək özünüidarəetmə, muxtariyyət statusu qazanmışdır. Hazırda universitetin 12 fakültəsində 58 ixtisas üzrə 5 mindən artıq bakalavr, magistr və doktorant təhsil alır. Bu ali təhsil ocağında 12 ölkədən 300-dən çox tələbə təhsil prosesinə cəlb olunmuşdur. Universitetdə elmi-pedaqoji fəaliyyətini davam etdirən 407 müəllimdən 3-ü AMEA-nın həqiqi üzvü, 10-u müxbir üzvü, 35-i elmlər doktoru, professor, 186-sı fəlsəfə doktoru, dosentdir (23, 2015, 15 mart).

Naxçıvan Müəllimlər İnstitutu 2000-ci ildən Azərbaycan Müəllimlər İnstitutunun filialı kimi təsis edilmiş, 2003-cü ildən müstəqil ali məktəbə çevrilmişdir. Müəllimlər İnstitutunda 5 ixtisas üzrə 1067 nəfər tələbə təhsil alır, onların təlim-tərbiyəsi ilə 85 nəfər professor-müəllim heyəti məşğul olur.

"Naxçıvan" Universiteti 1994-cü ildən Bakı Özəl Ali Kollecinin Naxçıvan filialı kimi fəaliyyətə başlamış, 1999-cu ildən müstəqil ali təhsil müəssisəsinə çevrilmişdir. 2015-ci ildən isə "Naxçıvan" Universiteti kimi fəaliyyət göstərir. Universitetdə 15 ixtisas üzrə bakalavr, 4 ixtisas üzrə magistr hazırlanır. Burada 80 professor-müəllim heyəti çalışır. Bu günədək universiteti 3245 nəfər bitirmişdir.

Ümumiyyətlə, 3 ali təhsil müəssisəsində 66 ixtisas üzrə 7420 tələbə təhsil alır ki, onların təlim-tərbiyəsi ilə 462 professor-müəllim heyəti məşğul olur (6, s.166). Hazırda muxtar respublikanın ali və orta ixtisas təhsili müəssisələrində 84 ixtisas üzrə kadr hazırlanır. Bu gün muxtar respublikanın bütün pillədən olan təhsil müəssisələrində 58 minə yaxın uşaq, şagird, tələbə və kursant, 10 minə yaxın müəllim vardır.

XX əsrin 90-cı illərinin ortalarında ölkə iqtisadiyyatında baş verən müsbət irəliləyişlər **elm** sahəsində də mühüm dəyişikliklərin baş verməsinə səbəb oldu. Azərbaycan milli elminə həmişə hamilik etmiş ümummilli lider Heydər Əliyev respublika rəhbərliyinə qayıdandan sonra elmə dövlət qayğısı artdı.

Bu dövrdə muxtar respublikada Naxçıvan Regional Elmi Mərkəzi, Naxçıvan Kompleks Zona Təcrübə Stansiyası, Naxçıvan "Araz" Elm İstehsalat Birliyi, Naxçıvan Elmi-Tədqiqat Baytarlıq Stansiyası, Elm və Texnika Mərkəzi, Şamaxı Astrofizika Rəsədxanasının Batabat Stansiyası fəaliyyət göstərir, fundamental elmin müxtəlif sahələri üzrə tədqiqatlar aparırdılar.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbovun təşəbbüsü və rəhbərliyi ilə 1996-cı ilin iyulunda "Uluslararası qaynaqlarda Naxçıvan" beynəlxalq simpoziumun keçirilməsi Naxçıvanda elmi mühitin inkişafına əsaslı təsir göstərdi. Sonrakı illərdə də beynəlxalq səviyyəli simpozium və konfranslar keçirildi. "Naxçıvanda ilk məktəbin yaranması və maarifçilik hərəkatının inkişafı" (1997), "Uluslararası Dədə Qorqud simpoziumu" (1998), "Yaxın tariximizdə Naxçıvan və Qars" (1999), "Naxçıvan Muxtar Respublikasının təbii ehtiyatları və onlardan istifadənin səmərəli yolları" (2001) və b. elmi fəaliyyəti xeyli canlandırdı.

Ali Məclis sədrinin təşəbbüsü və Ölkə Prezidenti Heydər Əliyevin Sərəncamı ilə 2002-ci ildə AMEA Naxçıvan Bölməsi yaradıldı. Artıq bundan sonra elmin vahid elmi mərkəzdən əlaqələndirilməsi, elmi kadrların hazırlanması, Naxçıvanın hərtərəfli öyrənilməsi istiqamətində şərait yaradıldı. AMEA Naxçıvan Bölməsinin təşəbbüsü və ali təhsil müəssisələrinin fəal iştirakı ilə "Naxçıvan: tarixi gerçəklik, müasir durum, inkişaf perspektivləri" (2006), "Naxçıvan bu gün: islahatlar, perspektivlər" (2007), "Nuh peyğəmbər, dünya tufanı və Naxçıvan" (2009), "Naxçıvan: ilk yaşayış və şəhərsalma yeri kimi" (2011), "Naxçıvan: ilkin şəhər və Duzdağ" (2012), "Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir" (2014), "Naxçıvanda Dədə Qorqud" (2015), "Naxçıvan qalaları: tarixdə və günümüzdə" (2016) kimi beynəlxalq tədbirlər elmin müxtəlif problemlərinə həsr edilmiş, elmi əlaqələrin genişlənməsinə səbəb olmuşdur.

Elmin inkişafı bilavasitə yüksəkixtisaslı elmi kadrların səviyyəsindən, onların elmi fəaliyyətindən asılıdır. 1998-ci ildən Naxçıvan Dövlət Universitetində dörd ixtisas üzrə Dissertasiya Şurasının fəaliyyəti yüksəkixtisaslı elmi kadrların hazırlanmasına öz müsbət təsirini göstərmişdir. 1998–2010-cu illərdə bu Şurada 104 nəfər namizədlik və doktorluq dissertasiyası müdafiə etmişdir (21, s.228-240). 2006-cı ildə AMEA Naxçıvan Bölməsinin nəzdində 3 ixtisas üzrə Dissertasiya Şurası yaradılmış, 2013-cü ildə isə bu şuraya namizədlik və doktorluq müdafiəsi səlahiyyəti verilmişdir. 2006–2016-cı illərdə bu şurada 99 nəfər, o cümlədən 8 nəfər elmlər doktoru dissertasiyaları müdafiə etmişlər. 2015-ci ildə həm AMEA Naxçıvan Bölməsində, həm də Naxçıvan Dövlət Universitetində yeni dissertasiya şuraları yaradılmışdır.

1998–2015-ci illərdə muxtar respublikada yaşayan tədqiqatçılardan 36 nəfər doktorluq, 152 nəfər isə namizədlik dissertasiyaları müdafiə etmişlər. AMEA-ya 2003, 2007 və 2014-cü illərdə keçirilən seçkilərdə Naxçıvandan olan elm adamlarından 3-ü akademik, 13-ü müxbir üzv seçilmişdir.

1995–2016-cı illərdə tədqiqatçıların 248 monoqrafiyası, 772 kitabı, 320-dən çox dərslik, dərs və tədris vəsaiti, 1994 məqalə və tezisi nəşr edilmişdir. Naxçıvan Muxtar Respublikasında Ali Məclisin "Naxçıvan", AMEA Naxçıvan Bölməsinin "Xəbərlər", NDU, "Naxçıvan" Universiteti və NMİ-in Elmi əsərlər jurnalları nəşr edilir. Naxçıvanlı tədqiqatçıların yaxından iştirakı ilə "Naxçıvan ensiklopediyası" (2 cilddə), "Naxçıvan abidələri" ensiklopediyası (iki dildə), "Naxçıvan: tarixi və abidələri" (iki dildə), "Naxçıvanın Tarixi Atlası", "Naxçıvan Folklor Antologiyası" (3 cilddə), "Naxçıvan tarixi" (3 cilddə), "Naxçıvan teatrının salnaməsi" (1883–2008-ci illər), Naxçıvan Muxtar Respublikası flora və faunasının "Qırmızı kitab"ları (2 cilddə), "Naxçıvan Muxtar Respublikasının ampeloqrafiyası", "Naxçıvan Muxtar Respublikasının təbii sərvətləri", "Naxçıvan Muxtar Respublikasının dərman bitkiləri", "Naxçıvan arxeologiyası" və başqaları elmi ictimaiyyət tərəfindən maraqla qarşılanmışdır.

İnkişaf səviyyəsinə görə muxtar respublikanın heç bir dövrünü 1995–2016-cı illərlə müqayisə etmək olmaz. Bu, **mədəni-maarif** müəssisələrinin inkişafına da aiddir.

Kitabxanaların fəaliyyəti, onların maddi-texniki bazası xeyli artmışdır. 1970-ci ildə 1286 min kitab və jurnal fondu olan 232 kütləvi kitabxana var idisə, 2000-ci ildə bu 2399 min nüsxə kitab və jurnal fondu olan 295-ə çatmış və ya 28,4 faiz və 1,9 dəfə artmışdır (16, s.147).

Muxtar respublikanın bölgələrində inşa olunan 100-dən çox kənd mərkəzlərində kitabxanalar üçün nümunəvi şərait yaradılmışdır. 2009-cu ildə inşa olunmuş kənd mərkəzlərində 11 kitabxana, 11 mədəniyyət evi və klub əhalinin istifadəsinə verilmişdir. Kitabxanalar içərisində M.S.Ordubadi adına Naxçıvan MR Kitabxanası fəaliyyəti ilə diqqəti həmişə cəlb etmişdir. Kitabxanada 4 bölmə və 10 şöbə vardır. Kitabxanada 290 minə qədər kitab saxlanılır. Yeni elektron kitabxanalar yaradılmışdır.

Muxtar respublikada 265 klub, 272 mədəniyyət obyekti tikilmiş və ya təmir olunmuşdur. 29 muzeydə 110 minə qədər maddi-mədəniyyət nümunələri nümayiş olunur. 3 dövlət teatrı və 4 xalq teatrı, 1 dövlət filarmoniyası, 1 uşaq dövlət filarmoniyası, Aşıqlar Birliyi fəaliyyət göstərir (8, s. 158-159).

Naxçıvan ərazisindəki tarix və mədəniyyət abidələri İkinci həyatlarını yaşayırlar. Naxçıvan MR Ali Məclisi sədrinin Sərəncamından irəli gələn vəzifələrə uyğun olaraq muxtar respublika ərazisində aşkar edilmiş tarix və mədəniyyət abidələri qeydə alınmış və pasportlaşdırılmışdır. 60-dan çox tarix və mədəniyyət abidəsi bərpa edilmişdir. Naxçıvanqala, Əlincə qala bərpa edilmiş, orada Tarix-Mədəniyyət Muzeyləri yaradılmışdır.

Naxçıvan diyarı zəngin ədəbi ənənələrə malikdir. Azərbaycan yazıçılarının böyük bir dəstəsi Naxçıvanda yaşayıb yaradır. Azərbaycan Yazılılar Birliyinin Naxçıvan şöbəsinin yaradılması, "Şərq qapısı" qəzetinin nəşri, yerli radio və televiziya verilişləri Naxçıvanda ədəbi mühitin canlanmasına ciddi təkan vermişdir.

Müstəqillik illərində Naxçıvan ədəbi mühiti xeyli canlanmış, təcrübəli şair və yazıçı, tənqidçilərlə yanaşı, gənc ədəbi qüvvələr də ədəbiyyata gəlmiş, öz sözü və qələmi ilə yaradıcılıq qabiliyyətlərini göstərmişlər.

Son illərdə mətbuat və incəsənət sahəsində də böyük nailiyyətlər əldə edilmişdir. Muxtar respublikada "Şərq qapısı" və rayon qəzetləri çıxır. "Əcəmi" NPB, AMEA Naxçıvan Bölməsinin və ali təhsil müəssisələrinin nəşriyyatları yaradılmışdır. Musiqi və rəssamlıq sahəsində əldə edilmiş müvəffəqiyyətlər diqqəti cəlb edir.

Beləliklə, Naxçıvan Muxtar Respublikasında baş verən dəyişiklikləri ölkə rəhbəri çox yüksək qiymətləndirərək demişdir: **"Çox şadam ki, Naxçıvan uğurla, sürətlə inkişaf edir, böyük quruculuq, abadlıq işləri aparılır. Son illər ərzində Naxçıvan böyük inkişaf yolu keçmişdir. Hesab edirəm ki, bu gün Naxçıvan Muxtar Respublikasının çiçəklənmə dövrüdür. Çünki bütün istiqamətlər üzrə işlər uğurla gedir və gözəl nəticələr var".**

**Ədəbiyyat:**


1. Cəfərov H. Naxçıvanda təhsil: inkişaf yolu və imkanları. Bakı: "Elm və təhsil", 2011.
2. Cəfərov H., Mustafayev A. Milli müstəqillik və azadlıq uğrunda mübarizə tarixinin Naxçıvan səhifələri (XX yüzilliyin 80–90-cı illəri). Bakı: "Elm və təhsil", 2012.
3. Əhmədov N. Naxçıvan iqtisadiyyatının prioritetləri: iqtisadi artım, dinamik inkişaf. Bakı: "Sabah", 2008.
4. Əliyev İlham. İnkişaf məqsədimizdir. 4-cü kitab (aprel 2004 – iyun 2004). Bakı: "Azərnəşr", 2009.
5. Əliyev İlham. 28 May – Respublika Günü münasibəti ilə rəsmi qəbulda Azərbaycan Prezidenti İlham Əliyevin nitqi. "Azərbaycan" qəzeti, 2016, 28 may.
6. Hacıyev İ. Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi həyatı, sosial-iqtisadi və mədəni inkişafı (1991–2011-ci illər). Naxçıvan: "Əcəmi" NPB, 2011.
7. Hacıyev İ. Naxçıvan Muxtar Respublikası müstəqillik yollarında. Bakı: "Elm və təhsil", 2016.
8. Həbibbəyli İ., Hacıyev İ. İntibahın 15 ili. Naxçıvan: "Əcəmi" NPB, 2011.
9. Hacıyev İ., İsmayılov B. Naxçıvan Muxtar Respublikası – 90. Naxçıvan: "Əcəmi" NPB, 2014.
10. Hacıyev İ., Cəfərov K. Naxçıvan Muxtar Respublikası müstəqillik illərində. Naxçıvan: "Əcəmi" NPB, 2016.
11. Qayıdış (1990–1993). Sənədlər toplusu. Bakı: "Azərbaycan", 1996.
12. Qayıdış (1990–1993). Təkmilləşmiş və yenidən işlənmiş II nəşr. Bakı: "Azərbaycan", 2008.
13. Qədim Naxçıvanda bayram. Naxçıvan Muxtar Respublikası – 75. Bakı: "Azərbaycan", 1999.
14. Məmmədov M. Siyasətdə Naxçıvan dərsləri. Bakı: "Araz", 2009.
15. Müstəqillik yollarında. Azərbaycan Respublikasının dövlət müstəqilliyinin 25 illiyinə həsr edilmiş məqalələr toplusu. Bakı: "Şərq-Qərb", 2016.
16. Naxçıvan Muxtar Respublikası. Bakı: "Elm", 2001.
17. Naxçıvan müstəqillik illərində: hədəflər, inkişaf, nəticələr (3-4 dekabr 2015-ci ildə keçirilmiş elmi konfransın materialları). Naxçıvan: "Əcəmi" NPB, 2016.
18. Naxçıvan Muxtar Respublikasının Dövlət Arxivi (NMR DA), f.95, siy. 37, bağ. 307, iş 56.
19. Naxçıvan 2003–2013: hədəflər, inkişaf, nəticələr. Naxçıvan, "Əcəmi" NPB, 2014.
20. Nağıyev Ə., Novruzov V., Allahverdiyev H., Əlirzayev Ə. Heydər Əliyev və Azərbaycan iqtisadiyyatı. Bakı: "Azərnəşr", 1998.
21. Nadirov A., Nuriyev Ə., Muradov Ş. Naxçıvan iqtisadiyyatı XX əsrdə. Bakı, 2000.
22. Ömrün üç günü. Naxçıvan 29-31 oktyabr 1996-cı il. Bakı: "Ergün", 1997.
23. "Şərq qapısı" qəzeti.

**Açar sözlər:** *iqtisadiyyat, sosial həyat, Naxçıvan, hərtərəfli inkişaf, təhsil, elm, səhiyyə, mədəniyyət, qətiyyət*
**Ключевые слова:** *экономика, социальная жизнь, Нахчыван, всестороннее развитие, образование, наука, здравоохранение, культура, решительность*
**Key words**: *economy, social life, Nakhchivan, comprehensive development, education, science, health, culture, decision*

**Исмаил Гаджиев**

***Председатель Нахчыванского отделения НАНА, академик***

## СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКОЕ И КУЛЬТУРНОЕ РАЗВИТИЕ НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКИ (1991-2016-ые ГОДЫ)

В статье рассказывается об изменениях, произошедших в социально-экономической жизни Нахчыванской Автономной Республики в годы независимости, о развитии культуры, науки, образования, просвещения, литературы, прессы, искусства. В результате исследований стало ясно, что в 80-х годах XX века вследствие территориальных притязаний наших коварных соседей к Азербайджану, общественно-политическая жизнь в республике осложнилась, что, в свою очередь, оказало отрицательное влияние на социально-экономическое развитие. Однако возвращение в Нахчыван видного государственного деятеля, могущественного политика Гейдара Алиева, его проживание и деятельность в Нахчыване, в последующем избрание его Председателем Верховного Меджлиса в трудное время спасли Нахчыван. Политический курс, проводимый Гейдаром Алиевым в Нахчыване, впоследствии был продолжен его достойным преемником Президентом Азербайджана Ильхамом Алиевым, который, многократно посещая Нахчыван, проводит нужные для развития края реформы.

Результат таков, что избрание Васифа Талыбова Председателем Верховного Меджлиса Нахчыванской Автономной Республики, проводимые им последовательные меры, его решительная позиция привели к скорейшему и всестороннему развитию Нахчывана. Никакой исторический период не может сравниться с периодом независимости Нахчывана.За годы независимости Нахчыван добился такого развития в социально-экономической и культурной жизни, о котором в советское время можно было лишь мечтать.

**Ismail Hajiyev**

***Academician, chair of Nakhchivan Unit of Azerbaijan National Academy of Sciences***

## SOCIO-ECONOMIC AND CULTURAL DEVELOPMENT OF NAKHCHIVAN AUTONOMOUS REPUBLIC (1991–2016)

The article describes the changes in socio-economic life of the Nakhchivan Autonomous Republic during the years of independence. It tells about the development in the sphere of culture, education, literature, press and art. The research shows that at the end of 80s of the XX, the territory claims of our insidious neighbors to Azerbaijan have complicated the socio-political situation in the country, and this negatively impacted on the socio-economic development. However, the arrival of the eminent statesman, skillful politician Heydar Aliyev in Nakhchivan, his residence, activity and further election as a Chairman of Supreme Assembly made the situation stable and saved Nakhchivan. The political course regarding Nakhchivan has been continued by the President Ilham Aliyev, who frequently visited it and implemented reforms for the development of this region.

None of period of the history can be compared with the independence period of Nakhchivan. Nakhchivan achieved the success in social and cultural development that could only be dreamed in the period of Sovet Union.

**MUSA QASIMLI**

*Azərbaycan Respublikası Milli Məclisin deputatı,*
*AMEA Qafqazşünaslıq İnstitutunun direktoru, professor*

# PREZİDENT İLHAM ƏLİYEV VƏ AZƏRBAYCAN TARİXİNİN İLKLƏRİ

* * *

İlham Əliyevin 2003-cü ildə keçirilən prezident seçkilərində qələbə qazanaraq hakimiyyətə gəlməsi ilə qədim və zəngin dövlətçilik ənənələri olan Azərbaycan tarixində yeni keyfiyyət mərhələsi başladı. İlham Əliyevin prezidentliyinin ilk 13 ilində ölkəmizdə daxili siyasətdə – dövlət idarəçiliyində, ictimai-siyasi, iqtisadi, mədəni həyatda müstəsna əhəmiyyət daşıyan işlər görülmüşdür. Tamamilə yenidən qurulan, sosial-mədəni obyektlər, infrastruktur yaradılan Azərbaycan müasirləşən, onun tərkib hissəsi kimi modernləşən bir ölkəyə çevrilmişdir.

Xarici siyasət fəaliyyətində əhəmiyyətli fəaliyyət göstərilmişdir. Azərbaycan beynəlxalq neft-qaz, enerji, nəqliyyat-kommunikasiya layihələrinin reallaşdırıldığı ölkə olmuş, mövqeləri möhkəmlənmiş, nüfuzu artmışdır.

Məlum olduğu kimi, tarixi şəxsiyyət konkret məkan və zaman daxilində fəaliyyət göstərdiyindən onun dövrünə də məhz həmin baxımdan yanaşılır. Lakin zamandan uca olanlar, xalqının bir neçə on illər və bəzən də yüz illər sonrakı inkişaf yolunu əvvəlcədən müəyyənləşdirənlər, ömrünü xalqın tərəqqisi üçün başlıca şərt olan dövlətinin qüdrətlənməsinə həsr edənlər dahilər olurlar, onlardan sonra hakimiyyətə gələn və dövlətini güclü etmək istəyən rəhbərlər adətən həmin dövlət rəhbərlərinin fəaliyyətlərinə, təcrübəsinə müraciət edirlər. Məhz həmin meyarlar baxımından İlham Əliyev şəxsiyyətinə diqqət yetirmək, bir sıra suallara dərin elmi əsaslandırılmış və məntiqi cavab vermək müstəqillik dövrü tarixinin 13 ilini doğru bilmək, qiymətləndirmək və düzgün nəticələr çıxarmaq baxımından əhəmiyyətlidir. Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonra ötən 25 ilin zirvəsindən İlham Əliyev prezidentliyinin ilk 13 ilində dövlət və siyasi xadim olaraq necə görünür və həmin fəaliyyət hansı dərslər verir?

Əlbəttə, bütün yuxarıda söylənənlərin hamısını bir məqalədə xırdalıqlarına qədər araşdırmaq imkan xaricində olduğundan çoxlu dərin tarixi və politoloji tədqiqatların aparılmasına ehtiyac vardır. Ona görə də biz bu məqalədə yalnız aşağıdakı konkret bir məsələnin araşdırılması vəzifəsini yerinə yetirməyə çalışmışıq: Prezident İlham Əliyev 2003-cü ildə hakimiyyətə gəldikdən sonra Azərbaycan tarixində hansı ilklərə imza atmışdır? Bu məsələlərin öyrənilməsi həm dövlətçilik tarixinin təcrübəsini öyrənmək, həm keçilən yola qiymət vermək, həm də xalqımızın tarixində lider, dövlət başçısı və şəxsiyyətin oynadığı müstəsna rolu öyrənmək, milli dövlətçilik təfəkkürünü və özünəinamını artırmaq baxımından əhəmiyyətlidir.

### *BMT Baş Məclisində nitq söyləyən Azərbaycan Respublikasının ilk Baş Naziri*

İlham Əliyev Azərbaycan Respublikasının BMT Baş Məclisinin sessiyasında nitq söyləyən ilk Baş Naziri olmuşdur. Məlum olduğu kimi, 2003-cü ilin sentyabr ayında BMT Baş Məclisinin 58-ci sessiyasında iştirak edən Azərbaycan Respublikasının Baş Naziri İlham Əliyev öz çıxışında beynəlxalq aləmdə mürəkkəb proseslərin cərəyan etdiyi dövrdə üzvlərin arasında qarşılıqlı anlaşılmazlıqların meydana çıxmasına görə, BMT Təhlükəsizlik Şurasının şəraitə uyğun, çevik və adekvat münasibət göstərə bilməməsini qeyd edərək, mövcud BMT mexanizmlərinin zamanın tələbinə cavab vermədiyini vurğuladı və bununla bağlı təşkilat daxilində islahatların vacib məsələyə çevrildiyini bildirdi. İlham Əliyev etdiyi çıxışında regional və beynəlxalq təhlükəsizliyə qarşı olan təhdidlərlə bağlı fikirlərini açıqladı, dünyada cərəyan edən mürəkkəb proseslərdə BMT-nin yenidən strukturlaşmasını, onun perspektiv fəaliyyət strtegiyasında əsaslı dəyişikliklər etməsini ön plana çıxartdı. Azərbaycanın hökumət başçısının fikrincə, BMT Təhlükəsizlik Şurasında "həm bugünkü, həm də yarıməsrlik reallıqlar öz əksini tapmalı" idi [1]. Azərbaycan Respublikası BMT mexanizmlərinin yenidən işlənməsini, xüsusilə də Təhlükəsizlik Şurasının daimi üzvlərinin veto hüququna yenidən baxılmasını təklif etdi. Eyni zamanda Şərqi Avropa dövlətlərindən bir ölkənin Təhlükəsizlik Şurasının üzvlüyə qəbul edilməsinin vacibliyini bildirdi. O zaman bir çoxları belə bir təklifin nə üçün edildiyini və mahiyyətini dərk etmirdi. İlham Əliyevin bu təklifinin məqsədinin uzaqgörənliyi özünü yalnız səkkiz il sonra göstərdi.

*Azərbaycan Respublikasını BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçdirən Prezident*

İlham Əliyevin tariximizdə yaratdığı ilklərdən biri yürütdüyü uğurlu xarici siyasət fəaliyyəti nəticəsində Azərbaycan Respublikasının BMT Təhlükəsizlik Şurasına üzv seçilməsi olmuşdur. 2011-ci ildə də 2012–2013-cü illər üçün Təhlükəsizlik Şurasının 5 qeyri-daimi üzvü seçilməli idi. Məlum olduğu kimi, Təhlükəsizlik Şurası, dünyada sülh və təhlükəsizliyin təmin edilməsi üzrə BMT-nin məsul qurumu olaraq, 5 daimi və 10 qeyri-daimi üzvdən ibarətdir. BMT Baş Məclisinin Prosedur Qaydalarının 142-ci bəndinə əsasən hər il BMT Təhlükəsizlik Şurasının 10 qeyri-daimi üzvündən 5-i yenilənir. Təhlükəsizlik Şurasına üzv olmağın bir sıra şərtləri vardır. O dövlət bu quruma üzv ola bilər ki, sülhə, təhlükəsizliyə, tolerantlığa, iqtisadi inkişafa, millətlərarası və sivilizasiyalararası münasibətlərə, dialoqa konkret töhfələr verir.

BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə seçkilərdə namizədlər regional qruplar tərəfindən irəli sürülür. O zaman Afrikadan və Asiya-Sakit okean regionundan beş ölkə öz namizədliyini irəli sürmüşdü. Bunlar Qırğızıstan, Mavritaniya, Mərakeş, Pakistan və Toqo idi. Onlar 2011-ci il dekabrın 31-də Qabon, Livan və Nigeriya tərəfindən azad olunan yerlər uğrunda mübarizə aparırdılar. İlin sonunadək Bosniya və Herseqovinanın tutduğu yerə Şərqi Avropa dövlətləri qrupundan üç ölkə – Azərbaycan, Macarıstan və Sloveniya iddia edirdi. Reqlamentə görə, qeyri-daimi üzvlüyə seçkilər gizli səsvermə yolu ilə həyata keçirilir. Azərbaycan, Qırğızıstan və Qvatemaladan başqa, digər ölkələr artıq əvvəllər BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü olmuşdular.

BMT Təhlükəsizlik Şurasına iki illik qeyri-daimi üzvlük üçün 17 raundluq səsvermə keçirildi. Səsvermənin ilk raundu 21 oktyabr tarixində oldu. Şərqi Avropa qrupundan namizədliyini irəli sürən Sloveniya və Macarıstan ilə mübarizə aparan Azərbaycan seçkilərin 16 mərhələsində əvvəl Macarıstan, sonra isə Sloveniya üzərində şərtsiz üstünlük qazanaraq 17-ci mərhələdə qələbə üçün tələb olunan 129 səsdən də çox olan 155 səs əldə etdi. Bundan əvvəl baş tutan səsvermənin 16-cı mərhələsində Azərbaycan 116, Sloveniya isə 77 səs toplamışdı. Səsvermənin axırıncı mərhələsindən əvvəl Sloveniya tərəfi namizədliyini geri götürdü. Axırıncı mərhələdə isə Azərbaycanın lehinə 155 ölkə səs verdi, 24 ölkə bitərəf qaldı və 13 ölkə yenə də Sloveniyaya səs verdi. Azərbaycanın BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzvlüyü 2012-ci il yanvarın 1-dən başladı və 2013-cü il dekabrın 31-ə qədər davam etdi. Azərbaycan Respublikası iki il ərzində Şərqi Avropa dövlətlər qrupunu bu qurumda təmsil etdi.

Ən qəribəsi və gülünc görünən bu idi ki, Şərqi Avropa ölkələri qrupundan təcavüzkar Ermənistan da Təhlükəsizlik Şurasının üzvü seçilmək iddiasına düşmüşdü. Amma bu ölkənin hansı əməli işi ilə bu quruma üzv olmaq istəyi məntiqsiz idi. Rüsvay olacaqlarını və heç birinci turdan belə keçməyəcəklərini anladıqları üçün ermənilər namizədlikdən imtina etdilər.

Azərbaycan Respublikasının BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv qəbul edilməsi böyük tarixi əhəmiyyət daşıyan hadisə idi. Bu, Azərbaycan dövləti və xalqının tarixində qürurverici bir ilk idi. Hər şeydən əvvəl ona görə ki, Azərbaycan Respublikası özünün müstəqilliyinin 20-ci ilində artıq dünya siyasətini müəyyən edən 15 ölkədən birinə çevrilmişdi. Bu möhtəşəm hadisə Azərbaycanın beynəlxalq nüfuzunu daha da artırdı, regionun lideri statusunu möhkəmləndirdi. Həm də onu göstərdi ki, siyasi iradə və əzm olan yerdə istənilən hədəfə çatmaq olar. Bu, sadəcə üzv qəbul olunmaq məsələsi deyil, ölkəmizin beynəlxalq aləmdə artan nüfuzunun göstəricisinin təsdiqi idi. Azərbaycan Cənubi Qafqaz və Mərkəzi Asiya regionunda BMT Təhlükəsizlik Şurasının üzvü seçilən ilk ölkə oldu. Bu da rəmzi bir hal idi ki, Azərbaycan tarixi qələbəni BMT-nin təsis edildiyi gün olan oktyabrın 24-də əldə etmişdi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bununla bağlı olaraq verdiyi bəyanatında deyirdi:

*“...Bir neçə saat bundan əvvəl ölkəmizin həyatında çox əlamətdar və tarixi hadisə baş vermişdir. BMT Təhlükəsizlik Şurasına seçkilərdə Azərbaycan bu mötəbər təşkilatın üzvü seçilmişdir. Bu böyük qələbə münasibətilə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bu, həqiqətən də, böyük qələbədir. BMT Təhlükəsizlik Şurası dünyanın ən mötəbər qurumudur və Azərbaycan müstəqil dövlət kimi artıq bu qurumun üzvüdür.*

*Bildiyiniz kimi, iki gün ərzində keçirilən seçkilərdə Azərbaycan bütün turlarda, bütün mərhələlərdə üstünlük əldə etmişdir. Birinci turda 3 namizədin arasında 1-ci yeri Azərbaycan tutmuşdur. Ondan sonra keçirilən səsvermələrdə həmişə bizim ölkəmizə çox böyük dəstək verilmişdir. Nəticədə 155 ölkə Azərbaycanın namizədliyini dəstəkləyərək, etimad göstərərək bizi bu mötəbər təşkilata üzv seçdi. Mən fürsətdən istifadə edərək bizə inanan, bizə güvənən, bizə böyük hörmət göstərmiş bütün ölkələrə minnətdarlığımı bildirmək istəyirəm. Demək istəyirəm ki, Azərbaycan bu təşkilatda sadiq olduğu ideallara, sülhə, təhlükəsizliyə, demokratiyaya, ədalətə xidmət edəcəkdir...*

*Bizim dünyadakı dostlarımızın sayı artmaqdadır... Dünya miqyasında 155 ölkə Azərbaycana inanır, Azərbaycana hörmət edir, Azərbaycana rəğbətlə yanaşır və Azərbaycanı dəstəkləyir.*

*... Bu səsvermə müstəqilliyimizin 20 illiyinə təsadüf edir. Bu, çox rəmzi məna daşıyan bir hadisədir. Bu, göstərir ki, 20 il ərzində Azərbaycan müstəqil dövlət, dünyada böyük şöhrətə malik olan ölkə kimi özünü göstərib.*

*Bu qələbə Azərbaycan xalqının qələbəsidir. Bu qələbə Azərbaycan dövlətinin qələbəsidir, siyasətimizin təntənəsidir...".*

BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv qəbul olunması Azərbaycan diplomatiya tarixində əldə edilmiş ən böyük nailiyyətlərdən biri olmaqla, ölkənin son illər dünya miqyasında artan siyasi nüfuzunun bariz sübutu oldu. Azərbaycan sabit inkişaf edən, yüksək iqtisadi göstəricilərə nail olan və beynəlxalq siyasətdəki fəaliyyətləri ilə dünya ictimaiyyətinin rəğbətini qazanan dövlət olaraq bütün bu müvəffəqiyyətlərin nəticəsində beynəlxalq səviyyədə ən mötəbər qurumun üzvlüyünə seçilmişdi. Səsvermə Azərbaycan Respublikasının beynəlxalq aləmdə artan çəkisinin, ərazi bütövlüyü və sərhəd toxunulmazlığının bir daha təsdiqlənməsi oldu. Digər tərəfdən, bu hadisə son illərdə İlham Əliyevin rəhbərliyi altında Azərbaycan dövlətinin dünya siyasətindəki müxtəlif qlobal problemlərin müzakirəsinə cəlb olunması, ölkəmizin regional siyasətlə yanaşı, dünya siyasətinin də əsas aktorlarından birinə çevrilməsini göstərirdi.

2012–2013-cü illərdə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü kimi fəaliyyəti müddətində bir sıra məsələlərin gündəliyə çıxarılmasına nail oldu. Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsi ATƏT-in Minsk qrupunun vasitəçiliyi ilə həll edilməmiş qaldığından, Azərbaycan dövləti BMT Təhlükəsizlik Şurasında qeyri-daimi üzvlükdən istifadə edərək, özünün təhlükəsizlik problemlərini, ilk növbədə pozulmuş ərazi bütövlüyü məsələsini BMT Təhlükəsizlik Şurasının gündəliyinə çıxartmaq, xüsusilə 2012-ci ilin mayında və 2013-cü ilin sentyabrında 1 ay müddətinə Təhlükəsizlik Şurasının sədri funksiyalarını icra edərkən BMT Təhlükəsizlik Şurasının problemlə bağlı qəbul edilmiş dörd qətnaməsinin yerinə yetirilməsi üçün yeni təşəbbüslə çıxış etmək və Təhlükəsizlik Şurasında Ermənistanın işğalçılıq siyasəti ilə bağlı yenidən məsələ qaldırmaq, beynəlxalq hüququn normalarının bərpasını tələb etmək huququ qazanırdı.

Azərbaycan dövlətinin BMT Təhlükəsizlik Şurasına üzv olması Ermənistanda faciə kimi qarşılandı. Lakin təcavüzkar ölkənin təxribatları və iyrənc fəaliyyətləri heç bir nəticə vermədi. Çünki ABŞ, Çin, Rusiya, Böyük Britaniya və Fransa kimi daimi üzvlərlə birgə Azərbaycanın da dünyanın bir nömrəli beynəlxalq təşkilatının ən ali qurumunda iştirakı Azərbaycan Respublikası dövlətinin tutduğu yolun dünya tərəfindən dəstəklənməsinin əyani təsdiqi, həm də beynəlxalq birliyin Azərbaycanda yürüdülən siyasətə və Prezident İlham Əliyevin fəaliyyətinə verdiyi önəmin təzahürü, dünya ictimaiyyətinin ölkəmizə olan inamın və etimadın ifadəsini özündə ehtiva edirdi. Azərbaycanın yürütdüyü siyasətin yanında Ermənistan çox cılız görünürdü.

Prezident İlham Əliyevin tövsiyəsi əsasında Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi BMT Təhlükəsizlik Şurasının üzvü olaraq qarşıdan gələn iki il müddətində öz təcrübəsinə uyğun sahələrdə, xüsusilə də sivilizasiyalararası dialoq, iqtisadi cəhətdən az inkişaf etmiş dövlətlərə yardım və digər humanitar məsələlərə dair yeni layihələr hazırladı.

### *Prezident İlham Əliyevin BMT Təhlükəsizlik Şurasının iclasında sədrliyi və nitqi tariximizin ilki kimi*

Prezident İlham Əliyev BMT Təhlükəsizlik Şurasının iclasına sədrlik edən və onda nitq söyləyən Azərbaycan Respublikasının ilk dövlət başçısıdır. 2012-ci il mayın 4-də Azərbaycan Respublikası dövləti BMT Təhlükəsizlik Şurasına sədrlik etdi [2]. O, bu estafeti aprel ayında Şuraya sədrlik etmiş ABŞ-dan qəbul etdi. 4 may tarixində İlham Əliyev BMT Baş Məclisinin iclasına sədrlik etdi və orada dərin məzmun daşıyan nitq söylədi. Bu, Azərbaycan tarixində qürurverici möhtəşəm bir ilk idi. İlham Əliyevin sədrliyi ilə keçən iclasında dövlət başçısı iclasın gündəliyinin "Terror aktlarının beynəlxalq sülh və təhlükəsizliyə yaratdığı təhdidlər" mövzusuna həsr olunduğunu diqqətə çatdırdı. BMT-nin baş katibi Pan Gi Mun, Almaniyanın xarici işlər naziri Guido Vestervelle, Toqonun xarici işlər və əməkdaşlıq naziri Eliot Ohin, Barak Obama kabinetinin üzvü, ABŞ-ın BMT-dəki daimi nümayəndəsi Susan Rays, Mərakeşin xarici işlər və əməkdaşlıq naziri Yusif Əmrani, Rusiya Federasiyası Prezidentinin terrorizm və mütəşəkkil cinayətkarlıqla mübarizə üzrə xüsusi nümayəndəsi Aleksandr Zmeyevski, Kolumbiyanın çoxtərəfli işlər nazirinin müavini Patti Londono, Çin Xalq Respublikasının nümayəndəsi, Pakistan, Böyük Britaniya, Hindistan, Cənubi Afrika Respublikası, Qvatemala, Fransa və Portuqaliya nümayəndələri də çıxışlarında Azərbaycan Respublikasının tarixində ilk dəfə BMT Təhlükəsizlik Şurasına sədrlik etdiyini bildirərək, bu münasibətlə təbriklərini çatdırdılar, söylədilər ki, terror dünyadan hələ də əl çəkməmişdir və ona qarşı mübarizə tədbirləri davam etdirilməlidir.

4 may tarixli iclasa sədrlik edən Azərbaycan Respublikasının Prezidentinin dünya problemlərinin həllinin önə sürüldüyü dərin məzmunlu nitq söyləməsi müasir müstəqil Azərbaycan tarixində qürurverici bir ilk idi. Nitqində İlham Əliyev vurğulayırdı:

**"...***Terrorçuluq beynəlxalq sülh və təhlükəsizliyə, o cümlədən bütün üzv dövlətlərdə insan hüquqlarının, fundamental azadlıqların, demokratiyanın, siyasi müstəqilliyin, suverenliyin, ərazi bütövlüyünün və nəhayət, sosial və iqtisadi inkişafın bərqərar olunmasına ciddi təhdiddir.*

*Azərbaycan terrorçuluğun bütün forma və təzahürlərini qəti surətdə pisləyir. Biz hesab edirik ki, bütün terror aktları ağır cinayətdir, onlar pislənməli və bunu törədənlər isə cəzalandırılmalıdırlar. Terrorçulara öz əməllərini əsaslandırmaq üçün heç vaxt imkan verilmə-*

*məlidir. Səbəblərindən asılı olmayaraq, heç bir terror aktı əsaslandırıla bilməz. Terrorçuluğun dəyişən mahiyyəti və siması, bir çox hallarda onun təcavüzkar separatizm, ekstremizm və mütəşəkkil cinayətkarlığa bağlılığı vardır.*

*Silahlı münaqişələrə məruz qalan yerlərdə, xüsusən də xarici hərbi işğal altında olan ərazilərdə terrorçuluq ilə həmin məkanda olanlar arasında bir qayda olaraq sövdələşmənin yaranmasına şəraitlər formalaşır. Azərbaycan müxtəlif yollarla terrorçuluğa məruz qalmışdır. Azərbaycan kənardan təşkil olunan terror fəaliyyətinin birbaşa hədəfinə çevrilmişdir. Ermənistan Respublikası Azərbaycanın mülki əhalisi və infrastrukturuna qarşı onlarla terror aktı törətmişdir. Bunun nəticəsində 2 mindən artıq azərbaycanlı həyatını itirmişdir. Ermənistan öz güc strukturlarının bilavasitə iştirakı ilə hazırladığı həmin terror aktlarını beynəlxalq terror qruplarından istifadə edərək törətmişdir. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin fəal fazasında Ermənistan etnik təmizləməyə nail olmaq üçün hərbi təcavüzlə yanaşı, mülki əhaliyə qarşı geniş şəkildə terror aktlarından da istifadə etmişdir. Həmin vəhşilik aktları 1992-ci ilin fevral ayında Xocalı əhalisinin məhv edilməsi ilə kulminasiya nöqtəsinə çatdı. Həmin vaxt 613 günahsız insan, o cümlədən qadınlar, uşaqlar və yaşlılar öz həyatı ilə vidalaşmışdır. Yüzdən artıq qadın, altmış üç uşaq qətlə yetirilmişdir. Ermənistan, həmçinin münaqişə zonasından uzaq məsafədə də ictimai nəqliyyatda və mühüm infrastruktur yerlərində, 1994-cü ildə Bakı metrosunda bomba partlayışı və digər əməllər kimi terror aktlarını törədərək, mülki əhaliyə qarşı mübarizə apardı.*

*Bu gün Ermənistanın terror risklərindən irəli gələrək, biz əsasən terror hədələrinin tərəfimizdən zərərsizləşdirilməsinə baxmayaraq, bu risk yenə də yüksək olaraq qalır. Bir sıra terror aktlarının, o cümlədən Azərbaycanın mülki infrastrukturlarına, xüsusən su rezervuarları və bəndlərinə, neft kəmərləri şəbəkəsinə hücum edilməsi kimi əməllərin legitim hərbi taktikası olması ilə bağlı açıq bəyanatlar və fikirlər hələ də müşahidə edilir. Bunlar birmənalı surətdə mülki əhali arasında yüz minlərlə tələfatın olması ilə nəticələnə bilər. Beynəlxalq terror təşkilatlarının elementləri Ermənistanın təhlükəsizlik və müdafiə sektoruna inteqrasiya edilib. Avropa dəyərlərinə və universal dəyərlərə sadiq olduğunu göstərməyə çalışan ölkə tərəfindən beynəlxalq terror təşkilatlarının üzvlərini qəhrəman kimi qələmə vermək və onlara abidələr ucaltmaq səylərini görmək təəssüf doğurur.*

*Azərbaycanlılara qarşı aparılmış etnik təmizləmə siyasəti Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisinin iyirmi faizinin işğalı ilə nəticələnmişdir. Bir milyondan artıq qaçqın və məcburi köçkün öz doğma yurdlarından didərgin salınmışdır.*

*BMT-nin Təhlükəsizlik Şurası erməni qoşunlarının işğal edilmiş ərazilərdən çıxarılmasını tələb edən dörd qətnamə qəbul etmişdir. Lakin əfsuslar olsun ki, Ermənistan təxminən iyirmi il ərzində bu qətnamələrə məhəl qoymur.*

*Azərbaycanın işğal edilmiş əraziləri terrorçuluqla separatizm, ekstremizm və mütəşəkkil cinayətkarlıq, o cümlədən narkotik maddələrin dövriyyəsi, çirkli pulların yuyulması və silah qaçaqmalçılığı arasında olan əlaqə baxımından böyük narahatlıq mənbəyidir. Ermənistanın terror hədələrinə əlavə olaraq, Azərbaycan beynəlxalq terror qruplarından irəli gələn risk və təhlükələrlə hələ də üzləşir. Ölkəmizin həssas regionlara yaxınlığı bu hədələri bizim üçün daha qabarıq şəklə salır. Buna görə Azərbaycan təbii olaraq milli səviyyədə genişmiqyaslı tədbirləri görməkdədir və terrorçuluğun qarşısının alınması üçün beynəlxalq səylərə fəal şəkildə töhfə verir. Təhlükəsizliyin bölünməzliyinin carçısı olan Azərbaycan beynəlxalq antiterror koalisiyasına fəal şəkildə töhfə verən ölkədir...*

*Terrorçuluğun aydın tərifi və beynəlxalq terrorçuluqla bağlı konvensiya həll olunmamış bəzi məsələlərin, o cümlədən terror hərəkətlərinin təşkil edilməsi, maliyyələşdirilməsi, təşviq edilməsi, təlimatlandırılması, digər birbaşa və ya dolayı yolla dəstəklənməsindən çəkindirmək məsələlərinin həllinə töhfə verə bilər. Bu cür razılığın əldə olunması terrorçuluğun əsas səbəblərinin əhatəli və açıq şəkildə müzakirəsinə əsaslanmalıdır. Biz sosial və iqtisadi inkişaf, eləcə də təhsil məsələlərinin həlli üçün bu sahəyə hazırkı beynəlxalq səylər çərçivəsində, o cümlədən Birləşmiş Millətlər Təşkilatının mexanizmləri vasitəsilə birmənalı olaraq lazımi diqqət yetirməliyik. İqtisadi çətinliklərlə müşayiət olunan məhdud təhsil imkanları bir çox hallarda dinləri təfsir etmək adı altında terror təşviqatının aparılmasına zəmin yaradan amillər hesab edilə bilər. Terrora qarşı mübarizə hər hansı konkret din və ya mədəniyyətə hücum çəkmək üçün istifadə edilə bilməz. Bu gün biz məhdud dini məlumatlılıq şəraitində yaşayırıq və bu, müəyyən hallarda şişirdilmiş forma alır, bəzən etnik, dini və mədəni köklərə malik münaqişələrin qızışdırılması üçün məkrli şəkildə sui-istifadə olunur. Son illər ərzində bəzi ölkələrdəki islamofobiyanın qəbuledilməz səviyyədə olması bu cür böhtan xarakterli hərəkətlərin və səhv konsepsiyaların qarşısının alınmasında birgə səylərin və dialoqun olduqca böyük əhəmiyyətini təsdiqləmişdir...*

*Əminəm ki, terrorçuluğa qarşı mübarizənin aparılması işində bütün səylərimizi birləşdirməliyik. Terrorçuluğun hazırkı siması və onun beynəlxalq sülh və sabitliyə təhlükə olan digər hədələrlə bağlılığı dövlətlər arasında daha sıx əməkdaşlığı, o cümlədən BMT-nin daha yaxşı, əlaqələndirilmiş, ahəngdar və sistemli yanaşmasını tələb edir. Bununla belə, dövlətlər arasında münaqişələrin olması, xarici hərbi təcavüz və təcavüzkar separatizm terrorçuluq üçün münbit şərait yaradır. Buna görə beynəlxalq ictimaiyyət beynəlxalq hüququn ümumi qaydada qəbul edilmiş normaları və prinsipləri əsasında münaqişələrin, xüsusən ərazi bütövlüyünün təmin edilməsi və dövlətlərin beynəlxalq səviyyədə*

*tanınmış sərhədlərinin toxunulmazlığına aid məsələlərin həllinə çalışmalı və ölkələrə öz əraziləri üzərində suverenliyin bərpa edilməsinə yardım etməlidir..."* [2].

Azərbaycan Respublikası BMT üzvləri arasında cəmi 20 il əvvəl dövlət müstəqilliyinin bərpa etmiş bir ölkə olsa da, bu qurumda tutduğu rəhbər mövqenin və Prezident İlham Əliyevin nitqinin böyük tarixi əhəmiyyəti var idi. Hər şeydən əvvəl, Prezident İlham Əliyevin nitqi Azərbaycanın təkcə XXI əsr tarixi üçün deyil, həm də bütün dövlətçilik tarixi üçün yadda qalan və möhtəşəm idi. Çünki Azərbaycan dövlət başçısı ilk dəfə olaraq Təhlükəsizlik Şurasının iclasına sədrlik edir və nitq söyləyirdi. Bu nitq Azərbaycan dövlətinin beynəlxalq təşkilatda təmsil olunması, dünya siyasətindəki bu və ya digər uğuru, respublikanın müstəqil ölkə kimi təsdiqi baxımından əhəmiyyətli idi. Ona görə də BMT kimi dünyanın nüfuzlu beynəlxalq təşkilatında edilən nitq mühüm mahiyyət daşıyır. Söylənən nitq Prezident İlham Əliyevin nüfuzuna təsir edən və onun dünya miqyasında çəkisini göstərən beynəlxalq amil idi. Prezident İlham Əliyev buna qədər də xarici ölkələrdə və beynəlxalq təşkilatların toplantılarında dəfələrlə nitqlər söyləmiş və rəğbətlə qarşılanmışdı. Azərbaycan Prezidenti etdiyi nitqləri və siyasi-dövlətçilik fəaliyyəti ilə bəzən mövcud diplomatiya çərçivələrini aşıb keçən liderlər sırasına daxildir. Təhlükəsizlik Şurasında etdiyi nitq də bu baxımdan diqqəti cəlb edirdi. Adətən dövlət başçıları Təhlükəsizlik Şurasında etdikləri nitqlərində bitərəf mövqe tutur, öz ölkələrinin problemlərini gündəliyə gətirməkdən çəkinirlər. Lakin Azərbaycan Prezidenti belə etmədi. O, Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi, dünya terror şəbəkələrində aparıcı mövqe tutması problemlərindən bəhs etdi. Azərbaycan Prezidentinin söylədikləri erməni terrorunun təkcə Azərbaycan deyil, bütün dünya üçün təhlükəli olduğunu dünyaya çatdırmaq baxımından da əhəmiyyətli idi. Çünki Ermənistan terrorçuluğu dəstəkləyir və Azərbaycanın işğal olunmuş ərazilərində terrorçuların düşərgələrini saxlayır və digər qanunsuz fəaliyyətləri həyata keçirir, terroru dövlət səviyyəsində himayə edir. Azərbaycan isə terrora məruz qalan ölkədir və terrora qarşı mübarizə aparan ölkələrin yanındadır.

Azərbaycanın birinci sədrliyi dövründə BMT Təhlükəsizlik Şurasının 13 açıq, 16 qapalı iclası keçirildi. Bu müddət ərzində BMT Təhlükəsizlik Şurasının 2-si Sudandakı vəziyyətə, 1-i isə Qvineya-Bisaudakı hərbi çevrilişə dair olmaqla 3 qətnaməsi; habelə mətbuat üçün 7 bəyanatı qəbul edildi.

Azərbaycan Respublikasının BMT Təhlükəsizlik Şurasında 2013-cü ilin oktyabr ayından başlayan ikinci sədrliyi də səmərəli oldu. Əsas mövzu kimi 2013-cü il 28 oktyabr tarixində "Birləşmiş Millətlər Təşkilatı və İslam Əməkdaşlıq Təşkilatı (İƏT) arasında tərəfdaşlıq əlaqələrinin gücləndirilməsi" mövzusunda qurumun yüksək səviyyəli iclası təşkil edildi. Bu dövrdə Təhlükəsizlik Şurasının gündəliyi beynəlxalq sülh və təhlükəsizliyin təmin olunması ilə əlaqədar mühüm məsələləri əhatə etdi. Təhlükəsizlik Şurasında dörd qətnamə, altı bəyanat qəbul edildi. Beynəlxalq sülh və təhlükəsizliyin təmin olunması istiqamətində öz səylərini əsirgəməyən və davamlı şəkildə fəaliyyət göstərən Azərbaycan dövləti BMT Təhlükəsizlik Şurasının sədri qismində beynəlxalq səviyyədə ədalətin və hüququn prinsiplərinin bərqərar olmasına öz mühüm töhfələrini verdi.

Ümumiyyətlə, Prezident İlham Əliyevin liderliyində Azərbaycan Respublikası dövləti BMT Təhlükəsizlik Şurasına üzvlüyü və sədrliyi dövründə üzərinə düşən vəzifələri layiqincə yerinə yetirdi, dünyada sülh və təhlükəsizliyin təmin olunması istiqamətində səylərini davam etdirdi, beynəlxalq hüquq normalarının və ədalətin müdafiəsinə çalışdı, sülh və beynəlxalq təhlükəsizliyə dair qlobal, yaxud regional əhəmiyyətli məsələlərin gündəliyini müəyyənləşdirdi. Azərbaycan diplomatiyasının səyləri dövlətimizin milli maraqlarının qlobal səviyyədə genişləndirilməsinə yönəldi. Terrordan və işğaldan əziyyət çəkən ölkə kimi Azərbaycan beynəlxalq sülh və təhlükəsizliyə yaradılan təhdidləri, o cümlədən Ermənistanın təcavüzkar siyasətini daim diqqətdə saxladı.

Azərbaycan Respublikasının BMT Təhlükəsizlik Şurasındakı üzvlüyü həm dünya siyasət, həm də Azərbaycan baxımından əhəmiyyətli fəaliyyətlərlə tarixə keçdi. Prezident İlham Əliyevin bəyan etdiyi kimi, ədalətin və beynəlxalq hüququn norma və prinsiplərinin qorunmasını BMT Təhlükəsizlik Şurasında özünün prioritet məqsədi kimi qarşıya qoyan Azərbaycan dövləti iki il ərzində qurumun qeyri-daimi üzvü kimi uğurlu fəaliyyətini davam etdiridi, sədrliyi dövründə beynəlxalq sülh və təhlükəsizliyin qorunmasına töhfələrini verdi, Şuranın gündəliyində dayanan məsələlərin müzakirəsində fəal rol oynadı və daim öz qətiyyətli mövqeyini ortaya qoydu.

Azərbaycan dövləti müstəqillik tarixində ilk dəfə bu ali qurumun üzvü kimi beynəlxalq gündəlikdə duran ən aktual məsələlər üzrə müxtəlif səviyyələrdə müzakirələrin aparılmasının və qərarların qəbul edilməsinin bilavasitə iştirakçısı oldu. Beynəlxalq hüququn norma və prinsiplərinə riayət olunması, qanunun aliliyi, münaqişələrin qarşısının alınması və həll edilməsi, münaqişəli vəziyyətlərdə mülki əhalinin müdafiəsi, terrorçuluq əleyhinə mübarizə, BMT və regional təşkilatlar arasında əməkdaşlıq mövzuları ilə yanaşı, Yaxın Şərq sülh prosesi, Suriya, Əfqanıstan və Afrikanın bir sıra dövlətlərində vəziyyət BMT Təhlükəsizlik Şurasına üzvlüyü müddətində Azərbaycan Respublikasının böyük əhəmiyyət verdiyi məsələlər sırasında oldu.

Azərbaycanın Təhlükəsizlik Şurasında hər iki sədrliyi müddətində qurumun 59 açıq və qapalı iclası keçirildi, 7 qətnamə, Şura sədrinin 3 bəyanatı və mətbuat üçün 13 bəyanat qəbul edildi. Bu, Azərbaycan millətinə qürur verən bir hadisə oldu. Lakin bu, sonuncu ilk olmadı. Müstəqillik tarixində Prezident İlham Əliyevin həyata keçirdiyi digər ilklərdən biri Azərbaycanın dünya xəritəsində axtarılmasına qon qoyulması oldu.

### *Azərbaycanın xəritədə axtarılmasına son qoyulması*

Prezident İlham Əliyevin Azərbaycan tarixində yaratdığı ilklərdən biri "Evrovision" mahnı yarışmasının Bakıda ən mükəmməl şəkildə təşkil edilməsi, yarışma zamanı maddi-mənəvi mədəniyyətimizin təbliğ edilməsi ilə ölkəmizin xəritədə axtarılmasına son qoyulması olmuşdur. Məlum olduğu kimi, 2011-ci ildə Almaniyanın Düsseldorf şəhərində 25 ölkə təmsilçisinin iştirakı ilə keçirilən 56-cı Avroviziya mahnı müsabiqəsində Azərbaycan təmsilçiləri 221 bal toplayaraq qalib gəldikləri üçün qaydalara uyğun olaraq növbəti yarış Azərbaycanda keçirilməli idi. Bu, qürurverici bir hadisə idi.

2012-ci ilin may ayında Bakı şəhərində "Avroviziya 2012" mahnı müsabiqəsinin keçirilməsi üzrə Təşkilat Komitəsi Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 19 may 2011-ci il tarixli Sərəncamı ilə yaradıldı [5]. Təşkilat Komitəsinin sədri UNESCO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva oldu. 2012-ci ildə Bakıda keçirilən 57-ci Avroviziya mahnı müsabiqəsi müasir Azərbaycan və Avropa mədəniyyət tarixində mühüm yerlərdən birini tutdu. Bütün dünyanın nəzərləri Azərbaycana yönəldi, minlərlə turist ölkəmizə gəldi. Müxtəlif ölkələrdən insanlar Azərbaycana axın etdilər. Həqiqətləri öz gözləri ilə gördülər. Azərbaycan tarixi və mədəniyyəti təbliğ edildi. Azərbaycanın xəritədə axtarılmasına son qoyuldu. Bu hadisə tariximizdə qürurverici bir ilk idi.

### *Dövlət canlı orqanizmdir – daim genişlənməlidir*

Prezident İlham Əliyev tariximizdə indiyədək rast gəlinməyən bir ilkə imza atmış, nitqlərində ölkə qarşısında dayanan belə bir strategiyanı müəyyənləşdirmişdir: dövlət canlı orqanizmdir – daim genişlənməlidir. Bu, uzunmüddətli strategiya olub, Azərbaycanın nəinki indisini, eyni zamanda gələcək zamanlarını da əhatə edir. Genişlənmə müasir beynəlxalq münasibətlərdə artıq hakim olan və təsdiq edilən coğrafi-siyasi mövcudluyyətinin dəyişdirilməsini deyil, maliyyə-iqtisadi və nüfuz baxımından genişlənməni özündə ehtiva edir. Məhz bu məqsədi həyata keçirtmək yolunda Prezident İlham Əliyev dərin məna daşıyan addımlar atdı. Azərbaycanın müasirləşməsinin vacibliyini irəli sürdü. Bəs müasirləşmə Azərbaycana nə üçün lazımdır? Tarixinin təcrübəsi göstərir ki, hər hansı bir ölkənin çoxlu maliyyə vəsaitləri, təbii sərvətləri ola bilər. Lakin əgər dövlət hakimiyyəti həmin təbii sərvətləri milli sərvətlərə çevirmirsə, yeni texnologiyaların tətbiqini həyata keçirmirsə, insanlar əməyi yadırğayırlarsa, ölkə digərlərindən geri qalır və çox vaxt da rəqabətə tab gətirmir. Geri gedən ölkə isə heç bir zaman nüfuz baxımından genişlənə bilməz. Buna dair çoxlu nümunələr gətirmək olar. Məlum olduğu kimi, uzun tarix boyu mövcud olmuş xalqların və ölkələrin bir çoxu məhz zamanla ayaqlaşa, ona uyğunlaşa bilmədikləri üçün hazırda dünyanın siyasi səhnəsində mövcud deyillər. Zamanla ayaqlaşmayan, dövrün şərtlərinə uyğunlaşmayan və özü yaşayış şərtlərini irəli sürməyən xalqların çoxu hazırda dünya siyasətində söz sahibi deyillər. Bir zamanlar Roma və Bizans imperatorluqları, Portuqaliya, İspaniya, Hollandiya, Osmanlı dövləti, Avstriya-Macarıstan dünya siyasətinə ya hökmranlıq edər, ya da xeyli nüfuzlu idilər. Lakin zaman-zaman onların bəziləri həm dünyada gedən müasirləşmə proseslərinə uyğunlaşmadıqları üçün, həm də onları parçalamağa çalışan xarici güclərin təzyiqlərinə tab gətirə bilməyərək zəiflədilər, bəziləri isə dağılıb dünya səhnəsindən getdilər. Bu dövlətlərin və imperatorluqların taleyi bəzi nəticələr çıxarmağa, ibrət dərsləri almağa imkan verir.

Müasirləşmə rəqabətə davamlı Azərbaycanın qurulması və vətəndaşın daha yaxşı yaşayışını təmin etmək üçün lazım idi. Artıq rəqabətə davamlı Azərbaycan dövləti yaranmışdır. Ötən illər tarix baxımından qısa olsa da, həyata keçirilən tədbirlər, islahatlar və inkişaf baxımından bir sıra ölkələrin keçdikləri yüz illərə bərabərdir.

Prezident İlham Əliyevin siyasəti nəticəsində Azərbaycan müasirləşən bir ölkəyə çevrilmişdir. Sovet dövrü başa çatdıqdan sonra yaranmış boşluqda Azərbaycan xalqının əməyi yadırğamasının qarşısı alınmışdır. İlham Əliyev Azərbaycan xalqının minilliklər tarixində Quruçu Prezident adını qazanmışdır. Azərbaycan ərazilərinin bir hissəsinin Ermənistan silahlı qüvvələrinin işğalı altında olmasına baxmayaraq, ölkə tərəqqi etmiş, tikinti-quruculuq işləri genişləndirilmişdir.

Güclü bir Azərbaycan dövləti qurulmuşdur. Tarixi təcrübə göstərir ki, təbii sərvətlər heç də xalqın inkişafının başlıca şərti deyildir. Əsas məsələ təbii sərvətləri milli sərvətə çevirmək və uğurla əməkdaşlıq etmək bacarığıdır. Azərbaycan rəhbəri təbii sərvətləri ilə sərvətlərə çevirərək xalqın və dövlətin ümumi tərəqqisinə yönəltmişdir.

Bir zamanlar Azərbaycan qaz və elektrik enerjisi təchizatı sarıdan digər ölkələrdən asılı vəziyyətdə idi. Həmin dövlətlər istədikləri vaxt Azərbaycana satdıqları qazı və elektrik enerjisini dayandırar və ondan siyasi təzyiq vasitəsi kimi istifadə etməyə çalışardılar. Nəinki rayonlarda və kəndlərdə, hətta Bakıda insanlar axşamlar bəzən şam və ağ neft lampalarının ümidinə qalardılar. Ötən illər ərzində Azərbaycanda yürüdülən siyasət nəticəsində bu vəziyyətə son qoyulmuşdur. Azərbaycan enerji təhlükəsizliyini təmin edən bir ölkə olmuşdur.

Bəzi ölkələrdən ərazisi baxımından kiçik, əhalisinin sayına görə az olmasına baxmayaraq, Azərbaycan Respublikası qaz təchizatını nəinki təmin etdiyi, eyni zamanda Avropanın tələbatının ödənilməsində mühüm rol oynayan bir ölkəyə çevrilmişdir. Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft, Bakı-Tbilisi-Ərzurum qaz boru kəmərləri təkcə iqtisadi deyil, böyük siyasi və strateji

əhəmiyyət daşıyan, Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsində mühüm rol oynayan kəmərlərdir. TANAP və TAP layihələri Azərbaycanın qoca qitənin dövlətləri və xalqları üçün nə qədər əhəmiyyətli bir ölkə olduğunu göstərmişdir.

Azərbaycan nəqliyyat təhlükəsizliyini təmin edən bir ölkə olmuşdur. Böyük ipək yolu, Bakı-Tbilisi-Qars dəmiryolu kimi layihələr Azərbaycanı yenidən dünyanın tranzit, nəqliyyat və ticarət mərkəzlərindən biri halına gətirmişdir. Çoxşaxəli nəqliyyat kəmərlərinin yaradılması və inkişaf etdirilməsi Azərbaycanın iqtisadi qüdrətinin artmasına təsir edən amillərdən biri olmuşdur. Bakı-Tbilisi-Qars, Naxçıvan-Məşhəd dəmiryol xətlərinin tikintisinin, Şərq-Qərb və Şimal-Cənub nəqliyyat-kommunikasiya xəttinin uğurla başa çatması ilə Azərbaycan dünyanın böyük nəqliyyat qovuşağı olan bir ölkəyə çevriləcəkdir. İnfrastruktur inkişaf edəcək, yeni iş yerləri açılacaq, əhalinin həyat şəraiti daha da yaxşılaşacaqdır.

Yürüdülən siyasət nəticəsində Cənubi Qafqaz iqtisadiyyatının təqribən 75%-i Azərbaycanın payına düşür. Azərbaycan iqtisadiyyatının neftdən asılılığının azaldılmasına yönələn siyasət genişləndirilmişdir. Xüsusən turizm, kənd təsərrüfatı və yeni texnologiyaların tətbiqinə başlıca yer ayrılır.

Dünyada gedən mürəkkəb maliyyə-iqtisadi və siyasi proseslərə, ərazisinin 20%-nin Ermənistanın işğalı altında olmasına baxmayaraq, Azərbaycan tikinti-quruculuq meydanına çevrilmişdir. Ölkədə geniş inşaat işləri aparılır, yeni iş yerləri, qaçqın və məcburi köçkünlər üçün evlər tikilir. Başqa hər hansı bir ölkə belə şəraitdə olsaydı, o, çox ağır bir vəziyyətə düşərdi.

Azərbaycan borc alan ölkədən borc verən, kapital ixrac edən ölkəyə çevrilmişdir. Bir zamanlar Azərbaycan xarici ölkələrdən borc istəsə də, verməzdilər. Çünki borcun qaytarılmasına ümid və sabaha inam yox idi. Artıq qeyd edildiyi kimi, Prezident İlham Əliyevin fəaliyyəti nəticəsində Azərbaycan dövləti tariximizdə ilk dəfə olaraq "dövlət canlı orqanizmdir – daim genişlənməlidir" geosiyasi nəzəriyyəsini uğurla həyata keçirən bir ölkə olmuşdur. Azərbaycan şirkətlərinin Avropanın "göbəyində" – Balkanlarda, Gürcüstan, Türkiyə və b. ölkələrdə nəhəng layihələrdə iştirak etməsi dövlətimizin beynəlxalq fəaliyyətinin tərkib hissəsi olan xarici iqtisadi siyasətin qürurverici səhifələrindən biridir.

Azərbaycan dövləti ötən illərdə ölkəni xarici hərbi müdaxilədən qorumaq qabiliyyətində olan güclü ordu və müasir hərbi-sənaye kompleksi yaratmışdır. Azərbaycan beynəlxalq silah sərgilərində özünəməxsus yer tutur.

Prezident İlham Əliyevin hakimiyyətinin ilk 13 ilində qədim və zəngin Azərbaycan mədəniyyətinə yeni bir nəfəs gəlmişdir. Azərbaycan maddi və qeyri-maddi irsi UNESCO-nun irs siyahısına daxil edilmişdir. Azərbaycan Prezidenti xalqının dünya mədəniyyəti yaradan bir xalq olduğunu bir daha sübut edərək, ona böyük yaradıcılıq imkanları yaratmışdır.

Azərbaycan Prezidentinin yaratdığı ilklərdən biri Bakıda Bayraq meydanının yaradılması olmuşdur. Bununla da dövlətçilik tariximizdə bundan sonrakı bütün tariximizdə yaşayacaq gözəl bir ənənənin əsası qoyulmuşdur.

Ana dilinə qayğı Azərbaycan Prezidentinin fəaliyyətinin sahələrindən biridir. Azərbaycan Prezidentinin ana dilimizin saflığının qorunması haqqında imzaladığı sənədlər qloballaşma şəraitində dilçilik elmimizin inkişafında yeni imkanlar açmışdır.

Azərbaycan Prezidentinin ölkəmizin və millətimizin birliyinin rəmzlərindən biri olan dinimizə xüsusi qayğı göstərməsi hamı tərəfindən rəğbətlə qarşılanır. Din və dövlət ölkəni dik saxlayan iki ayaqdır. Millət və ölkə bunların biri olmadan, tək ayaqda qala bilməz. Dinimizə və dini adət-ənənələrimizə qayğı dövlət rəhbərinin fəaliyyətinin mühüm sahələrindən biridir. Din ilə dövləti qarışdırmadan onlar arasında qızıl ortanı müəyyənləşdirərək hər ikisini inkişaf etdirmək Azərbaycan Prezidentinin uğurlarından biri hesab edilə bilər.

İlham Əliyevin hakimiyyəti illərində xalqın milli ruhu yüksəlmiş və özünəinamı artmışdır. Xalq və dövlət arasında birlik, hakimiyyətin qanadları arasında səmərəli əməkdaşlıq qurulmuşdur. Demokratikləşdirmə, vətəndaş cəmiyyətinin qurulması məqsədi ilə geniş islahatlar həyata keçirilmişdir. Çoxpartiyalı sistemin əsasları möhkəmləndirilmişdir. Azad mətbuat formalaşaraq inkişaf etmişdir.

İlham Əliyev əslində ölkədə möcüzə yaratmış, dünyaya yeni bir model vermişdir. Bu, Azərbaycan modelidir.

### *Kosmos klubunun üzvü*

İlham Əliyevin müstəqil Azərbaycan tarixindəki ilklərindən biri Azərbaycan Respublikasını kosmos dövləti etmək olmuşdur. Azərbaycan 2013-cü ilin fevral ayında kosmik fəzaya ilk peykini buraxdı.

Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin hələ 2008-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasında "Azərbaycan Respublikasında yeni və ən texnoloji sənaye sahəsi olan kosmik sənayenin yaradılması və telekommunikasiya peykinin orbitə çıxarılması" barədə verdiyi tapşırıq əsasında konkret fəaliyyət proqramının müəyyənləşdirilməsi istiqamətində işlərin görülməsinə başlanıldı. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında kosmik sənayenin yaradılması və telekommunikasiya peyklərinin orbitə çıxarılması haqqında" 4 noyabr 2008-ci il tarixli 27 nömrəli sərəncamı imzalandı [3]. Azərbaycan Respublikası Prezidentinin 17 avqust 2009-cu il tarixli 443 nömrəli sərəncamı ilə "Azərbaycan Respublikasında kosmik sənayenin yaradılması və inkişafı üzrə Dövlət Proqramı" təsdiq edildi. Sərəncam və Dövlət Proqramı ilə telekommunikasiya peykinin hazırlanaraq orbitə çıxarılması konkret vəzifə

kimi qarşıya qoyulur və müvafiq tədbirlərin həyata keçirilməsi nəzərdə tutulurdu [4]. Telekommunikasiya peykinin hazırlanması, orbitə çıxarılması, idarə olunması və istismar işlərinin həyata keçirilməsini təmin etmək məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 3 may tarixli 885 nömrəli sərəncamı ilə Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin tabeliyində “Azərkosmos” Açıq Səhmdar Cəmiyyəti təsis edildi. Bunun ardınca, 2010-cu ilin may ayında Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilə Malayziyanın peyk operatoru olan “Measat Satellite Systems” şirkəti arasında ilk telekommunikasiya peykinin Malayziya hökumətinə məxsus 46°Ş orbital mövqeyə çıxarılmasına dair razılaşma əldə edildi. Telekommunikasiya peykinin hazırlanması məqsədilə elan edilmiş tenderin qalibi ABŞ-ın “Orbital Sciences Corporation” şirkəti, peykin orbitə buraxılması ilə bağlı raketdaşıyıcı şirkətin seçilməsi ilə bağlı tenderin qalibi isə Fransanın “Arianespace” şirkəti seçildilər.

Peyk vasitəsi ilə aşağıdakı xidmətlər həyata keçirilir: Transponder icarəsi: transponderin tam iş dövründə icarəsi, transponderin çevik əməliyyatlar zamanı icarəsi, qısa müddətli tutumdan istifadə; Televiziya yayımı: kanalların yayımı, peyk xəbərləri toplusu; Telekommunikasiya: çox kiçik apertura terminalı, uzaqdan əlaqə, peyk üzərindən İP; Yer səthinin məsafədən müşahidə edilməsi: ağ-qara şəkillərin çəkilməsi; rəngli (multispektral) şəkillərin çəkilməsi.

Fevralın 8-də Azərbaycanın müstəqillik tarixinin ən önəmli hadisələrindən biri yaşandı. Azərbaycan Respublikasının ilk telekommunikasiya peyki – “Azərspace-1” uğurla orbitə buraxıldı. Dövlət başçısı “Azərkosmos” ASC-nin yeni inzibati binasının açılışını da etdi. Prezident İlham Əliyev Azərbaycan Respublikasının ilk peyki – “Azərspace-1”in uğurla orbitə buraxılması münasibəti ilə xalqımıza xitabən etdiyi təbrikində deyirdi:

*“Bu gün ölkəmizin həyatında çox əlamətdar və tarixi bir gündür. Bu gün birinci Azərbaycan telekommunikasiya peyki orbitə çıxarıldı. Bu tarixi hadisə münasibətilə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bu, doğrudan da, tarixi bir gündür, böyük nailiyyətdir, dövlətimizin böyük qələbəsidir. Bu hadisə onu göstərir ki, müstəqil Azərbaycan dövləti sürətlə, hərtərəfli inkişaf edir və biz artıq kosmik klubun üzvüyük. Bu hadisə münasibətilə bu işdə iştirak etmiş bütün qurumlara, bütün insanlara, ilk növbədə Azərbaycan mütəxəssislərinə minnətdarlığımı bildirmək istəyirəm. Bu gün bu salonda əyləşən gənc mütəxəssislərimiz artıq peşəkar mütəxəssislərdir, bizim fəxrimizdirlər. Mən çox şadam ki, bu gözəl idarəetmə mərkəzində çalışan işçilərin böyük əksəriyyəti Azərbaycan vətəndaşlarıdır...*

*2008-ci ildə mənim tərəfimdən Azərbaycan peykinin orbitə çıxarılması haqqında qərar verilmişdir. 2009-cu ildə Dövlət Proqramı qəbul edilmişdir. 2010-cu ildə “Azərkosmos” Səhmdar Cəmiyyəti yaradılmışdır və artıq Azərbaycan kosmik klubun üzvünə çevrilmişdir...*

*Bu gün – 8 fevral 2013-cü il Azərbaycan tarixində qalacaqdır”* [6].

Azərbaycanda kosmik sənayenin yaradılmasının və peyklərin orbitə buraxılmasının böyük əhəmiyyəti vardır. İlk növbədə, informasiya mübadiləsinin xarici ölkələrdən asılılığının aradan qaldırılması və informasiya təhlükəsizliyinin təmin edilməsi, eyni zamanda ölkədə yeni iqtisadi sahələr üzrə mövcud insan ehtiyatları və intellektual potensialın inkişaf etdirilməsi, tam təchizatlı maddi texniki bazanın yaradılması, elmtutumlu yeni layihələrin həyata keçirilməsi və nəticə etibarilə innovasiya yönümlü iqtisadiyyatın formalaşdırılmasına təsir edir.

“Azərspace-1” peykinin istismara verilməsi Azərbaycan vətəndaşlarının gündəlik həyatında da öz müsbət təsirini göstərir. Belə ki, əgər əvvəllər bir sıra xarici ölkələrin peyklərindən yayımlanan televiziya kanallarını izləmək üçün adətən iki çanaq antenası və ya digər texniki avadanlıqlardan istifadə etmək məcburiyyətində qalan əhali artıq öz peykimizə istiqamətlənmiş bir çanaq antenasından istifadə edə bilir. Bu isə ilk növbədə vətəndaşlar üçün iqtisadi səmərəlilik təqdim edən əsas üstünlükdür. Peykin resurslarının 20 faizi Azərbaycanın tələbatını ödəmək üçün istifadə olunur, qalan 80 faizi isə dünya bazarlarına ixrac edilir. Buraxıldığı vaxtdan az sonra peykin resurslarının 40 faizinin satışı üçün şərti müqavilələr imzalanmışdır.

İnformasiya-kommunikasiya texnologiyalarının ölkə iqtisadiyyatında neftdən sonra ikinci əsas sahə elan olunduğu, bu sahənin iqtisadiyyatda xüsusi çəkisinin yüksələn xətlə inkişaf etdiyi və bu mənada peyk rabitəsinin xüsusi əhəmiyyət kəsb etdiyi nəzərə alındıqda, yaxın illərdə həyata keçirilməsi nəzərdə tutulan peyk layihələrinin yalnız siyasi və ya kommersial səciyyə daşımadığını, ölkənin uzunmüddətli inkişaf strategiyasına yönəldiyini göstərir.

**Milli peyk layihəsinin reallaşdırılması Azərbaycana bir sıra üstünlüklər verir.** Məlum olduğu kimi, hər hansı bir ölkədə kosmik sənayenin yaradılması ilk növbədə həmin ölkənin iqtisadi inkişafı və yüksək rifah səviyyəsi ilə bağlıdır. Azərbaycanın hazırkı inkişaf sürəti yeni bazar tələblərinə cavab verilməsi və ölkənin gələcəkdə dayanıqlı inkişafının təmin edilməsi baxımından iqtisadiyyatın şaxələndirilməsi və innovasiyaya əsaslanan yeni sənaye sahələrinin yaradılmasını zəruri edir.

İnformasiya və kommunikasiya texnologiyalarının geniş tətbiqi ölkənin hərtərəfli inkişafına xidmət etməklə yanaşı, informasiya sahəsində milli təhlükəsizliyin təmin olunması baxımından da xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan Respublikasının Avropa və Asiya qitələri arasında əlverişli geoiqtisadi, coğrafi, eləcə də informasiya magistrallarının kəsişdiyi məkanda yerləşməsi informasiya mübadiləsində xarici ölkələrdən asılılığının aradan qaldırılmasını zəruri edir.

Azərbaycanın dünya kosmik ailəsinə daxil olması son dərəcə qürurverici haldır. Ölkə sənayesinin gələcəyi

isə, heç şübhəsiz ki, müasir dünya trendlərinə cavab verən innovativ, elmtutumlu müəssisələrin yaradılması ilə bağlıdır. Respublikada informasiya-kommunikasiya texnologiyaları sürətlə inkişaf edir və böyük gələcəyə malikdir. Azərbaycanın yeni sənaye quruculuğu siyasətində bir sıra üstün istiqamətlər də müəyyənləşdirildi.

### *Birinci Avropa oyunlarının keçirilməsi və Azərbaycan standartının yaradılması*

Prezident İlham Əliyevin Azərbaycan tarixində yaratdığı möhtəşəm ilklərdən biri Birinci Avropa Oyunlarının keçirilməsi olmuşdur. İlk Avropa Oyunlarının keçirilməsinə dair məsələ 8 dekabr 2012-ci il tarixində Romada baş tutmuş Avropa Olimpiya Komitəsinin 41-ci Baş Assambleyasında müzakirə edildi. Baş Assambleya üzvləri arasında keçirilmiş gizli səsvermə nəticəsində 48 səsdən 38 səs ilə (əleyhinə 8 səs, bitərəf 2 səs) ilk Avropa Oyunlarının Bakıda keçirilməsi barədə qərar qəbul edildi. Ermənistan nümayəndələri səsvermədə iştirakdan imtina etdi. Bakıda keçiriləcək Birinci Avropa Oyunlarından məsul olan Təşkilat Komitəsi Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə quruldu. Komitəyə Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin İcraiyyə Komitəsinin üzvü, UNESCO-nun xoşməramlı səfiri Mehriban Əliyeva sədrlik etdi. Müxtəlif ölkələrin dövlət və hökumət başçılarının, nümayəndə heyətlərinin iştirak etdiyi və yüksək səviyyədə təşkil edilən açılış mərasimində qədim və zəngin Azərbaycan tarixi, mədəniyyəti, incəsənəti, ədəbiyyatı, turizm yerləri ən yaxşı şəkildə təqdim edildi. Avropanın gözü Azərbaycanda idi.

Qitənin 50 Milli Olimpiya Komitəsini birləşdirən Avropa Olimpiya Komitəsi tərəfindən yüksək səviyyədə keçirilən oyunlarda 50 ölkədən 20 idman növü üzrə 6000-dən çox idmançı yarışdı.

Yarışlara həm hazırlıq prosesində, həm də gedişində Avropa oyunlarının Azərbaycan standartı yaradıldı. Azərbaycana gələnlər ölkənin gözəlliklərini, xalqımızın qonaqpərvərliyini əyani olaraq gördülər. Birinci Avropa Oyunlarının keçirilməsi tariximizdə möhtəşəm ilk kimi özünə yer tutmuşdur.

### *Keçmiş prezidentlər haqqında qanunun qəbul edilməsi tariximizin ilki kimi*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə düşmənçilik, kin-küdurət yaddır. O, ona səs verənin də, verməyənin də prezidenti olmaqla Azərbaycan cəmiyyətinə yeni bir nəfəs gətirdi. Məhz onun hakimiyyətinin ilk 13 ilində keçmiş prezidentlər haqqında qanunun qəbul olunması ilə Azərbaycan cəmiyyətində yeni siyasi mədəniyyət bərqərar edildi. Keçmiş prezidentlər və onların ailələrinin statusu müəyyənləşdirildi. Bu da tariximizin qürurverici bir ilkidir.

* * *

Ümumiyyətlə, 2003-cü ildən sonrakı dövrün təhlili göstərir ki, Prezident İlham Əliyev Azərbaycan tarixində bundan sonrakı tariximizdə daim yaşayacaq bir sıra möhtəşəm ilklərə imza atmışdır. Azərbaycan millətivə dövlətinə başucalığı və qürur gətirən bu ilklərə daim müraciət ediləcək və onlardan öyrəniləcəkdir.

**Ədəbiyyat:**


1. Azərbaycan Respublikasının Baş Naziri İlham Əliyevin BMT Baş Məclisində çıxışı. 24.09.2003. – "Azərbaycan" qəzeti, 2003, 26.09.2003, №222(3535).
2. Azərbaycan Respublikasının sədrliyi ilə Nyu-Yorkda BMT Təhlükəsizlik Şurasının iclasında Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı. 04.05.2012. – "Azərbaycan" qəzeti, 06.06.2012, №99(6080).
3. Azərbaycan Respublikasında kosmik sənayenin yaradılması və telekommunikasiya peyklərinin orbitə çıxarılması haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı. 04.11.2008. – "Azərbaycan" qəzeti, 05.11.2008, №247 (5058).
4. Azərbaycan Respublikasında kosmik sənayenin yaradılması və inkişafı üzrə Dövlət Proqramının təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı. 17 avqust 2009-cu il. – "Azərbaycan" qəzeti, 18.08.2009, №181 (5285).
5. "Eurovision-2012" mahnı müsabiqəsinin Bakı şəhərində keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı. 19.05.2011. – "Azərbaycan" qəzeti, 30.05.2012, №117 (6098).
6. Prezident İlham Əliyev Azərkosmos ASC-nin binasında prosesi izləmişdir: Prezident İlham Əliyevin təbriki. – "Xalq qəzeti", 09.02.2013, №30.


**Açar sözlər:** *İlham Əliyev, Azərbaycan, ilklər, BMT Təhlükəsizlik Şurası, Kosmos klubu, Birinci Avropa Oyunları*

**Ключевые слова:** *Ильхам Алиев, Азербайджан, первенцы, Совет Безопасности ООН, клуб "Космос", Первые Европейские Игры*

**Key words:** *Ilham Aliyev, Azerbaijan, the firsts, the UN Security Council, the club "Cosmos", First European Games*

**Муса Гасымлы**

***Депутат Милли Меджлиса Азербайджанской Республики***
***Директор Института Кавказоведения НАНА, профессор***

## ПРЕЗИДЕНТ ИЛЬХАМ АЛИЕВ И ПЕРВЕНСТВА АЗЕРБАЙДЖАНСКОЙ ИСТОРИИ

### РЕЗЮМЕ

С избранием Ильхама Алиева Президентом Азербайджанской Республики в 2003 году начался качественно новый этап в истории страны. Своей широкой деятельностью он отличился рядом первенств в истории независимости Азербайджана. Азербайджанская Республика стала членом Совета Безопасности ООН, со страны, берущей в долг, превратилась в страну, отдающую долг, и экспортера капитала. С проведением Первых Европейских Игр был образован азербайджанский стандарт и др. В результате проведенных этих мероприятий Азербайджанская Республика стала конкурентоспособной страной.

**Musa Gasimli**

***Member of the Milli Mejlis of the  Azerbaijan Republic,***
***Deputy of the Milli Medjlis, Director of Institute for Caucasian Studies of ANAS, Professor***

## THE PRESIDENT ILHAM ALIYEV AND THE FIRSTS OF AZERBAIJANI HISTORY

### SUMMARY

The next stage in Azerbaijani history started after the election of Ilham Aliyev as a President of the Republic of Azerbaijan in 2003. His activity is remarkable for the range of the firsts in the history of independent Azerbaijan. The country was appointed a member of the UN Security Council, and has turned from the country to borrow to the exporting country. The first European Games impacted on the establishment of national standard, due to the projects Azerbaijan became a competitive country.

**ELMAN NƏSİROV**

***Azərbaycan Respublikası Milli Məclisinin deputatı,***
***Azərbaycan Respublikasının Prezidenti yanında***
***Dövlət İdarəçilik Akademiyasının***
***Siyasi Araşdırmalar İnstitutunun direktoru,***
***siyasi elmlər doktoru, professor***

# AZƏRBAYCAN RESPUBLİKASININ BEYNƏLXALQ SİYASƏTİ VƏ TƏHLÜKƏSİZLİK MƏSƏLƏLƏRİ

Dünyanın xəritəsi XX əsrin sonunun geosiyasi reallıqlarına uyğun olaraq yeni müstəqil dövlətlər hesabına xeyli zənginləşmişdir. Bu müstəqil dövlətlərdən biri də Azərbaycan Respublikasıdır.

Yaranış tarixini 1991-ci ilin 18 oktyabr hadisəsindən – Müstəqillik haqında Konstitusiya Aktından götürən Azərbaycan Respublikası 23 ay hakimiyyətdə olmuş (1918/28 may – 1920/28 aprel) Azərbaycan Xalq Cümhuriyyətinin varisidir. Azərbaycan Respublikası bu il müstəqilliyinin 25 illik yubileyini qeyd edir. Bu 25 il ərzində ölkəmiz böyük, şərəfli və eyni zamanda mürəkkəb bir inkişaf yolu keçmişdir. Bu yazıda həmin yolun beynəlxalq aləmlə əməkdaşlıq kontekstində təhlükəsizlik məsələləri ilə bağlı hissəsi haqqında təhlillər aparmaq, elmi nəticə və qənaətlərimizi paylaşmaq niyyətindəyik.

90 il çar Rusiyası (1828–1918) və 71 il (1920–1991) sovet imperiyası tərkibində mövcud olmuş Azərbaycan müstəqillik əldə etdikdən sonra 161 illik işğal rejimindən miras qalmış çoxsaylı problemlərlə üzləşməli oldu. Siyasi, iqtisadi və sosialyönümlü mürəkkəb problemlərin həlli axtarışında olan Azərbaycan dövləti daha bir imtahanla da sınağa çəkildi. Bu, Ermənistanın Azərbaycan ərazisinə genişlənməkdə olan təcavüzü ilə bağlı idi.

Bundan savayı, hakimiyyətdə olan Müsavat-AXC cütlüyünün mövcud şəraitə adekvat olmayan məqamda "Cənubi Azərbaycan" problemini qaldırması nəticəsində İranla da münasibətlər son dərəcə kəskinləşdi. Bu siyasətin nəticəsində faktiki olaraq Azərbaycan həm şimaldan, həm də cənubdan ağır təzyiq altına düşdü. ABŞ Konqresi isə Azərbaycanı dövlət səviyyəsində hər cür yardımdan məhrum edən "907-ci əlavə"ni qəbul etdi.

Bu şəraitdə dövlətçiliyimiz üçün ən təhlükəli proses separatizm və onun nəticəsində ərazi bütövlüyümüzün növbəti dəfə pozulması təhlükəsi ilə bağlı idi. Erməni işğalçılarının aramsız hücumları, Cənubda "Talış Muğan Respublikası"nın elan edilməsi, şimalda "Sadval" təşkilatının ərazi iddiaları və Gəncədə Surət Hüseynova məxsus hərbi hissənin üsyan etməsi həmin dövrdə ölkəmizin dəhşətli siyasi kataklizmlər mərhələsində olduğunu bir daha təsdiqləyir. Əslində respublikamız real vətəndaş müharibəsi astanasına idi. Ölkədə hakimiyyətsizlik və xaos hökm sürürdü.

Yalnız ümummilli lider Heydər Əliyevin 1993-cü ildə xalqın tələbi və xahişi ilə hakimiyyətə tarixi qayıdışından sonra hədəfinə çevrildiyimiz bu ağır problemlər öz həllini tapmağa başladı. Lakin bu prosesin özü də hamar yol ilə getmədi. 1994-cü ilin oktyabr və 1995-ci ilin mart aylarında Azərbaycanın müstəqilliyini istəməyən xarici qüvvələrin himayəsi ilə respublikamızda dövlət çevrilişlərinə cəhdlər edildi. Prezident Heydər Əliyevlə xalqın sarsılmaz birliyi bu sınaqlardan da uğurlu çıxışı təmin etdi. Zəmanəmizin dühası olan Heydər Əliyev xalqımızın və dövlətçiliyimizin tarixində, əgər bir sözlə ifadə etmək mümkünsə, məhz Xilaskar missiyasını yerinə yetirdi.

Burada bir haşiyə çıxmaq istəyirik. Məlum olduğu kimi, 1997-ci ildə Prezident Heydər Əliyevin ABŞ-a ilk rəsmi səfəri zamanı ona bu dövlətin ən məşhur 4 prezidentindən biri olan (C.Vaşinqton, T.Cefferson F.D.Ruzveltlə birlikdə) Avraam Linkolnun büstü bağışlanmışdı. Bu, təsadüfi olmayıb, rəmzi mənası olan bir hadisə idi. Prezident A.Linkoln ABŞ-ın bütövlüyünün qorunması naminə separatçı Cənub ştatları ilə mübarizə aparmalı olmuş və nəticədə ölkə miqyasında 600 mindən artıq itkilərin verilməsinə baxmayaraq, dövlətçiliyin məhvinin qarşısını ala bilmişdi. Amerikalılar indiyədək seçdikləri bütün prezidentlər içərisində yalnız 4-nə heykəl qoyublar. Həmin prezidentlərdən biri də məhz A.Linkolndur. Zənnimizcə, amerikalıların Heydər Əliyevlə Avraam Linkoln arasında paralel aparmalarının motivi gün kimi aydındır. Hər ikisi öz xalqları və dövlətlərinin Xilaskarıdırlar.

Yuxarıda sadalanan mürəkkəb problemlərin həlli məqsədilə Heydər Əliyev təkcə düzgün daxili siyasət kursunu deyil, həm də onun davamı və tamamlanması olan uğurlu xarici siyasət strategiyasını müəyyənləşdirdi. Bu yazıda balanslı və çoxvektorlu xarici siyasət kursu kimi xarakterizə olunan həmin siyasətin prioritet istiqamətləri olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi məsələləri və enerji təhlükəsizliyi haqqında bəhs edəcəyik.

Bu, bir həqiqətdir ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli Heydər Əliyevin memarı olduğu xarici siyasət kursunda başlıca yer tuturdu. Bu məqsədlə ulu öndər Heydər Əliyev 1993-cü ildə hakimiyyətə tarixi qayıdışından sonra münaqişənin həllinə nail olmaq üçün ikitərəfli formatda keçirdiyi çoxsaylı görüşlərdə, beynəlxalq forumlarda, ATƏT-in zirvə tədbirlərində, Minsk qrupunun həmsədrləri ilə aparılan müzakirələrdə, həmçinin Ermənistan prezidenti ilə təkbətək danışıqlarda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tarixi və mahiyyəti, onun törətdiyi nəticələr haqqında təkzibedilməz faktları və arqumentləri ortaya qoymuş, münaqişənin əzəli və tarixi Azərbaycan torpağı olan Dağlıq Qarabağı ilhaq edib özünə birləşdirməyə çalışan Ermənistanın Azərbaycana ərazi iddiaları nəticəsində yarandığını bəyan etmişdir. Həmin dövrdə keçmiş Sovet İttifaqının rəhbərliyinin Azərbaycana qarşı ədalətsiz və qərəzli mövqeyi nəticəsində münaqişə dərinləşərək müharibəyə çevrilmişdir. Aqressiv siyasətinə münasibətdə cəzasızlıq mühitindən şirniklənən və beynəlxalq ictimaiyyətin seyrçi mövqeyindən ruhlanan erməni silahlı birləşmələri ən müasir silahlardan istifadə edərək 1992-ci ilin fevral ayında Azərbaycanın Dağlıq Qarabağ bölgəsində 613 nəfərin qətli ilə nəticələnən Xocalı soyqırımını həyata keçirdi. 1992-ci ilin mayında isə bu hücumlar Şuşanın, sonra da Laçının işğalı ilə nəticələndi. Nəticə etibarilə erməni silahlı qüvvələri təkcə Dağlıq Qarabağı deyil, ətrafındakı rayonları da işğal etməyə başladı. BMT-nin Təhlükəsizlik Şurasının 822, 853, 874, 884 nömrəli qətnamələrində erməni silahlı birləşmələrinin Azərbaycan torpaqlarından dərhal və qeyd-şərtsiz çıxarılması və qaçqınların öz doğma yerlərinə qaytarılması tələb olunsa da, bu sahədə beynəlxalq ictimaiyyətin səylərinə və çağırışlarına məhəl qoymayan erməni silahlı birləşmələri Azərbaycan rayonlarını işğal etməkdə davam etdi. (1, s.844) 1993-cü ilin aprelindən başlayaraq bir neçə ay ərzində Kəlbəcər, Ağdam, Cəbrayıl, Qubadlı, Füzuli, Zəngilan işğal olundu. Onu da xüsusi olaraq qeyd edək ki, işğal prosesi dövründə Ermənistan faktiki olaraq heç bir dövlət tərəfindən təcavüzkar kimi tanınmamışdı. Yalnız 1993-cü ilin aprel ayında Pakistanın Kəraçi şəhərində İslam Konfransı Təşkilatının 21-ci konfransında Ermənistanın təcavüzkar dövlət olduğu bəyan edildi. (5, s.132) O zamankı Azərbaycan rəhbərliyinin antimilli siyasətindən, ölkədə baş verən hərc-mərclik və xaosdan istifadə edən Ermənistan Azərbaycanın əzəli torpaqları olan Dağlıq Qarabağda qeyri-qanuni hakimiyyət strukturlarını yaratmağa başladı. Nəticədə Dağlıq Qarabağ separatçıların və Ermənistan silahlı qüvvələrinin tam hərbi nəzarəti altına düşdü. Bu acı reallıqlar fonunda, yuxarıda qeyd etdiyimiz kimi, xalqın təkidli xahişi və tələbi ilə hakimiyyətə qayıdan Heydər Əliyev ölkədə baş qaldırmış separatçı qüvvələri, Azərbaycan dövlətçiliyinə, müstəqilliyinə, ərazi bütövlüyünə qəsdlər törədən cinayətkar qrupları zərərsizləşdirdi, ölkədaxili ictimai-siyasi sabitliyi, dövlət ilə xalqın birliyini, yekdilliyini təmin etdi. Nizami ordu quruculuğu prosesi dönməz xarakter aldı. Nəticələr çox da özünü gözlətmədi. Nizami Azərbaycan ordusunun cəbhə boyu həyata keçirdiyi uğurlu hərbi əməliyyatlar münaqişənin tənzimlənməsi prosesində Ermənistanın tutduğu ənənəvi güzəştsiz mövqeni sarsıtdı. Ermənistan cəbhədə atəşkəsin elan edilməsinə razılıq verməyə məcbur oldu. Məhz ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə, 1994-cü ilin may ayının 12-də atəşkəs haqqında tarixi razılaşma əldə olundu, münaqişənin sülh yolu ilə tənzimlənməsi üçün ilkin şərait yarandı. Nəticədə 1992-ci ilin mart ayında 11 dövlətin iştirakı ilə yaradılmış və missiyası Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində vasitəçilik olan ATƏT-in Minsk qrupu çərçivəsində sülh danışıqları intensiv xarakter almış oldu. (4, s.67) Konkret qərarlar qəbul edildi. 1994-cü ilin dekabrında ATƏM-in Budapeştdə keçirilən Zirvə görüşündə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar ATƏM-in fəaliyyətinin intensivləşdirilməsi barədə qərar qəbul olundu. ATƏM dövlətlərinin başçıları nizamlamanın mərhələli xarakterini müəyyən edərək və ATƏM-in Minsk Konfransının həmsədrlərinə silahlı münaqişənin dayandırılması barədə saziş hazırlamağı tapşırdı. Saziş bütün tərəflər üçün münaqişənin əsas nəticələrinin aradan qaldırılmasını özündə əks etdirməli və Minsk Konfransının çağırılması üçün əsas olmalı idi. Münaqişə zonasında sülhün təmin edilməsi üçün ATƏM-in çoxmillətli qüvvələrinin yerləşdirilməsi barəsində də ayrıca qərar qəbul olundu. ATƏT-in 1994-cü il Budapeşt, 1996-ci il Lissabon və 1999-cu il İstanbul sammitlərində münaqişənin dinc və siyasi yollarla həlli istiqamətində bir sıra mühüm təkliflər irəli sürüldü. Xüsusilə 1996-cı ildə ATƏT-in Lissabon Zirvə görüşü zamanı Heydər Əliyevin siyasi uzaqgörənliyi və qətiyyəti sayəsində Azərbaycanın mövqeyi Ermənistan istisna olmaqla, dünyanın 53 dövləti tərəfindən qəbul edildi, (1,s.848) tanındı və müdafiə olundu. Ümummilli lider Heydər Əliyevin münaqişənin aradan qaldırılması sayəsindəki titanik fəaliyyətinin göstərici olaraq bəzi faktlara istinad etmək yerinə düşərdi. Belə ki, 1993-2000-ci illər ərzində ulu öndər Heydər Əliyev ATƏT rəhbərliyi və Minsk qrupunun təmsilçiləri ilə 130-dan çox görüş keçirmişdir. Heydər Əliyev 1993-cü ildən 2001-ci ilədək 68 ölkənin prezidenti və dövlət başçısı ilə 485 görüş keçirmişdir. Bu görüşlərin hamısında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi müzakirə olunmuşdur. Konkret rəqəmlərlə ifadə etsək, Heydər Əliyev ABŞ-ın prezidenti, xarici işlər naziri ilə bu məsələni 18, Fransa rəhbərləri ilə 16, Rusiya ilə 23, Türkiyə rəhbərləri ilə 78 dəfə müzakirə etmişdir. BMT-nin baş katibləri ilə onlarca görüş olmuşdur, NATO-nun, Müstəqil Dövlətlər Birliyinin Zirvə görüşlərində, İslam Konfransı Təşkilatının iki, İqtisadi Əməkdaşlıq Təşkilatının dörd Zirvə görüşündə, türkdilli ölkələrin dövlət başçılarının Zirvə görüşlərində

hər dəfə ulu öndər Heydər Əliyev Ermənistan-Azərbaycan münaqişəsini gündəliyə çıxarmışdır. Məlum olduğu kimi, ATƏT-in Lissabon Zirvə görüşündən sonra Minsk qrupunun həmsədrləri dünyanın üç ən böyük dövləti – Rusiya, ABŞ, Fransa oldu. Məhz bu dövlətlər həmsədrlər olaraq Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinə dair geniş ictimaiyyətə açıq olan üç təkliflə çıxış etmişlər. Onların 1997-ci ilin iyununda təqdim etdikləri ilk təklif münaqişənin paket həllini, 1997-ci ilin oktyabrında verdikləri ikinci təklif isə münaqişənin mərhələli həllini nəzərdə tuturdu. Əgər əvvəlcə erməni tərəfi münaqişənin paket həlli variantı ilə razılaşmırdısa, sonradan Ermənistanın o vaxtkı prezidenti Levon Ter-Petrosyan mərhələli nizamlama planı əsasında münaqişənin həll edilməsi barədə təklifi qəbul etdi. Lakin erməni fitnəsi bu planın gerçəkləşdirilməsinə imkan vermədi, qısa zaman ərzində L.Ter-Petrosyan istefa ərizəsi yazmağa məcbur edildi. 1998-ci ilin noyabrında həmsədrlər yeni, üçüncü təklif – "ümumi dövlət" təklifini verdilər. (2, s.247) Nəhayət, 1999-cu ilin aprelindən başlayaraq, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması istiqamətində yeni bir format yaranıb və o, öz fəaliyyəti ilə əslində ATƏT-in Minsk qrupunun işini tamamlayır. Bu, Azərbaycan və Ermənistan prezidentlərinin birbaşa dialoqudur. (4, s.242) Ulu öndər Heydər Əliyevin Ermənistan Prezidenti Robert Koçaryan ilə Cenevrədə, Moskvada, İstanbulda, Parisdə, Minskdə, Davosda, Yaltada, Soçidə, habelə respublikamızın sərhədində çoxsaylı görüşləri olmuşdur. Obyektivlik naminə onu da qeyd edək ki, 1999-cu ilin axırlarında prezidentlər kompromis əldə edilməsinə heç zaman olmadığı səviyyədə yaxın idilər. Lakin rəsmi İrəvanın növbəti təxribatçı hərəkətləri sülh razılaşması üçün yaranmış kövrək imkanların qarşısına sədd çəkdi. Beləliklə, münaqişənin həlli ilə bağlı prosesdə pauza yaranmış oldu. Həmim pauzaya Azərbaycan Respublikası strateji məzmun verdi. Dövlətimiz bütün parametrlər üzrə, o cümlədən hərbi baxımdan daha da möhkəmləndi. Bu missiyanı Prezident İlham Əliyev uğurla reallaşdırdı.

Bu, bir həqiqətdir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ümummilli lider Heydər Əliyevin müəllifi olduğu coxvektorlu və balanslı xarici siyasət kursunu sürətlə dəyişən dünyanın geosiyasi reallıqlarına adekvat olaraq çevik, innovativ və hücum taktikasına əsaslanmaqla davam etdirir. Milli dövlətçilik maraqlarının müdafiəsi həm ikitərəfli, həm də çoxtərəfli formatda həyata keçirilən bu siyasətin başlıca məzmununu təşkil edir. Həmin siyasətin uğurunu təmin edən çoxsaylı parametrlər sırasında birinci mövqedə dayanan amil Prezident İlham Əliyevin beynəlxalq siyasətin aktoru statusuna yüksəlməsi reallığı ilə bağlıdır. Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin təbirincə desək, Prezident İlham Əliyev dünya siyasətinə təsir gücünə malik beynəlxalq aktor statusunda dövlət başçısıdır. Bu statusuna tam adekvat olaraq İlham Əliyev həm daxili, həm də xarici siyasət kursunun həyata keçirilməsi prosesində dərin zəka, iti fəhm, analitik və innovativ düşüncə tərzi, sistemli analiz qabiliyyəti, prinsipiallıq və qətiyyət nümayiş etdirir. Hər dövlət başçısına nəsib olmayan bu unikal şəxsi keyfiyyətlərin daşıyıcısı olan Prezient İlham Əliyev harada çıxış etməsindən və mövqe bildirməsindən asılı olmayaraq, şahmat dili ilə desək, həmişə ağ fiqurlarla oynayır və artıq start vəziyyətində qarşı tərəf və ya tərəflər üzərində ilkin üstünlüyünü təmin etmiş olur. Həmin "siyasi şahmat lövhəsi"ndə siyasət qrossmeysterinin – Prezident İlham Əliyevin rəqibinə "mat" elan etməsi labüddür. Bu sırf zaman məsələsidir. Dəfələrlə bu həqiqətin şahidi olmuşuq. Bu yanaşma tərzi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll olunması prosesinə münasibətdə də istisna təşkil etmir. Bu gün dünyada "güclü haqlıdır" məntiqinin işlədiyini nəzərə alaraq, Prezident İlham Əliyev davamlı şəkildə güclənmək xəttini daha da möhkəmləndirdi. Yalnız bu halda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli missiyasını üzərinə götürən ATƏT-in Minsk qrupunun ədalətin bərpasına yönəlik siyasətinin formalaşmasına ümid bəsləmək olar. Hal-hazırda isə bu qurumun fəaliyyəti sanki münaqişəni həll etməyə deyil, onun müharibəyə çevrilməsinin qarşısını almağa yönəlmişdir. Elə Minsk qrupu bu fəaliyyəti ilə də məlum "aprel döyüşləri"nədək öyünürdü. "Aprel döyüşləri" bu illüziyanı alt-üst etdi. Məlum olduğu kimi, Azərbaycan ordusu cari ilin 2-5 aprel tarixlərində Ermənistan silahlı qüvvələrinin növbəti hərbi avantürasının qarşısını əks-həmlə ilə aldı və düşmənə sarsıdıcı zərbələr endirdi. 4 günlük hərbi əməliyyatlarda qoşunlarımız mövqe üstünlüyünü təmin etmiş oldu. Prezident İlham Əliyev dəfələrlə qeyd etmişdir ki, "Azərbaycan ordusu dünyanın ən güclü orduları sırasınadır. Güclənən Azərbaycan və qüdrətli Azərbaycan Ordusu, qəhrəman Azərbaycan əsgəri onlar üçün daim qorxu mənbəyidir və bu qorxunu aradan qaldırmaq üçün, sadəcə olaraq, Ermənistan beynəlxalq hüquq normalarına əməl etməlidir və işğal edilmiş torpaqlardan qeyd-şərtsiz çıxmalıdır". Ermənistan tərəfi bu fikirlərə uzun müddət ərzində bir təbliğat kampaniyasının tərkib hissəsi kimi yanaşırdı. Elə bu məntiqlə də aprelin 1-dən 2-nə keçən gecə növbəti hərbi avantüraya əl atdı və layiqli cavabını aldı. Ermənistanın Azərbaycanla dövlət sərhədində və qoşunların təmas xəttində törətdiyi növbəti hərbi insident Azərbaycan ordusunun qüdrətini və sarsılmaz döyüş ruhunu, erməni ordusunun isə acizliyini və zəifliyini nümayiş etdirdi. Ən müasir hərbi texnika və silahlarla təchiz edilmiş, yüksək vətənpərvərlik ruhuna malik ordumuzun 4 gün ərzində düşməni əkshücumu ilə darmadağın etməsi cənab Prezidentin yuxarıda qeyd olunan fikirlərinin tam həqiqəti əks etdirdiyini bir daha təsdiqlədi. Əslində, müharibə davam etməkdə idi, sadəcə onu aktiv hərbi fazasında atəşkəs mövcud idi. Ermənistanın silahlı qüvvələrinin cəbhə

bölgəsində atəşkəsi mütəmadi olaraq pozması, aprel ayının əvvəlində geniş hərbi insident törətməsi müharibənin istənilən anda başlanmasının mümkünlüyünün göstəricisidir. 1992-ci ilin mart ayında yaradılmış və münaqişənin tənzimlənməsində vasitəçi missiyasını yerinə yetirən ATƏT-in Minsk qrupu isə permanent atəşkəsdə israrlıdır. Ermənistan da eyni müvəffəqiyyətlə həmin israrları davamlı olaraq qulaqardına vurmaqda davam edir. Yeri gəlmişkən, ATƏT-in Minsk qrupunun nəticə baxımından bir çox hallarda fəaliyyətsizlik kimi təsir bağışlayan "fəaliyyəti"nin də bu ilin mart ayında "24 yaşı" tamam olmuşdur.

Münaqişənin tənzimlənməsində maraqlı olduğunun görüntüsünü yaratmaq və növbəti dəfə beynəlxalq ictimai fikri aldatmaq məqsədi ilə Ermənistan prezidenti Serj Sarkisyan Azərbaycan Prezidenti İlham Əliyevlə 2008-ci ilin iyun ayında Sankt-Peterburqda, noyabr ayında Moskvada, 2009-cu ilin yanvar ayında Sürixdə, may ayında Praqada, iyun ayında Sankt-Peterburqda, iyul ayında Moskvada, oktyabr ayında Kişinyovda, noyabr ayında Münhendə, 2010-cu ilin yanvar ayında Soçidə, iyun ayında Sankt-Peterburqda, oktyabr ayında Həştərxanda və 2011-ci ilin mart və 2012-ci ilin yanvar ayında yenidən Soçidə, 2013-cü ilin noyabr ayında Vyanada və 2014-cü ilin avqust ayında Soçidə və sentyabr ayında Nyuportda, oktyabr ayında Parisdə, 2015-ci ilin dekabr ayında Berndə, 2016-cı ilin may ayında Vyanada, iyun ayında isə Sankt-Peterburqda görüşsə də, tutduğu ənənəvi qeyri-konstruktiv mövqe ucbatından problemin həllində real nəticə hasil olmamışdır. (6)

Regionda baş verən proseslərin mənfi inkişaf tendensiyasına baxmayaraq, Azərbaycan tərəfi münaqişənin tənzimlənməsi ilə bağlı ATƏT-in Minsk qrupunun 2004-cü ildə start verdiyi "Praqa prosesinə" sadiqdir. Bu proses çərçivəsində münaqişənin "mərhələli həll" yolu ilə tənzimlənməsi nəzərdə tutulmuşdur. Bu prosesin davamı olaraq 2007-ci ilin noyabr ayında ATƏT-in Minsk qrupu münaqişənin həlli ilə bağlı "Madrid prinsipləri"ni irəli sürmüşdür. Azərbaycan və Ermənistan tərəfləri bir neçə dəfə bu prinsiplərlə bağlı təkliflərini irəli sürmüş və son nəticədə sənədin yeni variantı 2009-cu ilin dekabr ayında hazırlanaraq münaqişə tərəflərinə təqdim olunmuşdur. Sənədə əsasən, münaqişənin tənzimlənməsi prosesinin birinci mərhələsində Dağlıq Qarabağın hüdudlarından kənarda işğal altında olan 7 Azərbaycan rayonunun (Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı və Laçın) azad olunması, məcburi köçkünlərin öz yurd-yuvasına qaytarılması, bölgədə beynəlxalq sülhməramlıların yerləşdirilməsi, ərazilərin minalardan təmizlənməsi, kommunikasiyaların bərpası və iki xalqın təhlükəsizlik şəraitində yaşamasını təmin edən digər addımların atılması nəzərdə tutulmuşdur. Yalnız növbəti mərhələdə Dağlıq Qarabağın statusunun müəyyənləşdirilməsi məsələsinə baxılacağı sənəddə əks olunmuşdur. Konfidensial xarakterli "Madrid prinsipləri"ndən geniş ictimaiyyət üçün məlum olan müddəaları bunlardan ibarətdir.

Azərbaycan tərəfinin münaqişənin həlli yolları ilə bağlı mövqeyi dəyişməzdir. Həmin mövqe Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən dəfələrlə bəyan edilibdir. Həmin mövqeyə görə, Azərbaycan dövləti münaqişənin beynəlxalq hüquq prinsipləri əsasında, ölkəmizin ərazi bütövlüyü çərçivəsində və Dağlıq Qarabağın ermənilərinə respublikamızın hüdudları daxilində ən yüksək muxtariyyət statusu verilməsi yolu ilə həllini dəstəkləyir. Azərbaycan üçün bu çərçivədən kənarda hər hansı bir həll yolu qəbuledilməzdir. Prezident İlham Əliyev Nazirlər Kabinetinin 9 aprel tarixli iclasında bu məsələyə bir daha xüsusi diqqət ayıraraq vurğuladı ki, "məsələnin həlli çox sadədir – erməni silahlı birləşmələri işğal edilmiş torpaqlardan çıxmalıdır, Azərbaycan vətəndaşları öz doğma torpaqlarına qayıtmalıdırlar, ondan sonra regionda sülh və təhlükəsizlik yarana bilər. O ki qaldı xalqların öz müqəddəratını təyin etməsi prinsipinə, bu prinsip ölkələrin ərazi bütövlüyünü pozmamalıdır və Helsinki Yekun Aktında məhz bu ifadələr öz əksini tapır. Bütün münaqişələr ölkələrin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır". Münaqişənin həlli ilə bağlı bu yanaşma tərzi Azərbaycanın prinsipial mövqeyinin ifadəsidir.

Obyektivlik naminə onu da qeyd edək ki, Ermənistan-Azərbaycan silahlı qüvvələrinin təmas xəttində baş vermis son hadisələr, xüsusilə də "aprel döyüşləri" ATƏT-in Minsk qrupunu da hərəkətə gətirmişdir. Bu prosesdə həmsədrlərdən biri olaraq Rusiya daha fəal siyasət yerinə yetirir. Son hərbi əməliyyatların gedişində Rusiyanın müdafiə və xarici işlər nazirlərinin münaqişə tərəflərindəki həmkarları ilə telefon danışıqları aparması, bunun ardınca Rusiyanın Xarici İşlər naziri Sergey Lavrovun Bakıya səfər etməsi və yüksək səviyyəli görüşlər keçirməsi, bu ölkənin Baş naziri Dmitri Medvedevin Ermənistana və Azərbaycana işgüzar səfərlər etməsi, Moskvada Azərbaycan və Ermənistanın Baş Qərargah rəislərinin görüşünün təşkil edilməsi və həmin görüşdə 5 aprel tarixindən etibarən atəşkəs haqqında razılaşmanın əldə edilməsi və nəhayət, Prezident Vladimir Putinin təmas xəttində baş verən hərbi insidentdən narahatlığını ifadə edərək Pezident İlham Əliyevə və Serj Sarkisyana telefon zəngi etməsi həmin fəallığın göstəricisi hesab oluna bilər. Düzdür, həmsədr ölkələr ATƏT-in Minsk qrupunun strukturunda hər hansı dəyişikliyi hələ ki, istisna edirlər. Artıq yeni reallıqda iki yol vardır. Ya ATƏT-in Minsk qrupu indiyədək davam etdirdiyi passiv vasitəçilik missiyasından imtina edib, münaqişənin həlli ilə bağlı yaranmış yeni şəraiti düzgün qiymətləndirərək fəal tənzimlənmə hərəkətlərinə keçməlidir və bu prosesə ilkin olaraq özündə islahatlarla başlamalıdır, ya da uğursuzluğunu etiraf edib, özünü buraxmalıdır. Zənnimizcə, 24 illik fəaliyyətindən (fəaliyyətsizliyindən) sonra ATƏT-in Minsk qrupunun yuxarıda göstərdiyimiz hər hansı yolu

seçməsindən asılı olmayaraq qətiyyət göstərməsinin vaxtı gəlib çatmışdır.

Beləliklə, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli potensialı və mövcud reallıqları kontekstində apardığımız təhlillər bir sıra nəticələrə gəlməyə imkan verir. Zənnimizcə, münaqişənin həllinin 3 variantı vardır. Birinci 2 variant dinc, sonuncu variant isə hərbi həll imkanlarını özündə ehtiva edir.

I variant – Ermənistanda S.Sarkisyan rejimi öz işğalçılıq siyasəti nəticəsində üzləşdiyi total və permanent böhran vəziyyətindən çıxmaq üçün siyasi iradə nümayiş etdirərək Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində konkret konstruktiv adımlar ata bilər. Nəticədə danışıqlar prosesində keyfiyyətcə yeni mərhələnin əsası qoyular və qarşılıqlı kompromislər əsasında münaqişənin həlli prosesi həyata keçirilər. Başqa sözlə, Azərbaycanın tərkibində Dağlıq Qarabağa ən yüksək idarəetmə statusu verilə bilər.

S.Sarkisyan hökuməti konfliktin həlli naminə siyasi iradə nümayiş etdirmək iqtidarında deyildir, çünki bu rejimin müvafiq addımları atmaq üçün ciddi sosial bazası yoxdur. Xalqı səfalət, işsizlik və aclıq həddində yaşayan dövlətin iqtidarının bu vəziyyətdə totalitar-terrorçu idarə metodlarına üstünlük verməsi siyasəti anlaşılandır. Bu siyasətin mühüm həlqələrindən birini də ölkədaxili ictimai fikri öz üzücü gündəlik problemlərindən yayındırmaq və onu kənar istiqamətlərə yönəltmək təşkil edir. Belə hallarda cəbhə bölgəsində atəşkəs rejimini kobud şəkildə pozmaqla Azərbaycan tərəfini daha ciddi adekvat addımlar atmağa təhrik etmək və nəticədə ölkədaxili deyil, ölkəxarici problemlərin prioritetliyini qabartmaq hakimiyyətin mövcudluğunu qoruyub saxlamağın Ermənistanda dəfələrlə sınaqdan çıxarılmış üsuludur.

II variant – Ermənistan dövləti beynəlxalq birlik, xüsusilə də ATƏT-in Minsk qrupu tərəfindən sülhə məcbur edilə bilər. Regionda sülh və sabitlik naminə, xüsusilə də daşıyıcısı olduqları milli maraqlardan çıxış edərək həmsədrlər – ABŞ, Rusiya və Fransa S.Sarkisyan rejiminə müəllifi olduqları yeniləşmiş Madrid prinsiplərini qəbul etdirə bilərlər. Xüsusilə bu istiqamətdə Rusiyanın imkan və potensialı daha böyükdür. Hələ ki, bu baş vermir. Bu, heç də o demək deyildir ki, həmin güclər Ermənistanın müqavimət potensialını qıra bilmirlər. Əsla yox. Sadəcə bu və ya digər səbəblərdən bunu etmirlər. Bəs onlar hansılardır?

Əvvəla, Rusiyanın 2012-ci ildə qəbul etdiyi yeni xarici siyasət konsepsiyasında məhz MDB məkanı birinci prioritet istiqamət kimi göstərilməsi təsadüfi sayılmamalıdır. Rusiya bu addımı ilə əslində bu regionda inhisarçı mövqedə olduğunu opponentlətinə çatdırmışdır. Deməli, bu yanaşma tərzi münaqişələrin həllində də məhz Rusiyanın inhisarçı mövqeyə malik olduğunu ön plana çəkir. Rəsmi Moskva Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində maraqlı tərəf olduğunu konkret əməli addımları ilə sübut edə biləcək addımlar atmamışdır.

ABŞ münaqişənin həllində maraqlıdır. Bu dövlətin geopolitik, xüsusi olaraq isə enerji təhlükəsizliyi maraqlarını nəzərə aldıqda bu qənaətə gəlmək mümkündür. Bununla yanaşı, rəsmi Vaşinqton münaqişənin həlli ilə bağlı siyasətində Ermənistanın Rusiyanın forpostu olması reallığını nəzərə alır. Rusiyanı bu məsələdə narazı sala biləcək addımlar atmaqda maraqlı görünmür. Bu iki dövlət arasında onsuz da gərginlik yaradan digər məsələlərin ön planda olduğu reallığını nəzərdən qaçırmaq olmaz. Bunların sırasında İranın nüvə proqramı, Suriya böhranı, Avropada NATO-nun raket əleyhinə müdafiə sistemi yaratmaq təşəbbüsünü və s. qeyd etmək olar. (3, s.298)

Fransaya gəldikdə isə, bu dövlətin münaqişənin həllinə real dəstək vermək siyasətinə malik olduğu şübhə doğurur. Sanki bu dövlət digər iki həmsədrlə müqayisədə daha zəif olduğunun fərqindədir. Bir çox hallarda isə bu dövlətin "qondarma erməni soyqırımı" ətrafında manipulyasiya siyasəti sözügedən münaqişənin həlli imkanlarını məhdudlaşdırmış olur. Bir sözlə, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ probleminin həlli hələ ki, buna məsul tərəflərin beynəlxalq gündəliyinin prioritet məsələsinə çevrilməmişdir.

III variant – birinci və ikinci variantlar heç bir halda nəticə verməyəcəyi təqdirdə müharibə variantı qaçılmaz ola bilər. BMT TŞ-nin münaqişə ilə bağlı qəbul etdiyi 4 qətnaməsi (822, 853, 874, 884, 1993-cü ildə qəbul olunmuşdur), təşkilatın nizamnaməsinin özünümüdafiə hüququ ilə bağlı 51-ci maddəsi, qurumun qəbul etdiyi qərarlarının yerinə yetirilməsinin icbari xarakter daşıması haqqında 25-ci maddəsi, habelə AŞPA, İKT və Avropa Parlamentinin Ermənistanı işğalçı dövlət elan etməsi kimi məlum hüquqi arqumentlər Azərbaycana öz ərazi bütövlüyünü təmin etməsi məqsədilə istənilən təsir mexanizmlərini, o cümlədən hərbi tənzimləmə variantını işə salmaq səlahiyyəti verir.

Qənaətimiz ondan ibarətdir ki, Azərbaycanın Ermənistandan bir neçə dəfə deyil, bir neçə on dəfələrlə ölçülən hərbi üstünlüyü fonunda torpaqlarımızın təkcə güc yolu ilə deyil, eləcə də I və II variantda qeyd etdiyimiz dinc tənzimləmə üsulu ilə azad olunması imkanı son dərəcədə arta bilər. Başqa sözlə, Azərbaycanın ifrat iqtisadi-hərbi potensialı qarşısında ya S.Sarkisyan rejimi vahimələnib münaqişənin həlli naminə siyasi iradə nümayiş etdirər, ya da regionda müharibənin yenidən alovlanmasını heç bir halda istəməyən, lakin bunun son dərəcə labüd olduğunun fərqinə varan beynəlxalq güclər Ermənistanı analoji addım atmağa məcbur edər.

İstənilən halda Azərbaycanın artmaqda olan güc potensialı münaqişənin təmzimlənməsində öz həlledici rolunu oynamaqdadır. Artıq Azərbaycan beynəlxalq koordinatlar sisteminin subyekti deyil, onun fəal aktoruna çevrilmişdir. Azərbaycan bu gün bölgədə və dünyada etibarlı tərəfdaş, dinamik inkişaf edən ölkə imicinə malikdir. Azərbaycan Respublikasının 2011-ci il oktyabr ayının 24-də BMT TŞ-yə 2012–2013-cü illər üzrə qeyri-

daimi üzv seçilməsi bu həqiqəti bir daha təsdiqləmişdir. 155 ölkənin Azərbaycanın lehinə səs verməsi əslində dünya ictimaiyyətinin ölkəmizə olan münasibətinin ifadəsidir, respublikamızın həm regionda, həm də beynəlxalq arenada artan nüfuzunun, dünyada cərəyan edən beynəlxalq proseslərdə yaxından iştirakının və eyni zamanda sülhün və əmin-amanlığın bərpa edilməsinə verdiyi töhfəsinin bariz nümunəsidir.

Bir çox mötəbər beynəlxalq tədbirlərin Azərbaycanda keçirilməsi ölkəmizin artıq regionun siyasi, iqtisadi və mədəni mərkəzinə çevrildiyinin sübutudur. Bakı şəhərinin mühüm beynəlxalq tədbirlərə ev sahibliyi etməsi artıq ənənə halını almışdır. Təkcə son üç ildə İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində Fələstinə yardım məqsədilə beynəlxalq konfransın, III və IV və V Beynəlxalq Humanitar Forumların, Mədəniyyətlərarası Dialoq Forumlarının, Davos Dünya İqtisadi Forumunun, I Avropa Oyunlarının, BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun və digər yüksək səviyyəli qlobal tədbirlərin keçirilməsi bunu bir daha təsdiq edir. Dövlətimiz dünyada etibarlı tərəfdaş kimi tanınır. Başqa sözlə, ölkəmizdə siyasi sabitlik və innovativ inkişafın, davamlı iqtisadi yüksəlişin, multikulturalizm siyasətinin, nizami və güclü ordu quruculuğu prosesinin, demokratik islahatların, müasirləşmənin, uğurlu xarici siyasətin və pozulmuş ərazi bütövlüyümüzün bərpası naminə fədakar mübarizənin təşəbbüskarı və təminatçısı olan Prezident İlham Əliyevin sözləri ilə desək, “Azərbaycan dünya miqyasında o qədər də böyük ölkə deyildir, ancaq sözümüzün mənası və çəkisi böyükdür”. Eyni zamanda Azərbaycan dünyanın üzləşdiyi potensial və real risklərin, o cümlədən ksenofobiya, irqçilik, islamofobiya və multikulturalizmin alternativi olan digər təhdidlərin aradan qaldırılması mənafeyinə xidmət göstərən orijinal həll yollarını da irəli sürür. Bu baxımdan Prezident İlham Əliyevin sadə, lakonik və olduqca müdrik yanaşması unikallığı ilə seçilir: “Siz qonşunuzdan milliyyətini, kilsədə, sinaqoqda və ya məsciddə ibadət etməsini soruşmadan onunla yanaşı yaşamalısınız. Yalnız bu halda potensial riskləri azalda bilərik”.

Dövlətimizin ərazi bütövlüyünün pozulması ilə bağlı yaranmış təhlükəsizlik probleminin həllində hələ ki, Ermənistanın qeyri-konstruktiv mövqeyi, həmsədrlərin qətiyyətsiz davranışı və beynəlxalq ictimaiyyətin seyrçi yanaşması ucbatından konkret pozitiv nəticələr hasil olmasa da belə, digər istiqamətdə – enerji təhlükəsizliyi sferasında Azərbaycanın qazandığı uğurlar kifayət qədər böyükdür. Həmin uğurların mahiyyət və məzmunu, habelə yaranmasını şərtləndirən amillərin təhlilinə keçməzdən öncə, dünya enerji bazarında formalaşmış real mənzərənin qısa icmalına nəzər yetirmək yerinə düşər.

Enerji təhlükəsizliyi dünyanın aparıcı dövlətlərinin milli təhlükəsizlik strategiyasının həlledici elementi statusunda çıxış edir. Bu baxımdan bir sıra nüfuzlu ekspertlərin “müasir dünyanın siyasi mənzərəsi daha hərbi bloklara mənsubiyyətlə yox, enerji ehtiyatlarına maliklik və malik olmamaq üzrə bölgüylə müəyyən ediləcək”, – fikri təsadüfi sayılmamalıdır.

Bu bir həqiqətdir ki, yüksək inkişaf etmiş ölkələrin enerji təhlükəsizliyi sahəsində ciddi problemləri mövcuddur. Onlarin bir çoxunun ümumiyyətlə karbohidrogen resursları yoxdur (Yaponiya, Cənubi Koreya, Tayvan, bəzi Avropa ölkələri və s.), digərlərinin malik olduqları köhnə yataqlar isə tükənmək üzrədir (Böyük Britaniya, Norveç, Niderland). ABŞ isə dünya neft hasilatında 8%-lik paya malik olmasına baxmayaraq, istehlakda payı 24%-dən artıqdır. Bu fikirlərin təsdiqi kimi onu da qeyd edək ki, ABŞ Neft Şurasının statistik məlumatlarında qeyd olunur ki, 1996-cı ildə neftə olan sutkalıq tələbat 71 mln. barrel təşkil edirdisə, 2030-cu ildə bu göstəricinin 138 mln. barrelə yüksələcəyi proqnozlaşdırılır ki, onun da 30 mln. barreli təkcə ABŞ-ın payına düşəcəkdir.

Dünya neft-qaz bazarı istehlakçılarının strukturunda da dəyişiklik baş vermişdir. Əvvəllər 3 yüksək inkişaf etmiş region neft və qazın əsas istehlakçıları hesab olunurdu: Şimali Amerika (ilk növbədə ABŞ), Avropa İttifaqı (ilk növbədə Almaniya, Böyük Britaniya, Fransa, İtaliya) və Şimal-Şərqi Asiya (Yaponiya, Cənubi Koreya, Tayvan). Hal-hazırda dinamik iqtisadi inkişaf tempi ilə bağlı olaraq Çin, Hindistan, Braziliya, Tailand və bir sıra digər dövlətlərin karbohidrogen ehtiyatlarına olan tələbatı xeyli dərəcədə artmışdır. Çin hətta Yaponiyanı bu sahədə ötərək dünya neft istehlakında 9%-lik göstəriciyə malik olmuşdur və yalnız ABŞ-dan geri qalır.

Başqa bir məlumata əsasən, dünyada sənaye məhsulları istehsalında 80%-lik paya malik olan böyük dövlətlər təxminən 20%-ə bərabər enerji ehtiyatlarına malikdirlər. Bir çox hallarda onlar bunu tarixi ədalətsizlik kimi dəyərləndirir və belə bölgünün aradan qaldırılmasının vacibliyini vurğulayırlar.

Bir sıra mütəxəssislərin fikrincə, gələcəkdə bu tələbə etiraz edən neft-qaz ölkələrinin “enerji millətçiliyi”ndə və hətta “enerji terrorizmi”ndə ittiham ediləcəkləri istisna deyildir.

Dünyanın müasir enerji xəritəsində mövcud vəziyyətin natamam təqdimatı belə təsdiqləyir ki, dünyada enerji resurslarına olan tələbat ilbəil artmaqdadır və bu strateji məhsulların təkrar istehsalının olmaması reallığı fonunda tələb və təklif arasında qeyri-mütənasibliyin dinamik olaraq artacağını proqnozlaşdırmaq mümkündür. Bu reallıq əsas enerji istehlakçılarını, o cümlədən Avropa ölkələrini alternativ enerji hasilatçıları axtarmağa sövq edir. Belə enerji mənbələri içərisində Xəzər regionu dövlətlərinin, xüsusilə də Azərbaycanın müstəsna mövqeyi vardır.

Bu, bir həqiqətdir ki, Azərbaycan zəngin enerji ehtiyatlarına malik ölkədir. Hələ 1846-cı ildə, yəni Pensilvaniyada neft yataqlarının aşkar olunmasından (1859-cu il) 10 ildən də artıq bir müddətdə Azərbaycanda, Bibiheybət ərazisində ilk neft quyusu fontan vurmuşdur. Yeri gəlmişkən, dünyada sənaye üsulu ilə neft hasilatı

ilk dəfə XIX əsrdə məhz Azərbaycanda həyata keçirilmişdir. Dünyada dəniz yataqlarından da ilk dəfə neft 1949-cu ildə Azərbaycanda çıxarılmışdır.

1991-ci ildə Azərbaycan müstəqillik əldə etdikdən sonra ölkəmizin enerji hasilatı tarixində keyfiyyətcə yeni mərhələ başlandı. Azərbaycan öz sərvətlərinin real sahibi olmaq hüququ əldə etdi. Təəssüf ki, 1993-cü ilədək hakimiyyətdə olmuş iqtidarların səriştəsiz və bacarıqsız siyasəti nəticəsində faktiki olaraq Azərbaycanın müstəqil və səmərəli enerji siyasəti formalaşmadı. Yalnız ümummilli lider Heydər Əliyevin ikinci dəfə 1993-cü ildə xalqın xahiş və tələbi ilə hakimiyyətə qayıdışından sonra Azərbaycan bütün sahələrdə, o cümlədən enerji sektorunda milli maraqlara söykənən siyasət həyata keçirməyə başladı.

Azərbaycanın yeni enerji strategiyasının memarı ümummilli lider Heydər Əliyevin ötən əsrin 90-cı illərində müəllifi olduğu iki siyasi qərar ölkəmizin neft-qaz siyasətinin formalaşmasında həlledici əhəmiyyətə malik olmuş, eyni zamanda respublikamızın Avropanın enerji təhlükəsizliyinə töhfə verməyə hazır olduğunu nümayiş etdirmişdir. Daha dəqiq desək, 1994-cü il sentyabrın 20-də dünyanın 8 ölkəsinin 12 şirkəti ilə "Əsrin müqaviləsi"nin imzalanması ölkəmizin yeni neft strategiyasının başlanğıcı olmuşdur. (1, s.600) 1996-cı il iyunun 6-da regionun enerji təhlükəsizliyi sahəsində olduqca mühüm rol oynayan və nəticədə Avropanın enerji təhlükəsizliyində vacib rol oynayan "Şahdəniz" qaz yatağının işlənməsinə dair müqavilənin imzalanması ilə bu proses dönməz xarakter almışdır.

Azərbaycan üçün enerji təhlükəsizliyi ilk növbədə enerji marşrutlarının şaxələndirilməsində öz təsdiqini tapır. Avropa üçün isə enerji təhlükəsizliyi birinci növbədə enerji mənbələrinin şaxələndirilməsində ifadə olunur. Bu gün ölkənin təsdiq edilmiş enerji ehtiyatları 1,5-2 mlrd tondan artıq neft və 2,6 trln. kubmetr qazdan (təkcə "Şahdəniz" yatağında təsdiqlənmiş qaz yataqları 1,2 trln. kubmetrdir) ibarətdir və 7 kəmərlə Avropa və dünya bazarlarına çatdırılır. Bunlardan 3-ü neft (Rusiya, Gürcüstan və Türkiyə istiqamətləri), 4-ü isə qaz (Türkiyə, Gürcüstan, Rusiya və İran istiqamətləri) kəmərləridir. Bunların içərisində 2006-cı ildə Heydər Əliyevin adını daşıyan Bakı-Tbilisi-Ceyhan (BTC) neft kəməri və 2007-ci ildə isə Bakı-Tbilisi-Ərzurum (BTƏ) qaz boru kəmərlərinin istifadəyə verilməsi həm regional, həm də Avropanın enerji təhlükəsizliyi baxımından xüsusi əhəmiyyət kəsb etmişdir. Bu reallıqlar fonunda Azərbaycan dövləti qarşısında ya yeni qaz bazarlarına çıxış yolları axtarmaq, ya da ənənəvi istiqamətlər üzrə ixracı artırmaq vəzifəsi dururdu. Elə bu vəzifədən irəli gələrək 2011-ci ilin yanvar ayında Azərbaycan ilə Avropa İttifaqı arasında strateji əməkdaşlıq və enerji sahəsində Anlaşma Memorandumu imzalandı. Bu istiqamətdə əməkdaşlığı həyata keçirmək üçün birgə işçi qrupu yaradıldı. Ümumən, ölkəmiz qaz ixracı prosesində "Cənub" qaz dəhlizi layihəsinin həyata keçirilməsinə xüsusi əhəmiyyət verir. "Cənub" qaz dəhlizi dedikdə, bütün qərb istiqaməti üzrə gedəcək layihələr nəzərdə tutulur.

1994-cü ildə ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində imzalanmış "Əsrin müqaviləsi" XX əsrin layihəsi hesab olunurdusa, "Cənub" qaz dəhlizi layihəsi Azərbaycan, bütöv region və Avropa üçün XXI əsrin meqa layihəsidir. Dəyəri 45 milyard dollar olan bu layihə çərçivəsində hasil edilən qaz 3500 km uzunluğunda 3 qaz kəməri vasitəsilə Azərbaycanı İtaliyanın limanları ilə birləşdirəcək. 2012-ci ildə bu dəhlizin mühüm seqmenti olan TANAP-Trans-Anadolu boru kəmərinin çəkilməsinə dair Türkiyə ilə Azərbaycan arasında tarixi saziş imzalandı. Düz bir il sonra – 2013-cü ildə sərmayədarlar "Şahdəniz-2" layihəsinə investisiya qoyuluşuna dair yekun qərar qəbul etdilər. 2014-cü ildə "Cənub" qaz dəhlizi ilə bağlı Bakıda təməlqoyma mərasimi oldu. 2015-ci ildə isə Türkiyənin Qars vilayətində TANAP-ın təməlqoyma mərasimi baş tutdu. Cari ilin 17 may tarixində Yunanıstanın Saloniki şəhərində TAP-ın (Trans-Adriatik Qaz Boru Kəməri) təməlqoyma mərasimi həyata keçirildi. Beləliklə, enerji təhlükəsizliyi, şaxələndirmə və azad rəqabət layihəsi olan "Cənub" qaz dəhlizinin reallaşdırılması üzrə bütün işlər qrafik üzrə uğurla yerinə yetirilməkdədir. Bunun əsas səbəbi onunla bağlıdır ki, bu layihədə istehsalçı, istehlakçı və tranzit ölkələr arasında balans yaradılmasına nail olunmuşdur. Başqa sözlə, bu layihə çərçivəsində heç bir uduzan tərəf yoxdur. Prezident İlham Əliyevin təbirincə desək, "Cənub" qaz dəhlizi layihəsi nümunəsində biz göstərdik ki, enerji və siyasət bir-birindən ayrı olmalıdır. Enerji siyasi alət kimi istifadə edilməməlidir. Yalnız bu halda uğur əldə etmək olar". (6)

Cari ilin 29 fevral tarixində "Cənub" qaz dəhlizi Məşvərət Şurasının Bakıda keçirilən 2-ci iclasında 11 dövlətin və Avropa Komissiyasının imzaladığı Bəyannamə bir daha göstərdi ki, bu meqa layihənin reallaşdırılması yolunda bütün ciddi maneələr artıq arxada qalmışdır. Onu da xüsusi olaraq qeyd edək ki, layihənin iştirakçısı olan 7 dövlətlə yanaşı (Azərbaycan, Gürcüstan, Türkiyə, Yunanıstan, Bolqarıstan, Albaniya, İtaliya), daha 2 dövlət (Monteneqro və Xorvatiya) də bəyannaməyə imza atmışlar. Həmin dövlətlərin də sözügedən layihəyə qoşulacaqlarının artıq zaman məsələsi olduğunu əminliklə proqnozlaşdırmaq olar. Bu dövlətlədən savayı, ABŞ və Böyük Britaniyanın yüksək səviyyəli nümayəndələri, habelə Avropa Komissiyasının vitse-prezienti də Bakı Bəyannaməsinə imzalarını qoymuşlar. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, "12 imza onu nümayiş etdirdi ki, "Cənub" qaz dəhlizi artıq reallıqdır". (6)

Beləliklə, beynəlxalq arenada qazanılan bu möhtəşəm uğurların əsasında ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi balanslı və çevik xarici siyasət strategiyası və onun dünyanın yeni geosiyasi reallıqları nəzərə alınmaqla Prezident İlham Əliyev tərəfindən novatorcasına davam etdirilməsi kursu dayanır.

**Ədəbiyyat:**

1. Həsənov Ə. Azərbaycanın geosiyasəti. Dərslik. Bakı, "Zərdabi LTD" MMC, 2015, 1056 s.
2. Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Dərslik. Bakı, "Azərbaycan", 2005, 752 s.
3. Nəsirov E. ABŞ-ın antiterror doktrinası və onun tətbiqi mexanizmləri. Bakı, "Elm və təhsil", 2008, 312 s.
4. Əhmədov E. Azərbaycanın xarici siyasəti: beynəlxalq təhlükəsizlik və əməkdaşlıq institutları ilə münasibətlər. Bakı, "Letterpress", 2013, 452 s.
5. Piriyev A. Siyasi strategiya və milli təhlükəsizlik. Bakı, "Bakı Universiteti", 2005, 545 s.
6. "Cənub" Qaz Dəhlizi Məşvərət Şurasının 2-ci iclası. http// www.president.az

**Açar sözlər**: *müstəqillik, beynəlxalq təhlükəsizlik, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, beynəlxalq vasitəçilər, enerji təhlükəsizliyi*

**Клюевые слова**: *независимость, международная безопасность, Армяно-Азербайджанский, Нагорно-Карабахский конфликт, международные посредники, энергетическая безопасность*

**Key words**: *independence, international security, Armenia-Azerbaijan, Nagorno-Karabakh conflict, international mediators, energy security*

**Эльман Насиров**

***Депутат Милли Меджлиса Азербайджанской Республики, Директор Института Политических исследований Академии Государственного Управления при Президенте Азербайджанской Республики, доктор политических наук, профессор***

## НАПРАВЛЕНИЯ МЕЖДУНАРОДНОЙ ПОЛИТИКИ И ПРОБЛЕМЫ БЕЗОПАСНОСТИ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

### РЕЗЮМЕ

В статье представлены и детально изложены современные направления международной политики, проблемы и вопросы безопасности за 25-летний период восстановления целостности и независимости Азербайджана. Данные исследования проанализированы в контексте двух направлений: армяно-азербайджанского, нагорно-карабахского конфликта и проблемы энергетической безопасности страны. Вопросы, выбранные автором в качестве предмета исследования, были обобщены на базе комплексного анализа, посредством аргументов и фактов, и представлены в научных выводах статьи. В то же время в статье нашли свое отражение новые предложения, пути выхода и рекомендации по решению проблем современной международной политики и безопасности, с которыми в последнее время сталкивается Азербайджан. Основным и наиболее важным результатом исследований, представленным автором в данной статье, является то, что залог успеха Азербайджана на современной международной арене принадлежит сбалансированной и успешной стратегии развития внешней политики, проведенной в жизнь Общенациональным лидером Гейдаром Алиевым. Принимая во внимание новые геополитические реалии мира и базируясь на новаторские продолжения, Президент Азербайджана Ильхам Алиев с большим успехом продолжает и совершенствует данный курс международной политики Азербайджана.

**Elman Nasirov**

***Member of the Milli Mejlis of Azerbaijan Republic,***
***Director of Political Research İnstitute of the Academy of Public***
***Administration under the President of the Republic of Azerbaijan,***
***doctor in political scienses, professor***

## SECURITY ISSUES AND INTERNATIONAL POLICY OF AZERBAIJAN REPUBLIC

### SUMMARY

The article includes detailed description of the current trends in international policy and and security issues and problems over the 25-year independence of Azerbaijan. The analysis is made in two directions: Armenia-Azerbaijan Nagorno Karabakh conflict and the energy security of the country.

Based on comprehensive analysis, the author has summarised the subject of research by arguments and facts, and made scietific conclusion in the paper.

Tha author also presents new proposals, way outs and recommandations on problems of modern international politics and security Azerbaijan recently faces.

According to the most important result of reaserch presented by the author, is fact that, today Azerbaijan succeded in the international arena today due to balanced and successful strategy of foreign policy implemented by national leader Heydar Aliyev. In view of new geopolitical realities of the world and innovative cource, the President Ilham Aliyev successfully continues and improves the international policy of Azerbaijan.

HİKMƏT BABAOĞLU
*Azərbaycan Respublikası Milli Məclisin deputatı, siyasi elmlər doktoru, professor*

# DAVAMLI İNKİŞAFIN İNSAN RESURSLARI VƏ İNFORMASİYA TƏMİNATI: AZƏRBAYCAN TƏCRÜBƏSİ

25 illik müstəqillik tarixinə malik olan Azərbaycan bu günə qədər əhəmiyyətli inkişaf yolu keçib. Siyasi, iqtisadi, hüquqi, ictimai və ekoloji sahələrdə həyata keçirilən islahat xarakterli tədbirlər davamlı inkişafı təmin etməklə yanaşı, yeni inkişaf perspektivlərinin formalaşmasını şərtləndirib. Hazırda Azərbaycanın öz inkişaf strategiyasını milli prioritetləri və qlobal çağırışları nəzərə almaqla müəyyənləşdirməsi və bu iki amili məharətlə uzlaşdırması ölkəmizi fərqləndirən əsas cəhətlərdəndir. Təsadüfi deyil ki, inkişafın Azərbaycan modeli spesifik tərəqqi nümunəsi kimi xarakterizə edilir və davamlı inkişaf kontekstində yüksək qiymətləndirilir. Bununla yanaşı, Azərbaycanın təcrübəsində davamlı inkişafın insan resurslarından səmərəli istifadə olunması da xüsusi yer tutur ki, bu da ölkəmizin beynəlxalq reytinqinə kifayət qədər müsbət təsir göstərir. Çünki hazırda ölkələrin beynəlxalq reytinqi qiymətləndirilərkən siyasi, iqtisadi, ictimai, humanitar, mədəni, ekoloji və digər sahələrdə əldə edilmiş nailiyyətlərlə yanaşı, davamlı inkişaf istiqamətində görülən işlər də xüsusi olaraq nəzərə alınır.

Beləliklə, Azərbaycanın milli inkişafının strateji prioritetləri və istiqamətlərindən bəhs edərkən davamlı inkişaf və onun insan resursları amilinə də diqqət yetirmək lazımdır. Ümumiyyətlə, öncə davamlı inkişafın özünün nə olması, onun insan resurslarının hansı əhəmiyyət kəsb etdiyi kimi məsələlərə nəzər salmaq məqsədəmüvafiqdir.

### *Davamli inkişafın məqsədi və əsas prinsipləri*

“Davamlı inkişaf” termini ötən əsrin 80-ci illərindən başlayaraq iqtisadi, sosial leksikona daxil oldu. Davamlı inkişafla bağlı BMT tərəfindən 1992-ci ildə Rio de Janeyro şəhərində keçirilən konfransda bu konsepsiyanın əsas istiqamətləri müəyyənləşdirildi, XXI əsrdə dünya ölkələrinin iqtisadi, sosial və ekoloji aspektlərini əhatə edən davamlı inkişaf konsepsiyasının hazırlanması zərurəti dilə gətirildi. Sonrakı mərhələdə müxtəlif dövlətlər tərəfindən ayrılıqda, o cümlədən ayrı-ayrı beynəlxalq tədbirlərdə bu konsepsiyanın başlıca istiqamətləri diskussiya predmetinə çevrilməklə insanların qlobal kontekstdə öz gələcəklərini müəyyənləşdirməsi üçün yeni müzakirə platforması yaratmış oldu. Hazırda bunu zəruri edən çoxsaylı şərtlər mövcuddur. Çünki dünyada sosial, iqtisadi inkişaf qeyri-proporsional şəkildə mövcuddur və fərqli mədəni-siyasi coğrafiyalarda müxtəlif kəmiyyət və keyfiyyət göstəricilərinə sahibdir. Ancaq buna baxmayaraq, hər nə qədər siyasi-coğrafi fərqlilik olsa belə, problemin mövcudluğu qloballaşan dünyada ümumi problem yaradır. Bu, həm sosial, həm də iqtisadi müstəvidə müşahidə edilir və müəyyən inkişaf mərhələsindən sonra qlobal ekoloji müstəviyə transfer olunur. Bu səbəbdən bütün bəşəriyyət üçün aktual olan davamlı inkişaf konsepsiyası ümumi məqsədlərə xidmət edən qlobal konsepsiya səciyyəsi daşımalıdır. Bu kontekstdə əsas məqsədlər sırasında yoxsulluğun azaldılması, ərzaq təhlükəsizliyinin təmin edilməsi, eyni zamanda bu prosesdə əsas qayələrdən biri də insanların texniki və texnoloji vasitələrlə təminatına nail olunması və ekoloji problemlərin birgə həll edilməsidir. Burada başlıca məqam növbəti nəsillərin də inkişafını təmin etmək üçün ciddi sosial, iqtisadi və ekoloji zəmin hazırlamaqdır.

### *İnsan resursları davamlı inkişafı təmin edən başlıca faktor kimi*

Əlbəttə, davamlı inkişafın təmin olunmasında insan resursları özünəməxsus əhəmiyyətə malikdir. Çünki iqtisadi, sosial və texnoloji resursları yaradan məhz insan faktorudur. Paralel olaraq isə iqtisadi, sosial və ekoloji inkişafı təmin edən amil müxtəlif etnosiyasi coğrafiyaları əhatə edən fiziki resurslardır. Amma fiziki resurslar potensialdır, yəni onların istismarı və bu resurslardan səmərəli istifadə məhz insan faktoru ilə bilavasitə bağlıdır. Doğrudur, bəzi hallarda bu resurslardan istifadə forması sosial bərabərliyə yox, məhz sosial fərqliliyə xidmət edir. Məsələn, neft, qaz kimi karbohidrogen ehtiyatları ilə, uran, almaz, qızıl yataqları kimi yeraltı sərvətlərlə zəngin olan ayrı-ayrı etnosiyasi coğrafiyalarda bu resurslar sosial bərabərlik və davamlı inkişaf yaratmaq əvəzinə bəzi hallarda sosial fərqlilik inkişafa mane olan digər neqativ hallara gətirib çıxarır. Hətta davamlı inkişafı təmin edən amillərdən biri olan ekoloji tarazlıq və təhlükəsizliyi də pozur.

Beləliklə, davamlı inkişafı təmin edən başlıca amil kimi insan resursları çıxış edir. İnsan resursları vasitəsilə mövcud ehtiyatlardan səmərəli istifadə olunması sosial, iqtisadi və ekoloji ahəngdarlığı təmin etməklə davamlı inkişafı şərtləndirməlidir (3).

***Sosial, iqtisadi və ekoloji problemlərin həllində informasiya mübadiləsi və təminatı***

Davamlı inkişafın təmin olunmasında insan resursları və onun keyfiyyətindən danışarkən maarifləndirmə və informasiya mübadiləsi məsələsinə də nəzər salmaq lazımdır. Hazırda elmi, iqtisadi, texniki, texnoloji informasiyaların qarşılıqlı çatdırılması – paylaşılması məsələsi olduqca aktualdır. Media vasitəsilə informasiya mübadiləsi və təminatı olmadan insan resurslarının inkişafına nail olmaq olmaz, bu isə öz növbəsində davamlı inkişafa ciddi maneələr yaradar.

Postmodernist cəmiyyətlərdə media əlahiddə statuslu – xüsusi institut kimi çıxış etməklə müxtəlif funksiyalar yerinə yetirir. Bu sırada başlıca funksiya kimi maarifləndirmə göstərilir. Maarifləndirmə isə öz növbəsində informasiya təminatına və ya məlumat ehtiyacını ödəməyə xidmət edir. Bu funksiya, eyni zamanda davamlı inkişafın qarşıya qoyduğu məqsədləri təmin etmək üçün insani resurslarda yeni ideya – fikir istehsalı yaradan vasitə kimi çıxış edir. Bunlarla yanaşı, media platformasının genişlənməsi – internetdən, sosial şəbəkələrdən istifadənin sürətlə artması, transmilli medianın fəaliyyətinin güclənməsi informasiyanı daha asan əldə etməyə imkan yaradır (2, 26). Bu müstəvidə informasiya mübadiləsini asanlaşdıran ümumi dil platforması da mövcuddur. Yəni aparıcı informasiya vasitəsilə xüsusi tərcümə proqramlarından istifadə etməklə məlumat mübadiləsi, informasiya əldə etmək, onu yaymaq kimi məsələləri daha da asanlaşdırır. Bu isə davamlı inkişaf prosesində informasiya resurslarından səmərəli istifadəyə, o cümlədən informasiya mübadiləsinə təkan verir.

Beləliklə, həm media institutu, həm də informasiya resursları davamlı inkişaf prosesində mövcud olması zəruri olan başlıca şərtlər sırasında yer alır.

***Qloballaşma şəraitində davamlı inkişafın perspektivləri və media***

Qloballaşma və davamlı inkişaf bir-birini qidalandıran iki başlıca amil kimi çıxış edir. Yəni qloballaşma prosesi öz növbəsində davamlı inkişafı zəruri edir, davamlı inkişaf isə qloballaşmanı şərtləndirir. Ona görə də qloballaşmanın meydana çıxardığı problemlərin davamlı inkişafa təsiri ayrıca öyrənilməlidir. Qloballaşma tərəfdarları və bu prosesi diktə edən Qərb sosial, iqtisadi və ekoloji məsələlərin həllində səmimi olmalıdır, əks təqdirdə, bəhs olunan sahələrdə ortaya çıxacaq problemlər həm qlobal miqyasda, həm də Qərb ölkələrinin özü üçün ciddi təhlükələr yaradacaq, üstəlik, bu, davamlı inkişaf prosesinə ciddi zərbə vuracaqdır (1, 214). Bir çox hallarda Qərbin "rifah istehsal edən" iqtisadi institutları ayrı-ayrı milli dövlətlərə qarşı istismarçı mövqe tutmaqla onların resurslarından daha çox gəlir əldə edirlər. Bu prosesdə texniki, texnoloji və ekoloji tələblər yerinə yetirilmədiyi üçün meydana çıxan iqtisadi və ekoloji problemlər nəinki resursları istismar edilən həmin ölkələrə, eləcə də Qərbin özünə ciddi təhlükələr yaradır. Ona görə də ABŞ başda olmaqla bir sıra inkişaf etmiş Qərb dövlətləri, həmçinin Çin ekoloji problemləri yaradan əsas sənaye bölgələri kimi çıxış edirlər. Dolayısıyla, ekoloji problemlər davamlı inkişaf üçün zəruri olan sosial və iqtisadi faktorların da deqradasiyasına səbəb olur.

Əlbəttə, bu prosesdə media institutunun üzərinə böyük məsuliyyət düşür. Belə ki, media problemləri yaradan səbəbləri obyektiv şəkildə ortaya qoymaqla maarifləndirmə funksiyasını yerinə yetirməli və qlobal miqyasda davamlı inkişaf prosesinə təkan verməlidir. Amma bir çox hallarda biz bunun əksini müşahidə edirik: transmilli media qurumları məsələyə şəffaf və obyektiv yanaşmır. Çünki həmin media qurumları bu problemləri yaradan Qərbin nəzarətindədirlər və adekvat yanaşma – ədalətli mövqe sərgiləyə bilmirlər.

***Postmodernist cəmiyyətdə davamlı inkişaf və Azərbaycan təcrübəsi***

Azərbaycan davamlı inkişaf konsepsiyasını mənimsəyən və bu kontekstdə milli platformada xüsusi proqram qəbul edən ölkələrdəndir. Davamlı inkişafı zəruri edən üç əsas prinsiplə bağlı (iqtisadi, siyasi və ekoloji) özünəməxsus proqram və konsepsiyası var. Bundan başqa, davamlı inkişaf siyasəti daha çox insan resurslarının inkişaf etdirilməsi, yoxsulluğun azaldılması və digər sosial, iqtisadi və ekoloji xarakterli istiqamətləri ehtiva edir. Ölkədə reallaşdırılan dövlət proqramları, müxtəlif layihələr, "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası Azərbaycanda sosial prioritetlərin əsas tutulduğu rasional və innovativ inkişaf strategiyasının seçilməsinin göstəricisidir (4). Məhz bu konseptual yanaşma davamlı inkişaf siyasəti kontekstində ardıcıl nailiyyətlərin əldə edilməsini şərtləndirib. Təsadüfi deyil ki, 2015-ci ilin qiymətləndirməsinə əsasən, Azərbaycan Qlobal Enerji Səmərəlilik İndeksinə görə bir sıra inkişaf etmiş ölkələri üstələyərək 33-cü yerdə qərarlaşıb. Bu nəticə Dünya İqtisadi Forumunun dərc edilmiş məlumatları əsasında hazırlanan beynəlxalq hesabatda öz əksini tapıb. Hesabatda Azərbaycan Yaponiya ilə eyni göstəricilərə malikdir. Cədvələ görə, ABŞ 37, Avstraliya 38, Rusiya 39, Sinqapur 44-cü yerdədir. Qiymətləndirmə davamlı inkişaf üçün əhəmiyyətli olan 18 meyar əsasında aparılıb. Bu göstəricilər üç qrupa aiddir: iqtisadi artım və inkişaf, ətraf mühitin və onun keyfiyyətinin idarə edilməsi, enerji mənbələrinə çıxış və onların təhlükəsizliyi. Davamlı inkişaf üçün önəmli olan bu

tədqiqat 125 ölkədə enerjidən istifadənin səmərəliliyini qiymətləndirmək üçün həyata keçirilib (6).

Azərbaycanda davamlı inkişaf konsepsiyası çərçivəsində diqqət mərkəzində saxlanılan məsələlərdən biri də insan resurslarının inkişaf etdirilməsidir. Bu siyasətin əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuşdur. Bu istiqamətdə həyata keçirilən tədbirlər çox zaman dünyada gedən prosesləri qabaqlayır, bir çox hallarda inkişaf etmiş ölkələr üçün nümunə göstərilirdi. Məsələn, ümummilli lider Heydər Əliyev tərəfindən təsdiq edilmiş təhsil strategiyasına görə, Azərbaycan Respublikasında davamlı insan inkişafı fənninin orta ümumtəhsil məktəblərinin proqramlarına daxil edilməsi prosesinə 2001-ci ildə başlanıb və bu, Təhsil Nazirliyinin 2001-ci il 14 sentyabr tarixli 964 nömrəli əmrində öz əksini tapıb. 2003-cü ildə Azərbaycanda orta məktəblər üçün davamlı insan inkişafına dair dünyada ilk tədris proqramı və dərs vəsaiti dərc edilib. Bu sahədə Azərbaycanın birinciliyi barədə məlumat BMT-nin Nyu-Yorkda yerləşən Baş Qərargahı tərəfindən dünyaya "innovativ ideya və fəaliyyət" kimi yayılıb. Qlobal miqyasda isə bu prosesə 4 il sonra – 2005-ci il martın 1-də BMT-nin baş katibi Kofi Annan və UNESCO-nun baş direktoru Koişiro Matsuura arasında imzalanan sənədlə təkan verilib. Bu sənədlə 2005–2014-cü illər dünya üzrə davamlı inkişaf sahəsində tədris onilliyi elan edilib (4).

Beynəlxalq standartlara əsasən innovativ tərəqqinin əsas və həlledici amili olan insan potensialının inkişaf səviyyəsini qiymətləndirmək, insan inkişafı əmsalını hesablamaq üçün sağlamlıq, təhsil və adambaşına düşən ümumi daxili məhsul (ÜDM) əsas götürülür. Bu baxımdan qeyd edə bilərik ki, Azərbaycanda müasir idman və səhiyyə ocaqlarının yaradılması, tədris şəbəkəsi və təhsil sisteminin modernləşdirilməsi, ÜDM-in artması, yoxsulluğun azaldılması və digər amillər davamlı inkişaf sahəsində həyata keçirilən uğurlu siyasətin səmərəliliyindən xəbər verir. Təsadüfi deyil ki, BMT-nin rəsmi hesabatlarında Azərbaycan hazırda insan potensialının inkişafı sahəsində yüksək nəticələr əldə etmiş ölkələr qrupuna aid edilir. Xüsusilə də Azərbaycanda həyata keçirilən uğurlu sosial-iqtisadi kurs sayəsində yoxsulluğun azaldılması davamlı inkişaf baxımından beynəlxalq miqyasda yüksək qiymətləndirilir. Əlbəttə, Azərbaycanda 2004-cü ildən indiyə qədər yoxsulluğun 49 faizdən 5 faizə enməsi olduqca təqdirəlayiqdir (5).

Bununla yanaşı, Azərbaycanın ekoloji təhlükəsizlik konsepsiyası da davamlı inkişafa hədəflənmiş yeni yanaşmaları özündə ehtiva edir. Başqa sözlə, Azərbaycanda davamlı inkişaf konsepsiyasının müddəalarına uyğun olaraq iqtisadi inkişafın ekoloji tarazlıqla vəhdət təşkil etməsi diqqət mərkəzindədir. Bu istiqamətdə qəbul edilmiş proqramların əsas məqsədi ölkə iqtisadiyyatının, xüsusilə qeyri-neft sektorunun dinamik inkişafına, əhalinin iqtisadi və sosial tələbatının daha dolğun təmin olunmasına, regionların inkişafına, ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsinə, ətraf mühitin mühafizəsinə yönəldilmiş investisiya layihələrinin həyata keçirilməsindən ibarətdir (7).

Beləliklə, davamlı inkişaf siyasəti sahəsində Azərbaycan təcrübəsi həm universal, həm də unikal səciyyə daşıyır, bu istiqamətdə əldə edilən nəticə və nailiyyətlər beynəlxalq təşkilatlar tərəfindən də yüksək qiymətləndirilir. Yekun qənaət budur ki, Azərbaycan təcrübəsi bu sahədə mütərəqqi nümunələrdən biri olmaqla qlobal çağırışlar və tələblərə cavab verir.

### *Hibrid müharibələr və imperialist siyasət davamlı inkişafa başlıca təhdid kimi*

Davamlı inkişafı təhdid edən əsas məsələlərdən biri müharibələrdir. Ötən əsrin 80-ci illərinin sonunda davamlı inkişaf aktual müzakirə predmetinə çevrilsə də, 2001-ci ildən başlayaraq bu prosesə neqativ təsir göstərən başqa bir amil – müharibə faktoru ortaya çıxdı. İmperialist Qərbin Şərqdə apardığı müharibələr davamlı inkişaf prosesi çərçivəsində əldə edilmiş nailiyyətlərə ciddi zərər yetirdi, hətta ayrı-ayrı sahələrdə davamlı inkişaf dinamikasının zəifləməsinə səbəb oldu. Bundan başqa, XX əsrin 90-cı illərinin əvvəlindən postsovet məkanında meydana çıxan münaqişələr də davamlı inkişaf prosesinə çox ciddi şəkildə neqativ təsir göstərdi. Bu münaqişələrə rəğmən, yoxsulluğu aradan qaldırmaq, insanların sosial rifahını yaxşılaşdırmaq və digər məsələlər asan deyil. Ərazisinin 20 faizi Ermənistan tərəfindən işğal edilmiş, 1 milyondan çox qaçqın və məcburi köçkünü olan Azərbaycan da bu problemlə qarşı-qarşıyadır. Azərbaycan hökuməti erməni işğalı nəticəsində qaçqın və məcburi köçkün vəziyyətinə düşmüş vətəndaşlarımızın problemlərinin həlli istiqamətində davamlı tədbirlər görür, amma Azərbaycanın davamlı inkişafa zəmin yaradacaq çox ciddi iqtisadi resursları hələ də işğal altındadır. Eyni zamanda Ermənistanda mövcud olan "Metsamor" AES təkcə Azərbaycan üçün yox, həm də regional və qlobal təhlükəsizlik üçün təhdiddir. Lakin təəssüflər olsun ki, müvafiq beynəlxalq təşkilatlar Ermənistana təzyiq göstərmir.

Bütövlükdə, Qərb imperializminin Yaxın Şərq və Şimali Afrikada həyata keçirdiyi hibrid müharibə layihəsi və onun yaratdığı dağıntılar, sosial-iqtisadi problemlər, köçkün və məcburi miqrasiya problemi davam etdikcə davamlı inkişaf naminə ciddi nailiyyətlər əldə edilə bilməyəcəkdir. Ona görə də indiki mərhələdə həyəcan təbili çalmaq lazımdır ki, müharibələr dayandırılsın, işğala son qoyulsun və mövcud resurslardan səmərəli istifadə etmək üçün davamlı inkişafı təmin etmək üzrə zəruri şərt olan sabitlik yaradılsın. Əks təqdirdə, mövcud vəziyyət bütün dünyanı təhdid etməkdə davam edəcək.

*Nəticə*

Göründüyü kimi, davamlı inkişaf prosesi, bu kontekstdə insan resurslarından və medianın gücündən səmərəli istifadə olunmasl problemi bütün bəşəriyyət üçün aktuallıq kəsb edir. Ona görə də həm ayrı-ayrı beynəlxalq təşkilatlar, həm milli dövlətlər, həm də transmilli media orqanları bu problemə münasibətdə obyektiv yanaşma ortaya qoymalıdır. Buna müvafiq olaraq doğru addımlar atılmalı, davamlı inkişafı təmin edən məqsədyönlü fəaliyyət və bu kontekstdə gələcək nəsillər üçün zəmin formalaşdırmalıdır.

Davamlı inkişafın təmin olunması üçün sosial, iqtisadi və ekoloji sahələrdə mövcud problemlərin aradan qaldırılması istiqamətində adekvat tədbirlər görülməlidir. Hər üç sahədə paralel inkişaf göstəricilərinin qeydə alınması sayəsində davamlı inkişafa nail oluna bilər.

**Ədəbiyyat:**


1. Hikmət Babaoğlu. Dünya siyasəti və beynəlxalq münasibətlər (2-ci nəşr). Dərslik. "MSA" nəşriyyatı. 690 səh. Bakı:2014, 214 s.
2. Hikmət Babaoğlu. İnfoimperializm və Media. Monoqrafiya. "MSA" nəşriyyatı. 191 səh. Bakı: 2013, 26 s.
3. http://www.anl.az/down/meqale/ses/2012/may/249759.htm (Milli iqtisadi inkişafdan postsənaye erasına doğru)
4. http://azertag.az/xeber/Davamli_inkisaf_ve_ekoloji_sivilizasiyanin_esaslari-48838 ("Davamlı inkişaf və ekoloji sivilizasiyanın əsasları")
5. http://w1.economy.gov.az/index.php?option=com_content&view=article&id=34 ("2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı" haqqında. Dövlət Proqramının icrasına dair arayış)
6. http://www.xalqqazeti.com/az/news/education/41760 (İnsan inkişafı və ekoloji sivilizasiya)
7. http://yeniazerbaycan.com/Axtarish_e28896_az.html (Azərbaycanın ekoloji təhlükəsizlik konsepsiyası davamlı inkişafa hədəflənmiş yeni yanaşmaları özündə ehtiva edir)



**Açar sözlər:** *davamlı inkişaf, insan resursları, informasiya təminatı, Azərbaycan təcrübəsi, qlobal çağırışlar*

**Ключевые слова:** *устойчивое развитие, человеческие ресурсы, информационное обеспечение, азербайджанский опыт, глобальные вызовы*

**Key words:** *sustainable development, human resources, information provision, Azerbaijan experience, global challenges*



**Хикмет Бабаоглы**

***Депутат Милли Меджлиса Азербайджанской Республики, доктор политических наук, профессор***


## ЧЕЛОВЕЧЕСКИЕ РЕСУРСЫ И ИНФОРМАЦИОННОЕ ОБЕСПЕЧЕНИЕ УСТОЙЧИВОГО РАЗВИТИЯ: АЗЕРБАЙДЖАНСКИЙ ОПЫТ

### РЕЗЮМЕ


В статье говорится о целях и основных принципах устойчивого развития, его информационном обеспечении и обмене информацией при решении социальных, экономических и экологических проблем, перспективах устойчивого развития и средств массовой информации в условиях глобализации, а также азербайджанском опыте во всех этих сферах. Было отмечено, что проблема устойчивого развития, эффективного использования человеческих ресурсов и средств массовой информации в процессе устойчивого развития имеет актуальное значение для всей цивилизации. Таким образом, отдельные международные организации и национальные государства, а также транснациональная медиа должны продемонстрировать объективный подход в отношении данной проблемы. Поэтому, в соответствеии с этим, надо предпринять правильные шаги в целях обеспечения устойчивого развития, а также сформировать основу для будущих поколений.

В целях обеспечения устойчивого развития должны быть приняты адекватные меры для устранения проблем в социальной, экономической и экологической сферах.

Устойчивое развитие может быть достигнуто, если будут получены положительные показатели развития во всех этих трех областях.

**Hikmat Babaoghlu**

*Member of the Milli Mejlis of Azerbaijan Republic,*
*PhD in Political Sciences, Proffesor*

## HUMAN RESOURCES OF SUSTAINABLE DEVELOPMENT AND INFORMATION SUPPORT: AZERBAIJAN EXPERIENCE

### SUMMARY

The author of the article describes the aims and basic principles of sustainable development, provision and exchange of information for solution of social, economic and environmental problems, the prospects for sustainable development in the context of globalization and mass media, as well as Azerbaijan experience in problem solving. It is noted the effective use of human resources and media in the sustainable development process are topical issues for the civilization. Therefore, the international organizations, states and transnational media should demonstrate an objective approach to this issue. In order to solve the problem and maintain sustainable development the relevant measures should be taken in social, economic and ecological spheres

**ƏLİ NURİYEV**
*AMEA-nın müxbir üzvü, əməkdar elm xadimi, iqtisad elmləri doktoru, professor*

# MÜSTƏQİL AZƏRBAYCAN İQTİSADİYYATININ ÇƏTİN VƏ ŞƏRƏFLİ İNKİŞAF YOLU

Azərbaycanın zəngin təbii sərvətləri, əlverişli torpaq-iqlim şəraiti, Asiya və Avropa qitələri arasında əlverişli coğrafi mövqeyi, bütün təsərrüfat sahələrində işləməyə qadir əməksevər əhalisi hələ nisbətən uzaq keçmişdə burada iqtisadiyyatın müxtəlif sahələrinin yaranması və inkişafına səbəb olmuşdur. Lakin iqtisadiyyat məhz XX əsrin 70-80-ci illərində ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə daha sürətlə, çoxşaxəli və səmərəli inkişaf etmişdir. 1969-cu il iyul ayının 14-də Heydər Əliyev Azərbaycan KP MK-nın birinci katibi seçiləndə Respublikamızın iqtisadiyyatı zəif sürətlə inkişaf edirdi, siyasi və mənəvi tənəzzül özünü göstərməkdə idi. Əvvəlki illərdə öz nefti ilə SSRİ iqisadiyyatında liderlik mövqeyinə malik olmuş Respublikamız bu mövqeni itirdikdən sonra SSRİ hökumətinin diqqətindən kənarda qaldı, iqtisadiyyatın artım sürəti və səmərəliliyi tədricən aşağı düşdü. 1960-cı ilə nisbətən 1970-ci ildə SSRİ-də milli gəlir 2,0 dəfə, müttəfiq respublikaların bir çoxunda 2,2-2,4 dəfə, Azərbaycanda isə cəmi 1,6 dəfə artmışdır. İqtisadiyyatın ayrı-ayrı sahələrinin, xüsusilə kənd təsərrüfatının inkişaf sürətinə görə də Azərbaycan müttəfiq respublikalar arasında sonuncu yerlərdən birini tuturdu.

Heydər Əliyevin müdrik siyasəti və həyata keçirdiyi məlum tədbirlər nəticəsində Azərbaycan iqtisadiyyatı sürətli, çoxşaxəli və səmərəli inkişaf yoluna çıxdı. 1970–1982-ci illərdə Respublikamızda milli gəlir 2,5 dəfə, hər nəfərə 2 dəfə, kənd təsərrüfatı məhsulu 2,6 dəfə, o cümlədən pambıq, meyvə-tərəvəz istehsalı 2 dəfədən çox, üzüm, tütün, barama, yaşıl çay yarpağı istehsalı 2–5 dəfə artmışdı. **(7)** Azərbaycan bütün öz təşəkkül tarixi dövründə ən yüksək inkişaf səviyyəsinə çatdı. 1970–1982-ci illərdə Azərbaycan iqtisadiyyatın inkişaf sürətinə görə müttəfiq respublikalar arasında ən qabaqcıl mövqeyə çıxdı. Respublikamız neft-maşınqayırma, neft-mədən avadanlıqları, kimya sənayesinin bir çox məhsulları, üzüm, üzüm şərabı istehsalına görə İttifaqda birinci yeri, meyvə-tərəvəz konservi, pambıq mahlıcı, ipək sap, yaşıl çay, xalça və xalça məmulatları, mineral sular, fermentləşmiş tütün istehsalına görə İttifaq Respublikaları arasında 2-3-cü yeri tuturdu.

Respublikada məhsuldar qüvvələrin ərazi təşkili təkmilləşmiş, kiçik və orta şəhərlərin üstün sürətlə inkişafı təmin edilmişdi. Sənaye məhsulu istehsalında Abşerondan kənar iqtisadi rayonların xüsusi çəkisi artaraq 1969-cu ildəki 27,2%-dən 40%-ə çatmışdı.

Lakin 1993-cü ilin ortalarında Azərbaycan xalqının xahişi, təkidli tələbilə Heydər Əliyev yenidən hakimiyyətə sahib olanda onun keçən əsrin 70–80-ci illərində böyük zəhmət, əzmkarlıq hesabına yüksək səviyyədə inkişafına nail olduğu iqtisadiyyat bir çox məlum obyektiv və subyektiv səbəblərdən tamamilə dağılmışdır. Müstəqil balansda olan sənaye müəssisələrinin məhsul istehsalı 3,6 dəfə azalmış, müəssisələrin çoxu fəaliyyətini dayandırmışdı, fəaliyyətdə olan müəssisələrin istehsal gücündən 15-20% istifadə olunurdu, müəssisələrarası qarşılıqlı borclar 11 mlrd. dolları keçmişdi. 90-cı illərin birinci yarısında sənaye məhsulu istehsalı Bakı şəhərində 2,1 dəfə, Sumqayıtda 5,5, Gəncədə 14,4, Naxçıvanda 12,1 dəfə azalmışdı. 1990-cı illə müqayisədə Lənkəranda 5% və Şəki şəhərində 3% sənaye məhsulu istehsal olunurdu. **(8)** Ərzaq məhsullarının 75–80 %-i kənardan gətirilirdi. İqtisadi və siyasi böhran içərisində olduğuna görə xarici ölkələr, beynəlxalq təşkilatlar Respublikamızın iqtisadiyyatına investisiya qoymaq istəmirdilər. Ərazimizin 20%-i Ermənistan tərəfindən işğal olunmuşdu, siyasi və mənəvi böhran, kəskinləşməkdə olan işsizlik və yoxsulluq, başlanmaqda olan vətəndaş müharibəsi, Respublikamızı parçalanmaq və öz müstəqilliyini tamamilə itirmək təhlükəsilə üz-üzə qoymuşdu.

Respublikamız bütün bu mürəkkəb şəraiti görən, onun inkişaf imkanlarını kifayət qədər düzgün qiymətləndirməyi bacaran, həlli vacib vəzifələri ön plana çəkməyi, imkanları səfərbərliyə almağı, xalqı öz qarşısında duran vəzifələri yerinə yetirmək üçün səfərbər etməyi, güclü demokratik dövlət qurmağı bacaran siyasi liderə, dövlət xadiminə möhtac idi.

Xalqın, xüsusilə onun qabaqcıl dəstəsi olan ziyalıların təkidli tələbilə hakimiyyətə gələn Heydər Əliyev bu missiyanı öz üzərinə götürdü. O, ölkəmizin qarşısında duran problemləri həll etmək üçün üç başlıca strateji istiqamət müəyyənləşdirdi: Heydər Əliyev Dünya Azərbaycanlılarının Birinci Qurultayında bu strateji istiqamətləri açıqlamış, Azərbaycanın dövlət müstəqilliyi əldə edəndən sonra ölkədə siyasi sabitliyi təmin etmək, demokratik, hüquqi, sivilizasiyalı dövlət qurmaq; islahatlar aparmaq və bazar iqtisadiyyatına keçmək; öz iqtisadiyyatını dünya iqtisadiyyatına bağlamaq, açıq qapı siyasəti yeritmək və xarici kapitalı Azərbaycana gətirmək prinsiplərini götürdüyünü qeyd etmişdir.

Heydər Əliyev hakimiyyətdə olduğu 1993–2003-cü illərdə bu strateji vəzifələrin iki mərhələdə yerinə yetirilməsini təmin etdi:

1993–1996/1997-ci illəri əhatə edən birinci mərhələdə həyata keçirdiyi tədbirlərlə ölkədə siyasi sabitliyi təmin etdi, demokratik, hüquqi dövlət quruldu və bunun əsası olmaqla 1995-ci ildə Azərbaycanın yeni Konstitusiyası qəbul edildi.

Müvafiq normativ-hüquqi baza formalaşdırmaq, qanunlar ("Torpaq məcəlləsi", "Mülkiyyət haqqında", "Aqrar islahatların əsas istiqamətləri haqqında", "Kolxoz və sovxozların islahatı haqqında", "Sahibkarlıq fəaliyyəti haqqında" və i.a.) qəbul etmək əsasında torpağın özəlləşdirilməsi həyata keçirildi.

"1995–1998-ci illərdə dövlət mülkiyyətinin özəlləşdirilməsi proqramı" qəbul edildi. Torpağın kəndlilərə verilməsi ilə onların özünün məhdud maliyyə vəsaiti ilə əhalinin tələbatını ödəyən kənd təsərrüfatının və xidmət sahələrinin inkişafına şərait yaratdı. Azərbaycan iqtisadiyyatını dünya iqtisadiyyatına bağlamaq, xarici investisiyanı, qabaqcıl texnika və texnologiyanı cəlb etmək üçün neft strategiyası işlənib hazırlandı, 1994-cü il sentyabr ayının 20-də 8 dövlətin 12 şirkətinin daxil olduğu Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətilə (ABƏŞ) Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (ARDNŞ) arasında "Əsrin neft müqaviləsi" adını almış Hasilatın pay bölgüsü sazişinin imzalanması və 1995-ci ilin oktyabr ayında ilkin neft layihəsinə sanksiya verilməsilə bu strategiya fəaliyyətə başladı. Nefti ixrac etmək üçün Bakı-Novorossiysk neft kəmərinin Azərbaycana aid hissəsi 1996-cı ildə yenidən quruldu. Azərbaycana xarici investisiyanı cəlb etmək üçün digər tədbirlər də həyata keçirildi, beynəlxalq banklarla maliyyə-kredit xarakterli müqavilələr bağlandı. Ümumiyyətlə, 1993–1996/1997-ci illərdə həyata keçirilən tədbirlər nəticəsində dünya iqtisadiyyatına inteqrasiyanın və bazar iqtisadiyyatının əsasları yarandı (məhsul istehsalının 51%-i özəl sektorun payına düşürdü), iqtisadiyyatın əsas sahələri böhrandan çıxaraq sabit sürətlə inkişaf etməyə başladı.

1997–2002-ci illər əhatə edən ikinci mərhələdə qısa və orta müddətli proqramlarla, vergi güzəştləri və digər maliyyə tədbirlərilə dövlətin iqtisadiyyata tənzimləyici müdaxiləsinin genişlənməsinin müntəzəm xarakter alması ilə səciyyələnir. Bu hesaba iqtisadiyyatın bütün sahələri davamlı inkişaf edir, bazar iqtisadiyyatına keçidin və dünya iqtisadiyyatına inteqrasiyanın əsasları möhkəmlənirdi. Hələ 1997–1998-ci illərdə "Azərbaycan Respublikasında iqtisadi yüksəliş və struktur yenidənqurması Proqramı", "1997–2000-ci illərdə kiçik və orta sahibkarlığa Dövlət Köməyi Proqramı", "Dövlət sektorunda investisiya qoyuluşunun orta müddətli proqramı" qəbul edildi 1999-cu il mart ayında ümummilli liderimiz Heydər Əliyev kənd təsərrüfatı işçilərini beş il müddətinə torpaq vergisi müstəsna olmaqla bütün vergilərdən azad etmək haqqında sərəncam imzalayır. 2001-ci ilin noyabr ayında bu haqda xüsusi qanun qəbul olunur.

1999-cu ildə Bakı-Supsa neft kəməri istismara verilir. Həmin il dekabr ayında Neft Fondu təsis edilir, 2000-ci ildə bu fonddan qeyri-neft sektorunun inkişafı üçün istifadə etmək qaydaları (əsasnaməsi) təsdiq olunur. Yenə həmin illərdə Sahibkarlığa Kömək Milli Fondu, kiçik və orta sahibkarlığın inkişafı Agentliyi təşkil olundu və i.a.

2002-ci ildə "Turizmi inkişaf etdirmək və turizm ehtiyatlarından səmərəli istifadə etmək proqramı (2002–2005-ci illər)", 17 avqust 2002-ci ildə "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafının Dövlət Proqramı" (2002–2005-ci illər)" və digər proqramlar qəbul edildi. Qeyd etmək lazımdır ki, bu sonuncu proqramda ilk dəfə olaraq qeyri-neft sektorunun və sahibkarlığın inkişafına şərait yaratmaq və beləliklə, regionları inkişaf etdirmək məsələsi ayrıca qeyd olunur.

Ümumiyyətlə, əvvəlki illərdə başlanmış proqram xarakterli tədbirlər 1997-ci ildən sonra daha geniş vüsət almış və özünün müsbət nəticələrini vermişdir. 2000-ci ildən başlayaraq iqtisadiyyatın bütün əsas sahələrində davamlı artım təmin olundu. Bazar iqtisadiyyatı möhkəmləndi – 2000-ci ildə özəl sektor ÜDM-in 69%, 2002-ci ildə 72%-i, sənayedə 54%-i vermişdi. Yoxsulluğun, işsizliyin artmasının qarşısı alındı, Respublikanın investisiya imkanı genişləndi, ölkəyə xarici investisiya axını artdı, inflyasiya 2002-ci ildə 2001-ci ilə nisbətən 1,82 dəfə azalmış, 2–3%-ə düşmüşdü **(9)**.

Aktiv regional siyasət yeridilməsi və iqtisadiyyatın qeyri-neft sektorunun inkişafında "Azərbaycanda yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı (2003–2005-ci illər)" mühüm rol oynadı. Ümummilli liderimiz Heydər Əliyev proqramın təqdimat mərasimindəki nitqində demişdir: "Biz indiyə qədər apardığımız işlər nəticəsində xeyli uğurlar əldə etmişik, həm də gələcək illər üçün çox tutarlı əsas yaratmışıq. Əgər biz 1994–1995-ci illərdə demək olar ki, boş yerdə, dağılmış iqtisadiyyat şəraitində Azərbaycanın inkişafını təmin etməyə başladıqsa, bilirsiniz ki, indi böyük bir bünövrə üzərində dururuq: Bu müstəqilliyimiz, azadlığımız, Azərbaycanın müstəqil, demokratik, dünyəvi, hüquqi dövlət qurması, Azərbaycanın konstitusiyasıdır. Yenə də deyirəm indi Azərbaycanın güclü iqtisadiyyatı var. Biz bu möhkəm təməl üzərində dururuq və buradan gələcəyə doğru irəliləyirik". **(1)**

Heydər Əliyev neft sektorundan gözlənilən böyük gəlirlərlə yanaşı, Azərbaycanın qeyri-neft sektorunda azad sektorda, neftə aid olmayan bütün sahələrdə mövcud olan böyük imkanlardan istifadə etməklə iqtisadiyyatın bütün sahələrinin inkişafını, yoxsulluğun azaldılması, xalqın rifah halının yaxşılaşmasının təmin edilməsini əsas strateji vəzifələr kimi müəyyənləşdirdi. Lakin amansız ölüm Heydər Əliyevə öz strateji xəttini həyata keçirməyə imkan vermədi.

Prezident İlham Əliyev 2003-cü il noyabrın 17-də Nazirlər Kabinetinin iclas zalında Respublika hökumətinin ölkəmizdə prezident seçkilərindən sonra ilk iclasında "Biz müstəqil Azərbaycanı son 10 ildə yaradılmış möhkəm təməl üzərində zəngin və qüdrətli dövlətə

çevirəcəyik" mövzusunda nitqində və "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" 24 noyabr 2003-cü il tarixli fərmanında Heydər Əliyevin "Yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı"nda (2003–2005-ci illər) qarşıya qoyduğu məqsəd və vəzifələri daha da konkretləşdirdi, onların yerinə yetirilməsi üçün həyata keçirilməsi vacib olan təşkilati-iqtisadi, idarəetmə tədbirlərini, habelə "Azərbaycanın hərtərəfli inkişafı və iqtisadi cəhətdən qüdrətli dövlətə çevrilməsini əsas strateji vəzifə kimi müəyyənləşdirdi"**(3).** Azərbaycan Respublikası regionlarının sosial-iqtisai inkişafı Dövlət Proqramı (2004–2008-ci illər) bu strateji vəzifənin yerinə yetirilməsində mühüm mərhələ oldu. Bu proqram Heydər Əliyev dövründə Azərbaycanın iqtisadi cəhətdən daha güclü dövlətə çevrilməsi, dünya iqtisadi sistemində özünə layiqli yer tutması, ölkədə sosial problemlərin həlli və əhalinin rifahının yaxşılaşması üçün yaradılmış etibarlı zəmindən istifadə etməklə regionların inkişafı üçün tədbirlər kompleksinin həyata keçirilməsini nəzərdə tuturdu. Bu proqram öz mahiyyətinə görə iqtisadiyyatın ayrı-ayrı sahələrinin proqramlarla idarə olunmasından ayrı-ayrı regionların və bütövlükdə Respublika iqtisadiyyatının proqramlarla idarə edilməsinə keçiddir. Bu proqram həmçinin orta müddətli strateji plan və məqsədli proqram, habelə orta müddətli adi və fövqəladə proqram xüsusiyyətlərini özündə birləşdirirdi. Beləliklə, proqramın orijinallığı, analoqunun olmaması nəticəsi idi ki, onun reallığına inanmayanlar, xüsusilə 600 min yeni iş yerinin açılmasının mümkünlüyünə şübhə ilə baxanlar da az deyildi. Bütün bunları nəzər alan Respublika rəhbərliyi, proqramın təşkilatçıları qarşıya qoyulan vəzifələri yerinə yetirmək üçün iqtisadi islahatların dərinləşməsi və davamlı inkişafın təmin edilməsi istiqamətində çoxsaylı tədbirlər (Prezident İlham Əliyevin regionlara mütəmadi səfərləri və qarşıya çıxan problemlərin həlli üçün gördüyü tədbirlər, proqramın yerinə yetirilməsi gedişinin müzakirəsi və müvafiq tədbirlər görülməsi, proqramın normativ-hüquqi bazasının təkmilləşməsi tədbirləri, sahibkarlığın inkişafına maliyyə təminatı yaradılması tədbirləri, kreditlə təminatı yaxşılaşdırmaq üçün Mərkəzi Bankın filiallarının regionlarda yaradılması, özəlləşmənin davam etdirilməsi və səhmdar cəmiyyətlərinin yaradılması, SKMF-dən güzəştli kreditlər verilməsi, vergi güzəştləri və i.a.) həyata keçirdilər.

Proqram tamamilə və artıqlaması ilə yerinə yetirildi. Nəticədə Azərbaycan bütün dünyaya sübut etdi ki, o, özünün bütün problemlərini həll etməyə qadir və sürətlə inkişaf etməkdə olan müstəqil dövlətdir. Azərbaycanda bazar münasibətlərinə keçid əsasən başa çatdı. 2008-ci ildə istehsal olunan ÜDM-in 84,5%-i, məşğul əhalinin 71%-dən çoxu, investisiya qoyuluşunun 72%, dövlət büdcəsi gəlirlərinin 53%-i özəl sektorun payına düşürdü. Sənaye və kənd təsərrüfatı sahəsində də özəl sektor hökmran mövqe tuturdu. 2008-ci ildə sənaye məhsulunun 80,9%-i, kənd təsərrüfatı məhsulunun 99,7%-i özəl sektorun payına düşürdü. **(10)** Məlumdur ki, 2009-cu ilin noyabr ayında Bakı Dövlət Universitetinin yaradılmasının 90 illik yubileyində təntənəli mərasimdəki çıxışında Prezident İlham Əliyev Respublikamızda keçid dövrünün başa çatmasını rəsmi elan etmişdir. İkinci ən mühüm nəticə 2004–2008 illərdə regionlarda güclü infrastruktur sahələrinin (energetika, yol şəbəkəsi, idman kompleksləri, məktəblər, xəstəxanalar tikintisi və əsaslı təmiri) yaradılmasıdır. 2004–2008-ci illər iqtisadiyyatın bütün sahələrinin sürətlə inkişafı və məhsul istehsalının böyük sürətlə artması ilə səciyyələnir. Bu illərdə ÜDM istehsalı nəzərdə tutulan 2,2 dəfəyə qarşı 2,6 dəfə artmışdı. İllik orta artım sürətinə görə Azərbaycan 2004-cü ildə MDB üzvü olan ölkələr, 2005–2008-ci illərdə dünya ölkələri arasında lider dövlətə çevrilmişdi. Azərbaycandan xarici ölkələrə qeyri-neft sektoru məhsulunun ixracı artırdı. Respublikamız 140 xarici ölkə ilə ticarət əlaqəsi saxlayırdı. **(10)**

Proqramda nəzərdə tutulan 600 minə qarşı 766 mindən çox iş yeri açılmışdı ki, bunun da 547,5 mini daimi iş yeri idi. Ən başlıcası bu iş yerlərinin yarıdan çoxu istehsal və emal müəssisələrinin payına düşürdü.

Əhalinin pul gəlirləri artmış, həyat səviyyəsi nisbətən yüksəlmiş, işsizlik azalmış, yoxsul əhalinin xüsusi çəkisi 2003-cü ildəki 44,7%-dən 13,2%-ə düşmüşdü.

Regionların inkişafına aid birinci Dövlət Proqramının müvəffəqiyyətlə yerinə yetirilməsi nəticəsində və onun davamlı olmaqla "Azərbaycan Respublikası regionlarının 2009–2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" qəbul edildi. Bu proqram Respublika Prezidentinin 19 aprel 2009-cu il tarixli fərmanı ilə təsdiq olunmuş və icrasına başlanmışdır. Birinci proqramın müvəffəqiyyətlə yerinə yetirilməsi ikinci proqramda iqtisadiyyatın diversifikasiyası, davamlı sosial-iqtisadi inkişafın təmin edilməsi, qeyri-neft sektorunun inkişafının sürətlənməsi, tarazlı regional inkişaf və əhalinin həyat səviyyəsinin yüksəlməsi kimi mühüm vəzifələrin qarşıya qoyulmasına şərait yaratdı. Beləliklə, birinci proqramdan fərqli olaraq ikinci proqramda inkişafın ağırlıq mərkəzinin tədricən qeyri neft sektorunun üzərinə, regionlara keçməsinə başlandı, yoxsulluğun azaldılması əvəzinə əhalinin həyat səviyyəsinin yüksəldilməsi vəzifəsi qarşıya qoyuldu. Əvvəlki proqramda regionlarda infrastruktur sahələrinin, bu proqramda iqtisadiyyatın real sektorunun həm də innovasiya yönümlü sahələrin inkişafına üstünlük verildi. Əvvəlki proqramın icrası dövründə həyata keçirilmiş tədbirlər əsasən bu proqramın icrası dövründə də davam etdirildi. Həyata keçirilmiş tədbirlər (SKMF-dən güzəştli kreditlərin verilməsi, vergi güzəştlərinin davam etdirilməsi, Prezidentin regionlara mütəmadi səfərləri və qarşıya çıxan problemlərin həlli üçün öz fondundan maliyyə vəsaitləri ayırması, texnopark müəssisələrinin vergidən azad edilməsi, kənd təsərrüfatının infrastruktur təminatının yaxşılaşması və i.a.) nəticəsində əvvəlki proqram kimi bu proqram da bütün əsas göstəricilər üzrə yerinə yeti-

rildi. 2004–2013-cü illər Azərbaycanın sosial-iqtisadi inkişaf tarixinə böyük nailiyyətlər 10 illiyi kimi daxil oldu. Keçən 10 il ərzində Azərbaycan bir daha bütün dünyaya sübut etdi ki, o nəinki müstəqil yaşaya bilər, hətta keçid dövrünün ən böyük çətinliklərini müvəffəqiyyətlə aradan qaldıra bilər. Azərbaycan çətin maliyyə-iqtisadi böhran şəraitində öz çevik siyasətilə, dərin maliyyə böhranının təsir dairəsini azaltmaq, sürətli inkişafı təmin etmək qabiliyyətinə malik müstəqil, oturuşmuş dövlətdir. 2004–2013-cü illərdə iqtisadi inkişaf sürətinə görə Azərbaycan daim lider dövlətər sırasında olmuş, minlərlə müəssisələr tikilmiş, əvvəllər mövcud olan müəssisələr, yeni texnoloji əsas üzərində bərpa olunmuşdu ki, bunun da 40%-dən çoxu regionların payına düşür.

On il ərzində ÜDM 3,4 dəfə artmış, ÜDM-in orta illik artımı 12,9% olmuşdur. İqtisadiyyatın ayrı-ayrı sahələri də sürətlə inkişaf etmişdir: sənaye məhsulu 2,8 dəfə, kənd təsərrüfatı məhsulu 1,5 dəfə, informasiya-kommunikasiya texnologiyaları və rabitə sənayesi məhsulu 3,2 dəfə, ümumiyyətlə, qeyri-neft sektorunun məhsulu 2,7 dəfə artmışdır. İqtisadiyyatın digər sahələrində də yüksək artım olmuşdur. Nəqliyyat sektorunda yük dövriyyəsi 4,4 dəfə, məhsul ixracı 9,3 və idxal 4,1 dəfə artmışdır. Ölkə iqtisadiyyatının maliyyə imkanları genişlənmişdir. Belə ki, 10 ildə iqtisadiyyata yönəlmiş bütün investisiyalar 6,5 dəfə, əsas kapitala investisiyalar 4,7, ümumi yığım 3,8: ümumi mənfəət 22,5 və dövlət büdcəsinin gəlirləri 15,8 dəfə artmışdır.

Respublikamızda sosial problemlərin həlli sahəsində də böyük uğurlar qazanılmışdı. 10 il ərzində 1,2 mln. yeni iş yeri açılmışdır ki, bunun da 70%-dən çoxu regionların payına düşür. İşsizliyin və yoxsulluğun səviyyəsi azalaraq hər biri 5%-ə düşmüş, yoxsul əhalinin ümumi sayı 7,8 dəfə azalmışdır. **(11)**

Azərbaycanın yerli istehsal hesabına ərzaq təminatı yaxşılaşmış, bir çox ərzaq məhsulları ilə Azərbaycan özünü tamamilə təmin edir. Belə ki, 2013-cü ildə Azərbaycan özünü yerli istehsal hesabına bostan-tərəvəz məhsulları və qəndlə 100%-dən çox, kartofla 96%, üzümlə 94%, bitki yağı və marqarinlə 76%, süd və süd məhsulları ilə 75% təmin etmişdir. 2014–2015-ci illərdə bu göstəricilər daha da artmışdır.

Regionların tarazlı inkişafı sahəsində də xeyli müvəffəqiyyət qazanılmışdır. 2004–2008-ci illərdə regionlarda infrastruktur sahələrini güclü inkişaf etdirməklə sonrakı illərdə onların tarazlı inkişafına əlverişli şərait yaradılmışdır. 2009–2013-cü illərdə Dövlət Proqramının icrası nəticəsində regionların inkişafının tarazlaşması sahəsində də nəzərə çarpacaq uğurlar qazanılmışdır. 2008-ci ildə Azərbaycanda istehsal olunan ÜDM-in 81%-i, o cümlədən sənaye məhsulunun 94,8%-i, əsas kapitala investisiyanın 73%-i Bakı şəhərilə birlikdə Abşeron iqtisadi rayonunun payına düşdüyü halda, digər iqtisadi rayonların sonrakı illərdə daha sürətlə inkişafı nəticəsində 2013-cü ildə bu göstəricilər xeyli aşağı düşərək ÜDM üzrə 70,3%, o cümlədən sənaye məhsulu 90,5% əsas kapitala investisiyalar üzrə 63,5% təşkil edirdi. **(13)**

Əvvəlki regional inkişaf proqramları kimi 2014–2018-ci illəri əhatə edən üçüncü regional inkişaf proqramının qarşıya qoyduğu məqsəd və vəzifələr də müvəffəqiyyətlə icra olunmaqdadır.

Neftin qiymətinin aşağı düşməsinə, dünyada iqtisadi və siyasi böhranın davam etməsinə baxmayaraq Azərbaycan iqtisadiyyatının makro iqtisadi göstəriciləri 2014–2015-ci illərdə də artmış, respublikanın davamlı sosial-iqtisadi inkişafı təmin edilmişdir. ÜDM əvvəlki ilə nisbətən 2014-cü ildə 2,8%, 2015-ci ildə bütün çətinliklərə baxmayaraq 1,1% artmışdır. 2014-cü ildə sənayedə və kənd təsərrüfatında məhsul istehsalı bir qədər azalsa da, 2015-ci ildə sənayedə artım 2,4;%, kənd təsərrüfatında 6,6% olmuşdur. Qeyri-neft sektorunda məhsul istehsalı 2014-cü ildə 7,2%, 2015-ci ildə 1,1% artmışdır. Nəticədə ÜDM istehsalında qeyri-neft sektorunun xüsusi çəkisi 2014-cü ildə 61,3%, 2015-ci ildə 69,3% olmuşdur. Qeyri-neft sənayesi 2014-cü ildə 6,9%, 2015-ci ildə 10% artmışdır. 2014–2015-ci illərdə yaranmış obyektiv çətinliklərə baxmayaraq əhalinin həyat səviyyəsinin yüksəlməsi, yoxsulluğun və işsizliyin azalması prosesi davam etdirilmişdir. Respublikamızda orta aylıq əməkhaqqı 2014-cü ildə 5,4%, 2015-ci ildə 4,5% artmış, yaşayış minimumu artaraq 2014-cü ildə 131 manata, 2015-ci ildə 3,8% artaraq 136 manata çatmışdır. Ümumiyyətlə, 2014–2015-ci illərdə Respublikanın sosial-iqtisadi həyatının bütün sahələrində – əsas kapitala investisiya qoyuluşu, yeni müəssisələrin tikilməsi, infrastruktur sahələrinin inkişafı, əhalinin pul gəlirlərinin artması, yeni iş yerlərinin açılması, sosial məsələlərin həlli, əsas fondların istifadəyə verilməsi və digər sahələrdə müsbət nəticələrə nail olunmuşdur. **(12)**

Azərbaycanın sosial-iqtisadi inkişaf sahəsində əldə etdiyi nailiyyətlər nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən 2014–2015-ci illərdə də yüksək qiymətləndirilmişdir. Azərbaycan qlobal rəqabətqabiliyyətliliyinə görə 144 ölkə arasında 2014-cü ildə 38-ci, 2015-ci ildə 40-cı yeri tutmuşdur. Makroiqtisadi sabitliyə görə 2014-cü ildə 9-cu, 2015-ci ildə 10-cu yeri, əmək bazarının səmərəliliyinə görə 2014-cü ildə 33-cü, 2015-ci ildə 30-cu yeri tutmuşdur. Doinq biznes forumunun hesabatında isə 2016-cı ildə 189 ölkə arasında Azərbaycan 63-cü yeri tutmuşdur.

Eyni zamanda 2014–2016-cı illərdə sosial və iqtisadi inkişafdan danışarkən nəzərə almaq lazımdır ki, bu illər Azərbaycanın sosial-iqtisadi inkişaf tarixində post-neft dövrünə keçid üçün dərin, əsaslı islahatlar illəri kimi daxil olur. İndi Azərbaycanın irəliyə doğru inkişafının elmi cəhətdən əsaslandırılmış konsepsiyası vardır. Bu konsepsiyada həm informasiya-kommunikasiya texnologiyalarının, turizmin geniş inkişafı, Azərbaycanın əlverişli coğrafi mövqeyinin yaratdığı geniş imkanlardan səmərəli istifadə etmək mənafeyi, həm də Azərbaycanın iqtisadiyyatın inkişafı sahəsində tarixən toplamış

olduğu müsbət təcrübədən müasir dövrün tələblərinə uyğun səmərəli istifadə etmək mənafeyi nəzərə alınmışdır.

Respublika Prezidenti İlham Əliyev gənclərin bir qrupu ilə görüşündəki nitqində ölkəmizin iqtisadi müstəqilliyi üçün qeyri-neft sektorunda əsaslı islahatların aparılmasının vacibliyini vurğulayaraq demişdir: "İqtisadi cəhətdən heç kimdən asılı olmayan ölkə öz siyasətini də müstəqil şəkildə apara bilər. Azərbaycan timsalında biz bunu görürük. Azərbaycan dünya iqtisadi-siyasi sistemində baş verən dəyişikliklərə, çağırışlara hazır olmalıdır. Bu dərin islahatlar və cəmiyyətin effektli transformasiyası yolu ilə mümkündür. Nəticə etibarı ilə biz yeni siyasətə başlamışıq". **(5)** Bu siyasətin əsas məqsədləri Azərbaycanın davamlı iqtisadi inkişafını təmin etmək, qeyri-neft sektorunun bütün sahələrinin mənfəətlə işləməsinə, özünümaliyyələşdirmə sisteminə keçməsinə nail olmaq, bütövlükdə iqtisadiyyatın inkişafında, onun investisiya təminatında, ölkənin ixrac potensialının artması və sosial problemlərinin həllində qeyri-neft sektorunun, xüsusilə özəl sektorun rolunu əsaslı surətdə artırmaqdan ibarətdir. Bu məqsədlərə nail olmaq üçün islahatlar Respublika sosial iqtisadi və qanunçuluq həyatının demək olar ki, bütün sahələrində baş verir. Azərbaycanda bu məqsədlərə çatmaq üçün müvafiq strategiya, konsepsiya, iqtisadiyyatın yaxın 10 ildə inkişafının yol xəritəsi işlənib hazırlanmışdır. Respublikamızda qanunvericilik təşəbbüslərinin reallaşması, islahatların aparılması, korrupsiyanın, rüşvətxorluq hallarının minimuma endirilməsi istiqamətində tədbirlər həyata keçirilir, ixracın stimullaşdırılması, investisiya imkanlarını artırmaq üçün sahibkarlara böyük güzəştlər edilir. Azərbaycanın əlverişli coğrafi mövqeyindən irəli gələn imkanlardan səmərəli istifadə etmək üçün əvvəlki illərdə başlanmış tədbirlərin həyata keçirilməsi davam etdirilir.

Qətiyyətlə demək olar ki, iqtisadiyyatımızın gələcək inkişafı üçün müəyyənləşdirilmiş bu yol Respublikamıza yeni-yeni uğurlar qazandıracaq, yaxın bir-iki ildən başlayaraq sosial-iqtisadi inkişafın və iqtisadi artım göstəricilərinin sürətlənməsində öz ifadəsini tapacaqdır.

**Ədəbiyyat:**


1. Ümummilli lider Heydər Əliyevin "Yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı"nın (2003-2005-ci illər) təqdimat mərasimində nitqi ("Dirçəliş-XXI əsr" jurnalı, №56, oktyabr, 2002).
2. Prezident İlham Əliyevin 2003-cü il noyabrın 17-də Respublika hökumətinin ilk iclasında "Biz müstəqil Azərbaycanı son 10 ildə yaradılmış möhkəm təməl üzərində zəngin və qüdrətli dövlətə çevirəcəyik" mövzusunda nitqi. "Dirçəliş-XXI əsr" jurnalı. №69, noyabr, 2003.
3. Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" 24 noyabr 2003-cü il tarixli fərmanı. "Respublika" qəzeti, 25 noyabr, 2003-cü il.
4. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramları (2004-2008; 2009-2013; 2014-2018-ci illər).
5. Respublika Prezidenti İlham Əliyevin gənclərin bir qrupu ilə görüşdə nitqi. "Azərbaycan" qəzeti, 30.01.2016-cı il.
6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı ilin birinci yarısında sosial-iqtisadi inkişafın yekunlarına və qarşıda duran vəzifələrə həsr edilmiş iclasında Prezident İlham Əliyevin giriş və yekun nitqləri. "İqtisadiyyat" qəzeti, 15-21 iyul-2016.
7. Народное хозяйство Азербайджанской ССР в 1985 г. Статистический ежегодник. Баку, 1986 г.
8. Azərbaycanın statistik göstəriciləri. 1997. ADSK Bakı-1998.
9. Azərbaycanın statistik göstəriciləri – ADSK, Bakı-2003.
10. Azərbaycanın statistik göstəriciləri – ADSK. Bakı-2009.
11. Azərbaycan 10 ildə. Azərbaycan Respublikasının İqtisadi İnkişaf və Sənaye Nazirliyi. Bakı-2014, s.4–6.
12. İqtisadi İnkişaf və Sənaye Nazirliyinin 2014–2015-ci illərə aid hesabatları: http://www.economy.qov.az/
13. Əli Nuriyev. Azərbaycanda iqtisadi inkişaf və modernləşmə siyasətinin konseptual əsasları. Bakı, "Avropa" nəşriyyatı, 2013.



**Açar sözləri**: *çətin və şərəfli inkişaf yolu, zəif sürətlə, aktiv regional siyasət, post neft dövrü*

**Ключевые слова**: *трудный и славный путь развития, слабыми темпами, активная региональная политика, пост-нефтяной период*

**Keywords:** *a difficult and glorious ways of development, the slow pace, active regional policy, postoil period*

**Али Нуриев**
***Член-корреспондент Национальной Академии наук Азербайджана, профессор, заслуженный деятель науки***

## ТРУДНЫЙ И СЛАВНЫЙ ПУТЬ РАЗВИТИЯ ЭКОНОМИКИ СУВЕРЕННОГО АЗЕРБАЙДЖАНА

### РЕЗЮМЕ

В статье социально-экономическое развитие Азербайджана в годы независимости делится на два этапа: на первом этапе, охватывающем 1993-2003 годы, анализируются и обобщаются осуществленные Общенациональным лидером азербайджанского народа Гейдаром Алиевым мероприятия по выходу Азербайджана из глубокого кризиса, строительству правового, демократического государства, проведению реформ и переходу к рыночной экономике, интеграции экономики Азербайджана в мировую экономику посредством нефтяной стратегии, а также их положительные результаты.

На втором этапе, охватывающем 2004-2015 годы, анализируются творческое продолжение и развитие Президентом Ильхамом Алиевым политики Гейдара Алиева, его стратегия всестороннего развития и превращения Азербайджана в экономически сильное государство, а также реализация этой стратегии путем осуществления программ регионального социально-экономического развития (2004-2008, 2009-2013, 2014-2018), раскрываются особенности пост -нефтяного периода, в который вступил Азербайджан.

**Ali Nuriyev**
***Correspondent-member of Azerbaijan National Academy of Sciences, Professor, Honored Scientist***

## DIFFICULT AND GLORIOUS ECONOMY DEVELOPMENT PATH OF INDEPENDENT AZERBAIJAN

### SUMMARY

The author divides the social-economic development of Azerbaijan during independent years in two stages. The first stage covers the period from 1993 to 2003. The efforts and measures, taken by national leader Heydar Aliyev, for Azerbaijan's recovery from deep crisis, building democratic and civil state, implementing reforms and transition to market economy, as well as integration of Azerbaijan to the world economy, attracting the international investment and new technologies through oil strategy, has been analyzed and summarized.

At the second stage the author analyzed the period from 2004 to 2015 when the programs for creative continuation of Heydar Aliyev' policy are carried out by Ilham Aliyev. The comprehensive development strategy of Azerbaijan, its transformation to economically powerful state, successful results of programs on regional social-economic development and post-oil period are observed in the article.

GÜLNARƏ QURBANOVA
*Rəhbər Dövlət İdarəçiliyi Kadrlarının İxtisasının Artırılması İnstitutunun direktoru, professor*

# DÖVLƏT QULLUQÇULARININ YENİDƏN HAZIRLANMASI VƏ İXTİSASININ ARTIRILMASI SİSTEMİNİN TƏŞKİLİ VƏ İDARƏ EDİLMƏSİ

İxtisaslı, peşəkar dövlət qulluqçularının hazırlanması və onun elmi-metodiki təminatı Azərbaycan Respublikasının dövlət siyasətinin mühüm istiqamətini təşkil edir. Cəmiyyətdə sosial-iqtisadi, sosial-mədəni, siyasi, mənəvi şəraitdə ən mürəkkəb və ziddiyyətli məsələləri həll etməyə qadir olan yeni nəsil mütəxəssislərə ehtiyac çox böyükdür. Cəmiyyətin müxtəlif sahələrindəki dəyişiklikləri səmərəli idarə etmək məqsədilə kadrların peşəkar hazırlığı zəruridir və dövlət idarəçiliyi məhz onların peşəkar biliyindən və praktiki təcrübəsinin səviyyəsindən asılıdır.

Azərbaycan dövlətçiliyi hər zaman peşəkar kadrlara yüksək qiymət vermişdir. Təsadüfi deyil ki, Azərbaycan Respublikasının Prezidenti, ümummilli liderimiz H.Əliyevin 1999-cu il 3 yanvar tarixli fərmanına əsasən Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası yaradıldı. Həmin tarixdən etibarən DİA-da "Rəhbər kadrların ixtisasının artırılması" fakültəsi fəaliyyətə başladı və onun bazasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 11 dekabr 2014-cü ildə "Dövlət qulluqçularının əlavə təhsili ilə bağlı bəzi məsələlər haqqında" fərmanına əsasən Rəhbər Dövlət İdarəçiliyi Kadrlarının İxtisasının Artırılması İnstitutu Respublikada dövlət qulluqçularının təhsilinin təkmilləşdirilməsini həyata keçirir.

Bu gün əsas problem onunla bağlıdır ki, cəmiyyətin inkişafının müasir mərhələsindəki tələblərlə idarəetmə fəaliyyətindəki köhnə stereotiplər arasındakı ziddiyyətlər kəskinləşir. Hər bir idarəetmə orqanının işçisi fasiləsiz təhsil vasitəsilə daima peşə biliklərini yeniləməli və dərinləşdirməlidir. Dövlət qulluğu sahəsində kadr hazırlığının diversifikasiyası tələb olunur. Bununla bağlı əsas məsələ gələcək mütəxəssislərin peşəkar və şəxsi inkişaf birliyini təmin etmək, proqram-məqsəd konsepsiyasının, şəxsi yönümlü təlimin reallaşdırılmasını, təlim sisteminin inkişaf etdirilməsini, müasir elmi nailiyyətlərə əsaslanaraq peşəkar problemləri həll etmək üçün yönəlmiş mütəxəssis hazırlığını kadrlarla işləyərkən yeni metod və texnologiyaların istifadəsini tələb edir.

Dövlət qulluğunun ictimai sosial-hüquqi institut kimi inkişaf və fəaliyyət spesifikası peşəkar dövlət qulluqçularının hazırlanması xüsusiyyətlərini müəyyən edir. Dünya təcrübəsi sübut edir ki, dövlət qulluğunun təhsil sisteminin dəstəyi olmadan qurulması bir neçə onilliyin işidir. Dövlətin belə dəstəyi ilə bu müddət xeyli qısalır. Dövlət qulluqçularının yenidən hazırlanması və ixtisasının artırılması yeni keyfiyyətli dövlət qulluğu sisteminin formalaşdırılması ilə birbaşa bağlıdır və onun kadr təminatının əsas hissəsini təşkil edir. Bugün praktiki olaraq, dövlət qulluğunun təşkili və fəaliyyətində elə bir problem yoxdur ki, dövlət qulluqçularının peşəkarlığı ilə bağlı aydın izah oluna bilməsin.

Dövlət qulluğu institutu və dövlət qulluqçularının peşəkar hazırlıq sisteminin yaradılması sosial inkişaf paradiqmasının, mənəvi-əxlaqi qaydaların dəyişməsi şəraitində baş verir. Belə şəraitdə dövlət qulluqçularının fasiləsiz peşəkar təhsili institutunun yaradılması dövlətin güclənməsi və sosial yönümlü bazar iqtisadiyyatın qurulmasında aktual tələb və vacib faktor oldu. Dövlət qulluqçularının yenidən hazırlanması və ixtisasının artırılması sisteminin vəziyyəti və səviyyəsi bütün dövlət idarəçiliyi sisteminin uğurlu fəaliyyət və mükəmməlliyinin vacib şərtlərindən biridir.

Dövlət qulluqçularının yenidən hazırlanması və ixtisasının artırılması sistemi dövlət idarəçiliyi sisteminin bütöv və vahid altsistemi hesab edilməlidir. Bir tərəfdən dövlət idarəçiliyinin vəziyyəti və səviyyəsi bu altsistemin inkişaf səviyyəsinə və xarakterinə əhəmiyyətli təsir göstərir, digər tərəfdən isə o özü öz növbəsində dövlət idarəçiliyində səmərəliliyə və onun mükəmməlliyinə aktiv təsir edir.

Dövlət qulluğu institutunun inkişaf istiqamətləri və xüsusiyyətləri, dövlət qulluqçularına olan tələblər, dövlət qulluqçularının hazırlanmasının müasir vəziyyəti, xaricdə və bizdə peşəkar dövlət qulluqçularınn hazırlanması sisteminin təşkili təcrübəsinin təhlili əsasında dövlət qulluqçularını yenidən hazırlanması və ixtisasının artırılması sistemində məqsədlər, problemlər və prinsiplər qeyd etmək olar.

Dövlət qulluqçularının yenidən hazırlanması və ixtisasının artırılması sisteminin məqsədi dövlət qulluqçularının peşəkarlığını yüksək səviyyədə təmin etmək, dövlətin öz praktik fəaliyyətində problem və funksiyaları ən səmərəli və effektiv həyata keçirməkdir (7).

Dövlət qulluqçularının yenidən hazırlanması və ixtisasının artırılması sistemində məqsədlər konkretləşdirilir, onların sırasına növbətiləri əlavə etmək olar:

1) Dövlət qulluqçularının təsdiq edilmiş ixtisaslaşdırılmış tələblərə əsasən təhsili;
2) Dövlət qulluğunda inkişaf və fəaliyyətində fundamental və tətbiq problemi layihəsi;

3) Dövlət orqanlarının informasiya-analitik təminatı;
4) Dövlət qulluqçularının təhsil sistemi üçün yüksək səviyyəli elmi-pedaqoji kadrların hazırlanması, elmi-metodiki ədəbiyyatla təmin olunması, dövlət qulluğunda konsultativ xidmətin həyata keçirilməsi;
5) Dövlət qulluğu sahəsində beynəlxalq əməkdaşlığın həyata keçirilməsi.

Dövlət qulluqçularının yenidən hazırlanması və ixtisasının artırılması sisteminin təşkili və fəaliyyəti müəyyən prinsiplərə əsaslanmalıdır.

Dövlət qulluqçularının yenidən hazırlanması və ixtisasının artırılması sisteminin təşkili və fəaliyyətində növbəti əsas prinsipləri qeyd etmək olar:

1) vahidlik prinsipi;
2) fərqləndirmə prinsipi;
3) mütləq və fasiləsiz təhsil prinsipi;
4) təlimin qabaqlayıcı xarakteri prinsipi;
5) təlimin yüksək keyfiyyəti və səmərəli təminatı prinsipi;
6) Milli və xarici təcrübə nəzərə alınmaqla dövlət qulluqçularının yenidən hazırlanması və ixtisasının artırılması prinsipi

Vahidlik prinsipi o deməkdir ki, dövlət qulluqçularının peşəkar təhsilində dövlət vahid siyasət həyata keçirir və onu inkişaf etdirir. Bu öz birliyi ilə dövlət aparatını təşkil edən dövlət orqanları sisteminin vahidliyinə səbəb olur. Dövlət aparatının bütün elementlərinin səmərəli qarşılıqlı fəaliyyəti üçün dövlət qulluqçularının hazırlığında vahidliyə nail olmaq vacib şərtdir.

Vahidlik prinsipi həmçinin dövlət qulluqçularının təhsilini əhatə etməyi nəzərdə tutur. Kiçikdən böyüyə kimi bütün dövlət orqanlarında uğurlu fəaliyyət bütün həlqələrin dəqiq qarşılıqlı əlaqədə işləməsindən, idarəetmənin bütün səviyyələrində problemlərin keyfiyyətli vahid həllindən asılıdır. Yalnız idarəetmənin bütün həlqələrində kompleks razılaşdırılmış fəaliyyət nəzərədə tutulan hədəf nailiyyətə gətirib çıxarır. Əgər dövlət qulluqçuları qeyri-bərabər peşəkar hazırlığa malikdirlərsə, bu zaman idarəetmə prosesində dinamizm və səmərəliliyin pozulması qaçılmazdır.

Fərqləndirmə prinsipi vahidlik prinsipi ilə üzvi surətdə bağlıdır. O, ilk növbədə dövlət qulluqçularının peşəkar təhsilinin struktur, məzmun, forma və metodlarının növbəti a) dövlət orqanlarının səviyyə və xüsusiyyətlərindən; b) tutduğu vəzifədən; c) peşəkar hazırlıq səviyyəsindən; ç) dövlət qulluğunda təcrübə və ixtisasda iş stajından faktorlarla bağlılığını ifadə edir (5).

Məcburi və fasiləsiz təhsil prinsipi öz mahiyyətini normativ aktlarda tapır.

Bu prinsip dövlət qulluqçularının keyfiyyətli səviyyədə məqsədli yüksəlişinə yönəlib. Fasiləsiz təhsil prinsipi təhsilin qabaqlayıcı xarakteri prinsipi ilə sıx əlaqədədir. Adı çəkilən prinsip o mənaya gəlir ki, dövlət qulluqçularının yenidən hazırlanması və ixtisasının artırılması təlimi müasir elmi nailiyyətlərin mənimsənilməsinə, qabaqcıl təcrübəyə, təhsil prosesində yeni forma və metodların tətbiqinə əsaslanmalıdır. Bu prinsip təhsilin yüksək keyfiyyətli və səmərəli olmasını təmin edir. Bu prinsip dövlət qulluqçularının yenidən hazırlanması və ixtisasının artırılması sistemi nəticəsində təhsildə yüksək keyfiyyət və səviyyə vəd edir. Bu sistem ümumi və əlavə peşəkar təhsilin, həmçinin doktorantura təhsilinin bütün növ formalarını optimal, elastik şəkildə əhatə etməlidir. Təhsilin növ və formalarının səmərəli əlaqəsi, onların keyfiyyəti dövlət qulluğunda konkret vəzifəyə dövlət qulluqçularının daha tez adaptasiyası üçün şərait yaratmalıdır.

Dövlət qulluqçularının yenidən hazırlanması və ixtisasının artırılmasında hərtərəfli yanaşma yerli və xarici təcrübədə çox mühüm prinsipdir. Dövlət qulluğu sahəsində toplanmış təcrübəyə müraciət etməyin faydası odur ki, o, bir çox hüquqi dövlət institutlarının tarixi köklərini aşkarlayır, onların keçmişi və indiki halı arasında əlaqə və fərqlərin təsvirini yaradır.

Dövlət qulluqçularının yenidən hazırlanması və ixtisasının artırılması sisteminin yerli təcrübəyə əsaslanaraq formalaşdırılması, onun inkişafı və fəaliyyətinin tədqiqi təkcə elmi deyil, həmçinin praktiki əhəmiyyət kəsb edir, keçmiş təcrübədə mövcud olan mənfi və müsbət cəhətləri nəzərə almaq bir çox müasir problemləri də həll etməyə kömək edir. Bununla əlaqədar qısamüddətli kursların dövlət qulluqçularının ixtisasartırılmasındakı əvəzsiz rolu yerli və beynəlxalq ekspertlərin diqqətini cəlb edir. Dövlət qulluqçularının iki ixtisasda “Dövlət və bələdiyyə idarəçiliyi” və “Davamlı inkişafın idarəedilməsi” tədris proqramları layihəsi yalnız Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında Rəhbər Kadrların İxtisasının Artırılması İnstitutunda mövcuddur.

İnstitut 2013-cü ildə 1999-cu ildən fəaliyyət göstərən “Rəhbər kadrların ixtisasının artırılması” fakültəsinin bazasında yaradılmışdır.

Hal-hazırda institut üç istiqamət üzrə fəaliyyət göstərir:

1. “Rəhbər kadrların yenidən hazırlanması” fakültəsi;
2. “Rəhbər kadrların fasiləsiz təhsili” mərkəzi;
3. “Rəhbər kadrların tədrisinin kurikulum” mərkəzi.

İnstitut yarandıqdan sonra “Dövlət və bələdiyyə idarəetməsi” ixtisası öz növbəsində “Dövlət qulluğunun təşkili və idarə edilməsi”, “Regional idarəetmə ”, “Elektron idarəetmə” kimi ixtisaslaşmalara ayrıldı ki, bu da təhsilin keyfiyyətinin daha da yüksəlməsinə səbəb oldu. 2016-ci ildən isə yeni ixtisas “Davamlı inkişafın idarəedilməsi” fakültənin tədris planına daxil oldu. Eyni zamanda magistrantların dissertasiya mövzularının seçimi və yazılması dövlət qulluqçularının yenidən hazırlanmasını daha yüksək bir səviyyəyə qaldırdı.

1999-cu ildən bu günədək fakültəyə hər il orta hesabla 75 nəfər dövlət qulluqçusu qəbul edilir. 15 illik

fəaliyyəti ərzində fakültəni 1260 nəfərə yaxın müdavim-magistr bitirmişdir.

İkinci istiqamət üzrə qısamüddətli kurslara hər il 86 şəhər və rayon İcra Hakimiyyəti, nazirlik, komitə, agentlik, bələdiyyə idarəçiliyi bölmələrindən və digər dövlət orqanlarından dinləyici cəlb olunur. Son illərdə dinləyicilərin tərkibi vəzifə səviyyəsinə görə dəyişilib. Kurslara il ərzində dəfələrlə İcra başçılarının müavinləri, o cümlədən digər yüksək vəzifəli şəxslər cəlb olunmuşdur. Sözsüz ki, dinləyicilərin kontingenti dəyişdikcə daha maraqlı mühazirəçilər dəvət olunur. Dinləyicilər qarşısında Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri akademik Ramiz Mehdiyev və Administrasiyanın yüksək vəzifəli dövlət qulluqçuları, Azərbaycan Respublikasının Milli Məclisinin deputatları, nazirlər və nazir müavinləri, dövlət komitələrinin sədrləri, Azərbaycan Respublikasının qanunverici və icra hakimiyyəti orqanlarının rəhbər işçiləri, təcrübəli mütəxəssislər, DİA-nın və ölkənin ali məktəblərinin alimləri, Azərbaycanda fəaliyyət göstərən beynəlxalq təşkilatların nümayəndələri müxtəlif aktual mövzularla çıxış ediblər.

Üç böyük mərkəzin – Heydər Əliyev Fondunun dəstəyilə yaradılmış "Heydər Əliyev idarəçiliyi məktəbi"nin, "Qafqaz Araşdırmalar Mərkəzi"nin və dövlət qulluqçuları üçün BMT tərəfindən təşkil olunan treninqlərə dəstək layihəsi çərçivəsində açılmış təhsil mərkəzləri, orada dərslərin və seminarların keçirilməsi bizim institutumuza böyük dəstək olmuşdur.

Ümumiyyətlə, tədris metodları baxımından bizim əsas məqsədimiz odur ki, istər ixtisasartırmada, istərsə də magistraturada elə şərait yaradaq və elə təlim metodları tətbiq edək ki, təhsil alanlar tam şəkildə özlərini göstərə bilsinlər. Universal olaraq səmərəli və qeyri-səmərəli metodlar yoxdur. Bütün təlim prosesi aşağıdakı sxem əsasında təşkil olunur: qəbul etmək-anlamaq-yadda saxlamaq-tətbiq etmək-yoxlamaq. Yüksək keyfiyyətli təhsilə nail olmaq üçün bu mərhələləri ardıcıl keçmək lazımdır. Analitik informasiya sahəsində müxtəlif metodlardan istifadə dövlət qulluqçularının təliminin keyfiyyətinin yüksəlməsinə təşviq edir.

Bu nöqteyi-nəzərdən təlim metodlarının öz üstünlükləri və çatışmazlıqları var, ona görə də məqsəddən, şərtlərdən asılı olaraq indiki zamanda onları optimal olaraq birləşdirmək lazımdır. Təlim prosesinin aktiv (harda ki tələbə təlimin subyekti kimi iştirak edir) və passiv (harda ki tələbə hansısa təsir olunan obyekt rolunu oynayır) formaları mövcuddur.

Biz çalışırıq ki, daha çox aktiv formalardan istifadə edək. Məsələn, Qafqaz Mərkəzində Akademiyanın və TODAİ-nin müəllimləri tərəfindən magistrantlar üçün keçirilən dərslər interaktiv şəkildə təşkil olunmuşdur.

Hal-hazırda dünyanın aparıcı universitetləri elektron təhsil texnologiyasını qəbul edir, bu təhsil növü təhsildə adaptasiya, fərdilik və çeviklik təklif edir. Təhsilin fərdiləşdirilməsi tələbələrin biliyinin ilkin səviyyəsinin, onların yaş və psixoloji özəlliklərinin analiz və qeydlərinin, intellektul inkişaflarının qiymətləndirilməsini nəzərdə tutur.

Dövlət qulluqçularının təhsilinin informativ-analitik təminatı sahəsində internet şəbəkəsi vasitəsi ilə tədrisin təşkil olunması təhsil müəssisəsinin texniki, təşkilati imkanlarından asılı olaraq həyata keçirilməlidir.

Tədris prosesində informasiya şəbəkəsindən məqsədəuyğun istifadə bir neçə variantda ola bilər:

1. Tam elektron formada dərslərin keçirilməsi;
2. Qismən elektron formada dərslərin keçirilməsi;
3. Elektron formanın komponentlərinin lokal istifadə olunması (xidmətlər, tətbiqlər).

Müxtəlif tədqiqatlar göstərdi ki, kompüter telekommunikasiyasından istifadə və təlim prosesində informasiya-texnologiyalarının tətbiqi tələbələrin sərbəst hazırlığının keyfiyyətini artırır və öz maraq sahələrində biliklərini dərinləşdirir. İnnovativ təhsil modelləri və təhsil prosesinin yeni formalarından istifadə təcrübəsi qabaqcıl informasiya-kommunikasiya texnologiyalarına əsaslanır.

Son illər geniş səyyar kurs və seminarlar təşkil olunur. Demək olar ki, bu kurslar Azərbaycanın bütün regionlarını əhatə edir.

Ümumilikdə qısamüddətli ixtisasartırma kurslarının fəaliyyətinə nəzər salsaq görmək olar ki, 1999-cu ildən 2016-cı ilə qədər müəyyən müsbət dinamika müşahidə olunur. Lakin son illərdə əvvəlki illərlə müqayisədə həm istiqamətlərin, həm də dinləyicilərin sayında mühüm artım nəzərə çarpır.

*Cədvəl 1.*

| Tədris ili | Dinləyicilərin sayı | Kurs, seminar və təlimlərin istiqaməti |
|---|---|---|
| 1999–2000 | 216 | 7 |
| 2000–2001 | 171 | 6 |
| 2001–2002 | 157 | 6 |
| 2002–2003 | 148 | 6 |
| 2003–2004 | 161 | 7 |
| 2004–2005 | 236 | 7 |
| 2005–2006 | 332 | 8 |
| 2006–2007 | 271 | 8 |
| 2007–2008 | 280 | 8 |
| 2008–2009 | 313 | 8 |
| 2009–2010 | 297 | 8 |
| 2010–2011 | 282 | 10 |
| 2011–2012 | 301 | 11 |
| 2012–2013 | 576 | 20 |
| 2013–2014 | 1120 | 23 |
| 2014–2015 | 1233 | 24 |
| 2015–2016 | 1672 | 24 |

"Rəhbər kadrların tədrisinin kurikulum" mərkəzində kurs, seminar və təlimlərin proqramları tərtib olunur. Mövzular ölkədə gedən innovativ proseslərin məğzini əhatə edir. **(Cədvəl 2)**

*Cədvəl 2.*

| № | İstiqamətlərin adı |
|---|---|
| 1. | "Azərbaycan dövlətçiliyinin hüquqi əsasları və inzibati islahatlar" |
| 2. | "Dövlətin sosial siyasəti: mahiyyət, prioritetlər və həyata keçirilmə mexanizmləri" |
| 3. | "Azərbaycan Respublikasında gənclər siyasəti" |
| 4. | "Elektron hökumət" |
| 5. | "Azərbaycanda potensialların artırılması və texniki dəstək vasitəsilə insan alverinə qarşı mübarizənin səmərəliliyi üçün əməkdaşlığın gücləndirilməsi-111 faza" |
| 6. | "Azərbaycan Respublikasında Ailə, Qadın və Uşaq siyasəti" |
| 7. | "Azərbaycan Respublikasında Elektron İdarəetmədə Geoməkan Məlumatlarının İstifadəsi" |
| 8. | "Azərbaycanın Müasir Aqrar siyasəti" |
| 9. | "Miqrasiya proseslərinin dövlət tənzimlənməsi" |
| 10. | "Bələdiyyə İdarəçiliyinin Aktual Problemləri" |
| 11. | "İnvestisiya proseslərinin dövlət tənzimlənməsi və dövlətin maliyyə-kredit siyasəti" |
| 12. | "Təbiətdən İstifadə və Ətraf Mühitin Mühafizəsinin Dövlət Tənzimlənməsi" |
| 13. | "Azərbaycan Dövlət–Din Münasibətləri" |
| 14. | "Dövlət qulluğunun təşkilati əsasları və dövlətin kadr siyasəti" |
| 15. | "Azərbaycan Respublikasının xarici siyasəti" |
| 16. | "Dövlət satınalmaları və müqavilələrin idarəedilməsi" |
| 17. | "Davamlı insan inkişafı" istiqaməti (QHT-lər üçün) |
| 18. | "Bələdiyyə idarəçiliyinin aktual problemləri" |
| 19. | "Davamlı insan inkişafı" (KİV-lər üçün) |
| 20. | "Davamlı insan inkişafı" istiqaməti" (İqtisadiyyat istiqamətli) |
| 21. | "Yerli icra hakimiyyəti orqanlarının fəaliyyət istiqamətlərini, vəzifələrini və hüquqlarını müəyyən edən qanunvericilik aktlarının izahı" adlı seminarı |
| 22. | "Dövlət və ictimai iştirakçılıq" |
| 23. | "Azərbaycanın innovativ inkişafı" |
| 24. | Multikulturalizm Azərbaycan Respublikasının dövlət siyasəti kimi |

Yuxarıdakıları ümumiləşdirərək, qeyd etmək istərdim ki, son illər dövlət qulluqçularının təhsilinə yanaşma köklü şəkildə dəyişilmişdir. Bu gün dövlət qulluqçuları artıq iqtisadi rerurs kimi deyil, təhsil sisteminə lazım olan, ani səmərə verməyən, dövlət orqanlarının kadr strukturlarında və bələdiyyə idarəetməsində davamlı inkişafı təmin edən insan potensialı kimi qəbul olunur.

**Ədəbiyyat:**

1. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 11 dekabr 2014-cü ildə "Dövlət qulluqçularının əlavə təhsili ilə bağlı bəzi məsələlər haqqında" Fərmanı.
2. Mehdiyev R. Modernləşmə xətti yenə də gündəlikdədir, Bakı, 2008.
3. Mehdiyev R. İnkişafın Azərbaycan modeli, Bakı, 2010.
4. Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının 15 illiyində akademik R.Mehdiyevin çıxışı, 2014, http://azertag.az/xeber/
5. Цвык В.А., Профессиональная этика: основы общей теории, Москва, 2012.
6. Вержибок Г.В., Шупляк В.И., Минск, 2012.
7. Скобеев К.М., Проблемы обеспечения профессионализма государственной службы, СПБГУ, 1995.
8. Rəhbər Dövlət İdarəçiliyi Kadrlarının İxtisasının Artırılması İnstitutunun hesabatları.

**Açar sözlər:** *dövlət idarəçiliyi, təhsil sistemi, dövlət qulluqçuları, yenidən hazırlanma və ixtisasın artırılması, dövlət qulluqçularının yenidən hazırlanması və ixtisasının artırılması sisteminin məqsəd və prinsipləri*

**Ключевые слова:** *государственное управление, система образования, государственные служащие, переподготовка и повышение квалификации, цели и принципы системы переподготовки и повышения квалификации государственных служащих*

**Key words:** *public service, educational system, civil servants, retraining and advanced training system, the objectives and principles of the retraining and advanced training system*

**Гюльнара Гурбанова**

***Директор Института повышения квалификации руководящих кадров государственного управления при Академии Государственного Управления при Президенте Азербайджанской Республики, доктор психологических наук, профессор***

## ОРГАНИЗАЦИЯ И УПРАВЛЕНИЕ СИСТЕМОЙ ПЕРЕПОДГОТОВКИ И ПОВЫШЕНИЯ КВАЛИФИКАЦИИ ГОСУДАРСТВЕННЫХ СЛУЖАЩИХ

### РЕЗЮМЕ

Специфика развития и функционирования государственной службы, как публичного социально-правового института, предопределяет особенности профессиональной подготовки государственных служащих. Мировой опыт показывает, что становление государственной службы без поддержки образовательной системы – дело нескольких десятилетий. При наличии такой поддержки со стороны государства это время может быть существенно сокращено.

Становление системы переподготовки и повышения квалификации государственных служащих неразрывно связано с формированием качественно новой системы государственной службы Азербайджанской Республики, является составной частью ее кадрового обеспечения. Сегодня нет практически ни одного вопроса организации и функционирования государственной службы, который не имел бы ярко выраженного образовательного характера, не был бы связан с профессионализмом госслужащих. Развитие государственной службы и системы профессиональной подготовки кадров государственных служащих органически взаимосвязаны.

В статье изучается система переподготовки и повышения квалификации государственных служащих, которая должна рассматриваться как единая, целостная подсистема в системе государственного управления. Основываясь на анализе задач, особенностей и тенденций развития института государственной службы, выделены цели, задачи и принципы организации и функционирования данной системы, проведен анализ деятельности Института повышения квалификации руководящих государственных кадров Академии Государственного Управления при Президенте Азербайджанской Республики.

**Gulnara Gurbanova**

***Director of Institute for Professional Development of Senior Public Servants of the Academy of Public Administration under the President of the Republic of Azerbaijan, Doctor of psychology, professor***

## RETRAINING OF CIVIL SERVANTS AND ORGANIZATION AND ADMINISTRATION OF PROFESSIONAL IMPROVEMENT SYSTEM

### SUMMARY

Specificity of development and operation of the public service as a public socio-legal institution predetermines the civil service trainings. As world experience shows, the civil service development process takes the decades without educational support, however, this time can be reduced significantly due to government's support.

The development of civil service training and re-training is inextricably linked with the formation of a qualitatively new system of public service of the Azerbaijan Republic, as an integral part of its staffing. Nowadays, almost all issues on public service organization and operation has a pronounced educational character and is linked to the professionalism of civil servants. The development of the public service and civil servants training system are linked.

The article reviews the system of the civil service training and re-training which should considered as a single and integral subsystem within public administration.

Based on the goals, characteristics and trends of public service institution development, the objectives and principles of the organization and operation of civil service training, retraining and advanced training systems have been emphasized and the activities of Institute for Professional Development of Senior Public Servants of the Academy of Public Administration under the President of the Republic of Azerbaijan have been overviewed.

**ЧИНГИЗ ИСМАИЛОВ**

*Декан факультета «Административное управление», Академия Государственного Управления при Президенте Азербайджанской Республики, доктор географических наук, профессор*

# РЕГИОНАЛЬНАЯ ПОЛИТИКА И РЕАЛИЗАЦИЯ СТРАТЕГИИ ПО УСТОЙЧИВОМУ РАЗВИТИЮ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

В условиях беспрецедентного динамизма мирохозяйственной системы и локализации глобальных трендов актуализируется решение проблем по разработке стратегий и сценариев будущего развития мира и каждой страны в отдельности. Всесторонний анализ долгосрочных тенденций мирового развития позволяет очертить контуры ключевых положений и основные ориентиры по обеспечению основ устойчивого развития.

Происходящие политические, социально-экономические и экологические трансформации глобального масштаба накладывают свой отпечаток и проецируются на состоянии и развитии отдельных регионов и стран. Исходя из этого, формируется довольно сложное многообразие систем координат политических изменений и социально-экономического развития. Такие сдвиги обусловливают зарождение зон противоречий и противостояний, которые в ряде случаев перерастают в форму военных конфликтов. В этих непростых условиях глобальных изменений важную значимость приобретает проведение последовательной политики по обеспечению устойчивого развития и улучшению благосостояния населения.

В начале 90-ых годов, в период становления новой государственности в Азербайджане, страна столкнулась с очень сложными политическими и социально-экономическими проблемами. Армянская агрессия и оккупация 20% территории республики, поток беженцев и вынужденных переселенцев, политическое и экономическое давления извне привели практически к полному упадку экономики и обнищанию населения. Такое положение требовало незамедлительного решения стратегически важных задач будущего развития республики. Довольно сложный период перехода от экономики дефицита к рыночно-демократической системе управления обусловливал необходимость разработки и выстраивания долгосрочной региональной политики страны и целей ее развития. Правильный выбор политического курса создал предпосылки для осуществления кардинальных реформ.

Своеобразие геополитического положения республики, практически по всему периметру которой имели место зоны противостояний и конфликтов, где поднимали головы сепаратистские силы (при поддержке соседних стран), существенно усложняли условия осуществления социально-экономических преобразований и разработки региональной политики. В этом плане на северных и южных рубежах страны сохранялась напряженная обстановка, которая идеологически и политически поддерживалась извне. В этих условиях крайне сложным было выстраивание модели региональной политики и, тем более, будущего развития страны.

Региональные и ведущие мировые державы, отслеживая геополитические изменения в регионе, в соответствии с собственными интересами старались извлечь максимум выгоды из новой ситуации. Одновременно с этим, для обеспечения условий суверенного развития республики архиважным являлся вопрос выбора ориентиров будущего развития и поиск путей привлечения иностранных инвестиций для возрождения экономики. В связи с этим, мудрым и дальновидным решением стала закладка основ стратегии открытых дверей по привлечению иностранных инвестиций и реализация проекта «Контракта века». Подписание «Контракта века» в 1994 году открыло путь к притоку инвестиций и новых технологий для разработки нефтегазовых месторождений азербайджанского сектора Каспийского моря.

### *Нефтяная индустрия как системообразующее звено экономики республики*

Подписание «Контракта века» с ведущими транснациональными компаниями мира открыло новые возможности по интеграции экономики республики в мирохозяйственную систему и заложило основы энергетической безопасности страны. Вследствие этого началось постепенное возрождение ведущих отраслей экономики республики, что нашло свое отражение в неуклонном росте основных экономических показателей. Начиная с 1996 года, в течение десяти лет ежегодный рост экономики в среднем составлял 13,6%. Уже к 2006 году рост внутреннего валового продукта по отношению к предыдущему возрос до 36,6 %. Все это, конечно же, было достигнуто за счет нарастающего объема

нефтегазодобычи. Экспорт углеводородного сырья и рост величины нефтедолларовых поступлений создавали благоприятные условия для проведения программ по поддержке и развитию других отраслей экономики республики.

С целью разумного и более эффективного использования валютных поступлений, а также – справедливого их распределения и сохранения для будущих поколений в конце 1999 года был создан Государственный Нефтяной Фонд Азербайджанской Республики (ГНФАР). Нефтяной фонд осуществляет финансирование национальных проектов, имеющих большое значение для республики. В частности, ГНФАР профинансировал проект нефтепровода Баку – Тбилиси – Джейхан, а в нстоящее время финансирует строительство железной дороги Баку – Тбилиси – Карс. Создание ГНФАР и аккумулирование нефтедолларовых поступлений дали возможность субсидировать также развитие важнейших отраслей ненефтяного сектора. В результате чего последовательно стали реализовываться соответствующие государственные программы, а именно – приоритетным стало финансирование программ по развитию строительства, транспорта, сельского хозяйства, информационных технологий, туризма и других отраслей инфраструктуры, что способствовало постепенному увеличению доли ненефтяного сектора в экономике республики.

За прошедший период величина аккумилируемых валютных запасов в ГНФАР возросла с 270 млн. долларов (в 1999 г.), до 33,1 млрд.долларов (в 2015 г.). Уместно отметить, что уже в 2015 году удельный вес налоговых поступлений от ненефтяного сектора в экономику республики превысил 70% (2). Для обеспечения прозрачности финансовой деятельности ГНФАР ежегодно проводятся аудиторские проверки, готовятся отчеты, в которых указывается, из каких средств в Фонд поступают деньги. Полученные результаты для представления общественности обычно публикуются в печати, а также размещаются на интернет-сайте ГНФАР.

Разработка и реализация продуманной стратегии по использованию углеводородных ресурсов и их транспортировке к потребителям стали ключевым условием обеспечения экономического развития региона. Тем самым были заложены основы стратегии нефтяного развития республики, в соответствии с чем были созданы благоприятные условия для привлечения иностранных инвесторов. Начиная с 2000 года, значительное улучшение финансово-экономического положения республики обусловливало рост как внешних, так и внутренних инвестиций (рис.1). За прошедший период общая величина инвестиций, направленных на развитие экономики страны, увеличилась с 4,24 (2003 г.) до 18,40 млрд. манат (2015 г.).

В результате потока инвестиций и импорта новейших технологий значительно увеличилась величина ВВП республики. За последние 20 лет приток иностранных инвестиций в экономику Азербайджана превысил величину 120 млрд. долларов. Достаточно отметить, что добыча и транспортировка нефти и газа из Азербайджана в западном направлении одновременно способствовали экономическому развитию Грузии. Неоспоримым фактом остается то, что за последние годы более 60% налоговых поступлений в бюджет Грузии обеспечивается за счет азербайджанской нефтяной компании SOCAR.




**Рис.1.** *Динамика инвестиций, направленных в экономику Азербайджана (млрд. манат)*

Последовательная реализация инвестиционной политики за пределами республики способствует углублению экономической интеграции с зарубежными странами. Так, например, благодаря азербайджанским инвестициям в Турции осуществляется строительство крупного нефтехимического комплекса «Petkim». К концу 2016 года величина инвестиций в экономику Турции превысила 20 млрд.долларов (3). Вместе с тем, обострение конкуренции по привлечению зарубежных инвестиций и углубление мирового экономического кризиса, на которые откладывает свой отпечаток нарастание напряженности международной политической обстановки, существенно усложняют возможности обеспечения устойчивого притока инвестиций. Вследствие этого, за последние два года в республике несколько снизилась общая величина инвестиций. Такая тенденция сокращения инвестиций характерна для большинства стран.

Нефтяная индустрия оказывала непосредственное влияние и на выстраивание региональной политики с сопредельными странами, о чем свидетельствует доминант нефтяной составляющей в развитии экономических связей с Казахстаном.

Казахстан обладает самыми крупными запасами углеводородного сырья в Прикаспийском регионе. Величина доказанных запасов нефти в республике составляет 5,5 млрд.т , что позволяет производить 80 млн.т нефти в год (4). Возможности эксплуатируемых трубопроводов недостаточны для обеспечения растущего экспортного потенциала республики. За исключением трубопровода Баку-Тбилиси-Джейхан (БТД), у страны нет гарантированно независимого, надежного и безопасного маршрута экспорта нефти. С началом третьей фазы разработки морского месторождения “Кашаган” потребность в увеличении объемов экспорта нефти еще более возрастет. С учетом этого, Азербайджан и Казахстан планируют провести новый нефтепровод Есене-Курык-Баку протяженностью 739 километров. На начальном этапе мощность нового трубопровода составит 23–25 млн.т нефти в год с возможностью расширения в будущем до 56 млн.т.

При организации совместных пространственно-логистических образований остаются нереализованными значительные потенциальные возможности в области привлечения иностранных, в том числе взаимных инвестиций. Последние создают благоприятные предпосылки по нарастанию тесноты экономических взаимосвязей и сотрудничества, где уровень развития транспортной составляющей играет определяющую роль. В реализации совместных проектов по строительству трубопроводов приоритетность взаимных инвестиций может стать дополнительным импульсом в развитии международных транспортно-коммуникационных систем (рост морских перевозок, создание нефтяных терминалов, реконструкция портового хозяйства и др.).

Недостаточное использование имеющихся возможностей по совместному инвестированию является одной из причин затягивания предполагаемых сроков введения в строй международных транспортных магистралей. Примером тому могут служить транспортные проекты «Север-Юг», Баку-Тбилиси-Карс (Турция) и др. Достаточно отметить, что по последнему проекту, предусматривающему объединение сети железных дорог, Китая, стран Центральной Азии, Азербайджана, Грузии и Турции, обеспечивающему железнодорожный выход в страны Европы, было вложено инвестиций на сумму в 800 млн. долларов (до границы с Турцией) лишь только азербайджанской стороной. Хотя, очевидно, что дивиденды от эксплуатации этой железнодорожной линии будут получать не только участники проекта, но и многие другие страны евро-азиатского региона.

### *Основные контуры стратегии будущего развития республики*

Наша республика, как часть изменяющегося мира, в будущем также будет подвержена влиянию новых вызовов и еще большего обострения конкуренции. С учетом этого, следует предусмотреть различные сценарии будущего развития, т.к. новые вызовы и угрозы глобального масштаба могут кардинально изменить рисунок и последовательность выбранных приоритетов.

Многие крупные политики и ученые неоднозначно видят будущее мирового развития. В качестве примера, стоит обратить внимание на переосмысление своих взглядов известного ученого Фрэнсиса Фукуямы, которое изложено в его новой книге «Политическое устройство и политический упадок: от индустриальной революции до глобализации демократии» (5). Он признает, что у демократий появились признаки упадка – такие, как рост экстремистских настроений в Европе, очевидные провалы Запада в попытках привить демократию тем странам, где ее не было. При всем этом, он пишет: «Либеральную демократию нельзя назвать универсальной для всего человечества, …. идет постоянный процесс усовершенствования, приводящий со временем как к эволюции в отдельных странах, так и к общей эволюции, а именно – к конвергенции политических институтов». Трудно предсказуемые тренды мирового развития существенно осложняют задачи реализации стратегии политического и социально-экономического будущего республики.

29 декабря 2012 года Указом Президента Азербайджанской Республики была утверждена Концепция Развития «Азербайджан 2020: взгляд в будущее», в соответствии с которой обозначились основные перспективы нового этапа развития страны. Реализация программ развития по выделенным в Концепции

перспективным направлениям уже к 2020 году создаст возможность вхождения республики в группу стран с высоким уровнем конкурентоустойчивости.

В новых условиях углубления глобального экономического кризиса важную значимость приобрела разработка среднесрочной стратегии социально-экономического развития республики. В свете этого, Распоряжением Президента Азербайджанской Республики от 16 марта 2016 года были утверждены «Главные направления стратегической дорожной карты по национальной экономике и основным секторам экономики», которые призваны обеспечить устойчивость осуществляемых в стране экономических реформ (6).

В рамках Стратегической дорожной карты были подготовлены перспективы экономического развития и план мероприятий на 2016-2020 годы, долгосрочный прогноз до 2025 года и целевой прогноз на период после 2025 года. Предполагается, что Стратегическая дорожная карта в течение последующего десятилетия будет основным стратегическим документом экономического развития страны. При позитивных трендах устойчивого экономического развития республики, за последние два года наметились черты замедления и даже снижения роста по отдельным отраслям.

В условиях снижения объемов производства и ряда экономических показателей, на повестку дня встает вопрос о повышении качества производимых продуктов и оказываемых услуг. Как бы ни парадоксальным не казалось, в краткосрочной перспективе актуальным становится задача обеспечения «развития» без роста. То есть, мы должны воспользоваться возможностью извлечь определенные выгоды из сложившегося неблагоприятного экономического положения – нестабильность энергетических рынков, стагнация и спад экономических связей, обострение конкуренции, напряженность в геополитическом положении и т.д. В этом отношении основной акцент должен быть сделан на более полное и эффективное использование внутренних ресурсов за счет значительного повышения качества труда и произведенной продукции. Только в этом случае мы можем выдержать конкуренцию и застолбить достойное для себя место в международном разделении труда. Все более явным становится, что развитие республики в последние годы наталкивается на серьезные барьеры, возникшие вследствие общемировых политико-экономических кризисных тенденций. В этой ситуации крайне важным становится четкое определение направлений использования валютных поступлений, полученных от экспорта углеводородного сырья, главной целью которого является модернизация экономики республики и обеспечение ее конкурентоспособности.

Проводимые экономические реформы и диверсификация экономики создали возможность для развития ненефтяного сектора. В противоположность концентрации нефтяной промышленности на Абшеронском полуострове, преобладающая часть остальных отраслей экономики ( т.е. ненефтяной сектор) размещены в регионах республики. В соответствии с этим своевременной стала подготовка и последующая реализация государственных программ по социально-экономическому развитию регионов республики. Реализуемая, третья, государственная программа по социально-экономическому развитию регионов республики на период 2014-2018 годы, акцентирована на развитие инфраструктуры, более эффективное использование ресурсного потенциала и на поддержку предпринимательства. С учетом неравномерности дислокации ресурсов, выбор по обозначению «полюсов роста» в регионах республики пал на создание агро-,техно- и индустриальных парков. В концептуальном плане, это можно признать как один из рычагов по вовлечению в хозяйственный оборот имеющихся ресурсов и стимулированию развития фермерских хозяйств. В ближайшие годы планируется построить 20 агропарков, преобладающую часть которых предполагается разместить в регионах республики. Уже на стадии завершения находятся парки в Шамкирском и Яламинском районах. Эти агропарки дадут дополнительный импульс экономическому развитию всех прилегающих районов, одновременно содействуя решению региональных проблем занятости населения.

Для обеспечения устойчивого социально-экономического развития непременным условием становится использование человеческого капитала. В этом отношении архиважной представляется подготовка высококвалифицированных специалистов и качественное повышение уровня образования. Как известно, качество уровня образования и подготовки специалистов определяется степенью их востребованности рынком труда, т.е. удельным весом трудоустроенных выпускников. В этом случае, именно этот показатель отображает реальный имидж учебного заведения, а не какие-то международные рейтинги. Поэтому, мобильность образовательных программ и количество подготавливаемых специалистов должны соответствовать запросам рынка. Принимая во внимание переплетение и взаимосвязанность многих проблем современности, одним из важных ориентиров становится подготовка специалистов по междисциплинарным направлениям. В контексте этого, примечательным фактом можно считать проведенный в 2016 году первый прием студентов в Академию Государственного Управления при Президенте АР по специальности «управление устойчивым развитием». Будущие выпускники, усвоив фундаментальные знания в области политики, экономики,

социологии и экологии, как специалисты высокого уровня, можно ожидать, внесут свой вклад в дальнейшее устойчивое развитие республики.

Продолжение структурных реформ во всех сферах политической и социально-экономической жизни общества станет залогом успешного развития республики, благо для этого имеется политическая воля, в соответствии с чем реализуется комплекс государственных программ по устойчивому развитию страны.

**Литература:**


1. U.Ələkbərov. Azərbaycan Respublikasının davamlı inkişaf göstəriciləri beynalxalq təşkilatların hesabatlarında, Dövlət İdarəçiliyi: Nəzəriyyə təcrübə. №2, 2016.
2. http://www.cbc.az/ru/news/economics/udelniy-ves-nalogovix-postupleniy-ot-neneftianogo-sektora-v-azerbaydjane-previsil-70.page
3. http://azerbaijan.ved.gov.ru/ru/news/14438
4. Чердабаев Р.Т. Нефть Казахстана. Вековая история.Астана, 2012.
5. Francis Fukuyama Political Order and Political Decay: From the Industrial Revolution to the Globalization of Democracy. Farrar, Straus, & Giroux, 2014. pp. 658.
6. http://www.president.az/articles/21993



**Açar sözlər:** *regional siyasət, davamlı inkişaf strategiyası, dövlət proqramları, qeyri-neft sektoru, iqtisadi inkişafın tənzimlənməsi*

**Ключевые слова:** *региональная экономика, стратегия устойчивого развития, государственные программы, ненефтяной сектор, регулирование экономического развития*

**Key words:** *regional economy, strategy of sustainable development, goverment programs, non-oil sector, the regulation of economic development*



**Çingiz İsmayılov**

***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının İnzibati İdarəetmə fakültəsinin dekanı, coğrafiya elmləri doktoru, professor***


## AZƏRBAYCAN RESPUBLİKASININ REGİONAL SİYASƏTİ VƏ DAVAMLI İNKİŞAF STRATEGİYASININ REALİZƏ EDİLMƏSİ

### XÜLASƏ


Məqalədə Azərbaycanda regional siyasətin formalaşma şəraiti və davamlı inkişafın əsas istiqamətləri təhlil olunur. Burada əsas diqqət ölkənin regional siyasətinin ümumi respublika və regionlar səviyyələrində fərqlərin açıqlanmasına yönəlmişdir. Dünyada cərəyan edən qlobal çağırışların ölkənin inkişafına təsiri, yaranan risklər, bu vəziyyətdə görüləsi tədbirlərin əsas istiqamətləri göstərilmişdir. Respublikanın davamlı inkişafının təmin olunmasında region ölkələri ilə balanslaşdırılmış siyasətin realizə edilməsi ilə yanaşı, daxili resursların daha səmərəli istifadəsi məsələsi hərtərəfli təhlil olunmuşdur. Yaranmış yeni şəraitdə ölkənin davamlı inkişafının ardıcıl olması üçün qeyri-neft sektorun inkişafının əhəmiyyəti qiymətləndirilmişdir.



**Chingiz Ismayilov**

***Dean of the Faculty of Administrative Management, PhD in Geography, Professor The Academy of Public Administration under the President of the Republic of Azerbaijan***


## REALISATION OF REGIONAL POLICY AND SUSTAINABLE DEVELOPMENT STRATEGY OF THE REPUBLIC OF AZERBAIJAN

### SUMMARY


The paper analyzes the main directions of the regional policy and the conditions of sustainable development in the Republic of Azerbaijan. The main focus has been based on the explanation of distinctions in the levels of regional and the countrywide policy. The paper indicates that the efficiencies of the flowing global challenges in the world for the development of the country and existent risks in this condition the issues should be addressed. In order to ensure the sustainable development of the country, the pecularity of non-oil sectors has deeply been discussed.

**ETİBAR NƏCƏFOV**

***Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri xidmətinin baş məsləhətçisi, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Fəlsəfə və Sosial Psixologiya kafedrasının müdiri, fəlsəfə elmləri doktoru, professor***

# İCTİMAİ İNKİŞAFDA MƏDƏNİYYƏTİN APARICI ROLU VƏ MULTİKULTURALİZM SİYASƏTİ

Müasir dövrdə dünya dövlətlərinin əksəriyyətində etnik, irqi, dini və mədəni müxtəlifliklər mövcuddur. Bu müxtəlifliklər özünü cəmiyyətdə olan çoxmədəniyyətlilikdə göstərir. Etnik, irqi, dini və mədəni müxtəlifliklər tarixi prosesin inkişafının nəticəsi kimi obyektiv xarakter daşıyır. Onların formalaşmasında obyektiv və subyektiv xarakter daşıyan müəyyən faktorlar mühüm rol oynamışdır. Məsələn, Azərbaycanda etnik-mədəni müxtəlifliyin, çoxmədəniyyətliliyin meydana gəlməsində obyektiv faktorlardan *tarixi və coğrafi faktorların* rolunu göstərmək olar. Başqa sözlə desək, tarixi və coğrafi faktorlar Azərbaycanda çoxmədəniyyətli, multikultural cəmiyyətin meydana gəlməsinin əsas obyektiv səbəbləridir. Tarixən Azərbaycan çoxmədəniyyətli bir dövlət olmuşdur. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, ***"leksikonumuzda nisbətən yeni söz olan multikulturalizm ənənələri Azərbaycanda əsrlər boyu həmişə mövcud olub. Sadəcə, müxtəlif cür adlanıb, lakin mahiyyəti dəyişməyib" (2)***. Azərbaycanın tarixinin bütün mərhələlərində onun ərazisində müxtəlif xalqların nümayəndələri birgə əmin-amanlıq şəraitində yaşamışlar. Burada məskunlaşmış milli azlıqlar etnik, dini, irqi mənsubiyyətlərinə, etnik-mədəni dəyərlərinə görə əhalinin çoxluğunu təşkil edən (*titul etnos olan*) Azərbaycan türkləri tərəfindən təqib olunmamış və diskriminasiyaya məruz qalmamışlar.

Azərbaycanda multikultural cəmiyyətin formalaşmasında coğrafi faktorun isə rolu ölkənin olduqca əlverişli bir coğrafi məkanda yerləşməsində özünü göstərir. Azərbaycanın ərazisi müxtəlif mədəniyyətlərin və sivilizasiyaların qovuşduğu bir yerdir. Müxtəlif xalqların tarixi təcrübəsinə əsasən, belə ərazilərdə yerləşən ölkələrin xalqları müxtəlif etnik, irqi, dini və mədəni qrupların nümayəndələri ilə qarşılaşaraq onlarla iqtisadi-ticarət və mədəni əlaqələrini inkişaf etdirmişlər. Bu isə öz növbəsində belə ərazilərdə multikultural mühitin formalaşması üçün əlverişli şərait yaratmışdır. Məlum olduğu kimi, Azərbaycanın ərazisi müxtəlif sivilizasiyaların, mədəniyyətlərin və dinlərin kəsişməsində yerləşir. Buradan qədim İpək Yolu keçmiş, ölkəmizin bu əlverişli coğrafi yerləşməsi onun etnik-mədəni müxtəlifliyə malik olan bir cəmiyyət kimi formalaşmasında və inkişafında əhəmiyyətli rol oynamışdır.

Azərbaycanda etnik-mədəni müxtəlifliklərin, çoxmədəniyyətli, multikultural cəmiyyətin meydana gəlməsinin subyektiv səbəblərinə gəldikdə *ölkəni idarə edən dövlət xadimləri və Azərbaycan xalqı* nəzərdə tutulur.

Müxtəlifliklər xalqların etnik-mədəni dəyərlərini, mədəniyyətlərini xarakterizə etməklə onların dünyagörüşü və fəaliyyətlərinin əsasını təşkil edir. Hər bir xalq öz etnik-mədəni dəyərlərinin qorunmasında və inkişaf etdirilməsində maraqlıdır. Bu səbəbdən etnik-mədəni müxtəlifliklərin düzgün tənzimlənməsi hər bir çoxmədəniyyətli dövlət üçün böyük praktiki əhəmiyyət kəsb edən bir məsələdir. Etnik-mədəni müxtəlifliklərin düzgün tənzimlənməsinə gəldikdə bu məqsədlə aparılan multikulturalizm siyasəti ən optimal siyasətdir. Belə ki, multikulturalizm siyasəti qeyd olunan müxtəlifliklərin tənzimlənməsi ilə bağlı olan digər mümkün siyasətlərdən (assimilyasiya, izolyasiya və izolyasiyanın variantı olan aparteid) fərqli olaraq etnik-mədəni müxtəlifliklərin və onların əsasını təşkil edən dəyərlərin qorunmasına və inkişafına yönəlmişdir. Multikulturalizm etnik, irqi, dini və mədəni müxtəlifliklərin tənzimlənməsinə yönələn bir siyasət kimi assimilyasiya siyasətindən fərqli olaraq milli azlıqların etnik-mədəni dəyərlərinin ləğv edilməsinin qarşısını almaqla, bu dəyərləri qorumaqla yanaşı, izolyasiya siyasətindən fərqli olaraq milli azlıqların etnik-mədəni dəyərləri ilə titul etnosun etnik-mədəni dəyərlərinin bir-birinə qarşılıqlı təsir etmələri üçün lazımi şərait yaradır və milli azlıqların yaşadıqları cəmiyyətə inteqrasiya olmaları üçün əlverişli imkan təklif edir. Başqa sözlə desək, multikulturalizm nə milli azlıqların etnik-mədəni dəyərlərini assimilyasiyaya uğradır, nə də ki, onların bu dəyərlərinin inkişafını cəmiyyətin inkişafından təcrid edir. Multikulturalizm titul etnos ilə milli azlıqların etnik-mədəni dəyərlərinin inkişafı üçün eyni şərait yaratmaqla onların mədəniyyətlərinin qarşılıqlı təsiri üçün zəmin yaradır.

Etnik-mədəni müxtəlifliklərin tənzimlənməsində multikulturalizm siyasətinin əhəmiyyəti, o cümlədən onun assimilyasiya və izolyasiya siyasətlərinə münasibətdə əsas üstünlüyü ondadır ki, bu siyasət etnik-mədəni

müxtəliflikləri və onların əsasını təşkil edən etnik-mədəni dəyərləri qorumaqla və inkişaf etdirməklə müasir ictimai inkişafda mədəniyyətin aparıcı rol oynaması üçün əlverişli şərait yaradır. Bu məqalədə multikulturalizm siyasəti ilə müasir ictimai inkişafda mədəniyyətin aparıcı rol oynaması arasında münasibət araşdırılır.

Müasir dövrdə etnik-mədəni müxtəlifliklərin və onların əsasını təşkil edən etnik-mədəni dəyərlərin qorunmasının və inkişafının vacibliyi ilk növbədə onların əhəmiyyətindən irəli gəlir. Tarixi prosesdə formalaşan, müsbət və obyektiv xarakter daşıyan, insanların dünyagörüşünün və fəaliyyətlərinin məzmununu müəyyən edən və istiqamətləndirən etnik-mədəni müxtəlifliklər və onların əsasını təşkil edən etnik-mədəni dəyərlər xalqların müasir ictimai inkişafında mühüm müəyyənedici rol oynayır. Bu isə müasir dövrdə mədəniyyətin ictimai inkişafda aparıcı rol oynamasından irəli gəlir.

Müasir dövrdə mədəniyyətin ictimai inkişafda aparıcı rol oynaması ideyası müasir ictimai inkişafın, xüsusilə də onun səbəb və istiqamətinin, o cümlədən xalqların ölkə daxilində və beynəlxalq münasibətlər sistemində davranışının tədqiq olunmasının ən mühüm metodoloji prinsiplərindən biridir (9, c.63-68).

Mədəniyyətin ictimai inkişafda aparıcı rol oynaması ideyasını əsaslı şəkildə ilk sübut edənlərdən biri tanınmış alman sosioloqu Maks Veber olmuşdur. O, mədəniyyətin dəyərlərini cəmiyyətin sosial-iqtisadi inkişafının mühüm səbəblərindən biri kimi qələmə verirdi. Konkret tarixi faktlara əsaslanaraq, Veber mədəniyyətin dəyərlərinin, xüsusilə müəyyən dinlərdə olan etik dəyərlərinin sosial-iqtisadi inkişafa səbəb olmasını göstərmişdir (11).

Mədəniyyətin ictimai inkişafda aparıcı rolunun artması müasir ictimai inkişafın xüsusiyyətlərindən irəli gəlir. Bu xüsusiyyətlər isə dünya kommunist sisteminin dağılması və beynəlxalq münasibətlərin yeni sisteminin formalaşması ilə bağlıdır. Məlum olduğu kimi, soyuq müharibə illəri dövründə ideoloji, siyasi, iqtisadi və hərbi sahələrdə bir-birinə düşmən olan iki siyasi sistem – keçmiş Sovet İttifaqının başçılıq etdiyi kommunist sistemi və ABŞ-ın ətrafında birləşən Qərb dünyası – qarşı-qarşıya duranda onların xalqlarını, həmçinin bu sistemlərdən birinə mənsub olan “üçüncü dünya” ölkələrinin xalqlarını ilk növbədə qarşı tərəfdən gələ bilən təhlükə narahat edirdi. Belə olan şəraitdə bu xalqlar arasında əsas fərqli cəhətlər ideoloji, siyasi, yaxud iqtisadi xarakter daşıyırdı. Dünya kommunist sisteminin dağılması eyni zamanda bir-birinə zidd olan iki sosial-siyasi sistemdən birinin tarix arenasından getməsinə gətirdi. Nəticədə dünya xalqları öz mədəni köklərinə, daha konkret desək, etnik-mədəni dəyərlərinə müraciət etmək imkanını əldə etdilər. Başqa sözlə desək, dünya kommunist sisteminin dağılması soyuq müharibəyə son qoymaqla bir-birinə zidd olan iki sosial-siyasi sistemin siyasi, hərbi, iqtisadi və ideoloji qarşıdurmasını aradan qaldırdı. Bunun nəticəsində dünya xalqları öz etnik-mədəni dəyərlərinə müraciət etmək imkanını əldə etdilər. Post-kommunist dövrdə tarixinə, dininə, dilinə, ümumiyyətlə, etnik-mədəni dəyərlərinə müraciət edən xalqlar öz kimliyini müəyyən edirlər. Bu dəyərlər xalqlar arasında olan əsas fərqləri təşkil edir. Bununla əlaqədar Samuil Hantinqton “Sivilizasiyaların toqquşması və dünya düzəninin yenidən qurulması” adlı kitabında qeyd edir: “Yeni dünyada xalqlar arasında əsas fərqlər ideoloji, siyasi, iqtisadi deyil, mədəni xarakter daşıyır” (6, p.21). Müasir dövrdə xalqlar öz tarixlərinə, dinlərinə, etnik-mədəni dəyərlərinə müraciət edərək kimlikləri müəyyən edirlər.

Müasir Qərb ədəbiyyatında Samuil Hantinqton, Ronald İnqleqard, Frensis Fukuyama, Zbiqnev Bjejinski, Fərid Zəkəriyyə və başqa müəlliflər ictimai inkişafda mədəniyyətin aparıcı rol oynadığını qeyd edirlər (9, c.63-68).

Samuil Hantinqton yuxarıda qeyd etdiyimiz kitabında ictimai inkişafda mədəniyyətin aparıcı rol oynaması ideyasına əsaslanaraq, müxtəlif ölkələrin sosial-iqtisadi inkişafında əldə etdikləri nailiyyətləri, eləcə də üzləşdikləri çətinlikləri onların mədəniyyətlərinin xüsusiyyətləri ilə izah edir. Bununla bağlı o, qeyd edir: “Şərqi Asiya ölkələrinin iqtisadi nailiyyətləri bu regionun mədəniyyəti ilə bağlıdır. Sabit demokratik siyasi sistem yaratmaq cəhdlərində bu region ölkələrinin üzləşdikləri çətinliklər də onların mədəniyyətindən irəli gəlir” (6, p. 28).

Samuil Hantinqton “İyirmi ildən sonra: Üçüncü dünyanın gələcəyi” adlı məqaləsində aparıcı Qərb dövlətlərinə 50-dən artıq azad olmayan ölkələrdə elektoral demokratiyanın yeridilməsi fikrindən əl çəkib Latın Amerika ölkələrindəki elektoral demokratiyanı liberal demokratiyaya çevrilməsi ilə məşğul olmalarını tövsiyə edir. O, bu tövsiyəsini Latın Amerika ölkələrinin həm mədəniyyət (Latın Amerika ölkələrinin əksəriyyəti dini baxımdam katolisizmə aiddir və bu ölkələrdə Qərb dillərində danışırlar), həm də iqtisadiyyat baxımdan (bu ölkələr ümumdaxili məhsulun adam başına düşən həcminə görə orta səviyyəli ölkələr qrupuna daxildir) Qərb ölkələrinə yaxınlığı ilə əsaslandırır. Eyni səbəblərə görə (din və dil baxımından) o, növbəti üstünlüyü Qərb ölkələrinə yaxın olan pravoslav ölkələrinə verir (7. p. 9). Bu məqalədə Hantinqton Konfusian və İslam mədəniyyətlərinə mənsub olan ölkələr haqqında heç nə demir, çünki o, hesab edir ki, bu ölkələr mədəniyyət baxımından liberal demokratiyadan uzaqdırlar.

Samuil Hantinqtonun Konfusian mədəniyyətinin liberal demokratiya ilə uyğunsuzluğu haqqında ideyası “Asiya inkişaf yolu” konsepsiyasında da müdafiə olunur.

“Asiya inkişaf yolu” konsepsiyası ötən əsrin 80-ci illərində yaranmışdır. Bu konsepsiyanı irəli sürənlərdən Sinqapurun sabiq Baş naziri Li Kuan Yevi (1959–1990) və Malayziyanın sabiq Baş naziri Məhəmməd Mohatiri (1981–2003) göstərmək olar (5, p.15).

“Asiya inkişaf yolu” konsepsiyası xüsusilə Sinqapurda geniş yayılmışdır. Bu, ilk növbədə Sinqapurun siyasi rəhbərliyinin bəzi nümayəndələrinin 1980-ci illərin sonlarında “Asiya inkişaf yolu” konsepsiyasını müdafiə etmələri ilə bağlı idi. Bu konsepsiyanı ölkənin sabiq Baş naziri Li Kuan Yevlə yanaşı Xarici İşlər naziri Kişore Maxbubani və görkəmli diplomat Tommi Kox müdafiə edirdilər (5, p.16). Sinqapurdan başqa bu konsepsiya Yaponiya, Malayziya, Çin, Tailand və Şərqi Asiya regionunun digər ölkələrində yayılmışdır.

“Asiya inkişaf yolu” konsepsiyasının metodoloji əsasını müasir dövrdə ictimai inkişafda mədəniyyət dəyərlərinin müəyyənedici, konservativ və sabit təbiəti haqqında ideya təşkil edir. Qeyd etdiyimiz kimi, “Asiya inkişaf yolu” konsepsiyası qeyri-Qərb, xüsusilə Asiya xalqlarının mədəniyyətlərinin dəyərlərinin müasir Qərb sivilizasiyasının dəyərləri ilə uyğun gəlməməsi ideyasına əsaslanır. Bu konsepsiyaya əsasən, Qərb xalqları ilə Şərqi Asiya xalqlarının mədəniyyətləri arasında olan müxtəlifliklər müasir Qərb sivilizasiyasının dəyərlərinin Şərqi Asiya xalqları tərəfindən qəbul olunmasını qeyri-mümkün edir. Buna görə Şərqi Asiya ölkələri öz mədəni dəyərlərinə əsaslanan Asiya inkişaf yolunu qəbul etməlidirlər. Qərb inkişaf modeli onlar üçün yararlı deyil.

“Asiya inkişaf yolu” konsepsiyasının tərəfdarlarının fikrincə, Qərb xalqlarının mədəni dəyərləri müasir Qərb sivilizasiyasına, Şərqi Asiya xalqlarının mədəni dəyərləri isə Konfusianizmə əsaslanır. Onlar müasir Qərb sivilizasiyasının əlamətdar xüsusiyyətləri sırasında individualizmi və rəqabəti qeyd edirlər. Onlar hesab edirlər ki, individualizm və rəqabət Konfusianizmin ruhuna ziddir, çünki Konfusianizm kollektivizmə və əməkdaşlığa əsaslanır. “Asiya inkişaf yolu” konsepsiyasının tərəfdarları qeyd edirlər ki, cəmiyyətdə individualizmin yayılması ənənəvi ailə münasibətlərinin dağılmasına, boşanmanın, narkomaniyanın, cinayətin sayının artmasına səbəb olur. Li Kuan Yev verdiyi müsahibələrin birində müasir Amerika cəmiyyətinin üzləşdiyi problemlərə öz tənqidi münasibətini bildirərək qeyd edirdi ki, hər bir fərdə cəmiyyətdə özünü istədiyi kimi aparmaq hüququnun verilməsi cəmiyyətdə qayda-qanunu, əmin-amanlığı pozur, digər vətəndaşların təhlükəsizliyini təhdid edir. Dövlət və cəmiyyət haqqında Qərb və Şərq konsepsiyalarını bir-birilə müqayisə edərək, Li Kuan Yev qeyd edir ki, birinci konsepsiyadan fərqli olaraq ikinci konsepsiya hər bir fərdin öz azadlığından zövq ala biləcəyi, qayda-qanuna əsaslanan cəmiyyətin qurulması ideyasını müdafiə edir. Onun fikrincə, həqiqi azadlıq anarxiya və ziddiyyətlə dolu olan dövlətdə deyil, qayda-qanuna əməl olunan, vətəndaşların təhlükəsizliyini təmin edən dövlətdə ola bilər (12, p.114). Li Kuan Yev hesab edir ki, hər bir fərd yalnız ailə kontekstində yaşayır və yaradır. Ailə isə, öz növbəsində, daha geniş bir qurum olan cəmiyyətin bir tərkib hissəsidir. Şərqdə məhz ailə hər bir insana lazımi maddi və mənəvi dəstək təmin etməklə onu özünü tənha hiss etməyə qoymur. Qərbdə isə fərdin hüquqlarının, azadlıqlarının mütləqləşdirilməsi şəraitində Şərqdə ailənin gördüyü sosial-psixoloji mahiyyətli işləri hökumət həyata keçirir (12, p.115).

Şərqi Asiya ölkələrində ailə sosiallaşma prosesinin əsas hərəkətverici qüvvəsidir. Bununla əlaqədar Frensis Fukuyama qeyd edir: “Konfusianizm fərdi elə sosiallaşdırır ki, o, öz şəxsi azadlığını ailəsinin maraqlarına tabe edir” (9, c.65). Li Kuan Yev hesab edir ki, insanın ailədə əldə etdiyi mədəni-mənəvi keyfiyyətlər, dəyərlər ona sosial-psixoloji problemləri həll etməklə yanaşı, özünün iqtisadi fəaliyyətində də uğur qazanmağa kömək edir (12, p.116). İnsanın ailədə əldə etdiyi mədəni-mənəvi keyfiyyətlər, dəyərlər sırasında Li Kuan Yev ilk növbədə çalışqanlığı, qənaətçiliyi, möminliyi, ailəyə sədaqəti, böyüklərə hörməti, yeni bilik əldə etmək istəyini göstərir (12, p.116). Bu mədəni-mənəvi keyfiyyətləri, dəyərləri qiymətləndirərək Li Kuan Yev belə bir nəticəyə gəlir: “Əgər sizin mədəniyyətiniz insanlarda çalışqanlığı, qənaətçiliyi, gələcək naminə bu gün əzmlə işləməyi təşviq etmirsə, sizin irəliləyişiniz yavaş olacaqdır” (12, p.117).

Beləliklə, “Asiya inkişaf yolu” konsepsiyasının tərəfdarları Şərqi Asiya xalqlarının ən mühüm mədəni-mənəvi dəyərlərinin sırasında çalışqanlığı, qənaətçiliyi, möminliyi, ailəyə sədaqəti, böyüklərə hörməti, yeni bilik əldə etmək istəyini göstərirlər. Onların fikrincə, bu dəyərlər Konfusian etikasından irəli gələrək insanın eqoist maraqlarının qarşısını alır, onların bir-birinə olan nifrətini, rəqabət hissini üstələyir və əməkdaşlıq istəyini, kollektivçilik şüurunu formalaşdırır və inkişaf etdirir. Konfusian mədəni-mənəvi dəyərləri insanı cəmiyyətin və dövlətin rifahının qaldırılması haqqında düşünməyə vadar edir, onun ailəyə, kollektivə və cəmiyyətə sədaqətini möhkəmlədir.

Qeyd etmək lazımdır ki, “Asiya inkişaf yolu” konsepsiyasının tərəfdarları müasir Qərbin mədəni dəyərlərinin əhəmiyyətini tamamilə inkar etmirlər. Onlar çox yaxşı bilirlər ki, müasir Qərb dövlətlərinin sosial-iqtisadi və mədəni inkişafında bu dəyərlər mühüm rol oynamışdır. Müasir Qərb sivilizasiyasının dəyərləri olan liberal demokratiya, bazar münasibətləri, qanunun aliliyi, insanın azadlığı vasitəsilə Qərb ölkələrində modernləşmə uğurla həyata keçirilmiş və daha sonra bu ölkələr postmodernləşmə dövrünə daxil olmuşdular. Lakin “Asiya inkişaf yolu” konsepsiyasının tərəfdarları hesab edirlər ki, müasir Qərb sivilizasiyasının dəyərləri, xüsusilə individualizm, Şərqi Asiya xalqlarının qeyd olunan mədəni dəyərlərinə ziddir. Bununla bağlı Li Kuan Yev deyir: “Şərqi Asiyanın sakini kimi mən Amerikaya baxaraq orada müsbət və mənfi cəhətləri görürəm. Məsələn, Amerikada insanlar arasında azad, səmimi və açıq münasibətlərin olması və onların bir-birilə ünsiyyət zamanı sosial statuslarını, etnik və ya dini mənsubiyyətlərini nəzərə almamaları mənim xoşuma gəlir. Bundan başqa Amerikada mənim heyran olduğun başqa nailiyyətlər də var. Lakin bununla belə Amerika

cəmiyyətində elə hadisələr var ki, bizim cəmiyyətimiz üçün tamamilə qəbulolunmazdır. Bu – silah, narkotiklər, cinayətkarlığın geniş yayılması, cəmiyyətdə arzuolunmaz davranış. Buna görə də müəyyən sosial sistemin xüsusiyyətlərini nəzərə almadan ona başqa sosial sistemin xüsusiyyətlərini tətbiq etmək düzgün deyil" (12, p.114).

Beləliklə, "Asiya inkişaf yolu" konsepsiyasının tərəfdarları da ictimai inkişafda mədəniyyətin aparıcı rol oynaması ideyasını müdafiə edirlər.

Həqiqətən, ictimai inkişafda mədəniyyətin aparıcı rol oynaması ideyası müasir ictimai inkişafın, xüsusilə də onun səbəblərinin müəyyən edilməsinin mühüm metodoloji prinsiplərindən biridir. İctimai inkişafda mədəniyyətin aparıcı rol oynaması müasir dövrdə etnik-mədəni müxtəlifliklərin və onların əsasını təşkil edən etnik-mədəni dəyərlərin qorunmasının və inkişafının vacibliyini əsaslandırır. Yuxarıda qeyd etdiyimiz kimi, cəmiyyətdəki etnik-mədəni müxtəlifliklərin tənzimlənməsinin ən optimal siyasət modeli multikulturalizmdir. Bu o deməkdir ki, ictimai inkişafda mədəniyyətin aparıcı rol oynaması multikulturalizm siyasətinin düzgün siyasət olduğunu sübut edir. Bunu tarixi hadisələrin gedişatı da sübut etdi. Belə ki, etnik-mədəni müxtəlifliklərin dövlət tərəfindən tənzimlənməsi tarixi assimilyasiya və izolyasiya siyasət modellərinin səmərəsizliyini göstərdi. Etnik-mədəni müxtəlifliklərin tənzimlənməsinə yönəlmiş assimilyasiya və izolyasiya siyasətlərinin iflasa uğraması ötən əsrin 60-70-ci illərində əvvəlcə Kanadada, sonra isə Avropanın bir sıra çoxmədəniyyətli ölkələrində multikulturalizm siyasətinin meydana gəlməsinin başlıca səbəblərindən biri olmuşdur. Lakin XXI əsrin əvvəllərində bir sıra Qərb ölkələri müəyyən obyektiv və subyektiv səbəblər üzündən cəmiyyətdəki etnik-mədəni müxtəlifliklərin tənzimlənməsində ciddi problemlərlə üzləşdi. Buna cavab olaraq bəzi Qərb ölkələrinin (Almaniya, Fransa, Böyük Britaniya) başçıları multikulturalizm siyasətinin müasir dövrdə səmərəsiz olması səbəbindən iflasa uğradığını bəyan etdilər. Onlar bu siyasətin səmərəsizliyini ölkələrində məskunlaşmış etnik və dini azlıqların cəmiyyətə inteqrasiya olunmaq istəmədikləri ilə əsaslandırırdılar. Bu dövlətlərin ümumi mövqelərini 5 fevral 2011-ci ildə 47-ci Münhen Təhlükəsizlik Konfransdakı çıxışında Böyük Britaniyanın sabiq Baş naziri David Kameron belə ifadə etmişdir: "Dövlət multikulturalizmi" doktrinası müxtəlif mədəniyyətləri öz adət-ənənələri ilə yaşamalarına dəstək verməklə cəmiyyətdə inteqrasiya proseslərinin qarşısını alır. Bunun nəticəsində müxtəlif icmalar, xüsusilə də müsəlman icması cəmiyyətdəki liberal dəyərləri inkar edərək demokratik cəmiyyətimizin dəyərlərinə zidd olan dəyərləri təbliğ edirlər. Bu isə dini ekstremizmin baş qaldırması üçün şərait yaradır" (4).

Etnik-mədəni müxtəlifliklərin tənzimlənməsinin bir mümkün siyasət modeli kimi ilk dəfə Qərb ölkələrində tətbiq olunan multikulturalizm siyasəti həmin ölkələrin bəzi dövlət başçıları tərəfindən səmərəsiz bir siyasət modeli kimi iflasa uğramasına dair artıq bəyanatlar səsləndiyi bir dövrdə Azərbaycanda multikulturalizm həm dövlət, həm xalq tərəfindən hərtərəfli dəstək aldı.

Azərbaycan Respublikası multikulturalizmi dövlət siyasəti kimi qəbul edən nadir dövlətlərdəndir. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş və yeni tarixi şəraitdə Ulu Öndərin layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla aparılan multikulturalizm siyasəti cəmiyyətdəki etnik-mədəni müxtəlifliklərin tənzimlənməsində mühüm nailiyyətlərin əldə olunmasına səbəb olmuşdur. Bunun mühüm bir göstəricisi kimi ilk növbədə cəmiyyətdə dərinləşən inteqrasiya proseslərini qeyd etmək olar. Yaşadıqları cəmiyyət daxilində müxtəlif etnik qrupların və dini icmaların birləşmələrinin, inteqrasiya olmalarının olduqca böyük əhəmiyyəti vardır. Bu, etnik və dini zəmində baş verəcək münaqişələrin qarşısını alır. Məlum olduğu kimi, müasir dövrdə dünyanın bir sıra dövlətlərində etnik və dini zəmində münaqişələr baş verir. Bundan başqa Azərbaycan Respublikasının multikulturalizm siyasəti sahəsində əldə etdiyi nailiyyətlər onun beynəlxalq münasibətlər sistemində uğurlu xarici siyasət fəaliyyətinin əsas səbəblərindən biridir. Azərbaycan Respublikası multikulturalizm siyasəti sahəsində əldə etdiyi böyük nailiyyətlərə görə dünyanın əsas multikulturalizm mərkəzlərindən birinə çevrilmişdir. "Azərbaycan multikulturalizmi", "multikulturalizmin Azərbaycan modeli" terminləri siyasi leksikonda geniş istifadə olunmaqdadır. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, ***həm siyasi sahədə, beynəlxalq münasibətlərin tənzimlənməsində, ölkədaxili proseslərin inkişafında, multikulturalizmlə bağlı bizim təcrübəmiz öyrənilir***.

## *Nəticə*

Müasir Qərb fəlsəfi və politoloji ədəbiyyatında Samuil Hantinqton, Ronald İnqleqard, Frensis Fukuyama, Zbiqnev Bjejinski, Fərid Zəkəriyyə, həmçinin "Asiya inkişaf yolu" konsepsiyasının ideoloqları (Li Kuan Yev, Məhəmməd Mohatir) tərəfindən tətbiq olunan ictimai inkişafda mədəniyyətin aparıcı rol oynaması ideyası müasir ictimai inkişafın, xüsusilə də onun hərəkətverici qüvvələrinin, səbəblərinin və istiqamətinin tədqiq olunmasının mühüm metodoloji prinsiplərindən biridir. Bu prinsip xalqların ölkə daxilində və beynəlxalq münasibətlər sistemində davranışının səbəblərini anlamağa kömək edir. Bundan başqa ictimai inkişafda mədəniyyətin aparıcı rol oynaması ideyası müasir dövrdə multikulturalizm siyasətinin çoxmədəniyyətli cəmiyyətlərdə mövcud olan etnik, irqi, dini və mədəni müxtəlifliklərin tənzimlənməsində ən mütərəqqi və real siyasət olduğunu göstərir. Belə ki, cəmiyyətdəki etnik, irqi, dini və mədəni müxtəlifliklərin tənzimlənməsi məqsədilə müəyyən tarixi dövrlərdə tətbiq olunan digər məlum siyasətlərdən (assimilyasiya, izolyasiya və izol-

yasiyanın variantı olan aparteid) fərqli olaraq multikulturalizm siyasəti etnik-mədəni müxtəlifliklərin və onların əsasını təşkil edən dəyərlərin qorunmasına və inkişafına yönəlmişdir. Müasir dövrdə etnik-mədəni müxtəlifliklərin və onların əsasını təşkil edən etnik-mədəni dəyərlərin qorunması və inkişafı məsələsinə gəldikdə isə, onun vacibliyi ilk növbədə bu dəyərlərin müasir dövrdə xalqların həyatında oynadığı mühüm roldan irəli gəlir. Tarixi prosesdə formalaşan, müsbət və obyektiv xarakter daşıyan, insanların dünyagörüşünün və fəaliyyətlərinin məzmununu müəyyən edən və istiqamətləndirən etnik-mədəni müxtəlifliklər və onların əsasını təşkil edən etnik-mədəni dəyərlər xalqların müasir ictimai inkişafında mühüm müəyyənedici rol oynayır. Bu isə müasir dövrün xarakteri ilə bağlı olaraq ictimai inkişafda mədəniyyətin aparıcı rol oynamasını göstərir.

**Ədəbiyyat:**


1. İlham Əliyev. Prezident İlham Əliyev noyabrın 28-də Ümumrusiya Dövlət Teleradio Verilişləri Yayım Şirkətinin “Rossiya-24” informasiya telekanalına müsahibə verib. http://president.az/mobile/articles/13559
2. İlham Əliyev. Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2015-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilib. http://www.president.az/articles/16373
3. Abdullayev K.M. Müstəqillik illərində multikulturalizm və tolerantlıq. Müstəqillik yollarında 25. Azərbaycan Respublikasının dövlət müstəqilliyinin 25 illiyinə həsr olunur. ss.504–517.
4. Cameron D., My war on multiculturalism // The Independent. February 5, 2011.
5. Dupont, Alan. “Is There An ‘Asian Way’?”. Survival, The IISS Quarterly. Vol. 38/ №. 2, Summer 1996, pp. 13-33.
6. Huntington, Samuel. The clash of civilizations and the remaking of world order. New York, Simon and Schuster, 1996.
7. Huntington, Samuel. ’After 20 Years: The Future of the Third World’, Journal of Democracy, Vol 7, No 2, 1996, p.9.
8. Nəcəfov E.Ə. Azərbaycan Respublikasının multikulturalizm siyasətinin onun xarici siyasətinə təsiri. Strateji təhlil. Azərbaycan Respublikasının daxili və xarici siyasətinə, beynəlxalq münasibətlərə dair analitik jurnal. Say 1-2 (15-16), 2016, ss.35–43.
9. Наджафов Э.А. К вопросу об определяющей роли культуры в общественном развитии. Elmi Əsərlər. İctimai- siyasi elmlər seriyası, Bakı Slavyan Universiteti, № 1–2, 2006, с. 63–68.
10. Nəcəfov E.Ə. Multikulturalizmin mahiyyətinə dair. Dövlət İdarəçiliyi. Nəzəriyyə və təcrübə, Jurnal, №3 (51), 2015, s.103-112.
11. Weber, Max. The Protestant Ethic and the Spirit of Capitalism, New York, Charles Scribner’s sons, 1958, 324 p.
12. Zakaria, Fareed. “Culture is Destiny – A Conversation with Lee Kuan Yew”. Foreign Affairs (Mar/Apr 1994), Vol. 73, Iss. 2, pp. 113-117.


**Açar sözlər:** *ictimai inkişafda mədəniyyətin aparıcı rolu, multikulturalizm siyasəti, “Asiya inkişaf yolu” konsepsiyası, Azərbaycan Respublikası*

**Ключевые слова:** *определяющая роль культуры в общественном развитии, политика мультикультурализма, концепция «Азиатского пути развития», Азербайджанская Республика*

**Key words:** *determinant role of culture in social development, multiculturalism policy, conception of “Asian Way of development”, the Republic of Azerbaijan*

**Этибар Наджафов**

***Старший консультант Службы Государственного советника по межнациональным вопросам, вопросам мультикультурализма и религии, заведующий кафедрой Философии и Социальной Психологии Академии Государственного Управления при Президенте Азербайджанской Республики, доктор философских наук, профессор***

## ОПРЕДЕЛЯЮЩАЯ РОЛЬ КУЛЬТУРЫ В ОБЩЕСТВЕННОМ РАЗВИТИИ И ПОЛИТИКА МУЛЬТИКУЛЬТУРАЛИЗМА

### РЕЗЮМЕ

Учение об определяющей роли культуры в общественном развитии является методологической основой для исследования современного общественного развития, в частности, его движущих сил, причин и направленности, а также поведения народов, как в пределах страны, так и в масштабе международных отношений. Это учение применяется в современной западной философской и политологической литературе, в частности, в работах Самюэля Хантингтона, Рональда Инглегарда, Фрэнсиса Фукуямы, Збигнева Бжезинского, Фарида Закария, а также идеологами концепции «Азиатского пути развития», среди которых следует отметить Ли Куан Ю(бывший премьер Сингапура) и Махатхира Мухаммада (бывший премьер Малайзии).

В связи с возрастанием необходимости регулирования этнического, расового, религиозного и культурного многообразия в современном мире наблюдается возрастание значимости учения об определяющей роли культуры в общественном развитии. В этих условиях среди возможных моделей политики регулирования этнокультурного многообразия политика мультикультурализма является самой эффективной, потому что она, в отличие от политики ассимиляции и изоляции, направлена на сохранение и развитие этнокультурного многообразия и ценностей, составляющих основу этого многообразия. Однако, несмотря на указанное преимущество политики мультикультурализма, некоторые западные страны отказались от нее, обосновывая данное обстоятельство нежеланием этнических меньшинств интегрироваться в общество.

Азербайджанская Республика является одним из немногих стран, в которой мультикультурализм является государственной политикой и образом жизни народа.

**Etibar Najafov**

***Senior Adviser of the Service of the State Counsellor of the Republic of Azerbaijan on Multiculturalism, Interethnic and Religious Affairs, Head of the Department of Philosophy and Social Psychology of the Academy of Public Administration under the President of the Republic of Azerbaijan, Doctor of Philosophical Sciences, Professor***

## DETERMINATIVE ROLE OF CULTURE IN SOCIAL DEVELOPMENT AND MULTICULTURALISM POLICY

### SUMMARY

The theory of determinative role of culture in social development is a methodological basis for research on modern social development, its driving forces, reasons and direction as well as the behavior of peoples both within the country and in the area of international relations.

The theory is applied as a theoretical basis in the modern western philosophy and political sciences by Samuel Huntington, Ronald Inglehart, Francis Fukuyama, Zbigniew Brzezinski, Fareed Zakaria, and ideologist of "Asian way of development" conception (Lee Kuan Yew, a former Premier of Singapore and Mohamad Mahathir, a former Premier of Malaysia).

The determinative role of culture in social development is becoming more evident in the contemporary world. It is caused by the necessity to regulate ethnic, racial, religious and cultural diversities within a society. Among the possible models of regulating ethnic, racial, religious and cultural diversities (assimilation and isolation) multiculturalism is the most effective model for preservation and development of ethnic and cultural diversities and values. Although the advantage of the multiculturalism policy, some western countries refused from this policy declaring it as non-effective one. They justify their refusal by unwillingness of the ethnic minorities to integrate into society.

The Republic of Azerbaijan is one of those few states to follow the multiculturalism policy as state policy and way of life.

**XATİRƏ HÜSEYNOVA**

***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, kafedra müdiri, iqtisad elmləri doktoru***

**ELMİRA ZEYNALOVA**

***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, dosent***

# İNVESTİSİYALAR REGİONAL İNKİŞAFIN VACİB AMİLİ KİMİ

Azərbaycan Respublikasında qeyri-neft sektorunun davamlı və rəqabətqabiliyyətli inkişafı dövlətin iqtisadi siyasətinin prioritet istiqamətidir. Ölkə Prezidenti cənab İlham Əliyevin "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında" 2016-cı il 6 dekabr tarixli Fərmanında (1) qeyd etdiyi kimi " ... son dövrlərdə istər regionda, istərsə də qlobal iqtisadiyyatda gedən proseslər, neft gəlirlərinin kəskin azalması, mürəkkəb xarici iqtisadi mühit ölkənin makroiqtisadi və maliyyə sabitliyinə öz təsirini göstərməkdədir. Dünyada cərəyan edən proseslərin yaratdığı yeni çağırışlara uyğunlaşmaq və mövcud qlobal iqtisadi böhranın ölkəmizə təsirini minimuma endirmək məqsədilə iqtisadi islahatların əsas strateji hədəflərinə uyğun olaraq sistem xarakterli bir sıra tədbirlərin həyata keçirilməsi, sosial-iqtisadi inkişafın cari, orta və uzunmüddətli dövrləri arasında üzvi bağlılıq və qarşılıqlı uzlaşma yaratmaqla, iqtisadi inkişafın keyfiyyətcə yeni modelinin formalaşdırılması qarşıda duran əsas prioritet vəzifələrdəndir."

Davamlı iqtisadi islahatlar çərçivəsində aparılan siyasət qlobal iqtisadi çağırışlara uyğun müasir konseptual yanaşmalarla daha da təkmilləşdirilmiş, strateji məqsədlərə uyğun sərbəst bazar münasibətlərinin və özünüinkişaf qabiliyyətinə malik sosialyönümlü, diversifikasiya olunmuş milli iqtisadiyyatın formalaşdırılması təmin edilmişdir. Həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində makroiqtisadi sabitlik qorunub saxlanılmış, qeyri-neft sahələrinin və bütövlükdə regionların tarazlı inkişafı sürətlənmiş, strateji valyuta ehtiyatlarından səmərəli istifadə təmin olunmuş, sahibkarlığa dövlət dəstəyi gücləndirilmiş, əlverişli biznes və investisiya mühiti formalaşmış, əhalinin sosial rifahı davamlı olaraq yaxşılaşmışdır. Dünya Bankı və Beynəlxalq Maliyyə Korporasiyası tərəfindən hazırlanan "Doing Business 2017" hesabatında Azərbaycan 65-ci pillədə qərarlaşıb. Dünya İqtisadi Forumunun "Qlobal Rəqabət Qabiliyyətliliyi İndeksi 2016-2017" hesabatı – Azərbaycan bu hesabatda 138 ölkə arasında 37-ci yerdə qərarlaşmışdır. Ölkəmiz artıq 8 ildir ki, sözügedən hesabatda MDB ölkələri arasında 1-ci yerdə qərarlaşır. Hesabatda Azərbaycan "əmək bazarının səmərəliliyi" göstəricisi üzrə 26-cı, "makroiqtisadi sabitlik" göstəricisi üzrə isə 39-cu yerdədir.

Bu baxımdan, regional investisiya siyasətinin əhəmiyyəti də durmadan yüksəlir. Bununla bağlı, regional problemlərin əksəriyyətinin həll edilməsinin mühüm şərti, regionun iqtisadiyyatının inkişafı məqsədilə kifayət miqdarda maliyyə vəsaitlərini cəlb etmək və regionda investisiya proseslərinin fəallaşdırmaqdır.

Ölkənin investisiya resurslarının istifadəsinin səviyyəsi milli iqtisadi inkişaf modelinin qiymətləndirilməsində istifadə olunan göstəricilərdən biri hesab olunur. (2)

Regionun investisiya potensialına aşağıdakı kimi xüsusi potensialların məcmusu kimi baxmaq olar:

- resurs-xammal potensialı (əsas təbii resurs növlərinin ehtiyatı);
- istehsal potensialı (regionun təsərrüfat fəaliyyətinin məcmu nəticəsi);
- istehlak potensialı (regionun məcmu alıcılıq qabiliyyəti);
- infrastruktur potensialı (regionun iqtisadi-coğrafi mövqeyi və infrastruktur təminatı);
- intellektual potensialı (əhalinin savadlılıq səviyyəsi);
- institusional potensialı (aparıcı institutların inkişaf səviyyəsi);
- innovasiya potensialı (elmi-texniki nailiyyətlərin tətbiq olunma səviyyəsi).

Region üçün prioritet hesab oluna biləcək investisiya layihələrini aşağıdakı kimi təsnifləşdirmək olar (şəkil 1):




**Şəkil. 1.** *Region səviyyəsində prioritet investisiya layihələrinin təsnifatı*

İnvestisiya layihələrinin seçilməsi müsabiqə prinsipi əsasında aparılmalıdır. Region səviyyəsində investisiya layihəsinin seçilməsi problemi ilk növbədə layihənin qiymətləndirilməsi və seçilməsi meyarlarının əsaslandırılmasını tələb edir. Fikrimizcə, bu meyarlar aşağıdakı kimi qruplara bölünə bilər:

– Layihənin regional inkişaf strategiyasının prioritetlərinə uyğunluğu;
– Texnoloji, istehsal və ekoloji tərkibinə görə optimallıq;
– Layihənin sosial-iqtisadi göstəricilərinin region administrasiyasının normativlərinə uyğunluğu;
– Risk səviyyəsi;
– Etibarlılıq və vəsaitlərin qaytarılacağına zəmanətlər.

İnvestisiya layihələrinin qiymətləndirilməsi zamanı regional investisiya risklərinin aşağıdakı kimi göstəricilərini xüsusi qeyd etmək lazımdır:

– regional hakimiyyət orqanlarının bazar islahatlarına münasibəti;
– investisiya fəaliyyəti sahəsində regional normativ-hüquqi bazanın vəziyyəti;
– regionda sabitlik səviyyəsi;
– reginda ekoloji təhlükəsizlik və iqlim şəraiti;
– regionun investisiya infrastrukturu.

Fikrimizcə, investisiya layihələrinin region səviyyəsində dəstəklənməsi üçün üç mərhələdə seçim həyata keçirilməlidir. Birinci mərhələdə təklif olunan təsnifata uyğun olaraq regional inkişaf prioritetlərinin tələblərinə cavab verən layihələr seçilir və onların ilkin ekspertizası həyata keçirilir. İkinci mərhələdə layihələrin kompleks ekspertizaası həyata keçirilir və bu zaman müsbət rəy almış layihələr üçüncü mərhələyə çıxarılır. Üçüncü mərhələdə layihənin seçilməsi və region səviyyəsində dəstəklənməsi üçün alınan nəticələrin meyarlara uyğunluğu yoxlanılır.

Əvvəlcə meyarlar qrupu üzrə layihələrin reytinqi müəyyən olunur. Hər bir qrupa qiymətləndirməni formalaşdıran bir sıra meyarlar daxil olur. Meyarlar bal sistemi üzrə qiymətləndirilir və qrupda xüsusi çəkiyə (çəki əmsalına) malik olur. Layihənin verilən meyarlar qrupu üzrə topladığı ballar aşağıdakı kimi hesablanır:

$$, \quad R_j = \frac{1}{a_i \max} \sum_{i=1}^{n} a_i x_i$$

$\boldsymbol{R_I}$ – layihənin ***i***-*ci meyarlar qrupuna görə reytinqi*;
$\boldsymbol{a_i}$ – ***i*** -ci meyarın çəki əmsalı;

$x_i$ – $i$ -ci meyarın qiymətləndirilən kəmiyyəti;

$n$ – qrupda meyarların sayı.

Hər bir meyarlar qrupunun da ümumi qiymətləndirmədə əhəmiyyətini göstərən çəki əmsalı ($b_j$) olur. Layihənin yekun reytinqi hər bir meyarlar qrupu üzrə topladığı balların cəmindən ibarət olur:

$$R = \sum_{j=1}^{m} b_j R_j ,$$

burada $R$ – layihənin yekun reytinqi;

$R_j$ – layihənin $j$-ci qrup meyarlara görə reytinqi;

$m$ – seçmədə istifadə olunan meyar qruplarının sayı.

Beləliklə, reytinqin dəyişmə intervalı 0-dan 100 bala qədər olur.

Təklif olunan bu qayda regionun inkişaf prioritetlərindən asılı olaraq meyarların sayının, çəki əmsallarının dəyişdirilməsi yolu ilə adaptasiya oluna bilər.

Həmçinin regionun investisiya siyasətinin səmərəliliyinin formalaşmasını dəqiq bilmək lazımdır ki, konkret regional, konkret sahəyə investisiyalaşdırma haqqında qəbul olunan qərarlara hansı regional şəraitlərin təsir göstərmələri aşkar edilsin.

Qiymətləndirmənin səviyyəsindən asılı olaraq investisiyaların səmərəliliyinin aşağıdakı növlərini ayırırlar:

1) Makroekonomik səmərəliliyi ölkənin ümumi daxili məhsulunun (ÜDM), ödəniş balansına, iqtisadi artım tempinə, istehsalın yüksəlməsinə, əhalinin gəlirlərinə və rifah halına, ölkənin resurs potensialına investisiyaların təsiri xarakterizə olunur;
2) sahə səmərəliliyi, sahənin ümumi məhsuluna, sahədə istehsalın artım tempinə, sahənin istehsal potensialının artmasına, onun rəqabət qabiliyyətinin yüksəlməsinə investisiyaların təsirini xarakterizə edir. Sahə səmərəliliyini qiymətlərində, investisiyaların birbaşa səmərəliliyi ilə yanaşı digər sahələrə və iqtisadiyyatın sferalarına həmin sahənin təsiri növündə dolayı səmərəliliyi nəzərə almaq lazımdır;
3) regional səmərəliliyi, ümumi regional məhsula, regionun büdcəsinin gəlirlərinə, regionun iqtisadi potensialına, təbii mühitinə, regionun əhalisinin həyat səviyyəsinə investisiyaların təsir dərəcəsi müəyyən edilir.
4) proqramın (layihənin) sərçivəsində səmərəlilik, proqramın (layihənin) mənfəətliliyi, investisiyaların ödəmə müddəti ilə müəyyən olunur, layihənin sosial və ekoloji nəticələrinin həyata keçirilməsi, elmi-texniki tərəqqinin inkişafı ilə xarakterizə olunur.

İnvestisiya siyasətinin sosial-iqtisadi səmərəliliyinin müəyyən edilməsi bələdiyyə, regional, icra hakimiyyətləri səviyyələrində və qanunvericilik orqanları şəxsində dövlət tərəfindən və müxtəlif müəssisələrin rəhbərləri tərəfindən investisiya proseslərinin idarə edilməsindən yaranan, iqtisadi və sosial səmərəliliyin kompleks uçotu başa düşülür.

Regionlarda internet-səhifəsinin inkişafı bütünlüklə regional investisiya siyasətinin yaxşılaşdırılmasının əsas istiqamətlərindən biridir. Əhalinin məlumatlandırılmasının yüksəldilməsi, həmçinin investisiya siyasətinin inkişafının istiqamətlərindən biri olan regional məqsədli-proqramların vaxtında reallaşdırılmasıdır. Məqsədli proqramlarin hər biri dövlət, region, bələdiyyə səviyyələrində kompleks problemlərin xarakteri və ərazi miqyası ilə xarakterizə olunur (3).

Regionun reallaşdırılan investisiya siyasətinin iqtisadi nəticələrinin qiymətləndirilməsi, həmçinin aşağıdakı göstəricilər üzrə aparılır: ümumi regional məhsul; ümumi regional məhsulun sahə strukturu; ölkənin əsas göstəricilərində regionun xüsusi çəkisi; iqtisadiyyatın sahələri üzrə müəssisələrin və təşkilatların fəaliyyətinin maliyyə nəticələri.

Sosial nəticələri aşağıdakı göstəricilərin köməkliyi ilə qiymətləndirirlər: hər nəfərə orta hesabla əhalinin pul gəlirləri; orta aylıq əməkhaqqı (o cümlədən ayrıca sahələr və müəssisələr üzrə); işləyən və işləməyən əhalinin sayı; güzəştlərin həcmi, bir ailəyə verilən yardımlar; mənzillərə orta təyinolma; təhsilin səviyyəsi, əhalinin həyat müddəti və s.

İnvestisiya siyasətinin elmi-texniki səmərəliliyi ifadə oluna bilər: yeni informasiya texnologiyalarının xüsusi çəkisinin artırılması; yeni mütərəqqi texnoloji proseslərin xüsusi çəkisinin artırılması; istehsalın avtomatlaşdırılması əmsalının yüksəldilməsi; istehsalın və əməyin təşkilat səviyyəsinin yüksəldilməsi; sənayecə inkişaf edən ölkələrin bazarlarında müəssisələrin rəqabət qabiliyyətinin yüksəldilməsi.

Regional sosial-iqtisadi siyasətin tərkib hissəsi kimi, investisiya siyasətinin inkişafının səmərəlilik göstəriciləri qarşısına qoyulan məqsədlərdən birbaşa asılıdır (şəkil 2).




**Şəkil 2.** *Regionda investisiya siyasətinin reallaşdırılmasının səmərəlilik göstəriciləri*

Yekun vuraraq demək olar ki, regionda investisiya siyasətinin səmərəliliyinin qiymətləndirilməsi ən aktual məsələlərdən biridir, investisiya fəaliyyətinin formalaşması mərhələsində onun həlli ən optimal istiqaməti seçməyə imkan yaradır.

Müxtəlif iqtisadi sistemlərdə investisiya siyasətinin formalaşmasına mövcud yanaşmaların ümumiləşdirilməsi investisiya siyasətinin sahə istiqamətinin olmasının zəruriliyini göstərir. İqtisadiyyatın ayrıca sahələrinin investisiya əlverişliliyinin öyrənilməsi həmin sahələrin məhsullarına cəmiyyətin tələbatının dinamikası və perspektiv inkişafı, konyunkturun tədqiqi yönlüdür. Məhz cəmiyyətin tələbatı ayrıca sahələrin inkişafında prioritetləri müəyyən edir.

**Ədəbiyyat:**

1. Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il tarixli Fərmanı.
2. Tofiq Hüseynov. Azərbaycanın milli iqtisadi inkişaf modeli: nəzəriyyə və praktika. Monoqrafiya. Bakı, "Elm", 2015.
3. X.M.Hüseynova. Regional inkişaf proqramları: nəzəri və praktik məsələlər. // Monoqrafiya, Bakı, 2010.
4. "Azərbaycan Respublikası regionlarının "2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı".

**Açar sözlər:** *regional investisiya siyasəti, regional iqtisadiyyat, səmərəlilik, sosial-iqtisadi inkişaf, regional investisiya riskləri*

**Ключевые слова:** *региональная инвестиционная политика, региональная экономика, эффективность, социально-экономическое развитие, региональные инвестиционные риски*

**Key words:** *regional investment policy, regional economy, efficiency, socio-economic development, regional investment risks*

**Хатира Гусейнова**

***Академия Государственного Управления при Президенте Азербайджанской Республики, заведующая кафедрой, доктор экономических наук***

**Эльмира Зейналова**

***Академия Государственного Управления при Президенте Азербайджанской Республики, доцент***

## ИНВЕСТИЦИИ КАК ВАЖНЫЙ ФАКТОР РЕГИОНАЛЬНОГО РАЗВИТИЯ

### РЕЗЮМЕ

В статье, наряду с рассмотрением актуальности оценки рационализации инвестиционной политики региона, в зависимости от поставленных целей, определены наиболее совершенные приоритеты претворения в жизнь данной политики, также в статье отмечена необходимость отраслевого направления инвестиционной политики, дана приоритетная для региона классификация инвестиционных проектов и их оценка.

**Khatira Huseynova**

***Head of Department, the Academy of Public Administration under the President of the Republic of Azerbaijan, PhD in Economic Sciences***

**Elmira Zeynalova**

***Head of Department, the Academy of Public Administration under the President of the Republic of Azerbaijan, dosent***

## INVESTMENTS AS KEY FACTOR FOR REGIONAL DEVELOPMENT

### SUMMARY

The article analyses the assessment of investment policy rationalization of the region as well as defines the most effective priorities for this policy based on the objectives. The necessity for the sectoral investment policy and classification of investment projects of the region and their assessment is emphasized in the article.

**ELÇİN ƏHMƏDOV**

***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Beynəlxalq Münasibətlər və Xarici Siyasət kafedrasının dosenti, siyasi elmlər doktoru***

# AZƏRBAYCAN RESPUBLİKASININ MULTİKULTURALİZM SİYASƏTİ (1993–2016)

*"Qloballaşan dünyada hamımız bir-birimizə daha yaxın olmuşuq. Xalqlararası, mədəniyyətlərarası, dinlərarası dialoqun bu gün dərin məna kəsb etməsi də məhz bununla bağlıdır. Bu dialoqu inkişaf etdirərək, bu dialoqa dəstək verərək biz müəyyən mənada terrorizmin formalaşmasma xidmət edən bütün qaynaqları araşdırıb onu kökündən məhv etməyə can atmalıyıq".*

**Heydər Əliyev**
***Ümummilli Lider***

XX yüzilliyin sonunda dünyada baş verən qlobal proseslər, xüsusilə də "soyuq müharibə"nin başa çatması, SSRİ və sosializm sisteminin süqutu beynəlxalq aləmdə siyasi mühitin ciddi şəkildə dəyişməsinə və yeni geosiyasi vəziyyətin yaranmasına səbəb oldu. Bu dövrü əsasən sosialist düşərgəsinin süqutu nəticəsində dünyanın mövcud siyasi xəritəsinin dəyişməsi ilə yanaşı, habelə ictimai həyatın müxtəlif sahələri ilə bağlı bir sıra qlobal problemlərin yaranması və gərginləşməsi ilə də səciyyələndirmək olar. Bununla yanaşı, Sovet İttifaqının dağılması regionda dini dözümlülük ənənələri üçün də əsl sınağa çevrildi. Bu proseslərin nəticəsində keçmiş müttəfiq respublikaların xalqları müstəqilliklə yanaşı, əsl dini etiqad azadlığı da əldə etdilər. Azərbaycandakı mövcud tolerantlığın əsasları üçün ən böyük təhlükəni minlərlə dinc sakinin ölümünə və bir milyondan çox soydaşımızın doğma yurdlarından didərgin düşməsinə səbəb olan Ermənistanın ölkəmizə hərbi təcavüzü yaradırdı.

Tarixən Azərbaycan Avropa və Asiyanın qovşağında yerləşdiyi üçün xalqlar arasında körpü rolunu oynamış, müxtəlif mədəniyyətlərin əlaqələrində, birgə yaşayışında mühüm əhəmiyyət kəsb etmişdir. Əsrlər boyu həmin xalqların və dinlərin nümayəndələri burada dostluq, qarşılıqlı etimad və sülh şəraitində yaşayıb fəaliyyət göstərmişlər. Təbiidir ki, belə bir mühitdə multikultural və tolerant dəyərlər xalqımızın əsl həyat tərzinə çevrilməyə başlamışdır. Bu baxımdan hazırda Azərbaycanda bərqərar olan multikulturalizm və tolerantlıq xalqımızın mentalitetindən irəli gələn ənənə, həm də dövlət ideologiyasının tərkib hissəsi hesab olunur.

Azərbaycan Respublikası dövlət müstəqilliyini yenidən bərpa etdikdən sonra siyasi və iqtisadi münasibətlərin yeni prinsiplər üzərində bərqərar olmasına səbəb olmaqla yanaşı, eyni zamanda ölkəmizdə multikulturalizmin inkişafı üçün geniş imkanlar yaratdı. Keçmiş hakim ideologiyanın aradan qalxması adət-ənənələrə, milli və dini münasibətlərə siyasi-ideoloji qadağalardan kənar yeni yanaşmaların meydana gəlməsini şərtləndirdi. Dövrün tələblərinə uyğun olaraq multikultural münasibətləri tənzimləmək, müxtəlif dini inancların, mənəvi-mədəni dəyərlərin daşıyıcısı olan azsaylı xalqların müstəqil dövlətçilik ideyaları ətrafında sıx birləşməsini təmin etmək dövlətin qarşısında duran əsas vəzifələrdən biri idi.

1993-cü ildə yenidən siyasi hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyevin "Yeni 2001-ci il, yeni əsr və üçüncü minillik" münasibətilə Azərbaycan xalqına müraciətində deyilirdi: "...Azərbaycanın taleyi belə gətirmişdir ki, coğrafi-siyasi mövqeyinə görə o, həmişə sivilizasiyaların qovuşuğunda olmuş və istər Qərbin, istərsə də Şərqin çox güclü təsirini öz üzərində hiss etmişdir. Məlumdur ki, Azərbaycan insanın, bəşəriyyətin beşiyi olan nadir ölkələrdən biridir. Burada həyat çox erkən yaranmışdır və Azıx mağarasında tapılmış azıxantrop Azərbaycanın ən qədim ibtidai insan məskənlərindən biri olmasını sübut edir...Eramızdan əvvəl birinci minilliyin sonunda, eramızın birinci minilliyinin əvvəlində Azərbaycan müxtəlif mədəniyyətlərin və dinlərin təsirinə məruz qalmışdır. Məhz bunun nəticəsində tarixən ölkəmizdə müxtəlif dinlərə münasibətdə yüksək tolerantlıq, dözümlülük mühiti yaranmışdır. Yunan-Roma mədəniyyətinin, bütün antik sivilizasiyasının güclü təsiri altında inkişaf edən elm, ədəbiyyat və incəsənətimiz çox erkən dövrlərdə özünəməxsus forma və

məzmuna malik olmağa başlamışdır. Bununla yanaşı, sözsüz ki, bizim zəngin mədəniyyətimizin formalaşmasına müxtəlif mərhələlərdə həm zərdüştilik, yəhudi, xristian, həm də islam mədəniyyətlərinin təsiri olmuşdur" (5, C.31, s.141).

Ümummilli lider Heydər Əliyevin həyata keçirdiyi uzaqgörən siyasət nəticəsində XX yüzilliyin 90-cı illərinin əvvəllərində milli-etnik və dini müxtəlifliklərdən ölkəmizi münaqişələrə cəlb etmək məqsədilə istifadə olunması cəhdlərinin qarşısı qətiyyətlə alınmış, bütövlükdə bu məkrli plan alt-üst olunmuşdur. Ümummilli lider respublikamızın gələcək uğurlu inkişafı üçün dəqiq ideoloji istiqamət seçərək, öz müdrik siyasəti ilə tarix boyu formalaşmış Azərbaycanın çoxmədəniyyətlilik, tolerantlıq ənənələrini yeni bir mərhələyə qaldırmağa nail olmuşdur. Azərbaycan əhalisinin çoxmillətli tərkibini milli sərvətimiz hesab edən Ümummilli Lider bütün siyasi fəaliyyətini bu misilsiz sərvətin qorunub saxlanılması, əbədi olması istiqamətinə yönəltmişdi.

Ümummilli lider Heydər Əliyevin tarixi xidməti sayəsində Azərbaycanda multikulturalizm və tolerantlıq dövlət siyasəti səviyyəsinə çatdırılıb. Respublikada multikultural dəyərlər davamlı olaraq təhsil, mətbuat və ictimaiyyətdə təşviq olunub, dini-mədəni müxtəliflik mühiti dövlətin diqqət və qayğısı ilə əhatə edilmişdir. Həmin illərdə Heydər Əliyev Azərbaycan vətəndaşlarının etnik milli duyğularını nəzərə almaqla, həm də məqsədyönlü şəkildə ictimai-siyasi özünüdərk hisslərinin, vətəndaşlıq və vətənpərvərlik duyğusunu formalaşdırılması kimi ciddi bir dövləti funksiyanı yerinə yetirərək, bütün ölkə vətəndaşlarını azərbaycançılıq platformasında birləşdirmişdir. Onun həmin dövrdə səsləndirdiyi "Xalqın, Vətənin taleyi hər bir insanın taleyinə çevrilməlidir!", yaxud "Vətən birdir və hamı bu Vətən üçün çalışmalıdır!" çağırışı bu sahədəki fəaliyyətin əsas göstəricisi hesab oluna bilər (6, s.73).

Müstəqilliyimizin ilk illərində Ermənistanın Azərbaycana təcavüzü, ağır sosial-iqtisadi şərait din sahəsinə də ciddi təsir göstərirdi. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi dini zəmində baş verməsə də, Ermənistanın dini lideri I Vazgen praktiki olaraq separatçı hərəkatı qızışdıran şəxslərdən biri olmuşdur. Barışmaz erməni millətçiləri hər imkandan istifadə edərək, Qərbə və Rusiyaya belə bir mif təlqin etməyə çalışırdılar ki, guya Azərbaycandan "islam təhlükəsi" gözlənilir.

Şübhəsiz ki, belə hərəkətlər dinlərarası dialoqun möhkəmlənməsinə xidmət etmir, əksinə, bu işə böyük zərbə vururdu. Qeyd etmək lazımdır ki, hələ Azərbaycan SSR-də əhalinin mütləq əksəriyyəti islam dininə mənsub olduğu halda rəsmən fəaliyyət göstərən 53 dini icmadan ancaq 18-i islam dini təşkilatı idi. Həmin dövrdə Azərbaycanda 31 xristian dini təşkilatı və təriqəti, 4 yəhudi dini təşkilatı qeydə alınaraq fəaliyyət göstərirdi (1, s.231).

Ümummilli Lider Azərbaycanın daxili ictimai-siyasi, iqtisadi, mənəvi, milli-etnik və dini həyatının tarazlı inkişaf modelini yaratmaqla yanaşı, həm də həlli prinsiplərini ortaya qoydu. Mütəxəssislərin fikrinə görə, Heydər Əliyev ölkə daxilində ümumi ahəngi pozmadan, etnik-milli və milli-siyasi aspektlər arasında optimal nisbəti nəzərə almaqla, dövlətin təkamül yolu ilə inkişafına ciddi zəmin yaratdı və dövlətçilik probleminin ən əlverişli həlli yolunu ortaya qoydu (6, s.77). Heydər Əliyev milli-vətəndaş birliyini, hərtərəfli inkişaf etmiş, iradəli və əzmkar vətəndaş idealını çox bacarıqla və ustalıqla ümumazərbaycançılıq ideyası ilə bağlayaraq, vahid amala doğru yönəltməyi bacarırdı. Tarixi təcrübə sübut edir ki, güclü birləşdirici ideyası olan insan birlikləri (xalqlar, millətlər, dini icmalar və s.) bu cür ideyaları olmayanlara həmişə qalib gəlmişlər.

Təbii olaraq, Ümummilli Lider etnik millətçiliyə alternativ kimi bütövlükdə Azərbaycan xalqının və cəmiyyətinin, eyni zamanda Azərbaycan dövlətçiliyinin yüksəlişini şərtləndirən və multikulturalizmin əsas mənəvi bazası olan azərbaycançılıq prinsipini milli ideologiya kimi irəli sürdü. O qeyd etdi ki, etnik millətçilik, nəhayət etibarilə, etnik separatizmə, xalqlar arasında münaqişəyə gətirib çıxarır. Azərbaycançılıq ideologiyası isə dinindən, dilindən, irqindən asılı olmadan ölkədə yaşayan bütün vətəndaşları birləşdirir. Ulu Öndərin dediyi kimi, həqiqətən də, "Azərbaycan onun ərazisində yaşayan bütün millət və xalqların ümumi vətənidir" (8).

Azərbaycanın dövlət müstəqilliyi bərpa olunduqdan sonra dini azlıqların hüquqlarının qorunması və təminatı sahəsində çox mühüm addımlar atılmışdır. Vicdan azadlığının təmin edilməsinə yönəlmiş müvafiq qanunvericilik bazasının formalaşdırılması, onun mütəmadi olaraq təkmilləşdirilməsi və uğurlu tətbiqinə nail olunması da müstəqil Azərbaycan dövlətinin əsas fəaliyyət istiqamətlərindən biri kimi daim diqqət mərkəzindədir. Ölkəmizdə vicdan azadlığının təmin edilməsinə yönəldilmiş normativ hüquqi aktların içərisində 1992-ci ildə qəbul edilmiş "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanunu xüsusi yer tutur (13).

Ümummilli lider Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərliyindən sonra bu qanun daha da təkmilləşdirilmiş, 1996 və 1997-ci illərdə müvafiq düzəlişlər edilmişdir. Bu qanuna görə, Azərbaycanda vətəndaşlıq hüququna malik olan "hər bir kəs dinə münasibətini müstəqil müəyyənləşdirir, hər hansı dinə təkbaşına və ya başqaları ilə birlikdə etiqad etmək, dinə münasibəti ilə əlaqədar əqidəsini ifadə etmək və yaymaq hüququna malikdir" (10, s.3).

Azərbaycanın çoxmillətli və müxtəlif dinlərin ardıcıllarının yaşadığı ölkə olması, milli siyasətin müxtəlif millət, etnik qrup və dini azlıqların dinc yanaşı yaşaması və dözümlülük prinsipləri əsasında müəyyənləşdirilməsi Konstitusiyada da təsbit olunmuşdur: "Dövlət irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq, hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə

təminat verir və bütün vətəndaşlar eyni hüquqlara malikdir" (28).

Qanunun qəbul edildiyi vaxtdan ötən 20 ildən artıq müddət ərzində, ölkə həyatının bütün sahələrində olduğu kimi, dini etiqad azadlığının təmin olunması istiqamətində də əhəmiyyətli müsbət dəyişikliklər baş vermiş, bu sahədə dövlət siyasətinin əsasları təkmilləşdirilmiş, yeni idarəçilik prinsipləri formalaşmışdır. Bu prosesə, əsas insan hüquq və azadlıqlarının təsbit olunduğu yeni Konstitusiyanın ümumxalq səsverməsi yolu ilə qəbul edilməsi, Azərbaycan Respublikasının vicdan azadlığı ilə bağlı müddəaları da özündə əks etdirən bir çox beynəlxalq konvensiyalara qoşulması amilləri də öz pozitiv təsirini göstərmişdir. Bütün bunların, habelə dövlət tərəfindən bu sahədə düzgün və çevik qanunvericilik siyasətinin həyata keçirilməsinin nəticəsidir ki, ötən müddət ərzində dini qurumların, xüsusilə ölkə əhalisinin böyük əksəriyyətinin etiqad etdiyi islam dini təşkilatlarının cəmiyyət həyatındakı rolu keyfiyyətcə dəyişmiş və müasir, sivil dövlət-din münasibətlərinin tələb etdiyi bir səviyyəyə yüksəlmişdir.

Beynəlxalq sənədlərin dini etiqad azadlığının təmin edilməsində vacib rolu həm də belə bir vəziyyətlə bağlıdır ki, bir çox hallarda bir ölkədəki dini konfessiyaların mərkəzi və ya idarəsi, habelə əsas ziyarətgahları başqa bir ölkədə yerləşir. Məsələn, Azərbaycandakı pravoslav dini icmalarının mərkəzi Rusiya Federasiyasında, katolik icmasının mərkəzi Vatikanda, islam dini icmalarının əsas ziyarətgahları isə Səudiyyə Ərəbistanında, İranda və İraqdadır. Buna görə də dini qurumlar arasındakı normal əlaqələrin qurulması, ziyarətlərin təşkili üçün beynəlxalq müqavilələrin imzalanması zərurəti yaranır (10,s.34). Azərbaycan dövlət-din münasibətləri modeli çərçivəsində bütün dini konfessiyalar qanun qarşısında bərabərdir və eyni statusa malikdir. Ölkə vətəndaşlarının əksəriyyətini təşkil edən müsəlmanların hüquqlarının təmin olunması ilə yanaşı, dövlət respublikada yayılmış digər dinlərə də qayğı göstərir.

Dini dözümlülüyü, tolerantlığı daima dəstəkləyən Heydər Əliyev gənclərimizin bu ruhda tərbiyə olunmasını həmişə tövsiyə edirdi. Yeniyetmə və gənclərimizin başqa dinlərə qarşı dözümlülük ruhunda tərbiyə edilməsinin vacib məsələ olduğunu vurğulayan Ümummilli Lider, eyni zamanda bu işin mürəkkəb və çətin olduğunu da qeyd edirdi. Ulu Öndər gənclərdə tolerantlıq mədəniyyətinin uşaqlıqdan tərbiyə edilməsini diqqətə çəkərək ünsiyyət mədəniyyətinin formalaşdırılması və Azərbaycan gənclərində bu xüsusiyyətlərin tərbiyə edilməsinin vacib şərt olduğunu tövsiyə etmişdir. O, bu məsələlərdən bəhs edərək demişdir: "Məlumdur ki, yüksək tolerantlıq ilk növbədə yüksək mədəniyyətin təzahürüdür. İnsanlarda belə bir mədəniyyətin formalaşdırılmasını uşaqlıq illərindən başlamaq lazımdır. Ölkəmizdə yetişməkdə olan nəslin təhsillənməsində müasir elmi-pedaqoji konfranslar daxilində biz ünsiyyət mədəniyyətini, dini dözümlülük və əməkdaşlıq mədəniyyətini formalaşdırmağa cəhd göstəririk və ümumən desək, buna nail oluruq. Bunu demək çox asandır, lakin gerçəkləşdirmək kifayət qədər mürəkkəb bir prosesdir" (12).

Azərbaycanda dövlətin din siyasətinin həyata keçirilməsini təmin etmək məqsədilə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi yaradılmış və Komitə ölkəmizdə mövcud olan dini strukturların fəaliyyətinin tənzimlənməsi, eləcə də dövlətin din siyasəti sahəsində müxtəlif funksiyalarını yerinə yetirir. Ümumiyyətlə, milli dəyərlərimizin qorunması və gələcək nəsillərə çatdırılması bu gün də öz aktuallığını qoruyub saxlayır. Çünki bu dəyərlərin xalqımızın formalaşmasına təsiri böyük olduğu kimi, milli dövlətçiliyimizin möhkəmləndirilməsində də xüsusi rolu vardır. Bu gün milli dəyərlərimiz elliklə, bütün xalq tərəfindən, dövlətin öz himayəsi altında qorunur və daha da inkişaf etdirilir. Eyni zamanda bəşəri sivilizasiyanın müxtəlif mədəniyyətlərinin qorunması üçün dinlər və mədəniyyətlər arasında dialoqun yaranması mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan tolerantlıq və dözümlülük ənənələri zəngin olan ölkə və regionların təcrübəsi nümunə ola bilər. Bu baxımdan, Azərbaycan bir çox millətlərin və dini konfessiyaların dinc yanaşı yaşamasının unikal nümunəsidir.

Bundan əlavə, Ümummilli Lider islam dini ilə bağlı bir sıra beynəlxalq elmi tədbirlərin respublikamızda keçirilməsinin təşəbbüskarı olmuşdur. Onun təşəbbüsü və dəstəyi ilə 1993-2002-ci illərdə islam dini, mədəniyyəti ilə bağlı Azərbaycanda müxtəlif tədbirlər keçirilmişdir. Bu tədbirlərdən biri 1998-ci il dekabrın 9–11-də Bakıda keçirilmiş "İslam sivilizasiyası Qafqazda" adlı beynəlxalq simpoziumdur. Azərbaycan islam dünyasının bir parçası olduğuna və Şərqlə Qərbin qovuşuğunda yerləşdiyinə görə bu beynəlxalq simpoziumun Bakıda keçirilməsini təbii hesab etmək olar. Eyni zamanda, islam dininin və islam sivilizasiyasının Qafqazda yayılması ilə bağlı məsələlərin elmi cəhətdən araşdırılması zərurətini, o cümlədən respublika, regional və beynəlxalq təşkilatların müraciətlərini nəzərə alaraq Heydər Əliyev bu aktual və vacib tədbirin Bakıda keçirilməsini dəstəkləmişdir. Simpoziumda Türkiyə, Rusiya, ABŞ, Misir, Almaniya, Fransa, Küveyt və digər ölkələrdən gəlmiş nümayəndələr iştirak etmişlər (17).

Azərbaycan vətəndaşlarının əksəriyyətini təşkil edən müsəlmanların hüquqlarının təmin olunması ilə yanaşı, dövlət respublikada yayılmış digər dinlərə də qayğı göstərir. Qeyd etmək lazımdır ki, 1995-ci ildə UNESCO-nun yaranmasının 50 illik yubileyi münasibətilə Beynəlxalq Tolerantlıq günü təsis edilmiş və burada əsas məqsəd dünyada hamını bir-birinə dözümlülük nümayiş etdirərək dinc yanaşı yaşamağa çağırışdan ibarətdir (14). Bundan irəli gələrək Heydər Əliyevin təşəbbüsü ilə 1999-cu ildən etibarən noyabrın 16-nın Azərbaycanda tolerantlıq günü kimi qeyd olunması Ümummilli Liderin multikultural dəyərlərə, tolerant ənənələrə verdiyi yüksək qiymətin göstəricisidir (7).

Bu baxımdan, Ümummilli Lider haqlı olaraq multikulturalizm siyasətini ölkənin demokratik inkişafının tərkib hissəsi hesab edirdi. O, Azərbaycan ərazisində yaşayan milli azlıqların hüquq və azadlıqlarının, o cümlədən etnik-mədəni, dini dəyərlərinin qorunmasını demokratiyanın mühüm prinsipi olan əsas insan hüquq və azadlıqları kontekstində görürdü. Ümummilli Liderin rəhbərliyi ilə, nəhayət ki, demokratik inkişaf yoluna çıxmış Azərbaycan Respublikası, onun qeyd etdiyi kimi, "dinindən, dilindən, irqindən asılı olmayaraq Azərbaycanın bütün vətəndaşlarının eyni hüquqlara malik" olmalarını təmin etməli idi (8).

Ümumiyyətlə, Azərbaycan tarixən tolerantlıq, dini dözümlülük ənənələri ilə fərqlənsə də, qeyd etmək vacibdir ki, beynəlxalq standartlara cavab verən tolerantlıq ölkəmizdə məhz Heydər Əliyevin xidmətləri sayəsində qurulmuşdur. Belə ki, 1920-ci ildə bağlanmış Jen Mironosets baş kilsəsinin binası 1991-ci ildə Rus Pravoslav Kilsəsinə verilmişdir (29). Azərbaycanda səfərdə olan Moskvanın və bütün Rusiyanın Patriarxı II Aleksi 2001-ci il mayın 27-də bu məbədi müqəddəs elan etmiş və ona baş kafedral kilsə statusu vermiş və kilsənin açılış mərasimində Azərbaycan Prezidenti Heydər Əliyev, hökumət üzvləri, səfirliklərin nümayəndələri və dini icmaların başçıları iştirak etmişlər. Moskva və ümumrusiya Patriarxı II Aleksi Azərbaycanda dövlət-din münasibətlərinin düzgün qurulmasında, respublikada dini əmin-amanlığın və sabitliyin yaranmasında ümummilli lider Heydər Əliyevin mühüm rol oynadığını, eləcə də Azərbaycanın bu sahədə nümunə olmasını vurğulayaraq demişdir: "Azərbaycan qədim dini ənənələrə və mədəniyyətə malik bir ölkədir. Bu gün Azərbaycan dini əmin-amanlığa və sabitliyə ilham verən örnəkdir. Bunun əsası Azərbaycan Prezidenti Heydər Əliyevin müdrik siyasəti sayəsində qoyulmuşdur. Dünyəvi hakimiyyət və ənənəvi dini icmaların konstruktiv fəaliyyəti və qarşılıqlı ünsiyyəti nəticəsində yaranmış dövlət-din münasibətlərinin nadir modeli Azərbaycan Respublikasında öz əksini tapmışdır. Belə zənn edirəm ki, bu sahədə Azərbaycanda toplanmış təcrübə diqqətlə öyrənilməli və təhlil olunmalıdır" (18).

Bundan əlavə, ölkəmizdə 1997-ci ildə gürcü yəhudilərinin sinaqoqu bərpa edilmişdir (9). Ümumiyyətlə, Azərbaycan müstəqillik əldə etdikdən sonra buradakı yəhudi icmaları beynəlxalq yəhudi təşkilatları ilə əlaqələrini möhkəmləndirmiş, öz dini məktəblərini, mədəniyyət mərkəzlərini, cəmiyyətlərini, qəzetlərini yaratmışlar. 2003-cü il martın 9-da Bakıda yeni yəhudi sinaqoqu açılmışdır (19). Bu, hazırda da Avropada ən böyük sinaqoqdur. Bununla yanaşı, Azərbaycanda dini tolerantlığın formalaşmasında Prezident Heydər Əliyevin xidmətini yüksək dəyərləndirən ümumgürcüstan Katalikos Patriarxı II İlya Azərbaycanda mövcud olan dini tolerantlıqdan və bu sahədə də Heydər Əliyevin və onun davamçılarının xidmətini yüksək qiymətləndirərək demişdir: "Bu gün Azərbaycanda mövcud olan tolerant mühitin formalaşmasında Heydər Əlirza oğlu Əliyevin xidməti böyükdür. Azərbaycanın öz ənənəvi dəyərlərini qoruyub saxlamaqla müasir dünyanın çağırışlarına ləyaqətli cavab verə bilməsi şəxsən onun və onun davamçılarının müdrik və uzaqgörən siyasətinin nəticəsidir" (9).

Müasir dövrdə çağdaş dünyanın qarşısında duran ən mühüm problemlərdən biri fərqli sivilizasiyalar, dinlər, mədəniyyətlər arasında anlaşmanın, əməkdaşlığın optimal yollarının tapılmasıdır. Son illərdə bu mövzuda müxtəlif səviyyəli müzakirələr aparılmış, beynəlxalq tədbirlər keçirilmiş və qurumlar təsis olunmuşdur. 2001-ci il sentyabrın 11-də Amerikada baş vermiş terror hadisəsindən sonra meydana gələn və bir sıra hallarda mədəniyyətlərin toqquşması, sivilizasiyalar və dinlərarası savaş kimi təqdim edilən proseslər dünyada geniş miqyaslı dialoq zərurətini aktuallaşdırmışdır. Qeyd etmək lazımdır ki, ABŞ-da baş verən 11 sentyabr hadisələrindən sonra dinlərarası və sivilizasiyalararası dialoq zərurəti daha da aktuallaşmış və bu istiqamətdə aparılan elmi-nəzəri tədqiqatların və əməli tədbirlərin dəyəri daha da mühüm əhəmiyyət kəsb etməyə başlamışdır. Təsadüfi deyildir ki, XXI əsrin ilk ili – 2001-ci il BMT Baş Assambleyası tərəfindən "Sivilizasiyalararası dialoq ili" elan olunmuş (15) və 2001-ci il noyabrın 9-da BMT Baş Assambleyasında "Sivilizasiyalararası dialoq üçün qlobal gündəlik" adlanan qətnamə qəbul edilmişdir (16). Bunlar onu göstərir ki, qloballaşma dövründə sivilizasiyalararası dialoqun həyata keçirilməsi daha çox əhəmiyyət kəsb edir.

Bu gün müasir Azərbaycanda dövlət-din münasibətləri modeli çərçivəsində bütün dini konfessiyalar qanun qarşısında bərabərdir və eyni statusa malikdir. Vətəndaşlarının böyük əksəriyyətini müsəlmanlar təşkil edən ölkəmizdə digər dinlərə də xüsusi qayğı göstərilir. Azərbaycan öz mədəniyyəti, tarixi, adət-ənələri ilə fəxr etməyə layiq az sayda dövlətlərdən biridir. Tolerantlıq dövlət strategiyası olaraq əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş və bu zəngin ənənə hazırda Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Əsrlərdir ki, xalqımız tolerantlıq, dözümlülük, başqa dinlərə və mədəniyyətlərə hörmət prinsiplərini həyat tərzinə çevirərək bu prosesə mühüm töhfələr vermişdir. Ona görə də dövlət başçısı İlham Əliyevin 2016-cı ili Azərbaycanda "Multikulturalizm ili" elan etməsi heç də təsadüfi deyil və bunun dərin tarixi kökləri vardır.

Belə ki, 2016-cı ilin Azərbaycanda "Multikulturalizm ili" elan edilməsi bir çox obyektiv amillərdən qaynaqlanır. Birincisi, Azərbaycan əsrlər boyu mədəniyyətlərin qovuşduğu məkanda yerləşməklə dinlər və sivilizasiyalararası anlaşmada aparıcı rol oynamış, bununla bağlı dərin tarixi baza formalaşdırılmışdır. Ölkəmizdə heç vaxt dini və etnik zəmində heç bir qarşıdurma olmamış və bu proses indi də uğurla davam etdirilir. İkincisi, Azərbaycan cəmiyyətindəki dözümlülük ölkədə nadir tolerantlıq mühiti yaratmış və indi

bu, bir nümunə kimi beynəlxalq ictimaiyyətin diqqətini cəlb edir. Üçüncüsü isə Azərbaycanda multikulturalizm ənənələrinin inkişafı və möhkəmlənməsi üçün bütün zəruri siyasi və sosial şəraitin mövcud olmasıdır. Multikulturalizm eyni ölkədə yaşayan xalqların mədəniyyət hüquqlarını tanıyan humanist dünyagörüşü və ona uyğun siyasət kimi qəbul olunur. Məsələyə bu kontekstdən yanaşdıqda Azərbaycanda müxtəlif millətlərin, dinlərin və mədəniyyətlərin nümayəndələrinin sərbəst yaşamaları üçün bütün zəruri şəraitin yaradıldığını görürük. Müstəqilliyini bərpa etdikdən sonra isə ölkəmizdə multikulturalizm ənənələrinin güclənməsinə dövlət dəstəyi formalaşmışdır ki, indi bu dəstək özünün yüksəliş dövrünü yaşayır.

Azərbaycan Prezidenti İlham Əliyevin Azərbaycanın pravoslav xristian icmasına təbrikində çoxmillətli və çoxkonfessiyalı cəmiyyətimizdə dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq, Azərbaycanın bütün vətəndaşları, o cümlədən pravoslav xristianların öz hüquq və azadlıqlarından lazımınca yararlanmaqla, ölkəmizdə gedən böyük inkişaf və quruculuq prosesində fəal vətəndaşlıq mövqeyi nümayiş etdirdiyini bildirərək demişdir: "Yüz illər boyu yüksək mənəvi-əxlaqi dəyərlərin və etnik-dini tolerantlıq ənənələrinin qorunub saxlandığı Azərbaycan cəmiyyətində ayrı-ayrı xalqlar, dinlər və etiqadlar arasında qarşılıqlı hörmət, etimad və qardaşlıq münasibətləri mövcud olmuşdur. Biz bunu milli dövlətçiliyimizin böyük uğuru kimi qiymətləndirir, tarixi-mənəvi irsin və etnik-mədəni müxtəlifliyin qorunmasını, multikulturalist ənənələrə söykənən ictimai münasibətlərin təbliğini və təşviq edilməsini fəaliyyətimizin başlıca istiqamətlərindən biri hesab edirik" (3).

Ölkəmizin tarixən müxtəlif dinlər, mədəniyyətlər üçün dinc yanaşı yaşama məkanı olması Azərbaycanın bu proseslərdə ön sıralarda yer almasını zəruri edir. XX əsrin əvvəlində bir müsəlman ölkəsi olaraq dünyaya ilk cümhuriyyəti, demokratik respublikanı vermiş, müsəlman Şərqində ilk dəfə mütərəqqi Qərb dəyərlərini dövlət səviyyəsində əxz və tətbiq etmiş Azərbaycan üçün bugünkü dünyaya mədəni tolerantlıq örnəyi olmaq, mədəniyyətləri qovuşduran məkan rolunda çıxış etmək tarixin üzərimizə qoyduğu bir missiyadır. 2009-cu il oktyabrın 13-14-də "Bakı–İslam Mədəniyyətinin Paytaxtı–2009" mədəniyyət ili çərçivəsində dünyanın 45-dən çox ölkəsindən, eləcə də ISESCO, Avropa Şurası, TÜRKSOY və digər təşkilatlardan 200-dən çox nümayəndənin iştirakı ilə respublikamızda İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin mədəniyyət nazirlərinin VI konfransı keçirilmişdir. Məhz ilk dəfə olaraq Azərbaycanda İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin mədəniyyət nazirlərinin toplantısına Avropa Şurasından mədəniyyət nazirləri qatılmışdı.

Bununla yanaşı, UNESCO 2001-ci ildə Mədəni müxtəliflik üzrə Universal Bəyannaməni və 2005-ci ildə Mədəni özünüifadə müxtəlifliyinin qorunması və təşviqi haqqında Konvensiyanı qəbul etdikdən sonra mayın 21-i Mədəni Özünüifadə Müxtəlifliyi üzrə Ümumdünya Günü elan edilmişdir. 2008-ci ildən etibarən hər il bu tarixdə ənənəvi olaraq UNESCO-da və dünyanın bir çox bölgələrində müxtəlif qitə və regionların mədəniyyətlərini əks etdirən konsert, sərgi və digər mədəniyyət tədbirlərindən ibarət olan Müxtəliflik Festivalı keçirilir. 2010-ci il mayın 17-dən 26-dək UNESCO-da Azərbaycanın birinci xanımı, xoşməramlı səfir Mehriban Əliyevanın mənəvi və maddi dəstəyi ilə təşkil edilmiş Mədəni Özünüifadə Müxtəlifliyi üzrə Ümumdünya Günü münasibətilə üçüncü ənənəvi Müxtəliflik Festivalı keçirilmişdir. Bu festival Latın Amerikasından tutmuş Yaxın Şərq və Cənub-şərqi Asiyaya qədər mədəni müxtəlifliyi əks etdirən rəngarəng tədbirlərlə yadda qalmışdır (4).

2009-cu ilin noyabr ayında Azərbaycan UNESCO-nun "Mədəni Özünüifadə Müxtəlifliyinin Qorunması və Təşviqinə dair Konvensiyası"na qoşulmuş və sənəd 2010-cu il mayın 15-dən Azərbaycan Respublikasında qüvvəyə minmişdir. Bununla da ölkəmiz bu təşkilat çərçivəsində mədəniyyət və turizm sahəsində həyata keçirilən layihələrdə iştirak imkanlarını genişləndirmişdir. Konvensiya çərçivəsində ölkəmizdə "Mədəni müxtəlifliyimiz mədəni vəhdətimizdir" layihəsi həyata keçirilmişdir (21).

Bununla yanaşı, Heydər Əliyev Fondunun təşəbbüsü ilə 2010-cu il iyunun 29-dan 30-dək Bakıda keçirilmiş və ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş "Qloballaşma şəraitində mədəniyyətlərin dialoqu" forumu da bütün dünyada sivilizasiyalar arasında dialoqa öz dəyərli töhfələri ilə yadda qalmışdır. Azərbaycanın birinci xanımı öz fəaliyyəti ilə həm də mədəniyyətlər və sivilizasiyalararası dialoqa necə nail olmağın yolunu göstərir (22). Məlumdur ki, maddi mədəniyyətin, elmin, texnologiyanın, iqtisadiyyatın, fiziki sağlamlığın, idmanın prioritetliyinə əsaslanan Qərb sivilizasiyası və mənəvi mədəniyyətin, əxlaqın, dini dəyərlərin prioritetliyinə əsaslanan Şərq sivilizasiyası ancaq bir-birini qarşılıqlı surətdə tamamladıqda onun kamil insanın formalaşmasındakı rolu haqqında danışmaq olar.

Azərbaycanda etnik azlıqların hüquqlarının müdafiəsi ölkənin siyasi sabitliyinin təminatı və xarici siyasətin prioritet vəzifələrindəndir. Çoxmillətli və çoxkonfessiyalı respublika olan Azərbaycanın milli siyasəti bütün etnik qruplar, o cümlədən milli azlıqlar üçün şəraitin təmin edilməsi və yaradılmasıdır. Respublikada multikulturalizm Azərbaycan dövlətinin milli-mənəvi, ümumbəşəri, humanist dəyərlərə söykənən davamlı və ardıcıl siyasi kursudur. Multikulturalizm bir ideya və termin kimi ilk dəfə Avropada yaransa da, Azərbaycan mühitində artıq cəmiyyətin əxlaq kateqoriyasına çevrilmişdir.

Ölkəmiz bütün dinlərin, mədəniyyətlərin, fərqli baxışların bir ailə kimi yaşadığı tolerantlıq məkanıdır. Bu gün dünyada çoxmədəniyyətli ölkə imici qazanmış Azərbaycanda müxtəlif xalqlar arasında ənənəvi dostluq və qardaşlıq münasibətlərinin, tolerantlığın hökm

sürməsi tarixi nailiyyətimizdir. Tarixən tolerant ölkə olan Azərbaycanda müsəlmanlarla yanaşı, katoliklər, pravoslavlar, yəhudilər və digər dinlərə etiqad edən insanlar da yaşayırlar. Ölkəmizdə yaşayan müxtəlif xalqlara öz milli-mənəvi dəyərlərini, dini etiqadını, adət-ənənələrini qoruyub saxlamaq, dil və mədəniyyətini inkişaf etdirmək üçün demokratik şəraitin təmin edilməsi Azərbaycanı dünya ölkələri üçün tolerantlıq örnəyinə çevirib. Qürurverici haldır ki, bir sıra dövlətlər bizim təcrübəmizdən yararlanmağa çalışırlar. İndi dünyada multikulturalizm sahəsində ən optimal model kimi Azərbaycan nümunəsi öyrənilir.

Ölkəmizdə tolerantlıq və multikulturalizm ənənələrinin qorunması işinə xüsusi əhəmiyyət verən Heydər Əliyev Fondu "Tolerantlığın ünvanı – Azərbaycan" layihəsini uğurla həyata keçirir. Layihə çərçivəsində Bakıdakı pravoslav kilsəsində təmir-bərpa işləri aparılmış, eyni zamanda "Or-Avner" Beynəlxalq Fondu ilə birgə Bakıda yaşayan yəhudi uşaqları üçün 600 yerlik təhsil mərkəzi inşa edilmişdir (25). Bununla yanaşı, Fransa regionlarında kilsələrin, müqəddəs Roma katakombalarının bərpasında Azərbaycanın iştirakı, Həştərxanda Müqəddəs Knyaz Vladimirə abidənin ucaldılması da məhz ayrı-ayrı xalqların və konfessiyaların qarşılıqlı hörmət və dostluq münasibətlərinin genişləndirilməsinə xidmət edir (27). Hazırda Azərbaycanda formalaşmış dini tolerantlıq mühitinin qorunub saxlanması və onun daha da möhkəmləndirilməsində görülən işlər nəticəsində respublikamızda rəsmi olaraq 598 dini icma qeydiyyatdan keçmişdir. Bunlardan 577-si islam, 21-i qeyri-islam təmayüllü dini icmadır. Eyni zamanda ölkəmizdə 11 kilsə, 6 sinaqoq fəaliyyət göstərir (27).

2008-ci ilin sentyabrında Heydər Əliyev Fondu və Roma Katolik dini icması arasında anlaşma memorandumu imzalanmışdır. Sənəddə müəyyənləşdirilmiş sahələr üzrə inkişaf, yenidənqurma layihələrinin gerçəkləşdirilməsi, sosial və dini təyinatlı obyektlərə yardımla yanaşı, Azərbaycanda məskunlaşan xalqların etnomədəni komponentlərinin inkişafına yönələn tədbirlərin həyata keçirilməsi də nəzərdə tutulmuşdur. İlkin əməkdaşlıq çərçivəsində fond tərəfindən Bakıdakı Müqəddəs Məryəm kilsəsinin asma tavan şüşələri dini mövzuda və klassik vitraj texnikasında işlənmiş bədii şüşələrlə əvəz edilmiş, eyni zamanda məbədin fasadında keramik panno yerləşdirilmişdir. Fond bu kimi tədbirləri ardıcıl olaraq davam etdirməkdədir (20).

Ümumiyyətlə, tolerantlıq nümunəsi sayılan Azərbaycan Heydər Əliyev Fondunun xətti ilə Parisdə Versal Sarayının parkında abidələri bərpa edir, Strasburqda Müqəddəs Məryəm kafedral kilsəsinin yenidən qurulmasına yardım göstərir, Pakistanda zəlzələdən zərər çəkən qızlar məktəbini yenidən inşa edir, Hollandiya, Rusiya, Gürcüstan, Rumıniya, Misir və digər ölkələrdə təhsil ocaqlarını müasirləşdirir, Afrika ölkələrinin qeyri-maddi mədəni irsinin qorunmasına dəstək verir, Qəbələ Beynəlxalq Musiqi Festivalı kimi onlarca qlobal və mükəmməl mədəniyyət layihəsinə imza atır. Eyni zamanda Heydər Əliyev Fondu Azərbaycanın dövlət müstəqilliyinin 20-ci ildönümü münasibətilə xaricdə həyata keçirilən bir çox layihənin müəllifidir. Fondun Parisdə, Moskvada, Berlində, Romada, Vatikanda təşkil etdiyi tədbirlər ölkəmizin multikulturalizm modelinin təbliğində mühüm rol oynamış, eləcə də Azərbaycan Vatikanda sərgi təşkil edən ilk müsəlman ölkəsi kimi tarixə düşmüşdür. Bu isə bəşəri multikulturalizmin ən ali nümunələrindən biri kimi dəyərləndirilə bilər.

Mədəniyyətlərarası dialoqun və dinlərarası əməkdaşlığın inkişaf etdirilməsi sahəsində görülən işlərin nəticəsidir ki, Azərbaycan Prezidenti İlham Əliyev Moskvanın və bütün Rusiyanın Patriarxı Kiril tərəfindən Birinci dərəcəli "Şərəf və Şöhrət" ordeni ilə, Vatikan dövlətinin ən yüksək mükafatlarından sayılan "Medalla Sede Vacante" medalı ilə təltif edilmişdir. Eyni zamanda Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva tərəfindən də mədəniyyətlərarası dialoqun və dinlərarası əməkdaşlığın inkişaf etdirilməsi sahəsində bir sıra mühüm işlər görülmüşdür. Bu baxımdan, 2012-ci il iyunun 22-də Romada Mehriban xanım Əliyeva və Vatikanın Mədəniyyət naziri, Roma Papasının Müqəddəs Arxeologiya üzrə Şurasının sədri kardinal Can Franko Ravazinin iştirakı ilə Heydər Əliyev Fondu ilə Müqəddəs Taxt-Tac arasında "Roma katakombalarının bərpasına dair ikitərəfli saziş" imzalanmışdır (23). 2015-ci il iyunun 2-də Roma Papası Fransis Mehriban xanım Əliyeva ilə görüşü zamanı, Heydər Əliyev Fondunun dəstəyi ilə Müqəddəs Roma katakombalarının bərpasını yüksək qiymətləndirmişdir (24).

Azərbaycanın birinci xanımı, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban Əliyeva ölkəmizin tolerantlıq ənənələrinin dünya miqyasında təbliğinə böyük dəstək verir. Heydər Əliyev Fondunun xətti ilə dünyanın bir neçə ölkəsində bu qəbildən silsilə tədbirlər keçirilir. Heydər Əliyev Fondunun prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın iştirakı ilə Parisdə "Dini tolerantlıq: Azərbaycanda birgə yaşamaq mədəniyyəti" mövzusunda keçirilən konfrans multikulturalizmin bu və ya digər formada sıxışdırıldığı Avropanın gələcəyində onun əhəmiyyətini göstərirdi.

UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban Əliyeva çıxışında ölkəmizin tolerantlıq mərkəzi kimi əhəmiyyətini qeyd edərək demişdir: "Ekstremizm və terrorçuluğa qətiyyətlə yox deməklə biz cəmiyyətlərimizdə dözümlülük, sülhsevərlik, tolerantlıq dəyərlərinin təbliğinə geniş fikir verməliyik...Ayrı-seçkilik, ksenofobiya, islamofobiya, antisemitizm kimi təhlükəli amillər bəşəriyyət tarixində sivilizasiyaların və xalqların fəlakətinə səbəb olub. Dərin multikulturalizm köklərinə malik ölkə kimi, Azərbaycan qlobal arenada bu dəyərlərin təşviqi üçün vacib rolunu oynamağa hazırdır" (26). Ümumiyyətlə, ölkəmizdə mədəniyyətlərarası dialoqla bağlı keçirilən tədbirlərin məqsədi xalqlar, dövlət-

lər və sivilizasiyalar arasında dialoq imkanlarını genişləndirmək, cəmiyyətdə sülh, əmin-amanlıq və dözümlülük mühitini inkişaf etdirmək, müasir dünyamızda müzakirə olunan inkişaf modelləri ətrafında fikir mübadiləsi aparmaq, milli özünəməxsusluğu saxlamaqla bəşəri-mədəni dəyərləri mənimsəməkdən ibarətdir. Dünyada sivilizasiyalararası dialoq sahəsində ciddi problemlərin yaşanması, bu fonda münaqişələrin artması tendensiyasının müşayiət olunması, xüsusilə də islamofobiya kimi təhlükəli meyillərin bir sıra dövlətlərin və digər subyektlərin siyasətində özünə geniş yer alması reallığında Azərbaycanın mədəniyyətlərarası dialoq məkanına çevrilməsi faktı qlobal əhəmiyyət kəsb edən məsələdir. Bu məsələlərin həlli istiqamətində Azərbaycanın təcrübəsi digər ölkələr üçün örnək ola bilər.

Bundan əlavə, Azərbaycan dövlətinin yürütdüyü tolerantlıq siyasətinin daha da genişlənməsi və möhkəmlənməsi, tolerantlıq mühitinin qorunub saxlanılması və təşviqi məqsədilə dövlət başçısı İlham Əliyev bir sıra mühüm tədbirlər həyata keçirmişdir. Bunun başlanğıcı olaraq, 2014-cü ilin fevral ayında Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşavirliyi xidməti yaradılmışdır. Multikulturalizmin həyat tərzinə çevrildiyi Azərbaycanın dünyaya tolerantlıq nümunəsi olaraq daha geniş tanıdılmasının vacibliyini, eləcə də ayrı-ayrı ölkələrdəki müxtəlif multikultural modellərə xas fəlsəfi, sosial, siyasi və digər aspektlərin Azərbaycan reallığında təhlili və təşviqinin əhəmiyyətini nəzərə alaraq dövlət başçısı 2014-cü il mayın 14-də Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması haqqında fərman imzalamışdır.

Ümumiyyətlə, multikulturalizm bir ideya və termin kimi ilk dəfə Qərbdə, Avropada dövriyyəyə çıxarılsa da və son dövrlərdə bu ideyadan geriçəkilmələrə yol verilsə də, Azərbaycan mühitində bu sahə artıq cəmiyyətin əxlaq kateqoriyasına çevrilmişdir. Bu sahədə yarana biləcək problemlərə qarşı qabaqlayıcı tədbirlərin operativ şəkildə həyata keçirilməsi dövlət-din münasibətlərinin yüksələn xətt üzrə inkişafına böyük zəmin yaratmışdır. Dünyanın müxtəlif bölgələrində din və milli zəmində baş verən qarşıdurma və münaqişələr, dini konfessiyaların, təriqətlərin, institutların cəmiyyətin siyasi həyatına, ayrı-ayrı dövlətlərin idarəçilik sisteminə təsir göstərmək cəhdləri bu gün də din-dövlət münasibətlərini gündəmdə saxlayır və ictimai müzakirəsini aktuallaşdırır.

Eyni zamanda mədəniyyətlərarası dialoq barışdırıcı amil kimi çıxış edərək, müharibə və münaqişələrin qarşısını almaqla inam və qarşılıqlı etimad yaratmaqda böyük təsirə malikdir. Aparılan müşahidələr, həyata keçirilən tədbirlər də göstərir ki, ölkəmiz dinlərarası və mədəniyyətlərarası dialoqa artıq öz töhfəsini verməkdədir. Mədəniyyətlərarası dialoq, əslində, elə bəşəriyyətin tarixi deməkdir. Bu baxımdan müasir mədəniyyət üçün dialoq daha aktual məsələdir.

**Ədəbiyyat:**


1. Azərbaycan Respublikası 1991-2001. Bakı, 2001, 288 s.
2. Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin "Yeni 2001-ci il, yeni əsr və üçüncü minillik" münasibətilə Azərbaycan xalqına müraciəti. //"Azərbaycan" qəzeti, 30 dekabr 2000-ci il.
3. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Azərbaycanın Pravoslav xristian icmasına təbriki. //"Azərbaycan" qəzeti, 4 may 2013-cü il.
4. Azərbaycan UNESCO-da keçirilən Müxtəliflik Festivalında uğurla təmsil olunmuşdur // "Azərbaycan", 26 may 2010-cu il.
5. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. I–XXXXVI kitablar. Elektron külliyyat. – http://preslib.az/books.html
6. Həsənov Ə.M. Azərbaycanın milli inkişaf və təhlükəsizlik siyasətinin əsasları. Bakı, 2016, 700 s.
7. Həsənov Ə.M. Heydər Əliyevin siyasi kursunda multikulturalizmə baxış və yanaşmalar. // "Geostrategiy" jurnal, № 01(31), yanvar-fevral 2015, s.3-7.
8. Abdullayev K.M. Ulu Öndər Azərbaycan multikulturalizminin siyasi banisidir // "Azərbaycan", 23 iyul 2014-cü il.
9. Qurbanlı M.Q. Azərbaycanı tolerantlığın ən mükəmməl nümunəsinə çevirən lider. // "Azərbaycan", 6 may 2015-ci il.
10. Həsənov S.S. "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikası Qanununun komentariyası. Bakı, 2014, 272 s.
11. Hüseynov S.Y. Azərbaycanda dini tolerantlıq mədəniyyəti: tarix və müasirlik. Bakı, 2012, 176 s.
12. Hüseynov S.Y. Azərbaycan dini tolerantlığa və sabitliyə töhfə verən örnəkdir // "Xalq qəzeti", 11 fevral 2011-ci il.
13. "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanunu - http://www.president.az/articles/2672; http://www.meclis.gov.az/; http://scwra.gov.az/docs/169/; http://www.e-qanun.az/framework/7649;
14. UN General Assembly Resolution A/RES/48/126 "United Nations Year for Tolerance".
15. UN General Assembly Resolution A/RES/55/23 "Year of Dialogue among Civilizations".
16. UN General Assembly Resolution A/RES/60/04 "Global Agenda for Dialogue among Civilizations".
17. "Azərbaycan", 12 dekabr 1998-ci il.
18. "Xalq qəzeti", 28 may 2001-ci il.
19. "Azərbaycan", 10 mart 2003-cü il.
20. "Azərbaycan", 31 sentyabr 2008-ci il.
21. "Xalq qəzeti", 11 sentyabr 2010-cu il
22. "Azərbaycan", 31 iyul 2010-cu il.
23. "Azərbaycan", 24 iyun 2012-ci il.

24. "Azərbaycan", 4 iyun 2015-ci il.
25. "Azərbaycan", 21 avqust 2015-ci il.
26. "Azərbaycan", 10 sentyabr 2015-ci il.
27. "Xalq qəzeti", 16 sentyabr 2015-ci il.
28. http://www.azerbaijan.az/portal/General/Constitution/doc/constitution_a.pdf
29. http://www.azerbaijan.az.
30. http://www.preslib.az/

**Açar sözlər:** *Azərbaycan Respublikası, beynəlxalq münasibətlər, əməkdaşlıq, sivilizasiyalararası və mədəniyyətlərarası dialoq*

**Ключевые слова:** *Азербайджанская Республика, международные отношения, сотрудничество, межцивилизационный и межкультурный диалог*

**Keywords:** *The Republic of Azerbaijan, international relations, cooperation, intercivilization and intercultural dialogue*

**Эльчин Ахмедов**

***Доктор политических наук, доцент кафедры "Международные отношения и внешняя политика" Академии Государственного Управления при Президенте Азербайджанской Республики***

## МУЛЬТИКУЛЬТУРАЛЬНЫЕ ЦЕННОСТИ ВО ВНУТРЕННЕЙ И ВНЕШНЕЙ ПОЛИТИКЕ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

### РЕЗЮМЕ

В статье исследуются культурное разнообразие, мультикультуральные ценности и толерантность во внутренней и внешней политике Азербайджанской Республики. Наряду с этим, анализируется устойчивый курс Гейдара Алиева в контексте мультикультуральных ценностей, исследуется новый этап мультикультурализма в Азербайджане, межцивилизационный и межкультурный диалог как основа устойчивого развития. Рассматриваются вопросы защиты прав и свобод национальных меньшинств, проживающих на территории Азербайджана, включая их этно-культурные и религиозные ценности в контексте защиты прав и свобод человека, как основного принципа демократии. При этом мультикультурализм в Азербайджане исследуется как образ жизни общества, принцип уважения культурных прав народов, проживающих в стране, отражается в соответствующей политике государства.

**Elchin Ahmadov**

***The Academy of Public Administration under the President of the Republic of Azerbaijan Department of International Relations and Foreign Policy Doctor of Political Sciences, Associate Professor***

## MULTİCULTURAL VALUES İN DOMESTİC AND FOREİGN POLİCY OF THE REPUBLİC OF AZERBAİJAN

### SUMMARY

The article explores continued political course of Haydar Aliyev in the context of multicultural values. At the same time, cultural diversity, multicultural values and tolerance in domestic and foreing policy of Azerbaijan, as well as new stage of multiculturalism in Azerbaijan, intercivilization and intercultural dialogues as a basis for sustainable development.

The rights and freedoms of national minorities living in Azerbaijan, as well as the protection of the ethnic, cultural and religious values, is explored in the context of fundamental principle of democracy, human rights and freedoms. Multiculturalism is explored as Azerbaijani lifestyle. In addition, multiculturalism is analyzed as humanist outlook of cultural rights of the peoples living in our country and appropriate policy of it.

**RƏCƏB RƏHİMLİ**

*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Elmi-Təşkilat şöbəsinin müdiri, siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent*

# MÜASİR AZƏRBAYCANDA DÖVLƏT QULLUĞUNUN İNNOVATİV İNKİŞAF DİNAMİKASI

Yenidən müstəqillik əldə etdikdən sonra Azərbaycan demokratik, hüquqi, dünyəvi və unitar dövlət olaraq formalaşmışdır. Yeni Konstitusiyanın qəbul olunması ilə dövlət idarəçilik sistemində mühüm dəyişikliklər edilməyə başlanmış, səmərəli və məhsuldar fəaliyyət göstərən idarəçilik sisteminin təşkili, təkmilləşdirilməsi istiqamətində mühüm addımlar atılmış, dövlətin sosial, siyasi, hüquqi, iqtisadi və ideoloji funksiyalarının dəyişməsi və təkmilləşməsi müşahidə olunmuşdur. Bununla əlaqədar olaraq əvvəlki rejimdən qalma bir çox qurumlar ləğv edilmiş, müasir idarəçilik sisteminə uyğunlaşa bilən yeni qurum və müəssisələr təsis edilmiş, idarəçilik sisteminin səmərəliliyini artırmaq üçün bir çox hüquqi tənzimləmələr həyata keçirilmişdir. Bu hüquqi tənzimləmələrin, bəlkə də, ən əhəmiyyətlisi Azərbaycan Respublikasının yeni Konstitusiyasının qəbulu və Azərbaycan dövlət qulluğu sisteminin əsasını təşkil edən "Dövlət qulluğu haqqında" Qanunun qəbul edilib qüvvəyə minməsi olmuşdur. Bunların birincisi yeni Azərbaycan Konstitusiyasının hazırlanması oldu. Çünki istənilən ölkədə demokratik sistem qurmaq və demokratik orqanları formalaşdırmaq yolunda ən əhəmiyyətli addım konstitusiyanın hazırlanmasıdır. Daha geniş mənada, yeni konstitusiya bir millətin keçmişdən qopub başlanğıc etdiyi zaman zəruridir. Bu ümumqəbul olunmuş zərurətin bir zamanlar dəmir pərdə arxasında mövcud olmuş sosialist dövlətdən demokratik idarəçiliyə, liberal iqtisadiyyata keçən ölkələr qədər aydın nümunəsi yoxdur (1, s.15).

Bu qanunun məqsədi "Azərbaycan Respublikasında dövlət qulluğu sahəsində dövlətlə dövlət qulluqçuları arasında yaranan münasibətləri və dövlət qulluqçularının hüquqi vəziyyəti ilə bağlı məsələləri tənzimləməkdir". Çünki dövlətin vətəndaşa lazımi xidməti göstərməsi səmərəli və məhsuldar fəaliyyət göstərən dövlət qulluğu sisteminin təşkili və bu sistemin ən vacib tərkib hissəsi olan dövlət qulluqçularının səmərəli fəaliyyətləri ilə mümkündür. Eyni zamanda bacarıqlı şəxslərin işə qəbulu, onların vəzifədə yüksəlmələri, hüquqları, öhdəlikləri, nəzarət məsələlərini tənzimləyən dövlət qulluğu sistemini aktiv vəziyyətə gətirmək və qanunlarla onu möhkəmləndirmək dövlət idarəçilik sisteminin demokratikləşməsi prosesində mühüm rol oynayır.

Dövlət qulluğu sistemini formalaşdırmaq, dövlət qulluqçularını qulluğa hazırlamaq işində hər bir ölkənin öz metodları vardır. Bu, həmin ölkənin milli xüsusiyyətlərindən, mədəniyyətindən, ənənələrindən, tarixindən, siyasi sistemindən və digər amillərdən irəli gəlir. Bu baxımdan Azərbaycanda dövlət qulluğu sisteminin yenidən formalaşdırılması və bu sahədə islahatların həyata keçirilməsi prosesinə diqqətlə yanaşmaq lazımdır. Əvvəldən mövcud olmayan bir sistemi təşkil etmək, onu cəmiyyətə qəbul etdirmək və ən əhəmiyyətlisi, bu sistemin günün tələblərinə uyğun problemsiz fəaliyyətini təmin etmək çətindir.

Yeni iqtisadi əlaqələrin formalaşması dövlət idarəçilik sistemində əsaslı islahatların həyata keçirilməsini şərtləndirirdi. Bununla əlaqədar olaraq Azərbaycan Respublikasının Prezidentinin 29 dekabr 1998-ci ildə imzaladığı fərmanla Azərbaycan Respublikasının idarəçilik sistemində islahatların həyata keçirilməsi üçün Dövlət Komissiyası təşkil olunmuşdur. Fərmanda göstərilmişdir ki, demokratikləşmə və bazar iqtisadiyyatı sahəsində aparılacaq islahatlar dövlət idarəçiliyinin səmərəliliyini və məhsuldarlığını artırmalı, iqtisadiyyatın inkişafı üçün beynəlxalq standartlara cavab verən hüquqi zəminin yaradılmasına yardım etməlidir (8, s. 47). Bu fərmandan sonra həyata keçirilən islahatlar sayəsində bir çox dövlət orqanları və nazirliklərin fəaliyyəti dayandırılmışdır (1998-ci ildən sonra Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev ölkədə idarəçilik sisteminin yenidən formalaşdırılması və mərkəzi idarəçilikdə dəyişikliklərin həyata keçirilməsi üçün 31 fərman və 20-dən çox qanun qüvvəli akt imzalamışdır. Təkcə 2001-ci ildə 21 nazirlik və dövlət orqanı ləğv edilmiş, 7 nazirlik və dövlət orqanı yenidən təşkil olunmuşdur.), yeni formalaşdırılan mərkəzi icra hakimiyyəti orqanlarının səlahiyyətləri müəyyənləşmiş və dövlət qulluqçuları ilə əlaqədar "Dövlət qulluğu haqqında" Qanun qüvvəyə minmişdir.

Azərbaycanın dövlət idarəçiliyi sistemində, xüsusilə də dövlət qulluğu sisteminin yenidən formalaşdırılmasına ən böyük dəstək Avropa İttifaqının TACIS Proqramı vasitəsilə həyata keçirilmişdir. 1990-cı ilin dekabr ayında Romada keçirilən Aİ-nın Zirvə görüşündə keçmiş Sovet respublikalarını iqtisadi islahatlar baxımından dəstəkləmək üçün qərar qəbul olundu və belə bir dəstəyin TACIS (Müstəqil Dövlətlər Birliyinə Texniki Yardım) Proqramı vasitəsilə həyata keçirilməsi

qərarlaşdırıldı.[1] Proqramın 3 əsas hədəfi vardı: (3, s.145)

- Bazar iqtisadiyyatı və demokratiyaya keçid;
- Bütün səviyyələrdə tərəfdaşlığın və ikitərəfli əlaqələrin inkişaf etdirilməsi;
- Proqramın əhatə etdiyi dövlətlərin dünya iqtisadiyyatına inteqrasiyası.

TACIS-in Azərbaycanla bağlı layihələri 1991-ci ildən etibarən tətbiq olunmağa başlanmışdır. 1998-ci ilə qədər proqram çərçivəsində edilmiş yardım məbləği 75 mln. ECU olmuş, bu çərçivədə həyata keçirilən layihə sayı 170-ə çatmışdır (8, s.46).

Dövlət qulluğu sistemində islahatların həyata keçirilməsinə dəstək məqsədilə 2002-ci ilin mart ayında Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında TACIS proqramını həyata keçirmək üçün ofis təşkil olundu. Bu proqramın əsl məqsədi aşağıda qeyd olunan məsələlər haqqında müxtəlif layihələr hazırlayıb Azərbaycan Respublikasının Prezident Administrasiyasına təklif etmək idi:

1. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununun icra strategiyasının hazırlanması.
2. İşə qəbul, sınaq, staj və yüksək səviyyəli idarəçilik vəzifələrinə təyinatlarla bağlı təlimatların hazırlanması.
3. Dövlət Qulluğunu İdarəetmə Şurasının səmərəliliyinin artırılması ilə əlaqədar təkliflərin hazırlanması.
4. Dövlət qulluqçularının mərkəzləşdirilmiş informasiya mərkəzinin qurulması ilə əlaqədar proqramın hazırlanması.
5. Dövlət qulluqçularının təhsili ilə əlaqədar sənədlərin hazırlanması.

"Dövlət qulluğu haqqında" Qanun qüvvəyə minmədən əvvəl dövlət qulluğunda işləyənlərə Əmək Məcəlləsinin müddəaları şamil olunurdu. Lakin dövlət sektoru ilə özəl sektor arasındakı fərqlər dövlət qulluqçularının hüquqi statusu ilə əlaqədar qanunların qəbul edilməsini şərtləndirdi. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) hazırladığı hesabatda bu məsələ belə ifadə edilmişdir: "Əmək Məcəlləsi bütün işçilər üçün ədalətli və bərabərhüquqlu iş şəraiti təşkil etmək məqsədi daşıyır və eyni zamanda onların hüquq və öhdəliklərini müəyyənləşdirir. Təbii ki, Əmək Məcəlləsi keyfiyyət standartları və idarəçilərin məhsuldarlığı məsələsində narahatlıqlarından daha çox işçilərin rəsmi hüquqlarını qorumağa yönəldilmişdir". Dövlət qulluğu haqqında Qanunun və onun icrası üçün qəbul edilmiş hüquqi tənzimləmələrin əsl məqsədi idarəçilik sisteminin ən vacib elementi olan peşəkar kadr tələbatının təmin edilməsi, sərbəst şəkildə yüksək vəzifəli siyasi idarəçilərə məsləhətçi ola bilən təcrübəli, etibarlı və güclü idarəçilər sinfinin formalaşdırılmasına fayda verməkdir. Dünyanın hər yerində siyasilər öz strategiyalarını yüksək səviyyədə peşəkar, təhsil almış dövlət qulluqçuları vasitəsilə icra etdikləri zaman nailiyyət əldə edirlər. Eyni zamanda dövlətin uzunmüddətli strategiyalarının məqsədəuyğun şəkildə həyata keçirilməsi üçün də dövlət qulluğunda siyasilərdən asılı olmayan, dövlət qulluğunu yerinə yetirmək vəzifəsi verilmiş dövlət qulluqçusu ordusu olmalıdır (4, s.6).

Həm İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD), həm də Şərqi Avropa ölkələrində dövlət və idarəçiliyin yenidən formalaşdırılmasının dəstəklənməsi (SIGMA) tərəfindən verilən təklifləri nəzərə alsaq, Azərbaycanda dövlət idarəçiliyini tamamilə əhatə edən yenidən formalaşdırma cəhdlərinin tərkib hissəsi olaraq dövlət qulluqçuları ilə bağlı 21 iyul 2000-ci il tarixli 926-IQ saylı "Dövlət qulluğu haqqında" Qanun o dövrə qədər mövcud olmayan dövlət qulluğu sisteminin qurulması və təkmilləşdirilməsi üçün mühüm addım hesab edilə bilər. Altı fəsildən ibarət olan "Dövlət qulluğu haqqında" Qanunun "Ümumi müddəalar" adlanan ilk fəsli dövlət qulluğunun anlayışı, məqsədi və əsas prinsiplərini əhatə edir. İkinci və üçüncü fəsillərdə dövlət orqanlarının təsnifatı aparılmışdır. Dördüncü fəsil dövlət qulluqçusunun anlayışı, dövlət qulluqçularının hüquq və vəzifələri, məhdudiyyətlərini əhatə edir. Beşinci fəsildə isə dövlət qulluğuna qəbulun üsul və şərtləri, qulluq şərtləri və formaları, dövlət qulluğunda irəliləmə və vəzifədə yüksəlmə, dövlət qulluğuna xitam verilməsi qeyd olunmuşdur. Sonuncu fəsildə müxtəlif müddəalar və qanunun qüvvəyə minməsi ilə bağlı maddələr yer almışdır. Qanunun ümumi məqsədi dövlət qulluğunu etibarlı statusa qaldırmaq, dövlət qulluğuna qəbulda müsabiqə metodunu tətbiq etmək, məvacib sistemini təkmilləşdirmək, vəzifədə yüksəlmə və vəzifə sistemini obyektiv və ədalətli əsaslara söykəməkdir. Belə ki, Qanunun 1-ci maddəsində deyilir: "Bu Qanun Azərbaycan Respublikasında dövlət qulluğu sahəsində dövlətlə dövlət qulluqçuları arasında yaranan münasibətləri və dövlət qulluqçularının hüquqi vəziyyəti ilə bağlı məsələləri tənzimləyir". (5)

Günümüzdə Azərbaycan Respublikasının özünəməxsus dövlət qulluğu sistemi mövcuddur və bu sistemin formalaşmasında müxtəlif dövlətlərin qabaqcıl təcrübəsindən istifadə edilmişdir. Xüsusən "Dövlət qulluğu haqqında" Qanunun 4-cü maddəsində qeyd olunan qanunçuluq, Azərbaycan Respublikasında qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının səlahiyyət hüdudlarının müəyyən edilməsi, dövlət orqanlarına və dövlət qulluqçularına nəzarət və onların hesabat verməsi, yuxarı dövlət orqanlarının və vəzifəli şəxslərin

[1] Proqramın prinsipləri ilk 3 illik dövr üçün 2157/91 saylı Şura Nizamnaməsi ilə müəyyən edilmiş, sonrakı 3 illik dövr üçün 2053/93 saylı Nizamnamə ilə tənzimlənmiş, bu müddət başa çatdıqdan sonra isə 1276/96 saylı Nizamnaməyə uyğun tətbiq olunmuşdur (bax: OJN165/1, 4.7.1996).

öz səlahiyyətləri hüdudlarında qəbul etdikləri qərarların aşağı dövlət orqanları və vəzifəli şəxslər tərəfindən mütləq yerinə yetirilməsi, bütün vətəndaşların və vəzifəli şəxslərin dövlət qulluqçularının qanuni tələblərini icra etməyə və qanuni hərəkətlərini müdafiə etməyə borclu olması, dövlət qulluğuna qəbulun şəffaflığı, vətəndaşların dövlət qulluğuna müsabiqə və müsahibə əsasında qəbul edilməsi, vətəndaşların öz qabiliyyətlərinə, xidməti nailiyyətlərinə və peşə hazırlığına uyğun olaraq dövlət qulluğunun hər hansı vəzifəsini tutmaqda hüquq bərabərliyi, irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən asılı olmayaraq dövlət qulluqçularının hüquq bərabərliyi, dövlət qulluqçularının sosial və hüquqi müdafiəsi, onların özləri və ailələri üçün ləyaqətli yaşayış səviyyəsinin təmin edilməsi, dövlət qulluqçularının potensialının səmərəli istifadəsi, xidməti və peşəkarlıq səviyyəsinin artırılması məqsədi ilə onların rotasiyası, qulluq borcunun yerinə yetirilməsi üçün dövlət qulluqçusunun cavabdehlik daşıması, eləcə də dövlət qulluqçusunun hərəkətlərinə görə dövlət orqanının cavabdehlik daşıması kimi prinsiplərdə bu öz əksini tapmışdır.

Yuxarıdakıları ümumiləşdirərək dövlət qulluğu sisteminin formalaşdırılması ilə əlaqədar aşağıdakı sahələrdə uğurlu nəticələrin əldə edildiyini qeyd etmək olar:

a) dövlət qulluqçusu anlayışı və dövlət qulluqçularının dairəsi dəqiqləşdirilmişdir;
b) statuslarına və funksiyalarına uyğun olaraq dövlət orqanlarının kateqoriyaları müəyyən edilmişdir;
c) dövlət qulluğu vəzifələrinin təsnifatlar üzrə bölgüsü aparılmışdır;
ç) dövlət qulluqçularına ixtisas dərəcələrinin verilməsi sistemi yaradılmışdır;
d) dövlət qulluqçularının əməyinin qiymətləndirilməsi sistemi yaradılmışdır;
e) dövlət qulluğuna qəbulun və dövlət qulluğu vəzifələrinin tutulmasının şəffaf prosedurlarla həyata keçirilməsi üçün müvafiq sistemlər tətbiq edilmişdir;
ə) dövlət orqanlarında dövlət qulluğunun rəhbər vəzifələrinin tutulması üçün ehtiyat kadrların formalaşması qaydaları təsdiq edilmişdir;
f) dövlət qulluqçularının xidməti fəaliyyətinin qiymətləndirilməsi, mükafatlandırılması, intizam məsuliyyəti kimi prosedurlar formalaşdırılmışdır;
g) dövlət qulluqçularının etik davranışının tənzimlənməsi üçün zəruri normativ-hüquqi baza yaradılmışdır;
h) dövlət qulluğu sahəsində ixtisaslaşmış orqanlar – Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası yaradılmışdır;
i) Dövlət qulluğu sahəsində münasibətləri tənzimləyən normativ hüquqi baza yaradılmışdır.

Qeyd olunanları əsas götürərək deyə bilərik ki, yenidən müstəqilliyini əldə etmiş respublikamızda 25 illik dövrdə peşəkar dövlət qulluqçusu korpusu formalaşdırılmışdır. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin 2016-cı il məlumatına əsasən respublikamızda dövlət qulluqçularının sayı 30123 nəfərdir və onların 29,2 faizini qadınlar təşkil edir. Dövlət qulluqçularının 3,9 faizi inzibati vəzifələrin ali-3-cü təsnifatlar, 75,4 faizi 4-7-ci təsnifatlar üzrə və 20,7 faizi dövlət qulluğunun yardımçı vəzifələrində işləyir. 2005-2015-ci illərdə dövlət qulluğunun vəzifələrini tutmuş işçilərin sayının müqayisəli təhlilini aşağıdakı cədvəldən daha aydın görmək mümkündür.

*Cədvəl 1*

***2005-2015-ci illərdə dövlət qulluğunun vəzifələrini tutmuş işçilərin sayı***

| İnzibati vəzifələrin təsnifatlar üzrə adları | 2005 | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 |
|---|---|---|---|---|---|---|---|
| **Respublika üzrə, cəmi** | **25735** | **28648** | **28541** | **29212** | **29710** | **30108** | **30123** |
| Ali 3-cü təsnifatlar üzrə inzibati vəzifələr – cəmi[1] | 757 | 866 | 1165 | 1265 | 1107 | 1147 | 1173 |
| 4-7-ci təsnifatlar üzrə inzibati vəzifələr – cəmi[2] | 20731 | 22467 | 21475 | 22004 | 22589 | 23017 | 22713 |
| yerli icra hakimiyyəti başçısının müavini | – | – | – | – | 295 | 298 | 253 |
| şöbə müdiri | 3479 | 3472 | 3293 | 3360 | 3368 | 3423 | 3389 |
| şöbə müdirinin müavini | 2133 | 2339 | 2285 | 2251 | 2380 | 2452 | 2537 |
| sektor müdiri | 1737 | 1872 | 1895 | 2055 | 1907 | 1964 | 1919 |
| baş məsləhətçi | 5057 | 5572 | 5251 | 5724 | 5948 | 6103 | 6047 |
| böyük məsləhətçi | 1176 | 1180 | 1153 | 1119 | 1058 | 1094 | 1089 |
| aparıcı məsləhətçi | 2925 | 3138 | 2839 | 2820 | 2908 | 2915 | 2850 |
| məsləhətçi | 4224 | 4894 | 4759 | 4675 | 4725 | 4768 | 4629 |

[1] 2005–2012-ci illərdə 1-4-cü təsnifatlar üzrə inzibati vəzifələr

[2] 2005–2012-ci illərdə 5-9-cu təsnifatlar üzrə inzibati vəzifələr

| İnzibati vəzifələrin təsnifatlar üzrə adları | 2005 | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 |
|---|---|---|---|---|---|---|---|
| Dövlət qulluğunun yardımçı vəzifələri – cəmi | 4247 | 5315 | 5901 | 5943 | 6014 | 5944 | 6237 |
| baş mütəxəssis | 2267 | 2929 | 3160 | 3338 | 3457 | 3584 | 3710 |
| böyük mütəxəssis | 791 | 1207 | 1314 | 1194 | 1160 | 1113 | 1100 |
| aparıcı mütəxəssis | 393 | 453 | 576 | 606 | 671 | 643 | 793 |
| mütəxəssis | 796 | 726 | 851 | 805 | 726 | 604 | 634 |

Dövlət qulluqçularının 7,3 faizi 1 ilə qədər, 27,9 faizi 1 ildən 5 ilə qədər, 21,6 faizi 5 ildən 10 ilə qədər, 16,3 faizi 10 ildən 15 ilə qədər, 26,9 faizi isə 15 il və daha çox qulluq stajına malikdir. Bununla yanaşı, dövlət qulluqçularının yaş qrupları üzrə bölgüsünə uyğun olaraq, 30 yaşa qədər olanlar 17,9 faiz, 30-34 yaşda 15,0 faiz, 35-44 yaşda 21,8 faiz, 45-54 yaşda 24,3 faiz, 55–62 yaşda 17,5 faiz, 63-64 yaşda 2,3 faiz, 65 və yuxarı yaşda olan dövlət qulluqçuları dövlət qulluqçularının ümumi sayının 1,2 faizini təşkil edir. 4-7-ci təsnifatlar üzrə inzibatı vəzifələrdə çalışanların 1,1 faizini yerli icra hakimiyyəti başçısının müavinləri, 14,9 faizini şöbə müdirləri, 11,2 faizini şöbə müdirinin müavinləri, 8,5 faizini sektor müdirləri, 26,6 faizini baş məsləhətçilər, 4,8 faizini böyük məsləhətçilər, 12,5 faizini aparıcı məsləhətçilər və 20,4 faizini məsləhətçilər təşkil edir. Dövlət qulluqçularının ölkə üzrə orta aylıq əməkhaqqı 2015-ci ildə 611,9 manat təşkil etmişdir (6).

Son illərdə dünyada dövlət sektorunda qulluğu tənzimləyən hüquqi bazanın təkmilləşdirilməsi ilə bağlı innovativ islahatlar həyata keçirilir. Bu islahatların əsas məqsədi yeni idarəçilik (new government), dövlət sektorunun fəaliyyət sahəsinin məhdudlaşdırılması və bunun nəticəsi olaraq bir çox xidmət sahələrinin özəl sektora həvalə edilməsi kimi məfhumların təsiri ilə dövlət idarəçiliyində səmərəliliyin təmin olunması üçün dövlət qulluğunda çevikliyə və cavabdehliyə nail olmaqdır. Bunun üçün dövlət qulluqçularının peşəkar inkişafının yüksəldilməsinə, fasiləsiz xidmətdaxili tədrisinə, yenilikləri qəbul etmək və öyrənmək qabiliyyətinin artırılmasına xüsusi diqqət yetirilməlidir (9, s.51). Məhz bu aspektdən baxanda dövlət qulluqçularının fəaliyyət səmərəliliyinin qiymətləndirilməsi prosesi siyasi və praktiki cəhətdən əhəmiyyətlidir. Azərbaycan Respublikasında “Dövlət qulluqçularının xidməti fəaliyyətinin qiymətləndirilməsi” ilə əlaqədar əsas normativ hüquqi sənədlər “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanunu (Maddə 30-1. Dövlət qulluqçularının fəaliyyətinin qiymətləndirilməsi) və “Dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsi” Qaydalarıdır (10 Fevral 2014-cü il). Dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsi Qaydaları “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikası Qanununun 30–1-ci maddəsinə uyğun olaraq hazırlanmışdır və inzibati vəzifələrin 3–7-ci təsnifatlarına uyğun olan inzibati vəzifə tutan dövlət qulluqçularına aiddir.

Dövlət qulluqçularının qiymətləndirilməsində müasir yanaşmalar onların fəaliyyət səmərəliliyinin artırılması məqsədini daşıyır. Fəaliyyət səmərəliliyinin yüksəldilməsinə təsiredici amillərin müəyyən edilməsi isə müasir dövlət idarəçilik elminin ən vacib problemlərindən biri hesab olunur.

Dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsində nəzərdə tutulan əsas meyarlar peşə bilikləri; xidməti vəzifələrə münasibət; təhlil aparmaq, problem həll etmək və qərar vermək bacarığı; yaradıcılıq və təşəbbüskarlıq; əmək intizamı; iş təcrübəsi və onu bölüşmə; kollektivdə işləmək bacarığı, ünsiyyət, işçilərin arasında münasibətlər olaraq müəyyən olunmuşdur. Rəhbər işçilərin qiymətləndirilməsi üçün isə qeyd olunanlara əlavə olaraq təhlil və proqnozlaşdırma qabiliyyəti, idarəetmə səriştəsi, kollektiv daxilində nüfuz və ruhlandırmaq, komanda qurmaq bacarığı tələb olunur. Xidməti fəaliyyətin qiymətləndirilməsi işçilərdə stress yaratmaq, cəza tədbiri kimi istifadə etmək kimi yanlış məfhumlardan kənar, əksinə, onların qarşısında yol xəritəsi rolunu oynayacaq, illik fəaliyyətini istiqamətləndirəcək SMART hədəflərin və inkişaf planlarının müəyyən edilməsi, xidməti fəaliyyətlərinin icrası zamanı yaranmış çətinliklərin aşkar edilərək aradan qaldırılması, qiymətləndirmənin nəticələrindən asılı olaraq əməyinin stimullaşdırılması, gələcək inkişaf planlarının müəyyən edilməsinə xidmət edir. Dövlət qulluqçularının qiymətləndirilməsi zamanı onların yenidən hazırlanması, ixtisasının artırılması məqsədilə çatışmazlıqları düzgün müəyyən olunmalıdır ki, onlar gələcəkdə insan resurslarından səmərəli istifadə olunmasına töhfə versinlər.

Yuxarıdakıları ümumiləşdirərək qeyd etmək lazımdır ki, dövlət idarəçiliyində səmərəliliyin təmin olunmasında dövlət qulluğu sisteminin təkmilləşdirilməsi mühüm əhəmiyyət kəsb edir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev öz çıxışlarında dəfələrlə vurğulamışdır ki, dövlət məmurları öz vəzifə borcuna məsuliyyətlə yanaşmalıdır. Ölkə prezidentinin məmurlardan qətiyyətli tələbi budur: “Birbaşa xalqla ünsiyyətdə olan məmurlar elə etməlidirlər ki, insanlar onların fəaliyyətindən razı olsunlar. Diqqətli olmalıdırlar, yaddan çıxartmamalıdırlar ki, biz xalq üçün çalışırıq, əksinə deyil. Bizim vəzifəmiz xalqa xidmət

etməkdir". Fikrimizcə, Dövlət başçısının bu sözləri siyasi və inzibati vəzifə tutan bütün dövlət məmurları tərəfindən fəaliyyət proqramı kimi qəbul olunmalıdır. Xüsu-sən dövlət qulluqçularının vətəndaşlarla qarşılıqlı münasibətləri ilə bağlı yeni qaydalar müəyyən edilməli, cəmiyyətdə dövlət qulluqçusunun nüfuzu yüksəldilməlidir. Vəzifələrini qanunlara uyğun və etik prinsiplər çərçivəsində icra etmələri üçün dövlət qulluqçularının məsuliyyətinin artırılmasına səy göstərilməlidir.

**Ədəbiyyat:**


1. Abdullayev C. "Azerbaycan Anayasası'nda Benimsenmiş Olan Hükümet Sistemi" (nəşr olunmamış dissertasiya). Ankara, 1998.
2. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 2016.
3. Avrupa Birliği ve Türkiye, T.C. Başbakanlık DTM., 4. Baskı, Ankara, ekim, 1999.
4. Civil Service Legislation Contents Checklist, SIGMA papers №. 5, OECD, Paris, 1996.
5. Dövlət qulluğu haqqında Azərbaycan Respublikasının Qanunu. "Qanun" nəşriyyatı, 2016.
6. Dövlət qulluqçuları. Statistik məcmuə, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Bakı, 2016.
7. Hüseynov F. Avrupa Birliyi-Azerbaycan İlişkileri. Yeni Avrasya Yayınları, Ankara, 2003.
8. İsmayılov S. Azərbaycanda dövlət qulluğu ənənələri və onun müasir vəziyyəti, "Ozan" nəşriyyatı, Bakı, 2004.
9. Rəhimli R. Azerbaycan Kamu Personel Yönetimi (Azərbaycan dövlət qulluğu sistemi). Anadolu Universitesi yayınları, №-3339, Eskişehir, 2016.
10. Rəhimli R. Dövlət idarəçiliyində səmərəliliyin təmin olunmasında dövlət qulluqçusu-vətəndaş münasibətləri. Dövlət İdarəçiliyi: nəzəriyyə və təcrübə, №3 (47), Bakı, 2014, səh. s.161-168
11. Rəhimli R. Dövlət qulluqçularının fəaliyyət səmərəliliyinin qiymətləndirilməsi. Fəlsəfə və sosial-siyasi elmlər elmi-nəzəri jurnal, № 1(33). Bakı, 2012, s. 99-120.



**Açar sözlər:** *dövlət idarəçiliyi, dövlət qulluğu, dövlət qulluqçusu, xidməti fəaliyyətin qiymətləndirilməsi, kadrların hazırlanması*

**Ключевые слова:** *государственное управление, государственная служба, государственный служащий, оценка служебной деятельности, подготовка кадров*

**Key words:** *public administration, the civil service, civil servants, service performance evaluation, staff training*



**Раджаб Рагимли**

***Доктор философии по политическим наукам, доцент, заведующий Научно-организационным отделом Академии Государственного Управления при Президенте Азербайджанской Республики***


## ДИНАМИКА ИННОВАЦИОННОГО РАЗВИТИЯ ГОСУДАРСТВЕННОЙ СЛУЖБЫ В СОВРЕМЕННОМ АЗЕРБАЙДЖАНЕ

### РЕЗЮМЕ


После обретения независимости Азербайджаном был взят курс на претворение в жизнь политических и правовых мер в направлении формирования и развития системы государственной службы, которая является важной частью реформ в области государственного управления. За 25-летний период независимости была проведена и проводится в настоящее время большая работа по усовершенствованию системы государственной службы, определению прав и обязанностей государственных служащих, а также улучшению их социального положения. В Азербайджане уже сформирована профессиональная армия государственных служащих и предпринимаются важные шаги в области усовершенствования кадрового потенциала страны. Инновационный подход к формированию человеческого потенциала и процессы институционального строительства определяют принципы и направления реформ системы государственной службы в соответствии с меняющимися социальными, экономическими и политическими реалиями. В статье дается системный анализ реформ, проведенных в период независимости в области, государственного строительства, достигнутых успехов, а также проблем, существующих в этой области предлагаются пути их решения. Необходимо учесть, что каждой стране присущи свои программы реформ и усовершенствования системы государственной службы, соответствующие ее социальной и политической системе.

**Rajab Rahimli**

***Associate Professor, Ph.D. in Political Science, Head of the Scientific-Organizational Department, The Academy of the Public Administration under the President of the Republic of Azerbaijan***

## THE DYNAMIC INNOVATIVE DEVELOPMENT OF CIVIL SERVICE IN MODERN AZERBAIJAN

### SUMMARY

After independence, the political and legal measures for establishment and development of civil service system have been implemented in Azerbaijan. It was a key component of public administration reforms. Over the 25 years of independence, significant works has been done for improvement of civil service system, determination of rights and obligations of civil servants and improvement of their social status. The professional pool of civil servants is already set up and important septs for human resource capacity building are taken in Azerbaijan. Innovative approach to human capacity building and institution-building processed define the principles and directions of civil service reforms in accordance with the changing social, economic and political realities. The article includes a systematic analysis of reforms in nation-building during the years of independence, as well as achievements, challenges and ways to address this issues. It should be noted that each country has its own program of reforms and improvements in line with their social and political system.

**FƏXRƏDDİN NAĞIYEV**

***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının kafedra müdiri, hüquq üzrə fəlsəfə doktoru, dosent***

# MÜSTƏQİLLİK İLLƏRİNDƏ AZƏRBAYCAN RESPUBLİKASINDA KONSTİTUSİYA İSLAHATLARI

**Dövlət və cəmiyyət həyatında konstitusiyanın yeri və rolu.** Bəşər tarixində cəmiyyətin siyasi sisteminə, onun mütərəqqi inkişafına təsir göstərən elə normativ sənədlər olmuşdur ki, onlar insan və vətəndaş hüquqlarının, dövlət hakimiyyəti institutlarının sabit fəaliyyətinin təmin edilməsində misilsiz rol oynamışdır. Bu hüquqi sənədlər sırasında dövlətin əsas qanunu sayılan konstitusiya ən önəmlisidir. Konstitusiya xalqın ali hakimiyyətinin təzahürü olan suverenliyini, dövlət quruluşunu, şəxsiyyətin hüquqi statusunun əsaslarını, dövlət hakimiyyəti və yerli özünüidarəetmə sistemini tənzimləyən siyasi-hüquqi sənəddir. Konstitusiya anlayışı latınca «təsisat», «quruluş» deməkdir. Burada dövlətin, onun ali hakimiyyət orqanlarının, dövlət quruluşunun əsaslarının təsis olunmasından söhbət gedir.

Tarixən konstitusiya hər bir xalqın sabit inkişaf yolunu müəyyənləşdirən ali sənəd olmaqla yanaşı, dövlətin siyasi sisteminin mahiyyətini açmış, insan hüquq və azadlıqlarına, demokratikləşmə proseslərinə münasibəti özündə ehtiva etmiş, milli qanunvericiliyin inkişafında əhəmiyyətli rolu olmuşdur. 12 noyabr 1995-ci ildə ümumxalq səsverməsi – referendumla qəbul edilmiş müstəqil Azərbaycan Respublikasının Konstitusiyası da dünya ictimaiyyətinin ali dəyər kimi qiymətləndirdiyi beynəlxalq hüquq normalarına, demokratik prinsiplərə əsaslanmaqla, xalqın sivil və hüquqi dövlətdə yaşamaq istəyini təcəssüm etdirir. Konstitusiyanın preambulasında dövlətin müstəqilliyinin və suverenliyinin qorunması, hüquqi, demokratik quruluşa təminat vermək, hüquqi dövlət qurmaq, insan hüquqlarının təminatlı müdafiəsinə, vətəndaş cəmiyyətinə nail olmaq mühüm vəzifələr kimi bəyan edilmişdir.

Konstitusiyanın əsasında hakimiyyətin yeganə mənbəyi kimi xalqın tanınması, ölkənin bütövlüyünün qorunması, hakimiyyətlərin bölünməsi prinsipinə ciddi riayət olunması, insan hüquq və azadlıqlarının dövlətin ali məqsədi kimi bəyan edilməsi, beynəlxalq hüququn milli qanunvericilik üzərində üstünlüyü kimi hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğuna imkan verən mütərəqqi ideyalar dayanmışdır. Əsas Qanunda Azərbaycanın demokratik yolla inkişafının qaçılmaz olduğunu nəzərdə tutan şərt ali hakimiyyətin xalqa məxsus olmasının birmənalı şəkildə təsbit edilməsidir.

Azərbaycan Respublikası Konstitusiyasını səciyyələndirən mühüm cəhətlərdən biri insan və vətəndaş hüquqlarının kifayət qədər əhatəli şəkildə təsbit olunması və bu hüquqları tanımaq, müdafiə və təmin etməyin isə dövlətin əsas məqsədi olduğunun elan edilməsidir.

Konstitusiyanın 12-ci maddəsinin birinci hissəsinə uyğun olaraq insan və vətəndaş hüquqlarının və azadlıqlarının, hər kəsin layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədidir. Konstitusiyanın qəbulundan sonra ölkədə həyata keçirilən çoxşaxəli islahatlar da məhz insan və vətəndaş hüquq və azadlıqlarının səmərəli təmini məqsədinə yönəlmiş, bu prosesdə vətəndaş cəmiyyəti təsisatlarının rolu genişləndirilmişdir.

İctimai münasibətlərin inkişaf tempi, cəmiyyətin dinamik tərəqqisi ilə bağlı olaraq dövlət idarəetmə sisteminin əsasını təşkil edən mühüm qanunvericilik aktlarının müasirləşdirilməsi, bir qayda olaraq, sosial tələbat kimi gündəliyə gəlir. Konstitusiya da hər bir dövlətin hüquq sisteminin fundamental əsasını təşkil etdiyindən ölkənin inkişaf xüsusiyyətlərini özündə ehtiva etməli, müasirliyi, demokratikliyi, insan və vətəndaş hüquq və azadlıqlarına etibarlı təminat mexanizmlərini formalaşdırması ilə diqqəti çəkməlidir. Konstitusiyanın zamanın ruhu, cəmiyyətin iradəsi ilə uzlaşması, proqressiv yeniliklərə adekvat reaksiya verməsi vacibdir. Bir sözlə, Əsas Qanuna dəyişikliklər əgər tarixi zərurətdən, ictimai tələbatdan irəli gələrək uğurlu nəticələrə yol açırsa, yalnız onun sabitliyini və dəyişilməzliyi fikrini əsas gətirərək islahatlardan imtina etmək düzgün yanaşma deyildir.

Konstitusiya islahatlarının aktuallığını xarakterizə edən hallara, həmçinin aşağıdakıları aid etmək olar: ölkənin qanunvericilik bazasının təkmilləşməsinin zəruriliyi; Azərbaycan Respublikasında konstitusiya islahatlarının fasiləsiz və daimi inkişafının spesifik modelinin hazırlanması; dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsinin hərtərəfli öyrənilməsi və onun Azərbaycanın xüsusiyyətlərinə uyğun yaradıcılıqla tətbiqi; müasir dövlətin əsas qanunu kimi dövlətlə vətəndaş arasında qarşılıqlı ictimai münasibətləri tənzimləyən konstitusiya prinsiplərinə əsaslanmış qanunvericiliyin təkmilləşdirilməsinin vacibliyi. Beləliklə, konstitusiya quruculuğu sahəsində aparılan islahatlar, konstitusiya yaradıcılığı institutunun əhəmiyyətinin artması bu problemin nəzəri və praktiki aspektdə kompleks şəkildə tədqiq olunmasını zəruri edir və bu islahatların xüsusi aktuallığını və müstəsna əhəmiyyətə malik olduğunu şərtləndirir.

**Birinci Azərbaycan Respublikası. İstiqlaliyyət Bəyannaməsi.** Azərbaycan dövlətçiliyi tarixində mövcud olmuş 4 respublikadan (1) birincisi olan Azərbaycan Xalq Cümhuriyyətinin müstəqil konstitusiyası olmasa da, bu dövlət fəaliyyət göstərdiyi dövrdə konstitusiya xarakteri daşıyan bir neçə akt qəbul etmişdir. 1919-cu ildə Azərbaycanın dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı, Azərbaycan Xalq Cümhuriyyətinin Parlamenti, hökuməti və bayrağı haqqında konstitusiya xarakterli qanunları müəyyən qədər Azərbaycanın Konstitusiya quruculuğunun başlanğıcı kimi qiymətləndirmək olar (2, 134).

1918-ci il may ayının 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yarandığını, onun əsas məqsədlərini elan edən, bu respublikanın qanun yaradıcılığı prosesinin zirvəsində yer alan İstiqlal Bəyannaməsi bütün türk-müsəlman dünyasında, ümumiyyətlə, bütün Şərqdə ilk dəfə olaraq Azərbaycanda ən demokratik respublika idarə üsulunun – parlamentli respublikanın yaradılacağından xəbər verirdi.

Bu siyasi və hüquqi sənəddə müstəqil Azərbaycan dövlətinin yarandığı bəyan edilmiş, onun hakimiyyətinin şamil olunduğu ərazinin hüdudları müəyyənləşdirilmiş, həmçinin dövlətin əsas fəaliyyət prinsipləri öz əksini tapmışdır. İstiqlal aktında demokratik dövlətə məxsus atributların – hakimiyyətin xalqa mənsub olması, vətəndaşların mülki və siyasi hüquqlarının təmin edilməsi, bütün xalqların və hər bir kəsin milli, dini, sinfi, silki mənsubiyyətindən asılı olmayaraq azad inkişafı üçün şərait yaradılması, ən nəhayət, hakimiyyətin bölünməsi kimi prinsiplərin dövlət fəaliyyətinin əsası kimi bəyan edilməsi Azərbaycan xalqının suveren, demokratik, hüquqi dövlət yaratmaq əzmində olduğunu bütün dünyaya nümayiş etdirdi.

İstiqlal Bəyannaməsinin qəbulu ilə Birinci Dünya müharibəsinin gedişində və Rusiyada mütləqiyyətin devrilməsi nəticəsində yaranmış çox mürəkkəb bir tarixi şəraitdə Azərbaycanın şimal torpaqlarında dövlətçilik ənənələrimiz yenidən, özü də bu dəfə parlamentli respublika formasında dirçəldi. Azərbaycan xalqının tarixində ilk Parlamentli respublika olan Azərbaycan Xalq Cümhuriyyəti, eyni zamanda bütün Şərqdə, o cümlədən türk-islam dünyasında ilk demokratik, hüquqi və dünyəvi dövlət nümunəsi idi. Azərbaycan Xalq Cümhuriyyəti özünün siyasi quruluşuna, həyata keçirdiyi demokratik dövlət quruculuğu tədbirlərinə, həmçinin qarşısına qoyduğu məqsəd və vəzifələrə görə də Avropanın ənənəvi demokratik respublikalarından heç də geri qalmırdı.

**İkinci və üçüncü Azərbaycan respublikaları dövründə konstitusiya yaradıcılığı.** Bununla belə, Xalq Cümhuriyyəti dövründə qəbul edilən dövlət dili, dövlət bayrağı, parlament haqqında qanunlar da konstitusiya xarakterli olsa da, ayrıca olaraq bir sıra səbəblərdən konstitusiya qəbul edilə bilmədi. O görə də tam məsuliyyəti ilə demək olar ki, Azərbaycanın dövlət və hüquq tarixində ilk konstitusiyaçılıq institutunun təşkili 1921-ci ildən – İkinci Azərbaycan Respublikasının Konstitusiyasının qəbulundan başlanır. 1921-ci il mayın 19-da Bakıda keçirilən birinci Ümumazərbaycan Sovetlər qurultayı Azərbaycan SSR-in sovetlər ideyası əsasında fəaliyyət göstərən ilk Konstitusiyasını qəbul etdi. Bu konstitusiya Azərbaycanda sosializm cəmiyyətinin qurulmasını bir vəzifə olaraq qarşıya qoyur, respublikada sovet hakimiyyətinin qələbəsini, sovet hakimiyyətinin simasında proletariatın diktaturasını, torpaq, sənaye, bank və sairlərin milliləşdirilməsini qanunilәşdirirdi. 1936-cı il SSRİ-nin yeni Konstitusiyası əsasında 1937-ci ildə üçüncü Azərbaycan Respublikasının yeni Konstitusiyası qəbul edildi. 1978-ci ildə qəbul edilən və yeni tarixi şəraitin xüsusiyyətlərini özündə əks etdirən 3-cü Azərbaycan Konstitusiyasına Sovet Azərbaycanının əvvəllər qüvvədə olan konstitusiyalarında nəzərdə tutulmayan yeni hüquqlar, azadlıqlar və vəzifələr daxil edilmişdi. Onların içərisində ən çox diqqəti çəkəni respublikanın o zamankı rəhbəri Heydər Əliyevin müdrik siyasəti nəticəsində Azərbaycan dilinə dövlət statusunun verilməsi idi.

Formal olaraq qəbul edildikləri dövrlərdə konstitusiyalar üçün müəyyən edilmiş əksər tələblərə cavab verdiklərinə baxmayaraq, bu konstitusiyaların heç biri müstəqil dövlətin konstitusiyası deyildi. Onlar kommunist ideologiyasına xidmət etməklə SSRİ Konstitusiyasının əsasında tərtib edilir, mahiyyət etibarı ilə digər müttəfiq respublikaların əsas qanunlarından heç nə ilə fərqlənmirdilər. Onların yeganə müsbət cəhəti kimi formal olsa da, Azərbaycanda dövlət quruluşunun əsaslarını müəyyən etməklərini, həmçinin ölkənin əhalisində konstitusiyaçılıq mədəniyyəti, hüquqi şüur yaradılması və onun inkişafı istiqamətində addımlar atılmasını qeyd etmək olar.

**Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı.** 1980-ci illərin sonlarında Sovetlər Birliyində getdikcə genişlənən, eyni zamanda partiya və dövlət rəhbərliyinin nəzarətindən çıxaraq idarəolunmaz xarakter alan dövlət idarəetmə islahatları nəticəsində SSRİ-nin süqutunun yaxınlaşması, ittifaq dövlətlərində milli azadlıq hərəkatının genişlənməsi, bu proseslərdən istifadə edən və xaricdəki havadarlarının himayəsinə arxalanan Ermənistanın Azərbaycana qarşı təcavüzkarlıq hərəkətləri nəticəsində xalqın milli özünüdərk şüurunun artması, əhalinin konsolidasiyasının güclənməsi nəticəsində Azərbaycan Ali Soveti xalqın müstəqil və demokratik dövlətçilik uğrunda apardıqları mübarizənin qarşısında tab gətirə bilməyərək 18 oktyabr 1991-ci ildə Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktını qəbul etdi.

Bu tarixi sənədin qəbulunda o vaxt Ali Sovetin deputatı olan Heydər Əliyevin xüsusi rolu olmuşdur. 1991-ci il oktyabrın 19-da Azərbaycan Ali Sovetinin sessiyasına ünvanladığı müraciətdə bu hadisəni yüksək qiymətləndirən Heydər Əliyev yazırdı: “Biz bu gün xoşbəxtik ki, nəhayət, Azərbaycan Respublikasının ali hakimiyyət orqanı milli azadlıq niyyətlərimizin həyata keçirilməsi üçün ilk addım atdı” (3, 461).

1991-ci il dekabrın 29-da ümumxalq referendumunda məsələ müzakirəyə çıxarılır və əhalinin 95%-i bu referendumda iştirak edərək ölkənin müstəqilliyinə, suverenliyinə və istiqlaliyyətinə səs verir.

6 fəsil, 32 maddədən ibarət Konstitusiya Aktının 2-ci maddəsi ilə müəyyən edilir ki, müstəqil Azərbaycan dövləti 1918–1920-ci illərdə mövcud olmuş Xalq Cümhuriyyətinin varisidir. Əslində, siyasi mənada varislik ondadır ki, 18 oktyabr aktı qəbul edilərkən Azərbaycan Respublikasının Ali Soveti Azərbaycan Milli Şurasının 1918-ci il mayın 28-də qəbul etdiyi İstiqlal Bəyannaməsinə, Azərbaycan Respublikasının demokratik prinsiplərinin və ənənələrinin varisliyinə əsaslanmış və "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası haqqında" Azərbaycan Respublikası Ali Sovetinin 1991-ci il 30 avqust tarixli Bəyannaməsini rəhbər tutmuşdur.

SSRİ-nin təşkili haqqında 1922-ci il 30 dekabr tarixli müqavilənin Azərbaycana aid hissəsi imzalandığı andan etibarsız elan edilirdi. Keçmiş SSR İttifaqının tərkibinə daxil olmuş suveren dövlətlər ilə qarşılıqlı münasibətlərin ortaya çıxan bütün məsələlərin müqavilələr və sazişlər yolu ilə nizama salınması nəzərdə tutulurdu. Ayrıca maddə ilə qeyd edilirdi ki, Azərbaycan Respublikasının 1978-ci il Konstitusiyası bu Konstitusiya Aktının müddəalarına zidd gəlməyən yerlərində qüvvədə qalır. Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası elan edilənə qədər qüvvədə olmuş, Azərbaycan Respublikasının suverenliyinə və ərazi bütövlüyünə zidd olmayan, milli dövlət quruluşunun dəyişdirilməsinə yönəldilmiş aktların hamısı Azərbaycan Respublikasında hüquqi qüvvəsini saxlayır. Hüquqi varislik prinsipini gözləyərək elan edilirdi ki, Azərbaycan Respublikasının müvafiq qanunları qəbul edilənədək SSRİ qanunları Azərbaycan Respublikasının ərazisində hüquqi qüvvəsini saxlayır; həmin qanunların siyahısını Azərbaycan Respublikasının parlamenti müəyyən edir. Azərbaycan Respublikasının müstəqilliyinə qarşı yönəldilən hər hansı hərəkət suveren dövlətin daxili işlərinə qarışmaqdır və beynəlxalq hüquq normalarına uyğun olaraq bu hərəkətlərə cavab verilir.

Konstitusiya Aktının bir çox müddəaları, demək olar ki, heç bir dəyişiklik edilmədən 1995-ci il Konstitusiyasının mətninə daxil edilmişdir. Həm də burada söhbət Konstitusiyanın bütün sonrakı hissələrini müəyyən edən ümumi müddəalardan gedir. Məsələn, müəyyən edilir ki, Azərbaycan xalqı Azərbaycan Respublikasının ərazisində və ondan kənarda yaşayan, Azərbaycan dövlətinə və onun qanunlarına tabe sayılan bütün Azərbaycan Respublikası vətəndaşlarından ibarətdir; bu isə beynəlxalq hüquqla müəyyənləşdirilmiş normaları istisna etmir. Öz idarəetmə formasını seçmək, başqa xalqlarla öz münasibətlərini müəyyənləşdirmək, siyasi, iqtisadi və mədəni həyatını öz tarixi və milli ənənələrinə, ümumbəşəri dəyərlərə uyğun inkişaf etdirmək Azərbaycan xalqının ayrılmaz hüququdur. Azərbaycan Respublikasında suveren hakimiyyət Azərbaycan xalqına məxsusdur. Azərbaycan xalqının hər hansı hissəsi, hər hansı bir şəxs suveren hakimiyyətin həyata keçirilməsi səlahiyyətini mənimsəyə bilməz. Azərbaycan xalqı suveren hakimiyyəti bilavasitə referendum vasitəsilə və Azərbaycan Respublikasının parlamentinə ümumi, bərabər və birbaşa seçki hüquqi əsasında gizli səsvermə yolu ilə seçilmiş nümayəndələri vasitəsilə həyata keçirir. Azərbaycan xalqı öz iradəsinin ifadəsi kimi Azərbaycan Respublikasının demokratik quruluşuna və qanunun aliliyinə təminat verir (4, m.11).

Konstitusiya Aktının III hissəsi dövlətin əsaslarını müəyyən edir. Azərbaycan xalqı müstəqil, dünyəvi, demokratik, unitar dövlət yaradır, bu dövlətin suveren hakimiyyəti daxili məsələlərdə ancaq hüquqla, xarici məsələlərdə isə yalnız Azərbaycan xalqının azad surətdə razılıq verdiyi müqavilələrdən və sazişlərdən irəli gələn müddəalarla məhdudlaşdırılır. Azərbaycan Respublikasının suverenliyi onun bütün ərazisinə şamildir. O, öz ərazisində həyata keçirdiyi suveren hüquqları heç bir formada başqa dövlətlərə və ya dövlət ittifaqlarına vermir.

Ərazi məsələlərini müəyyən edərkən Konstitusiya Aktı müstəqil dövlətlərin prinsipini əsas götürür – Azərbaycan Respublikasının ərazisi vahiddir, bölünə və özgəninkiləşdirilə bilməz. Azərbaycan Respublikası öz ərazisinin hər hansı bir hissəsini, hər hansı bir formada kimsəyə vermir; yalnız Azərbaycan Respublikası parlamentinin qərarı ilə respublikanın bütün əhalisi arasında xalq səsverməsi (referendum) keçirmək yolu ilə Azərbaycan xalqının razılığı əsasında sərhədlərdə dəqiqləşdirmə aparıla bilər. Konstitusiyanın aliliyi belə bir müddəa ilə təsbit edilirdi ki, Azərbaycan Respublikasının ərazisində yalnız Azərbaycan Respublikasının Konstitusiyası və Azərbaycan Respublikasının qanunları qüvvədədir.

**Müstəqil dövlətin ilk Konstitusiyasının qəbul edildiyi ictimai-siyasi şərait.** Yenicə əldə olunmuş müstəqilliyin qorunması üçün müstəqil dövlətin sabit və dinamik ali hüquqi qüvvəli əsas qanunun – Konstitusiyanın qəbuluna ehtiyac vardı və bu ehtiyacın tezliklə ödənilməsi yenicə müstəqillik əldə etmiş Azərbaycanın yaşaması və dünyaya inteqrasiya etməsi üçün çox vacib və gərəkli hüquqi şərtlərdən biri idi.

Yeni Konstitusiya keçmiş ənənəvi sovet konstitusiyalarından həm qəbulunun daha ali forması, həyata keçirilməsinin daha real və dinamikliyi, XXI əsrə doğru gedilən zamanda əsas insan və vətəndaş hüquq və azadlıqlarının qorunmasının təsbit edilməsinin daha mükəmməlliyi və genişliyi ilə kəskin fərqlənməli idi. Düzdür, hələ 1993-cü ildə 6 dekabrda yeni konstitusiya hazırlanmasına və bunun üçün konstitusiya komissiyası və işçi qrupun yaradılmasına təşəbbüs göstərilsə də, o dövrdə tamamilə yeni dövlət quruculuğu prosesinin aparılması, təcrübəsizlik və eləcə də hakimiyyət uğrunda iqtidarla müxalifət arasında gedən həm hərbi, həm də siyasi qarşıdurmalar bu təşəbbüslərin reallaşmasına imkan vermədilər.

Daha sonra 03 oktyabr 1993-cü ildə Heydər Əliyevin Azərbaycan Respublikasına Prezident seçilməsi ölkədə stabil və dayanıqlı dövlət quruculuğunun yaradılmasının əsası oldu. Bu siyasətin bir hissəsi də müstəqil dövlətin yeni və ilk milli konstitusiyasının yaradılması yolunda ilk addım oldu. Bu addımla 2 may 1995-ci ildə Azərbaycan Respublikası Milli Məclisinin 1048 saylı qərarı ilə Azərbaycan Respublikasının yeni Konstitusiya layihəsini hazırlayan komissiyanın tərkibi müəyyən edildi (5).

Komissiyanın 1995-ci il iyunun 5-də keçirilən ilk iclasında Konstitusiya komissiyasının sədri H.Əliyev qeyd etmişdir ki, "Daim deyirik ki, biz demokratik, hüquqi, dünyəvi dövlət qurmaq üçün inkişaf etmiş Qərb ölkələrinin dövlət quruculuğu, demokratik prinsiplərin bərqərar olması sahəsində əldə etdiyi nailiyyətlərdən istifadə edirik və edəcəyik. Şübhəsiz ki, yaradacağımız layihədə bu müddəalar, bu prinsiplər öz əksini tapmalıdır" (6). Ümumi prinsiplər haqqında danışarkən Komissiyanın sədri göstərmişdir ki, "Ümumi prinsiplər ondan ibarət olmalıdır ki, bizdə hüquqi, demokratik, dünyəvi, sivilizasiyalı dövlət qurulucuğu prosesi gedir. Bu proses qəbul olunan ayrı-ayrı qanunlarla, qərarlarla, əməli fəaliyyətimizlə davam edir. Ancaq bu prosesi sürətləndirmək və onun son mərhələlərini indidən müəyyən etmək üçün – təkcə dövləti qurmaq üçün yox, tam qurmaq istədiyimiz dövlətin ahəngdar fəaliyyətini təmin etmək üçün əsas qanunumuz, Konstitusiyamız bütün bu tələblərə uyğun olmalıdır və bu tələblərə cavab verməlidir" (6).

Konstitusiya layihəsinin hazırlanması həm də çox çətin prosedur proseslərindən keçmişdir. Konstitusiya Komissiyası 9 dəfə geniş tərkibdə öz iclasını keçmişdir. Bütün müzakirələrdə vahid məqsəd konstitusiyanın tam demokratik, dünya standartlarına cavab verən, insan və dövlət münasibətlərini, dövlətçilik məsələlərini tamamilə dəqiq əks etdirən bir konsepsiyasının yaradılması olmuşdur. Konstitusiyanın uzunömürlülüyünü təmin etmək üçün məsələ belə qoyulurdu: "Konstitusiyamızın müddəaları həm bu günümüz üçün, həm də gələcəyimiz üçün yazılmalıdır. Biz çalışmalıyıq ki, Konstitusiyamız uzun bir dövrü əhatə edə bilsin, demirəm ki, daimi olsun, amma Konstitusiyamızın dəyişikliklərə, əlavələrə ehtiyacı olmasın" (7, 28).

Nəhayət, 1995-ci il noyabr ayının 12-də ümumxalq səsverməsi – referendum yolu ilə Azərbaycan Respublikasının ilk müstəqil Konstitusiyası qəbul edildi. Bu dünya konstitusiyaçılıq institutuna uyğun olaraq Konstitusiyanın qəbul edilməsinin məqsəd və prinsiplərini bəyan edən preambuladan, 5 bölmə, 12 fəsil, sonradan edilmiş əlavələri nəzərə almaqla 164 maddə və keçid müddəalarından ibarətdir.

Azərbaycan Respublikası konstitusiyası suverenliyi, müstəqilliyi və dövlət hakimiyyətinin aliliyini təsbit edən əsas hüquqi sənəddir. O, Konstitusiya quruluşuna sistemli baxışa əsas verir, dövlət institutları sistemində balans yaradır, Konstitusiya quruluşunun sabitliyini təmin edir (8, 37).

Azərbaycan Respublikası Konstitusiyası yalnız dövlətin təşkilini deyil, həm də qeyri-dövlət sahələrini – sosial-iqtisadi quruluşun əsaslarını, cəmiyyətin mədəni həyatını, insan və vətəndaşların hüquq, azadlıq və vəzifələrini əhatə edir. Onun tənzimləyici rolu bütün dövlət orqanizminə aiddir. Odur ki, Azərbaycan Respublikasının Konstitusiyası onun konstitusiya quruluşunun əsaslarının, insan və vətəndaşın hüquqi statusunu, vətəndaş cəmiyyətinin əsas cəhətlərini, unitar dövlət quruluşunu, Azərbaycan Respublikasında qanunverici, icra və məhkəmə hakimiyyəti orqanlarının təşkili və fəaliyyət prinsiplərini, yerli özünüidarəetmənin əsaslarını, ölkənin qanunvericilik sisteminin konstitusion əsaslarını təsbit edir.

**Konstitusiya islahatları.** Konstitusiya islahatları – dövlət hakimiyyətinin dövlət və ictimai quruluşda konstitusionalizm prinsiplərinin reallaşmasına yönəlmiş siyasi qərar və hərəkətlərinin məcmusudur. Konstitusiya islahatları dövlət-hüquq institutlarının bütün sisteminin ölkənin konstitusiya quruluşunun əsaslarının təsbit edilməsinə yönəlmiş keyfiyyətcə yenidən təşkili deməkdir (2, 137).

Azərbaycan Respublikasında 1991-ci ildən başlayan konstitusiya islahatları ictimai-siyasi həyatın bütün əsas sahələrini əhatə edir. Bu dəyişikliklərin mahiyyəti suveren dövlətdə yeniləşmiş cəmiyyətin hüquqi modelinin yaradılmasındadır. Konstitusiya islahatlarının miqyası bu dövlətlərin bazar iqtisadiyyatının formalaşması yolunu tutması və vətəndaş cəmiyyəti dəyərlərinə önəm verməsi ilə ölçülür. Konstitusiya islahatlarında gənc suveren dövlətlərdə baş verən dövlət suverenliyinin möhkəmləndirilməsi və bazar iqtisadiyyatına keçid dövründə cəmiyyətin siyasi-dövlət təşkilinin təkmilləşdirilməsi ilə əlaqədar sosial proseslər; ictimai münasibətlərin hüquqi tənzimlənməsinin səmərəliliyinin artırılması; insanın ali sosial dəyər kimi tanınması kimi ictimai dəyişikliklər öz əksini tapır.

Yeni suveren dövlətlərdə baş verən sosial-iqtisadi dəyişikliklərin inkişaf sürəti və miqyasları konstitusiya tənzimlənməsinin rolunun artmasını da müəyyən edir. Bunu həmin dövlətlərin konstitusiya qanunvericiliyinin dinamik yenilənmə prosesi də sübut edir.

Konstitusiya islahatlarının zərurəti obyektiv olaraq dövlətlərin ictimai inkişafından irəli gəlir. Birinci mərhələdə dövlət konstitusiyanın mətnində dəyişikliklərlə kifayətlənir və nəticədə onun konstitusiyası məzmun və struktur etibarı ilə əsaslı dəyişikliklərə məruz qalırdı. Totalitar keçmişlə vidalaşaraq belə konstitusiya öz dövlətinin konstitusiya tarixində prinsipcə yeni mərhələnin əsasını qoyur.

Müasir mərhələdə Azərbaycan Respublikasının konstitusiya inkişafının əsasını təşkil edən konstitusiya islahatları bir sıra fərqli cəhətlərlə səciyyələnir. Bunlar aşağıdakılardır:

Birincisi, cəmiyyətin inkişafının sosialist modelindən imtina edilmiş və liberal-demokratik inkişaf modeli qəbul edilmişdir. Bu özünü dövlətin adının dəyişdirilməsində, dövlət rəmzlərinin ideologiyasızlaşdırılmasında, bayraq, himn, gerbin təsvirində, mili-tarixi xüsusiyyətlərə önəm verilməsində göstərir. Bu, liberal-demokratik konstitusiya quruluşuna keçidin qəbul edilməsi kimi dəyərləndirilə bilər.

İkincisi, dövlət cəmiyyətin siyasi sistemində bir partiyanın monopolist mövqeyindən imtina etmiş və ideoloji plüralizmi qəbul etmişdir. Artıq heç bir ideologiya rəsmi, dövlət ideologiyası sayılmır. Siyasi plüralizm də qanuniləşmişdir. Müxalifət partiyalarının qanuni fəaliyyəti leqalaşdırılmışdır.

Üçüncüsü, hakimiyyət bölgüsü konsepsiyası hüquqi dövlət quruculuğunun əsas şərti kimi tanınmışdır. Hakimiyyət bölgüsü nəzəriyyəsinə uyğun olaraq, dövlət hakimiyyəti institutları yenidən qurulmuşdur: seçki sistemi və parlament prosedurları yeniləşmiş və demokratikləşdirilmiş, prezidentli respublika modeli təsis edilmiş, insan hüquqları üzrə müvəkkil vəzifəsi yaradılmış, yerli özünüidarənin hüquqları genişləndirilmişdir.

Dördüncüsü, mülkiyyət formalarının müxtəlifliyi – xüsusi, dövlət və bələdiyyə mülkiyyəti növləri tanınmış, iqtisadiyyat bazar münasibətlərinə əsaslanmağa başlanmışdır.

Beşincisi, hüququn və hüquqi qanunun aliliyi ölkənin konstitusion inkişafının ümumi qanunauyğunluğuna çevrilmişdir.

Altıncısı, beynəlxalq hüququn hamılıqla qəbul edilmiş norma və prinsiplərinə uyğun olaraq, insan və vətəndaşın konstitusiya statusu demokratikləşdirilmiş, hüquq və azadlıqların məhkəmə müdafiəsi, şəxsiyyət və dövlətin qarşılıqlı məsuliyyəti gücləndirilmişdir.

Yeddincisi, yerli özünüidarənin hüquqları genişləndirilmiş, Azərbaycan Respublikasının tarixində ilk dəfə olaraq yerli özünüidarəetmə konstitusiya institutu kimi tanınmış, ona dövlət təminatı verilmişdir.

**Azərbaycan Respublikasının Konstitusiyasında edilmiş dəyişiklik və əlavələrin qısa icmalı.** 1995-ci ildə Azərbaycan Respublikasının ilk milli Konstitusiyasının qəbul edilməsindən ötmüş vaxt ərzində cəmiyyət və dövlət həyatının müxtəlif sahələrində köklü dəyişikliklər baş vermiş, hərtərəfli demokratik islahatlar aparılmış, o cümlədən ölkənin bütün hüquq sistemi yenidən qurulmuş, insan haqlarının daha etibarlı qorunması üçün üçpilləli müstəqil məhkəmə hakimiyyəti yaradılmış, hüquq-mühafizə sisteminin fəaliyyətinin demokratik dəyərlərə və beynəlxalq standartlara uyğun təşkili məqsədilə yeni qanunlar və məcəllələr qəbul edilmişdir. Bununla belə, Konstitusiyanın tənzimləmə predmetini təşkil edən ictimai münasibətlərin inkişafı, sosial, iqtisadi və siyasi şəraitin dəyişməsi bu qanunvericilik sənədinə müvafiq dəyişiklik və əlavələr edilməsi zərurətini yaradır. 2002-ci il avqustun 24-də və 2009-cu il martın 18-də Azərbaycan Respublikası Konstitusiyasına ümumxalq səsverməsi yolu ilə edilmiş bir sıra əlavə və dəyişikliklər də məhz bu reallığa əsaslanaraq cəmiyyətin ümumi inkişaf ahənginə cavab vermiş, ölkənin ictimai-siyasi, hüquqi və iqtisadi həyatındakı keyfiyyət dəyişikliklərini özündə əks etdirmişdir. Azərbaycan Respublikasında insan hüquq və əsas azadlıqlarının həyata keçirilməsinin təmini, ölkədə məhkəmə islahatlarının həyata keçirilməsi, Milli Məclisin fəaliyyətinin və seçki sisteminin daha da təkmilləşdirilməsi ilə bağlı yeni müddəaların ölkə Konstitusiyasında təsbit edilməsi məqsədilə keçirilmiş bu referendumlar dövrün zəruri tələbləri ilə şərtlənmişdir. Konstitusiyaya əlavə və dəyişikliklərin hüquqi qüvvəyə minməsini təmin edən bu ümumxalq səsvermələri demokratik inkişaf istiqamətində mühüm addım olmaqla, respublikanın sivil Avropa dəyərlərinə sadiqliyini bir daha təsdiqləyir.

Yeri gəlmişkən, qeyd etməliyik ki, Azərbaycan Respublikasının Konstitusiyasında dövri olaraq üçüncü dəfə hər 7 ildən bir dəyişiklik edilməsi həm də Azərbaycanda siyasi, iqtisadi, sosial inkişafın ritmik davamından xəbər verir. Sanki ölkə qarşısında dayanan vəzifələr müəyyənləşdirilir, hər 7 il ərzində onlar uğurla yerinə yetirilir və növbəti müvafiq dövr üçün fəaliyyət və inkişaf proqramı qəbul edilir.

Azərbaycanda konstitusion dəyişikliklərə yaranan ehtiyac, ilk növbədə, cəmiyyətin ən müxtəlif sahələrində özünü qabarıq göstərən sürətli inkişafdan irəli gəlir. Referendum Aktı layihəsində əksini tapmış əlavə və dəyişikliklərin hüquqi müstəvidə şərhi onların hər bir vətəndaşın maraq və mənafeyi baxımından müstəsna əhəmiyyətini önə çıxarır. Bu baxımdan Konstitusiyada edilmiş bir sıra dəyişikliklərin üzərində xüsusi dayanmaq, onları mövcud varianta nəzərən müqayisəli təhlil etmək lazım gəlir.

Konkret dəyişikliklər barədə danışmazdan əvvəl Konstitusiyanın dəyişdirilməsinə məhdudiyyət qoyulmuş bəzi müddəalarını xatırlatmaq, dövlət və cəmiyyət həyatının sabitliyinin təmin edilməsində onların rolunu bir daha vurğulamaq istərdik. Azərbaycan Respublikası Konstitusiyasının hakimiyyətin mənbəyi, xalq suverenliyi, hakimiyyətin mənimsənilməsinə yol verilməməsi, Azərbaycan dövləti, Azərbaycan dövlətinin başçısı və dövlət dili haqqında müddəalarının dəyişdirilməsinə və ya onların ləğv edilməsinə, insan və vətəndaş hüquq və azadlıqlarının ləğvi və ya məhdudlaşdırılmasına dair təkliflərin referenduma çıxarıla, xalq hakimiyyəti və dövlətin əsaslarına həsr olunmuş birinci bölmə ilə əlaqədar əlavələrin təklif edilə bilinmədiyi haqqında göstərişlərinin mühüm əhəmiyyəti vardır (9, m.155). Belə ki, Konstitusiyanın qeyd edilən müddəalarına dəyişikliklərin təklif edilməsinin məhdudlaşdırılması mühüm konseptual ideya və baxışların möhkəmləndirilməsinə, onun məzmun və sisteminin vahidliyinə, bu siyasi-hüquqi sənədin bütün digər norma və prinsiplərinin hüquqi xarakterinin artırılmasına yönəldilmişdir.

Azərbaycan Respublikasının ilk Konstitusiyasının qəbulundan az sonra ictimai həyatın bütün sahələrində mühüm irəliləyişlər baş vermiş, insan hüquqlarının qorunmasına dair yeni standartlar formalaşmışdır. Mövcud mühüm ictimai münasibətlərin tənzimlənməsi üçün yeni konstitusiya normalarının qəbulu zərurəti yaranmışdır. Bununla əlaqədar olaraq, ölkə başçısı Konstitusiyanın 24 maddəsində dəyişikliklər edilməsinə dair referendum təyin etmişdir. Nəticədə, 2002-ci il avqustun 24-də ümumxalq səsverməsi – referendum yolu ilə Azərbaycan Respublikası Konstitusiyasına mühüm əlavə və dəyişikliklər edilmişdir.

Bunlar, əsasən, ölkəmizin Avropa Şurasına tam hüquqlu üzv kimi qəbul olunmasından irəli gələn öhdəliklərin yerinə yetirilməsi, həmçinin məhkəmə hakimiyyətinin mövqeyinin daha da təkmilləşdirilməsi ilə bağlı olan dəyişikliklər idi.

Bundan yeddi il sonra ölkənin inkişaf səviyyəsi yeni konstitusiya islahatlarını aktual etmişdir. Azərbaycan Respublikası Milli Məclisi Azərbaycan Respublikasının Konstitusiyasının 29 maddəsində 41 dəyişiklik edilməsi barədə təklif irəli sürmüşdür. Bu dəyişikliklərdən on yeddisi maddələrə yeni hissələrin və ya bəndlərin əlavə edilməsi, yeddisi maddələrdə sözlərin əvəz edilməsi, yeddisi maddələrdə yeni sözün və ya sözlərin əlavə edilməsi, altısı maddələrə yeni cümlələrin əlavə edilməsi, ikisi maddənin yeni redaksiyada verilməsi, biri maddənin adının dəyişdirilməsi, daha biri isə maddədən sözün çıxarılması ilə bağlıdır. Referendum 2009-cu il mart ayının 18-də keçirilmiş və bütün təkliflər seçicilər tərəfindən dəstəklənmişdir. Bu əlavələr və dəyişikliklər insan hüquq və azadlıqlarının daha etibarlı təminatına, dövlət hakimiyyəti orqanlarının və yerli özünüidarəetmə orqanlarının fəaliyyətinin təkmilləşdirilməsinə, məhkəmə hakimiyyətinin müstəqilliyinin artırılmasına xidmət edir. Konstitusiyanın 29 maddəsinə 41 əlavə və dəyişiklikləri üç blokda qruplaşdırmaq mümkündür: birinci bloka insan və vətəndaş hüquq və azadlıqlarının daha da genişləndirilməsi və qorunması; ikinci bloka dövlətçilik sahəsində; üçüncü bloka qanunvericilik, məhkəmə hakimiyyətlərinə və bələdiyyələrə aid maddələrə tövsiyə olunan əlavə və dəyişikləri daxil etmək olar.

Azərbaycan Respublikası Konstitusiyasında 3-cü dəfə dəyişikliklər 26 sentyabr 2016-cı il tarixdə ölkə Prezidenti İlham Əliyevin təşəbbüsü ilə həyata keçirilmişdir. Konstitusiyanın 23 maddəsində dəyişiklik edilmiş, eyni zamanda Konstitusiyanın mətninə 6 maddə əlavə edilmişdir. Onları dörd qrupda birləşdirmək mümkündür:

1) insan hüquq və azadlıqlarının qorunması mexanizminin təkmilləşdirilməsi;
2) siyasi idarəçilik təsisatlarının fəaliyyətinin təkmilləşdirilməsi;
3) dövlətlərarası və hökumətlərarası beynəlxalq müqavilələrin imzalanması rejiminin təkmilləşdirilməsi;
4) insan hüquq və azadlıqlarının qorunmasında bələdiyyələrin məsuliyyətinin artırılması.

Təklif olunan 23 dəyişikliyin 16-sı, yəni dörddə üçü insan hüquq və azadlıqlarının qorunması mexanizminin təkmilləşdirilməsi ilə əlaqədardır. Digər dəyişikliklərdə məqsəd siyasi idarəçilik təsisatlarının fəaliyyətinin təkmilləşdirilməsi, dövlətlərarası və hökumətlərarası beynəlxalq müqavilələrin imzalanması rejiminin daha da optimallaşdırılmasıdır.

**Nəticə.** Beləliklə, Azərbaycan Respublikasında konstitusiya islahatlarının ilk mərhələsini sovet dövrü konstitusiyalarının ənənəvi modeli və məzmunundan imtina, şəxsiyyətin konstitusiya statusunun tanınması və yüksəldilməsi, yeni dövlət hakimiyyəti və idarəetmə modelinin başlanğıcı kimi xarakterizə etmək olar. Konstitusiya islahatlarından məqsədin suveren milli dövlətçiliyin möhkəmləndirilməsi, sosial-iqtisadi inkişafın yeni modelinin hazırlanması, vətəndaş cəmiyyəti və yeni dövlət hakimiyyəti institutlarının formalaşması, insan və vətəndaş hüquq və azadlıqlarının genişləndirilməsi olduğunu deyə bilərik. Azərbaycanın Konstitusiyasında insan hüquq və azadlıqları geniş təsbit edilsə də, həyatımızda baş verən pozitiv dəyişikliklər, vətəndaşların iqtisadi, sosial və siyasi proseslərdə iştirak əmsalının əhəmiyyətli dərəcədə artması həyatımızın real parametrinə çevrilib. Son illərdə insanların ictimai həyatda iştirakının artırılması yönündə ciddi addımlar atılıb. Hüquq və azadlıqlar sferasının genişlənməsi və qorunması mexanizminin təkmilləşməsi daxili siyasətin prioritetlərindən biri kimi qəbul edilib. Azərbaycanda insan hüquq və azadlıqları sistemi Avropa standartlarına daha çox uyğunlaşdırılıb. Bütün bu dəyişikliklərin Konstitusiyada əks olunması tamamilə təbii və başadüşüləndir. İndi Azərbaycanda demokratiya Konstitusiyanın ümumxalq səsverməsi yolu ilə qəbul olunduğu 1995-ci illə müqayisədə daha kamil təsisatdır. Lakin unudulmamalıdır ki, demokratiyanın inkişaf tarixi onun fasiləsiz bir proses olduğunu sübuta yetirib. Bu gün dünyanın ən demokratik ölkələri sayılan dövlətlərdə belə insan hüquq və azadlıqlarının daha da inkişaf etdirilməsi proses olaraq müşahidə olunmaqdadır. Bütün bunlar isə konstitusiya islahatlarının mahiyyət etibarı ilə daimi, davamlı və proqressiv xarakterindən xəbər verir.

**Ədəbiyyat:**

1. Azərbaycan Xalq Cümhuriyyətinin 80 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə Azərbaycan Prezidenti Heydər Əliyevin nitqi. Azərbaycan qəzeti, 28 may 1998-ci il.
2. F.Nağıyev. İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsində konstitusiya islahatlarının rolu. İnsan və vətəndaş hüquq və azadlıqlarının konstitusiya təminatının aktual problemləri mövzusunda Beynəlxalq Elmi-praktik konfransın materialları. Bakı, "Mütərcim", 2016.
3. Qayıdış (1990–1993). Təkmilləşmiş və yenidən işlənmiş ikinci nəşr. Bakı, "Azərbaycan"

nəşriyyatı, 2008. – 840 s. Məsləhətçi və buraxılışa məsul V.Talıbovdur.
4. Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı. Bakı, "Qanun" nəşriyyatı, 2015.
5. Azərbaycan Respublikasının yeni Konstitusiyasının layihəsini hazırlayan Komissiyanın yaradılması haqqında Azərbaycan Respublikası Milli Məclisinin qərarı. "Azərbaycan" qəzeti, 23 may 1995-ci il.
6. "Azərbaycan" qəzeti, 06 iyun 1995-ci il.
7. "Qanunçuluq" jurnalı. № 1-2. 1996-cı il
8. Z.Əsgərov. Konstitusiya hüququ. Bakı, 2011.
9. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 2016.

**Açar sözlər:** *Konstitusiya; konstitusiya islahatları; ictimai münasibətlər; İstiqlal bəyannaməsi; xalq cümhuriyyəti; referendum*

**Ключевые слова:** *Конституция; конституционные реформы; общественные отношения; Декларация о независимости; народная республика; референдум*

**Key words:** *Constitution; constitutional reforms; public relations; Declaration of Independence; national republic; referendum*

**Нагиев Фахраддин**

***Заведующий кафедрой Академии Государственного Управления при Президенте Азербайджанской Республики***

## КОНСТИТУЦИОННЫЕ РЕФОРМЫ В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ ЗА ГОДЫ НЕЗАВИСИМОСТИ

### РЕЗЮМЕ

В статье прослеживается путь развития конституционного законодательства в Азербайджанской Республике. Методологическую основу статьи составляют выступления и высказывания Общенационального лидера Гейдара Алиева, непосредственно руководившего Комиссией по подготовке новой Конституции Азербайджанской Республики, принятой в 1995 году всенародным голосованием – референдумом. Тщательно проанализированы такие документы, как выступление Гейдара Алиева на торжественном заседании Милли Меджлиса Азербайджанской Республики от 28 мая 1998 года, посвященном 80-летию образования Азербайджанской Народной Республики, в том числе и такие судьбоносные документы для азербайджанского народа, как Декларация Национального Совета о независимости 1918 года, Конституционный Акт о государственной независимости от 18 октября 1991 года и, конечно же, основа всех достижений азербайджанского народа и государства – первая Конституция независимой Азербайджанской Республики 1995 года.

Проанализированы и обоснованы изменения и дополнения в Конституции Азербайджанской Республики, внесенные по итогам референдумов 2002, 2009 и 2016 годов. Анализируя ход конституционного строительства в республике и в мире, составной частью которого является независимый Азербайджан, автор делает вывод о том, что конституционные реформы должны носить постоянный характер, учитывая изменения, происходящие в обществе и государстве, а также на международной арене.

**Naghiyev Fakraddin**

***Head of Department, Academy of Public Administration under the President of the Republic of Azerbaijan***

## CONSTITUTIONAL REFORMS IN THE REPUBLIC OF AZERBAIJAN DURING THE YEARS OF INDEPENDENCE

### SUMMARY

This paper observes the path of development in constitutional law of the Azerbaijan Republic. The articles are methodologically based on speeches and statements of the national leader of Azerbaijan, Heydar Aliyev, who led the Commission on the preparation of new constitution of the Republic of Azerbaijan, adopted in 1995 by national election – referendum. The key documents including Heydar Aliyev’s statement at the ceremonial meeting of Milli Majlis of the Republic of Azerbaijan on 28 May 1998 dedicated to the 80th anniversary of the Azerbaijan Democratic Republic, National Council’s Declaration of Independence in 1918 which is of crucial importance for Azerbaijani people, the Constitutional Act on State Independence adopted in 18 October 1991 and, of course, the basis of achievements of the people and the state of the Republic of Azerbaijan - the first Constitution of the independent republic of 1995 have been subject to profound analysis in the paper.

The amendments and additions to the Constitution of Azerbaijan Republic made in 2002, 2009 and 2016 have also been analyzed and justified. As per analysis of national and world constitutional development with Azerbaijan as an integral part, the author concludes that the constitutional reforms should be carried out on regular basis with regards to the developments in society, government and international arena.

**FİRDOVSİYYƏ ƏHMƏDOVA**

*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Tarix kafedrasının müdiri, dosent*

# MÜASİR AZƏRBAYCAN DÖVLƏTÇİLİYİNDƏ TARİXİ VARİSLİK

Azərbaycanda qədim və zəngin dövlətçilik ənənəsi mövcuddur. Qədim olsa da, onun varisliyi obyektiv və subyektiv amillərin diktəsindən asılı olmuş, ardıcıl səciyyə daşımamışdır. XX yüzillikdə Azərbaycan xalqı tarixi torpaqlarının bir hissəsində müsəlman Şərqində ilk respublika olan milli, müstəqil dövlətini qura bildi. 23 aylıq hakimiyyəti ərzində dövlətçiliyin dayaqlarının yaradılmasından möhkəmləndirilməsinədək ciddi və məhsuldar fəaliyyət göstərdi.

Azərbaycan xalqının respublika tarixi ardıcıl davam etsə də, siyasi, iqtisadi, ictimai mahiyyətinə görə biri digərini əvəz etmiş fərqli mərhələlərdən keçmişdir. Bu baxımdan XX yüzillikdə Azərbaycanda 3 respublikanın şərti bölgüsü müəyyənləşdirilmişdir. Birinci və sonuncu arasında 70 il mövcud olmuş "sovet sosialist" tipli respublika hər ikisindən radikal tərzdə fərqli məzmuna malik idi. Birinci, yəni Azərbaycanın Xalq Cümhuriyyəti ilə sonuncu, çağdaş Azərbaycan Respublikası arasında milli-mənəvi, tarixi-siyasi bağlılıq isə olduqca güclüdür.

Məhz bu şərtləri nəzərə alaraq, 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında qəbul edilmiş Konstitusiya Aktında göstərilirdi ki, Azərbaycan Respublikasının Ali Soveti Azərbaycan Milli Şurasının 1918-ci il mayın 28-də qəbul etdiyi İstiqlal Bəyannaməsinə, Azərbaycan Respublikasının demokratik prinsiplərinin və ənənələrinin varisliyinə əsaslanaraq bu sənədi qəbul edir (1). Konstitusiya Aktında yeni müstəqil Azərbaycan Respublikası 1918-1920-ci illərdə mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyətinin varisi elan olundu. Cümhuriyyətin dövlət atributlarının bərpasına başlandı. Bərpa olunmuş milli dövlətçiliyimizin, demək olar ki, bütün sahələri üzrə tarixi ildönümləri qeyd edilir, peşə bayramları günü üçün də Cümhuriyyət zamanındakı təsis günü əsas götürülür. Azərbaycan Parlamentinin, Cümhuriyyət hökumətinin, milli məhkəmə, prokurorluq sisteminin, milli ordunun və digər çoxsaylı sahələrin tarixi ənənəsi araşdırılır, tədqiqata cəlb edilir və çağdaş idarəçilikdə nəzərə alınır.

Müasir Azərbaycan dövlətçiliyinin beşiyində dayanmış Cümhuriyyət dövrünü öyrənmək yalnız tarixi deyil, siyasi-mənəvi əhəmiyyət kəsb edir. 1991-ci il oktyabrın 18-də qəbul olunmuş "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı"nda təsbit olunmuş siyasi qiymət - "1920-ci il aprelin 27-28-də RSFSR-in XI Qızıl Ordusunun Azərbaycana təcavüzü, respublika ərazisini zəbt etməsi, beynəlxalq hüququn subyekti olan Azərbaycan Xalq Cümhuriyyətini devirməsi Rusiyanın müstəqil Azərbaycanı işğal etməsi hesab edilsin" – tarixə 70 il mövcud olmuş baxış tərzinin dəyişdirilməsinə çağırış idi (2). Xalq Cümhuriyyətinin atributlarının bərpasından başlayaraq hüquqi dövlət quruculuğunu hədəf seçən Azərbaycan hakimiyyəti idarəçiliyini milli tarixi köklərinə söykənərək çağdaş prinsiplər üzərində qurmağa başladı. Azərbaycanın milli-azadlıq mücadiləsinin ideologiyasını rəmzi ehtiva edən üçrəngli bayraq 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul olundu (1,159). 1990-cı il noyabrın 29-da "Azərbaycan SSR-in adının və dövlət bayrağının dəyişdirilməsi haqqında" fərman verildi (1,159). Dövlət bayrağına dair Azərbaycan Respublikasının Konstitusiyasında xüsusi bənd var (3,15–16). Azərbaycan Xalq Cümhuriyyətinin digər dövlət rəmzləri ilə bağlı həmin dövrdə tədbirlər görülmüş, 1919-cu ilin martında dövlət gerbi və möhürü haqqında müsabiqə elan olunmuşdu (5,291). Müxtəlif təkliflər, layihələr olsa da, qısamüddətli hakimiyyət rəsmi qaydada həmin rəmzləri təsdiq edə bilməmişdi. Azərbaycanın işğala məruz qalması ilə Cümhuriyyətin devrilməsi bu sahədəki işləri yarımçıq qoymuşdu. Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonra əvvəlki nümunələrə üz tutuldu. Cümhuriyyətin təkmilləşdirilmiş gerb layihəsinin əsasnaməsi təsdiq edildi. 1993-cü il 23 fevral tarixli əsasnamədə dövlət gerbinin təsviri şərh edilmişdir. Cümhuriyyət dövrünün "Azərbaycan marşı" (Ü.Hacıbəyli) bəstəkar Aydın Əzimov tərəfindən aranjeman edilmiş və Milli Məclis tərəfindən Dövlət himni kimi qəbul olunmuşdur (1,160). Dövlət himni haqqında əsasnamə 1993-cü il martın 2-də təsdiq edilmişdir. Cümhuriyyət ənənələrinə sahib çıxan Azərbaycan hakimiyyəti dövlət rəmzlərinə yüksək dəyər verərək rəsmi qərarlar qəbul etmişdir. Respublika Prezidenti Heydər Əliyev 1998-ci il martın 13-də "Azərbaycan Respublikasının dövlət atributlarının təbliği işinin gücləndirilməsi haqqında" sərəncam imzalamışdır (1,160).

Cümhuriyyət hakimiyyətinin qarşısında dayanan ilk başlıca vəzifə Bakının azad edilməsi, Azərbaycanın ərazisini öz hakimiyyəti altında birləşdirmək idi. Bunun

üçün isə milli ordunun yaradılması zərurətə çevrildi. İlk gündən silahlı qüvvələrin təşkilinə başlayan Azərbaycan hökuməti 1918-ci il iyunun 26-da qərar qəbul etdi və Müsəlman Korpusu Əlahiddə Azərbaycan Korpusu adlandırıldı (5,196). Hazırda həmin gün respublikamızın ümumxalq bayramlarından biri kimi qeyd olunur. Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 22 may tarixli fərmanı ilə iyunun 26-sı Azərbaycan Milli Ordusunun yaranma günü təsis edilmişdir (1, IIc., s.278).

XX yüzilliyin sonunda müstəqilliyini bərpa etmiş Azərbaycan 98 il öncə olduğu kimi yenə də erməni təcavüzü ilə üz-üzə qalmışdı. Erməni iddialarını dəf edərkən Cümhuriyyət dövrünün diplomatik, hərbi fəaliyyəti nəzərə alınır, tarixi təcrübədən çıxış edilir. Həmçinin Qafqaz İslam Ordusunun xilaskar rolu xatırlanır. 1918-ci ildə Bakı uğrundakı qanlı döyüşlərdə şəhid olmuş türk hərbçilərinin xatirəsi əbədiləşdirildi. Azərbaycanın və Türkiyənin dövlət rəhbərlərinin qarşılıqlı razılaşması əsasında Bakıda Şəhidlər xiyabanında xatirə abidəsinin ucaldılması qərara alınmış, 1999-cu il iyunun 24-də abidənin tikintisinə başlanmış, 2000-ci il aprelin 9-da açılış mərasimində Azərbaycan və Türkiyə respublikalarının prezidentləri Heydər Əliyev və Süleyman Dəmirəl iştirak etmişlər. Bakının azad edilməsi günü – sentyabrın 15-də, həmçinin digər tarixi günlərlə yanaşı, gündəlik ziyarət yerinə çevrilmiş xatirə abidəsi Türk-Azərbaycan şəhidlərinin qardaşlıq abidəsi sayılır. Məhz 1918-ci ildə Qafqaz müsəlmanlarını, azərbaycanlıları fiziki məhv olmaq təhlükəsindən xilas etməyə gəlmiş Türkiyə hərbçilərinin yardımı sayəsində nicat tapan əhali həmin ilin kütləvi qətliamlarını unuda bilməzdi. Həmin qırğınları Azərbaycan xalqının milli yaddaşında yenidən bərpa edib, növbəti təcavüzlər qarşısında daha ayıq, qətiyyətli, mübariz olmaqdan ötrü respublika Prezidenti Heydər Əliyevin 1998-ci il 26 mart tarixli fərmanına əsasən martın 31-i azərbaycanlıların soyqırımı günü elan olunmuşdur (1, IIc., s.353-354). Məhz 80 il sonra 1918-ci il müsəlman-azərbaycanlı qırğınlarına siyasi qiymət verməklə dövlət rəhbərliyi həmin qətliamların soyqırımı mahiyyəti daşıdığını rəsmiləşdirdi.

Cümhuriyyətin mədəni quruculuq tədbirləri də milli dövlətin möhkəmlənməsinə xidmət edirdi. Zaqafqaziya müəllimlər seminariyasının Azərbaycan bölməsi Qazaxa köçürüldü (5,190). Qazax müəllimlər seminariyası Azərbaycanda ibtidai məktəblər üçün müəllimlər hazırlayan ilk tədris ocağı oldu. 1919-cu ildə hökumət məktəblərin, kursların, universitetin açılması yönündə ardıcıl əməli işlər reallaşdıra bilmişdir. Həmin ilin aprelində latın əlifbasına keçməklə bağlı xüsusi komissiya yaradılmışdı (5,290). Cümhuriyyət tarixinin ən parlaq səhifələrindən biri Bakı şəhərində universitetin açılması oldu.

BDU-nun 80, 90, 95 illik yubileyləri beynəlxalq səviyyədə qeyd olunmuşdur. Müstəqil Azərbaycan dövlətinin ilk ali məktəbinə 97 il öncə deyildiyi kimi, "istiqbali-milliyyəmizi təminedici bir məbəd, elm nəzərilə" baxmalıyıq.

Azərbaycan Cümhuriyyəti sadəcə, deklarativ məzmunda bəyan edilmiş dövlət olmamışdır. İstiqlal Bəyannaməsində əksini tapmış prinsiplərə, dəyərlərə bütün fəaliyyəti boyu əməl etməyə, sadiq qalmağa səy göstərmişdir. Bütün dövlətçilik atributlarına malik, parlamenti, hökuməti, ordusu olan suveren bir dövlətə çevrilə bilmişdi. Milli dövlətçilik ənənələrimizin bərpasında mühüm rol oynamış Azərbaycan Cümhuriyyətinin elan edildiyi 28 may günü 1992-ci ildə Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə Respublika günü kimi dövlət bayramı səviyyəsinə qaldırıldı. Respublika Prezidenti Heydər Əliyevin hakimiyyəti dövründə Azərbaycan Cümhuriyyətinin, Cümhuriyyət xadimlərinin fəaliyyətinə yüksək qiymət verilmişdir. Heydər Əliyev öz çıxışlarında, fərman və sərəncamlarında Azərbaycan Respublikasının Xalq Cümhuriyyətinin varisi olduğunu dəfələrlə qeyd etmişdir. Onun Azərbaycan Xalq Cümhuriyyətinin 85-ci ildönümü münasibətilə imzaladığı sərəncamla (2003, 1 fevral) Azərbaycan xalqının dövlətçilik tarixində mühüm yer tutduğunu nəzərə alaraq, Bakı şəhərində cümhuriyyətə abidə ucaldılması haqqında göstəriş vermişdir. Onun təşəbbüsü ilə cümhuriyyət tarixinə dair arxiv sənədləri və fundamental nəşrlər işıq üzü görmüşdür (1;4;5). 2003-cü ilin mart-may aylarında Bakıda Azərbaycan Cümhuriyyətinin 85 illiyinə həsr olunmuş beynəlxalq elmi-sessiya keçirilmişdir.

2004-2005-ci illərdə Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası iki cilddə nəşr olunmuş və respublika Prezidenti İlham Əliyevin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli sərəncamı ilə ölkə kitabxanalarına hədiyyə edilmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin dövlətçilik tariximizdəki roluna yüksək qiymət vermişdir: "Azərbaycan Xalq Cümhuriyyətinin yaranması tariximizdə çox əlamətdar və önəmli hadisə idi. İlk dəfə müsəlman aləmində demokratik respublika yaranırdı, Azərbaycan xalqı müstəqilliyə qovuşurdu. Ölkəmiz dünya birliyinə üzv olurdu. Bu, çox əlamətdar hadisə idi" (1, I c., s.357). Həqiqətən də, Azərbaycanın dövlətçilik tarixində ilk dəfə olaraq beynəlxalq səviyyədə rəsmi şəkildə Azərbaycan müstəqil beynəlxalq subyekt kimi tanınırdı. Bu nailiyyəti əldə etmək uğrunda Cümhuriyyət hakimiyyəti ardıcıl məqsədyönlü siyasət yeritmişdir. Belə ki, Azərbaycan Cümhuriyyəti yarandığı gündən fəal xarici siyasət yeritməyə başlamışdı. "Osmanlı imperator hökuməti ilə Azərbaycan Cümhuriyyəti arasında dostluq müqaviləsi" Azərbaycan hökumətinin imzaladığı ilk dövlətlərarası müqavilə idi. Avropa ölkələri ilə diplomatik əlaqələr yaratmaq məqsədilə 1918-ci il avqustun 20-də Əlimərdan bəy Topçubaşov fövqəladə elçi və səlahiyyətli nazir kimi İstanbula göndərildi (4,53). Həmin il dekabrın 28-də hökumətin təqdimatı ilə Paris sülh konfransına göndəriləcək nümayəndə heyətinə də Ə.M.Topçubaşov

rəhbərlik edirdi. 1919-cu il mayın 2-də ABŞ prezidenti V.Vilsonun təşəbbüsü ilə Azərbaycan məsələsi ilk dəfə Paris konfransının Dördlər Şurasının iclasında müzakirə edildi.

Keçmiş Rusiya imperiyasının hüdudlarında yaranmış yeni respublikaların taleyində hiss ediləcək dönüş Böyük Britaniyanın baş naziri Lloyd Corcun 1919-cu ilin noyabrında İngiltərə parlamentinin icmalar palatasındakı çıxışı ilə başladı. Lloyd Corcun çıxışında aydın hiss edilirdi ki, o, Azərbaycanın istiqlaliyyətinin tanınmasına və ona yardım göstərilməsinə tərəfdardır. Böyük Britaniyanın təşəbbüsü ilə 1920-ci il yanvarın 10-da Paris sülh konfransı Ali Şurasının sessiyası çağırıldı. Səhəri gün, yanvarın 11-də müttəfiqlərin Ali Şurası İngiltərənin xarici işlər naziri Lord Kerzonun təklifi ilə qərar qəbul etdi: "Müttəfiqlər və Birlik ölkələri Azərbaycan hökumətini de-fakto səviyyəsində tanıyırlar".

Azərbaycan istiqlaliyyətinin beynəlxalq sülh konfransı tərəfindən tanınması ilə gənc dövlətin diplomatik əlaqələri genişləndi. Belçika, İsveçrə, Hollandiya, Çexiya, Slovakiya, Finlandiya və digər dövlətlər Bakıda öz konsulluqlarını açdılar. 1920-ci il martın 20-də İran Azərbaycan Cümhuriyyətini de-yure tanıdı (4). Qısa müddətdə Azərbaycanın Tehranda səfirliyi, Təbrizdə baş konsulluğu, Rəştdə, Ənzəlidə, Məşhəddə vitse-konsulluğu, Xoy və Əhərdə konsul-agentlikləri yaradıldı. Azərbaycan Parlamenti Böyük Britaniya, Fransa, İtaliya, Amerika Birləşmiş Ştatları, İsveçrə Respublikası, Polşa, Almaniya və Rusiyada diplomatik nümayəndəliklər təsis olunması haqqında qanun qəbul etdi (5,180). Azərbaycanda İngiltərənin, Belçikanın, Yunanıstanın, Gürcüstanın, Ermənistanın, Danimarkanın, İtaliyanın, Litvanın, İranın, Polşanın, ABŞ-ın, Ukraynanın, Finlandiyanın, Fransanın, İsveçrənin və İsveçin nümayəndəlikləri fəaliyyətə başlamışdı.

Müstəqilliyi böyük dövlətlər tərəfindən tanınmış Azərbaycan Xalq Cümhuriyyətinin beynəlxalq münasibətlər sistemində iştirakı sovet Rusiyasının birbaşa hərbi müdaxiləsi ilə sona çatdı. Milli dövlət süqut etsə də, milli məfkurə, milli dövlətçilik duyğuları qəlblərdən silinmədi. Milli yaddaş məhv olmadı. Dünyanın siyasi arenasında Azərbaycan varlığını rəsmiləşdirmək, Azərbaycan dövlətçiliyini bərpa etmək, islam aləmində sivil dövlət qurmaq, demokratik prinsiplərə söykənmək, vətəndaş hüquq və azadlıqlarını təmin etmək kimi təməl addımlar, 1918-ci ilin 28 mayında "Azərbaycan" adının siyasi məna kəsb etməsi, bəyan etdiyi sərhədlər (kiçildilmiş olaraq) daxilində mövcudluğu, Azərbaycan dövlətini müstəqil olmasa da, yaşamağa qadir etdi. XX yüzilliyin sonlarında Azərbaycan dövləti yenidən istiqlala qovuşdu, tarixi ənənələrinə sadiqliyini bəyan etdi.

Cümhuriyyətin bəyan edildiyi günün "Respublika günü" kimi qeyd olunmasından başlayaraq digər mühüm tarixi hadisələrin əbədiləşməsi yönündə tədbirlər görüldü. Cümhuriyyət xadimlərinin adlarının milli yaddaşda bərpası dövrü başlandı. Çoxsaylı yazılarda, çıxışlarda, verilişlərdə adları tanıdılan cümhuriyyət xadimlərinin həyat yolu, fəaliyyəti tanıdıldı. Ədəbi-bədii irsin daşıyıcıları cümhuriyyət "intibahı"nın milli-mənəvi ideoloji dayaqları olmuş yazıçılar, şairlər, sənət sahibləri uzun illər sonra ictimai-siyasi status kəsb edirdi. Onların yazıları yenidən nəşr edilir, səsləndirilirdi. Azərbaycan dövlətçiliyində varislik prinsipinin təntənəsi kimi milli yaddaşın bərpası prosesi gedirdi.

Azərbaycan Xalq Cümhuriyyətinə münasibətini Respublika günü ilə əlaqədar çıxışında Prezident İlham Əliyev dövlətçilik ənənəsinə, varislik xəttinə yüksək əhəmiyyət verərək ifadə etmişdir: "Azərbaycan xalqının maraqları bizim üçün hər şeydən üstündür. Azərbaycan dəyərləri, milli dəyərlərimiz bizim üçün əsas istiqamətdir, əsas yolumuzdur. Yəni bu gün Azərbaycan dövləti möhkəm təməl üzərində qurulubdur. Bu təməl tarixə, xalqımızın əsrlər boyu yaratdığı dəyərlərə söykənir.

Azərbaycan xalqı haqlı olaraq fəxr edir ki, müsəlman aləmində ilk demokratik respublika məhz Azərbaycanda yaradılmışdır. Azərbaycanın mütərəqqi nümayəndələri bu respublikanı yaratmışlar. Bu, tarixi hadisə idi. Müsəlman aləmində ilk demokratik respublikanın yaradılması böyük hadisə idi və ondan sonra digər müsəlman ölkələrində respublika quruluşu yaradılmışdır. Ancaq ilk təcrübə məhz Azərbaycan xalqının istedadı, zəhməti, uzaqgörənliyi hesabına mümkün olmuşdur. Əfsuslar ki, respublikanın ömrü uzun olmamışdır. Azərbaycan cəmi iki il müstəqil ölkə kimi yaşamışdır. Ancaq bu illər ərzində böyük işlər görülmüşdür. Azərbaycan xalqı Azərbaycan Xalq Cümhuriyyətinin qurucularının xatirəsinə həmişə böyük hörmətlə yanaşır və onların əziz xatirəsi həmişə bizim ürəyimizdədir. O illərdə demokratik təsisatlar qurulmuş, ordu quruculuğu sahəsində böyük işlər görülmüş, qadınlara səsvermə hüququ verilmişdir. Bir sözlə, Azərbaycanın gələcək uğurlu inkişafı üçün möhkəm zəmin yaradılmışdır".

Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasını mürəkkəb siyasi dövrdə cərəyan edən hadisələrin və Azərbaycan xalqının milli oyanışının məntiqi yekunu kimi dəyərləndirən Prezident İlham Əliyev xalqımızın müstəqillik idealının gerçəkləşdirilməsində, Azərbaycanın tarixi dövlətçilik ənənələri zəminində milli dövlət quruluşunun dirçəldilməsində, milli istiqlal ideyalarının geniş yayılmasında, Azərbaycan Xalq Cümhuriyyətinin təşəkkül tapmasında, onun beynəlxalq aləmin subyekti olaraq dünya dövlətləri tərəfindən tanınması və diplomatik münasibətlərinin qurulmasında böyük xidmətlər göstərmiş görkəmli ictimai-siyasi xadimlərimizin adlarının əbədiləşdirilməsi, yubileylərinin qeyd olunması haqqında sərəncamlar imzalamışdır (2).

Dövlət səviyyəsində qeyd olunan ildönümü tədbirləri, respublika rəhbərliyi tərəfindən dəfələrlə verilən siyasi qiymət Azərbaycanın müasir dövlət idarəçiliyində sivil inkişaf istiqamətlərini müəyyənləşdirərkən tarixi irsə həssas yanaşıldığının, mənəvi köklərə sadiqliyin bariz göstəricisidir.

**Ədəbiyyat:**

1. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası, 2 cilddə, 1-ci cild, B., 2014, 440 səh.
2. «Azərbaycan» qəzeti, 1995, 19 dekabr, № 243; «Azərbaycan», 2013, 26 fevral, № 44; «Azərbaycan», 2013, 23 noyabr, № 258.
3. Azərbaycan Respublikasının Konstitusiyası, B., 1997, 112 s. (s.15-16).
4. Азербайджанская Демократическая Республика. Внешняя политика. (Документы и материалы), Б., 1998, 632с.
5. Азербайджанская Демократическая Республика (1918-1920гг.), Законодательные акты (Сборник документов), Б.,1998, 560 с. (291)

**Açar sözlər:** *Azərbaycan dövləti, müstəqillik, hökumət, respublika, siyasət, irs, ənənə, varislik*
**Ключевые слова**: *Азербайджанское государство, независимость, правительство, республика, политика, наследие, традиция, преемственность*
**Keywords:** *Azerbaijani state, independence, government, republic, policy, heritage, tradition, continuity*

**Фирдовсия Ахмедова**

***Заведующая кафедрой истории Академии Государственного Управления при Президенте Азербайджанской Республики, доцент***

## ИСТОРИЧЕСКАЯ ПРЕЕМСТВЕННОСТЬ В СОВРЕМЕННОЙ АЗЕРБАЙДЖАНСКОЙ ГОСУДАРСТВЕННОСТИ

### РЕЗЮМЕ

Изучение периода Азербайджанской Демократической Республики (Первой Республики), стоявшей у истоков современной Азербайджанской государственности, является значимым не только с исторической, но и с морально-политической точки зрения. Избрав своей целью создание правового государства, власти независимого Азербайджана стали строить управление, основываясь на национально-исторических корнях и современных принципах, начав с восстановления атрибутов Первой Республики. Распоряжениями Президента Азербайджанской Республики увековечены имена выдающихся общественно-политических деятелей АДР, на государственном уровне отмечены их юбилеи. Ежегодные мероприятия на государственном уровне, приуроченные к годовщине создания АДР, неоднократная политическая оценка, данная руководством республики, являются ярким примером уважения исторического наследия, верности нравственным традициям при определении цивилизованного развития в современном государственном строительстве Азербайджана.

**Firdovsiyya Ahmadova**

***Head of History Department, the Academy of Public Administration under the President of the Republic of Azerbaijan, Associate Professor***

## HISTORICAL CONTINUITY IN MODERN AZERBAIJANI STATEHOOD

### SUMMARY

Study of the Azerbaijan Democratic Republic (the First Republic) at the origins of modern Azerbaijani statehood is significant from historical, moral and political points of view. Based on national and historical roots and modern principles, Azerbaijan authorities commenced administration by recovering the attributes of the First Republic for the purpose of creating a constitutional state. Orders of the president immortalized names of outstanding social and political figures of ADR, and their anniversaries are celebrated at the national level.

The events at the national level are annually organized to mark the anniversary of establishment of the ADR. The Government's appreciation is a vivid example of respect for heritage, loyalty to moral traditions to define civilized development in modern state building of Azerbaijan.

**SEVİL MƏMMƏDOVA**

*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası Politologiya və Siyasi İdarəetmə kafedrasının dosenti, fəlsəfə üzrə fəlsəfə doktoru*

# MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTİNİN EKOLOJİ SİYASƏTİNİN MƏZMUNU VƏ REALLAŞMASI İSTİQAMƏTLƏRİ

Müasir qlobal ekoloji böhran şəraitində ekoloji siyasət istənilən dövlətin ümumi siyasətinin vacib tərkib hissəsini təşkil edir. Dövlətin ekoloji siyasəti ətraf təbii mühitin mühafizəsi və sağlamlaşdırılması, təbii ehtiyatların rasional istifadəsi və bərpa olunması, insanın normal həyat və fəaliyyəti, ekoloji təhlükəsizliyinin təmin edilməsi sahəsində münasibətlərin tənzimlənməsinə yönələn hüquqi, iqtisadi və tərbiyəvi xarakterli tədbirlər sistemi kimi başa düşülür [19]. Digər tərəfdən, dövlətin ekoloji siyasəti həm də onun cəmiyyət və təbiət arasında optimal qarşılıqlı əlaqələrinin təşkil olunmasına dair fəaliyyəti kimi nəzərdən keçirilir [20].

Müstəqil Azərbaycan dövlətinin yaradıcısı ümummilli lider Heydər Əliyev ölkəmizin iqtisadi dirçəlişi və bütün sahələrdə tərəqqisinin möhkəm təməlini yaratmışdır. Onun hələ sovet dövründə ölkəyə rəhbərlik etdiyi 1969-1982-ci illərdə, eləcə də Moskva fəaliyyəti zamanı həyata keçirdiyi strateji kurs müstəqil Azərbaycan dövlətinin inkişafına hesablanmışdır. Həmin dövrdə, digər sahələrdə olduğu kimi, ətraf mühitin mühafizəsi sahəsində də məhz Heydər Əliyevin rəhbərliyi altında ölkəmizdə gələcəyə hesablanmış məqsədyönlü ekoloji siyasət həyata keçirilmişdir. Məhz onun təşəbbüsü ilə keçən əsrin 70-ci illərində həyata keçirilən yaşıllaşdırma tədbirləri nəticəsində əgər 1970-ci ilədək Bakı şəhərində 3 min hektara qədər yaşıllıq sahəsi mövcud idisə, ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi həmin illərdə yaşıllıqların sahəsi 17 min hektara çatdırılmışdı. Bu dövrdə ətraf mühitin mühafizəsi, təbii sərvətlərdən səmərəli istifadə olunmasına dair 8 qanun qəbul olunmuş, hökumət səviyyəsində 30-dan artıq qərar təsdiq edilmişdir [7].

Azərbaycanda müstəqilliyin ilk illərində sovet dövründən yığılıb qalmış və getdikcə daha da kəskinləşən ekoloji problemlərin həllinə yönələn siyasətin aparılması cəhdləri olsa da, həmin dövrdə ölkədə yaranmış dərin böhranlar və hakimiyyətsizlik şəraitində məqsədyönlü ekoloji siyasətin həyata keçirilməsi qeyri-mümkün olmuşdur. Yalnız dahi Liderimiz Heydər Əliyev 1993-cü ilin yayında xalqımızın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıtdıqdan sonra ölkədə yaratdığı ictimai-siyasi sabitlik şəraitində onun rəhbərliyi ilə ardıcıl və düşünülmüş yeni ekoloji siyasətin aparılmasına başlanılmışdır. Məhz Heydər Əliyevin səyləri nəticəsində dövlət siyasətinin prioritet istiqamətlərindən birini təşkil edən bu siyasət dövlət idarəçiliyinin bütün sahələrini əhatə edən kompleks bir mexanizmə çevrilmişdir. Bütün bunların təməlində onun zəngin dövlətçilik təcrübəsindən qaynaqlanan ekoloji siyasət strategiyası dururdu. Bütövlükdə, Heydər Əliyevin bu sahədə müəyyən etdiyi strateji kurs əhalinin həyatı və sağlamlığı üçün ekoloji cəhətdən təhlükəsiz ətraf mühitin təmin edilməsinə, onun durumunun yaxşılaşdırılması və sabitləşdirilməsinə, ölkənin təbii ekosistemlərinin qorunmasına yönəldilmişdir.

Heydər Əliyevin ekoloji siyasət strategiyasının ümumi konturları və prinsipləri onun çıxışlarında, nitqlərində aydın ifadə olunmuş və ölkə qanunvericiliyində öz əksini tapmışdır. Mətni onun rəhbərliyi altında hazırlanmış və 12 noyabr 1995-ci il tarixində qəbul edilmiş, insanın, onun hüquq və azadlıqlarının ali dəyər olmasından çıxış edən Azərbaycan Respublikası Konstitusiyası bu strategiyanın mahiyyətini əks etdirməklə, hər kəsin sağlam ətraf mühitdə yaşamaq hüququnu ( maddə 39), eləcə də ölkədə ətraf mühitin qorunmasının hər kəsin borcu olduğunu təsbit etmişdir (maddə 78). Bununla da ətraf mühitin qorunması Konstitusiya səviyyəsində bir dəyər kimi öz təsdiqini tapmış və bu Konstitusiya vəzifəsi ümumi xarakter daşıyır. Bundan başqa, Konstitusiyada ətraf mühitin əsl vəziyyəti haqqında məlumat toplamaq, ekoloji hüquqpozma ilə əlaqədar hər kəsin sağlamlığına və əmlakına vurulmuş zərərin əvəzini almaq hüquqları da təsbit olunmuşdur [1].

Konstitusiya müddəalarına müvafiq olaraq yeni ekoloji qanunvericiliyin formalaşdırılması baxımından Heydər Əliyev tərəfindən “Ətraf mühitin mühafizəsi haqqında” (8 iyun 1999-cu il), “Ekoloji təhlükəsizlik haqqında” (8 iyun 1999-cu il), “Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında” (24 may 2000-ci il), “Ətraf mühitə dair informasiya almaq haqqında” (12 mart 2002-ci il), “İcbari ekoloji sığorta haqqında” (21 aprel 2002-ci il), “Əhalinin ekoloji təhsili və maarif-

ləndirilməsi haqqında" (10 dekabr 2002-ci il) Azərbaycan Respublikasının Qanunlarının imzalanması və qüvvəyə minməsi dövlətimizin ekoloji siyasətinin hüquqi bazasının yaradılmasında xüsusi əhəmiyyət kəsb etmişdir.

Ulu Öndərimizin reallaşdırdığı strateji kursda ətraf mühitin mühafizəsi sahəsində beynəlxalq müqavilələrə qoşulmağa da xüsusi yer verilmiş, onun rəhbərliyi altında Azərbaycan Respublikası çoxlu sayda beynəlxalq konvensiyalara qoşulmuş, müvafiq protokollar imzalamışdır. Buna misal olaraq, "Bitkilərin mühafizəsi haqqında", "Biomüxtəliflik haqqında", "Nəsli kəsilmək təhlükəsi altında olan təbii flora və fauna növlərinin beynəlxalq ticarəti haqqında", "Səhralaşmaya qarşı mübarizə haqqında" və s. beynəlxalq konvensiyaları göstərmək olar.

Böyük dövlətçilik təcrübəsinə malik olan siyasətçi və dövlət xadimi Heydər Əliyev təbiəti mühafizə fəaliyyətinin dövlət tənzimlənməsi məsələlərinə böyük diqqət yetirirdi. Onun bu sahədə həyata keçirdiyi düşünülmüş dövlət siyasəti xüsusi əhəmiyyət kəsb etməklə, müvafiq dövlət idarəetmə orqanları sisteminin təkmilləşdirilməsinə, onların fəaliyyətinin səmərəliliyinin yüksəldilməsinə yönəlmişdir. Ölkədə Heydər Əliyevin rəhbərliyi ilə uğurla aparılan sturuktur islahatları çərçivəsində ətraf mühitin mühafizəsi və təbii ehtiyatlardan istifadənin ayrı-ayrı istiqamətləri ilə məşğul olan və fəaliyyətlərində bir-birini təkrarlayan dövlət strukturları Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 23 may tarixli 485 nömrəli Fərmanı ilə ləğv edilərək, Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət və Dövlət Geologiya və Mineral Ehtiyatlar Komitələrinin bazasında Ekologiya və Təbii Sərvətlər Nazirliyi yaradılmış, Prezidentin 18 sentyabr 2001-ci il tarixli Fərmanı ilə həmin Nazirliyin Əsasnaməsi təsdiq edilmişdir. Əsasnamədə Nazirliyin vəzifələrinə təbii sərvətlərin öyrənilməsi, onların istifadə edilməsi, bərpası və mühafizəsi, bu sahədə ekoloji təhlükəsizliyin təmin edilməsi, bioloji müxtəlifliyin qorunub saxlanılması, su və mineral xammal ehtiyatlarından səmərəli istifadə edilməsi və digər sahələrdə dövlət siyasətinin həyata keçirilməsi və s. daxil edilmişdir [4].

Heydər Əliyevin ekoloji siyasət strategiyasına xas olan bir xüsusiyyət kimi, digər sahələr kimi, bu sahənin də məqsədli proqramlarla idarə edilməsini göstərmək olar və bu təcrübə öz səmərəsini bu gün də verir. Məhz məqsədli – proqram yanaşmasının üstünlüklərini nəzərə alaraq və mövcud ekoloji problemlərin sistemli həllini təmin etmək məqsədi ilə Heydər Əliyev özünün 18 fevral 2003-cü il tarixli Sərəncamı ilə ekologiyaya dair iki Milli Proqramı – "Azərbaycan Respublikasında ekoloji cəhətdən dayanıqlı sosial-iqtisadi inkişafa dair" və "Azərbaycan Respublikasında meşələrin bərpa edilməsi və artırılmasına dair" Milli Proqramları təsdiq etmişdir. Həmin Milli Proqramlar böyük elmi-konseptual əhəmiyyət kəsb etməklə, ölkədə həyata keçirilən ekoloji siyasətin, demək olar ki, bütün aspektlərini özündə əks etdirmişdir. Bundan başqa, Heydər Əliyev 13 iyun 2003-cü il tarixində «Abşeron yarımadasında təbii daş yataqlarının səmərəli istifadəsi və inkişafı Dövlət Proqramının (2003-2006-cı illər)» təsdiq edilməsi haqqında Prezident Sərəncamını (№ 1242) imzalamışdır. Bütövlükdə, onun Sərəncamları ilə təsdiq edilmiş beş milli və dövlət proqramları davamlı inkişaf prinsiplərinə söykənməklə, ölkədə mövcud olan ekoloji problemlərin həllinə yönəlmişdir [4].

Ümummilli Liderimizin müxtəlif tədbirlərdəki çıxışlarını, nitqlərini təhlil etdikdə, onun Azərbaycanın ekoloji təhlükəsizliyi ilə bağlı məsələlərə xüsusi önəm verdiyini görürük. Bu məsələlərdən biri Xəzər və onun ekoloji problemləri olmuşdur. Bildiyimiz kimi, Xəzər dənizi Azərbaycanın və bütövlükdə regionun ekobioloji mühitinin vacib bir komponentidir. Bu mənada Xəzərdə baş verən hər hansı bir dəyişiklik regionun ekosisteminə təsirsiz ötüşmür. Bundan çıxış edən Heydər Əliyev Xəzərin ekoloji problemlərinin həlli sahəsində sahilyanı ölkələrin əməkdaşlığına böyük əhəmiyyət verərək, onun təbii sərvətlərindən istifadə zamanı həm müasir texnologiyaların tətbiqinin, həm də dənizin ekologiyasının təmin edilməsinə xüsusi diqqət yetirirdi. Məhz onun belə qətiyyətli mövqeyi sayəsində Xəzər nefti və qazının (digər ehtiyatlarının) istismarı və daşınması ilə bağlı Azərbaycanın xarici şirkətlərlə imzaladığı bütün müqavilələrdə ətraf mühitin qorunması vacib bir şərt, prinsip kimi öz əksini tapmışdır.

Heydər Əliyevin ekoloji siyasət strategiyasında yaşıllaşdırma, ağac əkmək, meşə salmaq, meşələri, yaşıllıqları qorumaq işlərinə geniş yer verilmişdir. Bu məsələlərə o, böyük əhəmiyyət verərək vurğulayırdı: "Azərbaycanda ictimai-siyasi sabitlik bərpa olunubdur və Bakıda, Azərbaycanın bütün yerlərində hökm sürür. Demək, belə bir şəraitdə indi quruculuq prosesi gedir və quruculuq prosesinin də bir hissəsi Bakıda yaşıllaşdırmanı davam etdirmək, yeni-yeni parklar salmaq, yaşayış binalarının ətrafında ağaclar əkməkdir" [22]. Ümumiyyətlə, Bakı, digər iri sənaye şəhərlərimiz, onların ekoloji durumu Ümummilli Liderimizi daima düşündürmüşdür. Hələ keçən əsrin 70-80-ci illərində o, Azərbaycana rəhbərlik etdiyi dövrdə, "Bakını yaşıllıqlar diyarına çevirək" çağırışı və təşəbbüsü ilə Bakı şəhərinin yaşıllaşdırılmasına böyük təkan vermiş, bu istiqamətdə geniş bir proqram həyata keçirmişdir. Əgər 1970-ciilədək Bakı şəhərində 3 min hektara qədər yaşıllıq sahəsi mövcud idisə, ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi həmin illərdə yaşıllıqların sahəsi 17 min hektara çatdırılmışdı. Bu dövrdə ətraf mühitin mühafizəsi, təbii sərvətlərdən səmərəli istifadə olunmasına dair 8 qanun qəbul olunmuş, hökumət səviyyəsində 30-dan artıq qərar təsdiq edilmişdir [7]. Heydər Əliyevin irəli sürdüyü "Hər bakılı iki ağac əkib becərməlidir!" kimi məşhur şüarı illər keçdikdən sonra belə yaddaşlardan silinməmiş, bu gün də öz aktuallığını qoruyub saxlayaraq, Azərbaycan Respublikası Milli Məclisinin deputatı,

Heydər Əliyev Fondunun Prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva tərəfindən start verilmiş və ölkədə geniş vüsət almış "Hərəyə bir ağac əkək!" kampaniyasının reallaşmasında öz məntiqi davamını tapmışdır.

Ulu Öndərimiz sovet hakimiyyəti dövründə Bakının yaxınlığında ikinci sənaye şəhəri kimi salınmış Sumqayıtda da ekoloji vəziyyətin yaxşılaşdırılmasına böyük diqqət yetirmiş, müstəqillik illərində də onun ekoloji vəziyyətinin yaxşılaşdırılmasına daim qayğı göstərmiş, şəhər sənayesinin modernləşdirilməsində yeni, ekoloji cəhətdən təmiz texnologiyaların tətbiqi vəzifəsini qarşıya qoymuşdur [21]. Bundan başqa Heydər Əliyev iqtisadiyyat və ekologiya münasibətləri baxımından sənaye müəssisələrinin yerlərinin düzgün seçilməsini vacib hesab edirdi. Bununla bağlı olaraq o, Gəncə Gil-Torpaq İstehsalat Birliyində 26 may 2000-ci il tarixində söylədiyi nitqində sovet dövründə Gəncə alüminium zavodunun yerinin ekoloji cəhətdən düzgün seçilmədiyini xüsusi olaraq qeyd etmişdir [22].

Beləliklə, göründüyü kimi, ümummilli liderimiz Heydər Əliyevin ölkədə sovet dövründə həyata keçirdiyi gələcəyə hesablanmış ekoloji siyasət öz məntiqi davamını müstəqillik illərində yenidən hakimiyyətə qayıtdıqdan sonra reallaşdırdığı ekoloji siyasət strategiyasında tapmışdır ki, bu da müstəqil Azərbaycanın ekoloji siyasətinin təməlini təşkil etmişdir.

Heydər Əliyevin uğurla başladığı bu strateji xətti onun layiqli davamçısı və siyasi varisi, Azərbaycan dövlətinin başçısı cənab İlham Əliyev zənginləşdirərək yeni keyfiyyət səviyyəsində böyük vüsətlə davam etdirir. Ölkə Prezidenti İlham Əliyev məhz bu sahənin vacibliyini vurğulayaraq demişdir: "Ətraf mühitin qorunması da bizim üçün çox vacib məsələdir. Xüsusilə neftin qalıqları ilə çirklənmiş torpaqların təmizlənməsi, meşə təsərrüfatının bərpası və digər məsələlər öz həllini tapmalıdır... İndi biz Azərbaycanın hərtərəfli inkişafı üçün, gənc nəslin sağlam böyüməsi üçün bu sahəyə də diqqət göstərməliyik"[23].

Bəşəriyyəti narahat edən qlobal ekoloji böhran və onu şərtləndirən bir çox qlobal xarakterli ekoloji problemlər Azərbaycanda spesifik formada təzahür edir. Buna görə də ölkə rəhbərliyinin həyata keçirdiyi rasional ekoloji siyasət bu spesifikliyi diqqətdən kənarda qoymur, bir sözlə, respublikanın üzləşdiyi real ekoloji təhdidlərin qarşısının alınmasına yönəlir. Müasir şəraitdə ölkəmizdə mövcud olan ekoloji vəziyyət Azərbaycan Respublikası Prezidentinin 23 may 2007-ci il tarixli, 2198 nömrəli Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasının Milli təhlükəsizlik Konsepsiyası"nda səciyyələndirilir. Belə ki, ekoloji problemləri ölkənin milli təhlükəsizliyinə əsas təhdidlərdən biri kimi müəyyən edən Konsepsiyanın üçüncü maddəsində ekoloji problemlər aşağıdakı kimi qruplaşdırılır:

"Azərbaycan Respublikasındakı ekoloji problemlər Sovet İttifaqının enerji ehtiyatına olan tələbatının ödənilməsi məqsədi ilə əsasən Abçeron yarımadasında və Xəzər dənizində ekoloji nəticələr nəzərə alınmadan qeyri-təkmil üsullarla onilliklər ərzində aparılmış neft hasilatı ilə bağlıdır.

Bundan əlavə, Azərbaycan Respublikasının Ermənistan tərəfindən işğal olunmuş ərazilərində flora və faunanın kütləvi şəkildə məhv edilməsi, o cümlədən bu ərazilərdə törədilən genişmiqyaslı yanğınlar ölkə üçün ən böyük ekoloji problemlərdən birinə çevrilmişdir.

Azərbaycan Respublikasının şirin su ehtiyatlarının böyük həcminin qonşu ölkələrdə formalaşması və bu ölkələrin ərazilərində kimyəvi, radioaktiv və digər zərərli maddələrlə intensiv çirklənməyə məruz qalması əhalinin içməli su ilə təmin olunmasında problemlər yaradır. Bundan əlavə, Ermənistan ərazisində seysmik zonada yerləşən və texnoloji baxımdan köhnəlmiş Metsamor Atom Elektrik Stansiyası bütövlükdə region üçün təhlükə mənbəyidir.

Ətraf mühitin çirklənməsi, münbit torpaqların deqradasiyası, təbii resurslardan qeyri-rasional istifadə, sənaye və məişət tullantılarının tələb olunan səviyyədə emal olunmaması ciddi problem mənbəyidir. Ekoloji problemlər iqtisadi və sosial həyata mənfi təsir göstərir, ictimai sağlamlığa, cəmiyyətin maddi sərvətinə və dövlətin müvafiq qurumlarının fəaliyyətinə ciddi maneələr yaradır" [3].

Göründüyü kimi, Milli Təhlükəsizlik Konsepsiyasında Azərbaycanda mövcud olan ekoloji problemlər ümumiləşdirilərək verilir və eyni zamanda onların bu cür qruplaşdırılması ekoloji siyasətin prioritet istiqamətlərini formalaşdırır. Digər tərəfdən, bu cür müddəaların qanunvericilikdə geniş yer alması ona dəlalət edir ki, Azərbaycandakı mövcud ekoloji vəziyyət dövlətimizin diqqət mərkəzində olan prioritet məsələlərdən biridir.

Azərbaycan Respublikasında həyata keçirilən müasir ekoloji siyasət strategiyasında əsas meyar kimi insan, onun sağlamlığı, rifahı, təhlükəsizliyi götürülür və ölkənin maddi resursları insan kapitalına xidmət edir, bu, eyni zamanda ölkənin bütövlükdə strateji inkişaf xəttini təşkil edir. Bu siyasətin əsas məqsədi indiki və gələcək nəsillərin ehtiyaclarının təmin edilməsi naminə mövcud ekoloji sistemlərin, iqtisadi potensialın qorunması və təbii ehtiyatlardan səmərəli istifadə edilməsi ilə davamlı inkişafın təmin edilməsindən ibarətdir. Məhz bu məqsədin reallaşmasına yönələn ekoloji siyasət aşağıdakı prinsiplərə əsaslanır:

- qərarların qəbul edilməsi prosesinin qısamüddətli və uzunmüddətli iqtisadi, ekoloji və sosial nəticələr və ehtimal edilən fəsadlar nəzərə alınmaqla həyata keçirilməsi və bu prosesdə alternativ variantların nəzərə alınması;
- ətraf mühitin mühafizəsi sahəsində qərarlar hazırlanarkən ictimai və qeyri-hökumət təşkilatlarının nümayəndələrinin cəlb edilməsinin genişləndirilməsi;

– ətraf mühitin hər hansı komponentinin bərpa olunmayan dərəcədə pozulmasına səbəb ola biləcək fəaliyyətin qarşısının alınması;
– ətraf mühitin mühafizəsinin təmin edilməsi üçün aztullantılı, güclü və çoxşaxəli iqtisadi inkişafın təmin edilməsi;
– beynəlxalq təşkilatlar və inkişaf etmiş ölkələrlə ətraf mühitin mühafizəsi sahəsində əlaqələrin genişləndirilməsi;
– əhali arasında ekoloji təbliğatın və maarifləndirmənin gücləndirilməsi [30].

Ümummilli lider Heydər Əliyev tərəfindən ekologiya sahəsində başlanmış hüquqi islahatlar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında uğurla davam etdirilərək müvafiq qanunvericilik bazasının təkmilləşdirilməsinə xüsusi diqqət yetirilir. Bu sahədə qəbul edilmiş qanunlardan "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikasının Qanununa əlavə edilməsi barədə" (3 dekabr 2002-ci il), "Əhalinin ekoloji təhsili və maarifləndirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarına dəyişiklik və əlavələr edilməsi barədə" (5 mart 2004-cü il), "Xəzər dənizinin dənizətrafı mühitinin mühafizəsi haqqında" çərçivə Konvensiyasının təsdiq edilməsi barədə" (4 aprel 2006-cı il), "Ekoloji təhlükəsizlik haqqında" Azərbaycan Respublikasının Qanununa və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əlavələr və dəyişikliklər edilməsi barədə" (7 dekabr 2007-ci il), "Ekoloji təmiz kənd təsərrüfatı haqqında" (13 iyun 2008-ci il) Azərbaycan Respublikasının Qanunlarını və s. göstərmək olar.

29 iyun 2004-cü il tarixində qəbul olunmuş "Milli təhlükəsizlik haqqında" Azərbaycan Respublikası Qanununda da ekoloji təhlükəsizlik məsələlərinə geniş yer verilmişdir. Qanunun 7-ci maddəsində ekoloji sahədə əsas milli maraqlar milli maraqlardan biri kimi müəyyən edilərək cəmiyyətin yaşayışı üçün təhlükəsiz ekoloji və texnoloji şəraitin yaradılmasından ibarət olduğu göstərilmişdir. 10-cu maddədə isə ekoloji sahədə əsas təhdidlərə aşağıdakılar aid edilmişdir:
– ekoloji tarazlığın pozulması və ekoloji vəziyyətin kəskin pisləşməsi;
– ekoloji cəhətdən zərərli texnologiyaların təhlükə yaradacaq miqyaslarda tətbiqi, təsərrüfat obyektlərinin təbii fəlakətlərə, texnogen xarakterli fövqəladə hadisələrə və təxribatlara məruz qalma ehtimalı, epidemiya və epizootiyaların yayılması;
– su mənbələrinin, atmosferin və dəniz mühitinin təhlükəli miqyaslarda çirklənməsi;
– ekoloji mədəniyyət səviyyəsinin aşağı olması [2].

"Milli təhlükəsizlik haqqında" Qanunda ekoloji məsələlərə belə geniş yer verilməsi eyni zamanda onun göstəricisidir ki, ölkə rəhbərliyi ekoloji təhlükəsizliyə milli təhlükəsizliyin ayrılmaz tərkib hissəsi kimi baxır. Ekoloji sahədə təhdidlərin konkret müəyyən edilməsi ekoloji siyasətin milli təhlükəsizlik kontekstində düzgün aparılmasına və müvafiq qanunvericiliyin təkmilləşdirilməsinə kömək edir, eyni zamanda təbii resurslardan səmərəli istifadəyə də imkan yaradır.

Qanunun 21-ci maddəsində Azərbaycan Respublikasının ekoloji sahədə milli təhlükəsizliyinin təmin olunması üçün ekoloji təhlükəsizlik siyasətinin konseptual əsaslarının hazırlanması və tətbiqi; ekoloji sahədə milli təhlükəsizliyə xarici təhdidlər haqqında məlumatların əldə edilməsi; insan fəaliyyətinin təbiətə zərərli təsirinin azaldılması istiqamətində tədbirlər görülməsi; təbiətdən istifadə və ətraf mühitin mühafizə sahəsində elmi cəhətdən əsaslandırılmış normativ hüquqi bazanın təkmilləşdirilməsi və onun tətbiqinə nəzarətin həyata keçirilməsi; əhalinin ekoloji maarifləndirilməsi və s. kimi əsas tədbirlərin görülməsi nəzərdə tutulur [2].

Göründüyü kimi, Azərbaycan Respublikasının mükəmməl təhlükəsizlik sənədi olan "Milli təhlükəsizlik haqqında" Qanun eyni zamanda ölkədə aparılan ekoloji siyasət üzrə mövcud normativ-hüquqi bazanı uğurla tamamlayır.

Dövlətimizin başçısı İlham Əliyev tərəfindən ekoloji təhlükəsizlik ölkənin sosial-iqtisadi inkişafının prinsipial şərti kimi götürülür. Bununla əlaqədar o, göstərir ki, "...bəzilərinə belə görünə bilər ki, ekoloji məsələlər sosial-iqtisadi inkişafla birbaşa əlaqəsi olmayan məsələlərdir. Ancaq belə deyil. Bu məsələlər hər bir ölkə üçün çox əhəmiyyətlidir və təsadüfi deyil ki, inkişaf etmiş ölkələrdə ekoloji məsələlərin həllinə çox böyük diqqət göstərilir. Azərbaycan da istisna olmamalıdır" [16].

İnkişaf etmiş ölkələrin təcrübəsinə istinad edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu sahədəki fəaliyyətini gələcəkdə də davam etdirəcəyini vurğulayaraq əminliklə göstərmişdir ki, "gələcək fəaliyyətimdə də Azərbaycanda ekoloji vəziyyətin yaxşılaşması, ətraf mühitin qorunması üçün əlimdən gələni əsirgəməyəcəm" [24]. Onu da qeyd etmək lazımdır ki, məhz bu sahədəki geniş və səmərəli fəaliyyətinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə 15 noyabr 2006-cı ildə dünyada böyük nüfuza malik olan Mixail Zukkov Fondunun ali mükafatı təqdim olunmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi altında ölkədə yaşıllaşdırma sahəsində böyük işlər görülür. Dövlət başçımızın ağacların kəsilməsinə qarşı dəfələrlə verdiyi sərt xəbərdarlıqlar fonunda yaşıllaşdırma ilə bağlı imzaladığı Sərəncamlar, bu məqsədlə ayrılan vəsait bu sahədə əsl canlanma yaratmış, Azərbaycanın bütün bölgələrində ağacəkmə kampaniyasına start verilmiş, bütün idarə və təşkilatlar bu işə fəal surətdə qoşulmuşlar. Bu məsələlərə xüsusi əhəmiyyət verərək ölkə Prezidenti göstərmişdir: "İnsanların sağlamlığının təmin edilməsi üçün kompleks tədbirlər görülür. Son illər ərzində Azərbaycanda, xüsusilə Bakıda ağacəkmə kampaniyası geniş vüsət almışdır. Artıq bu, kampaniya deyildir. Bu, artıq dövlət siyasətidir. On milyondan çox ağac əkilmişdir" [ 5 ].

Bu sahədə aparılan işlərdə Heydər Əliyev Fondu da yaxından iştirak etməklə, öz töhfəsini verir. Fondun Prezidenti, millət vəkili Mehriban xanım Əliyevanın rəhbərliyi və təşəbbüsü ilə "Hərəyə bir ağac əkək" devizi ilə keçirilən aksiyalarda milyonlarla yeni ağac və kollar əkilmişdir. Yaşıllıqların artırılması sahəsində son 8 il ərzində Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən arid sahələr və aşağı keyfiyyətli torpaqlarla səciyyələnən ərazilərin, o cümlədən Bakı və Abşeron yarımadasının yaşıllaşdırılması ilə bağlı müasir metodlara əsaslanan iri yaşıllaşdırma layihələri həyata keçirilmiş, 3776 hektardan artıq ərazidə 5 milyona yaxın ağac əkilmiş, müasir damcılı suvarma sistemləri ilə təmin olunmuşdur. Azərbaycanda meşələrin mühafizəsi, bərpası, yeni meşələrin salınması sahəsində də işlər uğurla həyata keçirilir. Meşəsalma və meşəbərpa tədbirlərinin ilbəil intensivləşdirilməsi hesabına son on ildə meşə ilə örtülü ərazilərin sahəsi 1 milyon hektarı keçmiş və ölkə ərazisinin 11,4 faizindən 11,8 faizinədək artmışdır. Son 10 il ərzində 100 min hektardan artıq sahədə meşəbərpa işləri aparılmış və yeni meşələr salınmış, 10 milyonlarla ədəd ağac əkilmişdir [8].

Ölkədə kompleks şəkildə həyata keçirilən ekoloji siyasət çərçivəsində xüsusi mühafizə olunan ərazilərin qorunması və genişlənməsinə böyük diqqət yetirilir. Statistikaya görə ölkəmizdə xüsusi qorunan ərazilərin ümumi sahəsi 1990-cı ildə 3824,8 km$^2$, 2000-ci ildə 4298,6 km$^2$, 2005-ci ildə 6038,2 km$^2$, 2010-cu ildə 8807,7 km$^2$, 2015-ci ildə isə 8925,5 km$^2$ təşkil etmişdir ki, bu da 1990-cı ilə nisbətən 2,4 dəfə çoxdur (şəkil 1). Onu da qeyd lazımdır ki, əgər 1990-cı ildə xüsusi qorunan torpaqların ölkənin ümumi ərazisinə nisbəti 4,4 faiz təşkil edirdisə, həyata keçirilmiş tədbirlər nəticəsində bu ərazilərin ümumi sahəsi 2003-cü ildən etibarən artırılaraq indi ölkə ərazisinin 10,3 faizini təşkil edir.




*Şəkil 1.*

Xüsusi mühafizə olunan ərazilərin digər növü – milli parkların isə ərazisi 2003-2012-ci illərdə 3,8 dəfə artırılmış və hazırda onların sayı 9-a çatdırılmışdır ki, bu da ölkə ərazisinin 3,7 faizini təşkil edir. Bununla yanaşı, Azərbaycanda hazırda mövcud olan 24 dövlət təbiət yasaqlıqlarının da ümumi sahəsi 1990-cı ilə nisbətən xeyli artırılmışdır. Belə ki, bu ərazilərin sahəsi 1990-cı ildə 1957,8 km$^2$, 2000-ci ildə 2376,7 km$^2$, 2005-ci ildə 2851,8 km$^2$, 2010-2015-ci illərdə isə 3611,6 km$^2$ təşkil etmişdir ki, bu da 1,8 dəfə çoxdur [32].

Beləliklə, göründüyü kimi, Azərbaycanda müstəqillik illərində 1993-cü ildən başlayaraq həyata keçirilən ardıcıl dövlət siyasəti sayəsində xüsusi mühafizə olunan ərazilər xeyli genişləndirilmiş, və bunun nəticəsində hazırda ölkədə 9 milli park, 11 dövlət təbiət qoruğu və 24 dövlət təbiət yasaqlığı fəaliyyət göstərir. Bu gün ölkədə əsas diqqət xüsusi mühafizə olunan təbiət ərazilərinin beynəlxalq standartlara uyğun infrastrukturunun yaradılmasına yönəldilmişdir. Qısa zaman ərzində Qafqazda ən böyük Şahdağ Milli Parkının nümunəvi infrastrukturu qurulmuş, Şirvan və Hirkan Milli Parklarında ekoturizm şəhərcikləri yaradılmışdır. Vəhşi təbiətin mühafizəsi istiqamətində aparılan işlər davam etdirilir və Heydər Əliyev Fondunun dəstəyi ilə həyata keçirilən layihə çərçivəsində 150 başadək ceyran öz tarixi areallarına köçürülmüşdür [8].

Ekoloji təhlükəsizliyin təmin edilməsində su hövzələrinin sosial-ekoloji problemlərinin həll edilməsi mühüm əhəmiyyət kəsb edir. Azərbaycanın ən böyük çayları olan Kür və Araz Ermənistan və Gürcüstanın yaşayış məntəqələri və sənaye obyektlərindən təmizlənmədən axıdılan tullantı sular vasitəsilə çirkləndirilir. Xüsusilə bu çaylar Azərbaycana qarşı işğalçılıq siyasəti yürütməkdə davam edən Ermənistan dövləti tərəfindən qərəzli şəkildə kəskin çirkləndirilir. Azərbaycanın ərazisindən keçərək Xəzər dənizinə axan həmin çayların radioaktiv və toksik maddələrlə çirkləndirilməsi dənizin bioloji təbəqəsini və ətraf ərazilərdə yaşayan insanların həyatını təhlükəyə məruz qoyur. Bu məsələlərlə bağlı ulu öndərimiz Heydər Əliyev daim narahatlıq keçirirdi və beynəlxalq təşkilatları onların həllində əməkdaşlığa çağırırdı. 2002-ci ilin may ayında Beynəlxaq Atom Enerjisi Agentliyinin Baş direktoru Məhəmməd Əl Baradeyi ilə söhbətində də o, həmin problemlərlə əlaqədar öz narahatlığını bildirərək qeyd edirdi: "Bölgəmiz üçün çox əhəmiyyətli olan Araz çayının da Ermənistan tərəfindən çirkləndirilməsi bizi narahat edir...Biz Araz çayından çox məqsədlər üçün istifadə edirik. Bu çayın suları Xəzər dənizinə axır. Demək, bu çayın təmizliyi Xəzər dənizinin təmizliyi üçün lazımdır. Ona görə bu məsələ bizi çox narahat edir. Biz istərdik ki, əməkdaşlığımızda bu məsələyə də diqqət yetirəsiniz" [9, s.191].

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Ətraf mühitin monitorinqi departamentinin Kür və Araz transsərhəd çayları hövzələrində keçirdiyi monitorinqlərin nəticələri Ermənistan və Gürcüstanın bu çayları çirkləndirməkdə davam etdiyini bir daha təsdiq edir. Ermənistan dövlətinin Azərbaycana qarşı yürütdüyü təcavüzkarlıq siyasəti nəticəsində işğal altında olan 20 faizdən çox ərazilərimizdə şəhər və kəndlərin dağıdılması ilə yanaşı, həmin ərazilərdə təbii kompleksin də bu dövlət tərəfindən vəhşicəsinə məhv edilməsi və istismar olunması bütövlükdə regionda ekoloji durumun daha da pisləşməsinə səbəb olur. Onu da qeyd etmək lazımdır ki, Ermənistan Azərbaycan Respublikasının 2000-ci ildə ratifikasiya etdiyi "Sərhəddən keçən su axınlarının və beynəlxalq göllərin mühafizəsi və istifadəsi üzrə" Helsinki Konvensiyasına (17.03.92) qoşulmamış, öz ərazilərindən keçən tranzit suların ekoloji mühafizəsi məsələsində də beynəlxalq hüququn tələblərinə məhəl qoymur, beynəlxalq birlik isə buna göz yumur. Bütün bunlar da işğalçı Ermənistan dövlətinin Azərbaycanın təbiətinə qarşı həyata keçirdiyi və bütün region üçün ciddi təhlükə yaradan ekoloji soyqırım siyasətinin təzahürüdür və buna görə də, əlbəttə, Ermənistan region dövlətlərinin, beynəlxalq təşkilatların iştirakı ilə tezliklə məsuliyyətə cəlb edilməli və Azərbaycana müvafiq ekoloji kompensasiya ödəməlidir.

Respublikamızda ilk növbədə içməli su mənbəyi kimi istifadə olunan Kür və Araz çaylarının çirklənməsi həmçinin ölkəmizin zəngin heyvanat aləmini də riskə məruz qoyur, torpaqların şoranlaşmasına səbəb olur. Bütün bunlar nəzərə alınaraq bu məsələyə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən böyük diqqət yetirilir və onun rəhbərliyi altında dövlətimiz ölkənin məhdud su ehtiyatlarının respublikamızın artan əhalisinin, sürətlə inkişaf edən iqtisadiyyatının, kənd təsərrüfatının tələblərini ödəyə biləcək səviyyədə idarə edilməsinə yönələn siyasət həyata keçirilir. Bu siyasət çərçivəsində tikintisi uğurla başa çatmış və istifadəyə verilmiş Oğuz-Qəbələ-Bakı su kəməri, eləcə də meliorasiya sahəsində həyata keçirilən bir sıra iri layihələr məhz bu məqsədə xidmət edir. Transsərhəd çayların monitorinqini təkmilləşdirmək məqsədilə Qazax və Beyləqan rayonlarında analitik tədqiqat laboratoriyaları yaradılıb. Ölkənin tranzit su mənbələri olan Kür, Xrami, Tovuzçay, Ağstafaçay və Araz çayından götürülən nümunələr həmin laboratoriyalarda tədqiq olunur. Eyni zamanda Səhiyyə Nazirliyi əhaliyə verilən suyun keyfiyyətinə nəzarət edir [13]. Paralel olaraq Kür, Araz və digər çaylar üzərində sutəmizləyici qurğular quraşdırılır, kanalizasiya sistemləri yenidən qurulur. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə təsdiq olunmuş "Əhalinin ekoloji cəhətdən təmiz su ilə təminatının yaxşılaşdırılması proqramı"nın həyata keçirilməsi istiqamətində Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən 2007-ci ildən başlayaraq regionlarda modul tipli sutəmizləyici qurğuların quraşdırılması hesabına 384 yaşayış məntəqəsində keyfiyyətli içməli su ilə təmin edilmiş əhalinin sayı 625 mini keçmişdir. Bundan başqa, gələcəkdə yarana biləcək su qıtlığı probleminin effektiv həlli üçün hazırda Xəzər dənizinin suyunun şirinləşdirilərək içməyə və suvarmaya yararlı hala salınması istiqamətində də işlər görülür, Dəniz Suyunun Duzsuzlaşdırılması zavodu və müasir tinglikdən ibarət kompleks inşa edilmişdir. Faktiki olaraq bu zavod Xəzər sahilində ən müasir və iri duzsuzlaşdırma müəssisəsidir [8].

Mütəxəssislərin gəldiyi qənaətə əsaslanaraq, Azərbaycanda suyun istifadəsi, xüsusilə də kənd təsərrüfatında istifadəsi ilə bağlı göstərmək olar ki, suyun istifadəsi problemlərinin həllinə əhalinin maraqlı təbəqələrini cəlb etmək, əhali arasında təbliğatı genişləndirməklə sudan düzgün istifadə olunmasının vacibliyini və üsullarını geniş yaymaq mühüm əhəmiyyət kəsb edir.

Ölkəmizdə həyata keçirilən balanslaşdırılmış ekoloji siyasətin bir istiqaməti tullantılar, onların idarə olunması probleminin həlli ilə bağlıdır. Məişət tullantıları probleminin həlli istiqamətində görülən işlər sırasında Bakı Bərk Məişət Tullantılarının Yandırılması Zavodunun tikintisini göstərmək olar. Balaxanı qəsəbəsində inşa olunmuş həmin zavodun təməli dövlətimizin başçısı İlham Əliyev tərəfindən 3 noyabr 2009-cu il tarixində qoyulmuş və onun tərəfindən 19 noyabr 2012-ci il tarixində açılışı edilmişdir. Zavod istehsal gücünə görə Şərqi Avropada və MDB məkanında ən iri bu tipli zavod hesab olunur, Avropa Birliyinin ətraf mühitini mühafizəsi sahəsində ən sərt normativlərinə tam cavab verir.

20 illik istismarı nəzərdə tutulan həmin zavodda tullantıların yandırılması prosesi nəticəsində il ərzində 231,5mln KVt/saat elektrik enerjisi əldə olunacaq. Zavodun açılışında iştirak edən Prezident İlham Əliyev əsas məsələnin bundan sonra məişət tullantılarının yığılması, çeşidlənməsi, yandırılması və təkrar emala verilməsi prosesinin bir-biri ilə uzlaşdırılmasından ibarət olduğunu göstərmişdir [ 5].

Dövlətin ekoloji siyasəti çərçivəsində reallaşan prioritet vəzifələrdən birini də vaxtilə neft sənayesinin törətdiyi ekoloji problemlərin aradan qaldırılması təşkil edir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamına müvafiq olaraq 2006-cı ildə Dövlət Neft Kompaniyasının strukturunda Ekologiya İdarəsi yaradılmış, bu da ekoloji layihələrin uğurla reallaşması sahəsində imkanları xeyli genişləndirmişdir. Bütövlükdə, Kompaniyanın ekoloji tədbirləri əsasən aşağıdakı fəaliyyət sahələrini əhatə edir: dənizdə və quruda neft yataqlarının kəşfiyyatı və işlənməsində Ətraf Mühitə Təsirinin Qiymətləndirilməsi (ƏMTQ) və ekoloji problemlərin həlli istiqamətində ilkin mərhələ olaraq ekoloji monitorinq işlərinin aparılması; neftlə çirklənmiş torpaqların təmizlənməsi; atmosferə atılan tullantıların azaldılması; istehsal tullantılarının idarə olunması; enerji qoruyucu texnologiyalarının tətbiqi; Bakı buxtasının təmizlənməsi; yaşıllaşdırma işləri; eko-parkın salınması; ARDNŞ-nin müəssisə və təşkilatları üçün "Ekoloji Normativ Sənədlər"in hazırlanması; ekoloji təbliğat və maarifləndirmə məsələləri və s. [12]

Ölkəmizdə uğurla həyata keçirilən ekoloji siyasət çərçivəsində atmosfer havaya atılan çirkləndirici maddələrin miqdarı xeyli azalmışdır. Dövlət Statistika Komitəsinin 2016-cı ilin iyul ayına olan məlumatlarına görə stasionar mənbələrdən ölkənin atmosfer havasına atılan çirkləndirici maddələr əgər 1990-cı ildə 2108,5 min ton təşkil edirdisə, bu rəqəm 1995-ci ildə 878,6 min ton, 2005-ci ildə 557,9 min ton, 2010-cu ildə 214,8 min ton, 2015-ci ildə isə 1990-cı ilə nisbətən 12 dəfə azalaraq 178,0 min ton təşkil etmişdir (şəkil 2).




*Şəkil 2*

Həmin illər ərzində adambaşına düşən çirkləndirici maddələrin miqdarı da xeyli azalmışdır: 1990-cı ildə cəmi 293,9 kq, 1995-ci ildə – 114,3 kq, 2005-ci ildə – 65,6 kq, 2010-cu ildə – 23,7 kq, 2015-ci ildə – 18,4 kq olmuş, yəni 1990-cı il ilə müqayisədə 16 dəfə azalmışdır [32].

Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən ekoloji qanunvericiliyə, təbii mühitin mühafizəsi və təbii ehtiyatlardan səmərəli istifadə sahəsində normativlərə, qaydalara və standartlara riayət edilməsinə ardıcıl şəkildə nəzarət edilir. Təkcə 2014-cü il ərzində Nazirliyin müvafiq strukturları tərəfindən ətraf mühitin mühafizəsi sahəsində hüquqi və fiziki şəxslərin yol verdikləri qanun pozuntularına görə 3338 akt və 1127 protokol tərtib olunmuş, aşkar edilmiş nöqsanların aradan qaldırılması üçün 1472 "məcburi göstəriş" verilmişdir. Ümumilikdə 1105 iş üzrə təqsirkarlar 4,8 milyon manat məbləğində inzibati qaydada cərimə edilmiş, ətraf mühitə dəymiş ziyana görə 497 iş üzrə 1,7 milyon manat məbləğində iddia qaldırılmış, ətraf mühitə tullantıların atılmasına və axıdılmasına görə hüquqi və fiziki şəxslərə

qarşı 5448 iş üzrə 1,9 milyon manat məbləğində ödəmə tətbiq olunmuşdur. Ətraf mühit üzrə Dövlət Fonduna daxilolmalar 2004-2014-cü illərdə 14 dəfə artmışdır [31].

Ümummilli liderimiz Heydər Əliyevin ekoloji sahənin dövlət proqramları vasitəsilə idarə edilməsi təcrübəsini də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev uğurla davam etdirir. Bu sahədə məqsədyönlü siyasətin aparılmasına böyük əhəmiyyət verən dövlətimizin başçısı göstərir: "Ekoloji məsələlərə diqqət, münasibət eyni zamanda ölkənin ümumi siyasətinin, ümumi mədəniyyətinin təzahürüdür. Son illərdə ən önəmli sahə budur...biz bu məsələlərə çox böyük önəm veririk. Çalışırıq ki, ekoloji proqramların icrasında Azərbaycan qabaqcıl yerlərdə olsun"[24]. Məhz bundan çıxış edərək Prezident İlham Əliyev özünün Sərəncamları ilə təkcə 2004-cü ildə "Azərbaycan Respublikasında hidrometeorologiyanın inkişaf Proqramı"nı (28 yanvar 2004-cü il), "Azərbaycan Respublikasında yay-qış otlaqlarının, biçənəklərin səmərəli istifadə olunması və səhralaşmanın qarşısının alınmasına dair Dövlət Proqramı"nı (22 may 2004-cü il) təsdiq etmişdir. Bundan sonrakı dövrdə də bu sahədə bir sıra digər dövlət proqramları, o cümlədən "Bakı şəhərinin qəsəbələrinin 2006-2007-ci illər üzrə sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair Tədbirlər Proqramı" (28 fevral 2006-cı il) və "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" (25 avqust 2008-ci) Prezident Sərəncamları ilə təsdiq edilmiş və onların uğurla yerinə yetirilməsi ölkədə ətraf mühitin mühafizəsi sahəsində əldə olunan nailiyyətlərdəndir.

Azərbaycan Respublikası Prezidentinin müvafiq Fərmanları ilə təsdiq edilmiş regionların sosial-iqtisadi inkişaf Dövlət Proqramlarında da ekoloji məsələlər diqqətdən kənarda qalmamış, ölkədə ətraf mühitə mənfi təsir edən amillərin qarşısının alınması və ekoloji vəziyyətin yaxşılaşdırılması üçün, ölkə iqtisadiyyatının sürətli inkişafının ətraf mühitin mühafizəsi və təbii sərvətlərdən səmərəli istifadə problemlərinin həlli sahəsində bir sıra vacib tədbirlərin görülməsi nəzərdə tutulmuş, onların icrası ilə bağlı konkret vəzifələr qarşıya qoyulmuşdur.

Azərbaycan dövlətinin ekoloji siyasət strategiyası ciddi elmi müddəalara və davamlı inkişaf konsepsiyasına əsaslanan kompleks xarakterli sistemli fəaliyyət proqramıdır. Məlum olduğu kimi, Azərbaycan ümummilli səviyyədə davamlı inkişaf strategiyasını qəbul edən dövlətlərdən biridir. Məhz davamlı inkişafa keçidlə bağlı olaraq, artıq qeyd etdiyimiz kimi, ümummilli liderimiz Heydər Əliyevin özünün 18 fevral 2003-cü il tarixli Sərəncamı ilə davamlı inkişaf konsepsiyası prinsiplərinin ölkəmizdə həyata keçirilməsinə xidmət edən «Azərbaycan Respublikasında ekoloji cəhətdən dayanıqlı sosial-iqtisadi inkişafa dair» Milli Proqramı təsdiq etmişdir. Həmin Proqramda qarşıya qoyulan başlıca məqsəd Azərbaycan Respublikasında indiki və gələcək nəsillərin ehtiyaclarının təmin edilməsi naminə mövcud ekoloji sistemlərin, iqtisadi potensialın qorunmasından və təbii ehtiyatlardan səmərəli istifadə edilməsindən ibarət olmuşdur [4].

Ölkəmizdə ulu öndərimiz Heydər Əliyev tərəfindən təməli qoyulmuş ekoloji cəhətdən davamlı sosial-iqtisadi inkişafa keçid siyasəti məqsədyönlü şəkildə davam etdirilir. Bu baxımdan dövlətimizin ekoloji siyasətinin prioritetləri və istiqamətlərini davamlı inkişaf prinsipləri əsasında müəyyən edən «Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair Kompleks Tədbirlər Planının təsdiq edilməsi haqqında» Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 28 sentyabr 2006-cı il tarixli Sərəncamı olduqca əhəmiyyətli olmuşdur [4]. Təbii mühitə zərərli antropogen təsirlərin azaldılması, mövcud ekoloji problemlərin aradan qaldırılması istiqamətində kompleks tədbirlərin həyata keçirilməsinə yönələn Prezident Sərəncamında ekologiya sahəsindəki prioritetlər müəyyən olunmuş, bu prioritetlər, mövcud ekoloji durum və sosial-iqtisadi vəziyyət nəzərə alınaraq dövlətimizin ekoloji siyasətinin üç əsas istiqaməti müəyyənləşdirilmişdir:

– ekoloji təhlükəsizliyin təmin olunmasını əsas götürərək, ətraf mühitin çirklənməsinin minimuma endirilməsi və mühafizəsinin tənzimlənməsi məqsədilə davamlı inkişaf prinsipləri üzrə mütərəqqi üsulların tətbiq edilməsi;
– indiki və gələcək nəsillərin tələbatını ödəmək məqsədilə təbii sərvətlərdən səmərəli istifadə etməklə, alternativ, qeyri-ənənəvi metodlar vasitəsilə tükənməyən enerji mənbələrindən yararlanmaq və enerji effektivliyinə nail olunması;
– qlobal ekoloji problemlər üzrə milli səviyyədə tələbatların qiymətləndirilməsi, həlli yollarının müəyyənləşdirilməsi, beynəlxalq təşkilatlarla əlaqələrin genişləndirilməsi, eləcə də milli potensial imkanlardan istifadə etməklə həyata keçirilməsinin təmin edilməsi [30].

Bundan başqa Azərbaycan Respublikası Prezidentinin "Magistral avtomobil yollarının mühafizə zolaqlarının yaşıllaşdırılması haqqında" (30 oktyabr 2007-ci il, № 2471), "Azərbaycan Respublikasında yaşıllıqların salınması sahəsində idarəetmənin təkmilləşdirilməsi tədbirləri haqqında" (13 iyun 2008-ci il, № 2868), "Zooloji Parkın yaradılması haqqında" (26 dekabr 2008-ci il, № 109), "Xəzər dənizinin çirklənmədən qorunması üzrə bəzi tədbirlər haqqında" (20 iyun 2007-ci il, № 134), "Xəzər dənizinin çirklənmədən qorunması üzrə əlavə tədbirlər haqqında" (13 iyun 2008-ci il, № 2867), "Bakı şəhərinin yaşıllaşdırılması sahəsində əlavə tədbirlər haqqında" (03 aprel 2009-cu il, № 218) və digər Sərəncamları bu sahənin normativ-hüquqi tənzimlənməsinə yönəlmişdir.

Ekoloji duruma yoxsulluğun təsir etdiyini vurğulayan akademik R.Mehdiyev dünya təcrübəsini nəzərdən keçirərək göstərmişdir ki, kütləvi yoxsulluğun artması təkcə inkişafda olan ölkələrin sosial durumunda öz

əksini tapmır. Bu, həm də qlobal ekologiya sahəsinə də mənfi təsir edir. Çünki yoxsulluq bir çox ölkələrdə təbiətdəki tarazlığın pozulmasının həm səbəbi, həm də nəticəsidir [14, s.136]. Məhz bu amil nəzərə alınaraq ekologiya sahəsindəki prioritet istiqamətlər ölkə Prezidentinin 15 sentyabr 2008-ci il tarixli, 3043 nömrəli Sərəncamı ilə təsdiq olunmuş "2008-2015-ci illər üçün Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı"nda bir daha konkretləşdirilmişdir: meşə ehtiyatlarının davamlı idarə olunması; su ehtiyatlarının davamlı idarə olunması; torpaq ehtiyatlarının davamlı idarə olunması və səhralaşma proseslərinin qarşısının alınması; biomüxtəlifliyin davamlı idarə olunması; atmosfer havasının davamlı idarə olunması; alternativ enerji mənbələrindən istifadənin genişləndirilməsi, ekoloji maarifləndirmənin və məlumatlandırmanın gücləndirilməsi və s. [4].

Davamlı inkişaf onun iqtisadi, ekoloji və ictimai sütunlarının təməli olan "yaşıl" iqtisadiyyata (green economy) əsaslanır. BMT-nin 2012-ci ildə Rio-de-Janeyroda keçirdiyi beynəlxalq Forumda (Rio+20) "yaşıl" iqtisadiyyatın davamlı inkişafın təmin edilməsi üçün vacib alətlərdən biri olduğu qəbul edilmişdir. Azərbaycan Respublikasında müasir şəraitdə "yaşıl" iqtisadiyyatın inkişafının daha perspektiv istiqamətlərindən biri olan alternativ enerji mənbələrindən istifadə prioritet təşkil edir. Kifayət qədər alternativ və bərpa olunan enerji potensialına malik olan ölkəmizdə bu mənbələr hesabına dünya təcrübəsindən geniş istifadə etməklə yeni enerji güclərinin yaradılmasının təmin edilməsi məqsədilə 21 oktyabr 2004-cü il tarixli (№462) Prezident Sərəncamı ilə "Azərbaycan Respublikasında alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramı" təsdiq edilmişdir. Dövlət Proqramında Azərbaycanda alternativ (bərpa olunan) enerji potensialının növləri kimi külək, günəş, biokütlə, geoterminal enerji və kiçik su elektrik stansiyaları ayrılır. Burada göstərildiyi kimi, Azərbaycanın təbii iqlim şəraiti günəş enerjisindən istifadə etməklə elektrik və istilik enerjisini artırmağa geniş imkanlar açır. Bununla bağlı rəqəmləri nəzərdən keçirək: əgər il ərzində günəşli saatların miqdarı ABŞ-da və Orta Asiya ölkələrində 2500-3000 saat, Rusiyada 500–2000 saat olursa, Azərbaycanda 2400-3200 saat təşkil edir. Digər tərəfdən, Azərbaycan ərazisinə düşən günəş şüalarının miqdarı bir sıra digər ölkələrlə müqayisədə çoxdur ki, bu da günəş enerjisindən istifadənin tətbiqinə sərmayələrin cəlb edilməsinin səmərəlilik meyarlarından biri kimi qiymətləndirilə bilər. Qeyd olunanlara əsaslanaraq Dövlət Proqramında alternativ (bərpa olunan) enerji mənbələrindən istifadə edilməsi üzrə tədbirlər sırasında həmin mənbələrdən istifadənin qanunvericilik və normativ-hüquqi bazasının təkmilləşdirilməsi, beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqi, bu enerji mənbələrindən istifadənin stimullaşdırılmasını nəzərdə tutan tədbirlərin həyata keçirilməsi, bu sahə üzrə mütəxəssislərin hazırlanması və enerji istehlakçılarının maarifləndirilməsi istiqamətində işlərin aparılması və s. kimi tədbirlər nəzərdə tutulmuşdur [4].

Dövlət Proqramının yerinə yetirilməsi istiqamətində ölkəmizdə həyata keçirilmiş uğurlu addımlardan biri 16 iyul 2014-cü tarixində Suraxanı Günəş Elektrik Stansiyasının açılışı olmuşdur. Həmin stansiya alternativ və bərpa olunan enerji mənbələri üzrə Dövlət Agentliyi tərəfindən yaradılmış və 2020-ci ilə qədər ümumi enerji istehsalının 20 faizini çatdırmaq vəzifəsi qarşıya qoyulmuşdur. Artıq mövcud olan günəş stansiyalarının fəaliyyəti nəticəsində 4 milyon kvt/saatdan artıq elektrik enerjisi istehsal olunmaqla, 1 milyon 300 min kubmetrə yaxın təbii qaza qənaət edilib [15].

Bütövlükdə, Azərbaycanda "yaşıl" iqtisadiyyatın təmin edilməsi istiqamətlərinə "yaşıl" energetika ilə yanaşı, ekoloji cəhətdən təmiz nəqliyyat; "yaşıl" kənd təsərrüfatı və aqrosənaye kompleksi; "yaşıl" tikinti materialları istehsalları və "yaşıl" tikinti; ekoloji sahibkarlığın inkişafı; ekoloji menecment və audit; ekoloji sertifikatlaşdırma və markalanma; "yaşıl" statistika; "yaşıl" vergiqoyma və s. aid edilir [18]. Onu da qeyd etmək lazımdır ki, ölkəmizdə "yaşıl iqtisadiyyata" keçid mərhələsində ekoloji və iqtisadi tələblərə cavab verməyən çoxlu sayda müəssisələr bağlanmış, digərləri yenidən qurularaq modernləşdirilmiş və yeni aztullantılı texnologiyalar tətbiq olunmuşdur.

Davamlı inkişafın məqsədi kimi ekoloji sivilizasiyanın formalaşması çıxış edir. Müəllifi akademik Urxan Ələkbərov olan ekoloji sivilizasiya konsepsiyası ilk dəfə Azərbaycanda irəli sürülmüşdür. "Yaşıl" təfəkkür və "yaşıl" iqtisadiyyata əsaslanan ekoloji sivilizasiyanın əsas məqsədlərindən biri inkişafda müşahidə edilən iki mənfi tendensiyanın "gələcəksiz inkişaf" və "bərabərsizliklə müşahidə edilən inkişaf" ehtimalının qarşısının alınmasıdır. Hazırda ekoloji sivilizasiya anlayışı dünyada geniş yayılmaqdadır. Bir sıra ölkələrdə ekoloji sivilizasiyaya keçid dövlətlərin inkişaf strategiyasının vacib bir istiqaməti kimi qəbul edilmişdir. Hansısa ölkə, yaxud ərazinin ekoloji sivilizasiyaya keçidə hazırlığının qiymətləndirilməsi müxtəlif yollarla həyata keçirilə bilər. Onlardan biri hazırkı dövrdə birincisi ekoloji sivilizasiya əmsalının hesablanmasıdır. Bu əmsalın hesablanmasında əsas məqsəd cəmiyyətin yeni səviyyəyə keçməsi, əhalinin rifahının daim yüksəldilməsi, bu prosesin ətraf təbii və sosial mühitlə harmoniyada idarə edilməsi və sosial məsuliyyətli şəkildə həyata keçirilməsinə hazırlığın qiymətləndirilməsidir. Əmsalı hesablamaq üçün 8 müxtəlif göstəricidən istifadə olunur: demoqrafik göstəricilər; istehlakın xüsusiyyətləri; yaşıl iqtisadiyyat; üzvi kənd təsərrüfatı və qida məhsulları; sağlamlıq göstəriciləri; elm, təhsil və texnologiyalar; yoxsulluq; hüquqi mühit [11]. Azərbaycan Respublikası üçün, hesablamalara görə, ekoloji sivilizasiya əmsalı orta göstəricidən yüksək olmaqla 0.632 təşkil edir [10].

Azərbaycan Respublikasında çoxşaxəli dövlət siyasətini həyata keçirən ölkə Prezidenti İlham Əliyev ətraf mühitin qorunmasını hər bir ölkənin inkişafının vacib amillərindən birini təşkil etməsindən çıxış edir ki, bu da onun bu məsələyə konseptual yanaşmasını ifadə edir. Məhz bu yanaşmanın təzahürü olaraq dövlətimizin başçısı Nazirlər Kabinetinin 2009-cu ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş geniş iclasında 2010-cu ili Azərbaycanda "Ekologiya ili" elan etmiş və bununla da "Azərbaycan Respublikasında ekoloji situasiyanın yaxşılaşdırılmasına dair Kompleks Tədbirlər Planına (2006-2010-cu illər üçün)" müvafiq yerinə yetirilən böyük işlərin məntiqi davamı olmaqla, ölkədə genişmiqyaslı aksiyaların dünya birliyi tərəfindən planetimizin təbiətinin xilas olunmasına dair səyləri kontekstində keçirilməsinə start verilmişdir. 2010-cu il fevralın 18-də xüsusi olaraq ekoloji problemlərə həsr olunmuş müşavirədə Azərbaycan Prezidenti İlham Əliyev "Ekologiya ili"nin başlıca vəzifəsini müəyyən edərək göstərmişdir: "Əsas məsələ ondan ibarətdir ki, Azərbaycan dövlətinin bu işlərin görülməsi üçün ciddi və güclü iradəsi vardır... 2010-cu il Azərbaycan tarixində nəinki "Ekologiya ili" kimi qalacaq, bu il Azərbaycan tarixinə ekoloji vəziyyətin yaxşılaşdırılması üçün dönüş ili kimi yazılacaqdır" [25].

Aparılan təhlillər ölkəmizdə "Ekologiya ili"ndə dövlətimizin başçısı İlham Əliyevin rəhbərliyi altında ətraf mühitin sağlamlaşdırılmasına yönələn ardıcıl tədbirlərin həyata keçirilməsinin xüsusi əhəmiyyət kəsb etdiyini, digər tərəfdən isə, bu işlərin növbəti illərdə ölkədə davam etdirilməsi üçün olduqca əhəmiyyətli olduğunu göstərmişdir. Təqdirəlayiq haldır ki, "Ekologiya ili"ndə həyata keçirilən geniş tədbirlər bütövlükdə cəmiyyət üzvlərinin fəal və geniş iştirakı ilə keçmişdir. Dövlətimizin başçısı bu il əzində görülən işlərə yüksək qiymət verərək, bunu xüsusi olaraq vurğulamışdır: "Mən çox şadam ki, "Ekologiya ili" çərçivəsində həm dövlət tərəfindən böyük işlər görüldü, həm də özəl sektor bu işlərə qoşuldu. Ən sevindirici hal isə ondan ibarətdir ki, ölkə əhalisi də bu təşəbbüsə qoşularaq ekoloji vəziyyətin yaxşılaşdırılmasına öz dəyərli töhfələrini vermişdir" [26].

Bütövlükdə, 2010-cu il – "Ekologiya ili" davamlı və dinamik inkişaf edən ölkəmiz üçün əlamətdar və gələcəyə hesablanmış strateji xəttin təməlini təşkil edən bir il olmaqla, onun nəticələri mövcud ekoloji vəziyyətin mənzərəsində dönüş mərhələsi yaratmaqla, dövlətimizin ekoloji siyasətində prioritetlərin müəyyən edilməsi üçün zəmin olmuşdur.

Azərbaycan dövləti tərəfindən ekologiya və sağlamlığın qorunması məsələlərinə böyük diqqətin yetirilməsini ölkədə təbiətin mühafizəsinə çəkilən xərclərə dair statistik göstəricilər də təsdiq edir. Həmin məlumatların təhlili göstərir ki, bu xərclər on il ərzində – 2000–2013-cü illərdə 22 dəfə artırılaraq 18188,0 min manatdan 398188 min manata çatdırılmış (şəkil 3), sonrakı illərdə də bu tendensiya saxlanılmışdır [32].




*Şəkil 3.*

Çəkilən xərclərin istiqamətlərini aşağıdakılar təşkil etmişdir:

– ətraf mühitin mühafizəsi tədbirlərinin keçirilməsinə çəkilən cari xərclər;
– ətraf mühitin mühafizəsi üzrə əsas istehsal fondlarının əsaslı təmiri;
– qoruq və milli parklarının saxlanılması, vəhşi heyvanların, balıqların mühafizəsi və çoxaldılması;
– meşə təsərrüfatının əməliyyatları;
– ətraf mühitin mühafizəsinə və təbii resurslardan səmərəli istifadə üçün əsas kapitala yönəldilmiş vəsait;
– ÜDM-in hər min manatına düşən xərclər [32].

Ölkədə həyata keçirilən ekoloji tədbirlərin perspektiv əhəmiyyətinə toxunan Prezident İlham Əliyev bu sahəyə indiki və gələcək nəsillərin maraqları naminə çox böyük diqqət göstərildiyini qeyd edərək demişdir: “Bu elə sahədir ki, buraya qoyulan vəsaiti, bəlkə də, Azərbaycan iqtisadiyyatı da, vətəndaşları da görmürlər. Amma bunu həm indiki nəsillər, həm də gələcək nəsillər görəcək” [16, s.3].

Azərbaycan Respublikasının ekoloji siyasətinin reallaşmasında dövlətlə yanaşı onun digər aktorları kimi, həmçinin ictimai ekoloji birliklər də iştirak edir, onların azad fəaliyyəti üçün dövlətimiz tərəfindən ölkədə əlverişli şərait yaradılmışdır.

Azərbaycanın birinci xanımı, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın sədrliyi ilə 2004-cü ildən böyük uğurla fəaliyyət göstərən Heydər Əliyev Fondu digər sahələrlə yanaşı, ekologiya sahəsində də müxtəlif layihələr həyata keçirərək yeni cəmiyyət quruculuğunda fəal iştirak edir, ölkənin sosial-iqtisadi inkişafına öz töhfəsini verir. Fondun məqsədləri sırasında ekologiya sahəsində mühüm tədqiqatları dəstəkləmək, sağlam həyat tərzini təbliğ etmək məqsədi də yer almış və digər sahələrdə olduğu kimi, bu məqsədin reallaşması istiqamətində də məqsədyönlü və ardıcıl iş aparılır. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın rəhbərlik etdiyi IDEA (Ətraf Mühitin Mühafizəsi Naminə Beynəlxalq Dialoq) İctimai Birliyinin təşkil etdiyi layihələr də ekoloji mühitin qorunmasına xidmət edir. Bu baxımdan IDEA-nın uğurla keçirdiyi “Ümumrespublika Yaşıllaşdırma” marafonunu, “Eko Rəsm Gündəliyi 2014” beynəlxalq müsabiqəni, Heydər Əliyev Fondu ilə birlikdə həyata keçirilmiş “Ağacların kəsilməsinə yox” proqramını, Qafqaz Biomüxtəlifliyi Sammiti, “Hər kağızı bir yarpağa dəyişək” layihəsini, “Ətraf mühiti birgə qoruyaq” ekoloji tədris proqramını və bir sıra digər tədbirləri göstərmək olar [29].

Ölkəmizdə ətraf mühitin mühafizəsi sahəsində fəaliyyət göstərən vətəndaş cəmiyyətinin təmsilçiləri kimi həmçinin Azərbaycanda Regional İnkişaf Mərkəzini, Davamlı İnkişaf Cəmiyyətini, Ekoloji Proqnoz Milli Mərkəzi, Azərbaycan Yaşıllar Hərəkatını və bir sıra digər qeyri-hökumət təşkilatlarını göstərmək olar.

Bütövlükdə, Azərbaycanda ekoloji QHT-lərin fəaliyyət sahələrini biomüxtəlifliyin, heyvanların mühafizəsi, ətraf mühitin mühafizəsi sahəsində qanunyaradıcılıq fəaliyyəti, siyasət və təhsil, hava və suyun keyfiyyəti, ətraf mühitə təsirin qiymətləndirilməsi, su ehtiyatlarının mühafizəsi və idarə olunması, ekoturizm və s. sahələr təşkil edir. Təhlillər göstərir ki, ekoQHT-lər çalışırlar hakimiyyətlə münasibətlərini əməkdaşlıq və dialoq əsasında qursunlar ki, bunu da dövlətimiz tərəfindən mövcud sosial-ekoloji problemlərin həllində hakimiyyət və QHT-lərin partnyorluğuna üstünlüyün verilməsi ilə izah etmək olar.

QHT-lərlə yanaşı, ətraf mühitin mühafizəsi məsələlərinə Azərbaycanda mövcud olan bir sıra digər ictimai birliklərin, o cümlədən siyasi partiyaların fəaliyyətində də müəyyən yer verilir. Bu məsələlər ulu öndər Heydər Əliyevin sədrliyi ilə yaranmış, hazırda isə onun siyasi kursunu bütün istiqamətlərdə uğurla davam etdirən, ideyalarını gerçəkləşdirən layiqli varisi Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi altında dinamik şəkildə inkişaf edən və ölkədə ən geniş sosial bazaya malik olan siyasi partiya – Yeni Azərbaycan Partiyasının fəaliyyətində xüsusi yer tutur.

Ölkədə həlli vacib olan ekoloji problemlərin ictimaiyyətin, qeyri-hökumət təşkilatlarının iştirakı ilə aradan qaldırılması məqsədilə 2010-cu ildən Ekologiya və Təbii Sərvətlər Naziri yanında İctimai Ekoloji Şura fəaliyyət göstərir. Şuranın fəaliyyətinin əsas istiqamətlərinə ətraf mühitin mühafizəsi, ekoloji təhlükəsizlik və təbiətdən səmərəli istifadə olunması sahələri üzrə ictimaiyyətin fikrini öyrənməklə, təkliflər, proqramlar, normativ-hüquqi aktların layihələrini hazırlamaq; əhalinin ekoloji şüurunun formalaşması istiqamətində təbliğat aparmaq; ətraf mühitin mühafizəsi sahəsində qeyri-hökumət təşkilatları və beynəlxalq təşkilatlarla əməkdaşlıq etmək; ətraf mühit üzrə informasiya fondunun genişləndirilməsi, onun məqsədyönlü istifadəsinin təmin olunmasına dair təkliflər vermək və ətraf mühitlə bağlı digər birgə tədbirlərin həyata keçirilməsi daxildir. Vətəndaş cəmiyyəti təmsilçiləri və müstəqil ekspertlər üçün açıq olan Şuranın Ekologiya və Təbii Sərvətlər Nazirinin sədrliyi ilə mütəmadi olaraq iclasları keçirilir, həlli vacib olan məsələlər müzakirə olunaraq müvafiq qərarlar qəbul olunur [6, 30].

Azərbaycan Respublikası beynəlxalq münasibətlərin layiqli subyekti olaraq, digər sahələrdə olduğu kimi, ətraf mühitin mühafizəsi və təbii resurslardan səmərəli istifadə sahəsində də beynəlxalq əməkdaşlıqda fəal iştirak edir ki, bu da dövlətimizin ekoloji siyasətinin vacib istiqamətini təşkil edir. Azərbaycan Respublikası bu günə kimi 20-dən artıq ekoloji konvensiyaya qoşulmuş, müvafiq protokollar imzalamış, bir sıra mühüm beynəlxalq tədbirlərin təşkilatçılığını həyata keçirmişdir. Azərbaycanın bu sahədə beynəlxalq əməkdaşlıqda iştirakı istiqamətləri kimi, birincisi, beynəlxalq konvensiyalar və sazişlərin hazırlanmasında iştirakı və onların

yerinə yetirilməsini, ikincisi, ikitərəfli əməkdaşlığı, üçüncüsü, beynəlxalq təşkilatlarla aparılan işi və bu sahədə beynəlxalq layihələrin həyata keçirilməsində iştirak etməsini göstərmək olar.

Göründüyü kimi, Azərbaycanın müasir sürətli inkişaf mərhələsində Prezident İlham Əliyevin rəhbərliyi altında dövlətimiz davamlı inkişaf prinsiplərinə əsaslanan ardıcıl və məqsədyönlü ekoloji siyasət həyata keçirir. Heç təsadüfi deyil ki, ABŞ-ın Yel Universiteti nəzdindəki Ekoloji Siyasət və Hüquq Mərkəzinin (Yale Center for Environmental Law and Policy) metodikası üzrə keçirilmiş tədqiqatın 2016-cı ildə açıqlanmış yekunlarına əsasən Ekoloji səmərəlilik indeksi üzrə dünya ölkələrinin reytinq siyahısında Azərbaycan MDB ölkələri arasında birinci olaraq 180 ölkə içərisində 83,78 indeksi ilə 31-ci yeri tutmuşdur ki, bu da ölkəmizdə ekoloji siyasətin səmərəli şəkildə aparıldığını bir daha təsdiq etməklə, onun ekoloji problemlərin aradan qaldırılması və səmərəli dövlət idarəetməsi sisteminin yaradılması təcrübəsi beynəlxalq ictimaiyyətin diqqətini cəlb etmiş və başqa sahələrdə olduğu kimi, ətraf mühitin mühafizəsi sahəsində də beynəlxalq miqyasda nüfuzunun artmasına gətirib çıxarmışdır. Müqayisə üçün göstərmək olar ki, burada MDB ölkələrindən Rusiya Azərbaycandan sonrakı yeri tutmaqla 32-ci (indeks – 83,52), Belarus 35-ci (indeks – 82,30), Qazaxıstan 69-cu (indeks – 73,29) yerlərdə, inkişaf etmiş ölkələrdən isə ABŞ 26-cı (indeks – 84,72), Almaniya 30-cu (indeks – 84,26) yerlərdədirlər. Türkiyə bu siyahıda 99-cu (indeks – 67,630), İran 105-ci (indeks – 66,32), Çin isə 109-cu (indeks – 65,10) olmuşlar [17].

Müasir mərhələdə Azərbaycanda Prezidenti İlham Əliyevin 29 dekabr 2012-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan-2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyasında müəyyən olunmuş hədəflərə müvafiq olaraq ölkəmizdə uğurla reallaşan innovativ inkişaf strategiyası çərçivəsində ekoloji cəhətdən dayanıqlı sosial-iqtisadi inkişafa nail olunması istiqamətində nəzərdə tutulan tədbirlər məqsədyönlü şəkildə həyata keçirilir. Bu sahədə növbəti illərdə görüləcək işlər Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən "Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılması və təbii sərvətlərdən səmərəli istifadəyə dair 2015-2020-ci illər üçün Tədbirlər Planı"nın layihəsində müəyyənləşdirilmiş və hazırlanmış həmin layihə hökumətə təqdim edilmişdir. Dövlət Proqramının hazırlanması zamanı beynəlxalq təcrübədən istifadə edilmiş, davamlı inkişafın əsasını təşkil edən "yaşıl iqtisadiyyat" konsepsiyasının müddəaları əsas götürülmüş, qısa və uzunmüddətli strategiyalar ümumi iqtisadi inkişaf göstəriciləri ilə uzlaşdırılmaqla gözlənilən risklər nəzərə alınmışdır [7].

Dövlət başçımız Nazirlər Kabinetinin 2015-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına həsr olunan iclasında söylədiyi nitqində ekoloji tədbirlərin daim aparılmasını bu sahədə qarşıda duran başlıca vəzifə kimi müəyyən edərək, xüsusi olaraq ağacəkmə siyasətinin kampaniya kimi deyil, bir proses kimi həyata keçirilməsini qarşıya vəzifə olaraq qoymuş, xüsusilə də Bakıda və Abşeron yarımadasında çirklənmiş ərazilərin, o cümlədən Böyükşor, Zığ göllərinin təmizlənməsinin davam etdirilməsini, bu sahədəki layihələrin icra edilməsinin, ekoloji tədbirlərin həyata keçirilməsi üçün dövlət büdcəsindən vəsaitin ayrılmasının vacibliyini vurğulamışdır [27].

Beləliklə, müasir mərhələdə Azərbaycanda Prezident İlham Əliyevin rəhbərliyi altında aparılan ekoloji siyasət geniş vüsət almaqla dövlət idarəçiliyinin bütün sahələrini əhatə edən kompleks bir mexanizmə çevrilmişdir. Ən başlıcası odur ki, respublikamızda digər sahələrdə olduğu kimi, ətraf mühitin mühafizəsi sahəsində də dövlət siyasətinin reallaşmasına dövlət başçımız İlham Əliyev tərəfindən bilavasitə rəhbərlik və nəzarət edilir və bu baxımdan Prezidentin sədrliyi ilə ekoloji məsələlərə həsr olunmuş xüsusi müşavirələrin keçirilməsi təcrübəsi olduqca əhəmiyyətli olmaqla öz səmərəsini verir. Təhlillər əsasında dövlətimizin müasir dövrdə məqsədyönlü şəkildə həyata keçirdiyi ekoloji siyasətin xüsusiyyətləri kimi aşağıdakıları göstərmək olar:

- birincisi, bu siyasətin reallığa əsaslanması, dinamikliyi, kompleks xarakterli olması və elmi-konseptual əsaslara söykənməsi;
- ikincisi, onun davamlı inkişaf konsepsiyasına əsaslanmaqla, ölkədə ekoloji sivilizasiyanın formalaşması məqsədinin reallaşmasına istiqamətlənməsi;
- üçüncüsü, ətraf mühitin mühafizəsinin iqtisadi mexanizminin təkmilləşdirilməsini nəzərdə tutması;
- dördüncüsü, bu siyasətin ekoloji modernləşmə və "yaşıl" iqtisadiyyatın inkişafına, eləcə də bu sahədəki dövlət idarəçiliyi sisteminin modernləşməsinə yönəlməsi və s.

Göründüyü kimi, müstəqilliyinin 25 ilini böyük uğurlarla qeyd edən, davamlı sosial-iqtisadi və innovativ inkişaf yolunda əldə etdiyi yüksək nailiyyətləri ilə dünya dövlətləri arasında layiqli yer tutan müstəqil Azərbaycanda ətraf mühitin mühafizəsinə böyük əhəmiyyət və diqqət verilir, bu sahədə dünya təcrübəsi, elmi nailiyyətlər nəzərə alınaraq müasir dövrün ekoloji çağırışlarına tam cavab verən, özünün universallığı, sistemliliyi, elmiliyi, beynəlxalq əmədaşlığa açıqlığı ilə digər ölkələr üçün də örnək ola biləcək ekoloji siyasət strategiyası həyata keçirilir və bu siyasət sosial-iqtisadi inkişaf siyasəti ilə paralel və vəhdətdə aparılır.

Azərbaycanın indiki inkişaf mərhələsində dövlətimizin başçısı İlham Əliyevin bu sahədə müəyyən etdiyi prioritetlərə müvafiq olaraq qarşıda duran başlıca vəzifələrin birincisi, ölkədə ardıcıl və məqsədyönlü şəkildə aparılan ekoloji siyasətin, onun çərçivəsində bu sahədə reallaşan dövlət idarəçiliyinin səmərəliliyinin daha da artırılması, ikincisi, "yaşıl iqtisadiyyat"ın inkişaf etdirilməsi və ətraf mühitin çirklənməsinin qarşısını alan texnoloji proseslərin modernləşdirilməsi, üçüncüsü,

vətəndaşların bu sahədəki proseslərin birbaşa və daha fəal iştirakçısına çevrilməsi və s. ibarət olduğunu göstərmək olar. Bu sahədəki beynəlxalq əməkdaşlıq çərçivəsində hər bir ölkə, əlbəttə, özünün milli maraqlarından çıxış eməklə, dünyada baş varən ekosiyasi proseslər kontekstində birgə fəaliyyətin konkret prinsiplərinin razılaşdırılması ilə biosferə antropogen təzyiqin aşağı salınmasına öz töhfəsini verməlidir. Qlobal səviyyədə bu təsirin aşağı salınması meyarları və indikatorların dəqiqləşdirilməsi də vacibdir. Bütün bunlar isə, bütövlükdə, indiki və gələcək nəsillərin maraqlarına, onların sağlamlıq və rifahına xidmət edir.

**Ədəbiyyat:**


1. Azərbaycan Respublikasının Konstitusiyası, Bakı, 2012.
2. Azərbaycan Respublikasının "Milli təhlükəsizlik haqqında" Qanunu. 29 iyun 2004-cü il.
3. Azərbaycan Respublikasının Milli təhlükəsizlik Konsepsiyası // Azərbaycan" qəzeti, 24 may 2007-ci il.
4. Azərbaycan Respublikası Prezidentinin Fərman və Sərəncamları //http://president.az/documents
5. Azərbaycan Prezidenti İlham Əliyev Bakı Bərk Məişət Tullantılarının Yandırılması Zavodunun açılışında iştirak etmişdir // http://www.president.az/articles/6875
6. Bağırov H. Azərbaycanda ekoloji problemlərin həlli istiqamətində irəliləyişlər // Dövlət idarəçiliyi.-2014.-№ 1(45).-S.105-116.
7. Bağırov H. Müasir Azərbaycanın balanslaşdırılmış davamlı ekoloji inkişaf strategiyası. 12.05.2015 // http://xalqqazeti.com/az/news/politics/ 57091
8. Bağırov H. Azərbaycanın ekoloji təhlükəsizlik konsepsiyası davamlı inkişafa hədəflənmiş yeni yanaşmaları özündə ehtiva edir //Səs.-2016.-20 may//http://eco_m5_3.pdf
9. Əliyev H. Müstəqilliyimiz əbədidir. 47 cilddə. 38-ci kitab (mart, 2002 – may, 2002). Bakı, Azərnəşr, 2011, 480 s.
10. Ələkbərov U., İmanov Q. Ekoloji sivilizasiya indeksi: konsepsiya və ilk tətbiq (ing.dilində) // İnsan və biosfer (MaB, UNESCO). Azərbaycan Milli Komitəsinin əsərləri. Bakı, «Təhsil», 2011. 360 səh.
11. Ələkbərov U. Davamlı insan inkişafı və ekoloji sivilizasiyanın əsasları. Ali məktəblər üçün dərslik. Bakı, "Təhsil", 2013. S.136, 140-141.
12. Dövlət Neft Kompaniyası Ekologiya İdarəsinin cari arxivi.
13. Ekologiya və Təbii Sərvətlər Naziri H.Bağırovun müsahibəsi //http://bakupost.az/siyaset/20120519034243419.html
14. Mehdiyev R.Azərbaycan: Qloballaşma dövrünün tələbləri. Bakı: Yeni Nəşrlər evi, 2005.
15. Suraxanı Günəş Elektrik Stansiyası açılıb // http: // www. marja.az
16. "Xalq qəzeti", 23 aprel 2009-cu il, səh.3.
17. Индекс экологической эффективности. Рейтинг стран мира по уровню экологической эффективности //http://gtmarket.ru/ratings/environmental-performance-index/info
18. Краткое исследование рамочных условий для развития «зеленой» экономики в Республике Азербайджан // «Правовые основы развития «зеленой» экономики в странах-членах ЧЭС».Стамбул, 4 декабря 2012 года.
19. Тураев В.А. Глобальные вызовы человечеству. Учебное пособие.М.:Логос, 2002.192 с.
20. Шуленина Н.В. К вопросу об определении понятия «экологическая политика» // Вестник Российского университета дружбы народов. – Серия: Политология. – 2006. – № 8 – С. 51–63.
21. http://heydaraliyev.elibrary.az/toplu/nitq/1996.pdf
22. http://heydaraliyev.elibrary.az/toplu/nitq/2000.pdf
23. http://www.elibrary.az/docs/ialiyev/2005.pdf
24. http://www.elibrary.az/docs/ialiyev/2006.pdf
25. http://www.elibrary.az/docs/ialiyev/2010.pdf
26. http://www.elibrary.az/docs/ialiyev/2011.pdf
27. http://www.elibrary.az/docs/ialiyev/2015.pdf
28. http://www.heydar-aliyev-foundation.org/az/content/blog/55
29. http://ideacampaign.org/az
30. http://www.eco.gov.az
31. http://eco.gov.az/az/14-19-05-2015
32. http://www.stat.gov.az/source/environment/

**Açar sözlər:** *Azərbaycan Respublikası, ekoloji siyasət, ekoloji siyasət strategiyası, müasir mərhələ, davamlı inkişaf, nailiyyətlər*

**Ключевые слова:** *Азербайджанская Республика, экологическая политика, стратегия экологической политики, современный этап, устойчивое развитие, достижения*

**Key words:** *the Republic of Azerbaijan, environmental policy, strategy of environmental policy, modern stage, sustainable development, progress*

**СЕВИЛЬ МАМЕДОВА**

***Доцент кафедры политологии и политического управления Академии Государственного Управления при Президенте Азербайджанской Республики, доктор философии по философии***

## СОДЕРЖАНИЕ И НАПРАВЛЕНИЯ РЕАЛИЗАЦИИ ЭКОЛОГИЧЕСКОЙ ПОЛИТИКИ НЕЗАВИСИМОГО АЗЕРБАЙДЖАНСКОГО ГОСУДАРСТВА

### РЕЗЮМЕ

В статье анализируются сущность экологической политики государства, стратегия экологической политики основоположника независимого Азербайджанского государства, Общенационального лидера Гейдара Алиева, аргументированно обосновывается успешное продолжение этого политического курса на качественно новом уровне его достойным преемником, Президентом Азербайджанской Республики Ильхамом Алиевым. Исследуется содержание и механизм реализации экологической политики независимого Азербайджана на современном этапе в условиях устойчивого развития, подробно раскрываются ее основные направления и успехи, достигнутые в данной сфере, рассматриваются перспективы.

**SEVIL MAMMADOVA**

***Ph.D, assistant professor of political Science and Political administration Department of the Academy of Public Administration under the President of the Republic of Azerbaijan***

## CONTENTS AND MECHANISM OF REALIZATION OF ENVIRONMENTAL POLICY OF THE INDEPENDENT REPUBLIC OF AZERBAIJAN

### SUMMARY

The article analyzes the essence of environmental policy of the state, the strategy of environmental policy of the founder of the independent Azerbaijani state, the National leader Heydar Aliyev, successful continuation of this political policy at qualitatively new level with his worthy successor, the President of the Republic of Azerbaijan Ilham Aliyev. It investigates contents and the mechanism of realization of environmental policy of the Republic of Azerbaijan at the present stage in the conditions of sustainable development, reveals its main directions, features and success achieved in this sphere, and considers prospects.

**SAKİT ƏLİYEV**

*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının elmi katibi, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent*

# MÜSTƏQİL AZƏRBAYCANDA DEMOKRATİK VƏ İSLAM DƏYƏRLƏRİ VƏHDƏTİNİN FORMALAŞMASI

Azərbaycanda müstəqillik əldə edildikdən sonrakı 25 il ərzində vətəndaş cəmiyyətinin, hüquqi-demokratik dövlət quruculuğunun inkişafı və formalaşdığı bir şəraitdə dini etiqad azadlığı, eləcə də dini dəyərlərə hörmət hər bir vətəndaşın konstitusiya hüquqlarının ayrılmaz tərkib hissəsinə çevrildi.

Ümummilli lider Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlişindən sonra ölkəmizdə din və etiqad azadlığı tam təmin edildi, milli-mənəvi dəyərlərə münasibət kökündən dəyişdi, dini ayin və mərasimlərin yerinə yetirilməsi üçün bütün dinlərə mənsub olan insanlara bərabər və əlverişli şərait yaradıldı.

Ümummilli lider Heydər Əliyev multikulturalizmi, milli və dini tolerantlığı Azərbaycan dövlətinin demokratik inkişaf prinsiplərinin tərkib hissəsinə çevirdi. Multikulturalizmin, milli və dini tolerantlığın demokratik prinsipləri Azərbaycan Respublikasının Konstitusiyasının demokratik prinsiplərində öz əksini tapdı. Heydər Əliyev ölkəmizdə multikultural və tolerantlıq dəyərlərin mövcud olduğunu, Azərbaycan xalqının və dövlətinin bu dəyərlərə hörmət və qayğı ilə yanaşdığını bildirərək demişdir: “Azərbaycan çoxmillətli dövlətdir. Respublikamızda bir çox millətlər əsrlər boyu birlikdə yaşayırlar. Bildiyiniz kimi, Azərbaycanda İslam dini ilə yanaşı, xristianlıq və iudaizm dinləri də var və onlar bir-biri ilə çox mehriban şəraitdə fəaliyyət göstərirlər. Biz bunu bəyan etmişik. Azərbaycanın Prezidenti kimi mən dəfələrlə qeyd etmişəm ki, ölkəmizin vətəndaşları dini, irqi mənsubiyyətindən, siyasi baxışlarından asılı olmayaraq eyni hüquqlara malikdirlər və onların hüquqları Azərbaycan dövləti tərəfindən qorunur. Əmin ola bilərsiniz ki, biz bu prinsiplərimizə daim sadiq qalacağıq və Azərbaycan vətəndaşlarının din, dil mənsubiyyətindən və siyasi baxışlarından asılı olaraq bir-biri ilə münaqişəyə girməsinə gələcəkdə də yol verməyəcəyik”. (1.s.387)

Azərbaycan polietnik bir ölkədir. Onun ərazisində minilliklər ərzində çoxlu sayda xalqlar dinc və mehriban şəkildə birgə yaşamışlar və indi də yaşayırlar. Onlar Azərbaycanın dar günündə bir-birilərinə arxa olaraq düşmənə qarşı birgə mübarizə aparmış, dinc şəraitdə isə öz təsərrüfatlarını və mədəniyyətlərini inkişaf etdirmişlər. Azərbaycanda yaşayan bu xalqlar içərisində çoxluq təşkil edən və həmişə aparıcı olan azəri türkləri sayının çoxluğundan, azlığından asılı olmayaraq onunla yanaşı yaşayan xalqların və etnik toplulukların dinlərinə, dillərinə adət-ənənələrinə, mədəniyyətlərinə çox hörmətlə yanaşmış və inkişaf etdirilməsinə şərait yaratmışdır. Məhz bunun nəticəsidir ki, xınalıq, buduq, udin kimi etnik qruplar, talış, kürd, ləzgi və s. kimi xalqlar minilliklər ərzində öz dillərini, adət-ənənələrini, mədəniyyət və mənəviyyatlarını qoruyub saxlaya bilmişlər. Bu da təsadüfi deyil ki, bu, Azərbaycanda çoxluq təşkil edən azəri türklərinin humanist təbiətindən və milli xarakterindən, özləri ilə bərabər yaşayan başqa xalqların azadlığına, milli-mənəvi dəyərlərinə olan hörmətindən irəli gəlir.

Azərbaycan milləti xaraktercə sülhsevər, təbiətcə mülayim və həlim bir millət olduğuna görə tarixən o, qonşu xalqlarla həmişə dostluğa, əməkdaşlığa, dinc və sülh şəraitində yaşamağa daha çox üstünlük vermişdir.

Buna görə də Azərbaycanda multikulturalizm və dini tolerantlıq tarixi köklərə malik olmuş və əsrlər boyu bu bəşəri dəyərlər qorunaraq nəsillərdən nəsillərə ötürülmüşdür.

Ancaq çox təəssüf ki, tarixdə istisnalar da olur. Erməni xalqı da Azərbaycan ərazisində başqa xalqlarla birlikdə yaşamış, Azərbaycan dövləti onları himayə edərək qorumuşdur. Buna baxmayaraq, ermənilər həmişə Azərbaycanın dar günündə ona arxadan zərbə vurmuş və xəyanət etmişdir. Ermənilərin tarixən Azərbaycana qarşı törətdikləri xəyanətlərə, cinayətlərə və vəhşiliklərə baxmayaraq, xeyirxah Azərbaycan milləti hətta vaxtilə (1918-ci ildə) dövləti və torpağı olmayan bu nankor xalqa dövlət qurmaq üçün öz ərazisindən “pay” da vermişdir. Onlar isə öz çirkin əməllərindən, bəd niyyətlərindən əl çəkməyərək, xəstə təxəyyüllərinin əsirinə düşərək xaincəsinə ərazimizə təcavüz etdilər, kəndləri, şəhərləri, mədəniyyət abidələrini dağıdaraq məhv etdilər, insanlığa yaraşmayan vəhşiliklər törətdilər. Qocaları qadınları, uşaqları vəhşicəsinə qətlə yetirdilər, yüz minlərlə günahsız insanları öz doğma yurdlarından didərgin saldılar.

Onların tarixən etdikləri bütün bu xəyanətlərə baxmayaraq, yenə də hazırda Azərbaycan dövlətinin Prezidenti cənab İlham Əliyev və sülhsevər millətimiz təcavüzkar Ermənistan dövlətinin işğal etdikləri torpaqlarımızdan sülh yolu ilə çıxarılmasına, onlarla dinc qonşuluq şəraitində yaşamağa daha çox üstünlük verir.

Akademik Ramiz Mehdiyev yazır: "Suveren Azərbaycan dövlətinin ərazisində ənənəvi olaraq çoxsaylı xalqlar və milli azlıqlar (o cümlədən ermənilər), habelə müxtəlif konfessiyaların nümayəndələri yaşayır. Xalqımız ta qədimdən genişürəkli və humanist olması ilə səciyyələnir. Multikulturalizm müasir Azərbaycanın dövlət siyasətidir" (7, s. 3).

Ümummilli lider Heydər Əliyev "Beynəlxalq Tolerantlıq Günü" kimi qeyd olunan 16 noyabr 1999-cu ildə din xadimləri ilə görüş zamanı demişdir: "Siz bilirsiniz ki, BMT və UNESKO təşkilatı 1995-ci ildə özünün qərarı ilə noyabrın 16-nı dünyada dözümlülük günü, səbirlilik, tolerantlıq günü elan etmişdir. XX əsrin sonunda demokratiklik prosesinin Yer kürəsinin bir çox ölkələrini əhatə etdiyini və insan hüquqlarının mühüm amil kimi ön plana çəkildiyini nəzərə alsaq, bu, çox vacib qərardır. Bu münasibətlə də mən istərdim sizinlə görüşüm, ölkəmizdə bu məsələnin nə vəziyyətdə olduğunu, qısaca da olsa, birlikdə təhlil edək, mən sizi dinləyim və öz fikirlərimi deyim: Bildiyimiz kimi tolerantlıq, dözümlülük çox geniş anlayışdır. O, həm insani münasibətlərin, həm insan cəmiyyətində gedən proseslərin, həm də dövlətlərarası münasibətlərin bir çox cəhətlərinə aiddir" (2. s.116).

Akademik Ramiz Mehdiyev ölkə əhalisinin tərkibində üstünlük təşkil edən türkdilli azərbaycanlılarda etnik dözümsüzlük xüsusiyyətinin olmadığını deyərək yazır: "Dözümsüzlük, başqa sözlə, etnofobiya, fərdi və kütləvi şüurun ətrafındakı fərqli milli kimlik daşıyıcılarına qarşı düşmənçilik, təcavüzkarlıq kimi xüsusiyyətləri Azərbaycan cəmiyyətinə yaddır… Mədəni və etnik birliyə nail olmayan dövlət tolerantlıq olmadan sabitliyini təmin edə və normal inkişaf edə bilməz. Tolerantlıq yüksək mənəviyyatın və əxlaqi mədəniyyətin təzahürüdür. Bu xüsusiyyət polietnik cəmiyyətdə müxtəlif baxışların, sosial əhvali-ruhiyyənin, fərqli ideya və dünyagörüşlərinin tarazlaşdırılması üçün zəruri olan sosial mexanizm kimi formalaşır. Tolerantlıq ziddiyyətlərin olub-olmamasından asılı olmayaraq, sosiumun mövcudluğu zərurətinin nəticəsidir. Tolerantlığın fenomeni etnik millətçiliyə qarşı dayanmasındadır. Tolerantlıq cəmiyyətin mənəvi, sosial və milli birliyini təmin edən dövlət mövqeli millətçiliyə qarşı dayanmır. Tolerantlıq ictimai həyatın strukturundakı sosial gərginliyin və diskomfortun katalizatoru olan meyilləri dağıdır" (6.s.146-147)

Ancaq bu gün dini, milli-mənəvi və mədəni dəyərlərin inkişafı üçün yaradılan əlverişli şəraitdən istifadə edən qüvvələr müxtəlif təriqətləri təbliğ edərək yaymağa cəhd göstərirlər. Bu da ondan irəli gəlir ki, vaxtilə ateizmin dövlət siyasəti olduğu sovet cəmiyyəti dağıldıqdan sonra yaranan dini-mənəvi boşluğu ilk növbədə xristian və İslam dinlərinə məxsus olan müxtəlif missioner təriqətləri doldurmağa başladı. Konstitusiyanın verdiyi dini etiqad azadlığından istifadə edərək din pərdəsi altında fəaliyyət göstərən xristian missionerlərinin respublikanın müsəlman əhalisinin xristianlaşdırılması, İslam missioner təriqətlərinin isə gələcəkdə dini dövlət və cəmiyyət yaratmaq kimi fəaliyyətləri ciddi narahatlıq doğurmağa başladı.

Yarana biləcək bu təhlükələrin qarşısının alınması və aradan qaldırılmasında dini dəyərlərlə demokratik dəyərlərin qarşılıqlı əlaqəsinin elmi cəhətdən izahının verilməsinin böyük əhəmiyyəti vardır. Demokratik dəyərlərlə İslam dini dəyərlərinin qarşılıqlı vəhdəti XX əsrin əvvəllərində Əli bəy Hüseynzadənin tezis şəklində irəli sürdüyü məşhur «Bizə fədai lazımdır: Türk hissiyyatlı, İslam etiqadlı, Avropa qiyafəli fədai!» – fikrinin «türkləşmək, islamlaşmaq, müasirləşmək» şəklində düstur halına gətirilməsi nəticəsində reallaşdı ki, məslək və əxlaq vəhdətini mükəmməl ifadə etdiyinə görə müstəqil Azərbaycan Xalq Cümhuriyyətinin rəsmi dövlət bayrağında mavi, yaşıl, qırmızı rənglərlə simvolizə edilmişdir» (10. s.14)

İslam dəyərlərinin Azərbaycanda demokratik idarəetmənin təkmilləşməsinə təsir edən başlıca amillərdən biri cəmiyyətdə geniş maariflik işlərinin aparılmasıdır. Təriqətçi missionerlərin təbliğatçılıq fəaliyyətinin təsiri altına ən çox yeniyetmə və gənclər düşür. Bu da onların məsələnin həqiqi mahiyyətini dərk etməmələrindən irəli gəlir. Buna görə də orta və ali təhsil ocaqlarında İslam dini dəyərləri ilə bağlı fənlərin tədris olunması olduqca vacibdir. Milli və dini tolerantlığın təbliği dövrün və zamanın mühüm və zəruri tələbidir.

Müsəlman aləmində qadının hüquqsuz olmasına, onun cəmiyyətin və dövlətin idarəsində iştirakının məhdud olmasına baxmayaraq, Azərbaycan qadınının həmişə cəmiyyət və dövlət həyatında mühüm yeri olmuşdur. Bu da Azərbaycan millətinin müsbət milli keyfiyyətindən irəli gəlir.

Azərbaycanın dövlətçilik işlərində və ictimai həyatında qadınların böyük missiyası olmuş və bu ənənə bu gün də davam etməkdədir. Qadınlar qədim dövrlərdən ailənin, cəmiyyətin və dövlətin idarə olunması işlərində cəmiyyətin başqa üzvləri ilə bərabər olaraq yaxından iştirak etmişlər. Onlar həm ailədə, həm də cəmiyyətdə böyük nüfuza malik olmuşlar.

Azərbaycan tarixində hökmdarların əksəriyyəti dövlətin idarə olunmasında həmişə ya anaları ilə, ya da ağıllı və tədbirli xanımları ilə məsləhətləşiblər. Azərbaycan tarixində düşmən üzərində qələbə çalan qəhrəman qadınlarımız çox olub. Massaget tayfalarının hökmdarəsi Tomiris ölkəsini düşməndən qoruyaraq Əhəməni imperiyasının hökmdarı II Kirin üzərində şanlı qələbə çalmış, Azərbaycan Eldənizlər dövlətinin yaradıcısı Atabəy Şəmsəddin Eldənizin nüfuz qazanmasında xanımı Möminə Xatunun əhəmiyyətli rolu olmuş, Eldənizlər dövlətinin digər hökmdarı Məhəmməd Cahan Pəhləvanın xanımı Zahidə Xatun Təbrizin müdafiəsini təşkil edərək düşməndən qorumuş, Azərbaycanın ilk diplomat qadını Sara Xatun Ağqoyunlular dövlətinin idarə olunmasında oğlu Uzun Həsənə yaxından köməklik göstərmiş, Gəncə xanı Cavad xanın xanımı Böyük-

xanım əri Cavad xan və oğlu Hüseynqulu ağa ilə birlikdə rus ordusuna qarşı rəşadətlə döyüşmüş, Quba xanı Fətəli xanın xanımı isə Dərbəndin müdafiəsini təşkil edərək düşməni şəhərə buraxmamışdır və s. Mədəniyyət və incəsənət sahələrində də hələ öz dövrlərində tanınmış və hörmət qazanmış Məhsəti Gəncəvi, Heyran xanım, Xurşidbanu Natəvan və digər görkəmli Azərbaycan şairə qadınları müxtəlif dövrlərdə Azərbaycan mədəniyyətinin inkişafına əhəmiyyətli dərəcədə təsir göstərmişlər. Azərbaycan dövlətçiliyinin, ictimai-siyasi, mənəvi və mədəni həyatının inkişafında böyük xidmətləri olan bir çox digər görkəmli Azərbaycan qadınları da özlərinin ağıllı və müdrik məsləhətləri ilə cəmiyyətin və dövlətin idarə edilməsində yaxından iştirak etmiş və xalqın çətin günlərində onlara dayaq olmuşlar.

Keçmiş sovet imperiyası dövründə totalitar rejimin mövcud olmasına baxmayaraq, qadınlara kişilərlə bərabər hüquq verilmiş və qadınlar dövlət və cəmiyyət həyatında fəal iştirak etmişlər. Elm, mədəniyyət, incəsənət, təhsil, səhiyyə, təsərrüfat və sənaye sahələrində qadınların əhəmiyyətli dərəcədə rolu artmışdır. Belə ki, Azərbaycan qadınının cəmiyyət və dövlət həyatında yaxından iştirakının tarixi köklərə malik olması və ənənəyə çevrilməsi hazırda Azərbaycanda demokratikləşmə prosesinə əhəmiyyətli dərəcədə müsbət təsir göstərir. Bütün bunların hamısı İslamda qadına olan hörmət və sayğıdan irəli gəlir. Ümumiyyətlə, Qərb demokratik dəyərləri ilə İslam dəyərlərini bir-birinə yaxınlaşdıra biləcək çoxlu amillər vardır.

Ancaq buna baxmayaraq, müasir İslam ölkələrinin əksəriyyətində insan haqlarının vəziyyəti dözülməzdir. Buna görə də hazırda bu ölkələrdəki insan haqlarının vəziyyəti demokratik dünya birliyini ciddi narahat edir. Bir sıra müsəlman ölkələrində, xüsusilə də Əfqanıstan, İran, İraq, Liviya, Suriya, Yəmən və başqa ölkələrdə qeyri-demokratik rejimlərin hökm sürməsini əsas gətürən bəzi tədqiqatçılar belə bir yanlış nəticə çıxarırlar ki, İslam mədəniyyəti ilə demokratiya bir araya sığa bilməz. Amerikadakı Harvard Universitetinin professoru Samuel Hantinqon "Sivilizasiyaların toqquşması" (1993) adlı məqaləsində yazmışdı ki, "Əksər müsəlman ölkələrində demokratiyanın uğursuzluğunun başlıca səbəbi İslam mədəniyyətidir". Hantinqton həmin məqalədə həmçinin demokratiyanın uğurlu inkişafını Qərb xristianlığı ilə bağlayır. S.Hantinqtonun İslam mədəniyyətinə bu cür yanlış baxışı və qərəzli münasibəti doğru olaraq haqlı narazılıqlar yaratmışdır.

Bu gün dünyanın mürəkkəb və ziddiyyətli, qanlı-qadalı olduğu bir şəraitdə sivilizasiyalararası dialoqa daha çox ehtiyac vardır. Prezident İlham Əliyev hazırkı dövrdə sivilizasiyalararası dialoqun zəruriliyinin əhəmiyyətli olduğunu qeyd edərək demişdir: «Azərbaycan müsəlman aləminin ayrılmaz hissəsidir. Eyni zamanda bizi Avropa ölkələri ilə dərin əlaqələr bağlayır. Biz siyasi, iqtisadi, enerji sahələrində, başqa sahələrdə uğurla əməkdaşlıq edirik. Biz həmişə çalışırıq ki, dinlərarası, sivilizasiyalararası dialoq daha da güclənsin. Biz bu işə öz töhfəmizi vermişik və öz nümunəmizi ortaya qoymuşuq. Ona görə bu gün dünyada yaşanan sivilizasiyalararası anlaşılmazlıq bizi narahat edir. Bu, çox təhlükəli meyillərdir. Azərbaycan öz tərəfindən çalışacaq ki, bu meyillərin yumşaldılması və müsbət məcraya yönəldilməsi üçün öz səylərini göstərsin» (5.s.67).

Ancaq S.Hantinqton və onun kimiləri unudurlar ki, Qərb xristianlığı uzun bir dövr ərzində (orta əsrlər dövründə) elmin, mədəniyyətin, incəsənətin, ümumilikdə cəmiyyətin mütərəqqi inkişafına qadağa qoyan və əngəl olan zaman İslam dini Şərqdə sivilizasiyanın inkişafına geniş şərait yaratmış və imkanlar açmışdır. Həmin dövrdə Qərb xristian mədəniyyəti dünya mədəniyyəti xəzinəsinə elə bir ciddi dahilər bəxş edə bilmədiyi halda, İslam Şərq mədəniyyəti Əl-Kindi, İbn-Rüşd, İbn Xəldun, İbn-Sina, Bəhmənyar, Əl Fərabi, Əbu Reyhan Biruni, Nəsirəddin Tusi,Nizami Gəncəvi, Əfzələddin Xaqani, Ömər Xəyyam, Firdovsi və s. kimi elm və fikir dahilərinin böyük bir dəstəsini bəxş etmişdir. Təsadüfi deyil ki, Roma papası II İohann Pavel 2002-ci ildə Bakıda olarkən öz çıxışında dahi Azərbaycan şairi Nizami Gəncəvinin sosial ədalətlə bağlı fikirlərindən sitat gətirmişdir. Hazırkı Roma papası da Bakıda olarkən Azərbaycanda multikulturalizmin və dini tolerantlığın mövcud olduğunu bildirmişdir.

Orta əsrlər dövründə xristianlıqda islahatlar uğrunda mübarizə aparan Yan Qus, Martin Lüter, Tomas Münser, Jan Kalvin, yeni dövrdə Avropanın ateist mütəfəkkir maarifçiləri və humanistləri, XIX əsr alman filosofu F.Nitsşe və s. hələ vaxtı ilə öz dövrlərində xristianlığa qarşı irəli sürdükləri iddiaları müasir dövrdə S.Hantinqton kimiləri İslama qarşı sürürlər.

İslam dininə və İslam mədəniyyətinə, İslam dəyərlərinə qarşı dünya miqyasında aparılan çirkin təbliğat kampaniyalarının dövlətlər səviyyəsində aparılmasının təhlükəli hal aldığını qeyd edərək Prezident İlham Əliyev demişdir: «Türkiyənin, Azərbaycanın dünya mədəniyyətinə verdikləri töhfə beynəlxalq aləmdə yüksək qiymətləndirilir. Biz islamofobiyaya qarşı bərabər, birgə səylərlə mübarizə aparırıq. Bu gün islamofobiya bəzi ölkələrdə dövlət siyasətinə çevrilibdir. Əfsuslar olsun ki, bir çox media qurumları İslama, İslam mədəniyyətinə, bizim adət-ənənələrimizə qarşı məqsədyönlü şəkildə kampaniya aparır. İslamı ləkələmək, qaralamaq, terrorla eyniləşdirmək cəhdləri gözümüzün önündədir, bu, dünyada sivilizasiyalararası problemlərə gətirib çıxara bilər və artıq çıxarır" (3.s.63).

Bütün bunlara baxmayaraq, dünya dinlərinin hər birini, o cümlədən yəhudilik, xristianlıq və İslam mənbələrini obyektiv şəkildə nəzərdən keçirərkən müəyyən etmək olur ki, hər bir dinin elə bir müddəaları var ki, onları həm demokratiya, həm də qeyri-demokratiya baxımından şərh etmək olar.

İslam dini özünün mahiyyəti və məzmunu etibarı ilə humanizmi, insan azadlığını, sosial ədaləti başlıca

prinsip kimi qəbul edən bir dindir. İslamın müqəddəs kitabı Qurani-Kərimin ayrı-ayrı surə və ayələrində insanlar və millətlər arasında bərabərlik, xalq hakimiyyəti, vicdan azadlığı, ümuminin razılığı əsasında problemlərin həll edilməsi, seçmək azadlığı, fəal həyat mövqeyi, sosial ədalət, sosial təminat məsələləri islamın əsas tələbləri kimi açıq-aydın şəkildə öz əksini tapmışdır. Həmçinin İslamın yaradıcısı və böyük şəxsiyyət olan Məhəmməd peyğəmbər hədislərində (kəlamlarında) liberalizm prinsiplərindən olan seçmək azadlığını, bərabərliyi, şəxsin təhlükəsizliyi, zora müqavimət göstərmək hüququnu sonadək başa düşüb, qəbul edib və daim həyata keçirib. Məhəmməd peyğəmbər buyurmuşdu: "Heç kəs günah sayılan göstərişlərə tabe olmamalıdır", "Heç bir ərəb qeyri-ərəbə nisbətən hansısa üstünlüyə malik deyil. Eləcə də qeyri-ərəb zənciyə nisbətən, zənci ağ adama nisbətən hansısa üstünlüyə malik deyil", "İslamdakı rəy müxtəlifliyi Rəbbimizin rəhminin nişanəsidir", "Biz (müsəlmanlar) başqa xalqların bizdən qabaq keçdiyi yolları addım-addım keçməliyik". Peyğəmbərin başqa bir kəlamı öz hüquqlarının müdafiəsinə qalxan insanlar üçün çox vacibdir: "Kim şərlə üz-üzə gəlsə silahla ona qarşı vuruşsun, gücü çatmırsa qoy şərə qarşı fikrini açıq söyləsin, ona da gücü çatmırsa onda bu şəri öz ürəyində bağlasın. Amma bu, iman gətirməyin ən zəif təzahürü olacaq'' (9. s.396).

Bütün bunların hamısı demokratiyanın əsasları ilə üst-üstə düşür. Bu gün müsəlman aləminə daxil olan ölkələrin əksəriyyətində hökm sürən despotizmin, cəhalətpərəstliyin, nadanlığın, insanların sosial passivliyinin və avamlığının İslamın qaynaqları ilə heç bir əlaqəsi yoxdur. Buna görə də İslam aləmindəki demokratiyanın uğursuzluqlarını İslamın mənbələri ilə, onun mahiyyəti və məzmunu ilə əlaqələndirilməsi düzgün deyil. Nəhəng İslam aləmini və zəngin İslam mədəniyyətini bir qrup İslam təməlçiləri, terrorçuları və İslam fanatizmi ilə eyniləşdirmək heç bir məntiqə sığmır. İslam dini mahiyyətcə antidemokratik deyil, demokratiya islamın mahiyyəti, məzmunu və ruhundadır. İslam aləmindəki demokratiyanın uğursuzluqlarının başlıca səbəbi uzun illər ərzində insanların şüuruna hakim kəsilmiş cəhalət, avamlıq, nadanlıq və fanatizmdir.

XIX əsrin görkəmli Azərbaycan maarifçisi, Rusiya şərqşünaslıq elminin banisi Mirzə Kazım bəy (1802–1870) fanatizmi həm İslam üçün, həm də istənilən başqa dinlər üçün olduqca təhlükəli hal hesab etmitşdir. Alimin fikrincə, fanatizm bütün dinlər üçün xasdır. Mirzə Kazım bəy Tiflisdəki İran konsuluna yazdığı məktubda deyir: "Fanatizm pis şeydir… söhbət təkcə müsəlmanlar arasındakı fanatizmdən getmir, həm də Avropadakı… fransızlar, ruslar, polyaklar arasındakı fanatizmdən gedir" (11. s.410).

İslam aləminin mütərəqqi fikirli liderləri demokratik müddəalardan əməli şəkildə faydalanmanın zamanın zəruri tələbi olduğunu dərk etmişlər. XIX əsrdə yaşamış Azərbaycanın və Şərqin görkəmli islahatçı mütəfəkkiri Panislamizm adlandırılan demokratik cərəyanın banisi Şeyx Cəmaləddin Əfqani "Mançestr qardyan" qəzetinin 18 dekabr 1891-ci il sayında islami reforma ilə bağlı müxbirin – İslama yeni və demokratik ruhu necə aşılamaq olar? – sualına belə cavab vermişdir: "Quranın həqiqi ruhu azadxah və eləcə də müasir fikirlərə uyğun gəlir. İndiki nizam-intizamsızlığın İslam qanunlarına qətiyyən dəxli yoxdur. Bunlar nadan və cahil təfsirçilərin İslama etdikləri əlavələrdir. Tarixi təkamül və inkişaf onların bu səhvlərini islah edəcək. Demək, bir müsəlman ziyalısı və alimi Avropa demokratik məfkurələrinə tamam aşina olsa o, Quranın təlimlərinə əsaslanaraq xalqı müasir mütərəqqi demokratik məfkurələrlə tanış edə bilər. Bu iş isə Lüterin üzləşdiyi maneələrlə üzləşməz" (8. s.43-44). C.Əfqaninin dediyi bu dahiyanə fikirlər bu günün tələbləri ilə səsləşir. Şeyx Əfqani həmçinin qeyd edirdi ki, Qərb öz təcrübəsində çağdaş Şərqə nisbətən daha çox əsl İslam normalarına və dəyərlərinə riayət edir.

Şeyx Cəmaləddin Əfqaninin İslamla bağlı islahatçılıq fəaliyyətinə XX əsr Hindistan xalqının milli azadlıq hərəkatının lideri Cəvahirləl Nehru yüksək qiymət verərək demişdir: «XIX əsrdə Misirdə ən böyük reformist Seyid Cəmaləddin olmuşdur. O, elə bir dini rəhbər idi ki, İslamı yeni dünyanın zərurətləri ilə uyğunlaşdıraraq yeniləşdirdi. Seyid Cəmaləddin deyirdi ki, tərəqqinin bütün formalarını İslam dini ilə uyğunlaşdırmaq mümkündür. Onun İslam dinini dirçəltməsi sahəsindəki səyinin və onu yeniləşdirməsinin Hindistanda hindu ayininin yeniləşdirilməsi ilə çox oxşarı vardır» (8.s .69).

Şeyx Cəmaləddin Əfqaninin və digər görkəmli dini liderlərin İslam dəyərləri ilə ümumbəşəri demoktatik dəyərləri uyğunlaşdırmaq yolunda islahatçılıq cəhdləri uğursuzluqla nəticələnməsinə baxmayaraq, son onilliklərdə müsəlman aləminin mütərəqqi yönlü dini liderləri İslam qaynaqlarındakı demokratik müddəalardan əməli şəkildə faydalanmağa və İslamda demokratiyanın köklərini axtarmağa başladılar. İslamı Quranda və sünnədə olduğu kimi bütünlüklə qəbul edən islahatçıların yeni nəslinin nümayəndələri Quranın dəyişməz mətni ilə dəyişkən həyat şəraiti arasında uyğunlaşma aparmağa çalışırlar. Onlar belə hesab edirlər ki, dövlət dini, cəmiyyət isə plüralist olmalıdır.

Nüfuzlu İslam mütəfəkkirlərindən biri olan İran professoru Əbdülkərim Sürüş yazır ki, "İslam və demokratiya nəinki bir araya gələ bilər, onların birliyi həyati zərurətdir". "Əsl dindar olmaq üçün insan ilk növbədə azad olmalıdır". "Cəza hədəsi ilə qəbul edilən inam həqiqi inam ola bilməz. Dindar öz dinindən imtina etmək hüququna da malik olmalıdır. Demokratiyanın əsası da bundan ibarətdir". Oxşar fikri Oman sultanı Kabus Hollandiya qəzetlərindən birinə verdiyi müsahibəsində (fevral 1993-cü il) qeyd etmişdir: "İslam mahiyyətcə demokratikdir. Biz imkanların bərabərliyinə inanırıq. Biz inanırıq ki, həm dünyəvi, həm də dini rəhbərlərimiz Allah qarşısında məsuliyyət daşıyırlar. Biz inanırıq ki,

vətəndaşların öz fikirlərini sərbəst ifadə etmək hüququ olmalıdır. İslamın əsl mahiyyəti də elə bundan ibarətdir" (9.s.400, 402).

Müasir İslam ölkələrinin möhkəm birliyinin yaradılması başlıca vəzifələrdən biridir. İslam həmrəyliyinin möhkəmləndirilməsi islamofobiyaya qarşı aparılan dinc mübarizə formasıdır.

İslam həmrəyliyinin vacibliyi ilə bağlı Prezident İlham Əliyev demişdir: "Azərbaycan İslam həmrəyliyinin güclənməsi üçün çox böyük səylər göstərir, ciddi addımlar atır. Azərbaycan müxtəlif ölkələrdə baş qaldıran islamofobiyaya qarşı çox ciddi mübarizə aparır. Biz açıq şəkildə müxtəlif səviyyələrdə, ən yüksək səviyyələrdə bu məsələ ilə bağlı öz sözümüzü deyirik, islamofobiyanı pisləyirik və öz nümunəmizi təqdim edirik. İslamofobiya həm müsəlman ölkələri və xalqları, eyni zamanda, bu cür çirkin meyillərə rəvac verənlər üçün də təhlükəlidir. Bu, qarşıdurmanı daha da dərinləşdirir, qarşılıqlı inamsızlığı artırır. Azərbaycanda bütün dinlərin nümayəndələri rahat, bir ailə kimi, sülh şəraitində yaşayırlar. Biz qardaşlıq, dostluq şəraitində yaşayırıq. Nümayiş etdiririk ki, multikulturalizm dəyərləri yaşayır və yaşamalıdır. Bildiyiniz kimi, bu il Azərbaycanda "Multikulturalizm ili" elan edilmişdir. BMT-nin Sivilizasiyalar Alyansının bu il Azərbaycanda Qlobal Forumunun nəticələri bir daha onu göstərir ki, Azərbaycan bu yolda çox böyük uğurlara imza atıb" (4.s.38).

İslam islahatçılarının fəaliyyəti hakimiyyətin, ruhani idarələrinin və əhalinin mühafizəkar hissəsinin böyük müqaviməti ilə qarşılaşır. İranda hazırda baş verən islahatçılıq hərəkatının müqavimətlə qarşılaşması buna misal ola bilər.

Azərbaycan millətinin mədəniyyətində və milli xarakterindəki demokratiya ruhu Qərb demokratik mədəniyyətinin ümumbəşəri prinsiplərinə çox yaxın və uyğun olduğuna görə Azərbaycan keçid dövründə 1918-ci ildə yaradılmış və 1920-ci ildə bolşeviklər tərəfindən süquta uğradılmış demokratik dövlətçilik ənənələrini və milli-mənəvi dəyərlərini sovet imperiyasının dağılmasından sonra daha asan bərpa edə bildi. Bu da təsadüfi hal deyil, Azərbaycanın dərin köklərə malik olan milli-mənəvi dəyərləri ilə və İslam dəyərlərindəki humanist, demokratik xarakterli keyfiyyətləri ilə bağlıdır.

Beləliklə, demokratik dəyərlərlə İslam dini dəyərlərinin vəhdəti Azərbaycan millətinin təbii, anadangəlmə ruhuna xas olan bir keyfiyyətdir, xüsusiyyətdir. Buna görə də demokratikləşmənin Azərbaycan yolunun daha uğurlu və səmərəli olmasına təsir edən amillər içərisində milli-mənəvi, mədəni, dini dəyərlər və demokratiya yönümlü ənənələr xüsusi əhəmiyyətə malikdir. Bütün bunların əsasında isə demək olar ki, Azərbaycanda müsəlman Şərq ölkələri üçün müasir Yaponiya kimi nümunə ola biləcək demokratiyanın Azərbaycan modelinin formalaşmasının möhkəm əsası qoyulmuşdur. Bu gün Azərbaycanda mövcud olan multikultural və dini tolerantlıq dəyərləri ilə demokratik dəyərlərin vəhdəti çoxmillətli və çoxkonfessiyalı dünya dövlətləri üçün gözəl bir nümunədir.

**Ədəbiyyat:**


1. Əliyev H. Müstəqilliyimiz əbədidir. I kitab, Bakı, Azərnəşr, 1997, - 608 s.
2. Əliyev H. Müstəqilliyimiz əbədidir. XXIII kitab, Bakı, Azərnəşr, 2008, - 408 s.
3. Prezident İlham Əliyevin Türkiyə Respublikasına 15 mart 2015-ci ildə işgüzar səfərindəki nitqindən. //Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə. Elmi-nəzəri jurnal. 2016, №1 (53).
4. Prezident İlham Əliyevin Müqəddəs Ramazan ayı münasibəti ilə müsəlman ölkələrinin diplomatik nümayəndəlikləri və beynəlxalq təşkilatlarının rəhbərlərinin qəbulundakı nitqindən. //Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə. Elmi-nəzəri jurnal. 2016, №2 (54).
5. Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2015-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasdakı nitqindən. //Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə. Elmi-nəzəri jurnal. 2016, №2 (54).
6. Mehdiyev R. XXI əsrdə Azərbaycan ideyası kreativ millət kontekstində. //Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə. Elmi-nəzəri jurnal. 2012, №2 (38).
7. Mehdiyev R. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi Ermənistanın vətəndaş cəmiyyəti kontekstində. "Azərbaycan" qəzeti, 02 dekabr 2016
8. Cəmaləddin Əfqani. Seçilmiş əsərləri. Bakı, 1998.
9. Demokratiya: gediləsi uzun bir yol. Bakı, 2001.
10. Vəliyev Ş. Füyuzat ədəbi məktəbi. Bakı, Elm, 1999, 442 s.
11. Рзаев А. История политических и правовых учений в Азербайджане (от истоков до XX века). Баку, «Элм», 2000, 528 с.


**Açar sözlər:** *demokratik dəyərlər, İslam dəyərləri, multikulturalizm, dini tolerantlıq, milli-mənəvi dəyərlər, İslamda humanizm*

**Ключевые слова:** *демократические ценности, исламские ценности, мультикультурализм, религиозная толерантность, национально-нравственные ценности, гуманизм ислама*

**Key words:** *democratic values, İslamic values, multiculturalism, religious tolerance, national and cultural values, humanizm in İslam religion*

**Сакит Алиев**

***Ученый-секретарь Академии Государственного Управления при Президенте Азербайджанской Республики, доктор философии по философии, доцент***

## НЕЗАВИСИМЫЙ АЗЕРБАЙДЖАН КАК ЕДИНСТВО ДЕМОКРАТИЧЕСКИХ И ИСЛАМСКИХ ЦЕННОСТЕЙ

### РЕЗЮМЕ

В статье анализируется взаимодействие демократических и религиозных ценностей независимого Азербайджана. Раскрывается гуманистическая сущность ислама. Отмечается, что присущая Азербайджану толерантность имеет исторические корни, которые проявились в мультикультуральной политике современного Азербайджана. Государственная политика на современном этапе представлена как единство общечеловеческих, религиозных и национально-специфических ценностей азербайджанского народа.

**Sakit Aliyev**

***Scientific secretary of the Academy of Public Administration under the President of the Republic of Azerbaijan, PhD in philosophy,Associate professor***

## MUTUAL UNITY OF ISLAMIC AND DEMOCRATIC VALUES OF THE INDEPENDENT AZERBAIJAN

### SUMMARY

The article investigates mutual relations and attitudes between Islamic religious and democratic values of the Republic of Independent Azerbaijan. The article reveals the humanistic essence of Islam, and underlines that Azerbaijan tolerance, reflected in present multicultural policy, has historical roots. At the present stage the state policy is presented as a unity of human, religious, ethnic-specific values of the Azerbaijani people.

**ZİYAFƏT HƏBİBOVA**

*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, analitik təhsil işləri üzrə müşavir*

# İNSAN POTENSİALININ MİLLİ KAPİTALA TRANSFORMASİYASI MÜSTƏQİL AZƏRBAYCANDA DÖVLƏT İDARƏÇİLİYİNİN PRİORİTETİ KİMİ

Dünyanın bir çox ölkələrində XX əsrin son onilliyindən başlayaraq daha çox müşahidə edilən və son zamanlar şiddətlənən iqtisadi və bununla əlaqədar olan sosial, siyasi və ekoloji qeyri-stabillik bir çox problemlərin, o cümlədən hərbi münaqişələrin səbəbi kimi çıxış edir. Bu yeni çağırışların meydana gəlməsi inkişafın planlaşdırılması və idarəedilməsi prosesində davamlı inkişaf prinsiplərinə riayət olunmaması ilə bağlıdır. Yaranmış vəziyyət BMT tərəfindən bir çox hallarda "gələcəksiz inkişaf" və "qeyri-bərabərliklə müşayiət edilən inkişaf" kimi qiymətləndirilir və tərəqqi proseslərinə mənfi təsir göstərə bilən amil kimi səciyyələndirilir. Aparılan təhlillərdən aydın olur ki, inkişaf proseslərində müşahidə edilən və qarşısı alınmalı olan neqativ tendensiyaların əsasında digər amillərlə yanaşı, dövr üçün səciyyəvi və müasir cəmiyyəti xarakterizə edən qeyri-optimal istehlak durur. Beynəlxalq təşkilatların bilgilərinə görə, artıq XXI əsrin birinci onilliyində XX əsrin 50-ci illəri ilə müqayisədə dünyada istehlak ən azı 20 dəfə artıb. Bu, həm əhalinin sayının artımı və yaş strukturunun dəyişməsi, həm də adambaşına istehlakın artımının nəticəsidir. Ümumi istehlakın artması ilə yanaşı, istehlakda müşahidə edilən kəskin, hətta ifrat dərəcəsinə çatmış qeyri-bərabərlik mövcud problemi daha da qabardır. Bu səbəbdən hal-hazırda artımsız inkişaf konsepsiyası da gündəmdədir (2).

Aydındır ki, yaranmış vəziyyətdə uzunmüddətli həm beynəlxalq, həm də milli inkişaf strategiyası ən müasir texnologiyalara arxalanmaqla yanaşı, ənənəvi, tarixin sınağından keçmiş etnik və yerli biliklərin cəlb edilməsinə də əsaslana bilər. Hazırkı dövrdə bu istiqamət UNESCO-nun əsas prioritetlərindən biridir və yerli bərpa olunan təbii ehtiyatların davamlı inkişaf naminə istifadə edilməsinə xidmət edir. Lakin qeyd edildiyi kimi, bu istiqamətin səmərəliliyi o zaman yüksək ola bilər ki, o biliklərin tətbiqi ən müasir texnologiyalarla vəhdət təşkil etsin. Belə bir vəhdət davamlı inkişaf sahəsində qarşıda duran məsələlərin həllinin ən optimal yolu hesab edilir (8).

Hər iki istiqamətdə nailiyyətlərin qazanılması yüksək texnoloji sahələrdə rəqabət qabiliyyətinin artırılmasını, insan kapitalının keyfiyyətinin yüksəldilməsi sahəsində inqilabi dəyişiklikləri, innovativ faktorların iqtisadi yüksəlişin başlıca mənbəyinə çevrilməsini nəzərdə tutur. Bu məsələlərin həlli üçün dövlət, özəl sektor, vətəndaş cəmiyyətinin elm və təhsil institutlarının innovativ inkişaf vasitələrindən və müasir planlaşdırma və idarəetmə prinsiplərindən faydalanaraq, qarşılıqlı fəaliyyətinin təşkili zəruridir.

Eyni zamanda dünya birliyinin davamlı inkişaf ideyasını prioritet seçməsi və onun BMT-nin XXI əsrin gündəmində və digər sənədlərdə təsdiqləməsi dövlətlər qarşısında davamlı inkişafın əsasını təşkil edən iqtisadi inkişaf, sosial inkişaf və ətraf mühitin mühafizəsi sahəsində yeni vəzifələr qoyur. Yeni postindustrial (noosfer) cəmiyyətdə zənginliyin ölçüsü maddi sərvətlər deyil, ilk növbədə ətraf mühitlə harmoniyada yaşayan insanın bilikləridir. Bu zaman ətraf mühit təbii, iqtisadi, sosial, mədəni, hüquqi və bunları idarə edən siyasi komponentlərdən təşkil edilmiş vahid bir sistem kimi qəbul edilir. Davamlı inkişafa keçid uzun təkamül prosesidir və onun reallaşdırılmasının başlıca mexanizmlərindən biri məhz gələcək prosesləri planlaşdıracaq və idarə edəcək insan potensialının fomalaşdırılması və inkişaf etdirilməsidir. Hal-hazırda daha aktual müzakirə mövzusu yeni cəmiyyətin ekoloji prinsiplər əsasında qurulması və sivilizasiyanın yeni mərhələyə keçməsi zərurətidir. Ekoloji sivilizasiya (ekosivil) konsepsiyası, keçən əsrin 80-ci illərində formalaşmasına baxmayaraq, onun əsasını təşkil edən prinsiplər və bu istiqamətdə zəruri tədbirlər artıq bir sıra ölkələrdə tətbiq olunmaqdadır (2). Eyni zamanda bu istiqamətdə bilik və bacarıqların formalaşması orta və ali məktəblərin kurikulumlarına salınıb. Bəlli olduğu kimi, davamlı insan inkişafı orta məktəb kurikulumlarına dünyada ilk dəfə 2001-ci ildə Azərbaycanda daxil edilib. Qlobal miqyasda isə bu prosesə 4 il sonra – 2005-ci ildə BMT və UNESCO-nun xüsusi sənədi əsasında start verilib (5). Azərbaycanın bu istiqamətdə ilk addımları və təşəbbüsü haqqında məlumatı BMT-nin Baş Qərargahı qlobal şəbəkədə zamanındaca tirajlayıb.

İnsan inkişafından bəhs olunarkən ilk öncə insan potensialının spesifik özəlliklərinə nəzər salınmalıdır. Şəkil 1-də təqdim olunmuş sxemdən aydın olduğu kimi, insan potensialı bir sıra sistem özəlliklərinə malikdir. Onun formalaşdırılmasında bir qayda olaraq "xarici" faktorlar, var olduğu mühitin xarakteri mühüm əhəmiyyət kəsb edir. İnsan potensialına gizli özəlliklərin olması da xasdır. Gizli potensiala eyni zamanda hər bir şəxsin

təbii qabiliyyəti, onun fərdi inkişafına təsir göstərən fərdi istedadı, xüsusi qabiliyyətləri də aid edilə bilər. Eyni zamanda insan potensialına xas özəlliklər yaxın perspektiv, həmçinin uzaq gələcək üçün insan inkişafı imkanlarını şərtləndirir. Bu da insan potensialının strateji spesifikliyi ilə bağlıdır.




**Şəkil 1.** *İnsan potensialının formalaşmasına təsir edən amillər*

İnsan potensialının inkişafı məsələsi bu gün sosial sektor – təhsil, səhiyyə, mədəniyyət, elmin modernləşməsinə yönəlik dövlət vəzifəsi kimi anlaşılmalıdır. Dövlət vəzifələri dedikdə, burada həm hökumət qurumlarının, həm də vətəndaş cəmiyyətini təmsil edən qeyri-hökumət təşkilatlarının və fərdi biznesin vahid milli proqramlar çərçivəsində müştərək çalışmaları nəzərdə tutulur. Qloballaşma və insan imkanlarının həddən artıq genişləndiyi bir dönəmdə insan potensialı mürəkkəb, rekord məqsədlərin seçilməsi, müasir mobillik formalarına hazır olmaq, geomədəni, geoiqtisadi və geosiyasi koordinatlarda düşünmək, öz perspektivlərinə yaradıcı yanaşmaq deməkdir. İnsan inkişafı üzrə sosial siyasətin başlıca vəzifəsi innovativ layihə və milli, regional inkişaf strategiyaları çərçivəsində müasir insan infrastrukturunun formalaşdırılmasıdır. Bu arada fərdi sektorun əsas məqsədi öz fəaliyyətini sosial məsuliyyətli şəkildə qurmaq və bu şərti gəlirdən üstün tutmaqdır. Bu isə öz növbəsində fərdi sektor üçün yeni innovativ prinsiplərlə idarə etmək qabiliyyətinə malik insan potensialının formalaşdırılması məsələsini gündəmə gətirir.

Göstərilən məsələlərin çözümü zamanı mütləq nəzərə alınmalıdır ki, insan potensialının formalaşdırılması bir sıra parametrlərdən asılıdır. Həmin parametrlər arasında mədəniyyət və mədəniyyətlərarası kommunikasiyanın, o sıradan da informasiyanın, çoxsahəli məlumatlandırmanın əhəmiyyəti xüsusi vurğulanmalıdır.




**Şəkil 2.** *İnsan potensialının formalaşmasında çoxsahəli məlumatlandırmanın əhəmiyyəti*

İnsan inkişafının yeni paradiqması "həyat səviyyəsi" anlayışından "həyat keyfiyyəti" anlayışına keçidi zəruri edir. Doğrudan da, ancaq həyat keyfiyyətini yüksəltmək, insanın şəxsi keyfiyyətləri ilə bağlı tələbləri və şərtləri dəyişməklə, dövlət və cəmiyyət müasir şəraitdə ölkələrin sosial-iqtisadi inkişafının birbaşa asılı olduğu insan potensialının keyfiyyətini artıra bilər. Yuxarıdakı sxemdən də aydın olduğu kimi, insan potensialı anlayışı postindustrial dövrün, informasiya və innovativ tutumlu texnologiyalara əsaslanan informasiya cəmiyyətinin inkişaf pikində olduğu bir dönəmin məhsuludur. Burada inkişafın başlıca resursu insan kapitalı, istehsalın aparıcı, stimullaşdırıcı faktoru isə biliklərdir.

Azərbaycan rəhbərliyinin son dönəmdə biliklərə və innovasiyalara əsaslanan, sosial dövlətin qurulmasına yönəlik strateji siyasi kurs yürütdüyü heç kimə sirr deyil. Ölkənin modernləşməsi vəzifəsinin ön plana çıxması ilə insan potensialı problemi olduqca aktuallaşıb. Zamanında Azərbaycanda "neft qızılının insan qızılına" çevrilməsini prioritet hədəf kimi müəyyənləşdirən Prezident İlham Əliyev bu hədəfə çatmaq əzmini əməli fəaliyyətdə də nümayiş etdirib. 2013-cü ilin aprelində Bakıda keçirilən Davos Dünya İqtisadi Forumunun yekunundakı nitqində ölkə başçısı insan potensialının önəmini bir daha qabardıb: "Biz bilirik ki, təbii sərvətlər əbədi deyil və zaman keçdikcə tükənəcək. Bu səbəbdən də qara qızılı insan kapitalına çevirmək sadəcə şüar deyil. Bu, reallıqdır. Biz, nəinki neft və qaz erasından sonrakı dövrə hazırlaşırıq, – baxmayaraq ki, bu, hələ ən azı 100 ildən sonra baş verəcək, – o cümlədən neft və qaz gəlirlərini qeyri-enerji sektorunun inkişafı, insan kapitalı və təhsil üçün istifadə edirik. Gənc nəsil bundan bəhrələnir. Bu gün Azərbaycanda və xarici ölkələrdə yaxşı təhsil almış gənclər ölkəmizdə mühüm biznes fəaliyyəti ilə məşğuldurlar və Azərbaycanın davamlı inkişafına töhfə verirlər" (1).

Danılmaz həqiqətdir ki, iqtisadi yüksəliş yalnız o zaman insan inkişafına yol açır ki, sadəcə adambaşına düşən gəlirin artımını təmin etmir, həm də sosial sferaya investisiya olunan dövlət xərclərinin səviyyəsinin kifayət dərəcədə olmasına imkan verir və iqtisadiyyatda resursların ədalətli bölgüsü ilə müşayiət olunur. Son illər Azərbaycan əhalisinin insan potensialının ümumi keyfiyyəti nəzərəçarpacaq dərəcədə dəyişib. Bu, ölkə rəhbərliyinin insan potensialının inkişaf resurslarına düzgün və sistemli yanaşmasının nəticəsidir. Aşağıdakı sxemdə ifadə olunan resurs yanaşma insan potensialının inkişafının idarəedilməsi sahəsində nüfuzlu beynəlxalq qurumların hesabat və reytinqlərində Azərbaycanın lider mövqelərədək irəliləməsi ilə sonuclanıb. Qeyd etmək lazımdır ki, sxemdə verilmiş faktorlar və prioritetlər insanın mövcudluğunun təkcə iqtisadi deyil, həmçinin psixoloji və xüsusilə mədəni, mənəvi, əxlaqi cəhətlərini də nəzərə alır. Bu, ölkədə gerçəkləşdirilən strateji xəttin sosialyönümlülüyünün bariz təzahürüdür. Eyni zamanda göstərilən məqam Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 29 noyabr 2011-ci il tarixində imzaladığı Sərəncamına əsasən hazırlanmış "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında da qırmızı xətlə keçir.




**Şəkil 3.** *İnsan potensialının inkişaf resursları*

İnsan potensialının inkişaf resursları üzrə göstəricilərin yaxşılaşdırılması istiqamətində tərəqqi və inkişaf təkcə ölkə daxilində deyil, dünyada da müsbət qarşılanır və Azərbaycanın iqtisadı qüdrətinin, sosial-siyasi nüfuzunun təzahürü kimi qəbul edilir. Məsələn, son illərdə demoqrafik resurslar ana və uşaq ölümünün azaldılması, QİÇS və digər təhlükəli xəstəliklərlə mübarizə, zərərli vərdişlərin maarifləndirmə yolu ilə aradan qaldırılması sahəsində real nəticələr əldə olunub. 1993-cü ildən indiyədək Azərbaycanda körpə ölümü göstəricisi təxminən üç dəfəyə yaxın azalıb. 1992-93-cü illərdə hər min diri doğulan uşaqdan 29-u bir yaşa çatanadək tələf olurdusa, 2015-ci ildə bu rəqəm 11 nəfər təşkil edib. Statistik təhlillər göstərir ki, ölkədə müstəqillik qazanılandan sonra son illərdə real və gözlənilən ömür müddəti də artmaqdadır. Azərbaycanda mövcud olan ənənəvi uzunömürlülük və aparılan iqtisadi və sosial islahatlar, dövlət siyasətinin sosialyönümlü olması ölkədə orta ömür müddətinin daha da artması üçün şərait yaradır. QİÇS və sair bu sayaq xəstəliklərlə mübarizə sahəsində də real addımlar atılıb, bir sıra layihələr həyata keçirilib. Qeyd edək ki, bu istiqamətdə dövlət qurumları ilə yanaşı, qeyri-hökumət təşkilatları, ilk növbədə Heydər Əliyev Fondunun fəaliyyəti də olduqca effektiv və nəzərəçarpandır. Sosial resurslarla bağlı ilkin olaraq təhsilin keyfiyyəti və əhalinin təhsil almaq imkanlarının daha da genişləndirilməsi istiqamətində fəaliyyət, ölkə Prezidentinin 11 iyul 2011-ci il tarixli müvafiq Sərəncamına əsasən hazırlanan Azərbaycan təhsilinin inkişafı üzrə Milli Strategiya çərçivəsində gerçəkləşdiriləcək kompleks tədbirlərə start verilməsi xüsusi diqqət çəkir və insan inkişafına yönəlik gözləntilərin maksimum dərəcədə təmin olunmasına hesablanıb. Son on ildə insan inkişafının iqtisadi resurslarından olan yoxsulluqla bağlı tədbirlər gözəl nəticələrə gətirib çıxarıb. On ilə Azərbaycanda yoxsulluq təxminən 10 dəfə – 49 faizdən 5,5 faizədək azalıb. Bu, əlbəttə ki, iqtisadi islahatların uğurlu olmasından xəbər verir. Bununla yanaşı, Azərbaycanda 1 milyon 200 min yeni iş yerinin açılması (onlardan 900 mini daimi iş yeridir) sayəsində işsizlik kimi ciddi problemin böyük hissəsi demək olar ki, həllini tapıb. Hazırda işsizliyin səviyyəsi təxminən 5 faiz civarındadır (6). Ölkədə gender bərabərliyinin təmin edilməsi, mədəni-dəyər oriyentasiyalarına xüsusi önəm verilməsi Azərbaycanın sosial dövlət kimi dəyərləndirilməsinə gətirib çıxarıb və sosial siyasətin bundan sonrakı illərdə də prioritet olaraq qalacağına işarədir (4).

Təbii ki, bu istiqamətdə görülməli işlər də var və əsas hədəflər artıq müəyyənləşdirilib. Bu sırada ilk olaraq ölkənin modernləşməsinin aktorları olacaq qrupların, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin təbirincə desək, kreativ zümrənin potensialının artırılması məsələsi aktuallıq qazanmış olur. Həmin, eləcə də əhalinin digər klasterlərində təmsil olunanların öz insan kapitallarını yeniləmək, ömürboyu təhsil almaq meyillərini stimullaşdırmaq sayəsində Azərbaycan təkcə texniki-iqtisadi deyil, sosial və sosio-mədəni sahələrdə də modernləşmə imkanlarını bütövlükdə reallaşdıraraq uğurlu və innovativ insan inkişafı modelini təqdim etmiş olar. Qeyd olunan istiqamətdə uğurun yeganə yolu kimi təhsil sistemlərində müasir təsnifatların (bilik, bacarıq, qabiliyyət, vərdişlər) inkişafı, təkcə özəl deyil, həm də dövlət sektorunda insan potensialının kapitallaşdırılması infrastrukturunun formalaşdırılması nəzərdən keçirilə bilər. Bir sözlə, təbii və sosial resursların maddi nemətlər və rifaha transformasiyası üstəgəl iş, innovasiyalar və intellektual nailiyyətlər insanın həqiqi zənginliyi və inkişafının açarıdır.

**Ədəbiyyat:**


1. İlham Əliyevin yekun nitqi, Davos Dünya İqtisadi Forumu, Bakı, aprel, 2013.
2. U.Ələkbərov "Davamlı insan inkişafı və ekoloji sivilizasiyanın əsasları", Bakı-2013.
3. "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyası // Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı.
4. "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyası; www.president.az/files/future_az
5. Human Development Report, UNDP, New York, 2012.
6. www.azstat.org/sdds/az/Met/L_Un.shtml
7. Rамиз Мехтиев. "Десять лет, изменившие Азербайджан (2003–2013)". Москва, 2013.
8. Draft Medium-Term Strategy (2014–2021); UNESCO Paris, Franse, General Conference 37 th; 5–20 november 2013.
9. http//hdr.undp.org/nhdr/impact
10. Человеческий потенциал: опыт комплексного подхода / Под ред. И.Т. Фролова. М., 1999.
11. Буланов В., Катайцева Е. Человеческий капитал как форма проявления человеческого потенциала // Общество и экономика. – 2011. - № 1. – с.13–22.



**Açar sözlər:** *insan potensialı, inkişaf resursları, insan inkişafı indeksi, davamlı inkişaf*

**Ключевые слова**: *человеческий потенциал, ресурсы развития, индекс человеческого развития, устойчивое развитие*

**Key words**: *human potential, resourcs of the development, human development index, continious development*

**Зияфат Габибова**

***Академия Государственного Управления при Президенте Азербайджанской Республики, советник по аналитике***

## ТРАНСФОРМАЦИЯ ЧЕЛОВЕЧЕСКОГО ПОТЕНЦИАЛА В НАЦИОНАЛЬНЫЙ ЧЕЛОВЕЧЕСКИЙ КАПИТАЛ КАК ПРИОРИТЕТ ГОСУДАРСТВЕННОГО УПРАВЛЕНИЯ В СУВЕРЕННОМ АЗЕРБАЙДЖАНЕ

### РЕЗЮМЕ

Сегодня, в эпоху радикальной смены алгоритмов развития, актуальным для любой страны мира является вопрос выявления адекватных для инновационного развития движущих сил, способных обеспечить ее решение. В данной ситуации государственное управление может и должно опираться только на творческие силы и улучшение качества жизни народа. Эти вопросы однозначно необходимо решать в рамках концепции «человеческого потенциала». «Сущностный» подход данной концепции позволяет выявить современные противоречия человеческого развития и определить новые принципы общественного воспроизводства в условиях перехода к новой цивилизации. Ценность концепции «человеческого потенциала» прежде всего состоит в том, что базирующаяся на её основе оценка состояния той или иной страны включает в себя не только традиционные макроэкономические параметры, но также характеристики здоровья и образования населения. И что самое ценное – всем этим трём составляющим придаётся одинаковая значимость. В статье обосновывается необходимость рассмотрения для «внутреннего анализа» в каждой стране не только уже упомянутых трех составляющих человеческого потенциала (экономика, здоровье, образование), но и его различные проекции – интеллектуальный потенциал, популяционный потенциал, личностный потенциал и т.п. Далее сопоставляются все эти проекции и понятия с концепцией человеческого потенциала, проводится компаративный анализ понятий человеческий капитал, человеческие ресурсы, социальный капитал, символический капитал, жизненный потенциал, личностный потенциал в контексте концепции человеческого потенциала как качественных форм его трансформации. В статье также теоретико-методологически обосновано воспроизводство человеческого потенциала в условиях перемен, перехода к инновационной экономике, выявлено и раскрыто социально-экономическое содержание и своеобразие воспроизводства, социологические параметры качества человеческого потенциала Азербайджана. В работе проведена параллель между динамикой индекса развития человеческого потенциала страны и государственной политикой в этой области, рассмотрены факторы риска, т. е. явления, процессы, тенденции и т. п., создающие угрозы для сохранения, развития и реализации человеческого потенциала Азербайджана.

**Ziyafat Habibova**

***The Academy of Public Administration under the President of the Republic of Azerbaijan Analytical advisor***

## THE TRANSFORMATION OF HUMAN POTENTIAL TO THE NATIONAL CAPITAL AS THE PRIORITY OF PUBLIC ADMINISTRATION IN AZERBAIJAN

### SUMMARY

Nowadays, in the period of radical changes of the development algorithms, the question on identification of adequate driving forces for innovative development is the topical issue for the most world countries. In this case, public administration may and should be only based on creative forces improving the quality of life of the people. These issues should definitely be addressed within the concept of "human potential". The essential approach of this conception reveals modern contradictions of human development and identifies new principles of a social reproduction in the transition to a new civilization. The assessment of country status, based on "human potential" concept, covers traditional macro-economic parameters, health and education. These three components are of equal importance and make the concept valuable. The article justifies the necessity of "internal analysis" of these components (economics, health and education) and their projections – intellectual potential, population potential, personal capacity and etc. The author has compared the projections and components with human potential concept, and made analysis of human capital, human resources, social capital, symbolic capital, life opportunity, personal capacity in the context of the human potential conception as a qualitative transformation of its forms. The article theoretically and methodologically corroborates reproduction of human potential in the condition of changes and transition to innovative economy, reveals social and economic content and peculiarity of reproduction of the human potential, social parameters sociological parameters of human potential of Azerbaijan Republic. The article draws a parallel between dynamics of the human development index of the country and public policies in this area, besides the risk factors, including phenomena, processes, trends and etc. affecting preservation, development and realization of the human potential in Azerbaijan, are also been observed.

**İBRAHİMXƏLİL İBRAHİMOV**

*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Dövlət İdarəetməsi və Menecment kafedrasının dosenti, kənd təsərrüfatı üzrə fəlsəfə doktoru, dosent*

# HEYDƏR ƏLİYEVİN AQRAR İSLAHATLARININ NAİLİYYƏTLƏRİ

*"Dövlət müstəqilliyini möhkəmləndirmək, müstəqil dövlət quruluşunu, dövlət atributlarını yaratmaq və inkişaf etdirmək, Azərbaycan Respublikasının ərazi bütövlüyünü, tam suverenliyini təmin etmək, ölkəmizi müharibə şəraitindən çıxarmaq, respublikanın vətəndaşlarının rifahını yaxşılaşdırmaq, onların yaşaması üçün lazımi şərait yaratmaq – bu vəzifələr mənim prezident fəaliyyətimdə əsas istiqamətlər olacaqdır və mən bunların həyata keçirilməsinə çalışacağam".*

**Heydər ƏLİYEV**

Tarixin qanunları, elmi düşüncələr belə qənaətə gətirir ki, Kainatı Tanrı idarə edir. Dünyanı isə onun xüsusi istedad bəxş etdiyi insanlar.

Uzaq əsrlərdən bu günə uzanan bəşər tarixi belə həqiqəti bizə öyrədir ki, Tanrının xüsusi istedad bəxş etdiyi insanların hər biri müəyyən sahədə Yaradanın – Allahın yer üzünə ən böyük töhfəsidir.

Onların, bu istedad sahiblərinin bəşəriyyət qarşısında gördüyü işlər insanlığın inkişaf tarixini şərtləndirən əsas faktor kimi qiymətləndirilir.

Dünya nə qədər inkişaf edib təzələnsə də yaradıcı şəxsiyyətlər daim yaşayacaqlar.

Məşhur Amerika alimi Hans Selyenin fikrincə, insanlar iki kateqoriyaya bölünürlər: ideoloqlar və icraçılar. İdeoloqlar cəmi 2 faiz, icraçılar isə 98 faiz təşkil edir. Xalq həmin 2 faizə arxalanır. Yaradıcı adam icraçı ola bilməz. Həyatda hər bir adamın öz yeri var. Həmin adamın da, onun mənsub olduğu xalqın da xoşbəxtliyi ondadır ki, hər bir yaradıcı insan öz yerində olsun.

1991-ci ildə müstəqilliyini yenidən bərpa edən Azərbaycan ağır böhran içində qalanda xalqın tələbi ilə yenidən ölkə rəhbərliyinə qayıdan Heydər Əliyev fenomenal istedadını, zəngin dövlətçilik təcrübəsini Tanrının və tarixin xalqımıza bəxşişi olan kövrək istiqlalımızın qorunub möhkəmlənməsinə yönəltdi.

Dünya təcrübəsindən məlumdur ki, bazar münasibətlərinə keçid asan proses deyildir. Lakin keçilməsi mümkün olan yoldur. Bazar iqtisadiyyatına keçid hər şeydən əvvəl aşağıdakı bir sıra kompleks tədbirlərin həyata keçirilməsini tələb edir: müstəqilliyin təmin edilməsi, mülkiyyətə sahiblik, maliyyə sabitliyi, əhalinin sosial təminatı, normativ hüquqi sənədlərin qəbul edilməsi və s.

Azərbaycan müstəqillik əldə etdikdən sonra qarşıda duran mühüm problem ölkəni yaranmış böhrandan çıxarmaq olmuşdur.

Ulu öndər H.Əliyev ikinci dəfə Azərbaycan Respublikasının rəhbəri kimi fəaliyyətə başlayandan sonra aqrar sahənin problemləri ilə tanış olmuş, yaranmış mövcud şəraitdə sahənin böhrandan çıxarılmasını ancaq köklü aqrar islahatların aparılması yolu ilə mümkünlüyünü müəyyən etdi.

Respublikada aqrar islahatların hüquqi bazasının yaradılması, onun təşkili və həyata keçirilməsində Heydər Əliyev misilsiz xidmət göstərmiş və bu mühüm dövlət, siyasi və iqtisadi tədbirin banisi və təşkilatçısı olmuşdur.

Hələ 1992-ci ildə H.Əliyevin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikasının Culfa rayonunun Gal və Şurut kəndlərində respublikada ilk dəfə olaraq ictimai təsərrüfatlarda islahata başlanmış və yeni özəl təsərrüfat qurumları yaradılmışdır. Bu təcrübə sonralar 1993-cü ildə respublikada aqrar islahatların aparılmasına hazırlıq dövründə nümunə rolunu oynadı. Ona görə də H.Əliyev 1993-cü ildə respublika rəhbərliyinə gələndən sonra iqtisadiyyatın böhrandan xilas edilib inkişaf etdirilməsinin yeganə yolunun islahatlar olduğunu müəyyən etdi.

Aqrar islahatların hüquqi bazasının yaradılması, bünövrəsinin qoyulması, onun təşkili və keçirilməsi ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır.

Belə mürəkkəb təsərrüfat mexanizminin formalaşması əslində 1994-cü ildən bir sıra normativ-hüquqi aktların hazırlanması, müxtəlif təsərrüfat formalarının təşkilinə əlverişli şəraitin yaradılması ilə başlanmışdır.

Aqrar bölmədə istehsalın mövcud vəziyyəti, sosial-iqtisadi şəraitin spesifikliyi, milli və tarixi xüsusiyyətlər, adət və ənənələr nəzərə alınmaqla, iqtisadi islahatları həyata keçirməklə bazar iqtisadiyyatına keçməyin əsas istiqamətləri müəyyənləşdirildi.

Aqrar sektorda islahatlar elə formada aparılmalı idi ki, sahəni tənəzzüldən xilas etsin və kəndin sosial-iqtisadi problemləri həll olunsun. Eyni zamanda mülkiyyət formaları müəyyən edilsin. Mülkiyyət formaları müəyyənləşdirilərkən perspektiv inkişaf, yerli və milli əhəmiyyətli təsərrüfatçılıq subyektləri, torpaqlar və əmlak mütləq diqqət mərkəzində olmalı idi. Ona görə də

torpaq və əmlak üzərində üç mülkiyyət forması haqqında qanunlar, normativ hüquqi aktlar qəbul olundu.

Aqrar sahədə milli əhəmiyyət kəsb edən dövlət mülkiyyət forması, yerli əhəmiyyətli bələdiyyə mülkiyyət forması və xüsusi mülkiyyət forması əsas götürüldü. (1)

Heydər Əliyevin fərmanı ilə 1994-cü ilin dekabrında və 1995-ci ilin mart ayında aqrar sektorda islahatların keçirilməsi, Kolxoz və Sovxozların islahatı üçün qanun layihələrinin hazırlanması və həyata keçirilməsi üzərində işləyən xüsusi komissiyalar yaradıldı.

Ulu Öndərin uzaqgörən fəaliyyəti, zəngin dövlətçilik təcrübəsi nəticəsində yeni müstəqillik əldə etmiş Azərbaycanda milli iqtisadiyyatın inkişafının spesifik cəhətləri, xüsusiyyətləri və milli mentalitetimizə uyğun olaraq bütün parametrləri nəzərə alaraq yeni ideyalar, layihələr və dövlət proqramları hazırlanmasına başlandı.

Heydər Əliyev ölkənin milli iqtisadiyyatının inkişafının yeganə yolunun ölkəmizdə yeni mülkiyyət münasibətlərinə əsaslanan azad bazar iqtisadiyyatını formalaşdırmaqla əsaslı və hərtərəfli özəlləşmə proqramının əsasında Aqrar və Torpaq islahatlarının aparılması olduğunu sübut etdi.

Heydər Əliyev müstəqil Azərbaycan dövlətçiliyinin, bazar münasibətlərinə əsaslanan yeni formada iqtisadiyyatın inkişaf konsepsiyasını yaratdı.

Ölkə rəhbərliyi qarşısında iqtisadi islahatlar keçirmək, yəni siyasi kursa uğun və bazar iqtisadiyyatının tələblərinə cavab verən iqtisadi sistem yaradılması problemləri dururdu.

İqtisadi islahatların əsasını təşkil edən aqrar islahatların tərkib hissəsi olan torpaq islahatlarının keçirilməsi həlli vacib problemlərdən biri idi. Bu vacib problemləri həyata keçirmək üçün isə heç bir qanunvericilik bazası formalaşdırılmamışdır.

Azərbaycan Respublikasının Prezidenti ulu öndər H.Ə.Əliyev cənabları 1994-cü il noyabr ayının 5-də “Aqrar islahatların aparılmasının sürətləndirilməsi” haqqında apardığı geniş müşavirədə sınaq məqsədilə Xızı və Zaqatala rayonlarında müvafiq qanunları gözləmədən Aqrar islahatların müstəqil keçirilməsi haqda tapşırıq vermişdir. (11,13)

1995-ci il aprel ayının 14-də Prezident Aparatında keçirilən müşavirədə Ulu Öndər həmin rayonlarda aqrar islahatların icra vəziyyəti haqqında məlumat verilməsini tələb etdi.

Heydər Əliyev cənablarının verdiyi tapşırıqdan dərhal sonra qısa müddət ərzində Xızı rayonunda Rayon Aqrar İslahat Komissiyası (RAİK) və kolxoz və sovxozlarda Yerli Aqrar İslahat Komissiyaları (YAİK) yaradılmış, 4 fəsil 41 maddədən ibarət rayon aqrar islahat proqramı hazırlanmışdır. Bu proqrama əsasən rayonda fəaliyyət göstərən 14 kolxoz və sovxozların balanslarında olan bütün növ daşınan və daşınmaz əmlak, əsas və dövriyyə vəsaitləri son təlimatlara əsasən qiymətləndirilmiş, bütün növ borclar – debitor, kreditor və ssuda borcları müəyyən edilmiş və islahat aparılan təsərrüfatların əmlakları hesabına ödənilmişdir. (12)

Respublikada Xızı rayonu yeganə rayon olmuşdur ki, onun islahata qədər olan bütün növ borcları dövlət tərəfindən yox, təsərrüfatların öz vəsaitləri hesabına ödənilmişdir.

Yerdə qalan əmlak hüquqi payçılar (kolxozda və sovxozda daimi işləyənlərə, həmin təsərrüfatda işləmiş və islahat vaxtı fərdi təqaüddə olanlar, kolxozda və sovxozda işləmiş və hərbi xidmətdə olanlar) arasında olanların iş stajlarına, əmək töhfələrinə, ictimai istehsaldakı iştirakına əsasən dəyəri ödənilmədən təmənnasız olaraq paylanmışdır.

Rayon üzrə özəlləşən təsərrüfatların ümumi əmlaklarının 1995-ci ildə qüvvədə olan pul vahidi ilə dəyəri 3130902 min manat olmuş, bundan mal-davarların dəyəri 2575032 min manat, texnika-binaların dəyəri 471917 min manat və bütün növ dövriyyə vəsaitlərinin dəyəri 83953 min manat olmuşdur. Özəlləşən təsərrüfatların bütün növ borcları 636111 min manat olmuşdur. Borcların miqdarı ümumi əmlakın cəmindən çıxıldıqdan sonra qalan 2494791 min manat 1397 nəfər payçılar arasında yuxarıda göstərilən kriteriyalar üzrə təmənnasız olaraq paylanmışdır. 1397 nəfər hüquqi payçıların 834 nəfəri kolxozçular və sovxozda işləyənlər, 485 nəfəri təqaüdçülər və 88 nəfəri şəhid ailəsi və hərbi qulluqçular olmuşdur. (11)

Fərdi istifadəsi və bölünməsi mümkün olmayan obyektlərin, texnikanın, ictimai binaların və digər əhəmiyyətli obyektlərin dağılıb sıradan çıxmasına yol verməmək məqsədilə ümumi payçıların razılığı ilə rayonda istehsal xidmət “Aqroservis” müəssisələri yaradılmış və bölünməyən əmlaklar onların balansına verilmişdir. (12)

Xidmət “Aqroservis”lərin nizamnamələri hazırlanmış, bankda hesabları açılmışdır.

Xidmət “Aqroservis”lər tam sərbəst özlərini saxlayan təsərrüfat hesablı müəssisədir. Onların balansına verilmiş texnikadan əmlak payı olan payçılara pulsuz, qalan şəxsi vətəndaşlara, idarələrə və müəssisələrə isə razılaşma yolu ilə pullu xidmət göstərilir.

Rayonda aparılmış Aqrar islahatların respublikada analoqu olmayan “Bələdiyyə yardım fondunun” yaradılmasıdır. (11)

Aqrar islahatı aparan zaman bəzi fərdi istifadəsi və bölünməsi mümkün olmayan dövlət əmlakının dağılmasına yol verməmək və habelə yeni yaradılmış istehsal qurumlarına – “Aqroservis”lərə, kəndli fermer təsərrüfatlarına, pay torpağı almış şəxsi təsərrüfatlara ilk vaxtlarda onların inkişafları üçün maliyyə yardımı göstərmək məqsədilə “Rayon bələdiyyə fondu” yaradılmışdır. Rayon bankında xüsusi hesab açılmışdır. “Bələdiyyə Yardım Fondunun” toplanmasını və xərclənməsini tənzimləmək məqsədilə xüsusi nizamnamə hazırlanmış, Kənd Təsərrüfatı Nazirliyi və Respublika Aqrar Sənaye Bankı ilə razılaşdırılmışdır. (11)

Azərbaycan Respublikasının Prezidenti H.Ə.Əliyev cənablarının 1994-cü il noyabr ayının 5-də verdiyi tapşırığa əsasən heç bir qanunları gözləmədən respublikada birinci olaraq Xızı rayonu müstəqil Aqrar islahatı 01 yanvar 1996-cı il tarixə tam başa çatdırmışdır.

Heydər Əliyev cənablarının rayona verdiyi ikinci tapşırıq isə torpaq islahatının aparılması olmuşdur.

Rayonda torpaq islahatı da heç bir qanunları gözləmədən müstəqil olaraq 1995-ci ilin yanvar ayından aparılmağa başlanmışdır.

Torpaq islahatının aparılmasında qarşıda duran əsas vəzifələrdən biri kəndçini torpağa bağlamaq, onların torpaqda işləmək həvəslərini artırmaq, torpağı onların mülkiyyətinə verməklə özününkü olduğuna inamlarını doğrultmaq olmuşdur.

Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin mütəxəssislərinin və Yerli Aqrar İslahat Komissiyası üzvlərinin iştirakı ilə rayonda fəaliyyət göstərən 18 təsərrüfatın hamısında torpaqlar növlər üzrə inventarizasiya olunmuş, kənd və qəsəbələrdə daimi yaşayan əhalinin siyahısı dəqiqləşdirilmiş və hər təsərrüfat üzrə torpaq payı alacaq hüquqi payçılar müəyyənləşdirilmişdir. Yerli əhalinin və rayon rəhbərliyinin razılığına və müvafiq olaraq RAİK-nın qərarına əsasən hüquqi torpaq payçılarına kolxoz və sovxozların istifadə etdikləri yalnız yararlı torpaq sahələri (əkin, dinc, biçənək) verilmişdir. Rayon ərazisində meyvə, üzüm bağları və xüsusi təyinatlı (toxumçuluq, meyvə tingliyi, damazlıq) təsərrüfatlar olmamışdır.

Rayonun 171112 hektar vahid torpaq fondunun 166789 hektarı və 43,7 %-i kənd təsərrüfatına yararlı torpaqlarıdır. Bundan əkinə yararlısı 7059 hektar 7,6%, dinc-biçənək isə cəmi 661 hektar və ya 0,7%-dir. (14)

Rayonun 171112 hektar vahid torpaq fondunun 91407 hektarı və ya 53%-i dövlət mülkiyyətinə, 73896 hektar və ya 43%-i bələdiyyə mülkiyyətinə, 5809 hektar və ya 4%-i xüsusi mülkiyyətə verilmişdir. Xüsusi mülkiyyətə verilmiş torpaq sahəsinin 5240 hektarı özəlləşən torpaqlar, 569 hektarı isə həyətyanı torpaqlardır.

Dövlət mülkiyyətində saxlanılan 91407 hektar torpaq sahəsinin 52093 hektarı islahat aparılmış təsərrüfatların ərazilərində olan yay, qış otlaq sahələri və xüsusi təyinatlı torpaqlar, 39314 hektarı isə dövlət əhəmiyyətli xüsusi təyinatlı torpaqlardır.

İslahat aparılmış 18 təsərrüfatın 131673 hektar özəlləşən torpaq sahələri mülkiyyət növləri üzrə aşağıdakı kimi bölünmüşdür: bələdiyyə mülkiyyətinə verilən torpaqlar 73896 hektar və ya 56%, xüsusi mülkiyyətə ayrılan torpaqlar cəmi 5809 hektar və ya 4.4%, bundan özəlləşən yararlı torpaq sahəsi 5240 hek-tar və ya 90.2%, həyətyanı sahələr isə 569 hektar və ya 9.8% təşkil edir.

Torpaq islahatı zamanı rayon üzrə 2150 ailəyə və 10180 subyektə (ailə üzvünə) 5240 hektar əkin və biçənək sahələri pay torpağı kimi verilmişdir. Rayon üzrə orta pay torpaq norması 0.51 hektar, özəlləşən torpaq sahəsi çox, payçıların az olduğu təsərrüfatlarda isə orta pay torpaq norması 1.1-1.3 hektar olmuşdur.

Gələcəkdə özəlləşən torpaqlar təyinatı üzrə istifadəsini, kənd təsərrüfatı texnikasından səmərəli istifadə edilməsini nəzərə alaraq, torpaq payçılarının razılığına əsasən qohumların və yaxın qonşuların torpaq sahələri eyni ərazidən verilmişdir. Həmin torpaq sahələrində payı bəlli ailə və ailə-fermer təsərrüfatları yaradılmışdır.

Hörmətli Prezident Heydər Əliyevin 1994-cü il noyabr ayının 5-də verdiyi tapşırığı Xızı rayonu heç bir qanunları gözləmədən müstəqil olaraq torpaq islahatını da 01 yanvar 1996-cı il tarixinə başa çatdırmışdır. (11, 14)

Rayonda müstəqil surətdə aparılmış Aqrar və Torpaq islahatlarının nəticələri 1996-cı il aprel ayının 2-də ulu öndər Heydər Əliyev cənablarının iştirakı ilə Dövlət Aqrar İslahat Komissiyasının kənd təsərrüfatı məsələlərinə dair respublika müşavirəsində ətraflı müzakirə olunmuş və bəyənilmişdir. Heydər Əliyev cənabları Xızı rayonunda sınaq məqsədilə aparılmış Aqrar və Torpaq islahatını bəyənmiş və Xızı modelinin respublikanın bütün rayonlarında tətbiqi haqqında tapşırıq vermişdir (“Həyat” qəzeti, 20 iyun 1996-cı il və “Xalq” qəzeti, 23 oktyabr 1996-cı il).

Beləliklə, həm xarici ölkələrin təcrübəsinə, həm də ölkə daxilində toplanmış təcrübəyə əsaslanaraq ilk növbədə hüquqi baza yaradıldı. Respublikada Aqrar islahatların hüquqi bazasının yadılması, onun təşkili və həyata keçirilməsində Heydər Əliyev misilsiz xidmət göstərmiş, bu mühüm dövlət, siyasi və iqtisadi tədbirin banisi və təşkilatçısı olmuşdur.

Ölkəmizdə aparılan Aqrar-Torpaq islahatı Ulu Öndərin şah əsəri – “Heydər Əliyev Aqrar-Torpaq islahatları” modeli – konsepsiyası kimi tarixə düşdü.

Yaradılmış hüquqi baza əsasında keçirilən torpaq islahatları artıq sona çatmış və respublikanın vahid torpaq fondunun (8,64 mln ha) 3,8 mln hek və ya 44,2%-i dövlət mülkiyyətinə, 2,7 mln hek və ya 31,4%-i bələdiyyə mülkiyyətinə və 2,1 mln hek və ya 24,4%-i isə xüsusi mülkiyyətə verilmişdir. (14)

İqtisadi islahatların əsasını təşkil edən Aqrar islahatların tərkib hissəsi kimi torpaq islahatlarının keçirilməsi həlli vacib problemlərdən biri idi və bu problemin həlli istisnasız olaraq Heydər Əliyevin təşəbbüsü, onun rəhbərliyi və daimi nəzarəti sayəsində mümkün oldu.

Bütün bunların nəticəsi olaraq respublikada torpaq islahatının birinci mərhələsi 2002-ci il oktyabr ayının 1-də başa çatdırılmışdır. Beləliklə, respublika üzrə 854264 ailəyə və ya 3347083 ailə üzvünə özəlləşdirilmiş 1391716 hektar yararlı torpaq payı verilmiş və mülkiyyət hüququna dair Dövlət aktı ilə təmin edilmişdir.

Beləliklə, rəsmi sənədlər, Dövlət aktları üzrə torpaqların vətəndaşlara paylanması Torpaq islahatlarının birinci mərhələsinin başa çatması kimi qiymətləndirilir. (14)

Bundan sonra ikinci mərhələnin həyata keçirilməsinə başlanmışdır. Bu mərhələdə bələdiyyə torpaqlarının ayrılıb bələdiyyələrə təhvil verilməsi, həyətyanı və bağ sahələrinin islahatlarının aparılması, onların sahiblərinə müvafiq hüquqi sənədlərin verilməsi oldu. Bunlardan başlıcası bələdiyyə torpaqlarının ayrılıb bələdiyyələrə təhvil verilməsiydi.

“Bələdiyyələrin əraziləri və torpaqları haqqında” Azərbaycan Respublikası Qanununa və başqa qanunvericilik aktlarına uyğun olaraq respublikanın bütün rayonlarında bələdiyyə torpaqlarının sərhədləri və sahələri müəyyən edilmiş, hüquqi sənədlərlə təmin edilmişdir. Buna görədə Aqrar-Torpaq islahatlarının aparılması, imkanları tükənmiş sosialist mülkiyyəti əvəzinə yeni mülkiyyət formalarınm yaradılması və yeni torpaq-mülkiyyət münasibətlərinin formalaşması günün ən mühüm və təxirəsalınmaz məsələsi oldu.

Əldə edilmiş bütün uğurlara görə hər bir Azərbaycan vətəndaşı səmimi-qəlbdən ulu öndər Heydər Əliyevə, Aqrar-Torpaq islahatlarının təşəbbüskarı və yaradıcısına minnətdardır.

H.Ə.Əliyevin torpaq islahatı MDB məkanında analoqu olmayan çoxsahəli bir prosesdir. Ölkənin kənd təsərrüfatının inkişafında böyük uğurlar əldə edilməsinə səbəb olan bu islahatları başqa ölkələrdə aparılan analoji islahatlardan fərqləndirən üç mühüm xüsusiyyəti göstərmək olar:

1. Dövlət başcısının təşəbbüsü ilə Azərbaycanda torpaq vətəndaşların mülkiyyətinə pulsuz verildi. Bunun nəticəsində üç milyon üç yüz min adam torpaq mülkiyyətçisinə çevrildi. Bu isə güclü mülkiyyətçilər sinfinin yaranmasına və yeni əkinçilik münasibətlərinin formalaşmasına gətirib çıxartdı, torpaqdan səmərəli və məhsuldar istifadə edilməsini, torpağa qayğıkeş münasibəti formalaşdırdı.
2. Ən yararlı və keyfiyyətli torpaqlar özəlləşdirildi. Yəni keçmiş kolxoz və sovxozların ən yararlı və münbit (əkin, biçənək, bağlar və s.) torpaqları mülkiyyətə verilmişdir. Eyni zamanda Azərbaycan Respublikası fiziki və hüquqi şəxslərinə onların mülkiyyətində olan torpaq sahələrinə müstəsna hüquqlar – alqı-satqı, bağışlama, icarəyə və istifadəyə verilmə və s. verilmişdir.
   Bu da Azərbaycanda torpaq islahatlarının formal şəkildə deyil, əsaslı, fundamental şəkildə aparıldığını sübut edir.
3. Yaşayış yerindən və şəxsiyyətindən asılı olmayaraq, ölkə ərazisində yaşayan bütün vətəndaşlara torpaqdan istifadə və icarə hüququ verilir.

Azərbaycanın istənilən vətəndaşı torpağın alqı-satqısında, torpaqla bağlı müxtəlif müqavilələrin bağlanmasında iştirak edə bilər. Yəni Azərbaycan Respublikasının istənilən vətəndaşı ölkədə formalaşan yeni torpaq mülkiyyəti münasibətlərinin birbaşa iştirakçısı ola bilər. Azərbaycan vətəndaşlığı olmayan fiziki və hüquqi şəxslərə Azərbaycanda torpaq mülkiyyəti hüququ verilmir. Bu isə təkcə mühüm iqtisadi əhəmiyyət deyil, eyni zamanda ciddi siyasi məna daşıyır.

Tarixə nəzər salsaq torpaq və onunla bağlı münasibətlər istənilən cəmiyyətdə əsas, müəyyənedici amillərdir. Bu funksiyasını nəinki sosial-iqtisadi, həm də siyasi və beynəlxalq münasibətlərdə də qoruyub saxlayır.

Torpaq bütün maddi nemətlərin mənbəyi olduğundan, siyasi rejimlərdə baş verən dəyişikliklərə və hətta ictimai-siyasi formasiyanın dəyişilməsinə baxmayaraq ona münasibət dəyişməmişdir.

Torpağa və torpaqla bağlı maddi nemətlər istehsalına lazımi səviyyədə yanaşmağı bacaran və bu istiqamətdə düzgün siyasət aparan dövlətlər və siyasi rejimlər mövcudluğunu qorumuş, bu problemləri tənzimləməyi bacarmışlar.

Beləliklə, təsdiq etmək olar ki, tarixin ən mühüm hadisə və proseslərində, dövlətlərin yaranma və dağılmasında, hətta ictimai formasiyaların dəyişilməsində torpağa münasibət amili həlledici rol oynamışdır.

H.Ə.Əliyevin torpaq siyasətinin müdrikliyi bir də ondadır ki, bu islahatların nəticəsi olaraq torpaqların qorunması məsələsi mülkiyyətçilərin şəxsi maraqları dairəsinə daxil edilmiş, bu isə həmin sahədə nəzarətin həyata keçrilməsini xeyli asanlaşdırmışdır.

Burada ən vacib bir məsələni qeyd etmək lazımdır ki, torpaq islahatı zamanı vətəndaşların mülkiyyətinə verilən və Dövlət aktı ilə sənədləşdirilən torpaqlar yalnız kənd təsərrüfatı məqsədi ilə verilmişdir, vətəndaşlar həmin torpaqların təyinatını dəyişdirə bilməzlər. Respublikanın vahid torpaq fonduna daxil olan özəlləşdirilən və ümumiyyətlə, bütün növ torpaq sahələrinin təyinatı yalnız Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə dəyişdirilə bilər.

Torpaq-vətəndaş münasibətlərində həyata keçirilən tarixi və inqilabi hadisənin birinci mərhələsinin yekunlarını **Ulu Öndər olduqca yüksək qiymətləndirərək demişdir: “Biz torpaq islahatının aparılmasında radikal tədbirlərə əl atmışıq. Deməliyəm ki, nəticə idealdır. Özü də bu hələ başlanğıcdır”.** (15)

Beləliklə, H.Əliyevin təşəbbüsü və rəhbərliyi ilə ümumxalq müzakirəsindən sonra Torpaq və Aqrar islahat proqramı hazırlandı. Həmin proqram əsasında Aqrar-Torpaq islahatlarının həyata keçirilməsini təmin edən hüquqi baza yaradıldı.

Qəbul edilmiş qanunlara uyğun olaraq torpaq islahatlarının aparılmasının məqsədi iqtisadi azadlıq və sosial ədalət prinsipləri əsasında torpaq üzərində yeni mülkiyyət münasibətlərini yaratmaq, bazar iqtisadiyyatını və sahibkarlıq təşəbbüsünü inkişaf etdirmək, ölkənin iqtisadi müstəqilliyinə, o cümlədən ərzaq təminatına nail olmaq və nəticə etibarı ilə Azərbaycan xalqının maddi rifahını yüksəltməkdən ibarət olmuşdur.

İndi fəxrlə deyə bilərik ki, müstəqil ölkəmizdə aparılan Aqrar və Torpaq islahatları tarixə “H.Əliyev Aqrar-Torpaq islahatları” modeli kimi düşdü.

Ulu öndər H.Əliyevin zəngin siyasi irsi, dövlət idarəçilik təcrübəsi, siyasi elmə gətirdiyi yeniliklər bütün zamanlarda Azərbaycanı firavan gələcəyə istiqamətləndirəcək.

Torpaq islahatının əsas vəzifələri ilk öncə respublikanın vahid torpaq fondu ərazisində dövlət torpaqlarının müəyyən edilməsi, torpaqların bələdiyyə və xüsusi mülkiyyətə verilməsini, torpağa sahiblik, istifadə və sərəncam vermək hüquqlarını təmin etməkdən ibarət olmuşdur.

"Torpaq islahatı haqqında" Qanuna uyğun olaraq torpaq islahatının obyektini Azərbaycan Respublikasının vahid torpaq fondu təşkil edir. Azərbaycan Respublikasının vahid torpaq fondu torpaq islahatı zamanı dövlət mülkiyyətində saxlanılan, bələdiyyə mülkiyyətinə və xüsusi mülkiyyətə verilən üç kateqoriyaya bölünmüşdür. (15)

Bu Qanunun ən mühüm cəhətlərindən biri də odur ki, bunun əsasında bütün mülkiyyət formaları – dövlət, bələdiyyə və xüsusi bərabər hüquqa malikdirlər və dövlət tərəfindən qorunur.

Dövlət mülkiyyətində olan torpaq sahələri üzərində mülkiyyət hüququnun subyekti Azərbaycan dövləti, bələdiyyə mülkiyyətində olan torpaq sahələri üzərində bələdiyyələr, xüsusi mülkiyyətdə olan torpaq sahələri üzərində isə Azərbaycan Respublikasının vətəndaşları, və hüquqi şəxsləridir. İslahat nəticəsində dövlət mülkiyyətində qalan torpaqlar bir mənalı olaraq dövlət mülkiyyətini təşkil edir və müvafiq qaydada istifadəyə və ya icarəyə verilə bilər.

Dövlət mülkiyyətində olan torpaqların istifadəsi və mühafizəsi sahəsində dövlət idarəetməsini Azərbaycan Respublikasının Nazirlər Kabineti və digər əlaqədar orqanlar öz səlahiyyətlərinə uyğun olaraq həyata keçirirlər.

Bələdiyyə mülkiyyətinə verilən torpaqlara müvafıq ərazi vahidi hüdudları daxilində dövlət mülkiyyətində saxlanılan və xüsusi mülkiyyətə verilən torpaqlar çıxılmaqla qalan torpaqlar aiddir. Bələdiyyə torpaqlarının istifadə və mühafizəsini bələdiyyələr öz səlahiyyətlərinə uyğun olaraq həyata keçirirlər. (7)

Xüsusi mülkiyyətə sovxoz, kolxoz və digər kənd təsərrüfatı müəssisələrinin özəlləşdirilən (əkin, dinc, biçənək, çoxillik əkmələr) torpaqları ilə yanaşı, vətəndaşların qanuni istifadəsindəki fərdi yaşayış evləri, həyətyanı sahələr, bağlar altında olan torpaqlar verilibdir. (4)

Qanunun ədalətliliyi bir də bundadır ki, Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüşlərdə həlak olmuş şəxslərin ailələrinə, müharibə veteranlarına, əlillərinə, Çernobıl qəzasının ləğvində iştirak etmiş şəxslərə əlavə bir torpaq payı verilmişdir.

Özəlləşdirilən torpaq sahələrinin xüsusi mülkiyyətə verilməsindən sonra həmin torpaqlarda könüllülük əsasında müxtəlif təsərrüfat formalarının – kəndli fermer təsərrüfatları, kooperativlər, kiçik müəssisələr yaradılmasına və fəaliyyətlərinə bərabər şərait yaradılmışdır.

"Torpaq islahatı haqqında" Qanuna əsasən torpaq payı almaq hüququna malik olan şəxslərə torpaq payı dünyada analoqu olmayan bir formada dəyəri ödənilmədən əvəzsiz olaraq verilmişdir.

Respublikada uğurla həyata keçirilən Torpaq islahatı ölkənin aqrar sektorunda və bütövlükdə onun iqtisadiyyatında aparılan irimiqyaslı islahatlar, bazar iqtisadiyyatınm tələblərinə uyğun olaraq aqrar sektorda mövcud olan istehsal münasibətlərini kökündən dəyişdirmişdir.

Azərbaycan Respublikası Prezidentinin 10 yanvar 1997-ci il tarixli 534 nömrəli "Aqrar islahatların həyata keçirilməsini təmin edən bəzi normativ-hüquqi aktların təsdiq edilməsi barədə" Fərmanı son dərəcə böyük rol oynamışdır.

Azərbaycan Respublikası Prezidentinin "Dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yer quruluşu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə 12 mart 1999-cu il tarixli 113 nömrəli, "Torpaq icarəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə 12 mart 1999-cu il tarixli, 116 nömrəli və "Torpaq bazarı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə 8 iyul 1999-cu il tarixli 150 nömrəli Fərmanları bütövlükdə torpaq islahatının aparılmasında mərkəzi icra hakimiyyəti və dövlət idarəetmə orqanlarınm səlahiyyətlərini konkret müəyyənləşdirən sənədlər oldu.

***"Kənd təsərrüfatı sahəsindəki inkişafımız yalnız və yalnız iqtisadi islahatların həyata keçirilməsi ilə bağlıdır. Gecikmək olmaz. Bu mənim üçün əsas prinsipdir. Mən bu prinsipdən geri çəkilməyəcəyəm*"– Heydər Əliyev.**

Respublikanın vahid torpaq fondunun, xüsusilə kənd təsərrüfatına yararlı torpaq sahələrinin təyinatı üzrə səmərəli istifadə edilməsinin təmin edilməsi ən təxirə salınmayan problemdir.

Respublikanın vahid torpaq fondunun mövcud istifadəçilik vəziyyəti ayrı-ayrı iqtisadi bölgələr üzrə xeyli müxtəlifliyi ilə səciyyələnir. (15)

– Respublikanın 8.641 min hektar ərazisinin 4.756 min hektarı (55,0%) kənd təsərrüfatına yararlı torpaq sahələrindən ibarətdir. Bunun 1.684 min hektarı (35,4%) əkin və dincə qoyulmuş sahələrdir. 163.3 min hektar (3,4%) çoxillik bitkilər altında olan torpaqlar, 110.7 min hektarı biçənək sahələridir.

Kənd təsərrüfatında istifadə edilən torpaqların əsas hissəsini, yəni 2.574 min hektarını (54,1%) yay, qış otlaq və örüş sahələri təşkil edir.

Həyətyanı xüsusi mülkiyyətdə olan torpaq sahələri 224.8 min hektar və ya 4,7% təşkil edir.

Respublikanın vahid torpaq sahəsinin xeyli hissəsi, yəni 3,765 min hektarı və ya 45,0%-i kənd təsərrüfatında istifadə edilməyən torpaqlardır.

Bunlardan 1.038 min hektarı və ya 12,0%-i meşə torpaqları, kənd təsərrüfatına az yararlı və şərti yararsız torpaqlar isə 2.849 min hektar və ya 33,0%-i təşkil edir. (15)

Aqrar sahəsinin hərtərəfli inkişafı üçün ölkəmiz əlverişli şəraitə malikdir. Bu əlverişli şəraitdən məqsədyönlü istifadə edilməsi isə ən vacib məsələdir. Bu vacib məsələlərdən ən başlıcası isə bütün maddi nemətlərin mənbəyi olan torpağa münasibət amili həlledici rol oynayır.

Respublikada kənd təsərrüfatına yararlı torpaq fondunun mövcud istifadəçilik vəziyyəti ayrı-ayrı iqtisadi bölgələr üzrə xeyli müxtəlifliyi ilə səciyyələnir. (15) Əkinə yararlı torpaqlar əsasən düzənlik zonalarda yerləşdiyindən bu sahələrdə yeraltı qrunt suları suvarma suları ilə birləşərək torpaqlarda şorlaşma və şorakətləşmə təhlükəsi yaratmışdır. Nəticədə aparılmış torpaqların müasir istifadəsi vəziyyətinin təhlili və statistik məlumatlara əsasən respublikanın kənd təsərrüfatına yararlı torpaq sahəsinin xeyli hissəsi şorlaşmış, şorakətləşmiş, eroziyaya uğramış və nəticədə yararsız vəziyyətə düşərək əkin dövriyyəsindən çıxarılmışdır.

Respublikanın kənd təsərrüfatı sahələri (əkin, dinc, çoxillik əkmələr, biçənək, örüş və otlaqlar) torpaqlarının 565511 hektarı və ya 12.5 %-i müxtəlif dərəcədə şorlaşmış, 42500 hektarı və ya 7.5%-i isə tam şoran torpaqlardır. Müxtəlif dərəcədə şorakətləşmiş torpaq sahələrinin ümumi sahəsi isə 508270 hektar və 11.2% təşkil edir. Vahid torpaq fondunun 3.5 mln hektarı müxtəlif dərəcədə eroziyaya uğramış torpaqlardır. Məlum olduğu kimi, şoran və şorakət torpaqlar qeyri-münbit torpaqlar hesab olunur. Şoran və şorakətli torpaqlar yalnız kompleks aqromeliorativ tədbirlər həyata keçirildikdən və keyfiyyəti yaxşılaşdırıldıqdan sonra kənd təsərrüfatında istifadə oluna bilər. Keçmiş kolxoz və sovxozlar tərəfindən "Azərkəndtəsərrüfattexnika" Respublika birliyinin iştirakı ilə Respublikada hər il 30-100 min hektar sahədə yuma aparıldığı halda sonralar bu işlər tamamilə dayandırılmışdır. (13)

Ümumilikdə kənd təsərrüfatına yararlı torpaq sahələrinin 1.493 min hektarı və ya 29.9%-i suvarma suyu ilə təmin olunmuş, 3.341 min hektarı və ya 70.1%-i dəmyə şəraitində istifadə olunur.

Vahid torpaq fondunun yalnız 1425975 hektarı və ya 16.5%-i suvarılan torpaqlardır. O cümlədən dövlət mülkiyyətində olan torpaqların 13.8%-i, bələdiyyə mülkiyyətinə verilən torpaqların 6.7%-i, özəlləşən xüsusi mülkiyyətə verilən və həyətyanı torpaqların isə cəmi 79.5%-i suvarılan torpaqlardır.

Eroziya, şorlaşma, şorakətləşmə və digər amillərin milli sərvətimiz olan torpaq üçün nə qədər ciddi problemlər yarada biləcəyini anlamaq bir o qədər çətin deyil.

Bunları nəzərə alan hörmətli Prezident İlham Əliyevin sərəncamı ilə təsdiq edilmiş "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair" Dövlət Proqramında eroziyaya uğramış, şoranlaşmış, şorakətləşmiş və digər səbəblərdən deqradasiyaya məruz qalmış torpaqların müəyyən edilməsi və xəritələşdirilməsi, onlardan səmərəli istifadə edilməsi ilə bağlı təkliflərin hazırlanması haqqında tapşırıqlar verilmişdir.

İnsanın təsərrüfat fəaliyyəti nəticəsində pozulmuş landşaftın rekultivasiyasının istiqaməti və metodları pozulmanın xarakterindən, regionun inkişaf vəziyyəti və perspektivliyindən, rekultivasiyasının həmin region üçün iqtisadi və sosial əhəmiyyətlərindən asılıdır. Odur ki, ölkənin müxtəlif regionlarında rekultivasiya işləri həmin ərazinin spesifik xüsusiyyətlərinə uyğun aparılmalıdır. Ona görə də torpağın rekultivasiyası, kompleks aqromeliorativ tədbirlərin aparılması və münbitliyinin artırılması vacib məsələlərdəndir.

Respublikada həyata keçirilən torpaq islahatının uğurlu nəticələrinə baxmayaraq, uzun illər ərzində formalaşan qırılmış təsərrüfat əlaqələrinin bərpası hamar yolla getməmiş, xeyli maddi vəsait, gərgin əmək və vaxt hesabına başa gəlmişdir. Həyata keçirilən torpaq islahatını birdəfəlik tədbir hesab etmək düzgün fikir olmaz.

Bu haqda Ulu Öndər demişdir: **"Biz islahatları bir gündə yox, bir ayda yox, bəlkə də, bir ildə yox, tədricən həyata keçirməliyik. Çünki bunun üçün həm təcrübə lazımdır, həm də səhv buraxmayasan"**. (14)

Torpaq islahatı həmişə inkişafda olan dinamik bir prosesdir ki, bu da digər proseslərlə kompleks şəkildə həyata keçirilməlidir.

İslahatların birinci mərhələsinin başa çatması kimi torpaqların mülkiyyət növlərinə (dövlət, bələdiyyə və xüsusi) verilməsi ilə yanaşı, ölkədə vahid torpaq fondu üzrə dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yer quruluşu işlərinin də kompleks həyata keçirilməsi xüsusi əhəmiyyət kəsb etdiyindən bu işlərin nizama salınmasının hüquqi əsaslarını tənzimləyən "Dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yer quruluşu haqqında" 12 mart 1999-cu ildə Azərbaycan Repsublikasının Qanunu qəbul olunmuşdur. Qanunda nəzərdə tutulan işlərin aparılması qaydaları haqqında əsasnamə hazırlanmış və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 7 iyun tarixli qərarı ilə təsdiq edilmişdir. Həmin əsasnamədə nəzərdə tutulmuşdur ki, bütövlükdə biosfer monitorinqinin tərkib hissəsi kimi torpaqların monitorinqi Azərbaycan Respublikasının vahid torpaq fondunda inzibati-ərazi vahidləri və mülkiyyətçilər üzrə vahid metodologiya əsasında keçirilir və aşağıdakıları nəzərdə tutur:

– Dövlət, bələdiyyə və özəl mülkiyyətdə olan torpaq sahələrinin eroziya, şorlaşma, şorakətləşmə, bataqlaşma, səhralaşma, təhlükəli kimyəvi maddələrlə çirklənməsinin, onların təyinatının, ölçülərinin, sərhədlərinin və başqa kəmiyyət və keyfiyyət göstəricilərinin, torpaqlardan rasional istifadəsi, torpaqların sabitliyinin təmin edilməsi və yaxşılaşdırılması, eləcə də torpaqların mühafizəsi ilə bağlı olan məsələlərin həllində müvafiq tədbirlər sisteminin hazırlanması və həyata keçirilməsi.

Dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yerquruluşu işlərinin yuxarıda göstərilən əsasnamə və qaydalar üzrə təşkili və onların yerinə yetirilməsinə nəzarət Azərbaycan Respublikasının əlaqədar dövlət təşkilatlarına həvalə edilmişdir.

Əfsuslar olsun ki, əsasnamədə nəzərdə tutulmuş proseslərin baş verməsi və qabaqlayıcı tədbirlər planının hazırlanması, təşkili və yerinə yetirilməsi cavabdeh təşkilatlar tərəfindən tələb olunan səviyyədə yerinə yetirilməmiş və nəticədə yuxarda qeyd olunduğu kimi, kənd təsərrüfatına yararlı torpaq sahələri müxtəlif dərəcədə şorlaşması, şorakətləşməsi, eroziyaya uğraması və ən əsası təynatı üzrə istifadə edilməməsi səbəbindən əkin dövriyyəsindən çıxarılmışdır. Dövriyyədən çıxarılmış torpaqların yaxşılaşdırılması haqqında isə kompleks aqromeliorativ tədbirlər tələb olunan səviyyədə aparılmamışdır.

Torpaq islahatı zamanı əhalinin mülkiyyətinə verilmiş torpaqların yalnız kənd təsərrüfatı məqsədi üçün istifadə etmələri haqqında maarifləndirici tədbirlərin aparılmaması və ya zəif aparılması nəticəsində verilmiş pay torpaqlarınm bir qismi təyinatı üzrə istifadə edilmir.

"Torpaq islahatı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə 13 avqust 1996-cı il tarixli 482 nömrəli fərmanında Ulu Öndər Nazirlər Kabinetinə təkliflər verilməsi üçün konkret tapşırıqlar vermişdir. Nazirlər Kabineti, düzdür, üç bənddən ibarət təkliflər vermişdir. Bu zaman Nazirlər Kabineti, Kənd Təsərrüfatı Nazirliyi və digər təşkilatlarla ən əsas məsələ haqqında təklif verməli idilər. Bu əsas məsələ isə Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanın özünün uzun illərdən fundamental elmi-təcrübələr əsasında yaradılmış intensiv meyvə və üzüm bağlarının, ildə 32-34 min ton yaşıl çay yarpağı verən çay plantasiyalarının altında olan torpaq sahələrinin hansı formada özəlləşdirilməsi haqqında təklif verilməliydi. Çünki çoxillik bitkilər – meyvə, üzüm bağları, çay plantasiyaları dövriyyə vəsaitləridir.

Onların silinməsi və təyinatının dəyişdirilməsi isə yalnız müvafiq qanunlara uyğun Nazirlər Kabinetinin qərarına əsasən olmalıdır. Həmin sahələrin hansı formada özəlləşməsi haqqında hörmətli Prezidentə heç bir təklif verilməmişdir.

Torpaq islahatı zamanı əhaliyə pay torpağı kimi verilmiş intensiv, məhsuldar bağların, çay plantasiyalarının və ümumiyyətlə, onlara verilmiş pay torpaqlarının təyinatının dəyişdirilməməsi haqqında maarifləndirici iş aparılmamış və yaxud zəif aparılmışdır. Əhali isə onlara pay torpağı kimi verilmiş meyvə, üzüm bağlarını, çay plantasiyalarını ləğv edib yerində birillik bitkilər əkmişdir. Bunun nəticəsi olaraq məhsuldar çay plantasiyası ilbəil azalaraq 1985-ci ildə 13.7 min hektar, 2000-ci ildə 5391 hektar, 2010-cu ildə isə 794 hektar olmuşdur. Müvafiq olaraq 1985-ci ildə 31.7 min ton, 2010-cu ildə isə cəmi 450 ton yaşıl çay yarpağı istehsal olunmuşdur. Məhsuldar üzüm bağlarının ümumi sahəsi 1985-ci ildəki 267.8 min hektardan, 2010-cu ildə 15 min hektara qədər azalmış, məhsul istehsalı da müvafiq olaraq 1789.6 min tondan azalaraq 129.2 min ton olmuşdur.

Strateji əhəmiyyətə malik olan pambıq istehsalı da kəskin azalaraq 1985-ci ildəki 787.8 min tondan, 2010-cu ildə 31.9 min tona qədər azalmışdır. (14,15)

2005-ci ildən başlayaraq üzüm, meyvə və çay plantasiyalarının bərpa edilməsi istiqamətində tədbirlər həyata keçirilir.

Məlumdur ki, digər sahələrin bərpası tezliklə və nisbətən daha az vəsait sərfi ilə mümkündürsə, üzümçülük, meyvəçilik və çayçılıq çoxlu vəsait tələb edir və onların bar verməsi üçün bir neçə illər tələb olunur.

Azərbaycanın iqtisadi inkişafının mühüm strateji istiqamətlərindən olan pambıqçılığın, üzümçülüyün, çayçılığın, tütünçülüyün, baramaçılığın və başqa mühüm kənd təsərrüfatı sahələrinin inkişafına biganə münasibət respublika iqtisadiyyatının inkişafına güclü mənfi təsir göstərə bilər.

Məlum olduğu kimi, ölkədə kənd təsərrüfatının inkişafına yeni təkan vermək və onun modernləşdirilməsini sürətləndirmək, aqrar sektorda mövcud problemlərin həllinə sistemli və kompleks yanaşmanı təmin etmək, bu sahəyə dövlətin inzibati və maliyyə resurslarını səmərəli şəkildə cəlb etmək və ölkənin aqrar potensialını geniş təbliği məqsədilə Prezidentin sərəncamı ilə 2015-ci il Azərbaycanda Kənd Təsərrüfatı ili elan edilmiş və dövlət başçısının 3 aprel 2015-ci il tarixli sərəncamı ilə bununla bağlı tədbirlər planı təsdiq edilmişdir.

Aqrar sahədə ardıcıl həyata keçirilən məqsədyönlü tədbirlər aqrar bölməyə dövlət qayğısının bariz nümunəsidir.

Azərbaycan tarixən aqrar ölkəsi olmuş və hazırda da aqrar ölkəsidir. Ölkənin əsas aqrar sahəsi isə bitkiçilik, meyvəçilik, üzümçülük, çayçılıq, pambıqçılıq, heyvandarlıq və başqa sahələrdir.

**"*Qeyri-neft sektoru Azərbaycanın gələcəyidir, Azərbaycan iqtisadiyyatının hərtərəfli inkişafı üçün başlıca şərtdir*", – İlham Əliyev**

Bunu nəzərə alan hörmətli Prezident İlham Əliyev ölkə iqtisadiyyatını daha da yaxşılaşdırmaq məqsədi ilə respublikanın ən aparıcı sahələrinin – pambıqçılığın, üzümçülüyün, çayçılığın, baramaçılığın inkişaf etdirilməsi sahəsində kompleks tədbirlərin hazırlanması və həyata keçirilməsinin təmin edilməsi istiqamətində konkret tapşırıqlar vermişdir.

Beləliklə, yuxarıda qısa təhlildən aydın olur ki, becərilən kənd təsərrüfatına yararlı torpaq ehtiyatlarında pisləşmə prosesi gedir, bəzi torpaq sahələri öz təyinatı üzrə istifadə olunmur. Nəticədə torpaqların əkin dövriyyəsindən çıxarılma prosesi həyəcan doğurur. Respublikanın vahid torpaq fondunu təşkil edən bölgələrin torpaq örtüyündə uzun zaman davam edən dağıdıcı təbii və antropogen təsirlərin qarşısını almaq və yaxud bu təsirləri əsaslı şəkildə məhdudlaşdırmaq, torpağın (da-

vamlı və dayanıqlı) təbii münbitliyinin təmin olunması, onun bərpası, artırılması və mühafizəsi sahəsində Milli Dövlət Proqramının hazırlanmasına zərurət yaranmışdır. Bu proqram əsasında regional və yerli proqramların hazırlanıb praktiki tətbiqi məsələləri tezliklə öz həllini tapmalıdır.

Bu gün fəxrlə deyə bilərik ki, Ulu Öndərin qoyduğu siyasi kurs etibarlı əllərdədir. Azərbaycanın ən yeni tarixinin banisi olan Heydər Əliyevin təməlini qoyduğu böyük və xeyirxah əməllər ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən layiqincə və uğurla davam etdirilir.

**Ədəbiyyat:**


1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 2009.
2. "Aqrar islahat haqqında" Azərbaycan Respublikasının Qanunu (18 fevral 1995-ci il, № 976).
3. "Sovxoz və kolxozların islahatı haqqında" Azərbaycan Respublikasının Qanunu (18 fevral 1995-ci il, № 978).
4. "Torpaq islahatı haqqında" Azərbaycan Respublikasının Qanunu (16 iyul 1996-cı il, № 155-İQ).
5. "Torpaq islahatı haqqında" Azərbaycan Respublikasının Qanununun tətbiqi barədə 13 avqust 1996-cı il tarixli 432 nömrəli fərman.
6. "Dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yer quruluşu haqqında " Azərbaycan Respublikasının Qanununun tətbiq edilməsi barədə 12 mart 1999-cu il tarixli 113 nömrəli fərman.
7. "Bələdiyyə torpaqlarının idarə olunması haqqında" Azərbaycan Respublikasının Qanunu, 2001-ci il, 29 iyun N160-IIQ.
8. "Aqrar islahatların əsasları haqqında" Azərbaycan Respublikasının 18 fevral 1995-ci il tarixli Qanunu.
9. Dövlət Statistika Komitəsi – Azərbaycanın kənd təsərrüfatı, Bakı, 2010.
10. Dövlət Statistika Komitəsi. Azərbaycanın statistik göstəriciləri, 2016.
11. "Aqrar və torpaq" islahatlarının Xızı modeli "Həyat" qəzeti – 20 iyun 1996-cı il.
12. "Aqrar və torpaq" islahatlarının Xızı modeli "Xalq" qəzeti – 23 oktyabr 1996-cı il.
13. Abasov İsmət. Azərbaycanın Kənd Təsərrüfatı, "Elm və Təhsil", Bakı, 2010.
14. Məmmədov Q.Ş. Azərbaycan Torpaq İslahatı. "Elm" nəşriyyatı, Bakı, 2002.
15. Məmmədov Q.Ş. Azərbaycanın torpaq ehtiyatlarından səmərəli istifadənin sosial-iqtisadi və ekoloji əsasları. Bakı, "Elm" nəşriyyatı, 2007.


**Açar sözlər:** *islahat, aqrar islahatı, torpaq islahatı, əmlak payı, torpaq payı, mülkiyyət, dövlət, bələdiyyə, şəxsi mülkiyyət*

**Ключевые слова**: *реформа, аграрная реформа, земельная реформа, имущественная доля, земельная доля, собственность, государство, муниципалитет, личная собственность*

**Key words:** *reform, agrarian-reform, land reform, property share, land share, property, state, municipal, private property*

**Ибрагимхалил Ибрагимов**

***доцент кафедры «Государственное управление и менеджмент» Академии Государственного Управления при Президенте Азербайджанской Республики***

## УСПЕХИ АГРАРНЫХ РЕФОРМ ГЕЙДАРА АЛИЕВА

### РЕЗЮМЕ

После обретения Азербайджаном государственной независимости одной из основных проблем стало преодоление возникшего в стране кризиса. Общенациональный лидер Гейдар Алиев, вернувшись по требованию азербайджанского народа к управлению страной второй раз, глубоко изучил проблемы аграрного сектора и пришёл к выводу, что преодоление глубочайшего кризиса в этой сфере экономики возможно лишь при условии проведения коренных аграрно-земельных реформ. В короткий срок была подготовлена обоснованная законодательная база, обеспечивающая необходимые реформы. На её основе в стране в кратчайшие сроки были завершены эти преобразования. В результате были созданы новые формы собственности – государственная, муниципальная и частная. Все эти формы собственности юридически равноправны и защищаются государством. Проводимые в стране аграрно-земельные реформы вошли в историю под названием «Модель аграрно-земельных реформ Гейдара Алиева».

**Ibrahimkhalil Ibrahimov**

***The Academy of Public Administration under the President of the Republic of Azerbaijan Chair of Public Administration and Management Associate professor, PhD in agriculture***

## PROGRESS IN AGRARIAN REFORMS OF HEYDAR ALIYEV

### SUMMARY

After independance of Azerbaijan, overcoming the crisis was one of the main problem. Once retruned to the country upon request of Azerbaijani people, the National Leader of Azerbaijan Heydar Aliyev examined the problems in agrarian sector and concluded that overcoming the crisis in this sphere of economy is possible only due to fundamental agrarian-land reforms. Based on the legislative framework, ensuring the necessary reforms, was developed. The new forms of ownership like public, municipal and private ownership were established on the basis of it. All these forms are juridicially equal and protected by the state. The implemented agrarian-land reforms is know as "Heydar Aliyev's model of agrarian-land reforms"

**MURTƏZA HƏSƏNOV**

*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyasının "Dövlət qulluğu və kadr siyasəti"*
*kafedrasının dosenti, siyasi elmlər üzrə fəlsəfə doktoru*

# AZƏRBAYCANDA BƏLƏDİYYƏ İDARƏETMƏSİ SİSTEMİ: UĞURLAR VƏ İNKİŞAF PERSPEKTİVLƏRİ

## GİRİŞ

Azərbaycan suverenlik əldə etdikdən, müstəqilliyin bərpasından sonra yeni iqtisadi şəraitdə, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğuna müvafiq keçid dövründə dövlət aparatının, dövlət idarəetmə sisteminin yenidən qurulması və dövlət qulluğunun formalaşması mərhələsinə başlanılır. İslahatların həyata keçirilməsində Azərbaycan Respublikasının Prezidenti, ümummilli lider Heydər Əliyevin «Hüquqi islahatlar komissiyasının yaradılması haqqında» Sərəncamının (1996) və «Dövlət idarəetmə sistemində islahatlar aparılması üzrə dövlət komissiyasının yaradılması haqqında» Fərmanının (1998) müstəsna rolu olmuşdur.

Yerli özünüidarəetmə hər bir demokratik quruluşun əsas institutlarından biridir. İnkişaf etmiş ölkələrin çoxillik təcrübəsi göstərir ki, hər bir regionun, ərazinin təbii və sosial iqtisadi potensialından tam və səmərəli istifadə etmək və bu əsasda əhalinin maddi rifahını yaxşılaşdırmaq üçün təkcə dövlət idarəçilik orqanlarının mövcud olması kifayət deyil.

Demokratik, hüquqi dövlətin qarşısında duran əsas məsələlər yalnız hakimiyyətin bütün səviyyələrində səmərəli idarəetmə sisteminin mövcud olduğu şəraitdə, o cümlədən inkişaf etmiş yerli özünüidarəetmə sisteminə əsaslanmaqla səmərəli şəkildə həll oluna bilər. Müasir dövrdə dövlətə artıq hakimiyyətin yeganə mərkəzləşdirilmiş subyekti kimi baxılmır və dövlət idarəetməsinin demokratikliyi prinsipi bütövlükdə dövlətdə olduğu kimi hər bir ərazi qurumunun da özünütəşkili və inkişafını nəzərdə tutur. Ona görə də müasir dövrdə ölkənin ictimai və dövlət strukturunda yerli özünüidarəetmənin yeri, rolu və təyinatı ilə bağlı məsələlərin, yerli özünüidarəetmənin demokratik hüquqi dövlət və vətəndaş cəmiyyəti ilə bağlı aspektlərinin, dövlətlə yerli özünüidarəetmənin qarşılıqlı fəaliyyəti ilə bağlı problemlərin öyrənilməsi xüsusi əhəmiyyətə malikdir [4, 396].

Bələdiyyələrin statusunun yüksəldilməsi Azərbaycan hökuməti üçün də prioritetdir və Yoxsulluğun Azaldılması və İqtisadi İnkişafı üzrə Dövlət Proqramında da (YAİİDP) öz əksini tapmışdır. "Hökumət dövlət sektorunda idarəetməni əks-mərkəzləşdirməyə çalışır. Bələdiyyələrin yaranması bu prosesdə önəmli addım sayılır. Əks-mərkəzləşdirmə prosesinin bir hissəsi kimi, bələdiyyələr yerlərdə mənbələrin bölüşdürülməsinin təkmilləşdirilməsini, regional inkişafın təşviqini və yerli əhalinin qərar vericilikdə daha aktiv iştirak etməsini təmin etməklə yerli idarəetmənin güclənməsinə və qərar vericiliyə yardım edə bilər".

Demokratik inkişaf yolu seçən istənilən dövlət üçün yerli özünüidarəetmənin təsis edilməsi əhalinin əmin-amanlığının, vətəndaş cəmiyyətinin bərqərar edilməsinin əsas şərtlərindən biri kimi qəbul edilir. Bu baxımdan inkişaf etmiş, müxtəlif dövlət və hüquq sistemində olan ölkələrin yerli özünüidarəetmə modelinin öyrənilməsi bizim üçün mühüm əhəmiyyət kəsb edir.

İdarəetmə elmi və təcrübəsi sübut edir ki, xalis şəkildə iyerarxik təşkilatlara nadir hallarda rast gəlmək mümkündür. Əsasən, cəmiyyətin bütün sferalarında və sahələrində fəaliyyət göstərən təşkilatlar və bunlara xas olan idarəetmə mexanizmi özündə hər iki təşkilata aid olan elementləri, davranış parametrlərini və qaydalarını birləşdirir. Belə idarəetmə mexanizmi müasir demokratik dövlət idarəçiliyində də hökm sürür. Burada bəzi məsələlər iyerarxik yolla – bir mərkəzdən idarə olunursa, digər məsələlər isə tərəflər arasında razılığa gəlmə, konsensus və vətəndaşların öz iradəsini azad şəkildə ifadə edərək səs verməsi ilə nizamlanır. Deməli, mərkəzləşdirilmiş idarəetmə ilə qeyri-mərkəzləşdirilmiş özünüidarə cəmiyyətin ən iri və mürəkkəb təşkilatı olan – dövlətin idarə edilməsinin mühüm vasitələri və atributlarıdır. Onlar cəmiyyətin bütün sferalarına sirayət edərək qlobal və lokal, şaquli və üfüqi, sahəvi və ərazi məsələləri nizamlamağa və ölkədə baş verən sosial-iqtisadi dəyişiklikləri tənzimləməyə qadirdilər.

Yerli özünüidarəetmə sisteminin təsisi və inkişafı demokratik dövlət quruculuğu mərhələsində xüsusi əhəmiyyət kəsb edir. Hakimiyyət funksiyalarının həyata keçirilməsində vətəndaşların bilavasitə iştirakının ən səmərəli forması hesab olunan yerli özünüidarəetmə olmadan demokratik hakimiyyəti təsəvvür etmək olmaz [6,7]. Yerli özünüidarəetmə istənilən müasir demokratik cəmiyyətin mütləq atributudur. Yerli özünüidarəetmənin böyük sayda müxtəlif modelləri və təşkili növləri məlumdur. Yerli özünüidarəetmə sistemlərinin formalaşdırılmasında fərqlər bir çox amillərdən, o cümlədən siyasi rejimdən, ölkədə üstünlük təşkil edən hakimiyyətin təşkili və yerlərdən idarə edilməsi ideyasından, dövlət

quruluşundan, dövlətin inzibati-ərazi bölgüsündən, milli ənənələrdən və s. asılıdır [7, 9].

Yerli özünüidarə nəzəriyyəsinin banisi sayılan J.J.Russo, A.Tokvil, A.Vasilçikov, B.Çiçerin yerli özünüidarə orqanlarına ictimai-hüquqi hakimiyyətin orqanları kimi deyil, dövlətin maraqlarından fərqli olan xüsusi ictimai maraqların ödənilməsi üçün təsis edilən yerli ittifaqlar kimi baxırdılar. Bu fikir yerli özünüidarəetmənin liberal-ictimai nəzəriyyəsini əks etdirir. XIX əsrdə alman alimləri Rudolf Qeneyts və Lorne Şteyn isə göstərdilər ki, yerli özünüidarəetmə heç də dövlət işindən fərqli olan yerli icma işlərinin görülməsi deyildir, o, dövlət idarəçiliyi məsələlərinin bir hissəsinin yerli icmaya verilməsi deməkdir [3, 212].

Geniş mənada yerli özünüidarəetmə məhdud ərazidə məskunlaşmış insanların hüquq və azadlıqlarının qorunmasını, yerli problemlərin həllində onların fəal və mütəşəkkil iştirakını təmin edən demokratik prinsip və yerli əhalinin fəaliyyətinin təşkili sistemi kimi vətəndaşların rifahının yaxşılaşdırılması naminə yaradılır [4, 410].

Yerli özünüidarəetmə azad, demokratik cəmiyyətin ilkin başlanğıcını təşkil edir. Görkəmli fransız alimi A.de Foksil hələ 1835-ci ildə nəşr olunmuş "Amerikada demokratiya" adlı məcmuəsində yazırdı: "Yerli özünüidarəetmə institutları olmadan millət azad hökumət yarada bilər, lakin o, azadlıq ruhunu duya bilməz" [8].

Müasir dövrdə yerli özünüidarəetmə haqqında elmə əsas altı nəzəriyyə məlumdur [3, 214]:

1. "Azad icma" nəzəriyyəsi;
2. "İctimai təsərrüfat" nəzəriyyəsi;
3. "Dövlətçilik" nəzəriyyəsi;
4. "Dualizm" nəzəriyyəsi;
5. "Siyasətdənkənar" yerli özünüidarəetmə nəzəriyyəsi;
6. "Sosial xidmət" nəzəriyyəsi.

Yerli özünüidarəetmə orqanlarının əhəmiyyəti onunla da müəyyən edilir ki, gündəlik həyatda vətəndaşlar məhz bu orqanların fəaliyyəti ilə üzləşirlər, çünki həmin orqanlar müvafiq ərazi vahidində əhalinin həyatı üçün şəraitin yaradılmasına həlledici təsir göstərirlər, lakin sosial-iqtisadi və siyasi fəaliyyətin ümumi istiqaməti dövlət hakimiyyətinin mərkəzi orqanları tərəfindən müəyyən edilir. Həmçinin, o hal böyük əhəmiyyət kəsb edir ki, yerli özünüidarəetmə orqanları təşkilati vahidliklə bağlıdırlar, müəyyən əmlaka sahib olmaq və sərəncam vermək, əqdlər bağlamaq, yerli büdcəni idarə etmək və s. hüquqlara malikdirlər. Bununla əlaqədar bazar iqtisadiyyatı şəraitində yerlərdə geniş özünüidarəetmə zərurəti, bir qayda olaraq, istənilən dövlətin əhalisinin əksər hissəsi tərəfindən dəstəklənir və müdafiə olunur [7,11].

Yerli özünüidarəetməyə dəqiq tərif 1985-ci ildə Avropa Şurası üzvləri tərəfindən qəbul olunmuş "Yerli özünüidarəetmə haqqında Avropa Xartiyası"nda verilmişdir: «Yerli özünüidarəetmə dedikdə, yerli özünüidarəetmə orqanlarının qanun çərçivəsində məsuliyyəti öz üzərinə götürərək və yerli əhalinin mənafeyi naminə dövlət işlərinin böyük bir hissəsini nizama salmaq, onu idarə etmək hüququ və real bacarığı başa düşülür».

Məşhur alim A.D.Qradski yerli özünüidarəetməni hakimiyyət bölgüsünün bir təzahürü hesab edirdi. O, yerli özünüidarəetməni mərkəzi hökumətin təmin edə bilmədiyi maraqların nəticəsi kimi izah edirdi. İ.İ.Yevtixeyev isə yerli özünüidarəetməni sosial qrupların dövlət idarəetməsi daxilində tapşırıqları, obyektiv hüquq çərçivəsində özlərinin müstəqilliyinə təminat olan seçki əsasında yaradılan rəhbər orqanları və bu rəhbər orqanların muxtariyyəti əsasında yerinə yetirilməsi kimi izah edirdi [3, 213].

Tədqiqatçılar (L.Velixov) bu hakimiyyətin ictimai xarakterindən irəli gələn və onu dövlət idarəetmə orqanlarından fərqləndirən dörd əsas xüsusiyyətini qeyd edirlər [4, 406]:

1) Dövlət hakimiyyətindən fərqli olaraq, yerli özünüidarəetmə qanuna tabe hakimiyyət olub, dövlət orqanları tərəfindən qəbul olunmuş qanunlar çərçivəsində və əsasında fəaliyyət göstərir;
2) Yerli özünüidarəetmə yalnız onun məşğul olacağı (səlahiyyətlərinə aid edilən) ictimai işlər dəqiq müəyyən olunduğu halda həyata keçirilə bilər;
3) Yerli özünüidarəetmə orqanları bu işlərin yerinə yetirilməsi səlahiyyətlərini reallaşdırmaq üçün müstəqil büdcə və bələdiyyə mülkiyyəti kimi məxsusi resurslara malik olmalıdır;
4) Bu hakimiyyət hökmən əhalinin nümayəndəliyini tələb edir, yəni öz təbiətinə görə seçkili olmalıdır.

Yerli özünüidarəetmənin forması kimi bələdiyyələr 4 mühüm əlamətlərə malik qurumlardır [3, 229]:

1) Bələdiyyələr ayrıca büdcəyə və mülkiyyətə malik olur;
2) Yerli məsələlərin həllində muxtariyyətə və sərbəstliyə malikdir;
3) Seçkili hakimiyyətə gələn, qərarverən və icraedici vahidləri var;
4) Hüquqi şəxs statuslu qeyri-dövlət təsisatıdır.

Yerli özünüidarəetmə orqanlarının səlahiyyətləri, ilk növbədə, kommunal təsərrüfatın idarə edilməsinə və inkişafına, ətraf mühitin mühafizəsinə, yaşayış məntəqələrinin yerləşdirilməsinin və tikintisinin planlaşdırılmasına, şəhərsalmaya ümumi nəzarətə, yerli nəqliyyat sisteminin inkişafına və onun hərəkətinin tənzimlənməsi qaydasının müəyyənləşdirilməsinə, yerli yol tikintisinə, kanalizasiyaya, su və qaz təchizatına, enerji təchizatına, küçələrin təmizlənməsinə, hovuzların çirklənməsinə və s. məsələlərə şamil olunur [7, 35].

Bələdiyyələr dövlət proqramında olan bütün mümkün boşluqları doldurmalı və dövlət tərəfindən göstərilən xidmətlərə əlavələr etməli və tamamlamalıdır. "Bələdiyyələrin statusu haqqında" Qanun onların dövlətin iqtisadi inkişaf proqramlarında qeyd olunmamış və ya dövlət proqramına əlavə olan, yerlərdə inkişafla əlaqə-

dar önəmli məsələləri həll etmək üçün hazırlanmış iqtisadi inkişaf proqramlarına cəlb olunmasını nəzərdə tutur. Bu proqramlar aşağıdakılardan ibarət ola bilər:

- məktəbəqədər təhsil;
- təhsil;
- səhiyyə;
- mədəniyyət;
- yaşayış və başqa tipli binaların saxlanılması və istifadəsi;
- yerli infrastrukturun saxlanılması və baxımının təşkil olunması;
- su işləri və mənzillər;
- sosial təminat xidmətləri;
- mədəniyyət tədbirləri.

Bələdiyyələr dövlət proqramlarının əhatə etmədiyi yerli proqramlara görə cavabdehdirlər, onların arasında: yerlərdə sosial, iqtisadi və ətraf mühitlə bağlı proqramların hazırlanıb həyata keçirilməsi mühüm yer tutur. Bu proqramlar əhalinin spesifik ehtiyac və arzularına cavab verməlidirlər.

Bələdiyyələrin məşğul ola biləcəyi əsas sahələr bunlardır [5, 8]:

- yerlərdə sosial, iqtisadi və ətraf mühitlə bağlı proqramların işlənib hazırlanması və həyata keçirilməsi;
- təhsil, səhiyyə, mədəniyyət, sosial təminat və idman sahələrində proqramların hazırlanması və dəstəklənməsi;
- əhalinin maddi vəziyyətinin yaxşılaşdırılması üçün müxtəlif gəlir gətirən fəaliyyətlərin hüquqi şəxs formasında təşəkkül tapması.

Xarici və yerli təcrübəni əsas götürərək, bələdiyyə mülkiyyəti obyektlərini ümumi şəkildə aşağıdakı kimi təsnifləşdirə bilərik [3, 240]:

1. Bələdiyyə müəssisə və idarələri, onlara təhkim olunan əmlak;
2. Yerli özünüidarəetmə orqanlarına təhkim olunan əmlak;
3. Torpaq və digər təbii resurslar;
4. Bələdiyyə maliyyə-kredit müəssisələri;
5. Yerli büdcə vəsaitləri.

Bələdiyyə mülkiyyətinin formalaşmasının xarici təcrübəsi Q.Barabaşevin, N.Klinovanın elmi işlərində də geniş əks olunmuşdur. Xarici alimlərdən olan F.Şnapp, J.Xivi, R.Fişmen isə bələdiyyə mülkiyyətinin təhlil aspektlərini bir qədər də konkretləşdirərək, yalnız funksiyalarını tədqiq etmişlər.

Bələdiyyə mülkiyyəti ilə dövlət mülkiyyəti arasındakı münasibətin müəyyənləşdirilməsində rus alimi E.İ.Kolyuşinin elmi yanaşma tərzi daha maraqlıdır. Müəllifin dövlət və bələdiyyə mülkiyyəti arasında olan fərqli əlamətlər üzrə verdiyi ümumi təsnifat aşağıdakılardan ibarətdir:

– **subyekt üzrə:** dövlət mülkiyyətinin subyekti xalq və onun yaratmış olduğu dövlət hakimiyyət orqanlarıdır. Bələdiyyə mülkiyyətinin subyekti isə bələdiyyə əhalisi və onların təşkil etdiyi dövlət idarəetmə orqanları sisteminə daxil olmayan yerli özünüidarəetmə orqanlarıdır;

– **obyekt üzrə:** dövlət mülkiyyətinin obyekti istənilən dövlət əmlakı ola bilər. Bələdiyyə mülkiyyətinin obyekti də istənilən bələdiyyə əmlakı ola bilər. Bundan əlavə olaraq eyni zamanda bələdiyyə mülkiyyəti dövlət mülkiyyətində də yerləşə bilər;

– **bələdiyyə mülkiyyəti hüququnun əldə edilməsi və ləğv edilməsi əsasına görə:** dövlət mülkiyyəti hüququnun əldə edilməsində bəzi əsaslar, məsələn, milliləşdirmə, beynəlxalq saziş, ərazi güzəşti və s. bələdiyyə mülkiyyəti hüququnun əldə edilməsi və ləğv edilməsi üçün əsas ola bilməz;

– **məzmun baxımından:** dövlət və bələdiyyə mülkiyyətinə sahib olma və ondan istifadə hüququ arasında fərqləndirmə aparmaq bir qədər çətindir. Ona görə ki, bələdiyyə mülkiyyətinə verilən müəyyən hissə mülkiyyət üzərində bələdiyyələrin sərəncamvermə hüququ dövlət hakimiyyəti ilə məhdudlaşdırıla bilir. Məsələn, dövlət tərəfindən bələdiyyələrə subvensiya verilən zaman bu, bələdiyyə büdcəsinə mədaxil olur və yerli büdcəni əmələ gətirir. Lakin buna baxmayaraq, həmin subvensiyalardan məqsədli istifadə edilməsini tələb edən dövlət orqanları, bir növ desək, bu mülkiyyət üzərində bələdiyyələrin sərbəst sərəncam verməsini məhdudlaşdırır [3, 245].

Bələdiyyə üçün əsas gəlir mənbələri aşağıdakı mənbələr hesab olunur [5, 9]: vergilər (torpaq vergisi, mülkiyyət vergisi, bələdiyyə müəssisələrindən və təşkilatlarından alınan gəlir vergisi), təbii sərvətlərin çıxarılmasından alınan icarə haqqı, küçə reklam lövhələrinə görə rüsumlar, mehmanxana rüsumları, avtodayanacaq və s. üçün rüsumlar və dövlət büdcəsindən subsidiya və qrantlar, başqa yardımlar və ianələr.

Bələdiyyə təsisatları üçün, bir qayda olaraq, gəlirlər mənbəyinin iki növü mövcuddur. Birincisi – yerli mənbələr: vergilər, təzminatlar və rüsumlar, bələdiyyə müəssisələri üzərində cərimə sanksiyaları və gəlirləri. İkincisi – mərkəzi mənbələr: mərkəzi hökumət və ya onun strukturları (nazirlikləri) tərəfindən bələdiyyə fondlarından ayrılan subsidiyalar: həm bələdiyyənin dəstəklənməsi üçün ayrılan ümumi subsidiyalar, həm də təhsil, sosial rifah, ev tikintisi kimi məqsədli təyinata malik olan xüsusi subsidiyalar [7, 39].

Bələdiyyələr xalqa daha yaxın yerliözünüidarə vahidləridir. Bunun səbəbi bələdiyyələrə məxsus vəzifələrin xalqın gündəlik həyatı ilə sıx bağlı olmasıdır. Məhz buna görə də Azərbaycan Respublikasının 1995-ci il 12 noyabrda ümumxalq referendumu ilə qəbul edilmiş Konstitusiyasının 142-ci maddəsində birmənalı olaraq Azərbaycanda yerli özünüidarəetmənin bələdiyyələr tərəfindən həyata keçirildiyi göstərilir.

Azərbaycanda yerli idarəetmə iki formadan ibarətdir [3, 223]:

1. Mərkəzi idarələr, yəni dövlət və onun yerlərdəki nümayəndəlikləri olan icra hakimiyyətləri;
2. Yerli özünüidarələr, yəni bələdiyyələr.

Bələdiyyələr isə iki orqandan ibarətdir: qərarverici orqan – Bələdiyyə iclası, icraedici orqan – Bələdiyyə sədri.

Bələdiyyə orqanları—səlahiyyətləri çərçivəsində yerli əhəmiyyətli məsələləri həll etmək üçün bələdiyyə qulluğunun təşkili məqsədilə bələdiyyə tərəfindən yaradılan və dövlət orqanları sisteminə daxil olmayan orqanlardır.

**1. Bələdiyyə başçısı (sədr)** – hüquqi şəxs olan bələdiyyə təşkilatının başçısı və icraedici orqanıdır. Qanun əsasında və seçki ilə hakimiyyətə gələn bələdiyyə başçıları öz səlahiyyətləri daxilində tamamilə müstəqildirlər və bələdiyyənin gündəlik həyatına cavabdehdirlər. Respublikamızda bələdiyyə sədri, yeni seçilmiş bələdiyyənin birinci iclasında, bələdiyyə üzvləri sırasından açıq və ya gizli səsvermə yolu ilə seçilir. Bələdiyyə sədri bələdiyyə üzvlərinin yarısından çoxunun səsini topladıqda seçilmiş hesab edilir. Bəzi ölkələrdə bələdiyyə başçısı, əsasən də, bölgənin inzibati mərkəzində yerləşən bələdiyyə başçıları təyinetmə yolu ilə hakimiyyətə gəlir, bəzilərində isə bələdiyyə başçıları 5 il müddətinə, birbaşa bələdiyyə daxilində yaşayan seçicilər tərəfindən seçilir. Bələdiyyənin icra orqanı onun icra aparatıdır.

Bələdiyyə başçısının vəzifələri: Hüquqi şəxsi təmsil etmək, məclis və komissiyaların qərarlarını həyata keçirmək, büdcə layihələri ilə əlaqədar təkliflər hazırlamaq, gərəkli razılaşmaları əlaqədar orqanın da qərarını alaraq imzalamaq, məhkəmələrdə bələdiyyəni təmsil etmək, əmrlər və sərəncamlar vermək, bələdiyyənin qərarlarını imzalamaq, səmərələşdirici təkliflər irəli sürmək və bələdiyyənin fəaliyyətinə ehtiyac olsa nəzarət etmək.

**2. Bələdiyyə iclası** – Bələdiyyənin iclasları ayda bir dəfədən az olmayaraq bələdiyyənin sədri tərəfindən çağırılır. Bələdiyyənin iclası bələdiyyə üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir. Bələdiyyə üzvləri iclas gününə azı 5 gün qalmış xəbərdar edilməlidirlər. Bələdiyyənin iclası iclasda iştirak edən bələdiyyə üzvlərinin qeydiyyatından başlanır. Üzrlü səbəbdən iclasda iştirak edə bilməyən bələdiyyə üzvü bu barədə əvvəlcədən bələdiyyə sədrinə məlumat verməlidir.

Əhəmiyyətli və gözlənilməz işlər meydana çıxdığı halda fövqəladə iclas çağırılır. Bu cür iclasların keçirilməsi üçün ya bələdiyyə başçısının yazılı çağırışı, ya məclis üzvlərinin 1/3-nin təşəbbüsü, ya da icra hakiminin dəvəti lazımdır. “Bələdiyyələrin statusu haqqında” Azərbaycan Respublikasının Qanununda bu hallar nəzərdə tutulmayıb. Həmin qanunun “Bələdiyyənin iclası” haqqındakı 16-cı maddəsində göstərilir [3, 226]: “Bələdiyyənin iclasları ayda bir dəfədən az olmayaraq bələdiyyənin sədri tərəfindən çağırılır. Bələdiyyə iclası bələdiyyə üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir. Bələdiyyənin iclasları həmin bələdiyyə ərazisində yaşayan əhalinin on faizinin, yaxud bələdiyyə üzvlərinin üçdə bir hissəsinin təşəbbüsü ilə də çağırılır”.

Avropa Şurası, yerli özünüidarəetmə problemləri ilə məşğul olarkən qəbul olunmuş sənədlərin həyata keçirilməsində əhəmiyyətli rolu Avropa Yerli və Regional Hakimiyyətlər Konqresi oynayır. Avropa Şurasının üzvü olan dövlətlərin yerli və regional orqanlarının təmsil olunduğu bu məşvərət qurumu 1959-cu ildən fəaliyyət göstərən Avropanın Yerli və Regional Hakimiyyətlərinin Daimi Konfransını əvəzləmişdir [7, 62].

Konqres bir sıra uzunmüddətli proqramlar həyata keçirir [7, 65]:

– ENTO – yerli və regional hakimiyyət orqanları üçün kadrların hazırlanması və tədrisi üzrə mərkəzlərin Avropa şəbəkəsi – Mərkəzi və Şərqi Avropa dövlətləri üçün ekspert yardımını və tədrisi təşkil edir, müxtəlif dövlətlərin kadrların hazırlanması və təlimi mərkəzləri arasında əməkdaşlığa köməklik göstərir;
– mərkəzi və Şərqi Avropa dövlətlərində yerli və regional demokratiyanın dəstəklənməsi üzrə Xüsusi Proqram – yerli özünüidarəetmə haqqında qanunvericiliyin işlənib hazırlanmasında yardım göstərir;
– yerli demokratiya agentlikləri – bu proqram keçmiş Yuqoslaviyanın ərazisində insan hüquqları və demokratiyaya hörmətlə yanaşılması, vətəndaş cəmiyyətinin formalaşdırılması və əhalinin müxtəlif qrupları arasında etibar tədbirlərinin görülməsi üçün nəzərdə tutulur.

Avropa Şurası çərçivəsində yerli özünüidarəetmə sahəsində aşağıdakı mühüm beynəlxalq sənədlər qəbul edilmişdir [7, 70]:

– Ərazi icmaları və hakimiyyət orqanları arasında transsərhəd əməkdaşlıq haqqında Avropa Çərçivə Konvensiyası;
– Yerli Özünüidarə haqqında Avropa Xartiyası;
– Əcnəbilərin yerli səviyyədə ictimai həyatda iştirakı haqqında Konvensiya;
– Regional dillər və milli azlıqların dilləri haqqında Avropa Xartiyası;
– Ərazi icmaları və hakimiyyət orqanları arasında transsərhəd əməkdaşlıq haqqında Avropa Çərçivə Konvensiyasına Əlavə Protokol;
– Ərazi icmaları və hakimiyyət orqanları arasında transsərhəd əməkdaşlıq haqqında Avropa Çərçivə Konvensiyasına ərazilərarası əməkdaşlığa dair 2 saylı Əlavə Protokolu;
– Landşaftlar haqqında Avropa Konvensiyası;
– Gənclərin şəhər və regionların həyatında iştirakı haqqında Xartiya;
– Avropa Şəhərlər Xartiyası;
– Ərazi icmaları və hakimiyyət orqanları arasında transsərhəd əməkdaşlıq haqqında Avropa Çərçivə Konvensiyasına Avroregionların əməkdaşlıq qruplarına dair 3 saylı Əlavə Protokol;

– Yerli Özünüidarəetmə haqqında Avropa Xartiyasına yerli hakimiyyətin işlərində iştirak etmək hüququna dair Əlavə Protokol;
– Ərazi icmaları və hakimiyyət orqanları arasında transsərhəd əməkdaşlıq haqqında Avropa Çərçivə Konvensiyası (21 may 1980-ci il).

Məlumdur ki, yerli özünüidarəetmənin səmərəli fəaliyyət göstərməsi və inkişafı üçün hüquqi çərçivənin mövcudluğu zəruridir. Beləliklə, Avropa Şurası çərçivəsində bu sahədə qəbul olunmuş və hal-hazırda da qüvvədə olan başlıca sənəd kimi Yerli Özünüidarə haqqında Avropa Xartiyasını göstərmək olar. Bu çoxtərəfli sənəd müasir Avropada yerli özünüidarəetmənin inkişafı yollarını nişanlayan Avropa dövlətlərinin bələdiyyə hüququnun əsas mənbələrindən biridir. Onun əsasına hələ orta əsrlərdə Avropa sosial fəlsəfəsində bərqərar olunmuş klassik səlahiyyətlərin həvalə olunması prinsipi qoyulur, halbuki bu ideyanın fəal reallaşdırılmasına hazırkı əsrin əvvəllərində başlanılmışdır. Bu prinsipə uyğun olaraq, idarəetmənin aşağı səviyyələrində həll oluna bilən məsələlərin yuxarıya ötürülməsinin mənası yoxdur. Yerli icmalara mümkün qədər çox idarəetmə vəzifələrini etibar etmək zərurəti yaranır, dövlətin müdaxiləsi isə məsələlərin yalnız həll olunmadığı hallarda mümkün olması tələb olunur. Xartiyanın özündə səlahiyyətlərin həvalə olunması anlayışı belə ifadə olunur: "Dövlət səlahiyyətlərinin həyata keçirilməsi, bir qayda olaraq, əsasən, vətəndaşlara daha yaxın olan hakimiyyət orqanlarına həvalə edilməlidir". Xartiya Avropa Şurasının təşəbbüsü ilə 1985-ci ildə qəbul edilmişdi [7, 58].

Xartiyanın əsasında subsidiarlıq prinsipi durur ki, bu prinsipə görə, idarəetmənin aşağı səviyyələrində həll oluna biləcək məsələlərin yuxarıya verilməsinə ehtiyac yoxdur. Yerli icmalara daha çox idarəetmə məsələlərinin həlli etibar olunmalıdır, dövlətin müdaxiləsinə isə yalnız bunsuz keçinmək mümkün olmadığı hallarda yol verilməlidir. Xartiyada subsidiarlıq anlayışı aşağıdakı kimi ifadə olunmuşdur: "Dövlət səlahiyyətlərinin həyata keçirilməsini, bir qayda olaraq, əsasən, vətəndaşlara ən yaxın hakimiyyət orqanının üzərinə qoymaq lazımdır". Qeyd edək ki, Avropa Şurası tərəfindən 15 oktyabr 1985-ci ildə qəbul olunmuş bu sənəd 25 dekabr 2001-ci il tarixdə Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən radifikasiya olunmuşdur [4, 398].

Yerli özünüidarəetmə haqqında Avropa Xartiyasında verilən tərifdə bu anlayış "yerli özünüidarəetmə orqanlarının qanun çərçivəsində fəaliyyət göstərərək, öz məsuliyyəti altında və yerli əhalinin maraqları baxımından dövlət işlərinin əhəmiyyətli hissəsini nizamlamaq, idarə etmək hüququ və real bacarığı" kimi müəyyən edilir. "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının Qanununda isə deyilir ki, "yerli özünüidarə vətəndaşların fəaliyyətinin təşkilinin elə bir sistemidir ki, bu sistem onlara qanun çərçivəsində yerli əhəmiyyətli məsələləri müstəqil və sərbəst şəkildə həll etmək hüququnu həyata keçirmək və yerli əhalinin mənafeyi naminə dövlət işlərinin bir hissəsini yerinə yetirmək imkanı verir" [2].

Müasir yerli özünüidarəetmə orqanlarına bənzər qurumlar Azərbaycan ərazisində bir sıra məhdudiyyətlərlə XIX əsrin sonlarında yaradılmağa başlamışdır. İlk dəfə 1878-ci ildə yerli özünüidarəetmə orqanları yaratmağa imkan verən "Şəhər əsasnaməsi"(1870-ci ildə qəbul olunub) Bakıda bəzi məhdudiyyətlərlə tətbiq olunurdu. 1892-ci ildə yeni "Şəhər əsasnaməsi" qəbul edildi. Bu əsasnamədə əvvəlkinə nisbətən bəzi dəyişikliklər edilmişdir. Azərbaycanda müxtəlif dövrlərdə yerli özünüidarəetmə institutu və ya buna bənzər qurumlar mövcud olsa da, yalnız 1991-ci ildə yenidən müstəqillik əldə etdikdən sonra ölkəmiz əsl demokratik dəyərlərə malik yerli özünüidarəetmə institutunu yaratmaq imkanı əldə etmiş, 12 noyabr 1995-ci ildə qəbul olunmuş Azərbaycan Respublikası Konstitusiyası isə bu imkanı reallığa çevirmişdir [4, 453].

Yerli demokratiyanın həyata keçirilməsinə zəmin yaradan və siyasi-iqtisadi cəhətdən müstəsna əhəmiyyət kəsb edən yerli özünüidarəetmə orqanlarının – bələdiyyələrin yaradılması Azərbaycan Respublikasının Konstitusiyasında öz əksini tapmışdır [1].

Ölkəmizdə bələdiyyə fəaliyyətinə xüsusi diqqət yetirilir. Bu, bələdiyyə sahəsi ilə bağlı qəbul olunmuş bir sıra qanunlarda özünü büruzə verir. Məsələn, "Bələdiyyə seçkiləri haqqında" qanun (2 iyul 1999-cu il), "Bələdiyyələrin statusu haqqında" (2 iyul 1999-cu il), "Bələdiyyənin Nümunəvi Nizamnaməsinin təsdiq edilməsi haqqında" (15 oktyabr 1999-cu il), "Bələdiyyə qulluğu haqqında" (30 noyabr 1999-cu il), "Bələdiyyə mükiyyətinə əmlakın verilməsi haqqında" (7 dekabr 1999-cu il), "Bələdiyyələrin əraziləri və torpaqları haqqında" (7 dekabr 1999-cu il), "Bələdiyyə maliyyəsinin əsasları haqqında" (7 dekabr 1999-cu il), "Bələdiyyələrin birgə fəaliyyəti, birləşməsi, ayrılması və ləğv edilməsi haqqında" (14 aprel 2000-ci il), "Bələdiyyələrin daimi və başqa komissiyaları haqqında" Əsasnamənin təsdiq edilməsi barədə (14 aprel 2000-ci il), "Bələdiyyə üzvünün statusu haqqında (18 aprel 2000-ci il), "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında" (29 iyun 2001-ci il), "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında" (13 may 2003-cü il), "Bələdiyyələrin vergi xidməti orqanı haqqında Əsasnamənin təsdiq edilməsi barədə" (17 iyun 2003-cü il), "Bələdiyyələrin regional assosiasiyalarının Nümunəvi Əsasnaməsinin təsdiq edilməsi barədə" (3 may 2005-ci il), "Azərbaycan Respublikasında bələdiyyələrin birləşməsi yolu ilə yeni bələdiyyələrin yaradılması haqqında" (29 may 2009-cu il), "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının Qanununa əlavə edilməsi barədə (9 iyun 2009-cu il), "Bələdiyyə qulluqçularının etik davranış qaydaları haqqında" (28 aprel 2015-ci il), müxtəlif zamanlarda qanunlarda edilmiş dəyişiklikləri, əlavələri və başqa qəbul olunmuş qanunları qeyd etmək olar.

Azərbaycan Respublikasının Prezidenti, ümummilli lider Heydər Əliyevin 1999-cu il 27 iyul tarixli 163 nöm-

rəli Fərmanına əsasən “Bələdiyyələrə seçkilərin qaydaları haqqında” Azərbaycan Respublikası Qanunu qəbul edilmişdir. “Bələdiyyələrə seçkilərin qaydaları haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən Azərbaycan Respublikasında yerli özünüidarəni həyata keçirən bələdiyyələri Azərbaycan Respublikasının vətəndaşları bu Qanunla müəyyən edilmiş qaydada çoxmandatlı seçki əraziləri üzrə ümumi, bərabər, birbaşa seçki hüququ əsasında sərbəst, şəxsi və gizli səsvermə yolu ilə seçirlər. Bələdiyyələrin səlahiyyət müddəti 5 ildir. Bələdiyyələrin səlahiyyətləri onların ilk iclası günü başlanır və yeni seçilən bələdiyyələrin birinci iclas günü başa çatır. Bələdiyyə üzvlərinin səlahiyyətləri yalnız bələdiyyələrin səlahiyyət müddətində qüvvədədir.

2009-cu ilin may ayında “Azərbaycan Respublikasının bəzi bələdiyyələrinin birləşməsi haqqında” qanunun qəbulundan sonra ölkə ərazisində fəaliyyət göstərən bəzi bələdiyyələr birləşdirildi. Nəticədə mövcud olan 2757 bələdiyyənin əvəzinə 1766 bələdiyyə yaradılması qərarlaşdırıldı. Bu birləşmənin zəif və kiçik bələdiyyələrin inkişafına təkan vermək məqsədilə həyata keçirildiyi bildirildi.

Bələdiyyə idarəçiliyinin hərtərəfli inkişafı bu gün olduqca aktual məsələdir. Azərbaycanda bələdiyyə idarəçiliyinin əsas problemləri aşağıdakılardır [9]:

– səlahiyyətlərdə məhdudiyyətlər;
– mülkiyyətdən düzgün istifadə olunmaması;
– ixtisaslı kadr çatışmazlığı;
– maliyyə çatışmazlığı;
– yerli problemləri həll etmədə vətəndaşların iştirakını təmin etməmək və s.

Azərbaycanda bələdiyyələrin yarandığı andan indiki dövrə qədərki fəaliyyətləri ərzində nöqsanlarını, uğurlarını və prespektivlərini aşağıdakı səkkiz bəndlik müqayisəli araşdırma ilə təhlil etmək olar.

*1. Bələdiyyə qanunvericiliyinin təkmilləşdirilməsi*

Bələdiyyələrin fəaliyyətlərinin tənzimlənməsi, səlahiyyətlərinin genişləndirilməsi, şəffaflığın təmin edilməsi və fəaliyyətlərinin müasir tələblər əsasında qurulması məqsədilə qanunvericilik daima təkmilləşdirilir və yeni qanunlar qəbul edilir.

Ümumilikdə, bələdiyyələrin fəaliyyətlərinin tənzimlənməsində qanunvericilik Azərbaycan Respublikasının Konstitusiyasından və qanunlarından, Azərbaycan Respublikası müvafiq icra hakimiyyəti orqanlarının aktlarından (Naxçıvan Muxtar Respublikasında isə həm də Naxçıvan Muxtar Respublikasının Konstitusiyasından və qanunlarından, Naxçıvan Muxtar Respublikası müvafiq icra hakimiyyəti orqanlarının aktlarından) ibarətdir.

Bələdiyyələrin fəaliyyətlərinin tənzimlənməsində digər mənbə beynəlxalq hüquq normalarıdır. Nümunə kimi “Yerli özünüidarə haqqında” Avropa Xartiyasını göstərmək olar. “Yerli özünüidarə haqqında” Avropa Xartiyasının təsdiq edilməsi barədə Azərbaycan Respublikasının № 238-IIQ qanununun 25 dekabr 2001-ci il tarixindən qüvvəyə minməsiylə Azərbaycan dövləti tərəfindən Xartiyaya əməl edilməsi barədə öhdəlik götürülmüş sayılır.

*2. Xarici ölkə bələdiyyələrinin təcrübələrinin öyrənilməsi və tətbiqi.*

Bir çox xarici ölkələrin bələdiyyələri ilə respublikamızın bələdiyyələri arasında qarşılıqlı əməkdaşlığa dair protokollar imzalanmış və dostluq əlaqələri qurulmuşdur. İmzalanmış protokollarda məqsəd şəhər, qəsəbə və kənd bələdiyyələrinin xarici ölkələrin bələdiyyələri ilə qarşılıqlı əməkdaşlığı və təcrübə mübadiləsini həyata keçirməkdir. Xarici ölkə bələdiyyələrinin qabaqcıl təcrübələrinin öyrənilməsi baxımından Türk Dünyası Bələdiyyələr İttifaqı ilə Azərbaycan Bələdiyyələrinin Milli Assosiasiyalarının əməkdaşlığı olduqca uğurlu addımdır.

*3. Bələdiyyə üzvləri və bələdiyyə qulluqçularının peşəkarlığının artması.*

Yerli özünüidarəetmə işinin qurulması və uğur əldə etmənin ən mühüm şərtələrindən biri də bələdiyyə üzvlərinin və bələdiyyə qulluqçularının peşəkarlıq səviyyəsinin artmasıdır.

Bələdiyyə qulluqçularının işə qəbulu zamanı peşəkar işçilərin qəbulu və şəffaflığın təmin edilməsi məqsədilə “Bələdiyyə qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanununun 1.5-ci maddəsinin ikinci hissəsində bələdiyyə qulluqçusunu “bələdiyyənin sədri birbaşa təyin edir” sözləri “bələdiyyənin müsabiqə komissiyasının qiymətləndirməsinin nəticəsinə uyğun olaraq, bələdiyyənin sədri təyin edir” olaraq dəyişdirilmişdir. Dəyişikliyə əsasən bələdiyyə sədri birbaşa deyil, yalnız təşkil olunmuş müsabiqədən keçmiş işçini bələdiyyə qulluqçusu olaraq təyin etmək hüququna malikdir.

*4. Bələdiyyə üzvlərinin təhsil səviyyəsi.*

Yeni yarandığı ilk illərdə nümunə olaraq 2004-cü ildə keçirilmiş bələdiyyə seçkilərində ali təhsillilərin sayı 7563 nəfər olmaqla ümumi hesabda 34% faiz təşkil edirdisə, 2014-cü ildə keçirilmiş son bələdiyyə seçkilərində seçilmiş ali təhsilli bələdiyyə üzvlərinin sayı 13434 nəfər olmaqla ümumi hesabda 89,8% təşkil etmişdir. Yenə 2004-cü ilin statistik rəqəmlərinə əsasən bələdiyyə sədrlərinin yalnız 44%-ni ali təhsilli şəxslər təşkil edirdisə hal-hazırda rəsmi məlumata görə bütün bələdiyyə sədrləri ali təhsillidir.

*5. Bələdiyyə üzvləri gəncləşir.*

Son dövrlər dövlət qurumlarında müşahidə olunan gəncləşmə siyasəti, gənclərin dövlət idarəçiliyində önə çıxarılması və yüksək postlara təyin edilmə prosesi yerli özünüidarəetmə sistemində də gənclərin aktivliyinə səbəb olmuşdur. Belə ki, respublika üzrə 2004-cü ildə keçirilmiş bələdiyyə seçkilərində seçilmiş gənc bələdiyyə üzvlərinin sayı 500 nəfər olaraq ümumi hesabda 2% təşkil etmişdirsə, 2009-cu ildə bu rəqəm artaraq 4303 nəfərlə 27,6% olmuşdur. Nəhayət, 2014-cü il

keçirilmiş bələdiyyə seçkilərində seçilmiş gənclərin sayı artaraq 5450 nəfər olmaqla 36,42% kimi yüksək nəticə əldə edilmişdir.

*6. Bələdiyyə üzvləri arasında qadın üzvlərin sayında artım.*

Qadınların ölkənin ictimai-siyasi həyatında iştirakında və mühüm dövlət orqanlarında irəli çəkilmə hallarında ötən illərlə müqayisədə artım müşahidə edilməkdədir. Cinsi ayrı-seçkilik olmadan kişilərlə bərabərhüquqlu vətəndaş olmasına dövlət idarəçiliyində və ümumiyyətlə, ictimai-siyasi sahədə qadınların atkivliyinə Azərbaycan Respublikasının konstitusiyasının 25-ci maddəsinin II bəndinə əsasən təminat verilmişdir.

Ölkənin ictimai-siyasi həyatında qadınların fəallığının artması bələdiyyə sistemində də özünü göstərmiş və bələdiyyə üzvü seçilmiş qadınların sayı əvvəlki seçkilərə nisbətən 6 dəfə artaraq 5236 nəfər olmuşdur. Bu isə bələdiyyə üzvlərinin sırasında qadınların payının 35,0 faiz təşkil etməsi deməkdir. Qeyd etmək yerinə düşər ki, əvvəlki bələdiyyə seçkilərində bu göstərici 4,0 faiz təşkil edirdi.

*7. Bələdiyyə Assosiasiyaları.*

Azərbaycan bələdiyyələrin inkişafında və beynəlxalq təcrübənin öyrənilməsində bələdiyyə assosiasiyalarının mühüm rolu olmuşdur. Bələdiyyə assosiasiyalarının qurulmasında məqsəd bələdiyyələrin fəaliyyətinin kordinasiyalı şəkildə təşkili, bələdiyyələrin inkişafı naminə bütün üzvlərlə razılaşdırılmış mövqenin formalaşdırılması və bələdiyyələrin xarici əlaqələrinin qurulmasında bələdiyyə birliyi olaraq vasitəçilik etməkdir.

Bələdiyyə assosiasiyaları bələdiyyələrin təmsil etdiyi inzibati-ərazinin tipindən aslı olaraq 3 qrupa bölünür:

1) Azərbaycan Şəhər Bələdiyyələrinin Milli Assosiasiyası.
2) Azərbaycan Qəsəbə Bələdiyyələrinin Milli Assosiasiyası.
3) Azərbaycan Kənd Bələdiyyələrinin Milli Assosiasiyası.

*8. Proqram və layihələr.*

Proqramlara, əsasən, yerli iqtisadi inkişaf proqramları və yerli ekoloji proqramlar daxildir. Bələdiyyə layihələri bələdiyyələrin yerli əhəmiyyətli problemin həlli istiqamətində görülən işlərdir. Həyata keçirilən hər bir bələdiyyə layihəsi yerli əhəmiyyətli bir problemin aradan qaldırılması deməkdir. Layihələrin əhəmiyyətini nəzərə alan "Bələdiyyələrin Milli Assosiasiyaları" 2007-ci ildən "Bir bələdiyyə – azı bir layihə" təşəbbüsü irəli sürmüşdür və bu gün də təşəbbüs uğurla davam etdirilir.

Dövlət və yerli özünüidarəetmə orqanlarında İKT-nin tətbiqi və elektron xidmətlərin inkişaf etdirilməsi istiqamətində görülən işlər nəticəsində "Elektron bələdiyyə" pilot layihəsinin işlənilməsi və həyata keçirilməsi də mühüm əhəmiyyət daşıyır. Elektron bələdiyyə anlayışı, bələdiyyələrin yerli özünüidarəetmə fəaliyyətlərində müasir informasiya və kommunikasiya texnologiyalarının tətbiqini; vətəndaşa və digər qurumlara internet vasitəsilə böyük miqyasda xidmət göstərilməsini, qurum daxilində işçilərin kompüter şəbəkələri ilə öz aralarında fəaliyyətlərinin qurulmasını, həmçinin qurumdankənar lazımi qurumlarla informasiya mübadiləsi fəaliyyətinin təşkilini əhatə edir.

Elektron bələdiyyəyə keçidin üstünlüyü ondan ibarətdir ki, ərazidə yaşayan vətəndaşı maraqlandıran informasiya, yaxud müraciətinə cavab bələdiyyə tərəfindən bələdiyyənin saytında yerləşdirilmiş olsun. Bu zaman bələdiyyəyə müraciət etməyə ehtiyac qalmır, lazım olan informasiya saytdan götürülür. Burada həm vətəndaş, həm də bələdiyyə tərəfindən zaman itkisinə yol verilmir, növbələrdə durmağa ehtiyac qalmır, vətəndaş bürokratiya ilə qarşılaşmır, operativlik təmin olunur.

Azərbaycan Respublikasının Konstitusiyasında dəyişiklik edilməsi məqsədilə 26 sentyabr 2016-cı il tarixində ümumxalq səsverməsi (referendum) keçirilmişdir. Keçirilmiş ümumxalq səsverməsində (referendumda) "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" Referendum Aktı qəbul olunmuşdur. Xatırladaq ki, sonuncu Referendum Aktı ilə 1995-ci ilin noyabrında qəbul olunan Konstitusiyamıza 3-cü dəfə dəyişiklik edilir. Konstitusiyamıza əvvəlki dəyişikliklər 2002-ci ilin 24 avqustunda (22 maddəyə 31 dəyişiklik) və 2009-cu ilin 18 martında (29 maddəyə 41 dəyişiklik) keçirilən referendumlarda olunub. Sonuncu referendumda bir çox maddələrdə əlavə və dəyişikliklər edilmişdir ki, bunlardan bir də Konstitusiyaya əlavə edilmiş 146-cı maddədir. "Bələdiyyələrin məsuliyyəti" adlanan həmin maddədə deyilir:

"Bələdiyyələr, bələdiyyə qulluqçuları ilə birlikdə, bələdiyyə qulluqçularının qanunazidd hərəkətləri və hərəkətsizliyi nəticəsində insan hüquq və azadlıqlarına dəymiş ziyana görə və onların təminatının pozulmasına görə mülki məsuliyyət daşıyırlar" [11].

Maddə 60-da isə "Hər kəs dövlət orqanlarının, siyasi partiyaların, hüquqi şəxslərin, bələdiyyələrin və vəzifəli şəxslərin hərəkətlərindən və hərəkətsizliyindən inzibati qaydada və məhkəməyə şikayət edə bilər" müddəası qeyd olunmuşdur [10].

Bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dövlət bələdiyyələrinin inkişafında maraqlıdır və bu sahəyə lazımi diqqət yetirilir. Yerli özünüidarəetməyə həsr olunmuş 30-a yaxın qanun, bələdiyyələrin fəaliyyətinin istiqamətlərini tənzimləyən 200-dən çox qərar, fərman, sərəncam və əsasnamənin qəbul edilməsi bunu deməyə əsas verir. Ümumiyyətlə, bələdiyyələr perspektivli və gələcəyi olan orqanlardır. Yaxşı gələcək bu orqanları beynəlxalq təcrübəyə və yerli reallıqlara əsaslanaraq formalaşmanı tələb edir. Çünki bələdiyyələr ölkəmizin sürətli inkişafı və əhalinin daha yaxşı yaşamaq tələbatı şəraitində öz fəaliyyətlərini düzgün qurmaq və qarşıya çıxan məsələləri həll etmək baxımından çevik bir orqana çevrilməklə bərabər, həm də öz strukturlarını daim təkmilləşdirməlidirlər.

## NƏTİCƏ

Yekun olaraq qeyd edək ki, yerli özünüidarəetmə orqanları müxtəlif ölkələrdə müxtəlif xüsusiyyətlərə malik olsalar da, onların hamısı üçün ümumi keyfiyyətlər – orqanların seçkili olması; idarəçilik və maliyyə muxtariyyətinin mövcudluğu; kadrların cəlb edilməsində müstəqillik; ümumi hakimiyyət idarəçilik sisteminin müstəqil elementinə çevrilməsi; qanunvericilik əsasında özünün məsuliyyəti altında fəaliyyət göstərilməsi və s. qeyd edilməlidir.

Yerli özünüidarəetmə institutunun cəlbediciliyi onunla müəyyən edilir ki, bu institut yerli hakimiyyət səviyyəsində əhalinin hakimiyyət orqanları ilə bilavasitə qarşılıqlı fəaliyyətini həyata keçirməyə, yerli əhalinin və yerli kollektivlərin normal fəaliyyəti ilə bağlı məsələlərin qoyulması və həll edilməsinə, vətəndaşların cəmiyyətin idarə olunması prosesində aktiv iştirakına imkan verir.

Dövlətimizin inkişafında, ölkəmizdə demokratik ənənələrin formalaşmasında və əhalinin yerli əhəmiyyətli problemlərinin həllində bələdiyyələrin inkişafı və formalaşması mühüm əhəmiyyətə malikdir. Yerli özünüidarəetmənin 100 illərlə tarixi olsa da, həm də müasir dövrün təsisatlarından və demokratiyanın inkişafı naminə beynəlxalq təşkilatların əsas tələblərindən sayılır.

Təməli ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş və Azərbaycan Respublikasında dövlətin, cəmiyyətin demokratikləşməsi, yerli özünüidarəetmə sisteminin formalaşdırılması yolu ilə hakimiyyətin xalqa yaxınlaşdırılması, regionların sosial-iqtisadi inkişafının təmin olunması istiqamətində həyata keçirilən əks-mərkəzləşdirmə siyasəti bu gün də möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi altında uğurla davam etməkdədir. Ölkəmizdə yerli özünüidarəetmə sahəsi ilə bağlı bir çox qanunların qəbul olunması, fərman və sərəncamların imzalanması Prezidentimizin bu sahəyə xüsusi diqqət yetirdiyinin əyani şəkildə sübutudur.

**Ədəbiyyat:**


1. Azərbaycan Respublikası Konstitusiyası, Bakı, "Qanun", 2011.
2. "Bələdiyyə statusu haqqında" Azərbaycan Respublikasının Qanunu, 1999.
3. Azadov.E, Bağırzadə.M, Əhmədov.F, Mehtəliyev.A, Fətullayev Ə. "Azərbaycan Bələdiyyələri: İlk təcrübə, əsas problemlər və inkişaf perspektivləri", Bakı, 2004, s.196.
4. Hacıyev Ş.H. "Dövlət və Bələdiyyə idarəçiliyi" Bakı, 2011, s.440.
5. "Dövlət idarəçilik nəzəriyyəsi" (redaktor Qəndilov.S.T) Bakı, 2010, s.550.
6. Maykl Gorelik, Ruti Sofer "Bələdiyyə Xidmətlərinin İnkişafı üçün Ehtiyacların Dəyərləndirilməsi", 2004, s.82.
7. Səlimzadə M.İ., Sadıqov.Ə.İ., Xəlilov Q.R. "Bələdiyyə hüququ", Bakı, 2011, s.144.
8. Səlimzadə M., Xəlilov Q. "Yerli Özünüidarəetmə: Anlayış, Təcrübə, Əməkdaşlıq, Hüquqi Əsaslar", "Elm və təhsil", Bakı, 2010, s.132.
9. www.azadinform.az "Yerli özünüidarəetmə anlayışı və mahiyyəti".
10. www.ekitab.net "Azərbaycanda bələdiyyələrin əsas problemləri və onların həlli yolları" 20 aprel 2016-cı il.
11. www.m.apa.az "Konstitusiyaya əlavə və dəyişikliklərlə bağlı referendumun nəticələri açıqlanıb". 27 sentyabr 2016-cı il.
12. www.msk.gov.az 26 sentyabr 2016-cı il keçirilmiş ümumxalq səsverməsində (referendumda) qəbul edilmiş "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Referendum Aktı.


**Açar sözlər**: *Azərbaycan Respublikası Konstitusiyası, idarəetmə, planlaşdırma, yerli özünüidarəetmə orqanları, bələdiyyə qulluqçuları, bələdiyyə xidmətləri*

**Ключевые слова**: *Конституция Азербайджанской Республики, управление, планирование, органы местного самоуправления, муниципальные служащие, муниципальные услуги*

**Key words:** *Constitution of the Azerbaijan Republic; government; planning; local government authorities; municipal officials; municipal services*

**Муртаза Гасанов**

***доктор философии по политическим наукам, доцент, преподаватель кафедры Государственной службы и кадровой политики Академии Государственного Управления при Президенте Азербайджанской Республики***

## МУНИЦИПАЛИТЕТЫ В АЗЕРБАЙДЖАНЕ НА 25-ОМ ГОДУ НЕЗАВИСИМОСТИ: УСПЕХИ И ПЕРСПЕКТИВЫ РАЗВИТИЯ

### РЕЗЮМЕ

Становление, формирование и развитие эффективно функционирующих муниципалитетов, как одной из форм местного самоуправления, имеет особое значение на данном этапе демократического развития независимого Азербайджанского государства.

Создание муниципалитетов – органов местного самоуправления, способствующих осуществлению местной демократии и с социально-экономической точки зрения имеющих исключительно важное значение, нашло свое отражение в Конституции Азербайджанской Республики. В статье отражены вопросы создания муниципалитетов в стране, их эффективная работа, опыт местного самоуправления, достигнутые успехи и перспективы.

**Murtaza Hasanov**

***The Academy of Public Administration under the President of the Republic of Azerbaijan Department of Civil Service and Personnel Policy PhD in Political Sciences, Associate Proffesor***

## MUNICIPALITIES IN AZERBAIJAN ON 25TH YEAR OF INDEPENDENCE: PROGRESS AND DEVELOPMENT PROSPECTS

### SUMMARY

The creation, formation and development of municipalities as a form of the effective local governments is of particular importance at the current stage of democratic development of the independent Azerbaijan. The establishment of municipalities as local governments promoting the implementation of local democracy was reflected in the Constitution of the Azerbaijan Republic. The article describes the establishment of municipalities, their effective operation, local government experience, current perspectives and progress.

**BAYRAM HAQVERDİYEV**

***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Fəlsəfə və sosial-psixologiya" kafedrasının dosenti, psixologiya üzrə fəlsəfə doktoru***

# DÖVLƏT QULLUĞUNUN SƏMƏRƏLİLİYİNİN SOSİAL-PSİXOLOJİ ƏSASLARI

Dövlət qulluğunun səmərəliliyinə təsir edən amilləri müəyyən edərkən, onun sosial, hüquqi-normativ problemləri ilə yanaşı, dövlət qulluqçusunun timsalında insan amilinin fəal-yaradıcı, tənzimləyici rolunun öyrənilməsi də vacibdir.

Bu baxımdan dövlət qulluğunun səmərəliliyini müəyyən edən amillər sırasında insanşünaslıq problemlərinin, o cümlədən mənəvi-psixoloji amillərin rolunun öyrənilməsi xüsusi əhəmiyyət kəsb edir.

Cəmiyyətdə insanların dövlətimizə münasibəti, əhəmiyyətli dərəcədə dövlət məmurlarının peşəkarlığından, onların geniş hümanitar, siyasi hazırlığa, peşə fəaliyyətləri üçün lazım olan psixoloji səriştəliliyə, mənəvi-əxlaqi keyfiyyətlərə malik olmasından çox asılı olur.

Dövlət qulluğunun fəaliyyətinin elmi-psixoloji təminatı bir neçə istiqamətdə həyata keçirilir. Bu öz ifadəsini daha qabarıq şəkildə kadr siyasətində, personalın idarə olunmasında, kadrların seçilib-qiymətləndirilməsində, gənc kadrların iş yerinə, peşəsinə adaptasiyasına nail olmaq üçün həyata keçirilən tədbirlərdə, kadrların yaradıcı potensialını və fərdi iş üslublarını dolğun ifadə etmələri üçün əlverişli mənəvi-psixoloji mühitin yaradılmasında və s. tapır.

Kadrlarla işin müasir psixologiya elminin prinsiplərinə və qanunlarına uyğun həyata keçirilməsi üçün, dövlət qulluqçularının psixoloji durumunu, dəyərlər və motivlər sistemini, fərdi-psixoloji, şəxsi keyfiyyətlərini özündə əks etdirən "psixoloji portreti"nin, "psixoqram"ının hazırlanması, kadrların peşəyə, tutduğu vəzifəyə uyğunluğunu və yararlılığını müəyyən etməyə imkan verir. Müşahidələr, yazılı və şifahi sorğular, ekspert rəylərinin öyrənilməsi və s. sosial-psixoloji metodlardan istifadə etməklə, dövlət qulluqçularının ümumiləşmiş sosial-psixoloji portretini yaratmaq mümkün olur.

Dövlət qulluqçularının psixoloji portretininin əsas elementlərinə misal olaraq, aşağıdakıları göstərmək olar: dövlət məmurlarının dövlətçiliyə və milli-mənəvi dəyərlərimizə sadiqliyi; siyasi yetkinliyi, mənəvi-əxlaqi keyfiyyətləri, icra mədəniyyəti; məsuliyyətli, nizam-inti- zamlı, həyat və fəaliyyətində mütəşəkkil, dürüst və səmimi olmaları; peşə fəaliyyətləri üçün zəruri olan bilik, bacarıq və vərdişlərə malik olması; geniş hümanitar hazırlığı; psixoloji səriştəliliyə, kommunikativ keyfiyyətlərə, ünsiyyət mədəniyyətinə, insanlar arasında yüksək nüfuza malik olmaları və s.

Dövlət qulluqçularının sosial-psixoloji portretinin yaradılmasında, onlara xas olan psixoloji keyfiyyətlərin inteqrativ ifadəsi olan, fərdi fəaliyyət və təfəkkür üslubunun və onların öz peşəsindən, işindən, yaradıcı potensialından dolğun istifadə etmək üçün təşkilatda əlverişli şəraitin olmasından və s. keçirdikləri razılıq və ya narazılıq hislərinin öyrənilməsi də, mühüm əhəmiyyət kəsb edir.

Dövlət qulluqçularının özlərinə xas olan fərdi iş üslubları, onların tutduğu vəzifəyə və peşəyə yararlılığının mühüm psixoloji parametrləri kimi çıxış edir. Dövlət qulluqçularına xas olan fərdi fəailiyyət üslublarının öyrənilməsi onların peşə və idarəetmə fəaliyyətlərində uğurlarını qiymətləndirməyə və proqnozlaşdırmağa imkan verir. Dövlət məmurlarının peşəkarlığının mühüm parametrlərindən olan fərdi üslubları əsasında onların sosial-psixoloji təsnifatını yaratmaq mümkün olur.

Fərdi üslub, mühüm metodoloji və metodiki funksiyaları yerinə yetirərək, dövlət qulluqçularının qiymətləndirilməsində onların peşəyə yararlılığını və inkişaf perspektivlərini müəyyən etməyə imkan verir. Fərdi üslubun öyrənilməsi, dövlət qulluqçularının səmərəliliyini təkcə onların fəaliyyətlərinin nəticələrinə görə deyil, eyni zamanda bu nəticələrin əldə olunması üsullarına, yəni peşə fəaliyyətinin prosessual-dinamik parametrlərinə və yaradıcı xaraterinə görə də qiymətləndirməyə imkan verir.

Beləliklə, fərdi üslub, şəxsiyyətin fəaliyyətinin tibbi-bioloji, psixofizioloji, fərdi-psixoloji keyfiyyətlərinin inteqrativ ifadəsi kimi çıxış edir.

Fərdi üslub, idarəetmə subyektləri kimi, dövlət qulluqçularının, peşəsinə və tutduğu vəzifəyə uyğunluğu, idarəetmə səriştəliliyi, bacarıq və vərdişləri, fərdi-psixoloji keyfiyyətləri haqqında da mühakimə yürütməyə əsas verir. Təşkilatlarda dövlət qulluqçularının fərdi üslubunun dolğun təzahür olunmasına imkan verən əlverişli sosial-psixoloji mühitin yaradılması, onların fəaliyyətinin səmərəliliyinin mühüm sosial-psixoloji amili kimi çıxış edir.

Dövlət qulluqçularının əməyinin, peşəkarlığının və şəxsiyyətinin sosial-ədalət prinsipinə uyğun dəyərləndirilməsi, onlarda özünə inam hissini gücləndirir, peşə fəaliyyətində müsbət motivasiya və ruh yüksəkliyi yaradır, adekvat iddia səviyyəsinin formalaşmasına, gələcək karyerası haqqında daha real planlar qurmasına zəmin yaradır.

Rusiya tədqiqatçılarının araşdırmaları göstərir ki, dövlət qulluqçularının peşə fəaliyyətini qiymətləndirərkən, əsasən, kadrların peşəkarlığının səviyyəsinə və onların iş təcrübəsinin olmasına, hansı istiqamətdə çalışmasına daha çox diqqət yetirilir.

Təhlillər göstərir ki, bəzi hallarda dövlət məmurlarının yaradıcı potensiallarından dolğun istifadə edə bilməmələri, onlarda peşə fəaliyyətinə marağın və motivasiyanın zəifləməsinə gətirib çıxardır. Eyni zamanda bu tədqiqatlarda dövlət qulluqçularının seçilib qiymətləndirilməsində, psixoloji parametrlərə lazımınca diqqət yetirilməməsi, psixoloji metodlardan və psixoloji təsir vasitələrindən kifayət dərəcədə istifadə olunmaması qeyd olunur (6; 35).

Dövlət qulluğunun səmərəliliyinə müsbət təsir edən amillərə, dövlət məmurlarının geniş hümanitar mədəniyyətə, yüksək yaradıcı-elmi potensiala malik olmalarını göstərmək olar.

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında dövlət qulluqçularının qiyabi, təkmilləşmə və qısamüddətli kurslarında, idarəetmənin psixoloji məsələlərinin tədrisinə geniş yer verilir.

Dövlət qulluqçularının psixoloji durumunu və onların fəaliyyətlərinin motivlərini ifadə edən mühüm parametrlərdən biri də onların öz peşəsindən, iş şəraitindən, təşkilatda yaranmış mənəvi-psixoloji mühitdən, rəhbərlikdən, gələcək karyerası üçün perspektivlərin olmasından, sosial-məişət problemlərinin vəziyyətindən, etibarlı sosial müdafiələrinin olmasından və s. amillərdən razılıq və ya narazılıq hissi keçirmələridir.

Razılıq hissi inteqrativ sosial-psixoloji parametr kimi dövlət qulluqçularının təşkilatda obyektiv və subyektiv durumlarının qarşılıqlı təsirindən formalaşaraq, onların peşə fəaliyyətlərindəki real vəziyyətləri ilə, gözləntilərinin nə dərəcədə üst-üstə düşməsinə subyektiv reaksiyaları kimi çıxış edir.

Razılıq və ya narazılıq hissinin öyrənilməsi, dövlət qulluqçularının peşə fəaliyyətlərinin motivləri, dəyərlər sistemi və müxtəlif amillərin onların fəaliyyətinə stimullaşdırıcı təsiri haqqında fikir yürütməyə imkan verir. Razılıq hissinin yüksək olması, bir qayda olaraq, dövlət məmurlarının peşə fəaliyyətlərinin səmərəliliyinə müsbət təsir edən psixoloji zəmin kimi çıxış edir. Bəzi hallarda isə əksinə personalın hal-hazırkı nailiyyətlərindən razı olması, onlarda arxayınçılığa və passivliyə gətirib çıxarda bilir.

Personalın peşə fəaliyyətinin nəticələrindən narazı olması, bəzi hallarda onun fəaliyyətinə stimullaşdırıcı təsir də edə bilər. Belə ki, öz fəaliyyətinə və uğurlarına tənqidi və tələbkarlıqla yanaşan məmurlar daha əzmkarlıqla çalışmağa başlayır, öz yaradıcı potensiallarını, bilik və bacarıqlarını təkmilləşdirməyə xüsusi diqqət yetirirlər.

Tədqiqatçıların yerli özünüidarəetmə strukturlarında apardıqları sosial-psixoloji araşdırmalar, bu sferada çalışan məmurlarda ümumi razılıq hissinin zəif olmasını aşkara çıxarmışdır. Məs., dövlət məmurlarını razı salmayan amillərdən sosial müdafiələrinin zəif olması (52%); sabahkı günə inamsızlıq (47 %); həyata maraq (26%); optimizm – ancaq 29 %-də müşahidə olunur. Soruşulanların 38 %-i həyacanlılıq, 24 %-i yorğunluq, ruh düşgünlüyü, əhvali-ruhiyyənin aşağı olmasını qeyd edirlər. Peşəsində, işində perspektivin olmaması hissini 24 %; 20 % isə öz imkanlarına və gələcəyinə inamsızlıq ifadə edirlər. Soruşulanların ancaq 23 %-i öz gücünə inanırlar (6; 150).

Dövlət qulluqçularının psixoloji durumunu və motivlərini əks etdirən razılıq və narazılıq hissinin öyrənilməsi, onların peşə fəaliyyətlərinin səmərəliliyini qiymətləndirmək üçün, diaqnostik və proqnozlaşdırıcı əhəmiyyət kəsb edir.

Dövlət qulluğunun səmərəliliyinə təsir edən psixoloji amillərin rolunun əyani ifadəsi kimi, beynəlxalq standartlara cavab verən və respublika ictimaiyyəti tərəfindən razılıqla qarşılanan, səmərəli idarəetmə modeli kimi "Asan xidmət"in fəaliyyətini göstərmək olar.

"Asan xidmət"in səmərəli fəaliyyəti, digər amillərlə yanaşı, burada çalışan personalın geniş humanitar mədəniyyətə və psixoloji səriştəliliyə malik olmaları ilə izah olunur. Belə ki, burada olan yüksək xidmət mədəniyyəti hökm sürür, vətəndaşların problemlərinə diqqət və qayğı ilə yanaşılır, hər bir vətəndaşın müraciətinə qısa müddətdə baxılır.

Bu vəzifələrin həlli üçün "Asan xidmət"də çalışan personalın psixoloji səriştəliliyə, o cümlədən yüksək ünsiyyət, empatik və etik mədəniyyətə malik olmaları, onların bu vəzifələrin öhdəsindən uğurla gəlmələrinin başlıca səbəbləri kimi çıxış edirlər.

Bundan başqa, "Asan xidmət"in yüksək nüfuzunun və imicinin formalaşmasına təsir edən amillərə, bu xidmətdə əməyin nümunəvi təşkili, yüksək təşkilati mədəniyyətin və sağlam mənəvi-psixoloji mühitin, işçilər arasında sağlam işgüzar münasibətlərin, həmrəyliyin, yekdilliyin olması, innovasiyalardan geniş istifadə olunması, işçilərin səmərəli fəaliyyətinin və nailiyyətlərinin ədalətli qiymətləndirilməsi və mükafatlandırılmasını və s. amilləri göstərmək olar.

Xidmətin idarə olunmasında sosial ədalət və humanizm prinsiplərinin əsas götürülməsi onun əldə etdiyi uğurların mühüm amilləridir.

Sosial-psixoloji təhlillər göstərir ki, "Asan xidmət"in səmərəliliyinin əsasında duran psixoloji amillərə kadr korpusunun formalaşmasında rəhbərlik tərəfindən yüksək diqqət və həssaslıq nümayiş etdirilməsi, perspektivli gənclərin seçilməsi və onların yeni mühitə adaptasiya olmaları üçün məqsədyönlü işlərin aparılmasını göstərmək olar.

Qeyd etmək lazımdır ki, bu istiqamətdə görülən işlər mövcud rellıqların tələblərinə uyğun olaraq, daima inkişaf etdirilməsi və təkmilləşdirilməsi, onun ictimai fikirdə formalaşmış reytinqinin qorunub saxlanmasına və daha da artmasına zəmin yaradardı. "Asan xidmət"in

nailiyyətləri ilə yanaşı, innovasiyalar tətbiq olunarkən, qarşıya çıxan problemlərin, çətinliklərin olmasına təbii hal kimi baxılmalı və onların həlli yolları tapılmalıdır.

Sosial-psixoloji təhlillər, dövlət qulluğunun psixoloji təminatına kömək edə biləcək aşağıdakı tövsiyələri irəli sürməyə imkan verir:

– dövlət qulluğunun səmərəliliyinin artırılmasının mühüm istiqamətlərindən biri;
– dövlət məmurlarının peşə vəzifələrini həyata keçirərkən yaşadıqları psixologiya;
– gərginlik və streslərin aradan qaldırılması və tənzimlənməsindən ibarətdir;
– dövlət qulluqçularının zahirən sakit, əslində isə yüksək məsuliyyət, psixoloji gərginlik hesabına baş tutan peşə fəaliyyətlərinin psixoprofilaktik, psixogigiyenik tələblər baxımından təşkili və psixoloji özünütənzimləmə metodlarından (autotreninq, meditasiya və s.) istifadə olunması üçün personalın psixoloji səriştəliliyinin artırılmasına nail olunmalıdır;
– peşə fəaliyyətində yaranan psixoloji gərginliyi və stresləri aradan qaldırmaq yollarından, əmək fəaliyyətinin maraqlı və məzmunlu olmasına nail olmaq;
– təşkilatda sağlam mənəvi-psixoloji mühitin yaradılması; psixoloji gərginlik yaradan səbəblərin müəyyən olunması və aradan qaldırılmasını qeyd etmək olar;
– dövlət qulluğunun psixoloji təminatının yaradılmasında mühüm vəzifələrindən biri, dövlət məmurlarının potensial imkanlarının və fərdi fəaliyyət üslublarının dolğun ifadə olunması üçün təşkilatda əlverişli işgüzar şəraitin və mənəvi-psixoloji mühitin yaradılmasından ibarətdir.

**Ədəbiyyat:**


1. Dövlət qulluğu haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı, 2001.
2. Ronald Yanq, Alan Gilmor, Gülzar Quliyeva. Azərbaycanda kadrların idarə edilməsinə müasir yanaşma (İnsan inkişafı). Bakı, 2005.
3. Гусева Г.А. Объективные и субъективные факторы изменения ценностных ориентаций государственных служащих. / Современный менеджмент – ключ к экономическому подъему. М., 1999, ч. 11.
4. “Государственная Служба Российской Федерации: Основы управления персоналом”, Москва, 2003.
5. Государственная служба: энциклопедический словарь. Под ред. В.К.Егорова, И.Н.Барцица. М.: “РАГС”, 2008.
6. Дергач А.А. Акмеологические стратегии развития. Монография. М.: Изд-во “РАГС”, 2006.
7. Климов Е.А. Психология профессионализма. М.: 1996.
8. Энциклопедический словарь крылатых слов и выражений. М., “Локид – Пресс”, Вадим Серов, 2003.



**Açar sözlər:** *psixoloji səriştəlilik; dövlət qulluğunun psixoloji təminatı; dövlət qulluqçusunun psixoloji portreti; razılıq hissi; fərdi iş üslubu*

**Ключевые слова:** *психологическая компетентность; психологическое обеспечение государственной службы; психологический портрет государственного служащего; чувство удовлетворенности; индивидуальный стиль работы*

**Key words:** *psychological competence; psychological indemnity of civil service; sense of satisfaction; individual style of working*



**Байрам Ахвердиев**

***Доцент кафедры «Философии и социальной психологии» Академии Государственного Управления при Президенте Азербайджанской Республики, доктор философии по психологии***


## СОЦИАЛЬНО-ПСИХОЛОГИЧЕСКИЕ ОСНОВЫ ЭФФЕКТИВНОСТИ ГОСУДАРСТВЕННОЙ СЛУЖБЫ

### РЕЗЮМЕ


Статья посвящена изучению социально-психологических основ государственной службы. Показываются особенности и основные направления психологического обеспечения государственной службы, раскрывается содержание понятий «психологическая компетентность служащих» и «психологическое обеспечение государственной службы». Одним из важных направлений психологического обеспечения государственной службы является развитие и формирование психологической компетентности государственных служащих, выражаю-

щихся в их гуманитарной подготовке, культуре общения, коммуникативной способности и т. д. Для выявления психологической компетентности и особенностей мотивационной сферы государственных служащих следует изучить такие интегративные психологические образования, как удовлетворенность различными производственными факторами – условиями труда, размером заработка, наличием возможности проявить творческий потенциал и индивидуальный стиль, возможности профессионального и должностного роста и т. д.

**Bayram Haqverdiyev**
***Associate Professor of "Philosophy and social psychology" Department, the Academy of Public Administration under the President of the Republic of Azerbaijan, PhD in Psycology***

## SOCIO-PSYCHOLOGICAL BASIS OF THE EFFECTIVENESS IN CIVIL SERVICE

### SUMMARY

This article analizes the social-psychological foundations of civil service, reveals the characteristics, directions and defiition of psychological provisions for civil service and expalins the definitions of civil servants' pschological competences. One of the main directions of psycological provisions of civil service is developement of civil servants' professional competencies reflected in their trainings and communication skills. For identification of psychological competences and aspects of motivation of civil servants, such psychological factors as job satisfaction, income, opportunity for creativity, career growth and promotion should be analyzed.

**MƏMMƏD MƏMMƏDOV**

***Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası «Dövlət idarəetməsi və menecment» kafedrasının dosenti, iqtisad üzrə fəlsəfə doktoru***

# AZƏRBAYCANDA ALİ PEŞƏ TƏHSİLİNİN VƏZİYYƏTİ VƏ İNKİŞAF PERSPEKTİVLƏRİ

Ümummilli lider Heydər Əliyevin «Təhsil millətin gələcəyidir» şüarı müstəqillik illərində Azərbaycan iqtisadiyyatının bütün sahələrində olduğu kimi, təhsil sferasında da inkişafa böyük önəm verildiyinə bariz nümunədir.

Çünki yaxın onillikdə dünyanın istənilən ölkəsinin rəqabət qabiliyyəti onun malik olduğu biliklərin qlobal iqtisadiyyata inteqrasiya olmaq qabiliyyəti ilə müəyyən ediləcəkdir. Yeni biliklərin yaradılması və tətbiqi milli iqtisadiyyatların artımının və böyük miqdarda insanların həyata keyfiyyətinin yüksəldilməsinin əsas mənbəyinə çevrilir. Dünya iqtisadiyyatının uzunmüddətli sabit inkişafı müasir dünyada tələb olunan ixtisas və biliklərə malik olan insan kapitalının keyfiyyətindən birbaşa asılıdır. Bu müxtəlif milli təhsil sistemlərinin üstün inkişaf məqsədlərindən asılı olmayaraq, onların hamısı milli və qlobal sistemlər üçün sosial və texnoloji innovasiyaların mənbəyi olmalıdırlar; genişlənən beynəlxalq əmək bazarında insanların peşə mobilliyi və kompetentliyini təmin etməlidirlər; müxtəlif etnik və konfessional qrupların qarşılıqlı sosial-mədəni adaptasiyalarını təmin etməlidir.

Müasir dövrdə innovasiyalarda reallaşan biliklər ölkənin iqtisadi yüksəlişi və rəqabət qabiliyyətliyinin həlledici amilinə çevrilir. Ölkənin iqtisadi liderliyi yalnız ictimai istehsalda müasir texnika və ən qabaqcıl texnologiyalardan istifadə əsasında mümkün ola bilər. İqtisadiyyatın innovasiyalı inkişafı isə təhsil sisteminin və elmin yüksək səviyyədə inkişafını tələb edir. Postindustrial dövrə qədəm qoymuş Azərbaycanda sosial-iqtisadi inkişafın mühüm amili biliklərin daima yeniləşməsidir. Biliklərin (ideyaların) generasiyası, onların toplanması və ötürülməsinin əsas vasitəsi isə təhsil, xüsusilə də ali təhsildir. Təhsilin əsas vəzifələrindən biri də onun yeni biliklərə tələb yaratmasındadır.

Bütün ölkələrdə ali təhsilin inkişafı cəmiyyətin özünün sosial-iqtisadi inkişafı dinamikası ilə sıx əlaqədardır. Cəmiyyətin təhsilə olan tələbatı daima artır və yeniləşir ki, bu da öz növbəsində onun daima modernləşdirilməsini tələb edir.

Təhsilin inkişafı və idarə edilməsinin hazırkı mərhələsi təsərrüfat əlaqələrinin qloballaşması və institutsionallaşması ilə xarakterizə olunur. Təhsil münasibətlərinin intensivləşdirilməsi istiqamətləri içərisində vahid təhsil məkanının yaradılması üçün təhsil müəssisələrinin əməkdaşlığına xüsusi yer ayırmaq lazımdır. Bunun üçün isə istehlakçı uğrunda bir-birilə rəqabət aparan digər təsərrüfat subyektlərindən fərqli olaraq, təhsil müəssisələrinin əməkdaşlığına nail olmaq lazımdır. Bu da öz növbəsində təhsil sistemi tərəfindən təqdim edilən xidmətlərin hamı üçün «əl çatan» olmasına və təhsilin keyfiyyətinin yüksəlməsinə gətirib çıxaracaqdır [5, s.3].

Ali təhsil sisteminin yeni mərhələsi mütəxəssis hazırlanmasından insan şəxsiyyətinin formalaşmasına keçidlə xarakterizə olunur. Bu isə təhsil və tərbiyənin şəxsiyyətin formalaşmasına istiqamətlənən yeni təhsil paradiqmasının işlənib hazırlanmasını və real həyatda tətbiqini tələb edir.

Yeni təhsil paradiqmasının konseptual prinsipi kimi ali peşə təhsilinin ictimai inkişafın müasir meyillərinə adekvat olan «***şəxsiyyət maraqlarının öncül olması***» haqqındakı ideya çıxış edir. Bu ideya fikrimizcə, aşağıdakı vəzifələri həll etməklə hər bir tələbənin daxili potensialını tam reallaşdırmağa imkan verə bilər:

– dünyanın müasir iqtisadi inkişaf mənzərəsini dərk etməklə insan münasibətlərinin təbiətlə həmahəng inkişafını təmin etməyə;
– müasir dərk etmə metodlarını mənimsəməklə intellektual inkişafı stimullaşdırmağa və dərk etməni zənginləşdirməyə;
– mövcud mədəni mühitə (o cümlədən texnogen və kompüterləşdirilmiş) nüfuz etməyin köməyilə insanın uğurla sosiallaşmasına;
– bol və daima yeniləşən informasiya mühiti şəraitində insanları fəal işləməyə öyrətmək üçün fasiləsiz özünü təhsilə ilkin şərt və şərait yaratmağa;
– elm və texnikanın inkişafının inteqrativ meyillərini nəzərə almaqla insanların yeni bilik səviyyəsinə olan tələbatlarını reallaşdırmağa.

Ali peşə təhsilinin məqsədi ümumi (tam) orta və orta peşə təhsili bazasında fərdlərin təhsilə olan tələblərinin dərinləşdirilməsi və genişləndirilməsi əsasında yüksək səviyyəli mütəxəssislər hazırlanmasını və onların yenidən hazırlanmasını həyata keçirməkdir.

Ali peşə təhsilini ali təhsil sisteminin məcmusunu təşkil edən universitetlərdə, akademiyalarda və institutlarda almaq olar. Azərbaycanda ali peşə təhsili ali təhsil müəssisələri ilə yanaşı, dövlət təhsil standartlarını və proqramlarını; ali təhsilin fəaliyyət göstərməsini, inkişafını təmin edən və elmi tədqiqatları həyata keçirən

elmi, layihə və mədəni-maarif müəssisələrini; ali təhsilin idarə edilməsinin müxtəlif orqanlarını özündə birləşdirir.

Ali təhsil müəssisəsi, hər şeydən əvvəl, yüksək ixtisaslı mütəxəssislərin hazırlanması və yenidən hazırlanması ilə bağlı olan son dərəcədə müxtəlif xidmətləri yerinə yetirir. Ali məktəb, həmçinin elmi tədqiqatları təşkil edən və həyata keçirən bir sferadır. Onun həcmi və əhəmiyyəti ali məktəbin statusunu müəyyən edərkən əsas kriteriyalardan biridir. Ali məktəb Azərbaycan Respublikasının təhsil haqqındakı qanununa müvafiq olaraq təsis edilən, hüquqi şəxs statusuna malik olan və ali peşə təhsili proqramını həyata keçirmək üçün müvafiq lisenziya alan təhsil müəssisəsidir.

***Öz statusuna görə ali peşə təhsili müəssisələri universitetlərə, akademiyalara və institutlara bölünür***. Ali məktəbin sosial statusu bir sıra əlamətlər üzrə sosial sistemdə hüquqi şəxslərin vəziyyəti ilə müəyyən edilə bilər. Ali təhsil müəssisəsinin statusu onun növündən, təşkilati-hüquqi formasından, dövlət akkreditasiyasının olmasından və ya olmamasından asılı olaraq müəyyən edilir. Status ali təhsil müəssisəsinin nüfuzuna təsir göstərir. Bundan əlavə, ali məktəbin nüfuzu mütəxəssis hazırlığının keyfiyyəti, aparılan elmi tədqiqatların xarakteri, həmçinin ölkə və regionun mədəni inkişafındakı rolu ilə müəyyən edilir.

Ali təhsil müəssisəsinin universal və geniş yayılmış növü olan ilk universitetlər orta əsrlərdə Avropada meydana gəlmişdir. İlk universitetlər Boloniya (İtaliya), Oksford və Kembric (İngiltərə), Paris (Fransa) XII əsrdə yaradılmışdır.

Azərbaycanın müasir təhsil sisteminin inkişaf meyillərindən biri özəl təhsil sektorunun genişlənməsidir. Azərbaycanın mövcud təhsil qanunvericiliyi bütün mülkiyyət formalı (dövlət və özəl) ali təhsil müəssisələrinin fəaliyyət göstərməsinə imkan verir. Belə təhsil müəssisələri ödənişli və kommersiya hesablı ola bilər. Qeyd etmək lazımdır ki, onlar üçün əksər əsasnamə və qaydalar, həmçinin bir sıra sənədlər, xüsusilə də ali peşə təhsili müəssisələri haqqındakı nümunəvi əsasnamə tövsiyə xarakteri daşıyır və nümunəvi hesab olunur.

Ali təhsili yalnız əyani formada deyil, həm də qiyabi, distant (məsafədən) və sərbəst (eksternat) formalarda almaq olar.

Azərbaycanda ali təhsil sisteminin yaranması və inkişafını iki dövrə: sovet və müstəqillik dövrünə bölmək olar.

1919-cu ildə yaradılmış Azərbaycanın ilk və yeganə Ali məktəbi olan Bakı Dövlət Universiteti istisna olmaqla sovet dövrü 1921-ci ildən 1991-ci ilə qədər olan dövrü əhatə edir. Bu dövrü biz inkar edə bilmərik. Həmin 70 ilin mənfi tərəfləri olduğu kimi, müsbət cəhətləri də çox olmuşdur. Xüsusilə də təhsil sahəsində. Demək olar ki, Azərbaycan elminin və təhsilinin təməli məhz həmin illərdə qoyulmuşdur və biz bu gün onun bazasında öz fəaliyyətimizi müasir tələblərə uyğun davam etdiririk. Bu barədə ulu öndər Heydər Əliyev dəfələrlə öz çıxışlarında qeyd etmişdir ki, hər cür şəraitdə və rejimdə öz xalqına və mədəniyyətinə xidmət göstərmək olar. Təki buna qadir olasan.

Əgər sovet dövrünə qədər Azərbaycanda 1 ali məktəb olmuşdursa, 1991-ci ildə Azərbaycan 17 ali məktəblə yeni dövrə qədəm qoydu [6, s.218].

Bu gün Azərbaycan ali təhsil sisteminin inkişafını aşağıdakı cədvəldən aydın görə bilərik.

| | **1919/ 1920** | **1959/ 1960** | **1970/ 1971** | **1990 / 1991** | **2000/ 2001** | **2010/ 2011** | **2014/ 2015** | **2015/ 2016** |
|---|---|---|---|---|---|---|---|---|
| Ali məktəblərin sayı | 1 | 12 | 13 | 17 | 47 | 51 | 53 | 53 |
| Onlarda tələbələrin sayı (min nəfər) | – | 34,6 | 100,1 | 105,1 | 119,7 | 140,2 | 158,2 | 156,3 |
| O cümlədən | – | | | | | | | |
| Əyani | – | 19,3 | 47,3 | 60,3 | 96,2 | 112,9 | 137,9 | 139,5 |
| Axşam | – | 2,6 | 17,7 | – | – | – | – | – |
| Qiyabi | – | 12,7 | 35,1 | 44,7 | 23,5 | 27,3 | 20,3 | 16,8 |

***Ali peşə təhsili sistemində mütəxəssislər hazırlanmasına olan əsas tələblər.*** Müasir mütəxəssisin hazırlanması həm humanist və hərtərəfli inkişaf etmiş şəxsiyyətin formalaşması, həm də ali təhsil sistemində peşə hazırlığının həyata keçirilməsi ilə qırılmaz surətdə bağlıdır. Müəyyən peşə sferasında mütəxəssisin sosial statusunun yüksəldilməsi onun hazırlanmasının bütün sisteminə yenidən baxılmasını tələb edir. Belə tələb öz növbəsində yeniliklərə və mütərəqqi meyillərə dövlət köməyi göstərməklə təhsili, elmi və pedaqoji strukturları özünü tənzimləmə, qarşılıqlı təsir və inkişafa istiqamətləndirməlidir. Bu, mütəxəssislər hazırlanmasına aşağıdakı şərtlərlə müəyyən edilən müvafiq yanaşmanı nəzərdə tutur:

- ali təhsilin rolunu, yerini və əhəmiyyətini dərk etməyi;
- səriştəli və yüksək peşəkarlığa malik olan pedoqoji kadrları cəlb etmək, həmçinin müəllim peşəsinin nüfuzunu və statusunu artırmaqla ali təhsil müəssisəsinin professor-müəllim heyətini yeniləşdirməyi;

– qabaqcıl ideyaların generasiyası əsasında ali məktəbdə toplanmış elmi potensialın qəbul edilməsini;
– ali məktəbdə tədris prosesinin informasiya təminatının intensivliyinin yüksəldilməsini. Bu bir tərəfdən təhsil prosesinin məzmun (mahiyyət) və texnoloji komponentlərinin seçilməsinə texnokratik və utilitar yanaşmanın domiantlığına kömək etməklə, digər tərəfdən sosiumun dəyişən şəraitə tez reaksiya vermək və uyğunlaşmaq imkanın, həmçinin elmi inkişaf meylinin artması ilə əlaqədardır.

Təhsilin predmet-peşə istiqamətliyinə üstünlük verilməsi tələbələrin maraq və meyillərinin aşkara çıxarılmasına və uçota alınmasına kömək edir. Bir sıra mütəxəssislərin qeyd etdiyi kimi müasir dövrdə ali məktəbin inkişafının əsas tendensiyası fəaliyyəti mərkəzi hədəf hesab edən pedaqogikadan şəxsiyyəti mərkəzi hədəf hesab edən pedaqogikaya doğru hərəkətdir.

Nəzəri tədqiqatlar və toplanmış təcrübə təhsilin modernləşdirilməsinin müasir mərhələsində ali peşə təhsili hazırlığına obyektiv tələblər irəli sürməyə imkan verir. Bu tələblər mövcud sosial tarixi şəraitdə özünü mədəniyyətin elementi və müasir cəmiyyətin üzvü kimi dərk edən şəxsiyyətin formalaşmasının strateji vəzifələrinin reallaşdırılması ilə həyata keçirilə bilər. Beləliklə, müasir təhsil aşağıdakı yeni əlamətlərlə xarakterizə oluna bilər:
– müasir təhsil tələbləri yaradıcılıq fəallığı ruhunda tərbiyə etməklə mütəxəssisi tərbiyəedici və inkişaf etməkdə olan şəxsiyyətə çevirməklə;
– gələcəyə istiqamətlənməklə və proqnozlaşdırıcı xarakterli olmaqla. Bu zaman keçmiş irsdən tənqidi istifadə etmək məsləhət görülür;
– öz mahiyyətinə görə tədqiqat prosesi xarakteri almaqla, başqa sözlə, bütün məşğələ növlərində tələbələrdə qeyri-standart və kreativ düşüncə formalaşdırmaqla;
– tələbə və müəllimlərin birgə fəaliyyətinin yaradıcı xarakter daşımasını nəzərdə tutmaqla;
– gələcək mütəxəssisləri öz imkan və qabiliyyətlərini tədqiq etməyə istiqamətləndirməklə;
– diaqnostik təminat tələb etməklə.

Bu gün ali peşə təhsilinin mövcud sistemi gənc mütəxəssislərin əmək bazarında mobilliyini və rəqabətqabiliyyətliyini lazımınca təmin edə bilmir. Bu onların hazırlanmasının planlaşdırılmasının dar ixtisaslaşdırılması ilə əlaqədardır. Təhsilə olan sifarişi və onun yerinə yetirilməsini formalaşdırarkən ali peşə təhsili müəssisələri müasir əmək bazarının xüsusiyyətlərini tam nəzərə almırlar. Əksər hallarda iş verənlər onların müəssisələrində çalışacaq gənc mütəxəssislərə tələbatın planlaşdırılması və hazırlanmasında iştirak etmirlər. Bu da müasir şəraitdə ali məktəb məzunlarının nəzəri hazırlıqları ilə gələcək praktiki fəaliyyətləri arasında ciddi uyğunsuzluq yaradır [4, s.147].

Daxili və xarici əmək bazarında sərt rəqabətin hökm sürdüyü bir şəraitdə müəssisənin uğurlu fəaliyyətinin təminatçısı onun kadr potensialı, kollektivin ümumi ideyası ətrafında birləşmiş həmfikirlərdir. Buna görə də müasir müəssisələrdə korporativ fəaliyyət şəraitində yaradıcılıqla fəaliyyət göstərmək qabiliyyətinə malik olan mütəxəssislər daha çox tələb olunur.

***Azərbaycanda ali peşə təhsilinin inkişaf meylləri.*** Son onilliklərdə ölkə ali peşə təhsilini aşağıdakı kimi fundamental suallara cavab axtarılması ilə xarakterizə etmək olar:
– ölkənin sabit innovasiyalı inkişaf prosesində ali peşə təhsilinin rəqabət qabiliyyətinin yüksəldilməsi;
– beynəlxalq əmək bölgüsü sistemində ali peşə təhsilinin rəqabət qabiliyyətinin yüksəldilməsi;
– ali peşə təhsilinin məzmununun və strukturunun son dövrlərdə ciddi siyasi və sosial iqtisadi irəliləyişlərə, yeni vətəndaş dəyərlərinə və vətəndaş cəmiyyəti yaradılmasına cəhd edilməsinə əsaslanan yeni Azərbaycan reallıqlarına uyğunlaşdırılması;
– ölkə ali məktəblərinin beynəlxalq təhsil məkanında real yerinin müəyyən edilməsi;
– təhsil xidmətlərinin ixracının dövlət əhəmiyyəti kəsb etməsi.

Qeyd etmək lazımdır ki, sadalanan suallara adekvat cavab verə bilən ölkə ali məktəbləri kifayət qədər deyil. Bu gün Azərbaycanın ali məktəbləri hələ də keçmişlə gələcək arasındakı keçid zolağında qalmaqdadır və yeni dövrün təkidli çağırışlarına dəqiq cavab verməyə tam hazır deyil.

Ali təhsilin ən mühüm problemlərindən biri ali məktəblərdəki təhsilin məzmunu ilə onun praktikada tətbiqi arasında ciddi fərqin olmasındadır. Son onilliklər ərzində bütün dünyada kütləvi surətdə ali məktəblər yaradılmasına keçilmişdir. «Təhsil konveyrinə» belə kütləvi keçid mövcud təhsil texnologiyalarının saxlanılması şəraitində təhsilin keyfiyyətinin aşağı düşməsinə səbəb olur. «Hazır biliklər» verilməsi ideologiyası tədricən baza səlahiyyətlərinin formalaşması ideologiyası ilə əvəz olunur.

Bununla əlaqədar olaraq, hal-hazırda dövlət və ali məktəb kollektivi qarşısında duran başlıca vəzifə ali təhsilin ölkənin postindustrial və informasiya cəmiyyətinin tam üzvü olmasını təmin edən innovasiyalı və inkişaf rejimli yeni ali təhsil sistemini qurmaqdır.

Ali peşə təhsilinin inkişafı bu sistemdə yaxın vaxtlarda tətbiq edilməli olan bir sıra zəruri tədbirlərin həyata keçirilməsini tələb edir:
– bütün ali təhsil müəssisələrinin, onların filiallarının, həmçinin ali məktəblərdə reallaşdırılan bütün təhsil proqramlarının geniş dövlət-ictimai təkrar akkreditasiyadan keçirilməsini. Bu işə maksimum dərəcədə geniş elmi ictimaiyyətin, Azərbaycan Milli Elmlər Akademiyasının alimlərinin, biznes-strukturlarının, xarici ekspertlərin maksimum

dərəcədə cəlb edilməsinə nail olmağı. Müxtəlif ali məktəblərdə təhsilin keyfiyyətinə ictimai qiymət vermək praktikasından istifadə etməyi;

– ali məktəblərin təşkilinin sovet dönəmindəki idarəçilik sistemindən və ölkəmizdə 2000-ci ildə tələsik və özünü doğrultmayan əsassız universitetləşdirmədən irəli gələn mövcud nöqsanları ləğv etməklə ali məktəblərin yeni tipologiyasını işləyib hazırlamağı;

– ali təhsilin çoxsəviyyəli: bakalavriat-spesialitet-magistratura sisteminə keçməyi;

– işə qəbul edənlərin və ictimai-peşə təşkilatlarının bilavasitə iştirakı ilə ali peşə təhsilinin yeni peşə-ixtisas strukturunun və təhsilin fundamentallığını, universiallığını, həmçinin peşə istiqamətini təmin edən səlahiyyətlilik və kredit-modul yanaşma bazasında fəaliyyət sahələri üzrə prinsipial cəhətdən yeni təhsil standartlarını (hər şeydən əvvəl, bakalavriat və magistratura səviyyəsi üçün) işləyib hazırlamağı;

– ayrı-ayrı sahə nazirlikləri və idarələrinin öz məhdud ehtiyacları üçün ali təhsil müəssisələrini yaratmalarının iqtisadi cəhətdən nə dərəcədə səmərəli olmasını;

– ali təhsilin restrukturizasiyası, onun şəbəkəsinin optimallaşdırılması və ayrı-ayrı ali məktəblərin birləşdirilməsi və iriləşdirilməsini; ali məktəblərin innovasiyaya istiqamətlənmiş istehsalla inteqrasiyası və onların bazasında tədris-elm-istehsal komplekslərinin və innovasiya strukturlarının yaradılmasını;

– elmin ali, akademik və sahə bölmələrinin təhsillə inteqrasiyası; perspektiv, lakin indiyənə qədər ölkə ali təhsilinin yeniləşməsi və keyfiyyətin yüksəldilməsində faktiki olaraq istifadə edilməyən amil kimi Azərbaycan Milli Elmlər Akademiyasının elmi müəssisələrinin müxtəlif formalı təhsil fəaliyyətinin genişləndirilməsini. Təhsilin inkişafında fəal iştirak edən aparıcı elmi məktəblərə hərtərəfli kömək etməyi;

– ali təhsilin keyfiyyətinin yüksəldilməsinin mühüm vasitəsi və ali məktəbin elmi, həmçinin innovasiya potensialının möhkəmləndirilməsi kimi ali tədris müəssisələrində fundamental və tətbiqi elmi tədqiqatlara kömək etməyi;

– ali məktəbin elmi-tədqiqat və texniki bazasını modernləşdirməyi;

– regionlarda yaradılan ali məktəblərin normativ-hüquqi təminatı və onlara elmi-metodik kömək göstərməyi;

– təkrar akkreditasiyadan keçmiş qeyri-dövlət ali məktəblərinə aşağıdakı məsələlərin həllində kömək göstərmək: qeyri-dövlət ali məktəblərində biznes strukturları və iş verənlərin birlikdə ali təhsilə investisiya qoyuluşu modellərini işləmək; onların dövlət resurslarından bərabər hüquqla istifadə etmələrini, dövlət sifarişilə mütəxəssislər hazırlanmasında, elmi-tədqiqat işləri üzrə açıq müsabiqələrdə və qrant alınması müsabiqələrində iştirak etmələrini təmin etməyi;

– ali məktəbin birinci və ya ikinci pilləsinin semestr imtahanlarında yüksək nəticələr göstərən abituriyentlərin bakalavriatda, spesialistetdə və magistraturada ödənişsiz təhsil almalarını təmin etməyi. Qəbul imtahanlarında tələb olunan nəticələrə nail olmayan digər tələbələr təhsilini ali məktəbin birinci və ya ikinci pilləsində aşağıdakı şərtlər əsasında həyata keçirə bilər: a) ***ödənişli əsasda***; b) ***subsidiya əsasında*** (tələbə müqavilə qaydasında öhdəlik götürür ki, ali məktəbi bitirdikdən sonra ya aldığı ixtisas üzrə müəyyən müddət işləyəcək, ya da ki, dövlətin onun təhsilinə çəkdiyi xərci geri qaytaracaqdır). Belə təhsil, əsasən, hal-hazırda dövlətin maraqlı olduğu ixtisaslar üzrə həyata keçirilir; c) ***təhsil kreditləri əsasında***. Subsidiya və təhsil kreditlərinin verilməsi qaydaları və texnologiyası hal-hazırda normativ-hüquqi təminat və işləmələr tələb edir;

– ali məktəblərə qəbul zamanı abituriyentlərin vahid dövlət imtahanı, olimpiada və peşə müsabiqələri, eləcə də ənənəvi qəbul imtahanlarından istifadə etmək. Orta məktəb məzunlarının müstəqil mərkəz tərəfindən milli testləşdirilməsi sistemini tətbiq etmək yolu ilə çoxvariantlılıq prinsipi əsasında seçilməsi sistemini və şəraitini təkmilləşdirməyi;

– iş verənlər və ictimai-peşə təşkilatları ilə birlikdə ali məktəblərin və təhsil proqramlarının reytinqləşdirilməsinin müasir metodlarının işlənib hazırlanmasını;

– Azərbaycan təhsilinin eksportunun genişləndirilməsi. Xarici ölkə vətəndaşlarının Azərbaycanın ali məktəblərində təhsilə cəlb edilməsi üçün dövlət səviyyəsində tədbirlər işlənib hazırlanması və həyata keçirilməsi. Azərbaycanın ali məktəblərinin yaxın və uzaq xarici ölkələrdə ali məktəblərarası nümayəndəlik və filiallar şəbəkəsinin genişləndirilməsini;

– Azərbaycanda ali təhsil sisteminin rəqabət qabiliyyətini yüksəltmək məqsədi ilə ölkə təhsil sisteminin beynəlxalq təhsil xidməti bazarında Boloniya peşə təhsili prosesində iştirakının təmin edilməsi və Azərbaycanın ali məktəb tələbələrinin və məzunlarının beynəlxalq fasiləsiz təhsil sistemində iştirakına imkan yaratmağı;

– Azərbaycanın ali məktəblərinin digər ölkələrin iştirakı ilə təhsil konsorsiumu yaratmağı;

– ali məktəblərin ümumi kommunikasiya infrastrukturunun yaradılması, elm-təhsil məlumat bazasından kollektiv istifadəni təmin edən beynəlxalq mərkəzin yaradılmasını, məsafədən istifadə etməyə imkan verən laboratoriyalar və təhsil texnologiyalarının yaradılmasını;

– ali peşə təhsili müəssisələrinin hamı üçün açıq olan kütləvi hesabat sistemini yaratmaq, ali məktəblərin fəaliyyəti haqqında informasiyanın açılması və zəruriliyi mütləq olan qaydaları müəyyən etməyi, dərc edilən informasiyanın doğruluğunun vaxtaşırı olaraq müstəqil auditinin aparılmasını;
– təhsil alan gənclərin həyat fəaliyyətinin mühüm məsələlərinin həllinə, onların fəal ictimai inkişafına, sosial təşəbbüslərinə kömək edilməsinə istiqamətlənmiş tələbələrin təşəbbüskar, müstəqil və məsuliyyətli fəaliyyətinin xüsusi forması kimi müasir tələbə özünüidarəçiliyini inkişaf etdirməyi.

İqtisadi peşə təhsili təhsilin spesifik növü olub özündə təbiət və humanitar fənlər üzrə hazırlığı, iqtisadiyyat və idarəetmə fənləri üzrə əsaslı hazırlığı, həmçinin ekonometrika, informatika, hüquq, sosiologiya, psixologiya və digər xüsusi fənlər sahəsində bilik və bacarıqlar sisteminə malik olmağı birləşdirir. İqtisadi peşə təhsili sistemi Azərbaycan Respublikasının təhsil sisteminin tərkib hissələrindən biridir. Tarixən iqtisadi peşə təhsili mühəndis iqtisadiyyatı əsasında meydana çıxmışdır və müəyyən dərəcədə həmin sahədəki ənənələri davam etdirməkdədir.

Təhsilin bu növünün əsas fərqləndirici xüsusiyyəti onun iqtisadiyyatın müxtəlif sferalarında fəaliyyət göstərən və mülkiyyət müxtəlifliyinə əsaslanan bütün növ təşkilatlarda yaradıcılıq və təşəbbüskarlıqla çalışmağa qabil olan iqtisadçı kadrlar hazırlanmasına istiqamətlənməsindədir. İqtisadi peşə təhsili mürəkkəb sistem olub qarşılıqlı əlaqədə və bir-birini qarşılıqlı şəkildə şərtləndirən aşağıdakı komponentlərdən ibarətdir: qanunauyğunluqlardan, məqsədlərdən, prinsiplərdən, strukturlardan, məzmundan, funksiyalardan, vəzifələrdən, formadan, metodlardan və üsullardan. Onların öyrənilməsi, hər şeydən əvvəl, bütün komponentlərin təhlil edilməsi və öyrənilməsini tələb edir.

Müasir Azərbaycanda müxtəlif səviyyələrdə peşə təhsili müəssisələrinin müəyyən sistemi təşəkkül tapmışdır: aşağı (peşə məktəbləri və litseylər), orta (texnikum və kollec) və ali (institut, akademiya, universitet). Peşə təhsili müəssisələrinin belə müxtəlifliyinə baxmayaraq onların təkamül yolu ilə inkişafı dövlət tərəfindən tanınmış peşə təhsili səviyyələrinin sərt iyerarxik bölgüsü və diskret xarakter daşıması ilə ləngiyir.

Ali iqtisadi peşə təhsilinin nəzəri və metodoloji əsasları, onun strukturu, məzmunu və funksiyaları digər ali peşə təhsili növlərindən əhəmiyyətli dərəcədə fərqlənir.

Ali iqtisadi peşə təhsili sistemi ölkə iqtisadiyyatının bütün sahələrinin iqtisadçı kadrlarla təmin edilməsinə istiqamətlənmişdir. Ali iqtisadi peşə təhsili sistemi, eyni zamanda ölkənin iqtisad yönümlü ali və orta ixtisas məktəblərinin yüksək ixtisaslı iqtisadi-pedaqoji kadrlarla təmin edilməsinə istiqamətlənmişdir.

**Ədəbiyyat:**


1. Azərbaycan Respublikasının Konstitusiyası, Bakı, 2012
2. Təhsil haqqında Azərbaycan Respublikası Qanunu. Bakı, 2009
3. Azərbaycan təhsili inkişaf yollarında. Azərbaycan müəllimlərinin XIII qurultayı. Bakı-2008, 63 s.
4. Архангельский С.Н. Лекции по научной организации учебного процесса в высшей школе. М.1976, 200 с.
5. Бухарова Г. и др. – Системы образования. Ростов-на-Дону, 2008, 477 с.
6. Коваленко А.Н. – Образовательное антрепренерство. М., 2004, 162 с.
7. Mehdizadə M., Allahverdiyev T., Əliyev Q. Azərbaycanda xalq təsilinin sürətli inkişafı. Bakı, 1980, 274 s.
8. Петров Ю. Модель непрерывного профессионального образования. Н.Новгород, 1994, 217 с.
9. Попков В.А., Коржуев А.В. Теория и практика высшего профессионального образования. М., 2004, 432 с.
10. Вифлеемский А.Б. От народного образования к платному обучению. М., 2008, 414 с.



**Açar sözlər**: *ali təhsil, ali təhsil sistemi, ali peşə təhsili müəssisəsi, ali təhsilin restrukturizasiyası, mütəxəssis*

**Ключевые слова**: *высшее образование, система высшего образования, учреждения высшего профессионального образования, реструктуризация высшего образования, специалист*

**Keywords:** *higher education, higher education system, institution of higher education, the restructuring of higher education specialist*

**Мамед Мамедов**

***Доцент кафедры государственного управления и менеджмента Академии Государственного Управления при Президенте Азербайджанской Республики, доктор философии по экономическим наукам***

## ВЫСШЕЕ ПРОФЕССИОНАЛЬНОЕ ОБРАЗОВАНИЕ: СОСТОЯНИЕ И ПЕРСПЕКТИВЫ РАЗВИТИЯ

### РЕЗЮМЕ

В статье рассмотрены направления, перспективы и тенденции развития системы высшего профессионального образования **в** Азербайджанской Республике на современном этапе, проанализированы вопросы подготовки высококвалифицированных кадров, отвечающих современным требованиям и специфике социально-экономического развития страны.

**Mammad Mammadov**

***Associate Professor of Public Administration and Management Department, the Academy of Public Administration under the President of the Republic of Azerbaijan, PhD in Economics***

## HIGHER PROFESSIONAL EDUCATION: STATUS AND PROSPECTS

### SUMMARY

In the article the author views the prospects and trends of development of the higher education system, examines the issues of training of highly qualified personnel who meet the modern requirements and specifics of the socio-economic development of Azerbaijan.

İLHAMƏ ÖMƏROVA

*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası "Tarix" kafedrasının müəllimi*

# AZƏRBAYCAN RESPUBLİKASINDA MİLLİ TƏHLÜKƏSİZLİK SİSTEMİNİN QURULMASI PROSESİ RUSİYA FEDERASİYASI İLƏ MÜNASİBƏTLƏR KONTEKSTİNDƏ

Azərbaycan Respublikasının (AR) milli təhlükəsizlik konsepsiyası dövlətin müstəqilliyini, ərazi bütövlüyünü və demokratik inkişaf yolunu, strateji seçimi kimi Avroatlantik məkana inteqrasiyasını, bununla yanaşı, tarazlaşdırılmış xarici siyasətinin çoxşaxəliliyini vurğulayan, Azərbaycan Respublikasında şəxsiyyət, cəmiyyət və dövləti xarici və daxili təhdidlərdən qorumağa yönəlmiş siyasət və tədbirlərin məqsəd, prinsip və yanaşmalarının məcmusudur [4].

Xalqımız 1991-ci ildə öz dövlət müstəqilliyini bərpa etdi və Azərbaycan Xalq Cümhuriyyətinin dövlətçilik ənənələri kimi tarixi varislik üzərində yeni Azərbaycan dövlətini, müstəqil dövlətə xas milli inkişaf və təhlükəsizlik sistemini formalaşdırmağa başladı. SSRİ-nin süqutundan sonra müstəqilliyini əldə etmiş Azərbaycan Respublikasında milli təhlükəsizlik sisteminin qurulması prosesi 1980-ci illərin ikinci yarısı – 90-cı illərin əvvəllərində ümumilikdə regionda və ölkədə yaranmış ictimai-siyasi durum, cərəyan etmiş hadisələrlə sıx bağlı olmuşdur. "Yenidənqurma" adlanan mərhələnin başlaması ərəfəsində və gedişində SSRİ-də iqtisadiyyatın, ictimai və dövlət quruluşunun, siyasi və milli münasibətlərin böhranının kəskinləşməsi yeni qlobal dünya nizamının bərqərar olmasına zəmin yaratdı. Birqütblü dünyanın formalaşması prosesi beynəlxalq aləmdə nüfuz sahələrinin növbəti dəfə bölüşdürülməsini şərtləndirən əsas amil kimi çox sürətlə nəinki sosialist rejimi bərqərar olmuş ölkələri, hətta keçmiş SSRİ respublikalarını da əhatə etdi. Həmin dövrdə qlobal siyasi proseslərlə yanaşı, gələcəkdə Azərbaycan üçün həlledici əhəmiyyət kəsb edəcək və bilavasitə respublikada faciəli durumun yaranmasını şərtləndirəcək hadisələr də cərəyan edirdi. SSRİ rəhbərliyinə Mixail Qorbaçov və komandasının gəlişi böyük idarəetmə və dövlətçilik təcrübəsi olan kadrların "vurulması" prosesinə start verdi [13, s.16]. Yeni rəhbərliyin dövlətin iqtisadi və siyasi əsaslarını sarsıdan, eyni zamanda SSRİ tərkibindəki milli respublikaların mənafeyinə uyğun olmayan fəaliyyətinə həmin siyasətçilərin etirazları ölkə rəhbərliyindən uzaqlaşdırılmaları planının icrasını daha da tezləşdirmiş oldu.

M.Qorbaçov və komandası Heydər Əliyev, Dinməhəmməd Kunayev kimi siyasətçilərin öz vətəni və xalqı əleyhinə olan qərarların qəbul edilməsinə heç vaxt imkan verməyəcəklərini yaxşı bilirdilər. Sonrakı illərdə Azərbaycanda və Qazaxıstanda cərəyan etmiş hadisələr bunu bir daha sübut etmiş oldu. 1988-ci ildə Dağlıq Qarabağ probleminin ortaya atılması ittifaq hakimiyyətinin zirvəsində əsas dayağını itirmiş Azərbaycanda siyasi vəziyyəti daha da ağırlaşdırdı. Buna həm də bacarıqsız, mərkəzin diqtəsi ilə milli maraqlara zidd hərəkət edən respublika rəhbərliyinin fəaliyyəti rəvac verirdi. 1989–1990-cı illərdə ittifaq rəhbərliyinin ədalətsiz antiazərbaycan siyasəti respublikanı böyük qaçqınlar ordusu ilə üz-üzə qoymaqla yanaşı, lokal hərbi toqquşmalar, yaşayış məntəqələrinin ermənilər tərəfindən işğalı ilə müşayiət olunurdu və Azərbaycanda xaotik vəziyyət yaratmış oldu.

Dünyada və regionda cərəyan edən hadisələr tezliklə SSRİ-nin süqutu və müttəfiq respublikaların müstəqillik əldə edəcəyini şərtləndirirdi. Belə bir vəziyyətdə böyük siyasi təzyiq və müharibə təhlükəsi ilə üzləşmiş Azərbaycan 1991-ci ildə müstəqillik qazansa da, öz milli təhlükəsizlik sistemini qura bilməyən və buna görə də müstəqilliyi real təhdidlər qarşısında qalan dövlətlər sırasında idi. Gənc dövlətin suverenliyini təmin edə biləcək milli təhlükəsizlik konsepsiyasının yaradılması və qurulması vacib amilə çevrilmiş oldu. 1991–1993-cü illərdə Azərbaycana rəhbərlik etmiş şəxslərin fəaliyyəti (mövcud olduğu üç il ərzində müstəqil respublikada iki prezident və iki prezident vəzifələrini icra edən dəyişildi) Rusiya Federasiyası (RF) ilə münasibətlərdə vəziyyəti gərginləşdirən amillərdən idi. Azərbaycanın milli təhlükəsizlik maraqlarına xidmət edəcək dəqiq hesablanmış siyasi kursunun olmaması ilə yanaşı, bu siyasətçilər B.Yeltsin tərəfindən siyasi müttəfiq kimi qəbul edilmirdi.

Rusiya rəhbərliyi A.Mütəllibovu M.Qorbaçov komandasının üzvü, onun siyasi qərarlarının icraçısı hesab edirdi. Bu mövqeyin formalaşmasında 1991-ci il avqustun 18-dən 22-dək SSRİ-nin qorunub saxlanılmasına yönəlmiş sonuncu inamlı cəhd – Rusiyada dövlət çevrilişi etmiş Dövlət Fövqəladə Vəziyyət Komitəsini Azərbaycan Respublikası adından A.Mütəllibovun açıq şəkildə dəstəkləməsi faktoru mühüm rol oynamışdı. Yaranmış durum müharibə vəziyyətində olan ölkənin milli təhlükəsizliyinin ana xəttini təşkil edən ordu quruculuğu prosesində özünü xüsusilə açıq şəkildə göstərirdi. Hərbi-siyasi xarakterli məsələlər, xüsusilə respublika ərazisində dislokasiya olunmuş Rusiya hərbi qüvvələrinin statusu, keçmiş SSRİ-nin hərbi əmlakının və Xəzər

Dəniz Hərbi Donanmasının bölüşdürülməsi, dövlət sərhədlərinin mühafizəsi məsələləri iki dövlət arasındakı münasibətlərin ən ağrılı problemlərinə çevrilmişdi. 1992-ci il martın 25-də RF prezidentinin fərmanı ilə Azərbaycanda dislokasiya olunmuş 4-cü ordu və Rusiya sərhəd qoşunları bu ölkənin tabeçiliyinə keçirildi. Həmin hərbi hissələrin 30–40 faizi komplektləşdirilsə də, Azərbaycan rəhbərliyi Rusiya və digər MDB ölkələrindən çağırışçıların həmin qoşun hissələri tərkibində əsgəri xidmətinə icazə vermədi. Həmçinin Rusiya hərbi hissələrinin və sərhəd qoşunlarının Azərbaycan ərazisindən çıxarılması tələbi qoyuldu. Bütün bunlar Azərbaycandakı MDB Birləşmiş Silahlı Qüvvələrinin hərbi hissələrinin respublikanın tabeçiliyinə verilməsi istiqamətində danışıqların nəticəsiz başa çatmasına səbəb oldu [11, s.43].

İki dövlət arasında münasibətlərin xaotik şəkildə inkişaf etməsinə baxmayaraq, tərəflər 1991-ci ilin dekabr ayında "1992-ci il üçün iqtisadi-ticarət əməkdaşlığına dair" razılaşmanı imzaladılar. 1992-ci ilin fevral ayında Azərbaycan tərəfinə "Dostluq və əməkdaşlıq haqqında dövlətlərarası müqavilə"nin layihəsi verildi. İki dövlət arasındakı münasibətlərin hüquqi əsası 4 aprel 1992-ci ildə "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında diplomatik münasibətlərin qurulması haqqında" Protokolun imzalanması ilə qoyuldu [2, s.10-11].

Azərbaycanda 1992-ci ildə hakimiyyətə gəlmiş yeni qüvvələr müxalifətdə olarkən RF-nin MDB ilə bağlı təkliflərinə qarşı barışmaz mövqeli çağırışları ilə tanınırdılar və bu səbəbdən MDB-yə qoşulmanın ölkənin milli maraqlarına zidd olmadığını ictimaiyyət və siyasi qüvvələr qarşısında əsaslandıra bilmədilər. Yeni rəhbərliyin nəinki hərbi-siyasi sahələrdə, hətta iqtisadi siyasət üzrə tutduğu mövqe iki dövlət arasındakı münasibətlərin normallaşmasına xidmət etmirdi, vəziyyəti ağırlaşdıran səbəblərdən biri də Azərbaycan rəhbərliyinin aparıcı siyasi fiqurlarının Rusiyanın Azərbaycanı iqtisadi baxımdan istismar etdiyini açıq bildirməsi, hətta iqtisadi münasibətlərin kəsilməsinin respublikanın inkişafına səbəb olacağını bəyan etməsi ilə bağlı idi. Qeyd olunmalıdır ki, Rusiyanın yeni rəhbərliyinin bəzi iqtisadçıları da Azərbaycanla iqtisadi münasibətlərin kəsilməsinin tərəfdarı idilər [3].

Azərbaycan parlamenti 1992-ci il oktyabrın 5-də respublikanın MDB-yə daxil olmasına dair sənədləri ratifikasiya etməkdən imtina etdi. Buna baxmayaraq, 1992-ci il oktyabrın 12-də Moskvaya rəsmi dövlət səfəri etmiş prezident Ə.Elçibəy Rusiyanın Dağlıq Qarabağ probleminin həllində dəstəyinə nail olmağa, həmçinin iqtisadi yardım alınmasına çalışırdı. Həmin səfər gedişində Azərbaycan tərəfi "Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında qarşılıqlı təhlükəsizlik, dostluq və əməkdaşlıq haqqında" Sazişin kompromis variantının imzalanmasına nail oldu [3]. Buna baxmayaraq, Ə.Elçibəy RF üçün həlledici əhəmiyyətə malik MDB-ni ölkəsi üçün perspektivini görmədiyi təşkilat adlandıraraq, Azərbaycanın bu quruma üzv olmayacağını bəyan etdi. Həmçinin Rusiya ilə imzalanmış sazişin qeyri-adi hadisə olmadığını qabardaraq, analoji sazişlərin Türkiyə, ABŞ, Böyük Britaniya, Misir, İsrail ilə də imzalanmasına hazırlıq getdiyini bildirdi. Qeyd edilənlər Rusiya Dövlət Duması deputatlarının etirazına səbəb oldu. Buna cavab olaraq Ə.Elçibəylə imzalanmış müqavilə Dövlət Duması tərəfindən ratifikasiya edilmədi və qüvvəyə minmədi [1, s.324].

Vəziyyəti gərginləşdirən problemlərdən biri də hələ sovet dönəmində Bakıdan 250 km məsafədə inşa etdirilmiş, hərbi baxımdan regiondakı proseslərin izlənilməsində Rusiya üçün xüsusi əhəmiyyəti olan Qəbələ radiolokasiya stansiyasının statusu məsələsi idi. 1992-ci ilin oktyabr ayında Azərbaycanda Rusiya Silahlı Qüvvələrinin və Qəbələ RLS-nin dislokasiya olunmasının müvəqqəti statusunun müəyyənləşdirilməsi məqsədilə iki ölkənin hərbi qurumu arasında danışıqlar başladı. Çox ağır və uzunmüddətli danışıqlardan sonra Qəbələ RLS-in 20 il müddətinə RF-na icarəyə verilməsinə dair ilkin razılıq əldə olundu, stansiyanın birgə istifadəsinə və icarə şərtlərinə dair müqavilə imzalanması qərara alındı. Bununla yanaşı, 1993-cü ilin birinci yarısı ərzində Qəbələ RLS ilə bağlı məsələ ölkə gündəmində açıq antirusiya xarakterli problem kimi geniş təbliğat vasitəsinə çevrilmişdi [11, s.44]. Nəticədə Azərbaycan rəhbərliyi ölkənin milli təhlükəsizliyinə birbaşa təsiri olan RF ilə zəruri siyasi, iqtisadi, hərbi addımların atılması istiqamətində qərarların qəbul edilməsinə nail ola bilmədi [3].

RF rəhbərliyi irəli sürdüyü siyasi tələblərə, xüsusilə Azərbaycanın MDB-yə, o cümlədən bu təşkilatın hərbi strukturlarına qoşulmağa razılığını ala bilmədiyinə görə, bütün vasitələrlə münaqişə bölgəsində Ermənistanın nail olduğu üstünlüyü itirməsinə mane olurdu. Bu özünü xüsusilə keçmiş sovet ordusunun Azərbaycandakı hərbi hissələrinin əmlakının respublikanın tabeçiliyinə verilməsi prosesinin ləngidilməsi ilə büruzə verirdi. Rusiya rəhbərliyi həmin silahların Azərbaycan ordusuna Ermənistanın hücumlarına cavab vermək imkanı yaradacağını başa düşür və bu təzyiq vasitəsini əldən buraxmaq istəmirdi. Məhz bu məqsədlə Rusiya hərbi rəhbərliyi "Avropada silahların ixtisarı və məhdudlaşdırılması barədə Müqavilə"yə əlavə Daşkənd Protokoluna əsasən Azərbaycana çatmalı olan 100 hərbi təyyarənin verilməsinin qarşısını aldı. Belə ki, RF-nin Müdafiə naziri Pavel Qraçovun əmri ilə 1992-ci il iyunun 10-da AR ərazisində olan bütün tip hərbi təyyarələr RF ərazisinə aparıldı. Həmçinin hərbi aeroportlarda qalmış bütün avadanlıqlar məhv edildi. Hərbi texnikanı Azərbaycan ordusuna təhvil verməmək məqsədilə RF-nin hərbi komandanlığının əmrinə əsasən belə təxribatlar təhvil verilməli olan digər növ hərbi hissələr, silah-sursat və texnika ambarlarında da kütləvi şəkildə həyata keçirilmişdi. Hətta Güzdəkdə olan hərbi sursat ambarı təxribat nəticəsində partladıldı [10, s.144–145].

Sadalanan hallar respublikanın milli təhlükəsizliyinin əsas sütununu təşkil edən hərbi qüvvələrin formalaşması prosesinə ciddi zərbə vurmaqla yanaşı, hərbi əməliyyatlarda həlledici üstünlüyə nail olmağa mane oldu.

Həmin dövrdə Azərbaycanda yaranmış vəziyyəti şərtləndirən əsas amillər kimi dəqiq formalaşmış hərbi doktrinanın və milli təhlükəsizlik konsepsiyasının olmamasını, müharibənin sınaqdan keçirilmiş strategiya və əməliyyat planları üzrə aparılmamasını, milli ordu üçün ixtisaslı kadrların hazırlanması prosesinə lazımi diqqət yetirilməməsini, ayrı-ayrı siyasi qüvvələrin nəinki Müdafiə Nazirliyi tərəfindən həyata keçirilməli olan hərbi xarakterli məsələlərin həllinə, hətta kadr məsələləri, hərbi əməliyyatların hazırlanması və keçirilməsi proseslərinə müdaxilələr etməsini göstərmək olar.

Qonşu ölkələrin müəyyən dairələrinin yaranmış vəziyyətdən istifadə edərək Azərbaycanın milli təhlükəsizliyinə qarşı real təhdid kimi separatizm meyillərini gücləndirmək istiqamətindəki fəaliyyətləri də xüsusi qeyd olunmalıdır.1993-cü ilin mart ayında Azərbaycanın ləzgilərin kompakt yaşadığı şimal bölgələrində vəziyyət gərginləşdi. Proseslər ölkənin parçalanmasına və Azərbaycanda hakimiyyət dəyişikliyinin təmin edilməsinə hesablanmışdı. Mart ayının son günləri erməni hərbi qüvvələri Ermənistan ərazisindən də daxil olmaqla dörd istiqamətdən Kəlbəcər istiqamətində hücum əməliyyatlarına başladılar. Döyüşlərdə erməni qüvvələri ilə yanaşı, Ermənistanda dislokasiya olunmuş 127-ci motoatıcı diviziyanın 128-ci polkunun hərbi hissələri, o cümlədən hərbi texnikası iştirak edirdi. Kəlbəcərin işğalı ilə nəticələnən əməliyyatdan qısa müddət sonra erməni hərbi birləşmələri artıq Füzuli istiqamətində hücum əməliyyatlarına başladılar. Füzuli rayonunun işğalında məqsəd Qubadlı, Zəngilan və Cəbrayıl rayonlarının respublikanın əsas ərazisi ilə əlaqəsinin kəsilməsinə və işğalının asanlaşmasına nail olmaq idi. Aprel və may aylarında cərəyan edən hərbi əməliyyatlar iyun ayında Füzulinin işğalı təhlükəsini yaratdı [10, s.146–147].

1988-ci ildən başlayaraq 1993-cü ilin ortalarına qədər yürüdülən siyasətdəki qarışıqlıq, "ölçülüb-biçilmiş" siyasi xəttin olmaması ölkəni ağır sosial-siyasi sarsıntılara gətirib çıxarmışdı. Azərbaycanda həyatın bütün sahələrini böhran bürümüş və siyasi sahədə dövlətin fəaliyyətinin bütün səviyyələrində idarəçilik xaotik vəziyyət almışdı. İqtisadi sahədə gərginlik maliyyə böhranı, ənənəvi kooperasiya əlaqələrinin qırılması, kütləvi işsizlik və əhalinin həyat səviyyəsinin kəskin surətdə aşağı düşməsi ilə özünü göstərirdi.

Ermənistanla müharibə ölkənin milli təhlükəsizliyinin bütün sahələrinə öz təsirini göstərmiş oldu. Qüvvələrin qeyri-bərabərliyi səbəbindən müharibənin ilk dövrləri Azərbaycan üçün ağır məğlubiyyətlərlə yadda qaldı. Müstəqilliyə yenicə qədəm qoyan dövlət üçün Qarabağ müharibəsi milli təhlükəsizlik üçün real təhlükə faktoruna çevrilərək ölkəni dəhşətli statistika ilə üz-üzə qoymuşdu: 20 faiz işğal olunmuş ərazi, 20.000-dən artıq insan itkisi, 1 milyondan artıq qaçqın. Müharibə faktiki olaraq, iqtisadiyyatı dağıtmaqla yanaşı, ölkədaxili siyasi vəziyyəti gərginləşdirən, siyasi qüvvələrin qarşıdurmasını gücləndirən amilə çevrilmişdi. Azərbaycandakı ictimai-siyasi proseslərin gedişinə həlledici təsiri heç vaxt azalmayan Rusiyanın Azərbaycanla münasibətləri bu dövrdə xüsusilə həssas və eyni zamanda gələcək inkişaf istiqamətləri qeyri-müəyyənliklərlə əhatə olunmuş vəziyyətdə idi.

1993-cü ildə respublikada vəziyyət ən kritik səviyyəyə çatmışdı və dünyanın, xüsusilə erməni diasporasını dəstəkləyən siyasi güc mərkəzlərində faktiki olaraq respublikanı bir neçə hissəyə parçalayaraq dövlət kimi mövcudluğunu təhlükəyə atan ssenarilərin reallaşdırılması nəzərdə tutulurdu.

Belə bir vəziyyətdə Heydər Əliyevin hakimiyyətə qayıdışı nəinki respublikada, bütün regionda cərəyan edən hadisələrin axarını dəyişəcək proseslərin əsasını qoydu. Təcrübəli siyasətçi Azərbaycanın real müstəqilliyinin yalnız balanslaşdırılmış xarici siyasət yeritməklə hərbi təcavüzün dəf edilməsini, siyasi sabitlik, sabit hakimiyyətin formalaşdırılmasını, xarici sərmayələrin cəlbini, iqtisadi böhrandan çıxış və inkişafı təmin edəcək milli təhlükəsizlik strategiyasının qurulacağı təqdirdə mövcud ola biləcəyini yaxşı dərk edirdi. Məhz bu istiqamətdə beynəlxalq siyasi mərkəzlərlə başlamış danışıqlarda Heydər Əliyev tərəfindən əsas yer regionun həlledici güc mərkəzi olan Rusiya Federasiyasına ayrılmışdı.

Heydər Əliyevin hakimiyyətə gəlişinə qədər digər sahələrdə olduğu kimi, iki dövlət arasındakı münasibətlər də gərgin idi. Azərbaycanda mövcud aparıcı ictimai-siyasi fikir Müstəqil Dövlətlər Birliyinin, əsasən, əleyhinə formalaşmışdı: "MDB-nin yaradılması onun vahid iqtisadi birliyindən, vahid ordusundan bir alət kimi istifadə etməklə yanaşı, millətlərarası münaqişələri qızışdırmaq da nəzərdə tutulurdu. Münaqişə tərəflərindən gah birinə, gah digərinə "kömək əli" uzatmaqla Rusiya elə bir tarixi-siyasi şərait yaratmağa çalışırdı ki, ondan başqa heç bir dövlət ali "ədalətli" hakim rolunu oynaya bilməsin. Qarabağ münaqişəsində Rusiyanın bu cür manevrlərə əl atması kifayət qədər aydın görünürdü". Bu istiqamətdə Azərbaycanın yeni rəhbərliyindən siyasi qərarların qəbulu gözlənilirdi.

1993-cü ilin iyul–avqust aylarında Azərbaycanın cənub bölgəsində digər separatçılıq hərəkatı – "Talış Muğan Respublikası" problemi yaradıldı. Ölkə rəhbərliyi vəziyyətin nəzarətdən çıxmasının qarşısını almaq üçün təcili qaydada bəzi hərbi hissələri cənub bölgəsinə yeritmək məcburiyyətində qaldı. Bu fürsətdən yararlanan Ermənistan silahlı qüvvələri 1993-cü ilin avqust ayında Füzuli və Cəbrayıl rayonları istiqamətində hücum əməliyyatlarına başladı və bir aya yaxın davam edən hərbi əməliyyatlar Füzuli və Cəbrayıl rayonlarının bir hissəsinin işğalı ilə nəticələndi. Artıq sentyabr ayında

Ermənistan silahlı qüvvələrinin İran İslam Respublikası – Azərbaycan sərhəddinə çıxması münaqişənin beynəlmiləlləşmə təhlükə yaratdı. Vəziyyətlə əlaqədar Ermənistan ərazisindəki RF-nin, eləcə də İran İslam Respublikası, Türkiyə hərbi qüvvələri bir nömrəli hazırlıq vəziyyətinə gətirildi [8].

SSRİ rəhbərliyinin uzun müddət problemin həllində ədalətsiz mövqe tutaraq Ermənistanı müdafiə etməsi, mərkəzə tabe olan hərbi hissələrin, Xocalının məhv edilməsi əməliyyatında isə 366-cı polkun ermənilərin tərəfində döyüşməsi amili də ümumilikdə cəmiyyətdə Rusiya Federasiyasına inamı ciddi şəkildə sarsıtmışdı [10, s.30].

Bütün bu siyasi faktorlara baxmayaraq, yaranmış ağır durum ən azı münaqişədə RF-nin açıq şəkildə Ermənistana dəstəyini neytrallaşdıracaq təcili addımların atılmasını tələb edirdi. Lakin Azərbaycanda baş vermiş hakimiyyət dəyişikliyi ilkin dövrdə RF-nin münaqişəyə yanaşma baxışında və mövqelərində dəyişiklik yarada bilmədi. Nəticədə artıq oktyabr ayında erməni hərbi birləşmələri Horadiz, Cəbrayıl, Qubadlı, Zəngilan istiqamətində yeni hücumlara başladılar və döyüşlər noyabr ayında həmin yaşayış məntəqələrinin işğalı ilə nəticələndi. Buna baxmayaraq, dövlətlərarası münasibətlərin qurulması istiqamətində fəaliyyətinin ilk günündən Heydər Əliyev Rusiyanın regionda öz təsir dairəsi və imkanlarını gücləndirmək, Xəzərin enerji resurslarından bəhrələnmək və digər siyasi maraqlarını Azərbaycanın dövlət maraqları ilə uzlaşdırmağı bacardı. Azərbaycanda Heydər Əliyevin rəhbərliyi altında formalaşan yeni hakimiyyətin 1993-cü ilin noyabr–dekabr aylarında ölkə daxilində və beynəlxalq səviyyədə həyata keçirdiyi bir sıra ictimai-siyasi, hərbi və diplomatik tədbirlər ilkin nəticələrini göstərdi. Hərbi müxalifətin neytrallaşdırılması, müxtəlif hərbi və siyasi qruplara məxsus qanunsuz silahlı birləşmələrin tərk-silah edilməsi, separatçı hərəkatların yatırılması, orduda vahid komandanlığın yaradılması istiqamətində real tədbirlər həyata keçirilməyə başlandı.

Yaranmış vəziyyətdə mövcud siyasi, hərbi, iqtisadi, ölkədaxili və beynəlxalq vəziyyəti səciyyələndirən bir sıra mühüm geosiyasi faktorları nəzərə alan Azərbaycan rəhbərliyi sülh sazişinin imzalanmasına razılıq vermək barədə tarixi qərar verdi və 1994-cü ilin 12 may tarixində tərəflər arasında Bişkek atəşkəs sazişi imzalandı.

Vəziyyətin ağır olmasına baxmayaraq, Heydər Əliyev dövlətlərarası danışıqlarda milli maraqlara zidd olan qərarların qəbul edilməsinə imkan vermirdi. Belə ki, RF hərbi kontingentinin Azərbaycana geri qaytarılması və respublikanın sərhədlərinin RF-nin sərhədçiləri tərəfindən qorunması barədə təklifləri qətiyyətlə rədd edir, müstəqil xarici siyasət yürüdürdü.

1994-cü ilin sentyabr ayında Azərbaycan "Əsrin neft müqaviləsi"ni imzaladı. Sazişdə "Lukoyl" şirkətinin iştirakı ilə Rusiyanın iqtisadi maraqları təmin olundu [8].

Azərbaycan MDB-yə qoşulmasına baxmayaraq, təşkilat çərçivəsində hərbi inteqrasiya məsələsinə xüsusi yanaşma nümayiş etdirirdi. Belə ki, Ermənistanın hərbi təcavüzünün nəticələri aradan qaldırılmayana qədər Azərbaycanın MDB çərçivəsində işğalçı ilə hərbi ittifaqda olması qeyri-mümkün hesab edirdi.

Heydər Əliyev RF ilə faktiki olaraq pozulmuş münasibətlərin Rusiya hərbi bazalarının Azərbaycana qayıtmasına imkan vermədən, respublikanın MDB ölkələri arasında sərhədlərini öz qüvvələri ilə mühafizə edən, Rusiya hərbi bazası olmayan yeganə dövlət statusunu saxlamaqla normallaşmasına nail ola bildi.

Azərbaycan rəhbərliyi Rusiya ilə münasibətlərin normallaşmasına yönəlmiş mühüm siyasi, iqtisadi, diplomatik addımlar atdı. Xüsusilə 24 sentyabr 1993-cü ildə Azərbaycanın MDB-yə daxil olması barədə sənədlərin imzalanması ölkə diplomatiyasının xarici siyasət sahəsində mühüm addımı oldu. Bununla Azərbaycan rəhbərliyi Dağlıq Qarabağ regionu ətrafında gedən müharibədə Rusiyanın iştirakı faktorunu neytrallaşdırmağa çalışırdı. Lakin Rusiya rəhbərliyində olan hərbi dairələrin Ermənistanı açıq şəkildə dəstəkləmə siyasəti bir neçə rayonun işğalı və iki ölkə arasındakı münasibətlərin gərgin olaraq qalması ilə nəticələndi. Təsadüfi deyil ki, rusiyalı beynəlxalq icmalçı S.İ.Çernyavski qeyd edirdi ki, tarixin bu mərhələsində RF-nin Azərbaycana münasibətdə mehriban qonşuluq münasibətlərinin inkişafı istiqamətində məqsədyönlü siyasəti nəinki yox idi, əksinə bəzi addımları düşünülməmiş atılmışdı və dostluq xarakteri daşımırdı [6, s.306].

Heydər Əliyevin diplomatik təcrübəsi sayəsində 1995-ci il iyunun 6-da RF və AR arasında siyasi məsləhətləşmələrə dair Protokol imzalandı. Bu protokolla iki dövlətin rəhbərlərinin yüksək səviyyəli görüşlərinin, Xarici İşlər nazirlərinin ildə iki dəfədən az olmamaq şərti ilə danışıqlarının və məsləhətləşmələrinin keçirilməsi, digər nazirliklər və təşkilatlar arasında sıx və tərəflərin mənafelərinə uyğun qarşılıqlı əməkdaşlıq əlaqələrinin qurulması və davam etdirilməsi qərara alındı [7, s.73].

1997-ci il iyulun 3-də Heydər Əliyev Rusiya Federasiyasına birinci rəsmi səfərə getdi və iki dövlət arasında strateji tərəfdaşlığın əsasını qoyan "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında Müqavilə" imzalanmasına nail oldu. Bu, həmin dövr üçün yeni statusda yaranan və inkişaf etdirilən münasibətlərin müqavilə-hüquq bazasının strateji xarakterli ilk sənədi idi. Ratifikasiya olunmamış analoji 1992-ci il tarixli sənəddən fərqli olaraq, bu müqavilə tərəflərin milli maraqlarına cavab verən ikitərəfli qarşılıqlı əlaqələrin ən yüksək səviyyəyə qaldırılmasına geniş hüquqi əsas yaratmış oldu. Bu müqavilənin Azərbaycanın milli təhlükəsizlik maraqlarına cavab verən ən mühüm məqamlarından biri:

– tərəflərin dövlətlərarası münasibətlərdə güc tətbiqi və onun tətbiqi istiqamətində hədələrin, dövlətlərin beynəlxalq səviyyədə tanınmış sərhədlərinin güc yolu ilə dəyişdirilməsinin yolverilməzliyi;
– tərəflərin bir-birinin ərazi bütövlüyünün və sərhədlərinin toxunulmazlığının təmin edilməsi məqsədilə birgə səy göstərmələrinin dəstəklənməsi;
– separatizmi onun bütün təzahürlərində mühakimə etmələri;
– bir-birinə qarşı, o cümlədən üçüncü ölkələr vasitəsilə hərbi, iqtisadi, maliyyə xarakterli tədbirlərdə və hərəkətlərdə iştirak etməmək;
– öz ərazisindəki milli azlıqlara münasibətdə etnik, mədəni, dil və dini özünüifadəni müdafiə edəcəyi barədə ümumi mövqeni bəyan etmələri idi [1, s.342– 344].

Danışıqlar zahirən göründüyü kimi asan məcrada getmirdi. Belə ki, dövlətin müstəqilliyinin mühüm atributu, milli təhlükəsizlik konsepsiyasının əsas dayaq sütunu olan məsələlərdə Azərbaycan tərəfi heç bir güzəştə getmədi. Belə məsələlərdən biri Azərbaycan–İran sərhədlərinin birgə mühafizəsinə dair Rusiya tərəfinin təklifi üzrə oldu. Heydər Əliyev açıq şəkildə bəyan etdi ki, “MDB-nin xarici sərhədləri” terminini qəbul etmir və hər bir müstəqil dövlət öz sərhədlərini özü qorumalıdır. Həmçinin Rusiyanın antiazərbaycan və ermənipərəst mövqeli bir sıra hərbi və siyasi dairələri tərəfindən danışıqlar predmetinə çevrilmiş Azərbaycanın çeçen yaraqlılarına kömək məqsədilə AR–RF sərhəddindən silah keçirməsinə dair ittihamlar Heydər Əliyev tərəfindən qəti surətdə rədd edildi.

Azərbaycanın milli təhlükəsizliyinin təminatı prosesində mühüm əhəmiyyət kəsb edən məsələlərdən biri də Dağlıq Qarabağ regionunda müharibənin gedişinə həlledici təsir göstərə biləcək faktorlardır ki, bunlar da yenə RF-nin regiondakı siyasətinin tərkib hissəsi kimi qalmaqda davam edirdi. Məhz bu istiqamətdə cərəyan edən hadisələr münasibətlərin yaxınlaşmasına baxmayaraq, əlaqələrə ciddi şəkildə mənfi təsir göstərən amilə çevrilmişdi. Belə ki, 1990-cı illərin ikinci yarısında RF-nin işğalçı Ermənistana külli miqdarda silah-sursat verməsi Azərbaycan–Rusiya münasibətlərinə böyük zərbə vuran problemə çevrildi. Bununla bağlı 1997-ci il martın 5-də Heydər Əliyev Rusiya Prezidenti Boris Yeltsinə məktub göndərdi. Məktubda Ermənistana Rusiya silahlarının göndərilməsindən böyük narahatlıq ifadə edilir, məsələnin araşdırılması və müvafiq tədbirlərin görülməsi xahiş olunurdu. Bundan sonra RF rəhbərliyi tərəfindən Rusiya Baş Prokurorluğuna müvafiq təhqiqatın aparılmasına dair göstəriş verildi. Həmçinin Rusiya Dövlət Duması qeyd olunmuş silahların göndərilməsinin detallarının araşdırılması məqsədilə xüsusi komissiya yaratdı. 1997-ci ilin aprel ayında Rusiya Dövlət Dumasının qapalı iclasında Dumanın müdafiə komissiyasının sədri general L.Roxlin təsdiq etdi ki, Ermənistana 1 milyard dollar məbləğində Rusiya silahı göndərilmişdir [5, s.317]. Məsələyə Azərbaycan rəhbərliyinin reaksiyası çox kəskin oldu və bu məqam Azərbaycan Prezidenti Heydər Əliyevin Rusiya Prezidenti Boris Yeltsinə göndərdiyi məktubda öz əksini tapmışdı [8]. Lakin Rusiya rəhbərliyi Azərbaycan liderinin RF-nin öz beynəlxalq öhdəliklərinə əməl etməməkdə olan ittihamına cavab arqumentlərinə malik deyildi və çıxış yolunu Bakını çeçen yaraqlılarına kömək etmək kimi mücərrəd məsələdə ittiham etməkdə gördü.

Prezident Vladimir Putinin RF-də hakimiyyətə gəlməsindən sonra qonşu dövlətin doktrina xarakteri daşıyan mühüm sənədləri üzrə işlər sürətləndirildi və yekunlaşdırıldı. Bu, əsasən, “Rusiya Federasiyasının Milli Təhlükəsizlik Konsepsiyası”, “Rusiya Federasiyasının Xarici Siyasət Konsepsiyası” və “Rusiya Federasiyasının Hərbi Doktrinası” idi. 2000-ci ilin yanvar ayında qəbul edilmiş “Rusiya Federasiyasının Milli Təhlükəsizlik Konsepsiyası”nda MDB-nin üzvü olan ölkələrlə təşkilat çərçivəsində inteqrasiya proseslərinin gücləndirilməsinə yönəlmiş və RF-nin maraqlarına cavab verən münasibətlərin inkişaf etdirilməsinin vacibliyi qeyd edilmişdi [14, s.39].

SSRİ-nin süqutundan sonra ilk dəfə 2001-ci ilin 9–10 yanvar tarixlərində RF-nin Prezidenti Azərbaycana rəsmi səfərə gəldi. Heydər Əliyevlə Vladimir Putinin danışıqlarının əsas nəticəsi tərəflərin ikitərəfli münasibətlər və beynəlxalq aləmin gündəliyində olan müxtəlif məsələlər üzrə mövqelərin dəqiqləşdirilməsi oldu. Yekun olaraq tərəflər əməkdaşlığın yeni səviyyəsinə çıxmağa hazır olduqlarını bəyan etdilər ki, bu da özünü Bakı Sammitinin Deklarasiyasının imzalanmasında göstərmiş oldu [5, s.46–48]. Deklarasiyada qeyd olunurdu ki, MDB çərçivəsində münasibətlərin dərinləşdirilməsi tərəflərin milli təhlükəsizlik maraqlarına cavab verir. Həmçinin vurğulanırdı ki, hər iki dövlət MDB çərçivəsində iqtisadi əməkdaşlığın inkişaf etdirilməsi, azad ticarət zonalarının yaradılması ilə gələcəkdə bazar iqtisadiyyatı infrastrukturunun formalaşması, ümumi iqtisadi məkanın meydana gəlməsində maraqlıdır. Bakı Deklarasiyasında Xəzər dənizinin statusu ilə bağlı problemin həllinə tərəflərin yanaşmasında yaxınlaşmaların olduğu da qeyd edilmiş, XİN rəhbərlərinin müavinləri səviyyəsində fəaliyyət göstərən xüsusi işçi qrupda kontaktların davam etdirilməsi qərara alınmışdı [9, s.95].

RF ilə ikitərəfli münasibətlərin formalaşması prosesinin Azərbaycanın milli təhlükəsizliyinə mühüm təsirlərindən biri də Heydər Əliyevin 2002-ci il 24–26 yanvar tarixində Moskva şəhərinə rəsmi səfəri oldu. Bu görüş qarşılıqlı əməkdaşlığın dinamik və artan xarakterli inkişafını təmin edən razılaşma ilə tarixə düşə bildi. Səfər gedişində “AR ilə RF arasında 2010-cu ilə qədər uzunmüddətli iqtisadi əməkdaşlıq barədə Saziş” imzalandı. Bu görüşün Azərbaycanın milli təhlükəsizlik konsepsiyasının qarşısında duran vəzifələrin həyata keçirilməsini təmin edəcək ən mühüm məqamı isə RF-nin

AR ilə uzunmüddətli ikitərəfli hərbi əməkdaşlığın qurulmasında və daha da inkişaf etdirilməsində maraqlı olduğunu və buna səy göstərdiyini bəyan etməsi oldu. Heydər Əliyev RF ilə faktiki olaraq pozulmuş münasibətlərin Rusiya hərbi bazalarının Azərbaycana qayıtmasına imkan vermədən, respublikanın MDB ölkələri arasında sərhədlərini öz qüvvələri ilə mühafizə edən, Rusiya hərbi bazası olmayan dövlət statusunu saxlamaqla normallaşmasına nail ola bildi. 2001-ci ildə RF-nin Prezidenti V.Putinin Bakıya rəsmi səfəri, 2002-ci ildə Sankt-Peterburqda dahi Azərbaycan şairi Nizaminin abidəsinin açılması və Heydər Əliyevin Rusiyaya dövlət səfəri qarşılıqlı münasibətlərin möhkəm özülünün əsasını qoydu [12] .

Yürüdülən bu siyasi xətt xalqlarımızı birləşdirən tarixi və mənəvi tellərin, inkişaf edən və təkmilləşən strateji tərəfdaşlığın səviyyəsini daha da yüksəltmiş oldu. Bu gün artıq tam inamla demək olar ki, Heydər Əliyevin prezidentliyi dövründə həyata keçirilmiş bu və digər tədbirlərin növbəti illərdə də prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi formalaşmaqda olan yeni milli təhlükəsizlik sisteminin Azərbaycanın dövlət müstəqilliyini qorumağa qadir olduğunu göstərir.

**Ədəbiyyat:**


1. Аббасбейли А.Н. Внешняя политика Российской Федерации в XXI веке. Баку, Элм, 2005.
2. Азербайджан-Россия (1992-2002). Сборник документов МИД Азербайджанской Республики. Баку, 2002.
3. «Азербайджан заключил выгодный договор с Россией», газета «Бакинский рабочий», 1992, 14 октября.
4. Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası, Bakı, 2007.
5. Бакинская Декларация Российской Федерации и Азербайджанской Республики //Дипломатический вестник. М., 2001, №2, с.46-48.
6. Чернявский С.И. Новый путь Азербайджана. Баку, Азер-Медиа, Книга и бизнес, 2002.
7. Дипломатический вестник. 1995, № 6, с.73.
8. Эдмунд Херциг. ”Внешняя политика Азербайджана, ее воздействие на региональное сотрудничество”: http://www.rd.dgu.ru/ analitics32.html
9. Журнал «Возрождение – XXI век», Баку, 2001, №1–2, с.95.
10. Крюгер Хейко. «Нагорно-Карабахский конфликт». Правовой анализ, Баку, 2012.
11. Голунов С.В. Кавказская граница Российской Федерации: проблемы безопасности и международного сотрудничества //Россия и мусульманский мир: Бюллетень реферативно-аналит.информации, 2004, №2, с.43.
12. Мирзазаде Л.Ф. Нормативно-правовая основа двусторонних отношений Азербайджана и России, © Юридические науки. 2012, №3 (10) 2012, Баку.
13. Согрин В. «Политическая история современной России 1985–1994 гг. от Горбачева до Ельцина», Москва, 1994 г.
14. СНГ – этапы развития // (Авторский коллектив, отв. ред. А.Д.Шутов, д.и.н., профессор; В.П.Воробьев). Центр СНГ. Институт актуальных международных проблем ДА МИД России. М., Научная книга, 2006.


**Açar sözlər:** *Azərbaycan, milli təhlükəsizlik, strateji əməkdaşlıq, Rusiya, təhdid, müstəqillik, strategiya, konsepsiya*

**Ключевые слова**: *Азербайджан, национальная безопасность, стратегическое взаимодействие, Россия, угроза, независимость, стратегия, концепция*

**Key words:** *Azerbaijan, national security, strategic alliance, Russian, threat, independence, strategy, conception*

**Ильхама Омарова**

***Академия Государственного Управления при Президенте Азербайджанской Республики, преподаватель кафедры истории***

## ПРОЦЕСС СОЗДАНИЯ СИСТЕМЫ НАЦИОНАЛЬНОЙ БЕЗОПАСНОСТИ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ В КОНТЕКСТЕ ОТНОШЕНИЙ С РОССИЙСКОЙ ФЕДЕРАЦИЕЙ

### РЕЗЮМЕ

В статье в контексте всех происходящих в регионе событий освещается процесс становления и развития системы национальной безопасности в Азербайджанской Республике после распада СССР.

В контексте отношений с Российской Федерацией особое место уделяется процессам, произошедшим в 1987–1993 годах в результате Армяно-Азербайджанского, Нагорно-Карабахского конфликта и оккупации азербайджанских земель Арменией. Исследуется претворение в жизнь политической линии, военных, дипломатических и экономических мер по этому вопросу. Показаны изменения, происходящие не только в республике, но и во всем регионе после прихода к власти общенационального лидера Гейдара Алиева, ставшего реальным гарантом независимости Азербайджана. В работе проанализирована и стратегия национальной безопасности в процессе отношений с Российской Федерацией.

**Ilhama Omarova**

***The History Department, Lecturer The Academy of Public Administration under the President of the Republic of Azerbaijan***

## THE PROCESS OF ESTABLISHMENT OF NATIONAL SECURITY SYSTEM OF THE REPUBLIC OF AZERBAIJAN IN THE CONTEXT OF RELATIONSHIP WITH THE RUSSIAN FEDERATION

### SUMMARY

The article illustrates the establishment and development of national security system in the Republic of Azerbaijan after collapse of the USSR. In the context of relationship with the Russian Federation, the article focuses particularly on the events of 1987-1993 as a result of Armenia-Azerbaijan the Nagorno-Karabakh conflict and occupation of Azerbaijani lands, as well as the implementation of strategic, military, diplomatic and economic measures related to this issue. The author indicates the changes both in the republic and in the region after national leader Heydar Aliyev's takeover, who were a real guarantee of independence of Azerbaijan Republic.

**AYSAN MƏMMƏDOVA**

*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, "Politologiya və siyasi idarəetmə" kafedrasının dissertantı*

# AZƏRBAYCANDA QADIN SİYASİ LİDERLİYİNİN İNKİŞAFI

Siyasi tarixə nəzər yetirsək qadınların siyasi liderliyi az rast gəlinən məsələlərdən biridir. Lakin müasir dövrdə demokratik və sivil dövlətlərin praktikasında qadın siyasi liderliyi aktual məsələlərdən birinə çevrilmişdir. Bu aspektdən İndira Qandi, Qolla Meir, Marqaret Tetçer, Kora Akino, Benazir Bhutto, Angela Merkel, Mişel Baçelet, Kristina Kirşner kimi qadın siyasi liderlərin adını çəkmək olar. Qadınları siyasi lider olmağa nə vadar edir, onların ali dövlət idarəçiliyinə can atmağının səbəbləri nədir və qadınların siyasi liderliyinin kişilərin siyasi liderliyindən fərqləri nədən ibarətdir? Bu suallar siyasi elmin müxtəlif sahələri tərəfindən geniş şəkildə araşdırılsa da, müəyyən məsələlər hələ də mübahisəli olaraq qalmaqdadır və hələ də dünyada qadınların siyasi liderliyi adət halını alan bir məsələ deyil.

Qadın siyasi liderliyinin 3 forması mövcuddur:

**Siyasi formaya** qadınların dövlət hakimiyyətinin ali və yerli Qanunverici və İcraedici orqanlarında, o cümlədən qadın dövlət rəhbərləri, siyasi partiyaların, BMT və s. kimi beynəlxalq təşkilatların rəhbərliyində olması aid edilir.

**İqtisadi forma** qadınların iqtisadi məsələlərlə məşğul olan milli dövlət orqanlarında aparıcı mövqe tutması, o cümlədən idarə, müəssisə və təşkilatlarda rəhbər, yüksək idarəetmə nişanına malik beynəlxalq və regional maliyyə müəssisələrində işçi olmasıdır.

**İctimai forma** qadınların vətəndaş cəmiyyəti sferalarında, özünüidarə orqanlarında, QHT-nin ictimai hərəkatlarında, kütləvi informasiya vasitələrində təmsil olunmasıdır. Siyasi formaya – qadınların dövlət hakimiyyətinin ali və yerli Qanunverici və İcraedici orqanlarında, o cümlədən qadın dövlət rəhbərləri, siyasi partiyaların, BMT və s. kimi beynəlxalq təşkilatların rəhbərliyində olması aid edilir (3, s.27).

**İqtisadi forma** qadınların iqtisadi məsələlərlə məşğul olan milli dövlət orqanlarında aparıcı mövqe tutması, o cümlədən idarə, müəssisə və təşkilatlarda rəhbər, yüksək idarəetmə nişanına malik beynəlxalq və regional maliyyə müəssisələrində işçi olmasıdır.

Qadın liderliyin ictimai forması qadınların vətəndaş cəmiyyəti sferalarında, özünüidarə orqanlarında, QHT-nin ictimai hərəkatlarında, kütləvi informasiya vasitələrində təmsil olunmasıdır.

Qadın siyasi liderliyi fenomeninin kişilərin siyasi liderliyi məsələləri ilə birlikdə analiz olunması adət halını almışdır. Lakin daha dərin fikirləşsək, bu müqayisənin tamamilə doğru olmadığını görərik. Qadınların siyasi liderliyi ilə yanaşı, psixoloji xüsusiyyətləri əsas götürərək istənilən müqayisənin ötəri olacağı aydındır. Digər bir tərəfdən tarixən qadın siyasi liderliyinin əksinə olaraq kişilərin siyasi liderliyi instrumental, institusional şəkildə inkişaf etdirilməkdədir.

Yer kürəsinin əhalisinin böyük bir qismi fikirləşir ki, qadının vəzifəsi uşaq dünyaya gətirib, onların qeydinə qalmaq, ev işləri ilə məşğul olmaq, ailəni qorumaqdır. Həyat yoldaşının mənəvi dayağı olub, ona hər mənada dəstək olmaqdan başqa bir işə qadir olmamaqdır. Buna əmin olmaq üçün gender stereotiplərinə əsasən aparılan sosial sorğuların nəticələrinə nəzər yetirsək, görərik ki, iki adamdan biri, kişi ilə qadının eyni hüququnun olmadığını bildirir. Hərçənd 20 ildən artıqdır ki, dünyanın 130 ölkəsi qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Konvensiyasını dəstəkləyiblər [4; 209].

Sosiologiya nöqteyi-nəzərindən müqayisə zamanı siyasi lider olması üçün kişilərə qoyulan tələbatlar məhz qadınlara da tətbiq olunur. Zənnimizcə, bu, düzgün yanaşma deyil. Belə ki, ümumi tələblərlə yanaşı, qadının cəmiyyətdə rolunun xüsusiyyətlərini nəzərə almaq vacibdir. Uzun əsrlər boyu milli, coğrafi, dövlət və hüquqi şərtlərdən əlavə qadının siyasi liderliyinə maneəçilik törədən bir sıra psixoloji amillər də mövcud olmuşdur. Psixoloji faktorlar dedikdə, ana olmaq və onun məsuliyyəti, qanunvericilikdə faktiki olaraq istehsalatda, əməkhaqlarının ödənməsində, siyasətdə kişilərə daha çox üstünlük verilməsi kimi diskriminasiya hallarını misal göstərmək olar.

Bir sıra mədəniyyətlərdə, xüsusən də Şərq mədəniyyətlərində qadın nəinki siyasi liderlikdə, hətta evdə belə liderliyə malik olan insan deyildi. Hətta bəzi cəmiyyətlərdə insan yerinə belə qoyulmurdu. Yalnız İslam dininin yaranması və inkişafı ilə qadınlara xüsusi hörmət və rəğbət yaranmağa başlamışdı. Lakin yenə də siyasi liderliyə kimi müsəlman qadınların yüksəlməsi üçün şərait yaradılmırdı. Qərbdə isə sıçrayış XX əsrdə feminizm və qadınların hüquqlarının qorunması dalğası ilə olmuşdu. Bu dalğa, demək olar ki, bütün qərb ölkələrini əhatə eləsə də, Şərq ölkələrində hələ də qadınların hüquqlarının tapdalanması hallarına rast gəlinirdi. Qadınların hüquqlarının pozulması, onların siyasi lider

olmaq haqqında düşüncələrinin olmamasını nəinki müsəlman ölkələrinə, hətta Uzaq Şərq ölkələri, Hindistana və Afrikaya da aid etmək olar. Yalnız yüksək cəmiyyətin nümayəndələrində güzəştlər mümkün olmuşdur. İndira Qandini və Benazir Bhuttonu misal göstərmək olar ki, bu da onların tayfalarında qadınların siyasi liderliklə məşğul olmağına icazə verilməsi və şərait yaradılması ilə bağlı idi. Ailə və nəsildə oğlan övladının olmaması təqdirdə də belə hallara rast gəlinir.

Həm Qərbin, həm də Şərqin qadın siyasi liderlərini sözsüz olaraq bir şey birləşdirir. Onlar Qərbə məxsus güclü təhsil alıb, öz dövlətlərinin idarə olunmasında iştirak edirdilər. Qadın siyasi liderlərin tərcümeyi-hallarına nəzər yetirdikdə görürük ki, məhz ailə siyasi liderin formalaşmasında, liderlik xüsusiyyətlərinin yaranmasında mühüm rol oynayır. Eyni fərziyəni Jan Blondel siyasi liderlik haqqındakı işində də irəli sürmüşdü (6.84–85). Məqalənin əvvəlində adlarını saydığımız qadınların həyat hekayələrinə nəzər yetirdikdə görürük ki, siyasi lider kimi formalaşmalarında ailələrindəki ataların və ya ərlərin, ya da ailədəki hər hansı bir nüfuzlu kişinin rolu böyükdür. Xüsusən də həmin kişilər siyasi mübarizədə yaxından iştirak ediblərsə.

Azərbaycanın müasir siyasi həyatında qadınların rolunun günü-gündən artması prosesi qadın siyasi liderlərin formalaşmasına da mühüm təsir göstərir. Belə ki, son onillikdə davamlı inkişaf və gender siyasətinin düzgün aparılması nəticəsində qadınların siyasi iştirakı artır və Şərqdə ilk sivil demokratik dövlətin yarandığı Azərbaycan Respublikasında qadının həm ictimai, həm iqtisadi, həm də siyasi lider ola biləcəyi bir şərait yaradılır. Qadınların siyasi iştirakı Qərbdə hələ XX əsrin ikinci yarısından başlasa da, Azərbaycanda bu ötən əsrin əvvəllərinə təsadüf edir. Ümumiyyətlə, Azərbaycanda qadın siyasi liderlərinə tarix boyu rast gəlinir.

Ümummilli lider Heydər Əliyev qadınlara həmişə böyük diqqət və qayğı göstərib. Milli dövlətçiliyimizin bərpasından sonra ulu öndər Heydər Əliyev tərəfindən aparılan uğurlu siyasət nəticəsində sivil dövlət, demokratik cəmiyyətin yaranması üçün hər cür hüquqi baza yaranmışdır. 1998-ci ildə "Azərbaycanda qadınların rolunun artırılmasına dair tədbirlər haqqında" Sərəncam imzalanması, Prezidentin Fərmanı ilə Qadın Problemləri üzrə Dövlət Komitəsinin yaradılması və Azərbaycan qadınlarının I qurultayının keçirilməsi uzaqgörən siyasətin təzahürləridir.

Müasir dövrdə qadınlarımız istənilən sahələrdə çalışaraq öz məharətlərini göstərirlər, ancaq onların ailə tərəfindən dəstəklənməsi və başa düşülməsi respublikamızın hər bölgəsində eyni səviyyədə deyil. Bəzi sahələrə nəzər yetirdikdə görürük ki, kişilər qadınlara daha çox imkan, şərait yaratsalar və qadınlar öz güclərinə inanıb, potensiallarını inkişaf etdirsələr, həm ailəsinin rifahı üçün, həm də cəmiyyətimizin inkişafı üçün əvəzsiz töhfələr verməyə qadirdilər. Bütün dünyada qəbul olunmuş faktdır ki, qadınların fikirləri, istəkləri, məsləhətləri nəzərə alınmırsa, həmin dövlətdə, bölgədə, kənddə, ailədə – tərəqqidən, yaşayış səviyyəsinin yüksəlməsindən və s. söz gedə bilməz, bu mümkün deyil. Deyilənlərdən belə qənaətə gəlmək olar ki, qadın lider ola bilər. Ancaq bunun üçün o, ilk növbədə, öz hüquqlarını bilməli və onlardan öz fəaliyyətlərində düzgün istifadə etməlidir.

Azərbaycan Respublikasında qadın hüquqlarını qoruyan qanunlar mövcuddur və bu qanunların icrasına nəzarət və icra edən qurumlar da fəaliyyət göstərir. Ancaq buna baxmayaraq, bir çox rayon və kəndlərimizdə qadın hüquqları tapdalanır və bütün bu dözülməz haqsızlıqlar milli mentalitet adı ilə qələmə verilir.

Hər bir müsəlman üçün müqəddəs sayılan Qurani Kərimdə qadın hüquqları lazımi səviyyədə əks etdirilib və müqəddəs hesab olunur. Qadın özü də müqəddəs varlıq kimi təsvir edilir və kişi qadını həmişə qorumalı və onunla hesablaşmalıdır. Ailə iki insanın bir yerdə qəbul etdikləri yükdür və onu qurmaq, yaratmaq və yaşatmaq həm qadının, həm də kişinin cəmiyyət qarşısında borcudur. Bu məqsədə çatmaq üçün ailənin qarşısına çox maneələr çıxa bilər.

Bizim cəmiyyətdə hələ də bəzən qadın və siyasətin bir-birinə uyğun olmadığı kimi fikirlər irəli sürülür. Qadının hakimiyyətə cəlb olunması müasir dövrdə stabil, humanist və inkişaf etmiş cəmiyyətin təzahürüdür. Belə ki, kişilərlə birlikdə qadınların bərabər hüquqlarının olması dövlət siyasətinin prioritetini dəyişdirir.

Azərbaycanda müasir dövrdə qadın siyasi liderliyi Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri, millət vəkili Mehriban Əliyevanın Azərbaycanı layiqincə təmsil edən, ölkəmizdə və dünyada xeyriyyəçi, humanist, mədəniyyətə, idmana qayğı ilə yanaşan, elm, təhsil, səhiyyə sahələrində respublikada və beynəlxalq miqyasda böyük işlər görən insanın – timsalında görmək olar.

Mehriban xanım Əliyevanın geniş ictimai-siyasi fəaliyyəti dünya səviyyəsində Azərbaycan qadınının müsbət obrazının formalaşmasında əvəzsiz rol oynayır. Onun humanitar, elm, təhsil sahələrində həyata keçirdiyi tədbirlər həm Azərbaycanda, həm də başqa ölkələrdə yaşayan qadınlar üçün əsl örnəkdir, eyni zamanda qadınların cəmiyyətdəki rolunun artırılmasına dəstəkdir. Təsadüfi deyil ki, 2005-ci ildə Azərbaycanda keçirilən sosioloji sorğuya əsasən Mehriban Əliyeva "İlin qadını" adına layiq görülüb (1, s.3).

2011-ci ilin sentyabrında Almaniyada nəşr olunan "Qadın liderliyi Qadınların gücü", "Dünyanın ən uğurlu qadınlarından öyrənək" adlı kitabda dünyanın 30 ölkəsindən 60-a yaxın ən uğurlu, nüfuzlu və tanınmış qadın ictimai və siyasi xadimlərin məqalələri və ya müsahibələri ilə yanaşı, Mehriban xanım Əliyevanın da müsahibəsi yer alıb. dünyanın 30 ölkəsindən 60-a yaxın ən uğurlu, nüfuzlu və tanınmış qadın ictimai və siyasi xadimlərin məqalələri və ya müsahibələri ilə yanaşı,

Mehriban xanım Əliyevanın da müsahibəsi yer alıb. (2, s. 404, 405). Kitabın nəşrində məqsəd şəxsi və ictimai fəaliyyətlərində uğurlar qazanmış qadınların əldə etdikləri nailiyyətlərin sirlərini öyrənmək, eləcə də onların ictimai fəaliyyətlə bağlı məsləhətlərini işıqlandırmaqdır. Mehriban xanım Əliyevanın müsahibəsində rəhbərlik etdiyi Heydər Əliyev Fondunun həyata keçirdiyi mühüm layihələr, Azərbaycan qadınlarının ölkənin ictimai-siyasi və mədəni, Azərbaycanın dünyada qadınlara seçki hüququ verən ilk ölkələrdən biri olması və digər mövzularla bağlı məsələlər barədə geniş məlumat verilib (2, s. 404, 405).

2012-ci il iyulun 1-də Bakıda keçirilən Krans Montana Forumu çərçivəsində "Qadın hüquqları insan hüquqlarıdır, insan hüquqları isə qadınların hüququdur" mövzusunda iclasda çıxış edən Azərbaycanın birinci xanımı Mehriban Əliyeva qadınların ictimai-siyasi həyatdakı artan rolundan bəhs edib, Şərqin ilk demokratik parlament respublikasının Azərbaycanda yaradıldığını vurğulayıb (3).

Qeyd edək ki, Mehriban xanım Əliyeva 2011-ci il iyunun 24-də Krans Montana Forumunun Qızıl medalı ilə təltif olunub (3).

Mehriban xanım Əliyeva həm də millət vəkili kimi fəaliyyəti ilə Azərbaycanın müxtəlif ölkələrlə münasibətlərinin inkişafına töhfə verməklə ölkənin siyasi həyatında aktiv iştirak edir.

Beləliklə, Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri, millət vəkili Mehriban Əliyevanın zəngin fəaliyyəti Azərbaycan mədəniyyətinin dünyada tanıdılmasına, ölkəmizin müsbət imicinin formalaşmasına, eləcə də mədəniyyətlərarası dialoqun genişlənməsinə böyük töhfədir.

Azərbaycanda aparılan bu siyasət, qadınların hüquqlarının qorunması ilə bərabər, qadın siyasi liderliyinin inkişaf etdirilməsi perspektivdə onun inkişafı üçün geniş şərait yaradır. Məhz Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri, FAO-nun xoşməramlı səfiri Leyla Əliyevanın gənc lider kimi faliyyəti onun qadınların həm iqtisadi, həm ictimai, həm də siyasi liderliyinin Azərbaycan timsalında bütün dünyaya örnək olacağını göstərir. İstər ətraf mühitin qorunmasında, istər dünya azərbaycanlı gənclərinin hüquqlarının qorunmasında, istər mədəni sahədə, istər iqtisadi cəhətdən inkişafda rolunu qeyd etməmək mümkün deyil. Bir lider kimi Leyla Əliyeva Azərbaycan qadınının siyasi və ictimai həyatda hər şeyə qadir olacağını göstərir və Azərbaycanın davamlı inkişafında rolunun mühüm olacağını qeyd edir.

Beynəlxalq analitiklər isbat ediblər ki, siyasi strukturlarda qadınların təmsil olunma faizi 20 %-dən az olmamaq şərti ilə təmin edilərsə, dövlətdə, iqtisadi baxımdan səviyyəsi aşağı olan insanların vəziyyətində, təhsil və səhiyyə sahələrinin inkişafında real dönüş müşahidə edilir (4, s.26). Araşdırmalar göstərir ki, ölkə qanunvericiliyi və respublikamızın qoşulduğu beynəlxalq sənədlər kişi və qadınların ictimai inkişafı üçün bərabər imkanların hüquqi bazasını özündə ehtiva edir.

**Ədəbiyyat:**


1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 2002
2. Mehriban Əliyevanın Krans Montana Forumu çərçivəsində "Qadın hüquqları insan hüquqlarıdır, insan hüquqları isə qadınların hüququdur" mövzusunda plenar iclasında çıxışı: http://www.mehriban-aliyeva.az/activities/ node/ 842521
3. Mehriban Əliyevanın müsahibəsi. Kerstin Plevenin "Qadın liderliyi – Qadınların gücü. Dünyanın ən uğurlu qadınlarından öyrənək" Berlin, 2011 ("Hanseatic Lichthouse" nəşriyyatı), səh. 404–405
4. Gender Bərabərliyi və Qadın Təşəbbüsləri İctimai Birliyi. Rüblük Bülleten, (1) № 4, Aprel, May, İyun 2010, səh. 26–28; file:///F:/Bulleten_ 4-ci_ rub.pdf
5. H.Məmmədli; Yeni Azərbaycan. 2013, 24 avqust, s.3. http://anl.az/down/meqale/yeni_az/ 2013/ avqust/322684.htm
6. Митрофанова Е. П. Женщина – политический лидер: мать, амазонка или светская львица? // Без темы. – 2008. – № 1(7). с.26–30.
7. Овчарова О.Г. Политическое лидерство и проблемы личности// КрСтол. – 2011, с.53.
8. Осипенко Н.А., Давыденко Э.Н. Гендерные стереотипы сквозь призму общественного мнения//Материалы научно-практической конференции молодых ученых, аспирантов и студентов. 2013, с. 208–210.
9. Щербинина Н.Г. Теории политического лидерства. Учебное пособие. Москва: Издательство «Весь мир», 2004.
10. Политология: учебник для студентов вузов/ Под ред. В. Н. Лавриненко. – 3-е изд., переработанное и дополненное. М.: ЮНИТИ-ДАНА, 2006, 591 с. (Серия "Золотой фонд российских учебников").
11. http://qadin.net/index.php?newsid=1006.


**Açar sözlər:** *qadın, siyasi lider, gender siyasəti, gender bərabərliyi, cəmiyyət*
**Ключевые слова:** *женщина, политический лидер, гендерная политика, гендерное равенство, общество*
**Key words:** *woman, political leader, gender policy, gender equality, society*

**Айсан Мамедова**

***Диссертант кафедры «Политология и политическое управления» Академии Государственного Управления при Президенте Азербайджанской Республики***

## РАЗВИТИЕ ЖЕНСКОГО ПОЛИТИЧЕСКОГО ЛИДЕРСТВА В АЗЕРБАЙДЖАНЕ

### РЕЗЮМЕ

Представленная статья посвящена женскому политическому лидерству в Азербайджане и перспективам его будущего развития. В ней в сравнительном аспекте изучается мужское и женское политическое лидерство, анализируется юридическая база, способствующая развитию женщины как политического лидера в Азербайджане. В статье раскрыта широкая деятельность Первой леди Азербайджана, Президента Фонда Гейдара Алиева, посла доброй воли ЮНЕСКО и ИСЕСКО, депутата Милли Меджлиса Мехрибан ханум Алиевой, освещается участие азербайджанских женщин в политической деятельности.

**Aysan Mammadova**

***Phd student of the Department of "Political Science and Management", the Academy of Public Administration under the President of the Republic of Azerbaijan***

## THE DEVELOPMENT OF WOMEN'S POLITICAL LEADERSHIP IN THE REPUBLIC OF AZERBAIJAN

### SUMMARY

The article is dedicated to women's leadership and its future development in the Azerbaijan Republic. The author highlights the comparative aspects of women's and men's political leadership as well as the legal framework for development of women as a political leader in the Republic of Azerbaijan.

**YEGANƏ VƏLİYEVA**

*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının magistrantı*

# MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTİNİN GƏNCLƏR SİYASƏTİNİN UĞURLARI

Azərbaycan Respublikası 1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyini əldə etdikdən sonra bütün sahələrdə öz suveren hüquqlarını həyata keçirməyə və müstəqil siyasət aparmağa başlamışdır. Lakin müstəqilliyin ilk illərində hakimiyyətdə olanların səriştəsizliyi nəticəsində ölkədə dərin böhran, xaos, tənəzzül, hərcmərclik hökm sürürdü. Yalnız 1993-cü il iyunun 15-də xalqın təkidli tələbi ilə ümummilli lider Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışı ilə sabitlik və dinamik inkişaf dövrü başlamışdır. Gənclər siyasəti də istisna olmadı. 1991–1993-cü illərdə bu sahəyə diqqət göstərilməmiş, ölkə gəncliyi ictimai-siyasi proseslərdən kənarda qalmışdı və faktiki olaraq əvvəlki hakimiyyətin diqqətindən kənarda qalmışdır. Ulu öndərimiz Heydər Əliyev isə ölkə rəhbərliyinə qayıtdığı ilk gündən bu məsələyə müdrik yanaşaraq, gənclərin necə böyük bir qüvvəyə malik olduğunu nəzərə almış və onların inkişafı, yüksək səviyyəli təhsil ala bilməsi üçün hərtərəfli şəraitin yaradılmasına yönələn gənclər siyasətini həyata keçirirdi.

Milli dövlətçiliyimizin təhlükə altında olduğu, rayonlarımızın bir-birinin ardınca ermənilər tərəfindən işğal edildiyi mürəkkəb anlarda, 1993-cü ilin sentyabrında Azərbaycan Respublikası Ali Sovetinin sədri, prezident səlahiyyətlərini həyata keçirən Heydər Əliyev ölkənin bir qrup gənci ilə görüşmək üçün vaxt taparaq onların respublikanın və gəncliyin problemlərinə dair fikir və mülahizələrini dinlədi, gənclərə öz tövsiyələrini verdi. Proqram xarakterli bu çıxışında Heydər Əliyev Azərbaycanın düşdüyü mürəkkəb şəraiti dərindən təhlil edərək, gəncləri ölkənin ictimai-siyasi həyatında daha yaxından iştirak etməyə, ölkənin taleyinə biganə qalmamağa çağırdı [8].

Müstəqil dövlət quruculuğu prosesi gənclərlə bağlı siyasətin yeni şəraitə və reallıqlara uyğun həyata keçirilməsini, Azərbaycan gənclərinin yenidən təşkilatlanmasını zəruri edirdi. Gənclər hərəkatını əlaqələndirmək, gənclərin problemlərini sistemli şəkildə həll etmək, gənclərlə bağlı dövlət siyasətini həyata keçirmək üçün xüsusi dövlət strukturunun yaradılması günün tələbinə çevrilmişdi. Gənclərlə iş sahəsində vahid dövlət siyasətinin mühümlüyünü nəzərə alaraq Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin təşəbbüsü və Azərbaycan Respublikası Milli Məclisinin 26 iyul 1994-cü il tarixli qərarı ilə Gənclər, İdman və Turizm Nazirliyi yaradıldı. Fərmanda yeni yaradılmış Nazirliyin qarşısında ölkənin sosial-iqtisadi və mədəni inkişafının ümummilli strateji siyasətinə uyğun olaraq gənc nəslin tərbiyəsi, gənclərlə iş sahəsində cəmiyyətin demokratik inkişafı tələblərinə cavab verən siyasətin həyata keçirilməsi, gənclərin qüvvə və bacarıqlarının səmərəli şəkildə istifadə olunması və s. kimi vəzifələr qoyulmuşdu [5].

Azərbaycan Respublikasında gənclər hərəkatının inkişafında, gənclərlə işin yeni səviyyəyə qalxmasında Ümummilli liderimizin təşəbbüsü və iştirakı ilə keçirilən Azərbaycan gənclərinin forumları çox mühüm rol oynadı. Şəxsən onun bilavasitə iştirakı ilə 1996-cı il fevralın 2-də müstəqil Azərbaycan Respublikası gənclərinin I Forumu işə başladı. Forumda ölkənin bütün rayon və şəhərlərini, gənclərin müxtəlif təbəqələrini, təşkilatlarını, siyasi partiyaları təmsil edən 2 minədək nümayəndə iştirak edirdi. Gənclərin ali məclisində onlar azad, sərbəst şəkildə öz problemlərindən, ölkənin qarşısında duran məsələlərdən danışmış, təklif və arzularını dövlət başçısına, ali hakimiyyət orqanlarına çatdırmaq imkanı əldə etmişdilər. Ulu öndər Heydər Əliyevin göstərişi ilə Foruma respublikanın ali hakimiyyət orqanlarının rəhbərləri, yerli icra hakimiyyəti başçıları da dəvət edilmişdilər. Onların buraya dəvət olunmasında məqsəd «gənclərin problemlərini bilavasitə eşidib, hiss edib bunların həlli üçün tədbirlər görülməsi» idi [6].

Azərbaycan gənclərinin I Forumundan sonra gənclərlə bağlı dövlət siyasətinin daha dərin və ardıcıl şəkildə aparılması başlandı. Bunun göstəricisi Prezident Heydər Əliyevin şəxsən özünün bu işlərə rəhbərlik etməsi idi. 1996-cı ildən etibarən üç ildən bir keçirilən Respublika gənclərinin forumları bu sahədə görülmüş işlərin hesabatını təmin edərək, qarşıdakı dövr üçün fəaliyyət planlarını müəyyənləşdirir ki, bu da ölkəmizdə səmərəli gənclər siyasətinin keçirilməsi baxımından olduqca əhəmiyyətlidir.

Azərbaycanda dövlət quruculuğu sahəsində gənclərin rolunu yüksək qiymətləndirən dahi öndər Heydər Əliyev 2 fevralın «Azərbaycan Gənclər Günü» elan edilməsi haqqında Sərəncam verdi. Bununla da ölkəmizdə gənclər bayramının qeyd edilməsi bir ənənəyə çevrildi. Gənclər günü MDB məkanında və Şərqi Avropa ölkələri arasında ilk dəfə olaraq Azərbaycanda

qeyd olunub. 1996-cı ildən başlayaraq Azərbaycanda Gənclər günü qeyd olunandan sonra digər MDB və Şərqi Avropa dövlətlərində də bu gün qeyd olunmağa başladı. Dünyada isə yalnız 1999-cu ildə BMT-nin qərarı ilə avqustun 12-si gənclər günü elan edilmişdir. Bu fakt da ümummilli lider Heydər Əliyevin gənclər siyasətinin unikallığının və uzaqgörənliyinin göstəricilərindəndir.

I Forumun qətnaməsinə uyğun olaraq, 1999-cu il martın 2-3-də Azərbaycan gənclərinin II Forumu keçirildi. Forumun işində iştirak edən ölkə Prezidenti öz bilik və bacarıqlarını reallaşdıra bilmələri üçün gənclərə şərait yaratmağı, müstəqil dövlət quruculuğu prosesində onların potensialından daha səmərəli istifadə etməyi bütün dövlət orqanlarına tövsiyə etdi [9].

II Forumdan sonra gənclər təşkilatlarının, ayrı-ayrı yaradıcı qrupların, istedadlı və yaradıcı gənclərin müxtəlif sahələr üzrə beynəlxalq əlaqələri genişlənmiş, beynəlxalq qeyri-dövlət gənclər təşkilatlarına inteqrasiya prosesi dönməz xarakter almışdı. Müxtəlif ölkələrdə keçirilmiş beynəlxalq, regional tədbirlərdə Azərbaycan gənclərinin nümayəndə heyətləri müntəzəm iştirak etməyə başlamışdılar. BMT Gənclər Forumu, Avropa Şurası Gənclərə dair İdarəetmə Komitəsi, Avropa Gənclər Forumu, Avropa Şurası Gənclər və İdman Direktorluğu, UNICEF, BMT-nin İnkişaf Proqramı, Əhalinin İnkişaf Fondu, ECOSOC ilə əlaqələr daha səmərəli olmuşdur [12].

Bütövlükdə, 1997-2000-ci illərdə dövlət gənclər siyasətinin normativ-hüquqi bazasının təkmilləşdirilməsi ilə bağlı mühüm işlər görülmüşdü. Həmin illərdə uşaq və gənclərin fiziki, mənəvi, vətənpərvərlik tərbiyəsini yaxşılaşdırmaq, sosial-iqtisadi problemlərini həll etmək üçün bir sıra qanunvericilik aktları və dövlət proqramları qəbul olunmuşdu. “Uşaq hüquqları haqqında” (19 may 1998-ci il), “Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında” (22 iyun 1999-cu il) Azərbaycan Respublikasının qanunları, Azərbaycan Respublikası Prezidentinin 29 iyul 1998-ci il tarixli müvafiq Fərmanı, “Gənc ailə” (16 fevral 1999-cu il), “Gənclərdə vətənpərvərlik və vətəndaşlıq hislərinin yüksəldilməsi” (17 fevral 1999-cu il), “Uşaqların təlim-tərbiyəsinin yaxşılaşdırılması və hüquqlarının qorunması haqqında” (22 iyun 2000-ci il), “İstedadlı yeniyetmələrin və yaradıcı gənclərin sosial-iqtisadi və s. problemlərin həllinə yönəlmiş, onların öz qabiliyyətlərini inkişaf etdirmələrinə kömək” (4 avqust 2000-ci il), “Ordudan tərxis olunmuş gənclərin məşğulluğu” (23 avqust 2000-ci il) və s. Proqramlar qəbul edilərək həyata keçirilmişdir [12].

1991-ci ildə qəbul olunmuş “Dövlət gənclər siyasəti haqqında” qanun gənclərlə bağlı cəmiyyətdə yaranmış münasibətləri tənzimləmək iqtidarında deyildi. Ölkədə gənc nəslin hərtərəfli inkişafını təmin edən, bu sahədə müxtəlif dövlət orqanlarının səlahiyyətlərini müəyyən edən və müasir dövrün tələblərinə cavab verən yeni qanuna ehtiyac var idi. Azərbaycan Respublikası Prezidentinin 6 may 2002-ci il tarixli Fərmanı ilə qüvvəyə minmiş “Gənclər siyasəti haqqında” Azərbaycan Respublikasının Qanunu məhz bu tələblərə cavab verdi. Bu Qanun Azərbaycan Respublikasında gənclər siyasətinin məqsədlərini, istiqamətlərini, təşkilati-hüquqi əsaslarını müəyyən etdi və bu sahədə yaranan münasibətləri tənzimləməyə başladı.

Həmin Qanuna müvafiq olaraq Azərbaycan Respublikasında gənclər siyasətinin əsas məqsədi – gənclərin sosial, fiziki, mənəvi və intellektual inkişafına, problemlərinin həllinə və hüquqlarının müdafiəsinə kömək göstərmək, imkan və bacarıqlarını reallaşdıra bilmələri üçün şərait yaratmaqdır. Qanunda gənclər siyasətinin əsas prinsipləri öz əksini tapmışdır. Burada gənclərin vətənpərvərlik, azərbaycançılıq, dövlətçilik, dünyəvilik prinsipləri əsasında, Azərbaycan xalqının tarixinə, mədəni irsinə, adət-ənənələrinə, dövlət dilinə və rəmzlərinə, milli-mənəvi və ümumbəşəri dəyərlərə hörmət ruhunda tərbiyə olunması, onların yaradıcılıq potensialının ölkənin inkişafına və ümummilli problemlərin həllinə səfərbər olunması, hüquq və azadlıqlarının hər hansı şəkildə məhdudlaşdırılmasının yolverilməzliyi əsas prinsiplər kimi göstərilmişdir [11].

Qanunda dövlətimizin gənclər siyasətinin əsas istiqamətləri aşağıdakı kimi müəyyənləşdirilib:

- Gənclərin mənəvi-əxlaqi tərbiyəsi və mədəni həyatda iştirakı;
- İstedadlı gənclərə dövlət qayğısı;
- Gənclərin sağlamlığının qorunması və fiziki inkişafı;
- Gənclərin məşğulluğunun təmin edilməsi;
- Gənc ailələrə dövlət yardımı;
- Gənclər təşkilatlarına dövlət yardımı [15].

Bu istiqamətlərin reallaşdırılması üçün Gənclər və İdman Nazirliyi tərəfindən ölkənin müxtəlif rayon və şəhərlərində gənclərin sosial inkişaf mərkəzlərinin yaradılması haqqında qərar qəbul edilmişdi. Bu mərkəzlərin yaradılmasında əsas məqsəd gənclərin reproduktiv sağlamlığının möhkəmləndirilməsi və ailə planlaşdırılması sahəsində məsləhət xidmətinin təşkil edilməsi, həmçinin uşaq və gənclər arasında sağlam həyat tərzinin təbliğ olunması, onların hüquqlarının qorunması, gənc ailələrin üzləşdiyi problemlərin həlli istiqamətində uşaq və gənclərin qeyri-hökumət təşkilatlarının fəaliyyətinin əlaqələndirilməsi və onlara informasiya yardımının göstərilməsi idi [12].

Azərbaycan Respublikasında dövlət gənclər siyasətinin mühüm istiqamətlərindən biri qaçqın və köçkün gənclərin sosial müdafiəsi və cəmiyyətə inteqrasiyasının təmin edilməsi, onların problemlərinin həllinin daim dövlətin diqqət mərkəzində saxlanılması təşkil edirdi. 90-cı illərin ortalarında Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində öz yurd-yuvalarından didərgin düşmüş qaçqın və köçkün əmək qabiliyyətli gənclərin

bir hissəsinin işlə təmin olunmaması probleminin olmasını nəzərə alaraq, ulu öndər Heydər Əliyev bu təbəqələrdən olan gənclərə xüsusi qayğı, diqqət göstərməyi bütün dövlət orqanlarının, birinci növbədə, Gənclər və İdman Nazirliyinin əsas vəzifəsi hesab edirdi. Azərbaycan gənclərinin II Forumunda çıxış edərkən o, gənclərlə bağlı həyata keçirilməsi vacib olan vəzifələrdən danışarkən göstərmişdi: «Azərbaycan gənclərinin bir hissəsi işğal olunmuş torpaqlarımızdan zorla köçürülmüş ailələrin övladlarıdır, həmin torpaqların gəncləridir. Biz yerindən, yurdundan didərgin düşmüş bütün soydaşlarımıza daim qayğı və diqqət göstərməliyik və göstəririk. Ancaq köçkün, qaçqın ailələrin uşaqlarına, gənclərinə diqqət və qayğı xüsusi olmalıdır… Həyatımızda problemlər çoxdur. Hər bir vətəndaş, gənc ona qayğı göstərilməsini istəyir. Biz bunu etməliyik. Ancaq adlarını çəkdiyim təbəqələrdən olan gənclərə xüsusi qayğı, diqqət göstərilməlidir» [9].

Ümummilli lider Heydər Əliyev Azərbaycanda mənəvi cəhətdən sağlam, yüksək intellektə malik gənclərin yetişməsində ali məktəblərin rolunun yüksək olduğunu vurğulayaraq, bu təhsil mərhələsinin yeni çağdaş tələblər səviyyəsində inkişafını diqqət mərkəzində saxlayırdı. O, inamla bildirirdi ki, ali məktəb tələbələri olan gənclərin hamısı öz gələcək həyatlarını xalqımızın əsrlərdən-əsrlərə ötürülən milli-mənəvi dəyərləri əsasında quracaq və Azərbaycanın gələcəyi naminə layiqincə hazırlaşacaqlar [10]. Müstəqillik dövründə ali təhsil sistemi məzmun və keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. 1993-94-cü illərdə ikipilləli ali təhsilə keçid həyata keçirilmiş, dövlət ali məktəblərinin sayı 17-dən 2001-ci ildə 30-a çatmış, 18 qeyri-dövlət ali təhsil müəssisəsi fəaliyyətə başlamışdır.

Ölkəmizin təhsil sahəsində beynəlxalq əlaqələri xeyli genişlənmişdir. Dünyanın 40-a yaxın ölkəsində 160 ixtisas üzrə 3000-dən çox azərbaycanlı təhsil alırdı. Respublikanın ali məktəblərində isə 2000-dən artıq tələbə, magistr, aspirant təhsil alırdı. Azərbaycan ali məktəblərinin dünyanın bir sıra ali məktəbləri ilə sıx elmi-tədris əlaqələri yaranmış, onlar müxtəlif beynəlxalq təhsil proqramları və layihələrində yaxından iştirak etməyə başlamışdılar. 1993-cü ildən sonra təhsilin inkişafına ayrılan büdcə vəsaitinin həcmi də ilbəil artırdı və 2001-ci ildə bu sahəyə ayrılan vəsait dövlət büdcəsinin 23 faizini təşkil etmişdi [4].

Gənclərin, birinci növbədə, Azərbaycanın müstəqilliyi prinsiplərinə sadiqlik ruhunda tərbiyə edilməsi ulu öndər Heydər Əliyevin azərbaycançılıq ideologiyasının mühüm istiqamətini təşkil edirdi. O, vurğulayırdı: «Azərbaycanın dövlət müstəqilliyi daimidir, əbədidir, dönməzdir, sarsılmazdır. Hər bir gənc Azərbaycanın dövlət müstəqilliyini möhkəmləndirmək, inkişaf etdirmək, yaşatmaq üçün çalışmalıdır və öz xidmətlərini göstərməlidir» [13].

Ümummilli lider Heydər Əliyev tarixin bütün mərhələlərində gənclərin xüsusi xidmətlərinin olduğunu dönə-dönə xatırladırdı. 1990-cı ilin Yanvar hadisələrindən danışarkən, bu tarixi xalqımız üçün böyük faciə, onun tarixinin qara səhifəsi, eyni zamanda həm də tarixin qəhrəmanlıq səhifəsi, milli azadlıq uğrunda mübarizəsinin parlaq səhifəsi adlandırırdı. O, fəxrlə bildirirdi ki, xalqımız, xüsusən gənclər həmin dövrdə Ermənistanın Azərbaycana təcavüzü ilə əlaqədar olan ədalətsizliyə dözmədi və milli-azadlıq hislərini, istəklərini həyata keçirmək üçün meydanlara, küçələrə toplaşdılar, haqsızlığa, zülmə öz etirazlarını bildirdilər. O illər mübarizəyə qalxanların əksəriyyəti gənclər idi… o tankların altında qalanların, şəhid olanların əksəriyyəti məhz gənclər olublar. Ermənistanın Azərbaycana etdiyi təcavüzün qarşısının alınması üçün döyüşlərdə şəhid olanların əksəriyyəti gənclərimizdir. Vuruşanlar, döyüşənlər gənclərimizdir. Torpağımızı müdafiə edərkən şikəst, əlil olanların əksəriyyəti gənclərimizdir [7]. Məhz bütün bunları nəzərə alaraq, Ulu öndərimiz 26 avqust 1994-cü il tarixində “Azərbaycan torpaqlarını erməni təcavüzündən müdafiə edərkən əlil olmuş gənclərin sosial müdafiəsinin yaxşılaşdırılması haqqında” Fərman imzalamışdı [1]. Onu da qeyd etmək lazımdır ki, o, humanistlik prinsiplərinə əsaslanaraq, gənc məhbuslara, ordudan fərarilik etmiş insanlara qarşı dəfələrlə amnistiya elan etmiş, onlara ölkəmizin layiqli vətəndaşları olmaq üçün imkanlar yaratmışdır.

Dahi öndər Heydər Əliyev istedadlı və yaradıcı gənclərin üzə çıxarılması, onlara dövlət qayğısının artırılması, yaradıcılıq qabiliyyətlərinin inkişaf etdirilməsi üçün əlverişli mühitin yaradılmasını dövlət orqanları qarşısında bir vəzifə kimi qoymuşdu. Ulu öndər gənc istedadlara, gənc idmançılara dövlət qayğısının artırılması, onlara fərdi təqaüdlərin verilməsi haqqında bir sıra Sərəncam imzalamış, mütəmadi olaraq onlarla görüşlər keçirmiş, yaradıcılıqları ilə tanış olaraq öz dəyərli məsləhətlərini vermişdir.

Onun bu diqqəti və qayğısı sayəsində Azərbaycan gənclər təşkilatlarının nümayəndələri dünya, Avropa, regional səviyyəli müxtəlif səpkili tədbirlərdə iştirak etmək, gənclərlə iş sahəsində dünya təcrübəsini öyrənmək və ölkəmizdə tətbiq etmək imkanı əldə etdilər. Ayrı-ayrı milli gənclər təşkilatları müxtəlif ümumavropa qurumları – Avropa Şurasının Gənclər Direktorluğu, Avropa İttifaqının Gənclər İdarəsi ilə sıx əməkdaşlıq edir, təcrübə mübadiləsi aparır, birgə layihələr və proqramlar həyata keçirirlər. 2000-ci ilin aprel ayında Azərbaycan Gənclər Təşkilatlarının Milli Şurası Avropanın ən nüfuzlu qeyri-hökumət təşkilatı olan Avropa Gənclər Forumuna tamhüquqlu, 2002-ci ilin yanvarında isə BMT-nin İqtisadi və Sosial Şurasına müşahidəçi üzv seçilmişdir. Azərbaycan Skautlar Assosiasiyasının Beynəlxalq Skaut Hərəkatı Təşkilatına, Gənc Hüquqşünaslar Birliyinin Gənc Hüquqşünasların Beynəlxalq Assosiasiyasına, Demokratik Tələbə Gənclər Təşkilatının Beynəlxalq Demokratik Tələbə İttifaqına üzv qəbul edilmələri Azərbaycan reallığının, xalqımızın

haqq səsinin beynəlxalq ictimaiyyətə çatdırılmasında mühüm vasitə olub [19].

Ulu öndər Heydər Əliyevin yaratdığı təməl əsasında qurulmuş dövlət gənclər siyasəti 2003-cü ildən onun layiqli siyasi varisi, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən inkişaf etdirilərək ardıcıl surətdə davam etdirilir. Ötən müddət ərzində bu istiqamətdə atılmış addımlar, görülmüş işlər bunun əyani sübutudur. Bu baxımdan Azərbaycan Gənclər gününün 10 illiyi münasibətilə 2007-ci ilin ölkəmizdə “Gənclər ili” kimi qeyd edilməsi olduqca əlamətdar olmuşdur. Bundan başqa, dövlət başçısı İlham Əliyev tərəfindən təsdiq edilmiş “Azərbaycan Gəncliyi Dövlət Proqramı” (2005-2009-cu illər) və “Azərbaycan Gəncliyi (2011-2015-ci illərdə) Dövlət Proqramı”, “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyası, “2015–2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası”, “Xüsusi istedada malik olan uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramı (2006-2010-cu illər)”, “Azərbaycan Respublikasında texniki-peşə təhsilinin inkişafı üzrə Dövlət Proqramı (2007-2012-ci illər)”, “2005-2015-ci illərdə futbolun inkişafına dair Dövlət Proqramı”, “2007-2013-cü illərdə Azərbaycanda şahmatın inkişaf etdirilməsinə dair Dövlət Proqramı” və bir sıra digər mühüm sənədlərin qəbul olunması və uğurla həyata keçirilməsi ölkəmizdə gənclərin potensialının inkişaf etdirilməsi, onların faydalı məşğulluğunun təmin edilməsi istiqamətində böyük əhəmiyyət kəsb edir.

Həmçinin Dövlət başçısının gənclərin xaricdə təhsil almasına dəstək verən “2007–2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsil üzrə Dövlət Proqramı” bütün təbəqələrdən olan gənclərimizin xaricdə təhsilinə geniş imkanlar yaratmışdır. Statistik məlumata əsasən bu Proqram xətti ilə ümumi – 3558 nəfər: təhsil alanlar – 2289 nəfər, məzunlar – 1001 nəfər təşkil edir. Müsabiqə nəticəsində 176 nəfər magistratura, 25 nəfər doktorantura, 70 nəfər rezidentura təhsili almaq hüququ qazanmışdır. Ümumilikdə tələbələrin, əsasən, Türkiyə, Böyük Britaniya, Niderland Krallığı, Kanada, Almaniya və digər ingilisdilli ölkələrdə təhsil almağa üstünlük verdiyi müşahidə olunmuşdur.

Göründüyü kimi, bu gün ölkəmizdə böyük uğurla aparılan gənclər siyasəti dövlət siyasətinin mühüm tərkib hissəsini təşkil edir. Prezident İlham Əliyev ölkə əhalisinin 2,6 milyon nəfərini, yəni 27,1 faizini təşkil edən [3] gənclərin problemləri ilə daim maraqlanır, onlarla vaxtaşırı görüşür, gənclərin hərtərəfli inkişafı, ölkənin ictimai-siyasi, sosial-mədəni həyatında onların rolunun artırılmasına xüsusi diqqət yetirir, gənclərin dövlət işlərinə irəli çəkilməsinə xüsusi önəm verir, ölkənin idarə olunmasında gənclərin daha geniş cəlb olunmasına çalışır. Bununla əlaqədar olaraq o, öz fikirlərini bildirərək, gənclərin qarşısında duran vəzifələrə də toxunur: «Azərbaycanın gələcək inkişafında gənclərin rolu çox böyükdür. Çünki bilirsiniz ki, ölkə əhalisinin əksəriyyəti gənclərdir və onlar bütün sahələrdə çalışırlar. Bir daha demək istəyirəm ki, ilk istəyim, ilk tələbim ondan ibarətdir ki, gənclər yaxşı oxusunlar. Bunun üçün biz lazımi şərait yaratmağa çalışırıq. Ali məktəblərdə oxuyan gənclərin təqaüdləri də qaldırılıb, digər məsələlərdə öz həllini tapır. Təhsili bitirdikdən sonra, əlbəttə ki, gənclər Azərbaycanda iqtisadi və digər sahələrdə olan imkanlardan səmərəli şəkildə istifadə etməlidirlər. İndi bu imkanlar var və mən çox istəyirəm ki, gənclər bütün sahələrdə fəal iştirak etsinlər, cəmiyyətin fəal üzvləri olsunlar. Bu, ölkəmiz üçün, gələcək üçün lazımdır» [21].

Dövlətimizin məqsədyönlü şəkildə həyata keçirdiyi gənclər siyasəti çərçivəsində bu siyasəti həyata keçirən dövlət qurumlarının fəaliyyəti də daim təkmilləşdirilir, onların maddi-texniki bazası bu sahəyə ayrılan dövlət vəsaitlərinin həcmi ildən-ilə genişləndirilir. 2004-cü ildə Gənclər, İdman və Turizm Nazirliyinin strukturunda yenidən dəyişiklik edilməklə, Gənclər və İdman Nazirliyi yaradılmış və beləliklə də, gənclər siyasəti və idmanla bağlı vahid dövlət siyasətinin daha uğurla həyata keçirilməsi təmin edilmişdir.

Prezident İlham Əliyevin gənclərə dəstək yönündə verdiyi mühüm və əlamətdar qərarlardan biri də “Azərbaycan Respublikasının ali məktəb tələbələri üçün Prezident təqaüdünün təsis edilməsi haqqında” 2001-ci il 3 sentyabr tarixli Fərmanına uyğun olaraq, hər il tələbə qəbulu imtahanlarında ixtisas qrupları üzrə ən yüksək nəticələr göstərmiş və Azərbaycan Respublikasının ali məktəblərinə daxil olmuş tələbələrə Prezident təqaüdünün verilməsidir. Onu da xüsusilə qeyd etmək lazımdır ki, verildiyi 15 il ərzində bu təqaüdə layiq görülən tələbələr arasında Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının tələbələri ilk yerlərdə qərarlaşmışlar. Bundan başqa, dövlətimizin başçısı İlham Əliyev 2013-cü ildə ölkədə ilk dəfə “Gənclər üçün Prezident Mükafatı”nı təsis etmişdir ki, bununla da ölkəmizdə bilikli, peşəkar, istedadlı gənclərin dəstəklənməsi və gənclərin hərtərəfli inkişafı stimullaşdırıldı. Təsis olduğu ildən bu Mükafata 24 gənc layiq görülmüşdür.

Dövlətimizin başçısının təşəbbüsü və Sərəncamı ilə, gənclər siyasəti ilə bağlı elm, təhsil, mədəniyyət və digər sosial sahələrə yönələn fəaliyyətlərin stimullaşdırılması məqsədi ilə 19 dekabr 2011-ci il tarixdə Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondu yaradılmışdır. Bu Fond Azərbaycanın gələcəyi, həmçinin bu gələcəyin qarantı olan gənclər üçün açılmış tarixi bir səhifədir. Fəaliyyət göstərdiyi 5 il ərzində Fondun gördüyü işlərə nəzər salanda, doğrudan da, uğurlu və dinamik bir inkişafın gerçəkləşdiyinin şahidi oluruq. Belə ki, bu günə qədər 9 qrant müsabiqəsi üzrə Fonda gənclərdən və gənclər təşkilatları tərəfindən təqdim olunan layihələrin 3341-i maliyyələşdirilib və uğurlu nəticələr əldə olunub.

Son dövrlər Azərbaycan region, qitə və dünya miqyaslı forumlara, konfranslara, zirvə toplantılarına və

gənclərlə bağlı müxtəlif tədbirlərə ev sahibliyi etmişdir. Ötən illərdə Bakı şəhərində Gənc alimlərin beynəlxalq forumu, Kompüter oyunları üzrə VI dünya çempionatı keçirilmişdir. 2013-cü il noyabrın 21-də qitədəki gənclər təşkilatlarının ən böyük platforması olan Avropa Gənclər Forumunun Baş Assambleyasında nüfuzlu beynəlxalq münsiflər heyətinin qərarı ilə Gəncə şəhəri "2016-cı il Avropa gənclər paytaxtı" elan edilmişdir. Beləliklə, Gəncə 2016-cı il ərzində Avropa gənclərinin diqqət mərkəzinə çevrilmişdir [14]. Bu mühüm fakt Azərbaycanda həyata keçirilən gənclər siyasətinin artıq dünyada da öz təsdiqini tapmasının bariz nümunəsidir. Belə hadisə, şübhəsiz, Azərbaycanda yeni beynəlxalq layihələrin gerçəkləşməsinə öz töhfəsini verir və gənclərin imkanlarını genişləndirir.

2014-cü ilin oktyabrında Bakıda BMT Baş katibinin müraciəti ilə gənclər siyasəti üzrə Dünya ölkələrinin I Qlobal Forumu keçirilmişdir. Bu Forumda 165 ölkədən 700-dən artıq insan iştirak etmişdi. Bu dövlətlərin nümayəndələri Azərbaycana öz ekspertləri ilə gənclər siyasətinə qlobal yanaşmanı yaratmaq məqsədi ilə toplaşmışdılar. Prezident İlham Əliyev Forum iştirakçılarına ünvanladığı məktubda demişdir: "Biz ilk forumun Bakı şəhərində keçirilməsi barədə qərarı ölkəmizin gənclərlə iş sahəsindəki təcrübəsinə verilən yüksək qiymət kimi dəyərləndiririk. Hesab edirik ki, bu toplantı qloballaşmanın geniş vüsət aldığı müasir dövrdə gənclər siyasətinin prioritetlərinin dəqiqləşdirilməsi, problemlərin həlli yollarının araşdırılması, iştirakçı ölkələrin dövlət orqanları və qeyri-hökumət təşkilatları arasında təcrübə mübadiləsinin aparılması baxımından əhəmiyyətli olacaq, səmərəli müzakirələrlə yadda qalacaqdır" [22].

Dövlət başçımızın gənclərə göstərdiyi böyük qayğı öz ifadəsini, həmçinin onun gənclərlə keçirdiyi görüşlərində tapır. Buna misal olaraq, onun 29 yanvar 2016-cı il tarixində Azərbaycan Gənclərinin I Forumunun 20 illiyi münasibətilə ölkə gənclərinin bir qrupu ilə görüşünü göstərmək olar. Həmin görüşdə Prezident İlham Əliyev gənclərin ölkəmizin tarixi, əldə etdiyi nailiyyətləri, qarşıda duran məqsəd və vəzifələri ilə tanış edib, onların təkliflərini, problemlərini dinləyib. Bu zaman o, bildirib ki, «gənclər, əlbəttə ki, cəmiyyətimizin fəal üzvləri kimi ölkəmizin güclənməsində əsas rol oynayırlar. Mən gənclərin fəaliyyətini yüksək qiymətləndirirəm. Həm beynəlxalq müstəvidə, həm ölkə daxilində mən görürəm ki, bu gün böyüyən gənclər xalqa, dövlətə bağlıdırlar. Bu, çox önəmlidir. Gənclər gərək milli ruhda tərbiyə alsınlar. Biz milli dəyərlərimizi hər şeydən üstün tutmalıyıq» [23].

Bütövlükdə, bütün belə keçirilən tədbirlər gənclərə dövlət tərəfindən göstərilən qayğı və diqqətin bariz göstəricisidir. Məhz bu qayğı və diqqətin nəticəsidir ki, hazırda ölkədə 200-dən çox gənclər təşkilatı, əksər ali məktəblərdə tələbə-gənclər təşkilatları fəaliyyət göstərir. Bu gün ölkədə 34 "Gənclər Evi" mövcuddur. Bu evlərin fəaliyyət göstərməsi xüsusilə regionlarda yaşayan gənclərin maraq dairəsini genişləndirmək, asudə vaxtının mənalı təşkili üçün yeni imkanlar yaradır. Gənclərin məşğulluğu və sahibkarlığın inkişafı üçün biznes inkubatorların, texnoparkların yaradılması da dövlətimiz tərəfindən dəstəklənir.

Dövlətimizin həyata keçirdiyi məqsədyönlü gənclər siyasətinin tərkib hissəsi kimi gənclərin mənzil-məişət şəraitinin, onların sosial təminatı və həyat keyfiyyətinin yaxşılaşdırılması məsələləri xüsusi yer alır. Bu məsələlər Prezident İlham Əliyevin 6 aprel 2011-ci il tarixli Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramının yerinə yetirilməsi nəzərdə tutulan vəzifələrdə öz əksini tapmış, gənclər, gənc ailələr, alim və tədqiqatçılar üçün ipoteka kreditləri almaq imkanları yaradılmışdır. Hazırda bu kreditlərin verilməsi şərtləri sadələşdirilmiş, bundan əlavə olaraq Azərbaycan Respublikasının Prezidentinin 16 noyabr 2016-cı il tarixli Fərmanına əsasən artıq tikintisinə başlanılmış sosial evlərin gənc ailələrə, eləcə də gənc alim və tədqiqatçılara da ön sıralarda verilməsi nəzərdə tutulmuşdur.

Ölkəmizdə gənclər bütün həyatı boyu böyüməkdə olan nəslə xüsusi qayğı göstərmiş ümummilli liderimiz Heydər Əliyevin adını daşıyan Fond tərəfindən də himayə olunur. Fondun prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın təşəbbüsü ilə reallaşdırılan layihələr – "Diabetli uşaqlara ən yüksək qayğı", "Yeniləşən Azərbaycana yeni məktəb", "Uşaq evləri və internat məktəblərinin inkişafı" və s. bütün bu layihələr gənclərin maraq dairəsinə aid olan sahələrlə bağlıdır. Mehriban xanım Əliyeva özünün birbaşa, fəal müdaxiləsi sayəsində cəmiyyətin diqqətini, bir qayda olaraq, qayğıya, köməyə ehtiyac duyulan məsələlərə yönəldir, zəruri problemləri ictimailəşdirir və onların həllinə nail olur [18].

Şübhə yoxdur ki, ölkəmizdə gənclərə göstərilən qayğı, onların problemlərinin həllinə yönəldilən sərmayələr son nəticədə insan potensialı, intellektual sərvət şəklində təzahür edəcəkdir.

Bu gün Azərbaycan gəncliyinin beynəlxalq fəaliyyəti də diqqəti cəlb edir. Onlar Avropa və dünyanın otuzdan çox nüfuzlu beynəlxalq gənclər təşkilatında təmsil olunmaqla beynəlxalq gənclər hərəkatının fəal tərkib hissəsinə çevrilmişlər. Bununla əlaqədar Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın rəhbərlik etdiyi Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatının (RAGT) gördüyü işlərin təqdirəlayiq olduğunu xüsusi olaraq qeyd etməliyik. RAGT səhiyyəyə, sağlam həyat tərzinin təbliğinə böyük diqqət yetirir. Onun tərəfindən "Qanın milləti yoxdur" devizi altında keçirilən təmənnasız qanvermə, "Sağlam olduğunu yəqin et, xəstəliyə "yox" de" və s. aksiyalar buna nümunədir. Bu aksiyalar çərçivəsində keçirilən kampaniyaların təbliği ilə bağlı müxtəlif ali və ümumtəhsil

məktəblərində mühazirələr oxunur, təqdimatlar keçirilir, gənclərin zərərli vərdişlərin mənfi nəticələrindən xəbər tutmasına, sağlam həyat tərzi keçirməsinə köməklik göstərilir. Rusiyada Azərbaycanlı gənclərin birləşdiyi təşkilat funksiyasını yerinə yetirən və bir çox layihələrə imza atan RAGT-ın əsas fəaliyyət istiqamətlərindən, həmçinin onların Rusiyanın ictimai həyatındakı rolunu artırmaq, onların Rusiya cəmiyyətinə inteqrasiyasına, vətəndən uzaqlarda özlərini rahat hiss etmələrinə şərait yaratmaq təşkil edir. Bu təşkilatın istər Azərbaycanda, istər ölkədən kənarda keçirdiyi tədbirlər Azərbaycan həqiqətlərinin bütün dünyaya çatdırılmasında mühüm rol oynayır. Leyla Əliyevanın RAGT-ın Heydər Əliyev Fondu ilə birlikdə reallaşdırdığı ən başlıca aksiyalardan biri – 1992-ci ilin fevral ayında təcavüzkar Ermənistan dövləti tərəfindən törədilmiş XX əsrin ən dəhşətli faciəsi – Xocalı soyqırımı haqqında həqiqətləri dünya ictimaiyyətinə çatdırmaq məqsədi ilə keçirilən “Xocalıya Ədalət” beynəlxalq kampaniyasını xüsusilə qeyd etmək lazımdır.

Leyla Əliyevanın müəllifi olduğu 2011-ci ilin oktyabr ayından start götürmüş yeni kampaniya – Ətraf mühitin qorunması kampaniyası – IDEA-nın məqsədi ictimaiyyətin diqqətini mövcud ekoloji problemlərə cəlb etmək, ətraf mühiti, heyvanları müdafiə etmək, ağac əkməkdir. Bununla bağlı olaraq o, qeyd edir: «Bu kampaniyada ən başlıca məqam ondan ibarətdir ki, biz gördüyümüz hər işə kreativ yanaşma tapmağa çalışırıq. Buna görə həmin kampaniyada gənclərin iştirak etməsi zəruridir» [24].

Ölkəmizdə gənclər siyasətinin uğurlarına nəzər salarkən dövlətimiz tərəfindən idmanın inkişafına göstərilən böyük diqqət və qayğını vurğulamamaq mümkün deyil. 1997-ci ildə ulu öndərimiz Heydər Əliyev məktəbinin layiqli yetirməsi cənab İlham Əliyev Milli Olimpiya Komitəsinin Prezidenti seçildi və bundan sonra respublikanın idman həyatında yeni bir ab-hava yarandı. Bu seçimlə gənclər, xüsusən də idmançılar, sözün əsl mənasında, özlərinin böyük hamilərini qazandılar. Əgər bir vaxtlar Azərbaycan idmançıları müxtəlif səviyyəli beynəlxalq yarışlara qatılmaqdan sadəcə məhrum olurdularsa, indi onların ən mötəbər beynəlxalq turnirlərdə öz güclərini sınamalarına hər cür şərait yaradılır. Azərbaycan dövlətinin başçısı, Milli Olimpiya Komitəsinin Prezidenti İlham Əliyevin diqqət və qayğısı sayəsində ölkədə idmanın maddi-texniki bazası xeyli möhkəmləndirilmiş, Bakıda və bölgələrdə dünya standartlarına uyğun səviyyədə inşa edilmiş olimpiya kompleksləri, digər idman qurğuları gənclərin asudə vaxtlarını mənalı keçirmələrinə, peşəkar idmançıların öz ustalıqlarını artırmalarına təkan vermişdir.

Məhz bu qayğının nəticəsidir ki, idmançılarımız müxtəlif beynəlxalq yarışlarda böyük uğurlar əldə edirlər. Belə ki, Azərbaycan idmançıları Sidney-2000 Yay Olimpiya Oyunlarında 2 qızıl, 1 bürünc medal, Afina-2004 Yay Olimpiya Oyunlarında 1 qızıl, 4 bürünc, Pekin-2008 Yay Olimpiya Oyunlarında 1 qızıl, 2 gümüş, 4 bürünc, London-2012 Yay Olimpiya Oyunlarında 2 qızıl, 2 gümüş, 6 bürünc, Rio-2016 Yay Olimpiya Oyunlarında 1 qızıl, 7 gümüş, 10 bürünc medal qazanmışlar [20]. Ən böyük qürur mənbəyimiz kimi Bakı-2015 İlk Avropa Oyunlarını göstərmək olar ki, bu oyunlar zamanı gənc idmançılarımız böyük nailiyyətlər qazanaraq, 21 qızıl, 15 gümüş, 20 bürünc medallara layiq görülmüş və Azərbaycan iştirakçı ölkələr arasında 2-ci yerdə qərarlaşmış, on mindən artıq gəncimiz isə oyunların təşkili və keçirilməsində yaxından və fəal iştirak etmişlər. Bütövlükdə 2015-ci ildə gənc idmançılarımız tərəfindən müxtəlif beynəlxalq yarışlarda 823 medal qazanılmışdır [3].

Beləliklə, göründüyü kimi ümummilli lider Heydər Əliyevin müstəqil Azərbaycan dövlətinin gənclər siyasəti onun layiqli varisi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında yeni keyfiyyət səviyyəsində ardıcıl olaraq böyük nailiyyətlərlə davam etdirilir. Bu istiqamətdə görülən işlər Azərbaycan gənclərinə çox böyük ümidlər verir və onlar da öz növbəsində Heydər Əliyevin zəngin dövlətçilik irsini dərindən öyrənməklə, Azərbaycanın layiqli idarəçiləri olmaq üçün bilik, bacarıqlarını və dünyagörüşünü daim inkişaf etdirməli, ölkəmizdə gənclər üçün yaradılan geniş imkanlardan yetərincə istifadə edərək, Ulu öndərimizin siyasi kursunun ən layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ətrafında sıx birləşərək dövlətimizin dinamik, davamlı və innovativ inkişafına öz töhfəsini verməlidirlər.

**Ədəbiyyat:**

1. «Azərbaycan» qəzeti. 27 avqust 1994-cü il.
2. Azərbaycan gənclərinin II Forumu, 2-3 mart 1999-cu il. Bakı, «Azərbaycan», 2000, səh. 224.
3. «Azərbaycan gəncləri» Statistik məcmuə. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, 2016.
4. Azərbaycan Respublikası. 1991–2001. Bakı, XXI əsr Yeni nəşrlər evi, 2001, səh. 219.
5. Azərbaycanın gələcəyi etibarlı əllərdədir. Bakı, «Azərbaycan», 1999, səh. 6–7.
6. Əliyev H.Ə. Müstəqil Azərbaycan Respublikası gənclərinin I Forumunda çıxış. 2 fevral 1996-cı il.
7. Əliyev H.Ə. Müstəqil Azərbaycan Respublikası Gənclərinin I Forumunun 1 illiyi ilə əlaqədar olaraq Forum nümayəndələrinin bir qrupu ilə keçirilən görüşdə çıxış. 1 fevral 1997-ci il // Müstəqilliyimiz əbədidir, VIII kitab, səh. 382–395.
8. Əliyev H.Ə. Respublika Ali Sovetində gənclərin nümayəndələri ilə görüşdə çıxış. 22 sentyabr

1993-cü il,//Müstəqilliyimiz əbədidir, I kitab, Bakı, «Azərnəşr», 1997, səh. 164–182.
9. Əliyev H.Ə. Respublika Gənclərinin II Forumunda çıxış, 2-3 mart 1999-cu il // Müstəqilliyimiz əbədidir, XIX kitab, Bakı, «Azərnəşr», 1997, səh. 209–221.
10. Əliyev H.Ə. Respublikanın ali məktəblərinə daxil olmuş birinci kurs tələbələri ilə görüşdə nitq. 14 sentyabr 1994-cü il // Müstəqilliyimiz əbədidir, II kitab, Bakı, «Azərnəşr», 1997, səh. 215–222.
11. Əliyev İ.H. Gənclər Müstəqil Azərbaycanın gələcəyinin qurucularıdırlar // «Dirçəliş – XXI əsr», 1999, № 3, səh. 16–19.
12. Forumdan foruma. Bakı, «Azərbaycan», 2003, səh. 21, 3–10, 13–14
13. Gələcək gənclərindir. Bakı, «Azərbaycan», 2004, səh.143.
14. "Gəncə şəhərinin «2016-cı il Avropa gənclər paytaxtı» seçilməsi ilə əlaqədar tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 24 fevral 2016-cı il.
15. «Gənclər siyasəti haqqında» Azərbaycan Respublikasının Qanunu. 9 aprel 2002-ci il.
16. Gənclər və problemlər // «Azərbaycan ordusu» qəzeti, 5 mart 1996-cı il.
17. Hacıyev Rəhman. Azərbaycan gəncliyinin himayədarı (Heydər Əliyevin gənclər siyasəti (1993-2003-cü illər). Bakı, «Aspoliqraf», 2014, 192 səh.
18. "Xalq" qəzeti, 26 iyul 2009-cu il, səh. 8.
19. Гейдар Алиев и государственная молодежная политика / Х. Джафаров // Известия высших учебных заведений. Поволжский регион. Общественные науки. 2013. № 2 (26), с. 50–57.

**İnternet resursları**

20. http://www.noc-aze.org/az/games/
21. http://www.anl.az/down/meqale/respublika/2013/fevral/292446.htm
22. http://president.az/articles/13215
23 http://www.president.az/articles/17644
24. http://leyla-aliyeva.org/activity/111

**Açar sözlər:** *Azərbaycan Respublikası, gənclər, gənclər siyasəti, istiqamətlər, nailiyyətlər, innovativ inkişaf*
**Ключевые слова:** *Азербайджанская Республика, молодежь, молодежная политика, направления, достижения, инновационное развитие*
**Keywords:** *Republic of Azerbaijan, youth, youth policy, directions, achievements, innovative development*

**Егана Велиева**

***Академия Государственного Управления при Президенте Азербайджанской Республики, магистрант, II курс***

## УСПЕХИ МОЛОДЕЖНОЙ ПОЛИТИКИ АЗЕРБАЙДЖАНА В ГОДЫ НЕЗАВИСИМОСТИ

### РЕЗЮМЕ

В статье рассматривается государственная молодежная политика независимого Азербайджана, основы которой были заложены Общенациональным лидером Гейдаром Алиевым. Раскрываются основные аспекты многосторонней деятельности Гейдара Алиева, связанной с формированием единой молодежной политики в Азербайджане, вопросы обеспечения участия молодежи во всех сферах жизни общества. Также в статье приведены все принятые в этой сфере основные законы, программы и другие нормативно-правовые акты. Описывается молодежная политика, претворяемая в жизнь Президентом Ильхамом Алиевым, как одно из важных направлений государственной политики, являющейся логическим продолжением молодежной политики Гейдара Алиева. Приводятся достижения азербайджанской молодежи, в том числе азербайджанских спортсменов, на международной арене.

**Yegana Veliyeva**

***The Academy of Public Administration under the President of the Republic of Azerbaijan, Master's student, sophomore***

## SUCCESS OF YOUTH POLICY OF THE INDEPENDENT AZERBAIJAN

### SUMMARY

The article considers the state youth policy pursued by the national leader Heydar Aliyev during his term as a President. The author reveals the key aspects of multilateral activity of Heydar Aliyev related to youth issues, formation of common youth policy in Azerbaijan as well as ensuring youth participation in all spheres of society. Moreover, the article provides the key laws, programs and normative legal acts in this field. The youth policy carried out by the President Ilham Aliyev is described as one of the priorities of state policy and logical extension of Heydar Aliyev's youth policy. The achievements of Azerbaijani youth and sportsmen on the international area are also considered in the article.

## MÜNDƏRİCAT

**Azərbaycanın dövlət müstəqilliyinin bərpasının 25-ci ildönümünə həsr olunmuş rəsmi qəbulda İlham Əliyevin nitqi**.....7

**Əli Həsənov**
Azərbaycanın 25 illik müstəqillik tarixinin qısa xarakteristikası: keçilmiş yol, mövcud imkanlar və perspektivlər.....12

**Urxan Ələkbərov**
İnnovativ idarəetmə siyasəti Azərbaycan Respublikasının iqtisadi və sosial inkişafının təminatçısı kimi .....24

**İsmayıl Hacıyev**
Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi və mədəni inkişafı (1991–2016-cı illər) .....36

**Musa Qasımlı**
Prezident İlham Əliyev və Azərbaycan tarixinin ilkləri .....47

**Elman Nəsirov**
Azərbaycan Respublikasının beynəlxalq siyasəti və təhlükəsizlik məsələləri .....57

**Hikmət Babaoğlu**
Davamlı inkişafın insan resursları və informasiya təminatı: Azərbaycan təcrübəsi.....66

**Əli Nuriyev**
Müstəqil Azərbaycan iqtisadiyyatının çətin və şərəfli inkişaf yolu.....71

**Gülnarə Qurbanova**
Dövlət qulluqçularının yenidən hazırlanması və ixtisasının artırılması sisteminin təşkili və idarə edilməsi .....77

**Чингиз Исмаилов**
Региональная политика и реализация стратегии по устойчивому развитию Азербайджанской Республики .....83

**Etibar Nəcəfov**
İctimai inkişafda mədəniyyətin aparıcı rolu və multikulturalizm siyasəti.....88

**Xatirə Hüseynova, Elmira Zeynalova**
İnvestisiyalar regional inkişafın vacib amili kimi.....94

**Elçin Əhmədov**
Azərbaycan Respublikasının multikulturalizm siyasəti (1993–2016).....99

**Rəcəb Rəhimli**
Müasir Azərbaycanda dövlət qulluğunun innovativ inkişaf dinamikası.....107

**Fəxrəddin Nağıyev**
Müstəqillik illərində Azərbaycan Respublikasında konstitusiya islahatları .....113

**Firdovsiyyə Əhmədova**
Müasir Azərbaycan dövlətçiliyində tarixi varislik.....121

**Sevil Məmmədova**
Müstəqil Azərbaycan dövlətinin ekoloji siyasətinin məzmunu və reallaşması istiqamətləri .....125

**Sakit Əliyev**
Müstəqil Azərbaycanda demokratik və İslam dəyərləri vəhdətinin formalaşması ....................................139

**Ziyafət Həbibova**
İnsan potensialının milli kapitala transformasiyası müstəqil Azərbaycanda
dövlət idarəçiliyinin prioriteti kimi ....................................................................................................145

**İbrahimxəlil İbrahimov**
Heydər Əliyevin Aqrar islahatlarının nailiyyətləri .......................................................................150

**Murtəza Həsənov**
Azərbaycanda bələdiyyə idarəetməsi sistemi: uğurlar və inkişaf perspektivləri .......................................159

**Bayram Haqverdiyev**
Dövlət qulluğunun səmərəliliyinin sosial-psixoloji əsasları .......................................................168

**Məmməd Məmmədov**
Azərbaycanda ali peşə təhsilinin vəziyyəti və inkişaf perspektivləri ..........................................172

**İlhamə Ömərova**
Azərbaycan Respublikasında milli təhlükəsizlik sisteminin qurulması prosesi
Rusiya Federasiyası ilə münasibətlər kontekstində .....................................................................178

**Aysan Məmmədova**
Azərbaycanda qadın siyasi liderliyinin inkişafı ..............................................................................185

**Yeganə Vəliyeva**
Müstəqil Azərbaycan dövlətinin gənclər siyasətinin uğurları.......................................................189

# Dövlət idarəçiliyi:
## nəzəriyyə və təcrübə

*Elmi-nəzəri jurnal*

**2016, №4(56)**

Azərbaycan Respublikasının Prezidentinin fəaliyyətini
əks etdirən bölməni *siyasi elmlər doktoru, professor E.Nəsirov,*
*siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent E.Əhmədov,*
*psixologiya üzrə fəlsəfə doktoru, dosent B.Haqverdiyev*
və müəllim *F.Şammədov*
AzərTAc-ın materialları əsasında hazırlamışlar.

Redaktoru ***Gülnarə Maqsudova***
Kompüter dizaynerləri ***Səbinə Məmmədova, Aqil Əmrahov***
Korrektorları ***Natəvan İsmayılova, Ülkər Tağıyeva***

*Lisenziya: AB № 022732,*
*Qeydiyyat № b 532, 08.04.2003-cü il.*
*Redaksiyanın ünvanı:*
*Bakı, Az-1001, Lermontov küç., 74*
*(Dövlət İdarəçilik Akademiyası).*
E-mail: publishing@dia.org.az
*Telefonlar: 492-65-29; 437-19-75; 497-71-86*
*Fax: 492-65-15*

"Təhsil Nəşriyyat-Poliqrafiya" müəssisəsinin
mətbəəsində çap olunmuşdur.
Sifariş 137. Tiraj 1000.

# Journal of Public Administration: Theory and Practice

***Scientific and theoretical journal***

**2016, №4(56)**

The section covering activities the President of the Republic of Azerbaijan is prepared on the basis of AzərTAC materials and is compiled by E.Nasirov, Dr. of political sciences, professor; E.Ahmadov, Ph.D. in political sciences, Assistant Professor; Dr. B. Hagverdiyev, Ph.D. in Psychology, Assistant Professor and F.Shammedov, lecturer, all from Academy of Public Administration.

Editor: ***Gulnara Magsudova***
Computer designers: ***Sabina Mammadova, Agil Amrahov***
Correctors: ***Natavan Ismayılova, Ulkar Taghıyeva***

*License: AB No. 022732*
*Registration No. b 532, 08.04.2003*
*Address of Publisher:*
*Baku, Az-1001, Lermontov st., 74*
*(Academy of Public Administration)*
*E-mail: publishing@dia.org.az*
*Phone: 492-65-29; 437-19-75; 497-71-86*
*Fax: 492-65-15*

Printed at the printing-house of the
"Tahsil" Publishing-Polygraphy
Order 137. Number of copies printed 1000.